AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**ADPU-100**

# MA G İ S T R A N T

dövri-elmi jurnal

**ISSN 2788-696**

**2021 №2(2)**

**B A K I**

**Baş redaktor:**
**Asəf D.Zamanov**
fizika-riyaziyyat elmləri doktoru, professor
ADPU-nun elm və innovasiyalar üzrə prorektoru
(ADPU, Bakı, Azərbaycan)

**Redaksiya heyəti:**

**Arif Ş.Şəkərəliyev**
iqtisad elmlər doktoru, professor
(ADİU, Bakı, Azərbaycan)
**Bəhlul İ.Ağayev**
biologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Bəhram H.Əliyev**
riyaziyyat elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Buludxan Ə.Xəlilov**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əbülfət Q.Pələngov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Əhməd Ş.Abdinov**
fizika-riyaziyyat elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Ələkbər Ə.Əliyev**
texnika elmləri doktoru, professor
(BDU, Azərbaycan)
**Əli Z.Zalov**
kimya üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**Əmir İ.Əliyev**
hüquq üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Fərrux A.Rüstəmov**
pedaqoji elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Gülnaz A.Abdullazadə**
fəlsəfə elmlər doktoru, professor
(BMA, Azərbaycan)
**Hikmət Ə.Əlizadə**
pedaqoji elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**İsa N.İsmayılov**
pedaqogika üzrə elmlər doktoru, dosent
(ADPU, Bakı, Azərbaycan)
**İlham Ə.Şahmuradov**
biologiya elmləri doktoru, professor
(AMEA, Bakı, Azərbaycan)

**Mahirə N.Hüseynova**
filologiya elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Məhəmməd A.Abduyev**
Coğrafiya üzrə elmlər doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Mübariz M.Əmirov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Müsavər A.Musayev**
fizika üzrə elmlər doktoru, professor
(ADNSU, Bakı, Azərbaycan)
**Müseyib İ.İlyasov**
pedaqogika üzrə elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Namiq Q.Şıxalıyev**
kimya üzrə elmlər doktoru, professor
(BDU, Azərbaycan)
**Nazim Ə.İmamverdiyev**
geologiya-mineralogiya üzrə elmlər doktoru, professor, (BDU, Azərbaycan)
**Oqtay B.Sultanov**
tarix elmləri doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Ramiz İ.Əliyev**
psixologiya elmlər doktoru, professor
(ADPU, Bakı, Azərbaycan)
**Sevinc B.Quliyeva**
filologiya üzrə fəlsəfə doktoru
(ADPU, Bakı, Azərbaycan)
**Surxay C.Əkbərov**
texnika elmləri doktoru, professor
(YTU, İstanbul, Türkiyə)

**Məsul katib:**
***Natəvan F.Həsənova***
***(ADPU, Bakı, Azərbaycan)***

**Təsisçi:** Azərbaycan Dövlət Pedaqoji Universiteti –ADPU (Bakı, Azərbaycan)

**Dövlət qeydiyyatı:**
«MAGİSTRANT» dövri-elmi jurnalı 29.01.2021-ci ildə Azərbaycan *Respublikası* Ədliyyə Nazirliyində Mətbu nəşrlərin dövlət qeydiyyatı reyestrinə daxil edimişdir.
Qeydiyyat: № 4328

**ADPU-**Azərbaycan Dövlət Pedaqoji Universiteti
**BDU-**Bakı Dövlət Universiteti
**ADNSU-**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**BMA-**Bakı Musiqi Akademiyası
**ADİU**-Azərbaycan Dövlət iqtisad Universiteti
**YTU-**Yıldız Teknik Universiteti. İstanbul, Türkiyə

# MÜNDƏRİCAT


**TƏBİƏT ELMLƏRİ**

**V.Ə.Mirzəyev**
*Sabirabad inzibati rayonunun tarixi-coğrafi və ekocoğrafi səciyyəsi*............................6

**M.K.Hacıyeva**
*Turizmdə istehlakçı məfhumu* ........................................................................................12

**Ü.İ.Ələkbərova**
*Pedaqoji bioetikanın tədrisində fəndaxili və fənlərarası inteqrasiyanın tətbiqinin mahiyyəti* ....................................................................................................................18

**Ş.M.Seyidova**
*Biologiya üzrə ekskursiyalarda şagirdlərə tədqiqatçılıq bacarıqlarının aşılanması* ...23

**M.F.Ramazanova**
*Ümumtəhsil məktəblərinin VIII sinfində təlim texnologiyalarının köməyi ilə tibbi-gigiyenik bacarıqların aşılanması* ....................................................................29

**L.M.Əsədova**
*Ümumtəhsil məktəblərində şagirdlərdə bioetik davranışların formalaşdırılması*........33

**S.T.İbadova**
*Ümumtəhsil məktəblərində biologiyanın (IX-XI siniflərdə) sxem və cədvəllərlə tədrisi metodikası*.................................................................................................................39

**T.B.Binnətzadə**
*Pedaqoji valeologiyanin tədrisində fənlərarası inteqrasiyanın tətbiqi* ........................44

**A.M.Həmidli**
*Ümumtəhsil məktəblərində biologiyanın tədrisində şagirdlərə tibbi-gigiyenik davranışların aşılanması*.........................................................................................50

**A.C.Abdullayeva**
*Biologiyanin tədrisində İKT-nin köməyi ilə fənlərüstü əlaqənin təşkili* .......................54

**Ə.T.Hüseynzadə**
*Biologiyanın tədrisində şagirdlərin bilik və bacarıqlarının məktəbdaxili qiymətləndirilməsi* ......................................................................................................59

**S.Q.Allahyarova**
*Ümumitəhsil məktəblərinin VI sinfində zooloji biliklərin mənimsənilməsində yaradıcı təfəkkürün inkişaf etdirilməsi* .....................................................................64

**D.F.Ağamalıyeva**
*Ümumtəhsil məktəblərinin 7-ci sinfində biologiyanın tədrisində bioetik davranışların aşılanması imkanları*.......................................................................68

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**Z.F.Abdullayeva**
*İdarəetmədə məqsəd qoyuluşu və onun həyata keçirdiklərinin metodologiyası*...........74

**C.M.Rəhmətullayev**
*Etika və hüquq anlayışlarının qarşılıqlı əlaqəsinin analizi*..........................................80

**A.R.Nəsirova**
*Dramatik əsərlərin tədrisində janr xüsusiyyətlərinin nəzərə alınması*.........................88

**B.Əlibabaoğlu**
*"Bədii əsərin məzmununun öyrədilməsi" anlayışının mahiyyəti haqqında*..................94
**G.G.Umarova**
*Rusiyanın cənubi qafqazdakı enerji siyasəti* ...........................................................99
**L.Z.Həsənova**
*Orta məktəb dərsliklərində xalq ədəbiyyatı örnəkləri və onun ümumi problematikası*..........................................................................................................105
**N.M.İsmaylov, N.Quluzadə**
*Abşeron yarımadasının ərazisinin ekoloji karkası və onun bəzi xüsusiyyətləri*..........107
**V.F.Səlimova**
*Beynəlxalq qanunvericilikdə miqrant hüquqları və onların tətbiqində sosial işçinin rolu*.....117
**N.N.Məmmədova**
*Feil və köməkçi nitq hissələrinin tədrisində fəal təlim metodlarindan səmərəli istifadə*.....123
**Z.E.Axundova**
*Etnik münaqişələrin tənzimlənməsində birləşmiş millətlər təşkilatinin rolu*.............129
**Ü.R.Əlili**
*Miqrasiya fenomeninin köçkünlərin psixologiyasına mənfi təsirləri*.........................139
**M.Ə.Ağammədov**
*Beynəlxalq təşkilatların qaçqın və miqrant uşaqların problemlərinin həll edilməsi üzrə fəaliyyəti*...............................................................................................144
**A.R.Nifdiyeva**
*Qloballaşma və böyük dövlət anlayışları* ................................................................151

**PEDAQOJİ-PSİXOLOJİ ELMLƏR**
**N.E.Hüseynova**
*Ümumtəhsil məktəblərində reproduktiv sağlamlığa dair mövzuların qeyri-standart dərslərdə öyrədilməsi* ...........................................................................159
**A.Məmmədova**
*Xarici dil dərslərində oxu bacarıqlarının tədrisi zamanı istifadə olunan metodlar və onların təhlili*...........................................................................................165
**F.F.Əliyeva**
*İngilis dilinin tədrisində motivasiyanın rolu* ............................................................173
**S.H.Əsədova**
*İngilis dili dərslərində şifahi nitqin inkişaf metodları*...............................................180
**M.E.Xəlilova**
*Məktəbi idarəetmənin müasir modelləri*...................................................................185
**G.A.Abdullayeva**
*Ümumtəhsil məktəblərinin keyfiyyətinin idarə olunmasında planlaşdırmanın rolu*...190
**N.Ş.Məmmədzadə**
*Təhsildə menecment işinə pedaqoji aspektden yanaşmanın məktəbin idarəsində rolu*.........................................................................................................198
**X.K.Qasımova**
*Xarici dilin tədrisində müxtəlif vərdiş və bacarıqların mənimsənilməsi*...................204

**G.T.Kərimova**
*İngilis dilinin tədrisində mediadan istifadə*...............................................................208
**F.A.İmaməliyeva**
*Sinifdə danışığın öyrədilməsi*.............................................................................213
**A.E.Haqverdiyeva**
*Müəllimin nitq mədəniyyəti* ...............................................................................217
**F.A.Ağayeva**
*Magistr hazırlığına müasir yanaşma*.......................................................................224
**H.N.Məmmədova**
*Xarici dilin tədrisində kommunikativ yanaşmanın rolu*..............................................229
**A.H.Xanverdiyeva**
*Əbu Əli İbn Sinanın pedaqoji fikirləri*....................................................................234
**A.Ü.Hüseynzadə**
*Əli bəy Hüseynzadənin həyatı və ictimai-pedaqoji fəaliyyəti*.....................................240
**İ.K.Babazadə**
*Şəxsiyyətlərarası ünsiyyətin mahiyyəti və spesifik xüsusiyyətləri*..............................246
**Ç.N.Mirzəyeva**
*Təhsili idarəetmə modelləri*.................................................................................252
**Z.M.Umudova**
*Tədris prosesində motivasiyanın əhəmiyyəti və tədris prosesində müəllimin, şagirdlərin, müəllim-şagird münasibətlərinin rolu* .................................258
**L.V.Quliyeva**
*"Stem" dərslərində hazırlanan layihələrin şagirdlərin formalaşdırılmasında əhəmiyyəti* ........................................................................264
**F.Ə.Əsgərzadə**
*Təhsilin modernləşdirilməsi kontekstində müəllimin peşəkar səriştəsinin inkişafına konseptual yanaşmalar* ..........................................................................270
**İ.Z.Orucova**
*Lirik əsərlərin məzmununun öyrədilməsi* ..................................................................276
**L.Sadıqova**
*İbtidai sinif şagirdləri ilə aparılan vətəndaşlıq tərbiyəsi işinin mövcud vəziyyəti*.....284
**Yazı qaydaları............................................................................................289**

# SABİRABAD İNZİBATİ RAYONUNUN TARİXİ-COĞRAFİ VƏ EKOCOĞRAFİ SƏCİYYƏSİ

**V.Ə.Mirzəyev**
**Lənkəran Dövlət Universiteti,**
*vezir.mirzeyev.92@mail.ru*

***Xülasə***

*Məqalədə Sabirabad inzibati rayonunun tarixi-coğrafi və ekocoğrafi səciyyəsi araşdırılır, iqlim ehtiyyatları, rayon ərazisində yayılmış torpaq-bitki örtüyü və bununla əlaqəli flora-fauna ehtiyyatlarının yayılması və mövcud vəziyyəti göstərilir. Həmçinin ekocoğrafi şəraitə uyğun olaraq rayonda təsərrüfatın səciyyəvi sahələri haqqında məlumat verilir.*

## *ИСТОРИКО-ГЕОГРАФИЧЕСКАЯ И ЭКО-ГЕОГРАФИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА САБИРАБАДСКОГО АДМИНИСТРАТИВНОГО РАЙОНА*

***Резюме***

*В статье исследуются историко-географические и эколого-географические особенности административного района Сабирабад, показаны климатические ресурсы, распределение почв и растительности в регионе и связанные с ними ресурсы флоры и фауны, а также текущая ситуация. Также в соответствии с эколого-географическими условиями предоставляется информация о конкретных сферах экономики региона.*

## *HISTORICAL-GEOGRAPHICAL AND ECO-GEOGRAPHICAL CHARACTERISTICS OF SABIRABAD ADMINISTRATIVE DISTRICT*

***Summary***

*The article examines the historical-geographical and eco-geographical features of the Sabirabad administrative region, shows the climatic resources, the distribution of soil and vegetation in the region and the associated flora and fauna resources and the current situation. Also, in accordance with the eco-geographical conditions, information is provided on the specific areas of the economy in the region.*

***Açar sözlər:*** *Sabirabad, coğrafi mövqe, bioloji müxtəliflik, ekosistem*
***Ключевые слова:*** *Сабирабад, географическое положение, биоразнообразие, экосистема*
***Key words:*** *Sabirabad, geographical location, biodiversity, ecosystem*

***Tarixi və coğrafi mövqeyi.*** Sabirabad rayonu Kür və Araz çayının qovuşduğu yerdə yerləşir. Sahəsi 1469,6 $km^2$-dir. Rayon Bakı şəhərindən 170 km mə-

safədə, dəniz səviyyəsindən 28 m aşağıda yerləşir. Rayon şimaldan Kürdəmir rayonu ilə 30 km, şimal-şərqdən Şamaxı rayonu ilə 5 km, şərqdən Şirvan şəhəri ilə 24 km, cənub-şərqdən Salyan rayonu ilə 48 km, cənubdan Biləsuvar rayonu ilə 18 km, qərbdən Saatlı rayonu ilə 136 km və İmişli rayonu ilə 8 km məsafədə qonşudur. Şimaldan cənuba 66 km, qərbdən şərqə 24 km məsafədə uzamr. [1]

Eneolit dövrünə aid arxeoloji tapıntılar bu yerlərdə yaşayışın çox qədimlərə aid olduğum göstərir. Suqovuşan, Surra, Qalaqayın, Cavad, Şəhərgah xarabalıqları, Surra, Qaratəpə, Qaraqaşlı, Cavad, Bulaqlı, Kürkəndi nekropolları, Kovlar yaxınlığında Ağ-qoyun qışlaq yeri, Sığn yolu üzərində Təpəqışlaq yeri (Qalacıq), Quruzma kəndi yaxınlığında Uttəpə, Qaratəpə yaxınlığında Binə, Yastı qobu yaşayış yerləri, Kürkəndidə yurd və oba yerləri, Baba-Samid piri müxtəlif tarixi dövrlərə aiddir.

Muğanın şimal hissəsində Kürlə Arazın qovuşduğu Suqovuşanda aparılmış arxeoloji tədqiqatlar bölgənin e.ə. VI minillikdən başlayaraq tarixi keçmişini, məişət və təsərrüfatını işıqlandırmağa imkan verir. Sabirabad rayonunun ərazisi tarixən Muğan düzünə daxildir. Muğan düzü qədimdə Midiyanın, e.ə. IV əsrdən Atropatenanın əyaləti idi. Albaniya dövləti Kürün Arazla birləşdiyi yerdən Xəzərə qədər olan hissəsindən cənubdakı ərazini, o cümlədən indiki Sabirabad rayonunun ərazisini əhatə edirdi.



Rayonun ən iri kəndi olan Cavad tarixi şəhər olmuş və mənbələrdə adı XVI əsrdən çəkilir. Cavad XVIII əsrin ortalarında Cavad xanlığının mərkəzi ol-

muşdur. 1768-ci ildə Cavad Quba xanlığına tabe edilmişdir. Azərbaycanın Rusiyanm tərkibinə qatılmasından sonra çarizmin köçürmə siyasəti ilə əlaqədar Cavada xeyli rus əhalisi köçürülmüşdür. 1888-ci ildə rayon Petropavlovka adlandırılmışdır. 1931-ci ilin oktyabr ayının 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fərmanı ilə Petropavlovkaya Azərbaycanın böyük şairi, klassik ədəbiyyatımızda ictimai satiranm banisi Mirzə Ələkbər Sabirin adı verilmişdir. 1959-cu ildən Sabirabad şəhər statusu almışdır.

Rayonun ərazisinin bir hissəsi Kür çayının sağ sahilində yerləşən Muğan düzündə, bir hissəsi isə Kür çayınm sol sahilində Şirvan düzündə, bir hissəsi də Araz çayının sol sahilində Mil düzündə yerləşir.

***Relyefi, geoloji quruluşu və faydalı qazıntıları. İqlimi.*** Sabirabad rayonu tamamən Kür-Araz ovalığında yerləşdiyi üçün düzənliklərdən ibarətdir. Rayonda yerli əhəmiyyətli qum və gil faydalı qazıntı yataqları vardır. Rayon ərazisində IV dövrün allüvial (Kür çayının gətirmələri) çöküntülər yayılmışdır.

Sabirabad rayonunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən 16 m aşağıdadır. Antropogen çöküntüləri yayılmışdır. Rayonda yerli əhəmiyyətli qum və gil faydalı qazıntı yataqları vardır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda 1,8°C, iyulda 26,5°C-dir. İllik yağıntı təqribən 300 mm-dir.

Əsas çayı rayon ərazisindən keçən Kürdür.Araz çayıyla şəhər yaxınlığında Suqovuşan adlanan yerdə qovuşur. Sarısu göllərinin bir hissəsi Sabirabad rayonu ərazisindədir. Baş Şirvan kollektoru rayonun şimal hissəsindən keçir. Küryanı kollektorlar Sabirabad rayonu ərazisindən başlanır. Əsasən boz-çəmən torpaqları yayılmışdır. Yarımsəhra bitkiləri üstünlük təşkil edir. Kür çayı sahilində tuqay meşələri mövcuddur.

Heyvanları: çöldonuzu, bataqlıq qunduzu, qumsiçanı və s. Su və bataqlıq quşlarının qışlaqları var. [2, s. 147]

Rayon üçün əsasən cənub-şərq (28%) və şərq (19%) külələri xarakterikdir.

Sabirabad rayonunun əsas iqlim göstəriciləri Sabirabad meteoroloji stansiyasının məlumatlarına əsasən təhlil edilir ***(cədvəl 1.).***

**Daxili suları.** Ərazidə qrunt suları üstünliik təşkil edir. Rayon ərazisində Suqovuşan kəndində Azərbaycanın ən böyük çayları Kür və Araz çayları qovuşur. Əsas çayı Kürdür. Sarısu gölünün bir hissəsi Sabirabad rayonundadır. Baş Şirvan kollektoru rayonun şimal hissəsindən keçir. Küryam kollektorlar Sabirabad rayonu ərazisindən başlanır.

| S/N | Elementin adı | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | **illik** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Havanın temperaturu, C° a) orta | 1.8 | 3.7 | 7 | 12.6 | 19.3 | 23.9 | 26.5 | 25.8 | 21.4 | 15.9 | 9.2 | 4.3 | **14.2** |
| | b) mütləq maksimum | 21 | 26 | 31 | 33 | 37 | 40 | 42 | 42 | 39 | 34 | 27 | 25 | **42** |
| | c) mütləq minimum | -23 | -19 | -6 | -1 | 3 | 6 | 11 | 11 | 8 | -4 | -13 | -21 | **-23** |
| | ç) orta minimum | - | - | 2.5 | 7.2 | 13. | 17. | 20. | 19.3 | 16 | 10. | 5.1 | 0.3 | **9.1** |
| 2 | Yağıntılar, mm | 27 | 31 | 36 | 29 | 23 | 20 | 11 | 13 | 24 | 36 | 33 | 26 | **309** |
| 3 | Küləyin sürəti, m/s | 1.8 | 2.1 | 2.5 | 2.6 | 2.7 | 2.6 | 2.2 | 2 | 1.9 | 1.8 | 1.6 | 1.6 | **2.1** |
| 4 | Havanın mütləq rütubəti, mb | 6.2 | 6.4 | 7.5 | 10.3 | 14 | 16.4 | 19.2 | 19.4 | 17 | 13.5 | 9.7 | 6.9 | **12.2** |
| 5 | Havanın nisbi rütubəti, % | 84 | 80 | 78 | 71 | 64 | 57 | 56 | 60 | 68 | 77 | 82 | 84 | **72** |
| 6 | Rütubət çatışmamazlığı, mb | 1.4 | 1.9 | 2.7 | 5.2 | 9.7 | 15.3 | 17.8 | 16.1 | 9.9 | 5 | 2.4 | 1.5 | **7.4** |
| 7 | Su üzərindən buxarlanma, mm | 16 | 24 | 32 | 59 | 102 | 148 | 168 | 149 | 99 | 55 | 30 | 20 | **902** |

***Cədvəl 1.*** *Sabirabad meteoroloji stansiyasınm iqlim elementlərinin orta aylıq və illik qiymətləri*

Rayon ərazisində səhra və yarımsəhra bitkiləri, yovşanlı-efemerli, yovşanlı-şorəngəli bitkilərə rast gəlinir. Sabirabad rayonun 3287 ha meşə fondu torpaqları vardır. Bulduq, Həşimxanlı. Kürkəndi, Ətcələr, Axtaçı, Qaratoğay, Güdəcühür, Şıxsalahlı, Salmanlı, Polatdoğay kəndlərindək: meşəliklərdə qovaq, söyüd, tut, iydə, ağcaqayın, şeytan ağacı, göyrük ağacları üstünlük təşkk edir. Su və bataqlıq quşlarmın qışlaqları var.

***Landşaftlar və bioloji müxtəliflik.*** Əsasən, boz-çəmən torpaqlar yayılmışdır. Ərazidə yarımsəhra bitkiliyi üstünlük təşkil edir. Ayrı-ayrı sahələrdə səhra bitkiliyi də mövcuddur. Səhra bitkiliyində şoran torpaqlarda rast gəlinir. Şoran yarımsəhralarında çox vaxt halofit kolcuqlara: qara soğan, xəzər sarıbaşı rast gəlinir. Onlar yumru təpəciklər əmələ gətirir. Burada, həmçinin, Xəzər şahsevdisi, kolvari dəvəayağı, çərən, həmçinin birillik lətli şorangələr — duzlaq coğanı və s. bitkilərə rast gəlinir. [3]


*İtikənarlı süsən*


*Xəzər səhləbi*


*Xəzər sarıbaşı*


*Qara soğan*


*Dəvəayağı*


*Çəmənlik üçyarpaq yoncası*

Regionda yarımsəhra qruplaşmalarında yovşanlı, şorangəli efemerli və az sahədə kəvər yarımsəhraları geniş yayılmışdır. Yovşan yarımsəhrasının geniş sahələri pambıq və taxıl bitkiləri altında istifadə olunur.

Efemer qruplaşmaları üçün soğanaqlı qırtıc daha xarakterikdir. Çəmən yarımsəhrasının tərkibinə taxıl otları — yabanı arpa, bülbülotu üstünlük təşkil edir. Sabirabad rayonunda Kür və Araz çayları boyu tuqay meşələrində ağyarpaq qovaq, qaragac, söyüd, yulğun və iydə üstünlük təşkil edir.


*Ağcaqovaq*


*Qarağac*


*Söyüd*


*Yulğun*


*İydə*

Ərazi, əsasən, su-bataqlıq quşları ilə zəngindir. Burada boz qaz, ağqalın qaz, ağqaş qaz, qırmızıdöş kazarka, harayçı ququ quşu, fısıldayan ququ quşu, anqut və s. quşlara rast gəlinir. Burada məməlilərdən canavar, adi tülkü və s. canlılar yaşayır. [4] [5]


*Böyük dimdik bozca*


*Qırmızıdöş qaz*


*Ağqalınqaz*


*Harayçı qu quşu*


*Bozqaz*


*Fısıldayan qu quşu*


*Anqut*


*Canavar*


*Adi tülkü*

***Təsərrüfatı.*** Sabirabad rayonu respublikanın iri kənd təsərrüfatı rayonlarından biridir. Yaxın keçmişdə bu rayon pambıq və taxıl istehsalında qazandığı uğurlara gorə respublıkada şöhrəti qazanmışdır.

Ümumi ərazinin 100 477 hektarı, yaxud 68 %-i kənd təsərrüfatına yararlı torpaq sahəsidir. Ərazinin 67233 hektarı suvarılır, 5675 hektar əkin yerindən səmərəli istifadə təşkil olunmuşdur.

Rayon üzrə 41863 hektar örüş sahəsi vardır ki, ondan da 12828 hektarı qış otlağıdır. [1]

Sabirabad rayonunun iqlimi və torpaq şəraiti bu ərazilərdə demək olar ki, bütün növ kənd təsərrüfatı məhsulları yetişdirməyə imkan verir. Respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayan rayonda son dövrlərdə bostan-tərəvəz məhsullurının istehsalına daha geniş yer ayrılır. 2013-cü ildə yenidən bol əkinçilik məhsulları istehsalına nail olunmuşdur.

Kənd təsərrüfatı əkinlərini yüksək reproduksiyalı toxumlarla təmin etmək üçün toxumçuluq tsərrüfatları yaradılmışdır. Maldarlığın inkişafı, mövcud malın cins tərkibinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlərə görə rayon respublikada ilk yerlərdə dayanır. Son dövrlərdə arıçılığın inkişafına da diqqət artmışdır.

Sabirabad iri pambıqçılıq, taxılçılıq, heyvandarlıq və bostançılıq rayonudur. Rayondakı yerli əhəmiyyətli qum, gil faydalı qazıntılarından tikintidə istifadə edilir. Bölgədə otlaq və su ehtiyatlarının olması nəticəsində qədim zamanlardan maldarlıq və heyvandarlığın inkişafı üçün təbii imkanlar mövcud olmuşdur. Məhz həmin imkanlar Muğan ərazisində otlaq əkinçi tayfalarının məskunlaşmasına şərait yaratmışdır. Muğan torpağının bərəkəti artdıqca bu yerlərə xarici işğalçıların qalaya çevirərək bu yerə Qalaqayın (möhkəm qala) adını vermişdir.

***Ədəbiyyat***

*1. http://www.sabirabad-ih.gov.az/page/13.html*

*2. Azərbaycan Respublikasının İnzibati Ərazi Vahidləri. AR PA İİ Kitabxanası.*

*3. Biomüxtəliflik və bitkilərin introduksiyası. AMEA Nəbatət Bağının 75 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransm materialları. 2 cilddə. Bakı: CBS, 2009.*

*4. Tuayev D. Azərbaycan quşlarının kataloqu. Bakı: Şur, 1996*

*5. Musayev M.Ə., Hacıyev D.V., Qasımov Ə.Q. və b. Azərbaycanın heyvanlar aləmi, 3 cilddə. Bakı: Elm, 2000-2004.*

# TURİZMDƏ İSTEHLAKÇI MƏFHUMU

**M.K.Hacıyeva**
**Bakı Dövlət Universiteti**
*mehriban89@mail.ru*

***Xülasə***

İstehlakçı öz varlığını, həyatını və fəaliyyətini davam etdirə bilmək üçün mal və xidməti əldə edən və onu istifadə edən şəxslərə deyilir. Başqa sözlə desək, istehlakçı şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir. Cəmiyyətdəki bütün şəxslər istehlakçıdır. Bu baxımdan istehlakçı hüquqlarının qorunması, insanların hüquqlarının qorunması deməkdir. Səyahət və turizm məhsullarının istehlakçıları turizm xidmətlərini alan son istifadəçilərdir.

***CONCEPT OF CONSUMER IN TOURISM***

***Summary***

A consumer is a person who acquires and uses goods and services in order to continue his existence, life and activity. In other words, a consumer is a person who uses, receives, orders, or intends to buy or order goods, works and services in order to meet his personal needs. Everyone in society is a consumer. In this sense, the protection of consumer rights means the protection of human rights. Consumers of travel and tourism products are the end users of tourism services.

***Açar sözlər:*** *istehlakçı, turist, hüquq, turizm, xidmət*
***Key words:*** *consumer, tourist, law, tourism, service*

Doğulduğu andan etibarən hər bir insan sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi məqsədlər üçün müxtəlif mallar alaraq və xidmətlərdən istifadə edərək, bütün ömrü boyu istehlakçı olur.

İlk dəfə olaraq istehlakçının yüksək səviyyədə anlayışı 1962-ci ildə ABŞ Konqresində ABŞ prezidenti C.Kennedi tərəfindən verilmişdir: "Tərifə görə, istehlakçılar – biz elə özümüzük. İstehlakçılar – hər hansı bir özəl və ya dövlətin iqtisadi qərarlarına təsir edən ən böyük iqtisadi təbəqədir. Amma bu, əksər hallarda eşidilməyən səsdir [8, s.24].C. Kennedinin Bəyanatında istehlakçıların hüquqları kimi seçim etmək hüququ, təhlükəsizlik hüququ, məlumat almaq hüququ, eşidilmək hüququ qeyd olunurdu. Göründüyü kimi, burada istehlakçıların hüquqları bir qədər məhdud çərçivədə göstərilib. Yəni, daha sonralar qəbul edilmiş, istər beynəlxalq aktlarda, istərsə də regional aktlarda demək olar ki, istehlakçıların hüquqları bir qədər genişləndirilib. 1975-ci ildə Avropaİqtisadi

Birliyi istehlakçıların hüquqlarını bir qədər də genişləndirərək "İstehlakçıların hüquqlarının tanınmasıhaqqında" regional akt qəbul edib. Həmin Aktda istehlakçıların sağlamlığının və təhlükəsizliyinin müdafiəsi hüququ; istehlakçıların iqtisadi maraqlarının müdafiəsi hüququ; istehlakçıya dəyən zərərin ödənilməsi hüququ; istehlakçının təhsil və məlumat hüququ; istehlakçının təmsil olunmaq hüququ təsbit edildi.Bu Aktın qəbulundan 10 il sonra, yəni 1985-ci ildə BMT tərəfindən "İstehlakçıların hüquqlarının müdafiəsinə dair Rəhbər Prinsiplər" qəbul edildi. Burada istehlakçıların hüquqları daha da genişləndirildi. Rəhbər Prinsiplərdə aşağıdakı hüquqlar təsbit olunmuşdur: İstehlakçıların sağlamlığı və fiziki təhlükəsizliyi, istehlakçıların iqtisadi maraqlarının və hüquqlarının müdafiəsi, keyfiyyət və təhlükəsizlik standartlarına uyğun mal və xidmətdən istifadə, istehlakçıların seçim hüququnu genişləndirən mal və xidmətlərin satış şəbəkəsinin artırılması, istehlakçıların mülki-hüquqi vasitələrlə qorunması, istehlakçıların müdafiəsi üçün onların məlumatlandırılması, müəyyən mal, iş, xidmət sahələri üzrə tədbirlərin keçirilməsinə dəstək (məsələn: tibb, nəqliyyat və s.) [2, s.8-9] .

BMT-nin "İstehlakçıların hüquqlarının müdafiəsinə dair" "Rəhbər Pinsiplər" ində dövlətlərin üzərinə aşağıda göstərilən istiqamətlərdə öhdəliklər qoyulmuşdur:

Fiziki təhlükəsizliklə bağlı öhdəliklər:

- İstehsal olunan mallar birbaşa və ya bilavasitə təyinatı zamanı istehlak olunarsa, onların təhlükəsizliyinə dair dövlətlər tərəfindən qəbul olunan normativ hüquqi aktlar beynəlxalq normalara uyğunlaşdırılmalıdır.
- Dövlətlər mal istehsal edərkən burada istehlak şəraiti təhlükəsiz olmalıdır. Malların təhlükəli olmasına səbəb olan amillər aradan qaldırılmalıdır. Malın istehlakına dair bütün məlumatlar istehlakçıya verilməlidir.
- Dövlətlər mal istehsal edərkən onların əsas iqtisadi-siyasəti təhlükəli malların dərhal dövriyyədən çıxarılmasıa yönəlməlidir.
- Dövlətlər satış dövriyyəsində olan malın aşağı keyfiyyətliyini təcili aradan qaldırmalı, satışdan götürməli və istehlakçıya dəyən ziyanı ödəməlidirlər.

2. İstehlakçıların iqtisadi maraqlarının dəstəklənməsi ilə bağlı öhdəliklər:

- Dövlətlər istehlakçılara bilərəkdən ziyan vuran istehsalçılarla mübarizə aparmalı, istehsal etdiyi malı aldadıcı mal nişanı, səhv məlumatlarla markalayan istehsalçıların nöqsanlarını aşkara çıxaran istehlakçıların birliklərini dəstəkləməlidir.
- İstehlakçılar onların hüququnu pozan müqavilələr imza etməməlidirlər.
- Reklam, istehlakçıya doğru məlumat verməli və onun müstəqil seçim hüququna hörmət etməlidir.

BMT-nin "Rəhbər Prinsiplərində həmçinin istehlak olunan mal və xidmətlərin keyfiyyət və təhlükəsizlik normaları, əsas istehlak və xidmətlərin yayılması öz əksini tapıb.

Həmçinin dövlətlər istehlakçıya ziyan dəydiyi tədqirdə kompensasiya ala bilməsi üçün normativ hüquqi sənədlər qəbul etməlidirlər. Burada nəzərdə tutulan ən mühüm amillərdən biri də istehlakçıların maarifləndirilməsidir [5].

İstehlakçı anlayışı cəmiyyətdəki istehsal formasının sürətlə dəyişməsinə paralel olaraq tədricən dəyişmişdir. İstehlakçı ən sadə mənasıyla ehtiyaclarını aradan qaldırmaq yolunu axtaran şəxsdir [3, s.63-64].

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə istehlakçı — şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir.Bu Qanunun 3-cü maddəsində istehlakçılarınhüquqları təsbit olunmuşdur: malların (işlərin və xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsi: istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olması; malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə edilməsi; qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə, insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsi; öz hüquqlarının və qanuni mənafelərinin mübadiləsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət olunması; ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşmə [7].

Qeyd etmək yerinə düşərdi ki, turizm xidmətlərinin göstərilməsi üçün müqavilə bağlayan şəxs turizm xidmətlərindən istifadə edən istehlakçıdır. Çünki turistlər getdikləri ölkədə bir qayda olaraq mal və xidmətlərin istehlakçısı qismində çıxış edirlər. Bunu hətta bir çox beynəlxalq aktlar da sübut edir. Belə ki, 1990-cı il tarixli «Hər şeyi əhatə edən səyahətlər, məzuniyyətlər və səfərlər haqqında» Avropa İttifaqı Direktivində «turist» terminini «istehlakçı» anlayışı əvəz edir [1, s.127]. Deməli, turist, hər şeydən əvvəl, bir istehlakçıdır və onun «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununa görə bir sıra hüquqları vardır.Belə ki, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən, turistin turizm firmasını sərbəst seçmək, lazımı keyfiyyətdə və təhlükəsiz turizm xidmətləri haqqında dolğun və düzgün məlumat əldə etmək hüququ vardır. Qanunun 5-ci maddəsinə görə turizm xidmətindən istifadə etmək istəyən istehlakçı bu xidmətin harada göstərilməsindən asılı olmayaraq onun keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu və turagent tərəfindən təqdim edilən məlumata cavab verməsini tələb etmək hüququna malikdir. Azərbaycan Respublikasının

ərazisində turizm məhsulu yalnız müqavilə yolu ilə satılmalıdı.Qanunun 9-cu maddəsinə görə turizm müəssisəsi müqavilənin icrasına vaxtında başlamadıqda, istehlakçının müqavilədən imtina etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır. Həmçinin, Qanunun 11-ci maddəsinə görə turizm xidmətinin qüsurlu olması nəticəsində istehlakçının həyatına, sağlamlığına və ya əmlakına dəymiş zərər, qanunvericilikdə daha yüksək məsuliyyət nəzərdə tutulmayıbsa, günahkar tərəfindən istehlakçıya tam ödənilməlidir. Qanunun 26-cı maddəsində isə istehlakçıların hüquqlarının məhkəmə müdafiəsi nəzərdə tutulub. Maddədə istehlakçıya ziyan dəydiyi tədqirdə onun cavabdeh tərəfindən ödənilməsi nəzərdə tutulub. Həmçinin burada dəymiş mənəvi zərərin də ödənilməsi göstərilib.

Turistlərin istehlakçı xarakteri ilə müşayiət olunan hüquqi statusu, həmçinin onun iqtisadiyyata təsiri məsələləri də müxtəlif elmi-tədqiqat araşdırmalarının tədqiqat obyekti olmuşdur. Məsələn, bir sıra müəlliflər hesab edirlər ki, əldə etdikləri turlar əsasında dövlətin ərazisində 24 saatdan az olmayan turistlərin istehlakçı xüsusiyyəti xarici valyutanın ölkə ərazisinə gətirilməsi ilə xarakterizə olunur. Lakin turistlərin, eyni zamanda, istehlakçı qismində çıxış etməsi fikri elmi ədəbiyyatlarda heç də birmənalı şəkildə qəbul olunmur. Həmçinin, hüquqi və iqtisadi mənalarda istehlakçının hüquqi vəziyyəti ilə turistin statusu da fərqli anlamlarda təhlil olunur. Belə ki, A.N.Oşnokovun fikrincə, hər hansı bir dövlətə gəlməni iqtisadi baxımdan qiymətləndirdikdə, onun istehlak xarakteri kəsb etməsi qənaətinə gəlmək olar. Çünki ölkəyə səyahət edən turistlər maddi nemətlərin istehsalçısı deyil, istehlakçısı qismində iştirak edirlər. Hüquqi baxımdan isə istehlakçıların statusu heç də həmişə turizm xidməti müqavilələrində tərəf qismində mövcud olan turistlərlə eyniləşdirilmir. Bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, turistlərin hər hansı bir ölkənin ərazisinə gəlməsi tam olaraq istehlak xarakteri daşımalıdır. Yəni turistlər gəldikləri ölkənin ərazisində heç də maddi nemətlərin istehsalçısı qismində çıxış etmir. Hüquqi baxımdan isə istehlakçının statusu heç də həmişə turist xidmətləri müqaviləsinin tərəfi kimi turistlərə münasibətdə tanınmır [1,s.128].

Geniş mənada istehlakçı varlığını, həyatını və fəaliyyətlərini davam etdirə bilmək üçün mal və xidməti əldə edən və onu istifadə edən şəxslərə deyilir. İqtisadi mənada isə, istehlakçı şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir. Cəmiyyətdəki bütün şəxslər istehlakçıdır. Bu baxımdan istehlakçı hüquqlarının qorunması, insanların hüquqlarının qorunması deməkdir. Çünkü insanların şəxsi tələbatları onların iqtisadi və sosial-mədəni tələbatları deməkdir. Yəni dünyaya gəlişilə hər bir insan istehlakçıya çevrilir

Qeyd etmək yerinə düşərdi ki, turizmdə istehlakçıları səyahətə yönəldən müxtəlif motivlər olmaqdadır. Bunlar psixoloji ola biləcəyi kimi sosioloji də ola bilər. Motivləri əsas başlıqlar altında aşağıdakı şəkildə sıralamaq mümkündür: –

Dincəlmə, – Fiziki və hiss-duyğu baxımdan özünü təzələmə, – Hər zaman yaşadığı çevrədən qısa bir müddət üçün uzaqlaşma, – Tarixi və mədəni bölgələri ziyarət etmə, – Təbiətə daha yaxın olma, – Əyləncə, – Fərqli insanlarla tanışlıq, – Macəra axtarma, – İdman, – Maraq. Bu cür motivlər potensial turizm tələbinin aktiv tələbə çevrilməsində fəal rol oynayır. Tədqiqatçı Plog, aparmış olduğu bir araşdırma ilə turistik istehlakçıların şəxsi hallarına bağlı olan səyahət etmə meyllərini, səyahət turlarını və motivlərini tədqiq etmişdir. O, şəxsi xasiyyəti özünə qapanma və ünsiyyətə meylli adlandırdığı iki qrupa ayırmışdır. Nəticədə birinci turist tiplərinin çox az gəlir qrupuna aid olduqları, passiv olaraq turizm hərəkətlərinə qatıldıqları və daha çox təşkil edilmiş turlara üstünlük verdikləri müəyyənləşmişdir. İkinci turist tiplərinin isə, daha çox yüksək gəlir qrupuna aid olduqları, fərdi səyahət meylli olduqları hərəkət və dəyişim lazım gələn səyahət formalarına (macəra, idman, təbiət, tarix və mədəniyyət) üstünlük verdikləri ortaya çıxarılmışdır [4, s.310-311].

İstehlakçıların davranışına psixoloji amillər də təsirsiz ötüşməmişdir.Belə ki, sübut olunmuşdur ki, insanın davranışı əsasən onun vəziyyəti necə qavraması, necə anlaması ilə müəyyən olunur. İstehlakçının kommunikasiya müraciətlərinə (reklama, malın tanıtımına) necə cavab verdiyini, mala, onun xassələrinə necə münasibət bəslədiyini anlamaq üçün əvvəlcə insanın malı necə qavradığını anlamaq lazımdır. Qavrama prosesinə ətraf mühitdən informasiyanın seçilmə mərhələləri, alınmış informasiyanın strukturlaşdırılması, həmin informasiyanın şərh olunması və canlandırılması daxildir. Başa düşmək lazımdır ki, qavrama prosesi təkcə kənar amillərdən (mal) asılı deyil, o həm də insanın daxili etiqadından, dəyərlərindən, nəzərindən, keçmiş təcrübəsindən asılıdır. İnsanın müəyyən vəziyyəti qavramasına üç əsas amil təsir edir: insan özü (etiqadı və nəzərləri); qavrama prosesinin baş verdiyi situasiya; qavranan obyekt, onun xarici görünüşü, xassələri və fərqli xüsusiyyətləri.

Qavrama prosesində əmələ gələn ümumi xətalar bunlardır: stereotiplər. İnsan yeni hadisələri stereotipə əsasən izah etməyə meyllidir. Gender stereotipi (cinsə görə – qadın zəif olmalıdır və s.), professional və etnik stereotiplər olduğu qeyd olunur;başqalarının fikri: yalnız başqaları başqa cür fikirləşdiyinə görə insan öz fikrini tamn əks istiqamətdə dəyişə bilər; neqativ təcrübə. Əgər insan nə vaxtsa müəyyən bir situasiyada neqativ təcrübə qazanmışdırsa, oxşar vəziyyət həmişə onda qeyri-obyektiv olaraq mənfi emosiyalara səbəb ola bilər. Təlim də (və ya təcrübə toplama) istehlakçının davranışına təsir edir [6] .

Beləliklə, məqalədə qeyd olunanların yekunu olaraq qeyd edə bilərik ki, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli Azərbaycan Respublikası Qanunununda istehlakçı və onun hüquqları geniş şəkildə təsbit edilmişdir. Həmçinin, turizm münasibətlərinin əsas iştirakçısı olan

turistin hər bir halda istehlakçı olduğunu nəzərə alaraq deyə bilərik ki, turistlərin hüquqları bu Qanunla da qorunur.

***Ədəbiyyat***

***Azərbaycan dilində istifadə olunmuş mənbələr***

*1.Əliyev Əmir İbrahim oğlu, Aslanov Elnur Zakir oğlu. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı, 2011, səh.127.*

*2. İstehlakçının məlumat kitabıBakı 2007, səh.8-9.*

*3. İsrail İsgəndərov, Sənan Əliyev, Fuad Cabbarov, Korporativ Sosial Məsuliyyət, Azərbaycan Realliği Və Turizm Sektorunda Tədbiq İmkanları, Azərbaycan Turizm İnstitutu elmi məqalələr toplusu, 2002, səh. 139-145.*

*4. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizmin əsasları. Dərslik. Bakı, 2007, səh. 310-311.*

***Azərbaycan dilində istifadə olunmuş elektron mənbələr***

*5. https://az.wikibooks.org*

*6. http://genderi.org/istehlakci-davranisinin-idare-edilmesi-movzu-istehlakc-temayul.html?page=4*

*7. http://www.e-qanun.az/framework/9479*

***Rus dilində istifadə olunmuş mənbələr***

*8. Чурочкина О.С. Эволюция развития института защиты прав потребителей в России (исторический и нормативно-правовой аспекты) // Гражданское общество в России и за рубежом. 2013,- № 4.*

# PEDAQOJİ BİOETİKANIN TƏDRİSİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN TƏTBİQİNİN MAHİYYƏTİ

**Ü.İ.Ələkbərova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ulviyyaalakbarova1989@gmail.com*

***Xülasə***

*Məqalədə bioetikanın tədrisində fəndaxili və fənlərarası inteqrasiya ilə bağlı nümunələr və pedaqoji bioetikanın tədrisində fəndaxili, fənlərarası inteqrasiyanın tətbiqinin mahiyyəti əks olunmuşdur.*

## СУТЬ ПРИМЕНЕНИЯ ВНУТРИПРЕДМЕТНОЙ И МЕЖДИСЦИПЛИНАРНОЙ ИНТЕГРАЦИИ В ПРЕПОДАВАНИИ ПЕДАГОГИЧЕСКОЙ БИОЭТИКИ

***Резюме***

*В статье представлены примеры внутрипредметной и междисциплинарной интеграции в преподавании биоэтики и сущность применения междисциплинарной и междупредметной интеграции в преподавании педагогической биоэтики.*

## THE ESSENCE OF THE APPLICATION OF INTERDISCIPLINARY AND TRANSDİSCİPLİNARY INTEGRATION IN THE TEACHING OF PEDAGOGICAL BIOETHICS

***Summary***

*This article presents examples of interdisciplinary and transdisciplinary integration in the teaching of bioethics and the essenceof the application of interdisciplinary and transdisciplinary integration in the teaching of pedagogical bioethics.*

***Açar sözlər:*** *bioetika, pedaqoji bioetika, biologiya, fəndaxili inteqrasiya, fənlərarası inteqrasiya*

***Ключевые слова:*** *биоэтика, педагогическая биоэтика, биология, внутрипредметная интеграция, междупредметная интеграция*

***Key words:*** *bioethics, pedagogical bioethics, biology, interdisciplinary integration, transdisciplinary integration*

Müasir təhsilin əsas məqsədi təlim-tərbiyə prosesinin səmərəliliyini artırmaq və hərtərəfli şəxsiyyət yetişdirməkdir. Bu səbəbdən Azərbaycan təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiya edilməsi sahəsində islahatlar həyata keçirilmişdir. Təhsil islahatının həyata keçirilməsində əsas götürülən 6 prinsipdən biri məhz inteqrasiyadır.

Müasir dövrün əsas tələblərindən biri məhz insanların idraki vərdişlərə

yiyələnmələri üçün məntiqi, tənqidi və yaradıcı təfəkkürə, müəyyən həyati bacarıqlara nail olmalarıdır. Ona görə də ümumi təhsilin yeni məzmununun hazırlanması zamanı insanların tələbatları, ehtiyacları nəzərə alınaraq ölkə miqyasında ümumi təhsilin müxtəlif səviyyələri üçün ümumi nəticələr hazırlanmış, bu nəticələrin reallaşdırılması üçün fənlər müəyyənləşdirilmişdir. Fənlər müəyyənləşdirilərkən onların inteqrativ xarakterdə olması başlıca cəhət kimi götürülmüşdür. İnteqrativ fənlərin yaradılması nəticəsində inteqrativ proqram, dərslik, dərs vəsaitləri hazırlanmışdı.

İnteqrasiyanın əsas məqsədi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq,onları inkişafa və özünüinkişafa istiqamətləndirməkdir.Ona görə də təhsil sistemində hər bir fənnin tədrisində həm fəndaxili, həm də fənləararası inteqrasiya çox böyük əhəmiyyətə malikdir.

Tədris olunan fənlər içərisində bioetika xüsusi yer tutur. Bioetika fənninin tədrisinin məqsədi tələbələrə kritik anlarda düzgün qərar qəbul edə bilmək, həyati məsələlərin insani həll yolunu tapa bilmək kimi xüsusiyyətləri aşılamaqdır.

Bioetika biotibbi elmlərin tərəqqisi və ən yeni texnologiyaların insanın gündəlik həyatına tətbiqi ilə əlaqədar yaranan etnik, tibbi, bioloji və hüquqi problemlərlə məşğul olan elmlərarası tədqiqat sahəsidir. Mütəxəssislər bioetikanı insanın təbabət və biologiyadakı fəaliyyətinin mənəvi tərəfləri haqqında elm kimi nəzərdə tuturlar. Ona görə də bu elmə dərindən yiyələnmək üçün mütləqdir ki, hər bir şagird məktəb vaxtlarında biologiya fənnini dərindən mənimsəmiş olsun. Eyni zamanda müəllimlər də çalışmalıdır ki, tədris prosesində biologiya fənnini şagirdlərə sevdirsin və hər bir mövzunu inteqrativ şəkildə tədris etsin.

Pedaqoji boetikanın tədrisi zamanı müəllim həm fəndaxili, həm də fənlərarası inteqrasiya edərək bu elmin dərindən mənimsənilməsinə nail ola bilər. Pedaqoji bioetikanın tədrisində həyata keçirilə biləcək fəndaxili inteqrasiyaya nəzər yetirək: Orta ümumitəhsil məktəblərində VI sinif biologiya fənninin tədrisində şagirdlər “Bitkilərin havadan qidalanması, fotosintez” adlı mövzu ilə tanış olurlar. Müəllim bu mövzunu şagirdlərin diqqətinə çatdırarkən çalışmalıdır ki, fəndaxili inteqrasiyadan istifadə etsin. Yəni, şagirdlər fotosintezin necə bir proses olduğunu öyrənir,eyni zamanda fotosintezin bizim həyatımız üçün necə böyük rola malik olduğunu dərk edir. Bunun üçün müəllim şagirdlərə dərsin gedişində həm fotosintezin, həm də ətraf mühitlə bioetik münasibətlərin düzgün qurulma xüsusiyyətlərini izah edir. Beləliklə, onların məntiqi, tənqidi, yaradıcı təfəkkürünü inkişaf etdirir. Şagirdlərin həyat bilgisi fənnindən ətraf mühitlə, təbiətlə bağlı müəyyən qədər məlumatları var. Müəllim fəndaxili inteqrasiyanı həyata keçirirərək şagirdlərin mövzu bağlı ilə biliklərini daha da dərinləşdirir və sistemləşdirir. Bununla da şagirdlər dərk edir ki, gələcək yaşayış üçün təbiətlə münasibətdə ehtiyatlı davranmaq mütləqdir. Müəllimin tədrisdə məqsədi həm verilən materialı mənimsətmək, həm də şagirdlərin öyrəndiklərini tətbiq edərək,

düzgün qərar qəbul etmək bacarıqlarını inkişaf etdirmək olmalıdır. Bu məqsədi müəllim həyata keçirə bildikdə, artıq şagirdlər təbiətə qarşı daha etik davranacaq, hər bir bitkinin bizim həyatımız üçün necə dəyərli olduğunu dərk edəcək, ətraf mühitlə bioetik münasibətləri pozan yoldaşlarını düzgün istiqamətləndirə biləcəklər. Eyni zamanda müəllim şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün təbiətlə düzgün bioetik münasibətlərin qurulması sahəsində müəyyən layihələrin hazırlanmasını da həyata keçirəcək.

VII sinifdə şagirdlər canlıların müxtəlifliyi, təsnifatı, müxtəlif orqanizmlərdə gedən həyati proseslər, müxtəlif canlıların insanda törətdiyi xəstəliklər, dərman bitkiləri, onlardan necə və hansı xəstəliklərdə istifadə olunması, flora və faunanın qorunması haqqında biliklərə yiyələnirlər. Eyni zamanda bioetikanın bir sahəsinə də insanların heyvanlardan nə məqsədlə istifadəsi daxildir: qida mənbəyi, sənaye üçün xammal, biotibbi tətdiqatlar üçün model, əyləncə obyekti və s. Şagirdlər VII sinifdə heyvanlar barəsində müəyyən məlumat almaqla bərabər, həm də heyvanlara qarşı düzgün münasibətlərin qurulması ilə bağlı bilik əldə edirlər. Müəllimin məqsədlərindən biri də şagirdlərdə humanizm keyfiyyətlərini formalaşdırmaqdan ibarət olmalıdır. Pedaqoji etika da məhz humanist aspektlərlə zəngin olduğundan, hər bir müəllim pedaqoji etikanın qaydalarını bilməlidir.

Uşaqların heyvanlara etik münasibəti həyatın ilk illərindən ailədə formalaşdırılmalıdır. Əsas tərbiyə amili uşağın ətrafındakı valideynlərin və digər böyüklərin nümunəsidir. Ev heyvanları ilə xoş rəftar: onlarla kobud rəftar edilməməsi, onların incidilməməsi - uşaq üçün heyvanlara münasibət norması olmalıdır. Bu günün hər bir şagirdi gələcəyin valideynidir və biz müəllim olaraq onları bioetik münasibətlərlə bağlı məlumatlandırmalıyıq. Bütün bunları həyata keçirmək üçün müəllim həm yüksək səviyyədə etik davranış qaydalarını bilməli, həm də fənnin tədrisini həyata keçirərkən düzgün təlim strategiyasını tətbiq etməyi bacarmalıdır. Bioetika sahəsində biliklərə malik olan gənc nəsil daha dərin əsaslandırılmış sosioloji və siyasi həllər qəbul etməyə qadir olan vətəndaşlar olurlar.

Pedaqoji bioetikanın tədrisində həyata keçirilə biləcək fənlərarası inteqrasiyaya nəzər yetirək: X sinifdə müəllim “Havanın çirklənməsi qlobal ekoloji problem kimi” mövzusunu tədris edərkən coğrafiya, kimya fənninə inteqrasiyanı həyata keçirir. Bu zaman şagirdlər qoyulan problemi hərtərəfli dərk edir, bir tədqiqatçı kimi problemin həll yollarını axtarır, bununla da müəllim şagirdlərin təfəkkürünün inkişafına nail olur. “Havanın çirklənməsi qlobal ekoloji problem kimi” mövzusunda şagirdlərə turş yağışlar, qlobal istiləşmə, havanın çirklənmə səbəbləri, problemin qarşısının alınması üçün tədbirlər barəsində məlumat verilir. Artıq şagirdlərə kimya fənnindən məlumdur ki, havanın çirklənməsinə səbəb havada olan qazların miqdarının və tərkibinin dəyişməsidir. Şagirdlər turş

yağışlar barəsində məlumat alarkən müəllim qeyd etməlidir ki, artıq onlar VIII sinif kimya fənnindən turşuların təsnifatı, adlandırılması və alınma üsulları ilə tanış olublar. Turş yağışlar yağan zaman turşular natrium, kalsium, kalium, maqnezium kimi elementlərlə reaksiyaya girir və bitkilərin istifadəsi üçün bu elementlərin miqdarı azalır. Alüminium və civə birləşmələrinin yağışla su mənbələrinə qarışması nəticəsində su canlı orqanizmlərə keçərək müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxarır. Müəllim izahı verərkən fənlərarası inteqrasiyanı həyata keçirərək biliklərin möhkəmləndirilməsi, yeni materialın onların yaddaşında daha dərin iz salması məqsədilə müxtəlif suallar verməklə dərsi şagirdlərin fəallığı ilə tədris edir. O, eyni zamanda bu mövzu ilə bağlı tədrisi coğrafiya müəllimi ilə birlikdə təşkil edir. Çünki bu mövzunun tədrisi X sinifdə hər iki fənnin tədrisində nəzərdə tutulub. Coğrafiya müəlliminin köməyilə şagirdlər atmosferin çirklənməsində təbii və antropogen mənbələri, çirklənməyə daha çox təsir edən amilləri, atmosferin çirklənməsi nəticəsində yaranan problemləri və onların aradan qaldırılması yolları ilə bağlı, biologiya müəlliminin köməyilə havanın, dənizlərin, dünya okeanlarının çirklənməsi nəticəsində orada yaşayan canlıların sayının kəskin azalması, ətraf mühitin çirklənməsinin insanların qida rasionuna necə təsir göstərdiyi, ekoloji problemlər nəticəsində insanda yaranan müxtəlif xəstəliklərlə bağlı müzakirəni həyata keçirirlər. Dərsin bu cür inteqrativ şəkildə aparılması şagirdlərdə böyük maraq oyadır, nəticədə dərs standartlıqdan çıxaraq daha çox müzakirə üstündə qurulur. Çünki şagirdlər artıq mövzu ilə bağlı müəyyən qədər məlumatlıdırlar. Ona görə də bu dərsin məqsədi şagirdlərin bildiklərini ortaya çıxarmaq, onlara sərbəst şəkildə öz fikirlərini bildirmək imkanı yaratmaq və şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirmək üçün ekoloji problemlərin qarşısının alınması üçün nə kimi təkliflərin olduğunu müəyyənləşdirməkdir. Bunun üçün də müəllim ilk növbədə pedaqoji etika və mədəniyyətə malik olmalı və yeni pedaqoji texnologiyalardan səmərəli istifadə etməyi bacarmalıdır.

Dərsin sonunda artıq şagirdlər havanın çirklənməsinin qarşısının alınması üçün vacib olan məsələləri dərk edirlər: dünyada sülhün bərqərar olması, müharibələrin aparılmaması, kimyəvi silahların sınaqdan keçirilməməsi, atmosfer havasının qorunması üçün qəbul olunmuş qanunlara əməl edilməsi, ətraf mühitə, o cümlədən havaya mənfi təsir edən fiziki, kimyəvi və bioloji amillərə qarşı mübarizə tədbirlərinə əməl olunması və s. Beləliklə, müəllim mövzunun tədrisini inteqrativ şəkildə həyata keçirir, mövzu ilə bağlı həm bioloji, həm coğrafi tərəflərin müzakirəsini təşkil edir, həm də bioetik məsələlərə toxunulur. Həm fəndaxili, həm də fənlərarası inteqrasiyanın mahiyyəti inteqrasiyanın köməyi ilə şagirdlərin elmi biliklər arasında qarşılıqlı əlaqəni başa düşməsi, həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadəni bacarmasıdır.

Bildiyimiz kimi, hal-hazırda bioetikanın bir fənn kimi tədrisi ADPU-nin magistratura səviyyəsində həyata keçirilir. Lakin, mütləqdir ki, bioetika barəsində orta ümumitəhsil məktəblərində də şagirdlərə məlumat verilsin. Bu, onların şəxsiyyət kimi yetişmələrində, gələcək sahələrində doğru qərar qəbul edə bilmələrində, ətraf mühitlə, insanlarla düzgün münasibət yarada bilmələrində vacib rola malikdir. Bunun üçün bologiya müəllimləri mövzuların tədrisində bioloji tərəflərə toxunmaqla yanaşı, etik tərəfləri də qeyd etməli və fəndaxili, fənlərarası inteqrasiyanı həyata keçirməlidir. Gələcək peşələrindən asılı olmayaraq hər bir şagird, hər bir tələbə bioetikanın prinsiplərini bilməli və bilməklə yanaşı, olduqları hər mühitdə tətbiq etməyi bacarmalıdır.

***Ədəbiyyat:***

1. *Paşayev P. "Təbiət elmlərinin əlaqəli öyrənilməsi". Bakı,1977.*
2. *Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. VI sinif, Biologiya dərsliyi. Bakı-2017*
3. *Məmmədova N., Həsənova B., Mahmudova K., Fətiyeva L. X sinif, Biologiya dərsliyi.Bakı-2017.*
4. *Qəribov Y.,Alxasov O.,Hüseynli Ş., Babayeva M. X sinif, Coğrafiya dərsliyi. Bakı-2017.*
5. *Павлова Т.Н. Биоэтика в высшей школе. Московская государственная академия ветеринарной медицины и биотехнологии им. К.И.Скрябина, 1997 г.*
6. *İnternet resursları.*

# BİOLOGİYA ÜZRƏ EKSKURSİYALARDA ŞAGİRDLƏRƏ TƏDQİQATÇILIQ BACARIQLARININ AŞILANMASI

**Ş.M.Seyidova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elchinseyidov@gmail.com***

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində biologiyadan sinifdənkənar tədbirlərdə şagirdlərə tıdqiqatçılıq bacarıqlarının aşılanmasının imkan və yolları araşdırılır. Biologiya üzrə sinifdənkənar tədbirlərin təşkili aydınlaşdırılır. Onların şagirdlərdə tədqiqatçılıq bacarıqlarının aşılanması imkanları müəyyən edilir. Biologiyadan sinifdənkənar məşğələlərdən daha geniş tətbiq olunan ekskursiyaların keçirilmə qaydaları göstərilir. Təbiət qoynuna ekskursiyada şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına dair tapşırıqların verilməsi, onların yerinə yetirilməsi, ümumiləşdirilməsinə dair nümunə verilir.*

## ПРИВИТИЕ ИССЛЕДОВАТЕЛЬСКИХ НАВЫКОВ ВО ВНЕКЛАССНЫЕ ЗАНЯТИЯ ПО БИОЛОГИИ

***Резюме***

*В статье исследуются возможности и способы привития исследовательских навыков во внеучебную деятельность по биологии в общеобразовательных школах. Уточняется организация внеклассных занятий по биологии. Выявлены их возможности привить студентам исследовательские навыки. Показаны правила проведения экскурсий по биологии, которые используются более широко, чем внеаудиторные занятия. Во время экскурсии на лоно природы приводится пример постановки заданий по развитию у студентов исследовательских навыков, их реализации и обобщения.*

## INSTILLING RESEARCH SKILLS IN BIOLOGY EXTRACURRICULAR ACTIVITIES

***Summary***

*The article explores the possibilities and ways to instill research skills in biology extracurricular activities in secondary schools. The organization of extracurricular activities on biology is being clarified. Their opportunities to instill research skills in students are identified. The rules of conducting excursions in biology, which are more widely used than extracurricular activities, are shown. During the excursion to nature, an example is given of giving tasks on the development of students' research skills, their implementation and generalization.*

***Açar sözlər:*** *dərsdənkənar, dərs, təlim, ekskursiya, sinifdənkənar, dərnək, bilik, bacarıq*

***Ключевые слова:*** *внеаудиторная, урок, обучение, экскурсия, внеаудиторная, кружок, знания, умения.*
***Key words***: *extracurricular, lesson, training, excursion, extracurricular, circle, knowledge, skills*

Sinifdənkənar işlər müəllimin rəhbərliyi ilə şagirdlərin maraq vəistəklərinə uyğun olaraq aparılan könüllü məşğələlərdir. O, fənnin proqram materialını əhatəli öyrənməyə kömək edir. Sinifdən kənar məşğələlərdə şagirdlərin müstəqilliyi inkişaf etdirilir, onlarda elmə, təbiətə, əməyə məhəbbət tərbiyə olunur.

Məktəblərimizdə sinifdənkənar işlərin qrup məşğələlərindən dərnəklər, sabahın alimləri, kiçik akademiyalar və s., kütləvi məşğələlərdən mühazirə, görkəmli şəxsiyyətlərlə görüşlər, ekskursiya, gəzintilər, konfranslar və s., fərdi məşğələlərdən, qəzet, albom hazırlamaq, canlı guşədə, tədris-təcrübə sahəsində iş, sərgilərə hazırlıq, mütaliə və b. növləri tətbiq olunur.

Dərslərdə təməli qoyulan bilik və bacarıqların, xüsusilə elmi dünyagörüşün şaqgirdlərdə inkişafısinifdənkənar məşğələlərdə davam etdirilir. Sinifdənkənar işlərin təşkilində əsas məqsəd şagirdlərdə bilik, bacarıq və vərdişləri genişləndirib, dərinləşdirmək, bununla onlarda fənnə maraq yaratmaq və qavrama prosesini asanlaşdırmaqdır. Sinifdənkənarişlərdə əsas diqqət şəxsiyyətin tərbiyəsinə, onun mənəvi inkişafına, işgüzarlığına, nizam-intizamlılığına yönəldilir. Sinifdənkənar iş zamanı şagirdlər kitab və lüğətlə işləmək vərdişinəyiyələnir, auditoriya qarşısında təqdimat, məruzə və məlumatlarla çıxışetməyi öyrənirlər. Deyilənlər əsasında belə qənaətə gəlmək olar ki, sinifdənkənar iş təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici vəzifələrini əhatə edir. Sinifdənkənar iş dərslərdən fərqli olaraq könüllü xarakter daşıyır və onun aparılma vaxtı müəllim və şagirdlər tərəfindən müəyyənləşdirilir. Sinifdənkənar işin könüllülük xarakteri müəlliməşagirdlərin fəaliyyətini onların maraq dairəsinə uyğun təşkil etməyə, eyni zamanda fərdi həvəs, təşəbbüskarlıq və idrak fəallığını yüksəltməyə imkan yaradır. Burada mövzunun seçimi də müəllim və şagirdlərin arzu və istəkləri üzrə həyata keçirilir.

Sinifdənkənar işlərdə şagirdin psixoloji və yaş xüsusiyyətləri nəzərə alınır. Aşağı siniflərdə dinamik dərslər, oyun situasiyaları, dramatik elementformaları üstünlük təşkil edir, yuxarı siniflərdə daha çox elmi və elmi - kütləvi ədəbiyyatdan istifadəyə uyğun olan layihə, referat, təqdimat hazırlama prosesləri həyata keçirilir. Tədqiqat işi elementlərindən (arxiv, kitabxana, muzey və s. işlər) istifadə etməklə şagirdlərdə intellektual və praktik bacarıqların formalaşmasına geniş imkanlar açılır.Sinifdənkənar işlər şagirdlərdə müasir elmi-texniki tərəqqiyə və ictimai-faydalı işlərə marağı artırır (5.s.17). Ona görə də məktəblərdə sinifdənkənar iş təlimin bir hissəsinə

çevrilməli və məktəbdə onun keçirilməsinə diqqətartırılmalıdır. Fənlər üzrə, o cümlədən biologiyadan sinifdənkənar işin təşkili məktəb qarşısında duran ən mühüm məsələlərdən biridir. Təlim-tərbiyəprosesində uğur qazanmaq üçün müəllim biologiya üzrə sinifdənkənar işin dəqiq forma və məzmununu müəyyən etməlidir. Sinifdənkənar işin məzmunu iki əsas istiqamət üzrə həyata keçirilir: a)dərslərdə əldə olunmuş bioloji biliklərin genişləndirilməsi və dərinləşdirilməsi;b) şagirdin yaşadığı ərazinin təbiətinin, xüsusilə canlıların öyrənilməsi.

Dərslərdə, laborator işlərdə, ekskursiyalarda şagirdlərin biologiyadan qazandıqları bilik və bacarıqlar sinifdənkənar işlər zamanı tətbiq edilir, praktik olaraq həyata keçirilir.

Sinifdənkənar işlərə könüllü cəlb olunan şagirdlər maraq dairələrinə görə müxtəlif dərnəklərə yazılırlar. Sinifdənkənar işlərin təşkil olunması, onun məzmunu və forması şagirdlərin yaş və bilik səviyyələri,marağı, düşüncələri və yerli şərait nəzərə alınaraq müəyyən edilir.

Şagirdlərin müxtəlif yaş həddi üzrə sinifdənkənar işlərdəiştirakı onun fəaliyyətinə heç bir maneə törətmir. Əksinə, sinifdənkənar işlərdə müxtəlif yaşda olan şagirdlərin birlikdə çalışması ümumməktəb kollektivinin yaranmasına kömək edir. Eyni zamanda sininfdənkənər işlər böyük uşaqlarınkiçiklərə yardım etməsinə, əməkdaşlığın yaranması və inkişafına səbəb olur. Sərbəst mövzular həm müəllim tərəfindən,həm də şagirdlər tərəfindənmüəyyənləşdirlir. Şagirdlərin yaşı artdıqca onların bu sahədə sərbəstliyi,tədqiqatçılıq bacarıqları da inkişaf edir. Onlar müxtəlif dərnəklərin, “Kiçik akademiya”, “Sabahın alimləri”kimicəmiyyətlərin fəal üzvünə çevrilirlər.

Sinifdənkənar işlərə təbiəti, incəsənəti sevən,elmə, texnikaya yaradıcılığa həvəs göstərənlər qoşulurlar. Məktəblərdə daha geniş tətbiq olunan sinifdənkənar məşğələlərə dərnəkləri, müsabiqələri, olimpiadalarıgöstərmək olar. Belə məşğələlərdə viktorinaların suallarına cavab verərkən, krossvordları həll edərkən şagirdlər nəinki təbiətdəki qəribəlikləri öyrənirlər, həm də müəyyən nəticələrə gəlir, bitki və heyvanların adlarını, növlərini, təsnifatda yerlərini praktik olaraq müşahidə edir vəyaddaşlarında möhkəmləndirirlər.Sinifdənkanar işlər biologiyadan nəzəriyyənin praktika, o cümlədən biologiyanınhəyatla əlaqəsi kimi təlim prinsipini həyata keçirməyə imkan verir. Şagirdlər bitkilərin əkilməsi üçün torpağın hazırlanması, onlara qulluq olunması, quşlar üçün yem düzəldilməsi, evdə saxlanılan heyvanlara qulluq edilməsi kimi işlərlə məşğul olur,belə işlərdən zövq alırlar. Eyni zamanda tapşırılan işə məsuliyyət, başlanan işi sona çatdırmaq, tədqiqatçılıq, kollektivçilik kimi keyfiyyətlər qazanırlar.

Sinifdənkənar işlər şagirdlərin asudə vaxtlarının səmərəli keçirilməsinə

şərait yaradır. Onlar asudə vaxtlarında bitki və heyvanlara qulluq edir,elmi-kütləvi ədəbiyyatların mütaliəsini həyata keçirirlər. Bütün bunlar onu deməyə imkan verir ki, biologiyadan təşkil olunan sinifdənkənar işlər şagirdlərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında bir sıra üstünlükləri ilə fərqlənir. Sinifdənkənar işlər şagirdə:

-Təbiətin insan həyatında rolunu dərk etdirməsinə, elmi-dünyagörüşünüformalaşdırmasına imkan yaradır;

- Praktik, intellektual bilik və bacarıq əldəetməsinə kömək edir;

- Əldə olunan bioloji bilikləri təbiətin qorunması, ekoloji mədəniyyət baxımından istifadə etməsinə təminat verir;

-Müstəqil tədqiqatçı kimi yetişmələrinə şərait yaradır və s.

Ekskursiyalar şagirdləri daha çox cəlb edən təlim formalarındandır.Təbiət guşələrinə ekskursiya müəllimin siniflə apardığı əyləncəli tədqiqat xarakterlitəlim formasıdır. Ekskursiya zamanı şagirdlər, orqanizmlərin bir-biri ilə və ətraf aləmlə qarşılıqlı təsirinimüşahidə edir, onlar üzərində tədqiqat aparırlar. Hər bir ekskursiya şagirdin tədqiqat aparmaq qabiliyyətinin inkişafına vətənqidi təfəkkürünün formalaşmasınaböyük təsir göstərir . Ekskursiya eyni zamanda şagirdə estetik və təbiətə məhəbbət hisləri aşılayır.Məktəb ekskursiyası sinif və ya qrupla aparılaraq,öyrədici,tərbiyəedicimaqsəd daşıyır.

Ekskursiyanın əsas xüsusiyyəti odur ki, burada şagirdlər canlı orqanizmlərlə fəal şəkildə təmasda olur, dərsdə öyrəndikləri nəzəri bilikləri möhkəmlədir.Onlar praktik işlər zamanı ekskursiyada gördükləri, topladıqları, şəkillərini çəkdikləri materiallardan yararlanırlar. Müəllim ekskursiyada toplanan materialları növbəti dərsdə əyanilik kimi istifadə edir. Şagirdlər ekskursiya zamanı müəllimin tapşırığı ilə müəyyən obyekti tapır, müşahidə, analiz, müqayisə edir, sadə elmi tədqiqatlarla bağlı vərdişlərə yiyələnir (5.s.88).

Ekskursiyada şagirdlər təbiəti, onun komponentlərinimüşahidə etməklə, canlıların səsini, ətrini, rəngarəngliyini dərk edir, əhval-ruhiyyələri yüksəlir, onlarda təbiətə, canlı aləmə sevgi, məhəbbət yaranır. Ekskursiya nəzəri biliklərlə həyat arasında əlaqələrin yaranmasında mühüm rola malikdir.

Ekskursiyalar bitkilər, heyvanlar,ümumibioloji, ekoloji və s. məzmunda olur. Bitkilərə həsr olunmuş ekskursiyalarda təbiət qoynuna səyahət edilir. Bitkilərin həyatında payız hadisələri,qışda bitkilərin həyatı, yarpağı tökülmüş ağaclar və kollar, kənd təsərrüfatı, bəzək, dərman, vitaminli bitkilərdə bioloji proseslər kimi mövzulara həsr olunur, onlar üzərində tədqiqat işləri aparılır.

Heyvanlarla əlaqədar olan ekuskursiyalarda heyvanların mühitlə əlaqələri, onların müxtəlifliyi, kənd təsərrüfatı heyvanları, su heyvanları, ev heyvanları, meşə heyvanları ilə tanış olur, fəsil dəyişmələrinin heyvanlara təsiri, heyvanlara qulluq işləri, onlarla təmas qaydalarını öyrənirlər. Yuxarı siniflərdə aparılan ekskursiyalartəbiətdə ekosistem (meşə, çəmən, sular),

aqroekosistemlər(çöl, bağ), təbii biosenoza antropogen təsir, tullantıların emalı müəssisələri bitki sortları və heyvan cinslərinin müxtləfliyi (fermer,təsərrüfat sərgiləri), canlı aləmin bioloji müxtəlifliyi və s. mövzularda təşkil edilir.

Ekskursiyalar müddətinə görə 1-2 saatlıq, bir günlük və uzun müddətli olur. Müəllim ekskursiyaya qabaqcadan hazırlaşır,şagirdləri, valdeyinləri və məktəb rəhbərliyini təlimatlandırır, ekskursiya üçün materialları, tapşırıqları, tədqiqat planını işləyir. Ekskursiyanın təşkili qaydaları ilə şagirdləri, valideynləri tanış edir. Ekskursiyada bir sıra qaydalara əməl olunması onun uğurlu keçməsini təmin edir. Belə ki:

- Ekskursiya gəzinti yox, dərsin bir hissəsi kimi təşkil edilir;
- Ekskursiya mövzusu ilin əvvəlində müəyyənləşdirilir, onun dəqiq planı hazırlanır;
- Göstərilməsi mümkün olan obyektə təşkil olunur;
- İzahat qısa və konkret aparılır;
- Şagirdlər fəal tədqiqat işinə cəlb olunur, obyekt və hadisələri müşahidə edirlər;
- Mövzuya aid olmayan məsələlərə yer verilmir;
- Ekskursiyada öyrənilən məsələlər onun sonunda və ya dərsdə yekunlaşdırılır,ümumiləşdirilir (6.s. 155).

Şagirdlərə ekskursiya zamanı bitkiləri korlamamaq, heyvanları qorxutmamaq, səs-küy salmamaq, icazə verilən canlıların şəklini çəkmək, icazə almadan hər hansı guşəyə daxil olmamaq, təbiətə zərər vurmamaq və s kimi tapşırıqlar verilir.Məsələn, müəllim 7-ci sinifdə İkiləpəlilər sinfinin fəsilələrini keçdikdən sonra hər hansı bir çiçəkli bitkilərlə zəngin əraziyə ekskursiya təşkil edir. Müəllim ekskursiya tapşırığı olaraq şagirdlərə dərsdə keçilən ikiləpəli bitkilərin fəsilələrinin düsturlarını xatırlamağı və dəftərlərində qeyd etməyi təklif edir. Şagirdlər tapşırığı yerinə yetirir:

1. Xaççiçəklilər fəsiləsi – $K_4L_4E_{4+2}D_1$
2. Gülçiçəklilər fəsiləsi – $K_5L_5E_\infty D_\infty$
3. Paxlalılar fəsiləsi – $K_{3+(2)}L_5E_{(9)+1}D_1$
4. Badımcançiçəklilər fəsiləsi – $K_{(5)}L_{(5)}E_{(5)}D_1$
5. Mürəkkəbçiçəklilər fəsiləsi – $K_0L_{(5)}E_{(5)}D_1$

Şagirdlər qruplara bölünür, hər qrupa bir fəsilənin düsturu verilir və ona uyğun gələn çiçəklərin müşahidə edilməsi və şəklinin çəkilməsi tapşırılır. Hər qrup tapşırığı yerinə yetirir. Götürülmüş fəsilələrə dair bitki nümunələrinə dair material toplanır və təhlil edilir. İkiləpəlilər sinfinin hər fəsiləsinə dair ərazidə necə bitkinin olduğu müəyyən edilir. Tədqiqat nəticəsində şagirdlər belə qənaətə gəlirlər ki, ərazidə gülçiçəklilər və mürəkkəbçiçəklilər fəsilələrinin bitkiləri say çoxluğuna malikdir. Eyni zamanda verilən beş fəsilənin əlamətlərinə uyğun olmayan ikiləpəli bitkilər də mövcuddur.

Göründüyü kimi, fənlərin, o cümlədən biologiyanın tədrisində ekskursiyaların təşkili şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir. Bu müasir fəal dərslərin təşkilini asanlaşdırır. Şagirdlərin bilik almaqda müstəqilliyini artırır.

**Ədəbiyyat**

1. *Hacıyeva H.M. Ümumtəhsil məktəb biologiyasının tədrisində tədqiqat metodunun tətbiqi ilə laboratoriya işlərinin təşkili. Bakı, Təhsildə İKT jurnalı, №1. 2019.*
2. *İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2011.*
3. *Topçiyeva Ş.Ə. və b. Həyati bacarıqlara əsaslanan təhsil. Bakı, 2009.*
4. *Hüseynov Ə.M. Orta məktəbdə biologiyadan sinifdənkənar məşğələlərin təşkili və aparılması. Bakı, 2008.*
5. *Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Bakı, 2018.*
6. *Захарова Т.Е. Внеклассная работа по биологии на современном этапе. М., 2014.*
7. *Seyidli Y. və b. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün biologiya dərsliyi. Bakı, 2019.*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VIII SİNFİNDƏ TƏLİM TEXNOLOGİYALARININ KÖMƏYİ İLƏ TİBBİ-GİGİYENİK BACARIQLARIN AŞILANMASI

**M.F.Ramazanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ramazanova.meryem99@mail.ru*

***Xülasə***

*Bu məqalədə tibbi-gigiyenik bacarıqlara yiyələnmənin şagirdlər üçün əhəmiyyəti və bu bacarıqlara yiyələnmə yolları əks olunmuşdur. Təlim texnologiyalarının düzgün seçilməsi sayəsində şagirdlərdə sağlam ruhun və düşüncənin formalaşdırılmasının mümkünlüyü özünü göstərmişdir. Məqalədə həmçinin, tibbi-gigiyenik bacarıqlar ilə yanaşı, informasiya bolluğu dövründə şagirdlə sərbəst öyrənmə və öyrənməni öyrətmənin vacibliyi qeyd olunmuşdur.*

## ВНЕДРЕНИЕ МЕДИКО-ГИГИЕНИЧЕСКИХ НАВЫКОВ В VIII КЛАССЕ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ С ПОМОЩЬЮ ОБУЧАЮЩИХ ТЕХНОЛОГИЙ

***Резюме***

*В этой статье обсуждается важность медицинских и гигиенических навыков для студентов и способы их приобретения. Благодаря правильному выбору технологий обучения у студентов можно сформировать здоровый дух и мышление. В статье также подчеркивается важность свободного преподавания и обучения со студентами в эпоху изобилия информации, наряду с медицинскими и гигиеническими навыками.*

## INCULCATION OF MEDICAL AND HYGIENIC SKILLS IN THE VIII GRADE OF SECONDARY SCHOOLS WITH THE HELP OF LEARNING TECHNOLOGIES

***Summary***

*This article discusses the importance of medical and hygienic skills for students and ways to acquire these skills. Thanks to the right choice of learning technologies, it is possible to form a healthy spirit and thinking in students. In addition to medical and hygienic skills, the article also emphasizes the importance of teaching and learning freely with students in an era of abundance of information.*

***Açar sözlər:*** *valeologiya, sərbəst fikir, duyğu orqanları, öyrənməyi öyrətmək, texnologiya, bacarıq, sağlamlıq, biologiya*

***Ключевые слова:*** *валеология, свобода мысли, органы чувств, учить учиться,технология, мастерство, здоровье, биология*

***Key words:*** *valeology, free thought, sensory organs, teaching to learn, technology, skill, health, biology*

Ümumtəhsil məktəblərində tibbi-gigyenik bacarıqların aşılanmasında ilkin məqsəd şagirdlər üçün sağlam həyat tərzinə vərdişlər yaratmaqdır. Bu gün sağlamlığın qorunması problemi aktuallığı ilə seçilir. Belə ki, təbii fəlakətlər, müharibələr, ekoloji dağıntılar, xüsusilə “Covid-19” və digər infeksiyalar dünyanı bürümüş və qlobal problemləri qarşımıza çıxarmışdır. Belə bir vəziyyətdə sağlamlığın qorunması böyük bilik və bacarıqların olmasını tələb edir. Odur ki, ümumtəhsil məktəblərində fənlərin tədrisində şagirdlərə tibbi-gigiyenik bacarıqlar aşılanmalıdır. Fənlərin, o cümlədən, biologiyanın tədrisində tibbi-gigiyenik bilik və bacarıqların aşılanması imkanları genişdir. Tibbi-gigiyenik bacarıqların aşılanması zamanı şagirdlərə ilk olaraq valeoloji biliklər verilməlidir. Valeologiya-xəstəliklərə yoluxmamaq yollarını müəyyən edən elmdir. VIII sinifdə şagirdlərdə “Orqanlar sistemimizi qoruyaq” (3.159 s.-174 s.) başlığı altında müxtəlif orqanlar sistemini necə qorumağın vacibliyi, hansı tibbi-gigyenik şərtlərə riayət etmək haqqında bilik, bacarıqlar formalaşdırmaq mümkündür. Şagirdlərə tibbi-gigiyenik bilik və bacarıqların formalaşdırılması üçün əsas məsələ təlim texnologiyasının düzgün seçilməsidir. Sərbəstləşdirmə və fəallaşdırma oyunlarından (1, 46 s.- 51 s.) istifadə edərək şagirdlərdə belə bacarıqları formalaşdırmaq təlimin keyfiyyətinə müsbət təsir göstərir.

**“Əşya yiyəsindən danışır” texnologiyasının alqoritmi:**

1-Şagirdərdən hər birinə bir orqan sisteminin şəkli olan tablo verilir. 2-Əlində tablo olan şagird dərhal həmin orqan sistemini qurmaq üçün mümkün olan alternativlər fikirləşir.

3-10 maneə qoyulur və hər düzgün cavab ilə bir maneədən keçirilir.

4-Səhv cavaba görə isə bir addım öndəki maneəyə qayıdır.

5-Beləliklə, maneələri keçmə vaxtına görə I, II, III yerlər müəyyənləşdirilir.

“Duyğu orqanlarımız” tədris vahidinin sonunda şagirdlərə bu tapşırığı vermək səmərəli nəticə verir.

Görmə orqanımızı qorumaq üçün:

- televizora yaxından baxmamalı;
- hərəkət edən nəqliyyatda kitab, qəzet və s. oxumamalı;
- kitab oxuyarkən kitabla gözünüz arasında 30 sm məsafə saxlamalı;
- çox qüclü və çox zəif işıqda oxumamalı və yazmamalı;
- şəxsi gigiyena qaydalarına əməl etməli, gözü mikroorqanizmlərdən qorumalı;
- yaxındangörmə qüsuru olduğu zaman həkimin təyin etdiyi çökük linzalı, uzaqdangörmə zamanı isə qabarıq linzalı eynəkdən istifadə etməli;
- başqasının eynəyindən istifadə etməməli;.

➢ A vitamini ilə zəngin qida qəbul etməliyik.

Eşitmə orqanımızı qorumaq üçün:

❖ Xarici qulaq keçəcəyində qulaq kiri vəzilərinin ifraz etdiyi maddə toz və mikrobları tutub saxlayır. Qulaq kiri vaxtlı-vaxtında təmizlənməlidir. Əks halda eşitmə zəifləyər.

❖ Qulağınızı kibrit çöpü, karandaş, sancaq və s. kimi əşyalarla təmizləməyin.

❖ Bu, təbil pərdəsinin zədələnməsinə və karlığa səbəb ola bilər.

❖ Qulağa kir yığıldıqda həkimə müraciət etmək lazımdır.

❖ Qrip xəstəliyi zamanı burnu bərkdən silməyin. Bu, mikroorqanizmlərin orta qulağa keçib orada iltihab törətməsinə səbəb ola bilər.

❖ Angina və skarlatina törədiciləri də orta qulaqda iltihab yaradır.

❖ Qulağı güclü səsdən qorumaq lazımdır. Bu, təbil pərdəsinin deşilməsinə və karlığa səbəb olur. Güclü səs gələn zaman ya ağzı açıq saxlamaq, ya da xarici qulaq keçəcəyini bağlamaq lazımdır.

Texnologiyanın tətbiqi:

1. Şagirdlərdə fikrini ifadə etmək bacarığını inkşaf etdirir.
2. Pozitiv emosiyalar yaradır.
3. Şagirdlərin müsbət "mən" konsepsiyası formalaşır.
4. Tibbi-gigiyenik bacarıqlar formalaşır.

"Molekul və atomlar" - bütün iştirakçılara ayağa qalxmaq və otaqda xaotik şəkildə gəzişmək təklif edilir. Aparıcının şərti işarəsinə və təlimatına əsasən cütlüklər, üçlüklər, dördlüklər və s. təşkil etməklə birləşirlər. Hər biri bir əlamət olan şagirdlər, məsələn, göz xəstəlikləri cütlüyü dedikdə, başqasının eynəyindən istifadə etməməli əlamətini bildirən şagird, A vitamini ilə zəngin qida qəbul etməliyik əlamətini bildirən şagird ilə cütlük əmələ gətirir. Səhv qruplaşanlar uduzaraq oyundan kənarlaşdırılır.

İnformasiyanın gündən-günə artdığı bir dövrdə şagirdlərə sərbəst düçünmə və öyrənməyi öyrətmə bacarıqlarını formalaşdırmaq lazımdır. Şagirdlərin sağlamlığı hər şeydən önəmlidir. Onlar tibbi-gigiyenik qaydaları sayarkən özləri sərbəst düşünür, müxtəlif mənbələrdən istifadə edə bilirlər. Yalnız kitabdakı qaydaları əzbərləsələr, müəyyən müddət sonra çoxlu informasiya qarışığı şagirdlərin beynində bir xaos yaradır.

Bu texnologiyanın tətbiqində şagirdlər aydın düşünməyə təşviq edilir. Düşüncənin aydınlığı yazının aydınlığından daha əsasdır. İlk addım bu texnologiyadan istifadə edilməsi, yeni fikir yaranması və onun istifadə edilməsi ilə fikir yaratmaya kömək etməkdir. Texnologiya, məzmunu yadda saxlamaq və şagirdlərin tibbi-gigiyenik bacarıqlarını artırmaq üçün çox əlverişli bir situasiyadır. Onun tətbiqi biliklərin sərbəst əldə olunmasını və uzun müddət yadda qalmasını təmin edir, təlimin keyfiyyətini yüksəldir.

**Ədəbiyyat:**

1. *Akif Nəzərov. "Müasir təlim texnologiyaları". Bakı-2012*
2. *Цели и оценка программы обучения критическому мышлению (Goals for a critical thinking curriculum and its assessment). Из книги под редакцией А.Л.Коста (A.L.Costa )*
3. *Məmmədova N., Həsənova B., Mahmudova K., Fətiyeva L. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Biologiya fənni üzrə dərslik.-Şərq-Qərb-2019.*
4. *Развитие мышления (с. 44-46). Александрия, штат Вирджиния: ASCD.Р.Дж. Марцано (2000).*
5. *Навыки мышления: пересмотрзначений и моделей (Thinking skills:Meanings and models revisited).*
6. *Из книги под редакцией А.Л.Коста (A.L.Costa) Развитие мышления (с. 47-53). Александрия, штат Вирджиния: ASCD.*
7. *Literature review on the Impact of Digital Technology on learning and Teaching -2015*
8. *Internet resursları*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRDƏ BİOETİK DAVRANIŞLARIN FORMALAŞDIRILMASI

**L.M.Əsədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esedovaleman123@gmail.com*

***Xülasə***

*Bioetik davranış prinsiplərini pozan hər bir insan milliyətindən, dinindən, irqindən, mənsubiyyətindən asılı olmayaraq cəzasını almalıdır. İctimai qurumlar onları cəzalandırmasa da, təbiət qəddarlardan öz qisasını alacaqdır.*

*Ümumtəhsil məktəblərində fənlərin, o cümlədən biologiyanın tədrisində şagirdlərdə bioetik davranışlar formalaşdırılmalı, onlar insani dəyərlərə malik hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi yetişdirilməlidirlər.*

## ФОРМИРОВАНИЕ БИОЭТИЧЕСКОГО ПОВЕДЕНИЯ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Резюме***

*Не следует наказывать всех, кто нарушает принципы биоэтического поведения, независимо от национальности, религии, расы или принадлежности. Хотя социальные институты их не наказывают, природа отомстит жестоким.*

*Биоэтическое поведение следует формировать при преподавании предметов, в том числе биологии, в средних школах, и их следует воспитывать как полностью развитых людей с общечеловеческими ценностями.*

## FORMATION OF BIOETHICAL BEHAVIOR IN STUDENTS IN SECONDARY SCHOOLS

***Summary***

*Everyone who violates the principles of bioethical behavior should be punished, regardless of nationality, religion, race or affiliation. Although social institutions do not punish them, nature will take revenge on the cruel.*

*Bioethical behaviors should be formed in the teaching of subjects, including biology, in secondary schools, and they should be brought up as fully developed individuals with human values.*

***Açar sözlər:*** *bioetika, insan, bitki, heyvan, ekologiya, tibb, davranış, tədris, biologiya*

***Ключевые слова:*** *биоэтика, человек, растение, животное, экология, медицина, поведение, образование, биология*

***Key words:*** *bioethics, people, plant, animal, ecology, medicine, behavior, education, biology*

Günümüzün ən aktual problemlərindən biri ekologiyada çirklənmənin artmasıdır. Bunun qarşısının alınmasında insanların bioetik davranışlarının əhəmiyyəti böyükdür. Bioetik davranışlar dedikdə insanın ətraf mühitdəki canlılara münasibəti nəzərdə tutulur. Bioetik davranışları ekologiyanın qorunmasına yönəlmiş fəaliyyətlər hesab etmək olar. Amerikalı bioetika üzrə alim Van Rennsselar Potter bioetikanı belə səciyyələndirir: “Elmləri inkişaf etdirməklə bəşəriyyət indiyə qədər təbiətlə harmonik münasibətdə olmaq yollarını axtarır, ona uyğunlaşmaga çalışır. Bioetika yeni elm sahəsi olmaqla bioloji biliklərlə insanlığın qiymətlər sistemi biliklərini birləşdirir, təbiət elmləri ilə humanitar elmlər arasında körpü yaradır, bəşəriyyətin davam gətirməsinə, yaşamasına və mədəni dünyanın yaxşılaşmasına kömək edir. Bioetika biologiya, tibb və ekologiyanın inteqrasiyasından yaranmış gənc bir elm sahəsidir. O, həyat haqqında elmlərin konteksti çərçivəsində bizim mənəvi həyatımızda əxlaqi mühakimələri tədqiq edən müəyyən intizamdır. O, cəmiyyət üzvləri qərarları, qanun və qaydaları necə qəbul edir, ona əməl edərkən nəyi düzgün həyata keçirir, nədə səhvə yol verir? kimi suallara cavab verir” (7).

Bioetika elmi təcrübələrə, tibbi praktikaya tətbiq edilən normativ etikadır. Onun əsas prinsiplərinə düzgünlük, sərbəstlik, yaxşılıq, ziyan verməmək və ədalət aiddir. Praktikada, həyatda bir çox davranışlar, münasibətlər mövcuddur. Bu münasibətlərdə ailə üzvləri, qohumluq, müdir-işçiləri, həkim-xəstə, müəllim-şagird, şagird-şagird, yol polisi-sürücü, alıcı-satıcı, sürücü-sərnişin və başqa münasibətlərdə bioetik prinsiplərə tam əməl olunmalıdır ki, bu həm insanların sağlamlığına və ekoloji problemlərin həllinə kömək göstərsin. Onların pozulması təbiətdə və cəmiyyətdə bir sıra sağalmayan yaralar, çatlar əmələ gətirir.

Bioetik davranış və münasibətlərə insanların canlılarla, o cümlədən, heyvanlarla ünsiyyəti aiddir. Buraya evdə saxlanılan, sirkdə istifadə olunan, kənd təsərrüfatı, ev heyvanları, xəstəlik törədən, xəstəlik yayan, yırtıcı, vəhşi və s. heyvanlar daxildir. Başqa bir etik davranış insanların bitkilərlə münasibətində nümayiş etdirilir. Belə ki, insanlar bitkilərdən müxtəlif məqsədlər üçün istifadə edirlər. Bitkilərlə, insanlar tənəffüs mənbəyi, qida, dərman, tikinti materialı, zövq mənbəyi, geyim, kağız və başqa məqsədlərlə münasibətdə olurlar. Bu münasibətlərdə insanlar bioetik prinsipləri gözləməlidirlər.

Biologiya elmi canlıları öyrəndiyindən onun tədrisində şagirdlərdə bioetik davranışların formalaşdırılması vacib vəzifələrdəndir. Fənnin mövzularının tədrisində fəal təlim metod və vasitələrinin tətbiqi ilə şagirdlərə bioetik davranışlarını aşılanması imkanları genişdir. Bu imkanlar bitkilərin quruluşu, yayılması, çoxalması, inkişafı, müxtəlifliyi onlarda gedən bioloji proseslərə dair mövzuların tədris edilməsidir. Müəllim bitkilərə dair mövzuların tədrisində onu həyatla,

bitkinin digər canlılar, o cümlədən insanlar üçün əhəmiyyəti ilə əlaqələndirərək onlarla davranış mədəniyyətini şagirdlərdə formalaşdırır. O, dərslərində qeyd edir ki, Azərbaycan Respublikasının ərazisi zəngin floraya malikdir. Bitkilərin varlığı yer üzündəki canlıların həyatı üçün çox vacibdir. Belə ki, onlar canlılar, o cümlədən oksigen, su, qida kimi əsas ehtiyacları ödəyir. Bitkilər bu ehtiyacları yer üzərində təmin etməklə insanların sağlamlığında mühüm rol oynayır, onlarda xoş əhval-ruhiyyə yaradır. Aqrar İnkişaf Könüllüləri Vətən Müharibəsində şəhid olmuş qəhrəmanlarımızın xatirəsinə həsr olunmuş ağacəkmə aksiyasına başlayıb. Belə bir aksiya Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı ilə əməkdaşlıq çərçivəsində keçirilmişdir. Könüllülər rayonlarımızda şəhidlərin sayı qədər ağac əkməyi planlaşdırmışlar. 2783 xatirə ağacının əkiləcəyi kampaniyanın işğaldan azad olunmuş ərazilərdə də təşkili nəzərdə tutulur. Bunlar təbiətin qorunmasına bioetik münasibətlərdir. Lakin təəssüflər olsun ki, insan övladı bu kimi vacib amilləri bilərək meşələrimizə və yaşıllıqlarımıza ögey, etikadan kənar münasibət bəsləyirlər. Meşələrimizi qırır və yaşıllıqları məhv edirlər. Bu gün meşələrə, yaşıllığa qarşı hücum insanın sağlamlığına qarşı yönəlmiş ən ağır cinayətdir. Ağacları kəsib yanacaq kimi istifadə edən, yaşıllıqları məhv edib yerində çoxmərtəbəli binalar tikən insanlar bilməlidirlər ki, bununla onlar gələcəyimiz olan uşaqların sağlamlığına və normal inkişafına, həmçinin ekologiyaya böyük zərbə vururlar.

15 noyabr 1988-ci il – Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, xüsusilə ekoloji təcavüzünün başlandığı tarixdir. Ermənilər tərəfindən Şuşada tarixi Topxana meşəsinin yandırıldığı gündür. Həmin gün ermənilər digər cinayətlərlə yanaşı, Azərbaycan ərazisində ekoloji soyqırımı – ekosid törətmişlər. Topxana meşəsi yandırılmış, nadir ağaclar məhv edilmiş, ölkəmizin ərazi bütövlüyünə, torpaqlarına qəsd edilərək, ekoloji soyqırımı həyata keçirilmişdir. Bunlar bioetik davranışların prinsiplərinə zidd olan insanlığa, təbiətə qarşı qəddarlıq, vandalizm münasibətləridir.

Müasir beynəlxalq hüquqa görə, ekosid (ekoloji soyqırımı) – transmilli cinayət olub, ekosistemin tamamilə və ya qismən məhv edilməsi məqsədilə canlı orqanizmlərə, ilk növbədə insanın yaşadığı ətraf mühitə qarşı, habelə bəşəriyyətin ekoloji təhlükəsizliyi əleyhinə yönələn ictimai təhlükəli əməldir.

Bioetik davranışın ikinci istiqaməti insanın heyvanlarla səmimi rəftarıdır. Əvvəllər heyvanları yalnız qida və nəqliyyat vasitəsi olaraq istifadə edən insanların zamanla dünyagörüşləri dəyişdi, onlara şəfqət göstərməyə, təlim verməyə, ram etməyə və onlarla dostluq qurmağa başladılar. Qurulan bu isti münasibət insanları heyvanların qorumasına sövq etdi. İnsanlar arasında heyvansevərlər çoxalmağa başladı. Bu insanların məqsədləri heyvanlarla daha yaxşı davranmağı təmin etmək, onları qorumaq və mehriban münasibət qurmaq olmuşdur. Heyvanlara qayğı təkcə insanların onlardan istifadəsi deyil, həm də böyük

tərbiyəvi əhəmiyyətə malikdir. Canlı təbiətə, heyvanlara məhəbbətdən insan xarakterinin ədalətlilik, şərəf, vətənpərvərlik və insanlara qarşı böyük ürəklilik münasibəti kimi əlamətləri yaranır. Heyvanlara sevgi öz-özünə yaranmır, onu uşaqlıqdan insanlara ailə və təhsil müəssisələri aşılayır. Heyvanlara qarşı şüurlu ünsiyyət nəinki insan şəxsiyyətini, onun mənəvi keyfiyyətlərini zənginləşdirir, hətta ağlın güclü inkişafına xidmət edir.

Biologiyadan heyvanların quruluşu, onların müxtəlifliyi, bioloji prosesləri, yayılması, çoxalması, qorunması, təbiət və cəmiyyət üçün əhəmiyyəti, zərəri kimi mövzuların öyrədilməsi müəllimə imkan yaradır ki, heyvanlarla bioetik davranışları şagirdlərə aşılasın. Müəllim dərslərində qeyd edir ki, heyvanlar bizim həyatımızın daimi bələdçisidir – yol yoldaşıdır. Biz onlarla hər addımda rastlaşırıq. Heyvanlar da bitkilər, su, hava, torpaq kimi təbiətin əsas komponentlərindəndir. Buna görə də Yer üzündən hər hansı heyvan növünün yoxa çıxması, yəni onun nəslinin kəsilməsi bir təbiət həlqəsinin birinin sıradan çıxması, ekoloji tarazlığın pozulması deməkdir. Müəllimlər tədris etdikləri fənnin tədrisində şagirdlərdə heyvanlarla təmas qaydalarını öyrətməlidir. O, müvafiq mövzuların tədrisində şagirdlərə heyvanlarla münasibətlərin bəzi məqamlarını çatdırır. Qeyd edir ki, əgər ailədə uşaqlara sevgi, qayğı yoxdursa, o ailədə böyüyən uşaq da bu hisslərdən uzaq olacaq və bu da onun ətraf aləmə xüsusilə bitki və heyvanlara nifrətlə yanaşmasına səbəb olacaq. Uşaqlara erkən yaşlarından ətraf mühiti qorumağı və sevməyi valideynləri öyrətməlidir. Heyvanlar uşaqların inkişafında aparıcı rola malikdir. Onlar uşaqların emosiyalarına, zehni, fiziki və sosial inkişafına olduqca mühüm təsir göstərir. Uşaqlar bitkiyə, heyvana, təbiətə, ətraf mühitdəki digər canlılara qarşı sevgi hissi ilə böyüməlidirlər.

Çox təəssüf ki, bir çox azyaşlılar heyvanlara işgəncə verməkdən həzz alırlar. Yeni il ərəfəsində satışı qadağan edilməsinə baxmayaraq, hələ də mağazalarda satılan partlayıcıların heyvanların ağızlarına qoyularaq, onların üstünə atılaraq partladılması hallarına rast gəlinir. Bu heyvanlara qarşı qeyri-etik münasibət nümunələridir. Bu hallara maraqla baxan böyüklər də vardır. Onlar düşünmürlər ki, uşaqlıqda belə hərəkətlərə yol verən insan böyüdüyü zaman daha böyük fəlakətlər törədə bilər. Üzücü hal odur ki, belə qəddarlığı, təkcə uşaqlar deyil, bəzi böyüklər də həyata keçirir. Bunlara ən yaxşı nümunələr kimi heyvan döyüşlərini: xoruzları, itləri, öküzləri, buğaları döyüşdürmək və bundan zövq almaqla yanaşı, pul da qazanılmasını göstərə bilərik. Sizcə belə hallara vəhşilikdən, qatillikdən başqa nə ad vermək olar?

Bioetik davranışın üçüncü istiqaməti insanlararası münasibətləri aşağıdakı kimi izah edir. Bu münasibətlərin bioetik davranışlar əsasında qurulması sağlamlığa müsbət təsir göstərir. Müəllim insanların quruluşu, psixologiyası, fizioloji proseslərini tədris edərkən qeyd edir ki, övlad-valideyn, şagird-müəllim,

valideyn-müəllim, şagird-şagird, həkim-pasiyent, müdir-işçi və digər fəaliyyətlərdə olan insanlar arasında müəyyən münasibətlər müşahidə olunur.

Bütün bunları dərslərində qeyd edən müəllim özü də belə davranışlar nümayiş etdirməlidir. Şagird-müəllim və müəllim-valideyn münasibətlərində o, şagirdlərin şəxsiyyətinə hörmətlə yanaşır, sevgisini, məhəbbətini nümayiş etdirir. Şagirdi bir şəxsiyyət kimi görür, onun mənliyinə, şəxsiyyətinə toxunan hərəkətə yol vermir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji taktikalarından istifadə edərək, xoş, isti münasibət yaradır. Müəllim-valideyn münasibətləri, yorucu iclaslar, yığıncaqlar, təlim-tərbiyədəki problemlərin qabardılmasından ibarət olmamalıdır. Əksinə, müəllim bilməlidir ki, bunlarla valideyn-övlad münasibətlərini poza bilər. Bu sadəcə valideynə olan münasibətə təsir etmir, eyni zamanda evdə danlanan və tənbeh olunan şagirdlə müəllimin münasibətinə və müvafiq olaraq onun məktəbə və təhsilə olan marağına da mənfi təsir göstərir. Müasir müəllim ailə ilə məktəb arasında vahid tərbiyəvi mühüti yaratmağı bacarandır. Dünya təcrübəsi göstərir ki, müəllim təlimi uğurlu təşkil etmək üçün hər görüşdə valideynlərin rəyini öyrənməlidir. Şagirdlərlə olduğu kimi onların valideynləri ilə də etik davranışlara əməl etməlidir.

Həkim-pasiyent münasibətlərinə gəldikdə öz sənətini ürəkdən sevən, ona sadiq olan hər bir tibb işçisi insanların həyatını xilas etməyi özünə borc bilməli və Hippokrat andına sadiq olmalıdır. Tibb işçisi öz vəzifə borcunu başa düşməli xəstənin şikayətlərini yüngülləşdirmək üçün bütün lazımi tədbirləri görməlidir. Tibb bacısı xəstədə həkimə inam hissini artırmalı, xəstə ilə tez-tez təmas yaratmalıdır. O, həmişə xəstələrin arasında olur, onun xəstələrə yaxın, isti münasibəti sağlamlığa psixoterapevtik təsir edir. Unutmaq olmaz ki, insan xəstələnən zaman daha kövrək, daha həssas olur. Qayğıya, xoş sözə ehtiyac duyur, ona qulluq edən tibb bacısından diqqət, xoş rəftar gözləyir. Bunun üçün tibb bacısı danışığına, geyiminə, hərəkətlərinə diqqət etməli, xəstələri təmkinlə dinləməlidir.

Nəzakətli və mehriban rəftar, xoş təbəssüm tibb bacısının öz xəstələrinə qayğısının simvoludur. Həkim və tibb bacısının xəstə ilə bioetik davranışı xəstənin sağalmağa inamını artırır. El arasında deyirlər, xəstənin sağalmasına həkimin səmimi, etik sözləri dərmandan daha güclü təsir göstərir.

Nəticə: Ümumtəhsil məktəblərində biologiyanın tədrisində şagirdlərə bioetik davranışların formalaşdırılması imkanları genişdir. Həmin imkanlar əsasında müəllim mövzulara uyğun müvafiq metodların tətbiqi ilə şagirdlərə bioetik davranışları aşılayır. Bioetik davranışlara yiyələnmiş məzun gələcək həyat fəaliyyətində canlılarla xoş rəftar edir, mərhəmətli şəxsiyyət kimi formalaşır.

***Ədəbiyyat***

1. *Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekoloqların məlumat kitabı. Bakı: Elm, 2003. 516 s.*
2. *"Yer və insan" jurnalı, 01/09/2019*
3. *Hüseynov Ə.M., Məhərrəmov Ə.M. Biologiyanın tədrisi metodikası. Bakı, 2003*
4. *Hacıyeva H.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində bitkilərə dair tibbi bilik və biologiyanın tədrisində bitkilərə dair tibbi bilik və bacarıqların aşılanması. Bakı, 2015*
5. *Hacıyeva H.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində heyvanların insan sağlamlığında əhəmiyyətinin öyrədilməsi. Bakı, 2016*
6. *Ümumtəhsil məktəbi üçün biologiya dərslikləri. Bakı, 2020*
7. *İnternet materialları. https://azertag.az, http://www.ikisahil.com*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN (IX-XI SİNİFLƏRDƏ) SXEM VƏ CƏDVƏLLƏRLƏ TƏDRİSİ METODİKASI

**S.T.İbadova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ibadovasevda2018@gmail.com*

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində sxem və cədvəllərdən istifadənin zəruriliyi əsaslandırılmışdır. Materialın sxem və cədvəllərlə ümumiləşdirilməsinin üstünlükləri qeyd olunur. Dərsin müxtəlif mərhələlərində sxem və cədvəllərdən istifadənin əhəmiyyəti misallarla təsdiq edilir. Problem həllinə dair müəllimlərə tövsiyələr verilir.*

## МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ (IX-XI КЛАССЫ) СО СХЕМАМИ И ТАБЛИЦАМИ

***Резюме***

*В статье обоснованаважность использования схем и таблиц в преподавании биологии в общеобразовательных школах, а также отмечены преимущества обобщения материала схемами и таблицами. Важность использования диаграмм и таблиц на разных этапах урока подтверждается примерами. Учителям даются рекомендации, как решить проблему.*

## METHODS OF TEACHING BIOLOGY IN SECONDARY SCHOOLS (GRADES IX-XI) WITH SCHEMES AND TABLES

***Summary***

*The article substantiatesthe need to use diagrams and tables in the teaching of biology subject in secondary schools. The advantages of summarizing the material with diagrams and tables are noted. The importance of using diagrams and tables at different stages of the lesson is confirmed by examples. Teachers are given recommendations on how to solve the problem.*

***Açar sözlər:*** *sxem, cədvəl, biologiya, məktəb, tədris, kompüter, fotosintez*
***Ключевые слова:*** *схема, таблица, биология,школа, обучение, компьютер, фотосинтез*
***Key words:*** *scheme, table,biology, school, teaching, computer, photosynthesis*

Yaşadığımız dövr əvvəlki dövrlərdən informasiyanın həddindən artıq bol olması ilə fərqlənir. Cəmiyyətdə informasiya sistemi elə qurulub ki, ətraf mühitdən daim yeni məlumatlar alırıq. Elə sahələr vardır ki, həmin sahələri informa-

siya mübadiləsi olmadan təsəvvür etmək mümkün deyil. Təhsil sahəsi həmin sahələrdəndir. Tədris prosesində şagirdlər müntəzəm olaraq yeni informasiyalar qəbul edirlər. Hər gün qəbul edilən məlumatları yadda saxlamaqda, onların nə qədər faydalı və ya zərərli, müsbət və ya mənfi olmasını müəyyənləşdirməkdə yardımçı vasitələr vardır. Bunlara cədvəllər, sxemlər, qrafik təsvirlər, diaqramlar və s. aiddir (3, s.19).

Ümumtəhsil məktəblərində biologiyanın tədrisində fəal dərsin müxtəlif mərhələlərində (motivasiya, tədqiqatın aparılması, məlumatın müzakirəsi, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə, qiymətləndirmə) sxem və cədvəllərdən geniş istifadə olunması təlimin keyfiyyətini yüksəldir, vaxta qənaət edilməsi imkanını yaradır. Sxem və cədvəllərdən yuxarı siniflərdə, xüsusilə IX-XI siniflərdə istifadə edilməsi daha faydalı olur. Həmin siniflərdə mövzular geniş və mürəkkəb olduğundan bioloji qanun və qanunauyğunluqların, proseslərin ümumiləşdirilməsi lazım gəlir. Mövzuların ümumiləşdirilməsində daha çox cədvəl və sxemlərdən istifadə edilir.

X sinif biologiyasının mövzularını problem baxımından təhlil etdikdə məlum oldu ki, onların hər birinin sxem, cədvəl və modellərlə ümumiləşdirilməsi imkanı genişdir. Belə ki, "Biosferdə istehsal və istehlak" (6, s. 7-51) tədris vahidinin hər bir mövzusunun, yəni canlılarda gedən bioloji proseslərin ümumiləşdirilməsi şagirdlərin fəallığını artırır, mənimsəməni yüksəldir, yadda saxlamanı asanlaşdırır. Digər mövzu və tədris vahidlərinin də materiallarının sxem və cədvəllərlə ümumiləşdirilməsi mümkündür. Əsas məsələ müəllimin bu sahədəki bacarığıdır. Müəllim dərsə hazırlaşarkən mövzunun sxem və cədvəllər, modellər vasitəsilə ümumiləşdirilməsi imkanlarını nəzərdən keçirir və bu işdə şagirdlərin fəaliyyətinə imkan yaradır. Məsələn, "Fotosintezin mexanizmi" (6, s. 47) mövzusunun sxem və cədvəllərlə tədrisinə diqqət edək.

Müəllim dərsin motivasiya mərhələsində belə bir sxemi şagirdlərə göstərir.



Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə fotosintezə aid müxtəlif slaydları göstərir, onlara suallar verir.

- Bu şəkildə nə görürsünüz? Bu günün hansı vaxtıdır? Prosesin getməsi üçün işıq, su, karbon qazının olması vacibdir, yaşıl olan bütün bitkilərdə gedir. Bu proses olmasa, təbiət məhv olar.

- Sizcə söhbət hansı bioloji prosesdən gedir?

Şagirdlər aşağı siniflərdən aldıqları biliklər əsasında bioloji prosesin fotosintez olduğunu qeyd edirlər.

Müəllim BİBÖ cədvəlini lövhədə çəkərək şagirdlərə sualla müraciət edir

- Fotosintez prosesi haqqında nə bilirsiniz? Şagirdlərin bildikləri cədvəlin birinci sütununda, öyrənmək istədikləri ikinci sütununda qeyd edilir. Cədvəlin üçüncü sütunu dərsin sonunda doldurulur.

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| 1.fotosintez işıqda gedir;<br>2. xlorofil hesabına baş verir;<br>3. mürəkkəb üzvi maddələr yaranır. | 1. fotosintez prosesinin mexanizmini;<br>2. fotosintezin məhsuldarlığını. | |

Tədqiqat sualı. Fotosintez prosesi hansı mexanizm üzrə gedir və ona dair təqdimat və ya məruzə hazırlayarkən nələrə diqqət edilməlidir?

Tədqiqatın aparılması mərhələsində şagirdlər qruplara bölünür, onlara iş vərəqləri üzrə çalışmalar verilir.

İş vərəqi 1. Fotosintez prosesinin sxeminə baxın, onu oxlar üzərində rəqəmlərlə qeyd edin: 1. İşıq şüası; 2. Karbon qazı – $CO_2$; 3. Oksigen qazı – $O_2$; 4. Su və mineral maddələr; 5. Üzvi maddələr.

II. Fotosintezin gedişinə təsir göstərən amilləri sxemlə ümumiləşdirin.




İş vərəqi 2. I. Potensiallar fərqinin yaranması prosesini izah edin.

II. Mətni oxuyun, fotosintez prosesinin işıq və qaranlıq mərhələlərində gedən reaksiyaları sxemlə ümumiləşdirin.




İş vərəqi 3.I. Cədvəli doldurun:

| Fotosintezin məhsuldarlığı | Fotosintezin təbiətdə rolu |
|---|---|
| | |

II. Fotosintez sxemində 1,2,3,4 rəqəmləri ilə göstərilənləri cədvəllə ümumiləşdirin.




*Fotosintez prosesinin sxemi*

Hər bir qrup iş vərəqi üzrə verilmiş tapşırıqları yerinə yetirir. Sonra qrup lideri işi təqdim edir. İşin nəticələrini yoldaşlarına izah edirlər. Qrup işinin nəticələri əsasında təkliflər müzakirə olunur, yeni ideyalar söylənilir. Şagirdlərə suallarla müraciət olunur, onlar mülahizələrini əsaslandırmağa sövq edilir. Suallar:

1. Bitkilərdə fotosintez prosesi necə gedir?
2. Bitkilərdə gedən fotosintez prosesini necə ümumiləşdirmək olar?
3. Fotosintez prosesinin gedişinə dair təqdimatı necə hazırlayarsınız?

4. Fotosintez prosesinin mexanizminə dair məruzənin planını necə qurmaq olar?

Sualları cavablandıraraq şagirdlər yeni bilikləri əsasında BİBÖ cədvəlini tamamlayırlar. Dərsin yaradıcı tətbiq etmə mərhələsində şagirdlərə "Fotosintez - həyatın təməl şərtlərindən biridir" mövzusunda təqdimat və ya məruzə hazırlamaq tapşırırlır. Şagirdlərin hazırladıqları təqdimat və məruzələr qiymətləndirilir.

Tədqiqat nəticəsində müəyyən olundu ki, materialın ümumiləşdirilməsi, konkretləşdirilməsi, müzakirəsi, asan yadda saxlanması, hadisə və proseslərin izahı üçün sxem və cədvəllərdən istifadə olunması əvəzolunmaz vasitələrdir.

Tədqiqat işində ümumtəhsil məktəblərində biologiyanın tədrisində sxem və cədvəllərdən istifadənin üstünlüyü qeyd olundu. Onun təşkilinin imkan və yolları aydınlaşdırıldı. Müəllimlər həmin fikir və ideyalardan tədrisdə istifadə edə bilərlər. Çünki biologiyanın tədrisində materialın sxem, cədvəl və modellərin köməyi ilə ümumiləşdirilməsi dərsdə həm müəllimin, həm də təhsilalanların fəallığını artırır, təlimin keyfiyyətini yüksəldir.

***Ədəbiyyat:***

1. *İbrahimov F., Hüseynzadə R. "Pedaqogika". I cild. Bakı, 2012.*
2. *Hüseynov Ə.M., Məhərrəmov Ə.M. Biologiyanın tədrisi metodikası. Bakı, 2003.*
3. *Hacıyeva H.M. və b. Biologiyanın ümumiləşdirici sxemlərlə tədrisinin mənimsəməyə təsiri. Bakı, 2011.*
4. *Hacıyeva H.M və b. Ümumtəhsil məktəblərində zoologiyanın tədrisində ümumiləşdirici sxemlərdən istifadənin mənimsəməyə təsiri. Bakı, 2011.*
5. *Hacıyeva G. "Biologiyanın tədrisi metodikasından mühazirələr". Bakı, 2016.*
6. *Məmmədova N., Həsənova B., Mahmudova K., Fətəliyeva L. "Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Biologiya fənni üzrə dərslik". Bakı, 2018.*
7. *Məmmədova N., Həsənova B., Mahmudova K., Fətəliyeva L. "Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Biologiya fənni üzrə dərsliyin metodik vəsaiti". Bakı, 2018.*

# PEDAQOJİ VALEOLOGİYANIN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYANIN TƏTBİQİ

**T.B.Binnətzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*tamilla.binnetzade.BIO2002M@adpu.edu.az*

***Xülasə***

*Məqalə ali məktəblərdə pedaqoji valeologiya fənninin tədirsində dahi Nizami Gəncəvinin əsərlərindəki valeoloji fikirlərlə inteqarsiyasına həsr olunmuşdur. Orada dahi Nizami Gəncəvinin valeoloji, yəni insan sağlamlığına dair çox faydalı fikirləri araşdırılır, fənnin tədrisinin belə dahi pedaqoq, psixoloq, yazıçı və şairlərin sağlamlıqla bağlı insanlara təsiredici fikirləri ilə inteqrasiyasının əhəmyiyəti izah edilir. Fənnin tədrisində fənlərarası inteqrasiyanın imkanları aydınlaşdırılır, onun tətbiqinə dair tövsiyələr verilir.*

## ПРИМЕНЕНИЕ МЕЖДИСЦИПЛИНАРНОЙ ИНТЕГРАЦИИ В ПРЕПОДАВАНИИ ПЕДАГОГИЧЕСКОЙ ВАЛЕОЛОГИИ

***Резюме***

*Статья посвящена интеграции гения Низами Гянджеви с валеологическими идеями в преподавание педагогической валеологии в вузах. В нем исследуются очень полезные идеи гения Низами Гаяви о валеологии, то есть о здоровье человека, и объясняется важность интеграции преподавания этого предмета с влиятельными идеями таких гениальных педагогов, психологов, писателей и поэтов о здоровье. Уточнены возможности междисциплинарной интеграции в преподавании предмета, даны рекомендации по ее применению.*

## APPLICATION OF INTERDISCIPLINARY INTEGRATION IN THE TEACHING OF PEDAGOGICAL VALEOLOGY

***Summary***

*The article is dedicated to the integration of genius Nizami Ganjavi with valeological ideas in the teaching of pedagogical valeology in universities. There are very useful ideas of the genius ideas of Nizami Gayavi about valeology, that is, about the health of man, and explains the importance of the integration of teaching this subject with the influential ideas of such genius pedagogues, psychologists and psychologists. The possibility of interdisciplinary integration in the teaching of the subject, given the recommendations on its application.*

***Açar sözlər:*** *valeologiya, pedaqogika, inteqarsiya, fənlərarası əlaqə, prinsip, varislik, fəallıq, sağlamlıq*

***Ключевые слова:*** *валеология, педагогика, интеграция, междисциплинарное общение, принцип, наследование, активность, здоровье.*
***Key words:*** *valeology, pedagogy, integration, interdisciplinary communication, principle, inheritance, activity, health*

*"Valeologiya"* sözünün mənası sağlamlıq, sağlam olmaq, can sağlığı deməkdir. Bu elm ilk dəfə sağlamlığın formalaşdırılmasının prioritet strategiyasını müəyyənləşdirməyə imkan vermişdir. Valeologiya insan orqanizminin adaptasiya imkanlarını, yaxud onun daim dəyişən mühitə uyğunlaşmasını müəyyən etməyə kömək edir. Buradan görünür ki, tibb elminin əsas anlayışı xəstəlik olduğu halda, valeologiyanın başlıca məfhumu isə sağlamlıqdır (1, s.15).

Müasir dövrdə elm və təhsilimiz sürətlə inkişaf edir. Son 50 il müddətində əldə edilmiş nailiyyətlər keçmiş dövrün bir neçə əsri müddətində əldə edilmiş nailiyyətlərə bərabər sayıla bilər. Bu isə insan cəmiyyətinin intellektual səviyyəsinin böyük sürətlə artdığını göstərir. Bunun nəticəsində valeologiya elmi təşəkkül tapmış və formalaşmağa başlamışdır.

Valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsi müasir beynəlxalq təcrübə və milli ənənələr əsasında onun məzmununun və strukturunun yeniləşdirilməsi, təlim və tərbiyənin vahidliyinin təmin olunması qarşıda duran ən mühüm vəzifələrdən sayılır. Son illər valeologiya elminin təkmilləşdirilməsinə, onun inkişafına diqqət artırılmışdır.

Valeologiya respublikamızın elm və təhsil müəssisələrində nisbətən yeni fəndir. Müasir dövrdə dünyada nöqsanlı uşaqların çoxluq təşkil etdiyi zamanda təhsilverənlərin və təhsilalanların valeoloji tərbiyəsinin vacibliyi çox böyük mənəvi əhəmiyyət kəsb edir. Bu baxımdan fənnin ali məktəblərdə, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris edilməsi təqdirəlayiqdir. Valeologiya fənni artıq ikinci ildir ki, magistratura təhsili səviyyəsində tədris olunur (1, s.18).

Pedaqoji valeologiyanın prinsipləri pedaqogikanın qəbul edilmiş ümumi prinsiplərinə (məqsədəuyğunluq, elmilik, şüurluluq, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, nikbinlik, hörmət və tələbkarlıq, tələblərdə vahidlik, aşkarlıq, sözlə əməlin birliyi, varislik, fəallıq, əyanilik, sistemlilik, ardıcıllıq, müyəssərlik və s.) asaslanır (8, s. 158).

Pedaqoji valeologiya fənninin tədrisində inteqrasiyanın tətbiqi təhsilin əsas problemlərindəndir. Fənnin məzmununda inteqrasiyanın tətbiqi imkanları genişdir. Fənnin məzmununun dahilərin sağlamlıqla bağlı fikirləri ilə əlaqələndirilməsi onun daha maraqlı və yaddaqalan olmasını əsaslandırır. Bu inteqrasiya təlimi maraqlı etməklə yanaşı, təhsilalanların humanist, demokratik ruhda tərbiyəsinə müsbət təsir göstərir. Bu baxımdan fənnin tədrisində dahi mütəfəkkirlərimiz, pedaqoq, yazıçı və şairlərimizin bu sahədəki fikirlərindən istifadə edilməsi müsbət nəticə verir. Dahi şairimiz, təbiətşünas Nizami Gəncəvinin əsərlərində

valeoloji fikirlər daha çoxluq təşkil edir. Onun valeoloji fikirlərinin fənnin məzmunu ilə inteqarsiyasına geniş imkanlar mövcuddur.

Fənni tədris edən müəllim onun dahiyanə fikirlərini dərsə gətirir, fənnin məzmunu ilə inteqarsiya aparır. Məsələn, Nizami «Leyli və Məcnun» əsərinin başlanğıcında «Oğlum Məhəmmədə nəsihət» sərlövhəsi altında elm öyrənməyi həyatın ən zəruri bir şərti kimi göstərir və oğluna iki elmi öyrənməyi məsləhət görür. Yazır ki:

*Hərçəndi sənətin çox rütbəsi var,*
*Həyata faydalı bir elm axtar.*
*Elmlər elmidir demiş peyğəmbər*
*Din elmi, təbabət elmi müxtəsər.*
*Fəqih olsan əyər itaətkar ol,*
*Hiylədən, riyadan daim kənar ol.*
*İsa mərifətli həkim ol, amma,*
*İnsanı öldürən bir həkim olma (4, s.162)*

Nizami sağlamlığı həyatın əsası hesab edərək bu sahədə çox orijinal fikirlər yürüdür. Qeyd edir ki:

*İnsanın bədəni olmasa möhkəm,*
*Yazarkən süstləşər əlində qələm (6, s. 612).*

Nizamiyə görə bədən sağlam olduqda həyatda hər şey insana xoş gəlir, o hər yerdə öz məqsədinə nail olur, həyatda ən acı şeylər belə ona dad, ləzzət verir. Qeyd edir:

*Saz olsa qarğanın əgər bədəni,*
*O, Bəsti ənciri bilər hər dəni (6, s.612).*

Nizami sağlamlığın əsas şərtlərindən biri olaraq hər şeydə, yeməkdə, içməkdə, hərəkətdə, şadlıq və ya kədərdə, bir sözlə həyatın bütün sahələrində etidalı pozmağı, həddini aşmağı, israfa yol verməyi pisləyir. Onun fikrincə, bədən üçün ən zəruri olan şeylər də qədərindən artıq istifadə edildikdə zərər verir. Göstərir ki:

*Yağdan qüvvət alıb yansa da çıraq,*
*Çırağı söndürər çox olanda yağ (5, s.164).*

və ya

*Susuzluq yatıran sərin su xoşdur,*
*Artıq içilərsə faydasız olur (5, s.158).*

Nizami bu əsas ideyanı daha bariz şəkildə və daha maraqlı ifadə edir. Onun fikrincə bədənin yaşaması üçün ən əsas və ən zəruri şeylər belə, həddindən artıq qəbul edildikdə orqanizmə böyük zərbə vurur və hətta onu tamam məhv edir. Nizaminin «Leyli və Məcnun» əsərində oxuyuruq:

*Lazım olanı ye məqbul qədərdə,*
*Halal olsun sənə haram şeylər də (5, s. 164).*

Nizami hər şeydə etidalın faydasını sübut etmək üçün deyir ki, zərərli şeyləri də (istiot, içki və s.) öz qaydasında işlətsən bədənə fayda verər. O, insanlara şərabdan uzaqlaşmağı məsləhət görür:

*Şərab halalsa da, mindirmə başa,*
*O haramzadədən uzaqda yaşa! (5, s. 286).*

Nizami orqanizmin əsasını xaricdən bədənə daxil olan qidalar hesabına təşəkkül etdiyini çox düzgün izah etmişdir. Göstərmişdir ki:

*Hərçəndi kişinin kişiliyi var,*
*Canının qüvvəti yeməklə olar (5, s. 229).*

Nizami öz dövrünün təbabət elminə əsaslanaraq deyir ki, kökəlmək, piylənmək zərərdir. O, həddən artıq köklüyün zərərini göstərir. Buna görə də yemək-içməkdə etidalı pozmamağı məsləhət görür. Yazır:

*İnsan sağlam olar az-az yeməkdən,*
*Çox qalmaz dünyada əsla çox yeyən (5, s. 613).*

Nizamiyə görə həddən artıq yeyən adamların ömrü az olur. O, hətta orqanizm üçün ən əsas qida və oksigen mənbəyi olan qanın bədəndə artıq və ya əskik olmasının patoloji bir hal olduğunu göstərir. O, bir tərəfdən az yemək nəticəsində orqanizmin özünü lazımi qida maddələrilə təmin edə bilmədiyini və tələf ola biləcəyini qeyd edir, digər tərəfdən də həddən artıq yeməyin bədən üçün təhlükəli olduğunu yazır. Onun fikrincə, çox yeməklə çox yaşamaq mümkün deyil. Göstərir ki:

*Əgər çox yaşasaydı çox yeyənlər cahanda,*
*Çox yemişlər yaşardı, ölüm olmazdı onda (2, s. 102-103).*

Nizamiyə görə bədən sağlamlığı normasından çıxdıqda pəhriz böyük əhəmiyyətə malikdir. Nizaminin pəhriz haqqındakı təbliğatı elmi biliklərə əsaslanır. O, pəhrizi axıra qədər saxlamağın orqanizmə mənfi təsirini göstərməklə bərabər, onun törətdiyi fəsadları da düzgün təsvir edir. Yazır ki:

*Xəstə qurtarınca tünd qızdırmadan,*
*Yenə pəhrizini pozduğu zaman,*
*Qızdırma bir daha gəldi bədənə,*
*Əvvəlki xəstəlik qayıtdı yenə (2, s. 242).*

Nizami havada da etidal pozulduqda, yəni istisi soyuğu birdən artıqda, fəsillər normal keçmədikdə orqanizmə çox böyük zərər gətirdiyini göstərir. Göstərir ki, sinir sistemi sarsılaraq öz normasından çıxsa, onun əvvəlki vəziyyətə qayıtması mümkün deyildir. O, sinir sisteminin orqanizmin normal yaşayış üçün əhəmiyyətini hiss edir. Sinir xəstəliyinin qarşısını əvvəldən almaq üçün ona vaxtında istirahət verməyi lazım bilir.

Nizami nikbin olmağı, həyatı şadlıqla keçirməyi ömrün, çox yaşamanın ən əsas amillərindən biri hesab edir. O, həmişə sinir sistemini zərbələrdən qorumağı məsləhət görür. O, gülməyi, şadlığı orqanizm üçün faydalı hesab etməsinə

baxmayaraq burada da etidalı pozmamağı məsləhət görür. Qeyd edir ki:

*Yetər bunca ağlayıb bunca gülməyin,*
*Göz doyunca ağlayıb, uğununca gülməyin.*
*Hər insanın şadlığı, qəhəri var dünyada,*
*Sevincin də, qəmin də təhəri var dünyada (2, s. 137).*

Nizamiyə görə ömrün azalmasına səbəb olan amillərdən biri də işsiz, bekar dayanmaq, tənbəllikdir. O, sağlamlığın şərtlərindən birini təlqində görür. Onun fikrincə, insan bədbin olmamalı və həmişə öz-özünə ruh verməlidir. O, hətta xəstə adam belə «sağlamam» desə sağala bilər fikrini dəstəkləyir. Ümumiyyətlə, Nizami sinir sisteminin orqanizm üçün nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu dərk edərək qeyd edirdi:

*İnləmə «xəstəyəm» deyə, ey filan,*
*Desən ki: «sağlamam» sağlam olarsan (6, s. 197).*

Şair orqanizm üçün yuxunu qida qədər qiymətləndirmişdir. O, bədənin yorulub qüvvədən düşməməsi üçün yuxusuz, həm də ac qalmamağı tövsiyə edirdi.

Çox maraqlıdır ki, dahi mütəfəkkir bir çox xəstəliklərin səbəbini havada, gözə görünməyən başlanğıclarda (mikroorqanizmlərdə) görmüşdür. Nizami böyük dühasilə, hələ mikroskop kəşf edilməzdən çox əvvəl havada xəstəliklər törədən xəstəlik törədicilərinin olduğunu duya bilmişdi. Göstərmişdi ki:

*Əgər sağlam olsa hava bu zaman,*
*Dəydiyi şeylərə gətirməz ziyan.*
*Yox əgər olarsa havada zəhər,*
*Dəydiyi hər şeyi yəqin məhv edər (6, s. 490).*

Şair nəinki bu cür gözə görünməyən başlanğıcların olduğunu, hətta onların günəş şüaları altında məhv edildiyini duymuşdu. O, vəba xəstəliyinin səbəbini rütubətli havada axtarırdı. Göstərirdi ki, vəba payız fəsli ilə başlayır. Rütubətli atmosferdə günəş şüaları öz təsirini göstərə bilmədiyi üçün xəstəliklər daha çox baş verir. Yazır ki:

*Havaya yağışdan nəm çöksə əgər,*
*Günəş o çirkləri silib məhv edər,*
*Artıq rütubətdən törəyər vəba,*
*Tənəffüs çətindir belə havada (6, s. 420).*

N.Gəncəvinin əsərlərindən götürülmüş sağlamlığa sövq edən belə dəyərli fikirlərin dərsə gətirilməsi, mövzu ilə inteqrasiyanın tətbiqi tələbələri daha çox cəlb edir, mənimsəməni yüksəldir. Eyni zamanda təhsilalanların valeoloji təhsil və tərbiyəsinə müsbət təsir göstərməklə, onlarda dahilərimizin əsərlərinin mütaliəsinə maraq oyadır. Bütün bunlar pedaqoji valeologiya fənninin tədrisi əhəmiyyətini artırır, keyfiyyətini yüksəldir.

***Ədəbiyyat***

1. *Sultanov R.İ. valeologiyanın digər elmlərlə əlaqəsi və onun tədrisində fənlərarası və fəndaxili inteqrasiyadan istifadə imkanları. Naxçıvan Müəllimlər İnstitutunun elmi xəbərləri. Naxçıvan 2021. №2, s. 15-19.*
2. *Nizami Gəncəvi. "Sirlər xəzinəsi". Bakı, 1981.*
3. *Nizami Gəncəvi. "Yeddi gözəl". Bakı, 1983.*
4. *Nizami Gəncəvi. "Leyli və Məcnun". Bakı, 1982.*
5. *Nizami Gəncəvi. "Xosrov və Şirin". Bakı, 1983.*
6. *Nizami Gəncəvi. "İsgəndərnamə". Bakı, 1982.*
7. *Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014*
8. *Bayramov Q.H. Valeologiya: Yeni elm sahəsinin təşəkkülü //APTPI-nun "Elmi əsərlər". Bakı 2018,N1 səh.158-159*
9. *Панфилова А.П. Инновационные педагогические технологии: Активное обучение: учебное пособие / А.П.Панфилова. М.: Издательский центр «Академия», 2009, 192 с.*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRƏ TİBBİ-GİGİYENİK DAVRANIŞLARIN AŞILANMASI

**A.M.Həmidli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*hemidliaysun45@gmail.com*

***Xülasə***

*Məqalədə ümumitəhsil məktəblərində biologiyanın tədrisində şagirdlərə tibbi-gigiyenik biliklərin aşılanması imkanları və yolları araşdırılır. Dərsliklərdə olan imkanlar təhlil edilir. Biologiyanın tədrisində şagirdlərə tibbi-gigiyenik biliklərin aşılanması yolları sistemləşdirilir. 8-ci sinifdə keçilən mövzular üzrə tibbi-gigiyenik biliklərin verilməsinə dair metodika nümayiş etdirilir. Problemin həllinə dair metodik tövsiyələr verilir.*

## УЧАЩИМСЯ, ПРЕПОДАЮЩИМ БИОЛОГИЮ В СРЕДНИХ ШКОЛАХ ВАКЦИНАЦИЯ ПРОТИВ МЕДИЦИНСКОГО И ГИГИЕНИЧЕСКОГО ПОВЕДЕНИЯ

***Резюме***

*В статье исследуются возможности и пути привития медико-гигиенических знаний ученикам при преподавании биологии в общеобразовательных школах. Анализируются возможности в учебниках. Систематизированы способы передачи медико-гигиенических знаний студентам при преподавании биологии. Демонстрируется методика передачи медико-гигиенических знаний по темам 8-го класса. Даны методические рекомендации по решению проблемы.*

## TO STUDENTS IN THE TEACHING OF BIOLOGY IN SECONDARY SCHOOLS VACCINATION OF MEDICAL AND HYGIENIC BEHAVIORS

***Summary***

*The article examines the possibilities and ways of imparting medical and hygienic knowledge to students in biology teaching in secondary schools. The possibilities in the textbooks are analyzed.Ways of imparting medical and hygienic knowledge to students in the teaching of biology are systematized.The methodology of imparting medical and hygienic knowledge on the topics covered in the 8th grade was demonstrated. Methodical recommendations are given to solve the problem.*

***Açar sözlər:*** *tibb, gigiyena, insan, orqanizm, ilk yardım, xəstəlik, tədris, bilik, davranış*

***Ключевые слова:*** *медицина, гигиена, человек, организм, первая помощь, болезнь, обучение, знание, поведение*

***Key words:*** *medicine, hygiene, human, organism, first aid, disease, teaching, knowledge, behavior*

Yaşadığımız dövrün insan sağlamlığını təhlükə altına alan ölkələrarası, ölkədaxili münaqişələr, təbii fəlakətlər, dünyanı bürüyən epidemiyalar, xüsusilə "Covid-19" pandemiyası şagirdlərdə tibbi-gigiyenik davranışların formalaşdırılmasını zəruri edir. Fənlərin, o cümlədən biologiyanın tədrisində şagirdlərə tibbi-gigiyenik biliklərin verilməsi, bacarıqların aşılanması ilə sağlam həyat tərzinin formalaşdırılması imkanları genişdir. Bu imkanlar biologiyanın məzmun xətlərindən birinin "İnsan və onun sağlamlığı" kimi müəyyən edilməsidir. Həmin məzmun xəttini əhatə edən mövzuların tədrisi şagirdlərə lazımı tibbi-gigiyenik bilik və bacarıqların aşılanması, şagirdlərdə müvafiq davranışların formalaşdırılması imkanlarına malikdir. Müəllim imkanlara uyğun olaraq şagirdlərə müvafiq mövzular üzrə tibbi-gigiyenik davranışlar aşılayır (2, s.132).

Biologiyanın tədrisinin əsas vəzifələrindən biri uşaqların və gənclərin tibbi biliklərlə məlumatlandırılması, sağlamlığın qorunması, sağlamlıqla bağlı yarana biləcək problemlərin qarşısının alınması, zərərli vərdişlərdən uzaqlaşmasına dair bilik, bacarıq və vərdişlər aşılamaqdır. Biologiya elminin tibb elmi ilə əlaqəsi çoxdan məlumdur. Biologiya həyat, canlılar haqqında elmdirsə, tibb elmi insan sağlamlığı və onun qorunmasından bəhs edir. İnsan sağlamlığında canlıların rolu çox böyükdür. Ona görə də bu elmləri sıx əlaqədə öyrənmək vacibdir. Biologiyada mövcud dərsliklərə nəzər saldıqda aydın olur ki, tibbi-gigiyenik bilik və bacarıqların aşılanması ilə lazımı davranışların formalaşdırılması baxımından geniş imkanlara malik mövzular yetərincədir. Fənnin tədrisində insan, onun quruluşu, fiziologiyası ilə yanaşı, sağlamlıq, sağlamlığa təsir edən amillər, xəstəliklərin profilaktika və müalicəsi, bədbəxt hadisələrdə ilk tibbi yardımların göstərilməsi, xəstələrə qulluq, şəxsi gigiyenaya aid biliklərin verilməsi mümkündür. Burada şagirdlərə sağlamlığa təsir edən müsbət amillərdən faydalanma üsulları, mənfi amillərdən qorunma tədbirləri öyrədilir. Eyni zamanda çoxalmaya mənfi təsir göstərən zərərli adətlər (siqaretin çəkilməsi, alkohollu içkilərin, narkotik maddələrin qəbulu), sağlam ailə həyatı, cinsi orqanların gigiyenası, xəstəliklərin profilaktikası, müalicəsi, dəri-zöhrəvi xəstəlikləri haqqında anlayışlar, QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) kimi təhlükəli xəstəliklərin qarşısının alınması tədbirlərinin öyrədilməsi mümkündür.

Sağlamlığı qorumaq və möhkəmləndirməyə kömək edən ən mühüm şərtlərdən biri gigiyena qaydalarına əməl etməkdir. Orta məktəblərdə hər bir şagirdə tibbi-gigiyenik qaydalara əməl olunmasının əhəmiyyətini öyrətmək mütləqdir. Bu qaydalara əməl olunması onların sağlamlığına xidmət edən davranışların nümayişi kimi qəbul edilməlidir. Uşaqlarda gigiyenik davranışlar məktəbəqədər

yaş dövründən başlanılır və sonraki təhsil mərhələlərində davam etdirilir. Uşaq müəssisələrində başlanan gigiyenik tərbiyə sadə gigiyenik fəaliyyətlərin icrasından daha geniş tibbi-gigiyenik davranışların formalaşmasına kömək edir. Məktəb məzunları üzərinə tibbi-gigiyenik cəhətdən yüksək mədəniyyət nümayiş etdirmək vəzifəsi düşür. Yaş dövrlərini, fizioloji xüsusiyyətləri, nəzərə almaqla tərbiyə və tədrisin ən səmərəli, asan metodik yollarını tətbiq etməklə məktəbdə yeniyetmələrin toplaşdığı digər müəssisələrdə tibbi-gigiyenik davranışların formalaşdırılması, sanitar maariflənmə prosesi həyata keçirilməlidir. Eyni zamanda nəzərə almaq lazımdır ki, koronavirus (Covid-19) pandemiyası səbəbindən şagirdlər gigiyenik qaydalara daha ciddi yanaşmalıdırlar. Onlar bilməlidirlər ki, virusla çirklənmiş səthlərlə təmas etdikdə, habelə virusla çirklənmiş əllə üzünə, gözlərinə, burnuna, ağzına toxunduqda xəstəliyə yoluxma ehtimalı artır. Bu xəstəliyin yayılmasının qarşısını almaq üçün şagirdlər qoruyucu vasitələrdən, dezinfeksiyaedici maddələrdən (spirt), maska və əlcəklərdən istifadə etməlidirlər (2, s.133).

Müəllim biologiya dərslərində şagirdlərə geniş tibbi-gigiyenik bilik və bacarıqların aşılanmasında bir sıra prinsiplərə diqqət etməlidir. Biologiyanın tədrisində tibbi-gigiyenik bilik və bacarıqların aşılanması imkanları nə qədər geniş olsa da, o uşaqlara necə gəldi öyrədilə bilməz. Tibbi bilik və bacarıqlar şagirdlərin yaşına,psixoloji inkişaf səviyyəsinə, pedaqoji-psixoloji tələblərə uyğun tədris edilməli, planlı şəkildə, sistemlə öyrədilməlidir. Öyrədilən tibbi biliklər şagirdlərin şağlamlığına xidmət etməli, onları narahat etməməli, qorxutmamalıdır.

8-ci sinif biologiyasının tədrisində şagirdlərə insan orqanizminin quruluşu və həyat fəaliyyəti haqqında ilkin biliklər verilir. Şagirdlər istinad-hərəki sistemin xüsusuiyyətlərini və onların düzgün inkişafı üçün gigiyenik şərait, qan-damar sistemi, həzm orqanlarının fəaliyyəti, dərinin müdafiə, ifrazat funksiyası, fiziki və əqli əmək gigiyenası, görmə və eşitmə gigiyenası haqqında bilik və bacarıqlar əldə edirlər (5, s.34).

Müasir dərslik komplektlərində şagirdlərə tibbi-gigiyenik bilik və bacarıqların verilməsi ilə müvafiq davranışların formalaşdırılmasına geniş imkanlar açılır. VIII sinif dərsliyində “Nəzarətçi və nizamlayıcı sistemlərimizin funksiya pozğunluqları”, “Orqanizmin qoruyucu sistemi”, “Tənəffüs orqanlarımızı qoruyaq”, “Həzm orqanlarımızı qoruyaq”, “Böyrəklərimizi qoruyaq”, “Zərərli vərdişlərə yox deyək” kimi mövzularda (3, s.37, 72, 82, 104, 117, 162) şagirdlərə tibbi-gigiyenik bilik və bacarıqların aşılanması onlarda həm məntiqi, həm də yaradıcı təfəkkürü inkişaf etdirir, sağlamlıqlarını qorumaq qaydalarına əməl etmək davranışı formalaşdırır. Məsələn:“Həzm sistemi və maddələr mübadiləsi” bəhsinin (3, s.90) tədrisində tibbi bilik və bacarıqların aşılanması daha asandır. Çünki insanlar arasında həzm sistemi xəstəlikləri çox geniş yayılmışdır. Onun qarşısının alınması isə insanın xəstəliklər haqqında hansı bilik və baca-

rıqlara, davranışlara malik olmasından asılıdır. Bəhsin sonundakı "Həzm orqanlarımızı qoruyaq" mövzusu ilə müəllim şagirdlərə həzm orqanları xəstəliklərinin səbəblərinə, onlardan qorunma yollarına, xəstəliklərin qarşısının alınması üçün tibbi-gigiyenik qaydalara əməl etməklə lazımı davranışın nümayişinə dair materialı çatdırır. Şagirdlərə xatırladılır ki, həzm sistemini təşkil edən orqanlarda yaranan dəyişikliklər digər orqanlar, hətta orqanizm üçün böyük problemlərə səbəb ola bilər. Onlara həzm sistemi xəstəliklərinin profilaktikası üçün bir sıra qaydalara uyğun davranış nümayiş etdirmələrini tövsiyə edir:

- Dişlərinizi və ağız boşluğunuzu gigiyenik qaydalara uyğun təmiz saxlayın;
- Qidalanma normalarına və qidalanma gigiyenasına əməl edin;
- Yemək vaxtlarını düzgün planlaşdırın və ona riayət edin;
- Qida rasionunuzda çox isti, soyuq, acı və duzlu qidalara az yer verin;
- Gün ərzində lazımı qədər suyun qəbul edilməsinə ciddi yanaşın;
- Süni hazırlanmış şirələrdən, qəhvəli içkilərdən az istifadə edin;
- Siqaret və narkotiklərə "yox" demək davranışını nümayiş etdirin;
- Gün ərzində lazımı miqdarda meyvə, tərəvəz qəbul olunmasını nəzərə alın;
- Qidanın tam çeynənilməsini təmin edin;
- Vaxtı keçmiş qida məhsullarından istifadə etməyin və s. (4, s.93)

Hər bir orqan və orqanlar sisteminin quruluşunu, xəstəliklərini, onlardan qorunma yollarını və müvafiq gigiyenik qaydaları öyrədərkən şagirdlərə əyani və praktik olaraq müxtəlif filmlərdən fraqmentlərin göstərilməsi müsbət nəticə verir. Çünki şagirdlər öyrəndikləri məlumatları əyani şəkildə gördükdə daha asan mənimsəyirlər. Şagirdlər tibbi-gigiyenik qaydaları öyrəndikdə, ailədə, ətrafdakı insanlardahər hansı xəstəlik tutması baş verərsə, qorxmur, özünü itirmir, təcili düzgün tibbi yardım göstərir və həkimə müraciət edir,onlarda tibbi-gigiyenik davranışlar formalaşır. Onlar xəstəliklərdən qorxmur, yardım göstərməkdə çətinlik çəkmirlər. Bütün bu bilik və bacarıqlar, şüurlu davranışlar təlimin keyfiyyətinə, hərtərəfli şəxsiyyətin formalaşmasına zəmin yaradır.

***Ədəbiyyat***

1. *Əliyev S.C., Hacıyeva H.M., Mikaylzadə N.C. Tibbi biliklərin əsasları, Bakı, 2004.*
2. *Hacıyeva H.M. Ümumitəhsil məktəblərində biologiya fənninin tədrisində tibbi biliklərin öyrədilməsi üzrə işin sistemi, Bakı, 2007.*
3. *Məmmədova N., Mahmudova K., Həsənova B., Fətiyeva L. Biologiya-8, Ümumitəhsil məktəblərin VIII sinfi üçün dərslik. Bakı, 2019.*
4. *Qasımov M. "Sağlam həyat tərzi uğrunda", Bakı, 2005.*
5. *Hüseynov Ə.M., Hacıbəyova E.Ə."İnsan kursunun tədrisi metodikası". Bakı, 2014.*
6. *Hüseynov Ə.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulum tətbiqi. Bakı, 2015.*
7. *Əhmədov H.H. Pedaqogika. Bakı, 2013.*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ İKT-nin KÖMƏYİ İLƏ FƏNLƏRÜSTÜ ƏLAQƏNİN TƏŞKİLİ

**A.C.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*cahanqizi@mail.ru*

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində İKT vasitəsilə fənlərüstü əlaqənin təşkili əsaslandırılmışdır. Materialın fənlərüstü əlaqə yaradılaraq tədrisinin üstünlükləri qeyd olunur. Problemin həllinə dair müəllimlərə tövsiyələr verilir.*

## ОРГАНИЗАЦИЯ МЕЖДИСЦИПЛИНАРНОГО ОБЩЕНИЯ С ПОМОЩЬЮ ИКТ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

***Резюме***

*В статье обоснована организация междисциплинарного общения посредством ИКТ при преподавании биологии в общеобразовательных школах. Отмечены преимущества преподавания материала путем установления междисциплинарных связей. Учителям представляются рекомендации по решению проблем.*

## ORGANIZATION OF INTERDISCIPLINARY COMMUNICATION WITH THE HELP OF ICT IN TEACHING BIOLOGY

***Summary***

*The article substantiates the organization of interdisciplinary communication through ICT in the teaching of biology in secondary schools. The advantages of teaching the material by establishing an interdisciplinary connection are noted. Recommendation saregiven to teachers to solve the problem.*

***Açar sözlər:*** *inteqrasiya, İKT, biologiya, tədris, kompüter, proqram, fənlərüstü əlaqə*

***Ключевые слова:*** *интеграция, ИКТ, биология, обучение, компьютер, программное обеспечение, междисциплинарное общение*

***Key words:*** *integration, İKT, biology, teaching, computer, software, interdisciplinary communication*

İnteqrativlik təhsil islahatının zəruri prisiplərindən biri olmaqla yanaşı, həmçinin biliklərin ümumiləşdirilmiş şəkildə verilməsi üçün şərait yaradır. Müəllim dərsə hazırlaşarkən inteqrasiya imkanlarını diqqət mərkəzində saxlamalıdır. İnteqrasiyanın digər iki tipindən (fəndaxili, fənlərarası) fərqli olaraq fənlərüstü (transfənn) inteqrasiya əlaqələnmənin ən yüksək forması olmaqla təlim prosesinin əhatə etdiyi əsas və əlavə məzmun komponentlərinin ahəngini

ehtiva edir. Şagirdin məktəbdə öyrəndiyi biliklərlə məktəbdən kənarda aldığı biliklər fənlərüstü inteqrasiyada sintez olunur.

Biologiya fənninin tədrisində İKT-nin tətbiqi imkanlarından istifadə etməklə fənlərüstü əlaqə yaratmaq mümkündür. Bu şagirdlər üçün maraqlı və cəlbedici olmaqla yanaşı artıq vaxt itkisinin də qarşısını alır. Bir sıra internet proqramları vardır ki, onlardan istifadə etməklə dərsləri həm interaktiv şəkildə təşkil etmək, həm də şagirdlər üçün maraqlı və əyləncəli formaya gətirmək mümkündür. Bunlardan biri də "Quiver" proqramıdır. Proqramı ödənişsiz olaraq telefon və ya planşetə yükləmək mümkündür. Yüklədikdən sonra müəyyən kod yazılan vərəqlərin üzərindəki şəkli rəngləyərək proqram aktiv edilir şəkil canlanır. Kod yazılmış xüsusi vərəqlərin üzərində istənilən hər hansı şəkil çəkilib rənglənir və proqram aktiv edilir.




Biologiya fənninin tədrisində müxtəlif mövzuların tədrisi zamanı "Quiver" proqramından istifadə etmək mümkündür (3, s. 45). Şagirdlər hüceyrənin quruluşunu və orqanoidlərini canlanmış şəkildə müşahidə edirlər. Proqramın digər özəlliklərindən istifadə etməklə hüceyrənin hissəciklərinin adları qeyd olunur.

Biologiyadan 9-cu sinifdə "Hüceyrə strukturları və onun funksiyaları" mövzusunun (3, s. 45) tədrisində proqramdan istifadə etməklə fənlərüstü əlaqə yaradılır.

Mövzunun tədrisində bioloji proseslərin mahiyyəti və məzmunu ilə bağlı təqdimatlar hazırlayır, alt standartı reallaşdırır.

1. Motivasiya mərhələsində müəllim proqramı aktivləşdirir və






hüceyrənin şəklini lövhəyə verir, onun canlandırılmasını şagirdlərə həvalə edir.

Tədqiqat aparılması mərhələsində şagirdlər 4 qrupa bölünür. Hər qrupa hüceyrə strukturları və onun funksiyasına dair proqram əsasında təqdimat hazırlaması tapşırılır.

İş vərəqi 1. Bir membranlı orqanoidləri proqram vasitəsilə canlandırın və təqdimat hazırlayın.

İş vərəqi 2. İki membranlı orqanoidləri proqram əsasında canlandırın və təqdimat hazırlayın.

İş vərəqi 3. Membransız orqanoidləri proqram vasitəsilə canlandırın və təqdimat hazırlayın.

Şagird qrupları verilmiş tapşırıqları yerinə yetirir və lövhədə slaydlarla təqdim edirlər. Onlar proqramın imkanlarından istifadə edərək asudə vaxtlarında da canlıların quruluşu onlarda gedən bioloji prosesləri təbii halda öyrənməyə nail olurlar.

Başqa bir proqram “Vücudumuz 4D” proqramıdır. Bu proqramıda ödənişsiz olaraq telefon, planşet və ya kompüterə yüklənilir. Proqram vasitəsilə canlıların orqanlar sistemi və orqanlari gerçəkliyə uyğun olaraq canlandırılır. VIII sinifdə biologiya fəninin tədrisi zamanı proqramdan istifadə etməklə insanın orqanlar sistemlərinin gerçəkliklə əlaqələndirilmiş şəkildə tədris olunması ilə şagirdlər orqanları müşahidə edir və materialı asanlıqla mənimsəyirlər.






“Virtual laboratoriya” təcrübələr aparmağa imkan yaradan proqram və aparat kompleksidir. Bu komplekslər təcrübə aparmaq üçün real avadanlıq modelinə uyğun olan dəqiqliyi təmin edir. Virtual laboratoriyanın əsasını kompüter proqramı və ya bəzi proseslərin kompüter modelləşməsini həyata keçirən əlaqəli proqramlar dəsti təşkil edir. Şagirdlər virtual laboratoriyadan həm

onlayn, həm də oflayn formada istifadə edirlər. Məsələn, "Virtulab.Net" ixtisaslaşmış portallardan biridir. Sayt biologiya və eləcə də bir sıra digər fənlər üzrə virtual təcrübələr aparmağa imkan verən pulsuz onlayn resursdur. Virtual laboratoriya ilə işləməyin:interaktivlik, müstəqil işləmək, hadisələr, proseslər, fonomenləri modelləşdirmək və reallaşdırmaq imkanı, əlçatanlıq, təhlükəsizlik, bahalı avadanlıq və maddə almağa ehtiyacın olmaması kimi üstünlükləri vardır.

Virtual laboratoriyaların yaradılmasının məqsədlərindən biri də öyrənilən bioloji proseslərin hərtərəfli vizuallaşdırılmasını təmin etməkdir. Virtual laboratoriyalar ətrafdakı obyektlər və prosesləri simulyasiya etməklə həqiqi laboratoriya avadanlıqlarına çıxışı təmin edir.

VII sinif biologiyadan "Suda-quruda yaşayanlar sinfi" mövzusunun (1, s. 101) tədrisi zamanı virtual laboratoriya vasitəsilə fənlərüstü əlaqə yaratmaq mümkündür. Bunun üçün şagirdlərə telefon, planşet və ya kompüter vasitəsilə virtual laboratoriyada qurbağanın daxili quruluşunun öyrənilməsi tapşırılır.





Şagirdlər laboratoriyada sərbəst şəkildə işləyərək tədqiqat aparırlar.

Qurbağanın daxili orqanlarını, onların yerini, quruluşunu öyrənmiş olurlar. Bu bir canlının tədqiqat zamanı məhv edilməsinin qarşısını almaqla bərabər şagirdin həyatla əlaqələndirilmiş şəkildə mövzunu mənimsəməni təmin edir.

Pandemiya dövründə xüsusilə də distant təhsilə ehtiyac olduğu vaxtlarda həm dərslərdə, həm də dərslərə hazırlıq mərhələsində bu cür proqramlarla işləmək şagirdlərin idrak və yaradıcılıq fəaliyyətinin formalaşmasına öz müsbət töhvəsini verir.

Tədqiqat nəticəsində müəyyən olundu ki, materialın həyatla əlaqələndirilmiş şəkildə fənlərüstü əlaqə yaradılaraq tədris edilməsi hadisə və proseslərin şagirdlər üçün daha yaddaqalan və cəlbedici olmasına şərait yaradır.

Tədqiqat işində ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində fənlərüstü əlaqənin üstünlüyü qeyd olundu. Onun İKT vasitəsilə təşkilinin im-

kan və yolları aydınlaşdırıldı. Müəllimlər qeyd olunmuş fikir və ideyalardan tədrisdə istifadə edə bilərlər. Çünki biologiyanın tədrisində materialın fənlərüstü əlaqə yaradılaraq tədris olunması həm müəllimin, həm də təhsilalanların fəallığını artırır, təlimin keyfiyyətini yüksəldir.

***Ədəbiyyat***

1. *Y.Seyidli, X.Əhmədbəyli, N.Əliyeva. Ümumtəhsil məktəblərinin 7-ci sinif üçün biologiya fənni üzrə dərslik. Bakı, 2018.*
2. *N.Məmmədova, B.Həsənova, K.Mahmudova, L.Fətəliyeva. Ümumtəhsil məktəblərinin 8-ci sinif üçün biologiya fənni üzrə dərslik. Bakı 2019.*
3. *Y.Seyidli, N.Əliyeva, X.Əhmədbəyli. Ümumtəhsil məktəblərinin 9-cu sinif üçün biologiya fənni üzrə dərslik. Bakı, 2020*
4. *Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadov, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova. Kurikulum bələdçisi, izahlar və tətbiqlər. Bakı, 2019.*
5. *Hacıyeva G. "Biologiyanın tədrisi metodikasından mühazirələr". Bakı, 2016.*
6. *İnternet araşdırmaları*

# BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN BİLİK VƏ BACARIQLARININ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

**Ə.T.Hüseynzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esmer.huseynzade@list.ru*

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəb şagirdlərinin bilik və bacarıqlarının müasir qiymətləndirmə sisteminə müvafiq qiymətləndirilməsi araşdırılır. Müasir məktəbdaxili qiymətləndirmənin növləri, onların məqsəd, vasitə, üsul və tətbiqi xüsusiyyətləri aydınlaşdırılır. Müasir qiymətləndirməyə dair nümunələr verilir, onun üstünlükləri qeyd edilir.*

**ВНУТРИШКОЛЬНАЯ ОЦЕНКА ЗНАНИЙ И НАВЫКОВ УЧАЩИХСЯ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ**

***Резюме***

*В статье исследуется оценка знаний и умений школьников в соотвеетствии с современной системой оценивания. Уточнены виды современного внутришкольного оценивания, их цель, средства, методы и особенности применения. Приведены примеры современной оценки, отмеченыее преимущества.*

**IN-SCHOOL ASSESSMENT OF STUDENTS' KNOWLEDGE AND SKILLS IN TEACHING BIOLOGY**

***Summary***

*The article examines the assessment of the knowledge and skills of secondary school students in accordance with the modern assessment system. The types of modern in-school assessment, their purpose, means, methods and features of application are clarified. Examples of modern assessment are given, its advantages are noted.*

***Açar sözlər:*** *qiymətləndirmə, bilik, bacarıq, şagird, məktəb, summativ, formativ, diaqnostik*

***Ключевые слова:*** *оценка, знания, навыки, студент, школа, суммативная, формирующая, диагностическая*

***Key words:*** *assessment, knowledge, skills, student, school, summative, formative, diagnostic*

Qiymətləndirmə nədir? Müasir ədəbiyyatda qiymətləndirmə şagird nailiyyəti barədə informasiya toplamaq kimi tərif edilir. Qiymətləndirmə

Müəllmin öz fəaliyyətinin effektivliyini təhlil etməsinə, gələcək fəaliyyətiniplanlaşdırmasına, şagirdlərin inkişafını və təlim nailiyyətlərini izləməsinə;

Şagirdin qarşıya qoyulmuş təlim nəticələrinə nə qədər çatdığını müəyyən-

ləşdirməsinə və öz fəaliyyətini planlaşdırmasına şərait yaradır.

Qiymətləndirmə təkcə şagirdə qiymət yazmaq üçün deyil, bütün sinfin inkişafını izləmək və lazım gəldikdə təlim proqramına dəyişiklik etmək ehtiyacını üzə çıxartmağa kömək edir. Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır.Cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir. Tədris prosesinin bütün mərhələlərində tətbiq edilir. Şagirdin nailiyyəti qiymətləndirilir,inkişafı sistemli şəkildə izlənilir.

Məzmun standartlarının mənimsənilmə səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir (8, s. 46).

Müasir təlimdə məktəbdaxili qiymətləndirmə növləri müxtəlifdir. Məzmun standartlarının mənimsənilməsi istiqamətində, əsasən, aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri aşağıda qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır.

1) İlkin səviyyənin qiymətləndirilməsi diaqnostik qiymətləndirmə adlandırılır və bir sıra suallara cavab verir: Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Onlar tədris olunmuş materialın hansı hissələrini bilirlər və ya bilmirlər?

2) İrəliləyişlərin monitorinqi formativ qiymətləndirmə olub, standartların mənimsənilməsinə doğru şagirdlər hansı səviyyədə irəliləyə bilmişlər? sualını cavablandırır.

3) Yekun summativ qiymətləndirmə olub, şagirdlər verilmiş standartlar və standartlar qrupunda müəyyən edilmiş məqsədlərə çatmışlarmı? sualına cavab verir.

Qiymətləndirmənin bu növləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə olunmasına yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirilməsinə və bunun əsasında hər bir şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Dərs ilinin, bölmə və ya tədris vahidinin əvvəlində, şagird başqa ümumi təhsil müəssisəsindən gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək məqsədi ilə müəllim tərəfindən aparılır. Bu qiymətləndirmənin nəticələri sinif və formativ qiymətləndirmə jurnallarında qeyd olunmur, müəllimin qeyd dəftərində öz əksini tapır (2, s.153).

Diaqnostik qiymətləndirmənin müxtəlif üsulları: müsahibə, söhbət, müşahidə, tapşırıqlar valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq və s. mövcuddur.

Məsələn, VI sinifdə biologiya fəninin tədrisinə başlayan müəllim şagirdlərlə diaqnostik qiymətləndirmə aparır. Şagirdlərə aşağıdakı suallarla müraciət edir:

1.Bitkiləri öyrənən elm hansıdır?

2. Bitkilərin əsas xüsusiyyətləri hansılardır?

3. Bitkilər digər canlılardan nə ilə fərqlənir?

4. Bitkilər haqqında nələri öyrənmək istərdiniz?

Müəllim suallara aldığı cavablar əsasında ililk planı müəyyənləşdirir.

Yeni məktəbdaxili qiymətləndirmənin əsas mahiyyətini formativ qiymətləndirmə təşkil edir. Yeni və ənənəvi qiymətləndirmə arasında əsas fərq gündəlik rəqəmli qiymətlərin yazılmaması və şagirdin təlim fəaliyyətinin daim izlənməsidir. Bu izləmələr şagirdin təlim nəticələrinə nail olması və nəticədə summativ qiymətləndirmədə nailiyyət qazanmasına kömək məqsədilə aparılır.

Formativ qiymətləndirmə sayəsində şagird gündəlik təlim fəaliyyəti ərzində rəqəmli qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Formativ qiymətləndirmə şagirdin qəbul edilmiş standartların reallaşmasına yönəlmiş irəliləmələrini və geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı dərslərdə istiqamətləndirmək məqsədilə aparılır. Formativ qiymətləndirmənin dərslərdə müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işləri, test tapşırıqları və s. üsulları tətbiq edilir (6, s. 61-65).

Formativ qiymətləndirmə iki sxem üzrə həyata keçirilir: Holistik qiymətləndirmə sxemi sürətli qiymətləndirmədir, təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsidir. Analitik qiymətləndirmə sxemi şagirdlər üçün nəzərdə tutulan konkret bacarıqların müəyyən olunmuş uzun müddət ərzində ardıcıl izlənilməsi və qiymətləndirilməsidir. Dərsdə şagirdlərin bilik və bacarıqları qiymətləndirilərkən meyar müəyyən edilir. Meyar standart əsasında müəyyən edilmiş məqsəddən çıxarılır. Məsələn, 7-ci sinifdə “Quşlar sinfi” (7, s.122) mövzusunun tədrisində 1.1.4. Canlıların sistematik kateqoriyalarını fərqləndirir alt standartından quşların sistematik kateqoriyalarını fərqləndirir məqsədi, ondan isə quşların sistematik kateqoriyalarını fərqləndirmə meyarı alınır. Meyar 4 səviyyə: aşağı, orta, yüksək, ən yüksək səviyyələrə ayrılır, şagirdlərin bilikləri səviyyələr üzrə qiymətləndirilir.

Summativ qiymərləndirmənin üç növü: şifahi təqdimatlar, testlər və nailiyyətlərin nümayişi vardır.

Summativ qiymətləndirmə kiçik və böyük summativ qiymətləndirmədən ibarətdir.

Kiçik və böyük summativ qiymətləndirmə təlim prosesində müəyyən

mərhələlərə (bəhs və ya fəslin, yarımilin sonunda) yekun vurmaqla, müvafiq məzmun standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Summativ qiymərləndirmə şifahi təqdimatlar, testlər, nailiyyətlərin nümayişi kimi üsullarla tətbiq edilir.

I sinifdə summativ qiymətləndirmə aparılmır. II-III siniflərdə isə böyük summativ qiymətləndirmə aparılmır. Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır.Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

Summativ qiymətləndirilməsi üçün müəllim tədris vahidinə əsasən müvafiq sayda sual və tapşırıqlar və ya testlər hazırlanır. Tədris vahidinin mövzuların tədrisinin sonunda həmin sual və tapşırıqlar dərs müddətində şagirdlərə cavablandırmaq üçün verilir. Sual və tapşırıqlar içərisində asan, normal və nisbətən çətin suallar öz əksini tapır.

Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi qiymətin iki əsas funksiyasını nəzərə almalıdır:

- şagirddə öz nailiyyətlərini yüksəltmək həvəsini saxlamaq məqsədilə bu və ya digər bilik sahəsində irəliləyiş dərəcəsi barədə şagirdlərə, onun müəllimlərinə və valideynlərə bildirmək (formativ);
- şagirdlərin tədris proqramında qoyulmuş təlim məqsədlərinə/nəticələrinə nailolması dərəcəsi haqqında məlumat vermək (summativ).

Təəssüf ki, qiymətləndirmənin ənənəvi praktikası ancaq cəmləyici qiymətə əsaslanır. Həm yekun qiyməti, həm də cari qiymət cəmləyici xarakter daşıyır. Bundan başqa qiymətləndirmənin əsas problemlərindən biri yekun qiymətin cari qiymətdən asılılığıdır. Yekun qiymətin verilməsi praktikası şagirdin bütün cari qiymətlərinin ortalanmasından ibarətdir. Bu halda cari qiymət özünün biliklərə doğru hərəkətdə yeni məqsəd və vəzifələrin formalaşdırılması funksiyasını itirir, çünki biliklərin əsl səviyyəsini əks etdirmir. Cari qiymət dəyişməz xarakter alır və şagirdlərin nailiyyətlərinin gələcək qeyri-obyektiv mənzərəsini «formalaşdırmağa» başlayır.

***Ədəbiyyat***

1. *Nəzərov A. Müasir təlim texnologiyaları (mühazirə xülasələri)/dərs vəsaiti/Bakı, 2012*
2. *Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası (Magistratura pilləsi üçün dərslik) Bakı, 2007*
3. *Тюриков А.Г. Новые практики социологической диагностики востребованности и качества образовательных услуг вузов:*

*методологические и методические проблемы // Инновации в образовании. 2019. № 2. с. 21–33.*
4. *Vavrenyuk S.A. Monitoring as a means of achieving the quality of higher education in Ukraine // Публічне урядування. 2019. № 1(16). С. 35–46. университета. 2019. № 1. С. 79–97.*
5. *Подковко Е.Н. Студенческий мониторинг качества высшего образования как условие обеспечения качества образовательных услуг // Современная высшая школа: инновационный аспект. 2019. Т. 11. № 1(43). С. 45–50.*
6. *Hüseynov Ə. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015.*
7. *Seyidli Y. və b. Biologiya 7. Ümumtəhsil məktəbləri üçün biologiya üzrə dərslik. Bakı, 2019.*
8. *Biologiya fənn kurikulumu. Bakı, 2013.*

# ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNİN VI SİNFİNDƏ ZOOLOJİ BİLİKLƏRİN MƏNİMSƏNİLMƏSİNDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ

**S.Q.Allahyarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sabinaallahyarova94@gmail.com*

**_Xülasə_**

*Məqalə ümumitəhsil məktəblərinin VI sinfində şagirdlərdə yaradıcı təfəkkürün inkişafında zooloji biliklərin mənimsənilməsinə əsaslanmışdır. Təlim prosesində yaradıcı təfəkkürün inkişafina istiqamət verən nümunələr göstərilmişdir.*

## РАЗВИТИЕ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ В ОСВОЕНИИ ЗООЛОГИЧЕСКИХ ЗНАНИЙ В VI КЛАССЕ СРЕДНЕЙ ШКОЛЫ

**_Резюме_**

*Статья основана на приобретении зоологических знаний в области творческого мышления в освоении шестого класса общеобразовательной школы. В процессе обучения созданы научные базовые образцы творческого мышления.*

## DEVELOPMENT OF CREATIVE THINKING IN THE MASTERING OF ZOOLOGICAL KNOWLEDGE IN THE VI GRADE OF SECONDARY SCHOOLS

**_Summary_**

*The article is based on the acquisition of zoological knowledge in creative thinking in the development of the sixth grade of secondary schools. Scientific basic examples of creative thinking were created in the training process.*

***Açar sözlər:*** *yaradıcı təfəkkür, şəxsiyyət, zooloji bilik, sərbəst düşünmə, fəal təlim, bazar iqtisadiyyatı, fasilltator, problem*

***Ключевые слова:*** *творческое мышление, личность, зоологические знания, свободное мышление, активное обучение, рыночная экономика, фасилитатор, проблема*

***Key words:*** *creative thinking, personality, zoological knowledge, free thinking, active learning, market economy, facilitator, problem*

Hal-hazırda yaşadığımız XXI əsr, xüsusilə də son 10 il kəskin dəyişiklik dövrü olmuşdur. Yeni və müxtəlif informasiyalar, yeni problemlərin həlli qarşıya çıxmışdır. Bu əsrdə dünyaya gələn körpələrdən tutmuş yetkin insanlara qədər hamıdan qlobal məsələləri həll etmə, bəşəri problemlərin həlli yolunu tapma bacarıqları tələb olunur. Məqsəd dəyişən dünya ilə ayaqlaşa bilən, qarşılaşdığı problemlərə yaradıcı yanaşan, sərbəst düşünüb müstəqil qərar verə bilən, özünəinamlı, yüksək mənəvi keyfiyyətlərə sahib şəxsiyyətlərin yetişdiril-

məsidir. Dünyanın artıq işçi qüvvəsindən daha çox yaradan və düşünən beyinlərə ehtiyacı vardır. Ona görə də pedaqoqları bir məsələ düşündürür: "XXI əsrdə məktəb insanı həyata və əməyə hazırlaya bilmək üçün necə olmalıdır". Amerikalı pedaqoq Filipp Şlexti özünün "XXI əsrin məktəbi. Təhsil islahatlarının prioritetləri" əsəsrində (9) çoxsaylı iş adamları sahibkarlarla sorğular aparmış və onlardan: "Siz məktəblərdə hansı bacarıqlara sahib insanların yetişməsini istəyirsiniz?" sualını vermişdir. Cavablar isə belə olmuşdur: " Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsın". Göründüyü kimi, əsas tələb artıq sərbəst düşünmə və qərar qəbul etmə bacarıqlarına malik olmaqdır. Bunları nəzərə alaraq ümumitəhsil məktəblərində təhsilə yeni yanaşma tərzi formalaşır. Dünyada, istərsə də Azərbaycan təhsilində fəal təlim tətbiq olunur. Azərbaycanın müstəqilliyi illərində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, informasiya bolluğu, vaxt çatışmazlığı müəllim-şagird münasibətlərinə və fənlərin tədrisinə öz təsirini göstərdi. Artıq müəllim bilik verən mənbə statusunda yox, yol göstərən fasilitator mövqeyində çıxış edir. Şagirdləri bir tədqiqatçı kimi yetişdirmək, problemli məsələlərin həllində onların fəal iştirakını təmin etmək tədrisdə əsas vəzifə sayılır. Şagirdlərdə fənlərin, o cümlədən biologiyanın tədrisində məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı diqqət mərkəzində olmalıdır. Müəllim, pedaqoq Edqard Deylin təlim pramidasına istinad etməlidir (10, 88 s.)

Edqar Deylin təlim pramidasından göründüyü kimi,oxu və dinləmə ilə 10%, şəkilə baxmaqla (görmək) 20%, səsli video izləməklə (görmək və izləmək) 30%, prosesin nümayişini izləməklə, konkret hərəkətləri izləməklə, nümunəyə (maketə, eksponata) baxmaqla 50% qavramanı təmin edib, aşağı təfəkkürə sahib olunur. Şagirdlərdə diskussiyada iştirak etmək, məruzə hazırlamaq, məruzə ilə çıxış etməklə 70%, imitasiya etmək, icra etmək, başqasına öyrətməklə 90% qavrama təmin olunur. Təhlil etmək, dəyərləndirmək, yaratmaq bacarıqlarını və yuxarı təfəkkürü formalaşdırır.



Müəllim aşağı siniflərdə şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirməli, onlara yaradıcı olmağa şərait yaratmalı və inandırmalıdır. Bu, dərsin daha maraqlı keçməsinə və əylənərək öyrənməyə şərait yaradır. Problemlərə yaradıcı yanaşan şagirdlər psixoloji və emosianal baxımından daha özünə inamlı olaraq yetişirlər.

Yaradıcı təfəkkürün şagirdlərdə inkişaf etdirilməsində əsas amillərdən biri bioloji: yəni botaniki, zooloji, fizioloji, anatomik, tibbi-gigiyenik, ekoloji və s. biliklərin verilməsidir. Aşağı siniflərdə şagirdlərə əsasən bitkilərlə bağlı botaniki və heyvanlara dair zooloji biliklər verilir. Bu baxımdan VI sinifdə zooloji biliklərin öyrədilməsi imkanları daha genişdir. Belə ki, "Heyvan toxumaları" (6, 43 s.), "Heyvanların orqanları və orqanlar sistemi" (6, 45 s.), "Heyvanlarda hərəkət və dayaq sistemi" (6, 86 s.), "Heyvanların qidalanması" (6, 97 s.), "Heyvanlarda tənəffüs" (6, 105 s.), Heyvanlarda daşıyıcı sistem" (6, 110 s.), "Heyvanlarda böyümə və inkişaf" (6, 128 s.), "Heyvanların əhliləşdirilməsi və insan həyatında rolu" (6, 152 s.) kimi mövzuların tədrisi kifayət qədər zooloji biliklərlə zənginidir. Bu mövzuların tədrisində şagirdlər heyvanların quruluşu, tənəffüsü, qidalanması və digər fiziolji prosesləri, onlarda gedən böyümə və inkişafı, onların təbiətdə, insan həyatındakı əhəmiyyəti kimi zooloji biliklər şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir. Belə ki, müəllim zooloji biliklərin verilməsində müşahidə, təcrübə laboratoriya işləri, eksperiment və digər metodları tətbiq edir, şagirdlərə yaradıcılığa istiqamətlənmiş tapşırıqların həllinə, tətqiqat xarakterli fəaliyyətlərə cəlb edir. Heyvanların quruluşuna və onlarda gedən fizioloji proseslərə dair çalışma, məsələ həll etdirir, heyvanların müşahidəsi nəticəsində ümumiləşdirmə, sistemləşdirmə əməliyyatları həyata keçirir, cədvəl, sxem, modellər hazırlatdırır. Onların həyat tərzi və qorunmasına dair esse yazdırır, heyvanlara qulluq qaydalarını işlədir. Sinifdənkənar tədbirlərdə heyvanların bəslənməsi, qorunması, artırılması, insan həyatında roluna dair təcrübə və tədqiqat işlərini təşkil edir. Zooloji biliklərin tədrisində şagirdlərin yaradıcı təfəkkürü rollu və əyləncəli oyunların tətbiqi ilə də həyata keçirilir. Rollu və ya əyləncəli oyunu müəllim hazırlayır, şagirdlər onları tətbiq edir. Bir sıra müəllimlər hazır materialdan istifadə etməklə şagirdlərdə yaradıcı təfəkkürün inkişafına nail olurlar. Məsələn: VI sinifdə "Heyvanların orqanları və orqanlar sistemi" (6, 45 s.) mövzusunun əvvəlində belə bir hekayə verilir: "Orqanlar bir yerə yığışaraq başçı seçmək istədilər. Baş məğrurcasına qalxaraq dedi:

\- Başçı mən seçilməliyəm, çünki hamıdan yuxarıda dururam, məndə hər yerə nəzarət edən beyin var.

Ürək irəli çıxaraq:

\- Mən hamınızdan güclüyəm. Əgər mənim güclü əzələlərim qanı vurmasa, hamınızın sonu çatar, - dedi.

- Sakit, - deyə qaraciyər dilləndi. - Mən bədəni zəhərlərdən təmizləyirəm. Mənsiz heç kim yaşaya bilməz, başçı mən olmalıyam.

- Nə üçün sən olmalısan? - deyə ağciyər qardaşları özlərindən çıxdı. İndi tənəffüsü kəsərik, onda bilərsiniz ki, bizsiz yaşamaq nə deməkdir!..."

Dərsin motivasiya mərhələsində şagirdlər arasında rol bölgüsü apararaq hekayə canlandırılır. Səhnələşdirmənin sonunda şagirdlər problemin həllinə və müzakirəyə cəlb edilərək mövzuya daha yaradıcı yanaşma təmin edilir.

Bildiyimiz kimi STEAM layihələrin tətbiqi dünyada və Azərbaycanda böyük maraq doğurur və diqqət mərkəzindədir. İstifadəyə yararsız məhsullardan yeni bir məhsul yaratmaq şagirdlərin yaradıcılıq "əsərləridir". Nümunəsinə baxdığımız bu mövzunun yaradıcı tətbiqetmə mərhələsində belə kiçik bir STEAM layihə həyata keçirmək mümkündür. "Orqanlar sistemi və onlara aid or qanları müəyyən edin" başlığı altında şagirdləri qruplara bölərək həzm sistemi, ifrazat sistemi, qan-damar sistemi, sümük əzələ sistemi və tənəffüs sisteminin maketlərini hazırlamaq tapşırığı verilir. Bu zaman şagirdlərə istifadə ediləcək ləvazimatlar verilərək onlar yaradıcı fəaliyyətə yönəldilir. Həzm sistemi üçün-borular, plastilin, ifrazat sistemi üçün rəngli su, pambıq, borular, sümük əzələ sistemi üçün – karton zolaqlar, ip, yapışqan, tənəffüs sistemi üçün – şar, rezin borular və s. verərək əşyalardan qeyri-adi istifadə etməklə ləvazimatlardan heyvanın orqanlarının və ya orqanlar sisteminin maketinin, modelinin hazırlanması tapşırılır.

Biologiya dərslərinin şagirdlərdə yaradıcı təfəkkürün formalaşdırması istiqamətində qurulması təlimin keyfiyyətini yüksəldir, məntiqi, tənqidi və yaradıcı təfəkkürlü şəxsiyyətlərin yetişdirilməsini təmin edir.

***Ədəbiyyat***

*1. İbrahimov F., Hüseynzadə R. "Pedaqogika". I cild, Bakı, 2021*

*2. Hüseynov Ə.M., Məhərrəmov Ə.M. "Biologiyanın tədrisi metodikası". Bakı, 2003.*

*3. Veyisova Z. "Fəal təlim". Bakı, 2007.*

*4. Azərbaycan məktəbi. Elmi- nəzəri pedaqoji jurnal. №2(672), 2016*

*5. Hacıyeva H., Bayramova A. "Təlim və tərbiyə prosesinin həyata keçirilməsi". Bakı , 2020.*

*6. Seyidli Y., Əhmədbəyli X. Əliyeva N. Ümumitəhsil məktəblərinin 6-cı sinfi üçün Biologiya fənni üzrə dərslik. Bakı,2017.*

*7. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Ümumitəhsil məktəblərinin 6-cı sinfi üçün Biologiya fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, 2017.*

*8. Əhmədov B. Düşünməyi öyrədək və öyrənək. Bakı Azərbaycan məktəbi. 1997, №1.*

*9. İnternet resursu:Təhsildə İnnovativ Texnologiyalar. @ite.azerbaijan*

*10. Həsənov İ., Rüstəmova A., Babayeva N. "TAİM" Mücrü nəşriyyatı, 2020.*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 7-Cİ SİNFİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ BİOETİK DAVRANIŞLARIN AŞILANMASI İMKANLARI

**D.F.Ağamalıyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*deste.agamaliyeva.BIO2002M@adpu.edu.az*

***Xülasə***

*Məqalədə ümumtəhsil məktəblərində tədris olunan biologiyanın tədrisində şagirdlərə canlılarla (bitki, heyvan, insan) bioetik davranışların aşılanması problemi araşdırılır. Mövzunun aktuallığı əsaslandırılır. 7-ci sinifdə keçilən bitkilərlə və heyvanlarla bağlı mövzuların tədrisində bioetik davranışın aşılanması imkanları müəyyən edilir. Şagirdlərə biologiya dərslərində bitki və heyvanlarla davranış qaydaları tədricən şagirdlərin diqqətinə çatdırılmasının əhəmiyyəti aydınlaşdırılır. Mövzular üzrə konkret misallar verilir. Bu sahədə müəllimlərə müvafiq metodik tövsiyələr verilir.*

## ВОЗМОЖНОСТИ ПРИВИТЬ БИОЭТИЧЕСКОЕ ПОВЕДЕНИЕ ПРИ ПРЕПОДАВАНИИ БИОЛОГИИ В 7-М КЛАССЕ СРЕДНЕЙ ШКОЛЫ

***Резюме***

*В статье исследуется проблема воспитания биоэтического поведения живых существ (растений, животных, человека) в преподавании биологии в общеобразовательных школах. Обоснована актуальность темы, выявлены возможности привития биоэтического поведения при преподавании тематики растений и животных в 7 классе. На уроках биологии учащихся учат важности постепенного доведения до сведения учащихся правил поведения с растениями и животными. Приводятся конкретные примеры по темам. Учителям даны соответствующие методические рекомендации в этой области.*

## OPPORTUNITIES TO INCULCATE BIOETHICAL BEHAVIORS IN THE TEACHING OF BIOLOGY IN THE 7TH GRADE OF SECONDARY SCHOOLS

***Summary***

*The article examines the problem of inculcating bioethical behavior with living things (plants, animals, humans) in the teaching of biology in secondary schools. The relevance of the topic is substantiated. The possibilities of inculcating bioethical behavior in the teaching of plant and animal topics in 7th grade are identified. Students are taught the importance of gradually bringing the rules of behavior with plants and animals to the students' attention in biology lessons. Specific examples are given on the topics. Appropriate methodological recommendations are given to teachers in this area.*

***Açar sözlər:*** *bioetika, sağlamlıq, heyvan, bitki, davranış, zoonoz xəstəliklər, bilik, bacarıq*

***Ключевые слова:*** *биоэтика, здоровье, животные, растения, поведение, зоонозы, знания, навыки.*

***Key words:*** *bioethics, health, animal, plant, behavior, zoonotic diseases, knowledge, skills*

Bildiyimiz kimi, təlim əsas üç funksiyanı yerinə yetirir. Bunlar öyrədici, tərbiyəedici və inkişafetdirici funksiyalardır. Fənlərin, o cümlədən biologiya təlimində tərbiyəedici funksiya bu gün daha əhəmiyyətlidir. Çünki hazırki dövrdə bilik mənbələri, informasiya bolluğu öyrədici funksiyanın yerinə yetirilməsini təmin edir. Tərbiyə məsələlərinə diqqət isə bir qədər fərqlidir. Bu baxımdan şagirdlərə fənlərin tədrisində tərbiyənin, xüsusilə bioetik davranışların aşılanması məsələsi aktuallaşır.

Ümumtəhsil məktəblərində tədris olunan biologiya fənninin məzmunu şagirdlərə bioetik davranışların aşılanması baxımından geniş imkanlara malikdir. 7-ci sinifdə keçilən biologiyanın məzmunu əsasən bitki və heyvanların bioloji xüsusiyyətlərini əhatə etdiyindən şagirdlərə bioetik davranışların aşılanması daha da asanlaşır. Belə ki, bitkilər haqqında mövzuların tədrisində şagirdlərə bitkilərə qarşı etik münasbətlərin aşılanması mümkündür. Eləcə də heyvanlarla bağlı mövzuların tədrisində şagirdlərə heyvanlarla təmas bacarıqlarının aşılanması imkanları genişdir. Bu imkanlara əsaslanaraq şagirdlərə bioetik davranışların aşılanması onların bilikli olmaqla yanaşı hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasını təmin edir.

Fikrimizi biologiya fənninin mövzuları əsasında aydınlaşdırmaq olar. Belə ki, 6-cı və 7-ci sinifdə bitkilərin quruluşu, bioloji xüsusiyyətləri təsnifat üzrə sadədən mürəkkəbə doğru tədris edilir. Ali bitkilərin təsnifat üzrə öyrədilməsinin sonunda “Dərman bitkilərinin müalicəvi xüsusiyyətləri və onlardan istifadə qaydaları”, “Yaşadığınız diyarın dərman bitkiləri” (7, s. 47-49) mövzuları keçilir və bu barədə layihənin işlənilməsi məsləhət görülür. Mövzuların tədrisində müəllim şagirdlərə bitkilərlə təmas qaydalarını, onlarla bioetik davranış xüsusiyyətlərini çatdırmaq imkanı əldə edir. Qeyd edir ki, dərman bitkilərini toplayarkən bir sıra bioetik qaydalara əməl olunmalıdır. Dərman bitkilərini toplayanlar aşağıdakı qaydaları bilməli və onlara əməl etməlidir. Müəllim qaydaları lövhəyə verməklə və ya slaydlar şəklində şagirdlərin nəzərinə çatdırır.

Dərman bitkilərini toplayanlar:

1. Toplanacaq bitkinin yayıldığı ərazidə və respublikada ehtiyatını;
2. Bitkinin yayıldığı ərazinin xüsusiyyətlərini;
3. Ərazinin mənsub olduğu təşkilatdan icazə alınağı;
4. Təbiətin, xüsusilə bitkilərin mühafizəsinə dair qərar və qanunları;
5. Bitkinin təbii ehtiyatının tükənməməsi tədbirlərini;

6. Toplanacaq bitkinin xüsusiyyətlərini;
7. Toplanmış məhsulun etiketləşdirilməsini;
8. Bitkinin toplanacaq orqanını;
9. Məhsulun toplanacaq miqdarını;
10. Bitkinin toplanma vaxtını, qaydasını;
11. Bitkini yığarkən insanların səhhətinə zərər vurmamasını;
12. Toplanmış bitkinin qurudulma və saxlanma qaydalarını;
13. Toplanmış materialda əlavə qarışıqlara yol verilməməsini;
14. Toplanacaq bitkinin sağlamlığını, təmizliyini müəyyən etməyi;
15. Dərman bitkilərinin toplanmasının təyin olunmuş vaxtını və s. nəzərə almalıdır (4, s. 28).

Dərman bitkilərinin toplanmasının təyin olunmuş vaxtına gəldikdə bitkilərin yarpağı çiçək açan dövrdə, sağlam, bütöv, təmiz olmaqla, ot bitkilərinin yerüstü hissəsi, adətən çiçəkləmədən qabaq, çiçəklər tam açıldığı dövrdə, köklər və kökümsovlar, yeraltı yumru gövdələr payızda, bitkinin yerüstü hissəsi solandan sonra və ya yazın ilk aylarında, ağacların qabıqları, tumurcuqları yazın ilk ayında, şirəli meyvələr tam yetişəndə, səhər tezdən və ya günəş batan zaman, toxumlar tam yetişdikdə, quruluğu orta həddə çatdıqda, köklər payızın sonunda, yarpaqlar tökülməmiş toplanmalıdır (4, s. 46).

Bitkilərin toplanmasında göstərilən qaydalar və prinsiplər gözlənilməzsə, yığılmış bitkinin keyfiyyəti və müalicə əhəmiyyəti özünü doğrultmaz. Yığılmış bitkilər lazımı səviyyədə istifadə olunmadan atılar. Göstərilən qaydalara və prinsiplərə əməl edilməsi bitkilərə bioetik yanaşmanın əsas göstəriciləridir.

VII sinifdə bitkilərlə bağlı mövzuların tədrisindən sonra heyvanların quruluşu, bioloji xüsusiyyətləri təsnifat üzrə şagirdlərə öyrədilir. Sadədən mürəkkəbə doğru hər bir heyvanı şagirdlərə öyrədərkən müəllim onların insan həyatında, təbiətdə rolunu izah etdikcə şagirdlərin diqqətinə onlarla rəftar qaydalarını, bioetik davranışları çatdırır. Onlara heyvanlarla təmas bacarıqlarını aşılayır. Bəhsin sonundakı "Biomüxtəliflik. Nadir və nəsli kəsilmək təhlükəsi olan yerli faunanın mühafizəsi" mövzusunun tədrisində müəllim heyvanlara qarşı bioetik davranışa dair fikirlərini ümumiləşdirir. Qeyd edir ki, ev heyvanları ailənin sevimliləridir. Onlar insanlarda əsəb gərginliyini azaldır, uşaqları daha xeyirxah olmağa sövq edir. Amma bizim «dördayaqlı dostlarımız», xüsusilə də itlər narahatlıq yarada, qonşulara və ya küçədən keçənlərə zərər yetirə bilər. Cins it saxlayanların sayı getdikcə artdığından, itləri gəzdirmək üçün xüsusi yerlərin müəyyən edilməsinə ehtiyac vardır. Heyvan saxlayanlar üzərinə düşən vəzifələri yaxşı bilməli və onlara əməl etməlidirlər. Müəllim müxtəlif tablo və ya slaydların köməyi ilə heyvan saxlayan şəxslərin vəzifələrini şagirdlərin nəzərinə çatdırır:

– Heyvanı onun bioloji xüsusiyyətlərinə uyğun saxlamalı, onunla huma-

nist rəftar etməli, nəzarətsiz, yeməksiz və susuz qoymamalı, onu döyməməli və xəstələnərsə, baytara müraciət etməlidir;

– Ətrafda yaşayan adamların və heyvanların təhlükəsizliyi üçün lazımi tədbirlər görməli, it və ya pişik adama xələl yetirmişsə, sahibi onu dərhal həkimə göstərməlidir. Vətəndaşlara və yaxud onların əmlakına it və ya pişik tərəfindən ziyan vurulubsa, zərər məhkəmə qaydasında ödənilməlidir;

– İtlər yaşayış məntəqələrində gəzdirilirsə, sakitliyə riayət olunmalıdır. Səhər 7-yə qədər və axşam saat 11-dən sonra itin hürməsinə imkan verilməməlidir;

– İti gəzintiyə onun adı və sahibinin ünvanı yazılmış xaltaya bərkidilmiş kəmərlə çıxarmaq lazımdır. Müvafiq yerlərdə itin xaltasını açmağa icazə verilir, qəzəbli itlərin ağzına mütləq buruntaq keçirilməlidir.

Göstərir ki, heyvan sahibinin hüquqlarına gəldikdə hər bir heyvan sahibinin mülkiyyəti sayılır və xüsusi mülkiyyət kimi qanunla mühafizə olunur. Heyvan sahibindən ancaq məhkəmənin qərarı ilə qanunla nəzərdə tutulmuş qaydada alına bilər. İt sahibi məhdud vaxt ərzində itin mağaza və ya başqa müəssisə qarşısında qısa xalta kəmərlə (iri itə bu halda buruntaq taxılmalıdır) bağlaya bilər.

Heyvanları bütün nəqliyyat növlərində aparmağa ixtiyar verilir. Lakin onlar sərnişinlər üçün narahatlıq yaratmamalıdır. Bu zaman it qısa xalta kəmərlə bağlanmalı və buruntaqda olmalıdır. Təyyarədə isə heyvanlar xüsusi qəfəslərdə yerləşdirilməlidir.

Heyvan saxlayanlar üçün müvafiq qadağalar müəyyən edilmişdir. Onlara aşağıdakılar daxildir:

– Sərxoş vəziyyətdə olan adamların və 14 yaşına çatmamış uşaqların itləri gəzdirmələri və nəqliyyata mindirmələri;

– Heyvanları ümumi istifadə yerlərində, mətbəx, dəhliz, pilləkən meydançası, çardaq, zirzəmi, həmçinin balkonlarda saxlamaq;

– İtləri kommunal həyətlərin ərazisinə, parklara, bulvarlara və otluqlara buraxmaq;

– İtləri kütləvi çimərliklərdə çimdirmək;

– Heyvan ekskrementləri (ifrazat, nəcis) ilə bina bloklarını, pilləkən meydançalarını, liftləri, uşaq meydançalarını və küçə səkilərini bulaşdırmaq. Əgər yuxarıda adı çəkilən yerlər heyvan ekskrementləri ilə bulaşdırılıbsa, onun sahibi həmin yeri təmizləməlidir (7, s. 89, 90).

Müəllim evində heyvan saxlayanların bioektik davranışlarına ciddi yanaşılmasını nəzərə çatdırır. Qeyd edir ki, heyvanlarla davranışlarında bioetikaya əməl etmədikdə müvafiq cəza və cərimələrə cəlb olunurlar.

Şəhərlərdə və digər yaşayış məntəqələrində it və pişik saxlama qaydalarının pozulmasına cərimə tutulması şəklində inzibati cəza tətbiq edilir (AR

İHHM, maddə 105).

Heyvanlarla amansız rəftar nəticəsində onların tələf və ya şikəst olmasına, habelə heyvanlara əzab verilməsinə görə vətəndaşlar minimum əmək haqqının səkkiz mislindən 10 mislinədək miqdarda cərimə edilir (İnzibati Hüquqpozmalar Haqqında AR Məcəlləsi (İHHM), maddə 107).

Heyvanlarla pis rəftar edilməsi, onların məhvinə və ya şikəstliyinə səbəb olan hərəkətlərə yol verilməsi, habelə heyvanlara işgəncə verilməsi dözülməzdir, inzibati cəza nəzərdə tutulur. Bu hallar təkrar olunarsa, il ərzində yenidən törədilərsə, 6 ayadək müddətdə islah işləri və ya minimum əməkhaqqı məbləğinin altmış mislindən yetmiş mislinədək miqdarda cərimə edilir (AR CM, maddə 207-1).

Qanun it və pişiklərin dərisindən istifadə etmək məqsədilə çoxaldılmasına qadağa qoymuşdur (7s.172)

Mövzunun tədrisinin sonunda müəllim heyvanlarla təmasda olan şəxslərin bioetik davranışlarını slaydlar şəklində lövhəyə verir və hər bir qaydanı şagirdlərlə müzakirə edir. Heyvan saxlayanlar:

- Heyvanın sağlam olduğunu;
- Təmasda olduğu heyvanın bioloji xüsusiyyətlərini;
- Heyvanın zəhərliliyini;
- Heyvanların davranışını, onlarla davranış qaydalarını;
- Zoonoz xəstəlikləri və onların yoluxma yollarını;
- Zoonoz xəstəliklərdən qorunma qaydalarını;
- Evdə heyvana qulluq etməyi;
- Heyvanların xüsusiyyətlərinə uyğun hərəkət etməyi;
- Heyvanla yaxınlıq imkanlarını;
- Heyvanla əyləndikdə onun əhval-ruhiyyəsini nəzərə almağı;
- Heyvanlarla təmasın sanitar-gigiyenik qaydalarını;
- Heyvanları mühafizə tədbirlərini;
- Heyvanın tipini, növünü;
- Zəhərli və zərərli heyvanlardan qorunmağı;
- Xəstə heyvanı müalicə etdirməyi;
- Heyvan xəstəliklərinin əlamətlərini;
- Xəstə heyvanlardan qorunmağı;
- Heyvanları sevməyi, onları əzizləməyi;
- Heyvanın yemini və onu yemləməyi bilməli və onlara əməl etməlidir (7, s. 96).

Bu bilik və bacarıqların biologiya dərslərində bitki və heyvanların quruluşu, həyat prosesləri, müxtəlifliyi, yayılması, mühafizəsinə dair mövzuların tədrisində şagirdlərə aşılanmasına geniş imkanlar açır. Həmin imkanlardan sə-

mərəli istifadə edən müəllim şagirdlərə bitki və heyvanlarla bioetik davranışları aşılayır.

Dərslərdə bioetik davranışların aşılanması şagirdlərin bilikli, bacarıqlı, bioetik davranışlı, ətrafdakı canlılara (bitki, heyvan, insan) həssaslıq və diqqət göstərən şəxsiyyət kimi formalaşmasını təmin edir. Eyni zamanda şagirdlər bitki və heyvanlara dair bilik və bacarıqların əhəmiyyətini dərindən mənimsəyirlər.

**Ədəbiyyat**

1. *İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2009.*
2. *İbrahimov F., Hüseynov R. Pedaqogika, dərslik, I cild, Bakı, 2013.*
3. *Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.*
4. *Hacıyeva H. və b. "Bitkilər" kursu üzrə əyləncəli oyunlar və tapşırıqlar. Bakı, 2012.*
5. *Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinifləri üçün biologiyadan dərslik. Bakı, 2017.*
6. *Hacıyeva H., Bayramova A. Təlim və tərbiyə prosesinin həyata keçirilməsi. Bakı, 2020.*
7. *Hacıyeva H. və b. Zoologiya kursu üzrə təlim xarakterli oyunlar və tapşırıqlar. Bakı, 2012*
8. *İnternet resursları.*

# İDARƏETMƏDƏ MƏQSƏD QOYULUŞU VƏ ONUN HƏYATA KEÇİRDİKLƏRİNİN METODOLOGİYASI

**Z.F.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*zeynebabdullayeva7198@gmail.com*

***Xülasə***

*Məqalədə idarəetmə anlayışı və onun məzmununa tam aydınlığı ilə toxunulur. Bundan əlavə, məqalədə idarəetməyə tarixi cəhətdən yanaşılmış, müasir dövrümüzün idarəetmə sistemi ilə müqayisə edilmişdir. Hətta burada ayrı-ayrı dövlətlərin idarəetmə sisteminə toxunulmuş, münasibət bildirilmişdir. Bununla kifayətlənməmiş, məqalədə eyni zamanda idarəetmə prosesində qarşıya qoyulan məqsəd və bu məqsədin həyata keçirilməsi ilə məşğul olan metodlar barədə fikir bildirilmişdir. Metod və məqsədli idarəetmə prosesinin qarşılıqlı əlaqələri göz önünə gətirilmişdir.*

## ЦЕЛИ УПРАВЛЕНИЯ И МЕТОДОЛОГИЯ ЕГО РЕАЛИЗАЦИИ

***Резюме***

*В статье четко затрагивается понятие менеджмента и его содержание. Кроме того, в статье представлен исторический подход к менеджменту и сравнивается его с современной системой менеджмента. Речь идет даже о системе управления отдельными государствами. Не довольствуясь этим, в статье также обсуждается цель процесса управления и методы, используемые для достижения этой цели. Рассмотрена взаимосвязь между методом и целенаправленным процессом управления.*

## GOALS IN MANAGEMENT AND METHODOLOGY OF ITS IMPLEMENTATION

***Summary***

*The article clearly touches on the concept of management and its application. In addition, the article focuses on the history of management, which is governed by the modern management system. It even touched upon the system of governance of individual states. . Not content with this, the article also discusses the purpose of the management process and the methods used to achieve this goal. The relationship between the method and the purposeful management process is considered.*

***Açar sözlər:*** *idarəetmə sistemi, idarəetmə tarixi, məqsədli idarəetmə, metod*

***Ключевые слова:*** *система управления, история управления, целенаправленное управление, метод.*

***Key words:*** *management system, management history, purposeful management, method*

**Giriş:** İlk olaraq belə bir məqamı qeyd etmək istərdim ki, müasir dövrün başlıca vəzifəsi ölkəmizi istər sosial, istərsə də iqtisadi cəhətdən inkişaf etdirmək, istehsalat sahəmizi düzgün şəkildə intensivləşdirmək, eyni zamanda iqtisadiyyatımızın digər ölkələrlə nisbətdə potensialını möhkəmləndirməkdən ibarətdir. Çünki cəmiyyətimiz durmadan inkişaf edir. Belə ki, sivilizasiya insan həyatına dərindən təsir etdikcə, innovativ yeniliklər gündəlik həyatımızda çoxaldıqca, bununla əlaqədar olaraq əmək alətləri və istehsal vasitələri təkmilləşib yeniləri meydana gəldikcə həll edilməsi vacib olan problemlər öz mürəkkəbliyi ilə daha da qabarıq şəkildə özünü göstərir. Bütün bu problemlərin həll edilməsi, qarşıya qoyulmuş vəzifələrin düzgün seçilib hazırlanması məhz idarəetmə fəaliyyətinin düzgün qurulub, yüksək səviyyədə təşkil edilməsini, "idarəetmə"yə aid olan qanun, metod və metodologiyanın lazımi şəkildə hazırlanıb, bu metodlardan düzgün və məqsədəuyğun istifadə edilməsini açıqca tələb edir. Bütün bunlar haqqında geniş məlumat vermədən öncə "idarəetmə" anlayışı haqqında məlumat vermək istərdim.

İdarəetmə - ətrafımızda mövcud olan hər hansısa bir obyektə və ya baş verən hər hansısa bir prosesə təsir edib, onu hal-hazırda mövcud olduğu vəziyyətdən arzu olunan, vacib olan, istənilən vəziyyətə gətirə bilmək fəaliyyətidir. Belə bir məqamı da qeyd etmək istəyirəm ki, bir çox anlayışları olduğu kimi "idarəetmə" anlayışını da sadəcə bu tərif ilə kifayətləndirə bilmərik. Çünki idarəetmə tarixi qədim olan, bir çox anlayışları özündə birləşdirən və bununla da geniş mənanı ifadə edən bir termindir. Amma ki, əgər "idarəetmə" anlayışına qısa şəkildə tərif versək, deyə bilərik ki: idarəetmə-hər hansısa bir təşkilatın, şirkətin düzgün, sistematik, tələblərə uyğun şəkildə idarə edilməsidir.

İndi isə idarəetmə anlayışına bir qədər tarixi cəhətdən yanaşaq. Əgər bu anlayışı tarixi aspektdən öyrənsək, görərik ki, idarəetmə təcrübəsinin tarixi çox qədimdir. Lakin belə bir nüansı da qeyd etmək istərdim ki, qədim zamanların "idarəetmə" anlayışı ilə hazırki dövrümüzü əks etdirən "idarəetmə" anlayışı bir-birindən bir qədər fərqlidir. Bunun isə əsas səbəbi ondadır ki, idarəetmə nə qədər qədim tarixə malik olsa da bir elm kimi, müstəqil olaraq 20-ci əsrdə fəaliyyət göstərməyə başlamışdır. Bununla kifayətlənməmiş, özü ilə bərabər bir çox yeniliklər də gətirmişdir.

Yuxarıda da qeyd etdiyim kimi, idarəetmə anlayışı sistemli şəkildə bir elm kimi 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində yaranmasına baxmayaraq, sadə bir anlayış kimi tarixi çox qədimdir. Bəs buna səbəb nədir? Bunu belə açıqlamaq istərdim ki, əgər biz tariximizə nəzər salsaq, görərik ki, idarəetmə qədim insanların bir-biri üzərində hökmranlıq etməsindən (quldarlıq idarəçiliyindən), mürəkkəb növü olan demokratik idarəçiliyə qədər gəlib çıxmışdır. Belə bir məqamı da qeyd edək ki, idarəetmə anlayışı, elmi əsrlər boyu nə cür adlandırılmasından asılı olmayaraq hər zaman öz aktuallığını qoruyub saxlamışdır. Hətta ötən çağların təcrübəsi də bizlərə bunu deməyə əsas verir ki, biz in-

sanların normal yaşaya bilməsi üçün bəşər cəmiyyətinin idarəçiliyi, daha doğrusu düzgün idarəçiliyi vacibdir.

Bütün bu fikirlər isə onu deməyə əsas verir ki, əgər idarəetmə cəmiyyətin düzgün qurulmasını, daha səmərəli idarəçiliyini tələb edirsə, mütləqdir ki, qarşısına müəyyən, anlaşıqlı, idarə ediləcək təşkilata və ya qısacası cəmiyyətə yararlı olan məqsədlər qoymalı və bunun arxasınca irəliləməlidir. Hətta belə bir məqamı da qeyd edim ki, əgər idarəçi qarşısına qoyduğu məqsədlərə çatmaq istəyirsə, bütün prosesi müəyyən metodologiya əsasında aparmalıdır. [5, s. 22]

İndi isə qədim zamanlardan müasir dövrümüzə qədər bir çox dövlətlərdə mövcud olan idarəetmə sistemi, prinsip, metodlarına müqayisəli şəkildə toxunaq:

Məsələn: Qədim Misir dövləti idarəetmə üsuluna görə seçilən dövlətlərdən olmuşdur. Qədim Misirə aid yazılı mənbələrdə fironlar, onların həyatları, hakimiyyət illərində etdikləri, ölkəni idarəetmə üsulları qeyd edilmişdir. Bütün bunlara Misirə aid olan bir neçə hekayədə rast gəlmək olar. Ən parlaq nümunəsi məhz Plutarxın "İsida və Osiris" haqqında e.ə 4-cü minilliyə aid olan əsəridir. Bu əsəri burada qeyd etməyimin əsas səbəbi ondan ibarətdir ki, bəhs edilən "idarəetmə" mövzusuna burada kifayət qədər toxunulmuşdur. Qədim dövrlərdə adı çəkilən bir çox dövlətlərdə olduğu kimi, Misirdə də ölkənin yaranışını ilahi qüvvələrə bağlayırdılar. Hətta onları adlandırırdılar: Baş Allah Amon, günəş Allahı Ra-Xekri. Əfsanəyə görə ilahi qüvvələr özlərindən sonra hakimiyyəti İsida və Osirisə əmanət ediblər. Misirdə mədəniyyətin düzgün şəkildə təbliği, ədalətin, şəffaf idarəetmənin adı məhz bu iki şəxslə bağlıdır. Ondan sonra isə idarəçilik insanların, yəni fironların əlinə keçmişdir. Onların qurduqları hakimiyyət isə həm ilahi qüvvələrdən, həm də Osiris və İsidadan fərqlənirdi. Çünki onlar idarəçiliyə özləri ilə bərabər zülmkarlığı, ədalətsizliyi, təbəqələşməni gətirdilər. Buradan da aydın olur ki, idarəetmənin xarakteristikası idarəçidən asılı olaraq da dəyişir. [10, s.591]

Qədim dövlətlərdən bəhs edən zaman Qədim Babilistan dövlətini də qeyd etmək istərdim. Çünki Babilistan dövlətinin idarəetməsi ilə bağlı ilkin mənbələr böyük maraq kəsb edir. Hətta bəzi mənbələri burada qeyd edə bilərik. Lakin bunlardan biri daha mötəbərdir. Bu isə Babil hökmdarı "Hammurapi" qanunlarıdır. Bu qanunların tərkibində bir çox yararlı mövzulara toxunulmuşdur. Belə ki, dövlətlərin idarəsi, gücləndirilməsi, ölkənin ədalətli olması, daha da önə gedərək sonda ədalətin zəfər çalması, güclünün zəifi əzməməsi və s. Hətta bu səbəbdəndir ki, Babil hökmdarı bildirmişdir ki, özndən sonra gələn hər bir hökmdar Hamurrapi qanunlarından istifadə etməli, öyrənməlidir.

Eyni ilə qədim Hindistanda, Qədim Çində idarəçiliklə bağlı olan ilkin qədim qaynaqlar hər zaman qorunub saxlanmışdır. Məsələn, Qədim Hindistanda idarəçilik məsələlərində "Manu Qanunları"dan bəhs edilmişdir. Belə ki, orada dünyanın meydana gəlməsi zamanından başlayaraq, cəza, sülh və müha-

ribə şəraitində idarəetmə məsələlərinə toxunulmuşdur. Eyni zamanda burada bildirilirdi ki, qədim hind xalqında dövlətin idarəçisi müxtəlif yollarla seçilirdi. Burada əsasən iki üsul qeyd edilirdi: birincisi Allahlar tərəfindən seçilirdi, hansı ki, bu, vacib olan idi. İkincisi isə xalq tərəfindən seçilirdi.

İdarəetmənin tarixiliyini qeyd edən zaman son olaraq qədim dövlətlərin təşkilati sturuktura malik olan orqanlarını da qeyd etmək isdərdim. Çünki, qədimdə böyük təşkilatların olub, fəaliyyət göstərməsi açıq olaraq sübut edir ki, həmin dövlətlər idarəetmə sturukturuna malikdir. Bu mövzuda bir çox dövlətləri misal olaraq göstərə bilərik. Bunu da vurğulamaq istərdim ki, dövlətlərdə fəaliyyət göstərən bəzi təşkilatların idarəsi çox sadədir. Bəzilərində isə, bunun əksinə, mürəkkəbdir. Lakin sadə idarəetmə strukturuna malik olan dövlətlər olduğu kimi qalmamış, zaman keçdikcə sadədən-mürəkkəbə doğru inkişaf etmişdir. Buna bir çox dövlətləri misal göstərə bilərik. Məsələn: Qədim Roma, Qədim Makedoniya və s.

Lakin təəssüf edərək bildirirəm ki, təşkilatlar, bir çox qurumlar tarix boyu mövcud olmalarına baxmayaraq, 20-ci əsrə qədər sistemli, daha doğrusu elmi şəkildə idarə olunmamışdır. Çünki hər dövrün özünün yaşam tərzi, inkişaf xüsusiyyətləri, münasibətləri olmuşdur. Buna da uyğun olaraq hər bir dövrün öz idarə üsulu, prinsip, qaydaları mövcud olmuşdur. Belə olduğu halda da müxtəlif dövrlərdə fəaliyyət göstərən təşkilatlar eyni formada idarə olunmamış, münasibət fərqli olmuşdur. Bunlara bir qədər toxunmaq istərdim:

1. Qədim dövrlərdə ya kiçik olan, ya da az böyük olan təşkilatlar, müəssisələr fəaliyyət göstərirdi. Müasir dövrümüzdə isə bundan fərqli olaraq istər kommersiya, istər təhsil, istərsə də digər sahələr üzrə fəaliyyət göstərən və kifayət qədər böyük olan təşkilatlar vardır.

2. 1-ci ilə əlaqədər olaraq o təşkilatlar kiçik olduğu üçün idarəsi həm sadə, həm də asan olur. Digər yandan isə bir rəhbər tərəfindən idarə oluna bilirdi. Bunun əksinə olaraq müasir dövrdə fəaliyyət göstərən təşkilatların idarəsi isə lazımi qədər mürəkkəb xarakter daşıyır. Məhz buna görə də bir yox, bir neçə rəhbər tərəfindən idarə olunmağı lazım gəlir.

3. Bütün bunlardan əlavə qədim dövrdə fəaliyyət göstərən təşkilat rəhbərləri daha çox irsən və güc yolu ilə idarəçiliyə keçirdilər. Bugünkü dövrümüzdə isə həmin idarəçilər bacarıq və savadlarına görə seçilirlər.

4. Eyni zamanda vurğulamaq istəyirəm ki, idarəetmə bütün tarix boyu mövcud olmuşdur. Lakin onun əsas xüsusiyyətləri və icra mexanizmləri hər zaman başqa olmuşdur.

İndi isə qısa olaraq idarəetmənin məqsədi və onun həyata keçirilmə metodologiyası barədə məlumat vermək istərdim:

Ümumiyyətlə hər hansısa bir müəssisə və təşkilat cəhətdən idarəetmənin başlıca məqsədi- idarəetmə prosesinin düzgün qurulması, bunun üçün əlverişli şəraitin yaradılmasından ibarətdir. Biz idarəedicilər bu proses zamanı qarşıya

qoyduğumuz məqsədlərə tam çatmaq istəyiriksə, mütləq ki, müasir texnologiyalardan, yeniliklərdən hər zaman xəbərdar olmalı, onu idarəetmə prosesinə düzgün tətbiq etməyi bacarmalıyıq. Əks təqdirdə heç bir iş lazimi səviyyədə inkişaf etməyəcək.

İdarəetmə qarşıya bir məqsədin qoyulması ilə başlayıb, sonda hərtərəfli, səmərəli nəticənin əldə olunması ilə bitən bir prosesdir. Bunu da bildirmək istəyirəm ki, məqsəd hansı formada olmasından asılı olmayaraq obyektiv və subyektiv xarakter daşıya bilər. Bu zaman sual oluna bilər: idarəetmə prosesində "məqsəd" necə formalaşır? Əlbəttə ki, burada iş daha çox idarəçilərin üzərinə düşür. Belə ki, məqsəd ayrı-ayrı idarəçilər, idarəetmə orqanı nümayəndələri tərəfindən mövcud imkan, resurslar nəzərə alınaraq elmi səviyyədə müəyyən edilir. İdarəetmə prosesi zamanı qarşıya qoyulan məqsədin düzgün seçilməsi fəaliyyət göstərən müəssisə, təşkilatların strateji cəhətdən yüksək inkişafı üçün vacibdir.

İdarəetmə prosesi zamanı idarəçi işinə məqsədli yanaşmalıdır. Ümumiyyətlə, idarəetmə prosesində məqsədli yanaşma prinsipial əhəmiyyətə malikdir. Əslində daha dərinə getsək, görərik ki, məqsədli yanaşma idarəetmə üçün bariz bir metoddur. Bəs məqsədli yanaşmanın əhəmiyyəti nədədir? Öyrənilən hər bir ədəbiyyatda da açıqca bildirir ki, onun əsas əhəmiyyəti idarəetmə prosesi zamanı qarşıya qoyulan məqsədin daha dolğun ifadə edilməsi, elmi cəhətdən hərtərəfli əsaslandırılması, onların ardıcıl, tam həyata keçirilməsi və son olaraq da müəssisədən, təşkilatdan asılı olmaqla sosial-iqtisadi, texniki cəhətdən inkişafından ibarətdir. Biz idarəedicilər olaraq da bu məqsədləri həyata keçirə bilmək üçün bir çox metod-üsullardan istifadə edirik.

Bəs idarəetmə metodu nədir? Onun idarəçilikdə nə kimi əhəmiyyəti vardır?

İdarəetmə metodu, hər şeydən öncə idarəetmə prosesinin əsas tərkib hissəsidir. O, idarəetmədə sistemin düzgün formada qurulmasına, idarəetmənin səmərəliliyinə, prosesin daxili quruluşu, məzmununa təsir göstərir. Yəni, qısa olaraq desək, idarəetmə metodu-idarəetmə prosesində iştirak edən subyektin, yenə də həmin prosesdə iştirak edən obyektə məqsədli şəkildə təsiri başa düşülür.

Müasir dövrümüzdə idarəetmə sahəsində bir çox metodlardan istifadə edirlər. Hətta bu mövzu haqqında bir çox alimlər müxtəlif fikirlər qeyd ediblər. Belə ki, onlardan bəzilərinin fikirlərinə görə idarəetmə metodları inzibati və elmi olaraq iki yerə bölünür. Digərləri isə bu metodları inzibati, iqtisadi və hüquqi olaraq qruplaşdırırdılar. Və təbii ki, bunların hər birinin də özünəməxsus xüsusiyyətləri vardır. [3, s. 24]

**Nəticə.** Aparılan araşdırmalardan da aydın olur ki, idarəetmə elmi istər qədim zamanlarda, istərsə də bir elm kimi formalaşmağa başladığı dövrdən olduğu kimi qalmamış, hər zaman inkişafda olmuşdur. Lakin belə bir məqamı

da vurğulamaq istərdim ki, müasir dövrümüzdə fəaliyyət göstərən bir çox təşkilat, müəssisələrimiz vardır ki, onların idarəçiliyi qədim zamanların idarəçilik sistemi ilə üst-üstə düşür. Bundan da aydın olur ki, idarəetmə yeniliklərə açıq olan bir sahə olmaqla yanaşı, özünün tarixi köklərinə də bağlıdır.

Son olaraq bunu qeyd etmək isdərdim ki, istər təhsil müəssisəsi, istərsə də hər hansısa təşkilat, orqanın da inkişafının düzgün getməsini istəyiriksə, idarəetmə prosesini düzgün tənzimləməliyik. Bunun üçün isə ilk növbədə qarşıya həmin müəssisələrin strateji hədəflərinə uyğun məqsədlər qoymalı, eyni zamanda bu məqsədləri həyata keçirəcək yetərli metodları seçməliyik.

***Ədəbiyyat***


1. *Ramiz Məmmədzadə. "Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi" Bakı, 2010, 33 s.*
2. *Ə.H.Ələkbərov., M.Ə.Əliyev., S.H.Pürhani. "Menecment" Bakı, 2013, 10 s.*
3. *İ.Abbasov. "Menecment" Bakı, 2013, 24 s.*
4. *Bəyalı Ataşov. "İdarəetmə elmi və Rəhbər əməyi", Bakı:Elm, 2011, 18 s.*
5. *Mayis Güləliyev. "Yaxşı idarəetmə nədir?" Bakı, 2005, 22 s.*
6. *X.Z.Kərimov. "Strateji idarəetmə:metodlar və praktika" Bakı, 2006, 12 s.*
7. *Мескон М. Х., Альберт М., Хедоури Ф. Основы менеджмента: пер. с англ. М.: Дело, 1993. 302 с.*
8. *Yasəmən Əliyeva. "Menecmentin əsasları" Bakı, 2017, 42 s.*
9. *Elizabeth Christopher, "International Management". United Kingdom, Kogan Page, 2012.*
10. *Quliyev T. "Menecmentin (idarəetmənin) əsasları". Bakı, 2006, 591 s.*

# ETİKA VƏ HÜQUQ ANLAYIŞLARININ QARŞILIQLI ƏLAQƏSİNİN ANALİZİ

**C.M.Rəhmətullayev**
**Bakı Mühəndislik Universiteti**
*rehmetullayev97@gmail.com*

***Xülasə***

*Məqalədə etika və hüquq anlayışlarının bir-biriylə qarşılıqlı əlaqəsindən bəhs edilmişdir. Bu anlayışların cəmiyyət və dövlət səviyyəsində mövqeyinə toxunulmuşdur. Hüquq və etikanı birləşdirən əsas dəyərlər və komponentlər nəzərdən keçirilmişdir. Etik və hüquqi qaydalara əməl edilmədiyi təqdirdə hansı nəticələrlə qarşılaşa biləcəyimizdən söz edilmişdir. Hər nə qədər bu anlayışları birləşdirən ortaq dəyərlər olsa da, bəzən etika və hüquq da öz daxilində ziddiyətlər yaşamaqdadırlar. Məqalədə bu mövzuya da toxunulmuşdur. Eyni zamanda hüquq və etika anlayışları arasındakı bənzərliklər və fərqliliklər nəzərdən keçirilmişdir.*

## АНАЛИЗ ВЗАИМОДЕЙСТВИЯ ЭТИКИ И ПРАВОВЫХ ПОНЯТИЙ

***Резюме***

*В статье рассматривается соотношение понятий этики и права. Было затронуто положение этих концепций на уровне общества и государства. Рассмотрены основные ценности и составляющие, объединяющие право и этику. В нем говорилось о последствиях, с которыми мы можем столкнуться, если не будем соблюдать этические и правовые нормы. Хотя эти концепции объединяют общие ценности, иногда этика и право вступают в противоречие. Статья также затрагивает эту тему. При этом рассматриваются сходства и различия между понятиями права и этики.*

## ANALYSIS OF THE INTERACTION OF ETHICS AND LEGAL CONCEPTS

***Summary***

*The article discusses the relationship between the concepts of ethics and law. The position of these concepts at the level of society and the state was touched upon. The main values and components that unite law and ethics are considered. It spoke of the consequences we could face if ethical and legal rules were not followed. Although there are common values that unite these concepts, sometimes ethics and law are in conflict. The article also touches on this topic. At the same time, the similarities and differences between the concepts of law and ethics are considered.*

***Açar sözlər:*** *etika, etik dəyərlər, əxlaq, hüquq, qanunvericilik, hüquq norması*
***Ключевые слова:*** *этика, этические ценности, мораль, право, законодательство, правовая норма*
***Key words:*** *ethics, ethical values, morality, law, legislation, legal norm*

**Giriş.** Məlumdur ki, hüququn nə olduğu, hansı prinsiplərə əsaslandığı və nəyi hədəf aldığına dair zaman və məkana əsaslanan fərqli yanaşmalar mövcuddur. Hüququn sosial normaların təmin edilməsi və qorunmasında ən təsirli vasitə olduğu qəbul edilir. Çünki, digər ictimai norma qaydaları olan din və əxlaq qaydalarının dünyəvi və dövlət tərəfindən tətbiq olunan konkret sanksiyalarının olmadığı məlumdur. Üstəlik belə bir sanksiya tətbiq olunarsa, bu qaydanın dini və ya əxlaqi bir qayda olmaqdan çıxdığına və hüquq qaydasına çevrildiyinə şahidlik etmiş olarıq.

Hüquq tənzimləyici sosial norma olaraq, müəyyən əsas prinsiplərdən asılı olmalıdır. Başqa sözlə, hüquq dediyimiz anlayış bütün digər sahələrdən təcrid olunmuş şəkildə araşdırılacaq bir sahə deyil. Bir cəmiyyətdə hökm sürən hüquq sistemi mütləq həmin cəmiyyətin din, ənənə, etika və tarixi ilə vacib bir əlaqəyə malik olmalıdır. Bu, həm qanunun qüvvədə olması və işləməsi üçün, həm də cəmiyyət üzvlərinin öz hüquq sistemlərinə sahib çıxması və razılıq əsasında ona əməl etmələri üçün əvəzolunmaz bir zərurətdir.

Bu kontekstdə hüququn çox sıx əlaqəli olduğu və ya olması gərəkdiyi bir sahə də etikadır. Hüquq və etika gündəlik həyatda tez-tez eşitdiyimiz və ya qanunların həyata keçirilməsi və ədalətin təmin edilməsi baxımından bilərəkdən və ya bilməyərəkdən əlaqələr qurduğumuz bir-biri ilə əlaqəli iki nizam-intizam qaydasıdır. Qanun təbii olaraq daha çox praktiki olanla əlaqəlidir. Etika praktika ilə əlaqəli olsa da, ondan daha çox etik həyatın əsas prinsiplərini müəyyənləşdirməsi gözlənilir. Doğru fəaliyyət ilk növbədə düzgün etik prinsiplərin köməyi ilə həyata keçirilə bilər. Ədalətin təmin edilməsi vasitəsi olaraq hüquq, etik prinsipləri özünə rəhbər olaraq seçmiş bir cəmiyyətdə tam şəkildə fəaliyyət göstərə bilər.

**Etika və hüquq əlaqəsinin ümumi təsviri.** Etika olaraq adlandırdığımız anlayış insanı nəyin doğru və ya nəyin yanlış olması haqqında bir istiqamətə yönləndirən əxlaq fəlsəfəsinin bir qoludur. İdeal bir insan xarakterinin əsas konsepsiya və prinsiplərinin toplusudur. Bu prinsiplər nəyin doğru, nəyin yanlış olduğuna qərar verməkdə bizə yol göstərir. Müəyyən bir vəziyyətdə necə hərəkət etməli olduğumuzu və özümüz üçün daha yaxşı seçim etmək üçün mühakimə etmək barədə bizi məlumatlandırır. Etika insanlar tərəfindən qəbul edilən və mənimsənilən davranış qaydalarıdır. Bir insanın digər insanlarla necə yaşaması və necə qarşılıqlı əlaqəyə girməsi vacibliyinə dair standartları müəyyən edir.

Etikanın əsas funksiyası hər şeydən əvvəl ideal həyatın araşdırılması və idrak edilməsinə yönəlmişdir. Etika sayəsində insanlar tərəfindən qurulan fərdi münasibətlər və cəmiyyətə yayılan münasibətlər tənzimlənir. Bu münasibətlərin üzərində qurulduğu qayda, norma və anlayışlar əxlaqi cəhətdən düzgün və ya yanlış, yaxşı və ya pis kimi təsnif edilir. Buna görə də etika fərdi və ictimai həyatın ayrılmaz bir hissəsidir. Etik dəyərlərə sahib olmayan fərdlər və cəmiyyətlər degenerasiya olunmağa və mahiyyətlərini itirməyə məhkumdurlar. Doğru ilə yanlışın nəzəri olaraq ötürüldüyü fəlsəfənin bir qolu olan etika sayəsində həyat prinsiplər çərçivəsində təşkil edilə bilər. Etika sayəsində ictimai həyat tənzimlənir və

fərdlər ictimai həyatda nəyi istəyə biləcəyini və nəyi istəyə bilməyəcəyini, nəyə sahib ola biləcəyini və nəyin uyğun və ya uyğun olmadığını müəyyənləşdirir [9].

Etika ictimai həyat və fəaliyyətdə yaranan özünəməxsus problemləri tədqiq edən, onların həlli yollarını axtaran əxlaq və mənəviyyat haqqında elmdir. Bu elm sahəsi insanların davranışını və fəaliyyətlərini nizama salan xüsusi üsul və qaydalardan ibarətdir və bu qaydalar əsasən qanunlaşdırılmış məcburi normalara əsaslanır [2, s.9]. Konstitusiyada göstərildiyi kimi, təsbit edilən normaların insanların sərbəst və müstəqil surətdə seçdiyi qanunvericilər tərəfindən, onların istək və ya arzularına əsasən formalaşdığı unudulmamalıdır. Bu səbəbdən etika və hüquq sahəsinin predmetini müəyyən etmək üçün Konstitusiyanın müəyyən etdiyi qanunvericilik aktlarına müraciət etmək olduqca vacibdir [2, s.10]. Təhlükəsiz və sağlam ətraf mühitdə yaşamaq, şəxsi toxunulmazlıq, şərəf və ləyaqətin qorunması, vicdan azadlığı və Konstitusiyada nəzərdə tutulan digər dəyərlərə cavab verən etik normalar və onların qanunlaşdırılmış forması müasir ictimai münasibətlərdə öz əksini daha geniş tapmışdır.

Bu mövzuda üzərində durulması gərəkən ilk nöqtə etika və hüquq arasında qüvvətli əlaqələrin olmasıdır. Həqiqətən də etika və hüquq arasındakı mürəkkəb əlaqəni incələdiyimizdə görə bilərik ki, həm hüququn, həm də etikanın əsas mövzuları haqq, ədalət, azadlıq, bərabərlik, insan ləyaqəti kimi dəyərlərdir. Etikanın əsasını yaradan bu dəyərlər hüquq sayəsində sosial həyatda tətbiq sahəsi taparaq pozitiv hüquq qaydası halına gələ bilməkdədir. Bu səbəblə deyə bilərik ki, bu dəyərlər etika və hüququn qarşılıqlı əlaqəsinə səbəb olmaqda, etika və hüququn kəsişmə nöqtəsi içində yer almaqdadırlar [3, s.698]. Müasir həyatda hüquq və etika sahələri arasında əlaqə çoxşaxəlidir və bu komponentlər bir-birlərinə təsir etməkdədirlər. İnsanların bir arada yaşaması üçün təfərrüatlı hüquq qaydalarına duyulan ehtiyac artmaqdadır, beləliklə, cəmiyyət həyatının daha çox hüquqiləşməsi qeyd edilməkdədir. Sosial həyatda hüquq qaydalarının xüsusi çəkisi artdıqca etika qaydalarının azaldığı müşahidə olunur. Halbuki, etik və hüquqi normalar birlikdə yaşamağın əvəzolunmaz iki elementidir [1, s.87].

Bundan əlavə, hüquq qaydaları insan həyatının müqəddəsliyi və fərdin maddi və mənəvi bütövlüyünün qorunması kimi prinsiplərə əsaslanır. Bu səbəbdən etika və hüququn üst-üstə düşdüyünü deyə bilərik. Hətta etik prinsiplərin çoxu zaman keçdikcə hüquq qaydalarına çevrilmişdir. Məsələn, əvvəllər qanuni tənzimləmə mövzusu olmayan istehlakçı hüququ və sosial təminat hüququ kimi sahələrdə sanksiyalara məruz qalan davranışlar əvvəllər etikadan kənar olduqları üçün qadağan edilmişlərdir. Başqa sözlə, etik qaydalar normativ tənzimləmələr halına gətirilmişdir [3, s.699].

Hüquq qanunlar, qaydalar çərçivəsində nə edilə biləcəyini, etika isə nə edilməsi gərəkdiyinin ortaya qoyulmasıdır. Beləliklə, etika kimi hüquq elminin də əsas mövzusu insanların davranışlarını özündə ehtiva edir, ancaq bunu əxlaqi cəhətdən deyil, qanunlara uyğunluq cəhətdən araşdırmaqdadır.

Hüquq normları əxlaqi normlar deyil, ancaq bağlayıcı olmağı əxlaqi normalarla təmin etməyə çalışır. Çünki, demokratik bir hüquq sistemi əxlaqi əsaslar üzərində qurulmuşdur və azadlıq, ədalət və bərabərliyin mütləq dəyərlər olaraq qəbul edilməsi hər kəs üçün olduqca vacibdir [7, s.93].

Etika qaydaları hüquq qaydaları qədər məcburedici deyil. Etika fərd qərarlarını qəbul edərkən müəyyən vəziyyətləri nəzərə alır. Şəxsin seçdiyi qaydanın həyata keçirilməsi bir başqası tərəfindən əngəllənə bilməz. Buna görə də etikada birtərəflilik vardır. Aldığı qərarlar üzrə məsuliyyəti şəxs özü daşıyır. Hüquqi mövzularda çox böyük ölçüdə dəqiqlik və açıqlıq varkən, etika ilə əlaqəli mövzularda bu dəqiqliyin və açıqlığın olduğunu söyləmək o qədər də asan deyil. Ancaq, günümüzdə, xüsusən də dövlət idarəçiliyində yeni yanaşmaların təsirilə etik prinsiplərin qanunvericilikdə və etik davranış kodekslərində yazıldığı, sanksiyalar tətbiq edilərək sistemləşdirildiyi və dövlət qurumlarında etik komitələrin yaradıldığı görülməkdədir [5].

**Hüquqda etikanın tətbiqi.** Hüquq etikası hüquq qaydalarının formalaşması, işlənməsi və nəzarəti zamanı müşahidə olunan əxlaqi dəyərlərin məcmusudur. Qeyd etməliyik ki, etika anlayışı hələ formalaşmamış bir qayda üçün çox vacibdir, çünki formalaşmasında fəal rol oynayacaqdır. Hüquq etikası qaydalarının mövcudluğu hüququn üstünlüyü və ədalətin yaranması üçün fərqli dəyərlərin qorunmasına əsasən də formalaşa biləcəkdir. Tərifimizə görə, hüququn istinad etdiyi mənbələrin də birbaşa təsirinə diqqət yetirməliyik. Hüququn yazılı qaydalarla özünü büruzə verdiyi sistemimizdə qidalandığı qaynaqlar isə din, cəmiyyət əxlaqı, ədəb qaydaları və adət-ənənə kimi ictimai həyatın tənzimlənməsində vacib olan elementlərdir [8].

Hüquq etikasının əsas prinsipləri kontekstində hüququn düzgünlüyünün ölçülməsi aşağıdakı suala verilən cavabla sıx bağlıdır. Sual bu prinsiplərin insanlar arasındakı əlaqələri təsvir etməklə kifayət edib etməyəcəyi, şaquli mənada yəni fərdlə dövlət arasında əlaqə konteksində dövlətin hüquqi şəkildə necə təşkil ediləcəyi sualıdır, çünki hüquq insana müəyyən haqqlar versə də, onun üzərinə müəyyən vəzifələr də qoyur. Başqa sözlə, bu təməl anlayışların etibarlılıq sahəsi yalnız insanlar arasındakı münasibətlə müəyyən edilmir, eyni zamanda insanla dövlət arasındakı əlaqənin müəyyənləşdirilməsində də hüquq etikasının əsas anlayışlarının təsirindən bəhs edilir [4 s.15].

Etik prinsiplərin və praktiki hüquq qaydalarının doğruluğu onların birbaşa etibarlı olduğu mənasını daşımır. Bu səbəbdən indiyə qədər ifadə etdiyimiz hüquq etikasına dair düzgün təməl anlayışların etibarlı və təsirli ola bilməsi üçün uyğun bir sosial mühit və dövlət sanksiyası zərurət olaraq ortaya çıxır. Bu baxımdan sadə insan haqqları bəyannamələrinin təkcə yetərli olmadığı açıqdır. Bunun üçün bu əsas anlayışlar konstitusiya hüququ baxımından pozitiv hala gətirilməli və təminat altına alınmalıdır. Ancaq, burada da qanunvericilik qurumu ilə əvvəldə qeyd olunan etik anlayışları əsas götürən insan haqqları müdafiəçiləri arasında bir mübarizə olacağı gözlənilləndir. Başqa sözlə, hüquq etikasının bu təməl anlayışla-

rını qüsursuz bir şəkildə pozitiv hüququn bir hissəsi halına gətirmək olduqca çətindir. Hüquq və etika bir-birindən ayrı sahələr olmasına baxmayaraq, hər ikisi bir-birlərindən kənarlaşmazlar, çünki hüquq yuxarıda qeyd etdiyimiz dəyərlərin özünü həyata keçirməsinin əsas şərtini təşkil edir. Yəni etika ilə heç bir əlaqəsi olmayan hüquq deyil, onunla müəyyən bir əlaqəyə girən hüquq fərqli dünyagörüşünə sahib insanları bir arada tutmaqda və onların birliyini təmin etməkdədir. Buna görə hüquq sistemini bu əsas etik anlayışlardan ayırmağa çalışmaq mənasızdır. Bunun əvəzinə, mövcud hüquq sistemini daim əsas götürdüyü əsas hüquq fəlsəfəsi kontekstində və hüquq etikasının əsas anlayışlarına uyğun olaraq əks etdirmək lazımdır. Bu, həm konstitusiyanın təməl ümumbəşəri dəyərlərə görə hazırlanmış olması, həm də hər hansı bir cəmiyyətin hüquq sisteminin tərkibində olduğu mənəvi və hüquqi ənənəyə bağlı olması faktından irəli gələn bir zərurətdir. Burada üzərində durulması gərəkən şey onların təməl insan hüquqları kimi universal olmasıdır. Yəni bu anlayışlar hüquq etikası baxımından ümumi çərçivəsi çəkilmiş, ancaq, tərkibi müəyyən olunmamış anlayışlardır. Beləliklə, bunların məzmununun doldurulması fərqli mədəniyyətlərdə fərqli olacağından müvafiq cəmiyyətə həvalə olunmuşdur. Burada qeyd edilməli məqam odur ki, bu məzmunun doldurulmasında insan haqqları və hüququn ümumdünya prinsiplərinə mütləq şəkildə əməl edilməlidir. Bu mənada belə bir məzmunun doldurulmasında özbaşınalığa və həddindən artıq nisbiliyə yer yoxdur [4, s.17-18].

Müəyyən bir etikaya əsaslanmayan bir hüquq sistemi haqqında düşünmək imkansızdır. Belə bir hüquqi sistemi qurmaq mümkün olsa belə, bu sistemin işləməsi və funksional olması olduqca çətindir. Ədalət, bərabərlik, azadlıq, etibarlılıq kimi təməl etik və hüquqi anlayışlar hüquq ilə etikanın kəsişmə nöqtəsini təşkil edir. Saydığımız bu anlayışlar həm doğru bir etikanın, həm də əsaslandırılmış bir hüquq sisteminin gerçəkləşməsini təmin etməyə çalışan əsas anlayışlardır. Ancaq, bu anlayışlar etika fəlsəfəsində yer tapan sadə təsvirlər olaraq qalmamalı, mütləq şəkildə cəmiyyətlə və dövlətlə əlaqələndirilməlidir. Əlavə olaraq nəzərdən keçirilməli olan başqa bir məqam da bu təməl anlayışların mövcud hüquq sayəsində pozitiv hala gətirilməsidir. Pozitiv hala gətirilməyən və müəyyən sanksiyalarla işləkliyi təmin edilə bilməyən bu anlayışlar hüquq etikasının deyil, əxlaq fəlsəfəsinin mövzusu olmağa davam edər. Bu edilmədiyi təqdirdə, hüquq etikasının saydığımız təməl anlayışları nisbi etika anlayışın mövzusu olmaqdan xilas ola bilməz və praktik həyatla əlaqələrini qura bilməzlər. Hüquq etikası isə bu nöqtədə ortaya çıxır və bu anlayışların hüquq sayəsində nisbilikdən qurtulacağını ifadə edərək və bunun necə həyata keçiriləcəyini göstərərək həm etikanın əsaslılığının artırılmasına imkan yaradır, həm də hüquq adlanan anlayışın sadəcə bir sıra quru qanun və tənzimləmələrdən ibarət olmadığını göstərir. Bərabərliyə, azadlığa, şəxsin dövlət qarşısındakı üstünlüyünə, insanın ləyaqətinə və şərəfinə əhəmiyyət verməyən və bunların hüquqda yeri olmadığına inanan bir məhkəmə sistemindən ədalət, insana hörmət, bərabər rəftar və etibarlılıq gözləmək sadəlövhlük olardı [4 s.18].

Üzərində durulması gərəkən digər nöqtə isə etik prinsiplərlə hüquq qaydalarının həmişə bir-biriylə üt-üstə düşmədiyidir. Bəzən etika və hüquq da öz daxilində ziddiyyətlər yaşamaqdadır. Qanunvericiliyə uyğun olsa belə, etikaya uyğun olmayan hallarla qarşılaşa bilərik. Buna misal olaraq, verilən sözün tutulmaması qanuni cəhətdən məcburiliyi olmasa da, etik cəhətdən doğru davranış olmadığı aşkardır. Bu vəziyyəti aşağıdakı şəkildə daha yaxşı anlaya bilərik.




**Şəkil 1[6].**

I və III vəziyyətlər problemsizdir, çünki etik qaydalar və hüquqi qaydalar bir-birinə uyğundur və bir-birini dəstəkləyir. II və IV hallarda etik qaydalar və qanuni qaydalar bir-birinə ziddir, birinin qəbul etdiyi vəziyyəti digəri rədd edir [6].

**Hüquq və etikanın oxşar və fərqli cəhətləri**. Hüquq və etika hər nə qədər bir-birləriylə sıx əlaqədə olsalar belə, onları bir-birindən ayıran xüsusiyyətləri də mövcuddur. Aşağıda bu bənzərliklər və fərqliliklər nəzərdən keçirilmişdir.

- Hüquq qaydaları insanların hərəkətlərini və davranışlarını tənzimləyir və onlara bəzi məhdudiyyətlər qoyur və bu qaydaların pozulması halında sanksiyalar tətbiq olunur. Etika qaydaları da insanların hərəkət və davranışlarına məhdudiyyətlər gətirməklə birlikdə, bu qaydalar pozulduğu halda hər hansı bir sanksiya tətbiq edilmir. Ancaq bu gün həm dövlət məmurları, həm də akademiklər üçün etik olmayan davranışlara qarşı sanksiyalar tətbiq etmək mümkündür. Lakin qeyd etmək lazımdır ki, bu mərhələ etika sahəsindən kənarda qalmış və hüquq sahəsinə daxil edilmişdir [7, s.93].
- Hüquq qaydaları əsasən yazılı halda mövcud olur. Etik prinsiplər isə yazılmamış normalardır. Ancaq məlumdur ki, bu gün müxtəlif sahələrdə etik prinsiplər yazılı qaydalar halına gətirilmişdir.
- Etik prinsiplər və hüquqi qaydalar bəzən bir-birini tamamlayır. Hətta, etika qanunun əsasını təşkil etməklə, onun formalaşmasına və inkişafına istiqamət verir [3, s.700].
- Hüquq qaydaları şəxslərin digər insanlarla münasibətlərini tənzimləyir və şəxsin hərəkətləri və davranışları nəticəsində digər şəxslərin zərər görməsinin

qarşısını alır. Etik prinsiplər isə insanların özlərinə nəzarət edərək yaxşı və düzgün davranmalarını təmin etməyi hədəfləyir [7, s.93].

- Hüquq qaydalarının mənbəyi müzakirə edilsə də, bunların dövlət tərəfindən yazılı hala gətirildiyi qəbul edilir və bilinir. Etik prinsiplər cəmiyyətin vicdanında yaranır və insan şüuru tərəfindən formalaşdırılır. Etik qaydalar isə dövlət tərəfindən yazılı hala gətirilə bildiyi kimi, müxtəlif peşə təşkilatları tərəfindən də müəyyən edilə bilməkdədir [7, s.93].

- Qanunların icrasında dövlətin məcburedici gücündən istifadə olunur. Bu çərçivədə müəyyən qanunları/qaydaları pozan insanlar cərimə, həbs və ya ölüm cəzasına məhkum edilir. Etika və əxlaqa zidd hərəkət edən insanlar, davranışları da qanunlara zidd olmadıqca bu cür cəzalara məruz qalmırlar. Etik və ya əxlaqi standartları pozan insanları çox vaxt davranışlarını qınamaqla və ya bu cür münasibətin yaxşı olmadığını bildirməklə cəzalandırırlar [7, s.94].

**Nəticə.** Etika və hüquq arasındakı əlaqənin incələndiyi çalışmamızın nəticəsində görülməkdədir ki, hər iki anlayışın bənzər tərəfləri ilə yanaşı fərqli tərəfləri də müşahidə olunmaqdadır. Əlavə olaraq, zaman keçdikcə bu iki anlayışın birbiri ilə iç-içə olduğu və bəzən etik prinsiplərin hüquq qaydalarına çevrildiyini görə bilərik. Beləliklə, hər iki anlayış müəyyən ölçüdə insanların hərəkət və davranışlarını tənzimləmə məqsədi güdür.

Məlumdur ki, hər hansı hüquqpozma faktı ilk olaraq öz mənbəyini etik və əxlaqi dəyərlərə etinasız yanaşmadan və insanların hüquq və azadlıqlarına biganə münasibətdən başlayır. Əgər əvvəlcədən belə münasibətlərin qarşısı alınmasa, bu daha arzuolunmaz nəticələrə səbəb olacaqdır. Etik münasibətlərə diqqətin artıq olduğu bir mühitdə arzuolunmaz nəticələrə nadir hallarda rast gəlinir. Etik və əxlaqi münasibətlərin hazırki şəraitdə tarazlaşdırılması iki yolla aparılarsa müsbət nəticə verə bilər. Bir yol bu dəyərlərin geniş formada təbliği, digəri isə qanunlaşdırılmış etik qaydaların icrasına hüququn təsirindən istifadə edilməsidir.

Son olaraq deyə bilərik ki, ictimai sabitliyin qorunmasında hərkəsin riayət etməsi gərəkən qaydalar nə qədər vacibdirsə, müəyyən bir peşə sahəsində doğru və düzgün davranış standartları olan etik prinsiplər də bir o qədər vacibdir. Çünki, hər iki anlayış bir araya gəldikdə cəmiyyətin fərdlərinin daha keyfiyyətli xidmət alacaqlarının, hüquqlarını itirməyəcəklərinin və peşə qruplarının qalıcı nizamının, bütövlüyünün, xoşbəxtliyinin və rifahının əsaslı bir şəkildə təmin ediləcəyini söyləmək olar.

***Ədəbiyyat***

1. *E.N.Tuğan, U.Ömürgönülşen (2020). Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Türkiye'de Yargı Etiği İlkeleri Üzerine Bir İnceleme. 24 (Aralık Özel Sayı), s.86-87.*
2. *Hacı İbrahim İsmayılov. Məhkəmə etikası. ADPU-nun nəşriyyatı, Bakı, 2009, s.9-10, 14.*

3. *Kadir Can Özel. "Etik ve etik-hukuk arasındakı ilişki". Türkiye Adalet Akademisi Dergisi / 33 (Ocak 2018): 698-700.*
4. *Prof.Dr. Arslan Topakkaya, Hukuk-Etik İlişkisi. Uluslararası sempozyum insani değerlerin yeniden inşası. 19-21 Haziran 2014, Atatürk Üniversitesi Yayınları. 2015, s. 15,17-18*
5. *Prof. Dr. Fatma Ebru İkiz, "Meslek Etiği ve Yasal Konular". 2.Baskı-2020, s. 4.*
6. *Türk sanayicileri ve iş adamları dergisi, dünyada ve Türkiyede iş etiği ve etik yönetimi, Haziran 2009, s.40.*
7. *Yusuf Karakoç, "Hukuk-Etik İlişkisi" ("Hukuka Felsefi ve Sosyolojik Bakışlar – V" Sempozyumu, 13-17 Eylül 2010 İstanbul, Hukuk Felsefesi ve Sosyolojisi Arkivi, S. 24, İstanbul Barosu Yayınları, İstanbul 2012, s. 93,94).*
8. *http://www.alpertunga.av.tr/index.php?option=com_content&view=article&id=16:hukuk-ve-meslek-etigi&catid=16&Itemid=114*
9. *https://www.mediaclick.com.tr/tr/blog/etik-nedir*

# DRAMATİK ƏSƏRLƏRİN TƏDRİSİNDƏ JANR XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

**A.R.Nəsirova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*amilanasirova@gmail.com*

**Xülasə**

*Ümumtəhsil məktəblərində dramatik əsərlərin tədrisi mühüm yer tutur. Şagirdlər müxtəlif siniflərdə M.F.Axundov, C.Məmmədquluzadə, N.Vəzirov, C.Cabbarlı, S.Vurğun və digər yazıçıların dram əsərləri ilə tanış olurlar. Həmin əsərlərin tədrisi zamanı janr xüsusyyətlərinin nəzərə alınması vacibdir. Şagirdlər dram əsərləri vasitəsilə bu janrda yazılan əsərlərin ideya və bədii xüsusiyyətlərini öyrənir, dramaturgiya və teatr tariximiz haqqında məlumat alırlar.*

*Dramatik əsərin bədii özünəməxsusluğunu qavramaq, dərk etmək üçün məktəblilərlə əvvəlcədən hazırlıq işləri görülməli, əsərin struktur, forma xüsusiyyətləri aydınlaşdırılmalıdır. Bu məqsədə nail olmaq üçün səmərəli yollardan biri ədəbiyyat dərslərində səhnələşdirmələrə geniş yer verilməsidir.*

*Dramatik əsərlərin tədrisində əsərin janr xüsusiyyətlərinin nəzərə alınması, şagirdlərin ədəbi-nəzəri biliklərə yiyələnməsi təlimin səmərəliliyini artırır.*

## УЧЕТ ЖАНРОВЫХ ОСОБЕННОСТЕЙ ПРИ ПРЕПОДАВАНИИ ДРАМАТИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ

**Резюме**

*Драматические произведения занимают важные места в общеобразовательных школах. Ученики в разных классах знакомятся с М.Ф.Ахундовым, Дж. Мамедкулизаде, Н.Везировым, Дж. Джаббарлы, С.Вургун и другими драматургами. Нужно знать к какому жанру относятся пройденные произведения. Ученики с помощью драматических произведений узнают идею и бытовой характер этого жанра, получают информацию о драматургий и истории театра.*

*Чтобы осознать художественное своеобразие драматического произведения, необходимо заранее провести подготовительную работу со студентами, уточнить особенности структуры и формы произведения. Один из наиболее эффективных способов достичь этой цели - увеличить использование постановки на уроках литературы.*

*Учет жанровых особенностей произведения при изучении драматических произведений, усвоение учениками литературно - теоретических знаний повышает эффективность обучения.*

## TAKING INTO ACCOUNT THE CHARACTERISTICS OF THE GENRE IN THE TEACHING OF DRAMATIC WORKS

**Summary**

*Teaching dramatic works plays an important role in secondary schools. Pupils in different classes get acquainted with dramatic works by M.F.Akhundov, J.Mammadguluzadeh, N.Vazirov, J.Jabbarly, S.Vurgun and other writers. It is very important to know which genre the work belongs to. Students learn about the ideas*

*and artistic features of this genre through dramatic works and learn about our history of drama and theatre.*

*To understand the artistic originality of a dramatic work, it is necessary to carry out preparatory work with students in advance, to clarify the features of the structure and form of the work. One of the most effective ways to achieve this goal is to increase the use of staging in literature lessons.*

*Taking into account the genre characteristics of the work in the study of dramatic works, the assimilation of literary and theoretical knowledge by students increases the effectiveness of teaching.*

***Açar sözlər****: dərs, ədəbiyyat, dram, müəllim, şagird, bədii, mətn, oxu, təhlil, ədəbiyyat*

***Ключевые слова****: урок, литература, драма, учитель, ученик, искусство, текст, чтение, анализ, литература*

***Key words****: lesson, literature, drama, teacher, student, art, text, reading, analysis, literature*

Ədəbiyyat dərslərində bədii əsərlərin öyrənilməsi zamanı bir sıra mühüm məqamların nəzərə alınması zəruridir. Məktəb təcrübəsi göstərir ki, bu məsələ ilə əlaqədar öyrənilən əsərin janr xüsusiyyətlərinin nəzərə alınması böyük əhəmiyyət kəsb edir. Şagirdlərdə dramatik əsərlərin oxusuna, təhlilinə böyük maraq oyadılması, mətndəki bədii təsvir və ifadə vasitələrindən baş çıxarmaq, əsəri qavramaq və və qiymətləndirmək bacarığı aşılanması müəllimin qarşısında duran mühüm vəzifələrdir.

Bununla yanaşı, hələ də elə şagirdlərə rast gəlmək olur ki, dramatik əsəri düzgün oxumağı bacarmırlar. Bədii mətnin şagirdlər tərəfindən səthi qavranılması dərsdəki bir sıra çatışmazlıqlarla bağlıdır. Xüsusən dramatik əsərin janr xüsusiyyətlərinin, struktur özünəməxsusluğunun nəzərə alınmaması təlimdə ciddi çatışmazlıqlara yol açır. Çox zaman şagirdlər epik əsərlərin oxusu və təhlili üzrə metod və üsulları mexaniki şəkildə dramatik əsərlərin üzərinə köçürürlər. Halbuki söz sənətinin hər bir növü, janrına aid əsərin oxusu, təhlili xüsusi bacarıqlar tələb edir. Dramatik əsərin strukturu elədir ki, onu epik əsər, roman kimi oxumaq olmaz.

Məlumdur ki, bütün növlərdən olan ədəbi əsərlər şagirdlərin bədii zövqünün inkişafına müsbət təsir göstərir. Lakin bu sahədə dramatik əsərlərin mühüm təsir dairəsinə malik olduğu şübhəsizdir. Ümumtəhsil məktəblərimizdə yuxarı siniflərdə Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Nəcəf bəy Vəzirovun, Cəfər Cabbarlının, Səməd Vurğunun, İlyas Əfəndiyevin, Anarın dramatik əsərləri öyrənilir.Təqdirəlayiq haldır ki, ədəbiyyat tədrisi metodikasına dair tədqiqatlarda dramatik əsərlərin öyrənilməsi məsələlərinə də geniş yer verilmişdir. Eyni zamanda dramatik əsərlərin öyrədilməsi ilə əlaqədar kurikulumun tələblərinə uyğun yeni metodik ümumiləşdirmələr aparılmasına ciddi ehtiyac hiss olunur.

Metodist alim Bilal Həsənli yazır ki, ədəbiyyat müəllimi bədii əsərin oxusu və təhlili prosesində şagird qavramasının xarakterini nəzərə almaqla kifayətlənməməli, həm də ona ciddi şəkildə təsir göstərməyə çalışmalıdır. Bu məqsədələ ilk növbədə bədii ədəbiyyatın mütaliəsi, qavranılması xüsusiyyətləri öyrənilməli, onun nəticələri təlim prosesində nəzərə alınmalıdır. Bədii əsərin mütaliəsi zamanı oxucu təsvir edilən hadisələri, obrazları qavramaqla yazıçının həyat haqqında mühakimələri ilə tanış olur. Əsərdə öz əksini tapan mənəvi-estetik problemlərin, insanın həyatı, taleyi ilə bağlı səhnələrin dərk edilməsi, hiss və duyğu süzgəcindən keçirilməsi prosesində oxucu özünü də dərk edir, indiki və gələcək fəaliyyəti üçün zəruri olan təcrübə qazanır. Beləliklə, bədii ədəbiyyat oxucunun hiss və duyğularının, müstəqil düşüncəsinin, mənəvi aləminin, fəal həyat mövqeyinin formalaşmasına ciddi təsir göstərir.” [3, s.41.]

Dramatik əsərləri tədris edərkən müəllim ən əvvəl səhnə dilinin xüsusiyyətlərini bilməlidir. Fikrin oxucu və tamaşaçıya çatdırılmasında səhnə qanunlarına bələdliyin xüsusi əhəmiyyəti vardır. Burada hərəkətlər, səhnə tərtibatı tamaşaçıya nəyi isə çatdırır, diktə edir, fikrin ifadəsini reallaşdırır. Dramaturqdan tələb olunur ki, sözə daha çox qənaət eləsin, az sözlə çox fikir ifadə eləsin.

Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsi problemini tədqiq etmiş metodist alim Dursun Məmmədov yazır ki, görkəmli sənətkarlarımız M.F.Axundzadə, C.Cabbarlı, S.Vurğun və başqaları da dram əsərində dilin mövqeyi məsələsini mühüm və zəruri bir iş hesab edirdilər.

Dram əsərində dialoq daha çox işlənən danışıq formasıdır. Burada iki personajın qarşı-qarşıya dayanması əsas şərtdir. Dialoqlarda zidd tərəflər toqquşur, fikirlər toqquşmasından həqiqət meydana çıxır. Buradakı konfliktlərdə dramatizm daha gərgin olur. Belə dialoqlarda müxtəlif əqidələr, dünyagörüşlər, ideyalar üz-üzə gəlir. Hər bir dram əsəri təhlil olunarkən müəllim aşağıdakı məsələlərə diqqət yetirməlidir:

a) Dialoqlardakı gözəl şeiriyyət;
b) Məzmun dolğunluğu;
c) Sadəlik, səmimilik;
d) Surətin mənəvi aləminin açılması;
e) Yüksək, gərgin dramatizm. [5, s.46-47]

Dram əsərlərinin tədrisində monoloqlar üzrə iş də zəruridir. Məlumdur ki, dramaturq monoloqlar vasitəsilə özünün ən yüksək fikirlərini ifadə edir. Monoloqları şagirdlərin əzbərləməsi də mühüm şərtdir. Çünki monoloqların məzmununu nağıl edəndə öz təsirini itirir. Monoloqda ifadə olunan fikirlər nağıl ediləndə quru, cansız səslənir. Monoloqun təsir gücü, ifadəliliyi onun yüksək hiss-həyəcanla, pafosla səslənməsi ilə bilavasitə bağlıdır. Bu, həm də şagirdlərin estetik zövqünü inkişaf etdirir. Onlarda yazıçı sənətkarlığının səviyyəsi haqqında dolğun təsəvvür formalaşır. Müasir metodika öyrənilən əsərin bədii özünəməxsusluğunun şagirdlərin yaş xüsusiyyətlərinə, qavrama səviyyəsinə uyğun

şəkildə mənimsənilməsinə imkan verən təhlil metodları və üsullarının müəyyənləşdirilməsinə böyük diqqət yetirir. Bu axtarışların nəticələrindən məktəb təcrübəsində yaradıcılıqla istifadə şagirdlərin söz sənətinə, dramatik əsərlərə marağını artırır, onların mənəvi-estetik qiymətləndirmə bacarığı fəal şəkildə formalaşır, mühakimələrində əsaslandırma və müstəqillik diqqəti cəlb edir.

Dərsdə şagirdlərə dramatik əsərlərin xüsusiyyətləri haqqında məlumat verilərək bildirilir ki, dramatik əsər insanı, qəhrəmanı hərəkətdə göstərir. Hərəkət ədəbi növ kimi dramın əsas məzmununu təşkil edir. Əsərin məzmununda qəhrəmanın fəaliyyəti mühüm yer tutur. Müəllif sanki kənar müşahidəçiyə çevrilir, dramda hadisələrin gedişinə müdaxilə etmir. O, yalnız remarkalarda – kiçik qeydlərdə özünün varlığını biruzə verir. Dramatik əsərdə təsvir elementləri qəhrəmanların nitqində ola bilər. Oxucu əsərdəki surətlər haqqında onların davranışı, nitqinə əsaslanaraq mühakimə yürüdə bilir.

Qeyd edilir ki, dramatik əsər səhnə üçün yazılır və onun tələblərinə tabe olur. Məhz buna görə dramatik əsər həcmcə çox böyük olmur, səhnə və məclislərə bölünür. Dramatik əsərdə konfliktin gərginliyi də bu cəhətlə bağlıdır. Dramaturq əsəri artıq yüksək gərginlik səviyyəsinə çatmış konfliktlə başlayır. Fəaliyyətin, nitqin bir nöqtəyə yönəlməsi dramatik əsərin təsir gücünü daha da artırır.

Öyrənilən əsərin dərsdə səsli oxusu – rollar üzrə oxusu təşkil edilir. Müəllim şagirdləri rollar üzrə oxuya əvvəlcədən hazırlaşdırmalıdır. Ayrı-ayrı hissələrin dərsdə səhnələşdirilməsi də şagirdlərdə böyük maraq doğurur.

Əsərin məzmununun mənimsədilməsi üzrə işdən sonra problemli təhlilin aparılması məqsədəuyğundur. Belə ki, dramatik əsərin təbiəti, konflikt məhz problemli təhlil yolundan istifadəni zəruri edir.

Şagirdlərin dramatik mətni qavrama xüsusiyyətləri, dramın özünəməxsusluğuna uyğun iş növlərindən istifadə müəllimin diqqət yetirməli olduğu başlıca məsələlərdir. Bu, məktəblilərin dramatik mətni forma və məzmun vəhdətində qavramasını asanlaşdırır, təlim prosesində yaradıcı fəallığını artırır.

Şagirdlərin dramatik əsərləri qavrama xüsusiyyətləri daim müəllimin diqqət mərkəzində olmalıdır. Bu, müəllimə dram əsərlərinin özünəməxsus xüsusiyyətllərinə uyğun tapşırıqlardan, iş növlərindən, interaktiv təlim metodlarından istifadə etmək və nəticə etibarilə əsərin şagirdlər tərəfindən daha dolğun qavranılmasına nail olmaq imkanı verir.

Bu baxımdan müəllimin şagirdlərdə teatra, pyeslərin oxusuna maraq oyatması, onlara səhnə sənəti haqqında ilkin məlumatlar verməsi faydalıdır.

Qarşıya belə bir sual çıxır: Dramatik əsərlərin qavranılmasında çətinlikləri necə aradan qaldırmaq olar? Bu məqsədlə məktəbdə hansı imkanlardan yararlanmaq olar?

1. Təcrübə göstərir ki, məktəbdə şagirdlərin dramatik özfəaliyyətini təşkil etmək, bu istiqamətdə sinifdənxaric və məktəbdənkənar tədbirləri ədəbiyyat

dərsləri ilə əlaqələndirmək faydalıdır. Bu, şagirdlərin estetik və ədəbi inkişafına müsbət təsir göstərir, ədəbi biliklərini zənginləşdirir.

2. Təlim prosesində şagirdlər dramatik əsərlərin oxusuna və təhlilə hazırlaşdırılmalıdır.

Buraya şagirdlərin dərsdə ilk dram əsəri ilə tanışlığından əvvəl müəllimin müstəqil ədəbi janr kimi dramın xüsusiyyətləri, bədii ifadəlilik imkanları barədə məlumat verməsi də daxildir. Qabaqcıl ədəbiyyat müəllimlərinin təcrübəsi göstərir ki, şagirdlərin dramın bədii forma xüsusiyyətləri barədə ilkin təsəvvürə yiyələnməsi üçün kiçik səhnələşdirmə hazırlanması özünü doğruldur.

Dərsdə dramatik epizodun öyrədici təhlili zamanı şagirdlər müəllimin bələdçiliyi ilə dramda konflikt, ifadəlilik vasitələri, obrazların nitqi, xarakterini səciyyələndirən digər cəhətlər barədə biliklərə yiyələnirlər. Mühüm məqamlardan biri də dərsdə dramatik əsərin özünəməxsus bədii xüsusiyyətlərini nəzərə almaqla təhlilinin aparılmasıdır. Şagirdlərə aydın olmalıdır ki, dramatik əsər ədəbiyyatın bir növü kimi özünəməxsus bədii qanunlara uyğun olaraq yazılır.

Şagirdlərin qavramasının öyrənilməsi ilk mərhələdə dramatik əsərlə tanışlığı zamanı pyesin məzmununun səthi mənimsənildiyini, onların dramatik mətni oxumaq və başa düşmək bacarığının olmamasını aşkara çıxarır. Məktəblilər epik əsərlərin oxusu və qavranılması təcrübəsini mexaniki şəkildə dramatik əsərlər üzərinə köçürməsi uğursuzluqla nəticələnir.

Şagirdlərin dramaturqun fərdi bədii üslubunu başa düşməsi, özünün sənətkara münasibətini müəyyənləşdirməsi ilk növbədə bədii mətnin oxusundan başlanır. Məktəblilər oxu texnikasını təkmilləşdirərək, dramatik mətnin dərinliklərinə nüfuz edərək bədii yaradıcılığın ümumi qanunları ilə yanaşı, sənətkarın fərdi yazı üslubunu da tədricən dərk etməyə başlayırlar.

X sinifdə şagirdlərin M.F.Axundzadənin "Hekayəti müsyö-Jordan -həkimi nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyasının məzmununun qavranılmasında qarşılaşdıqları çətinliklər dramatik əsərlərin oxusu üzrə bacarıqlara yiyələnməmələri ilə bağlıdır. Lakin ədəbiyyat müəllimi komediyanın təhlili zamanı janr xüsusiyyətlərini nəzərə alarsa, şagirdlərin mətni qavraması asanlaşır və dərinləşir.

Məktəblilərin dramatik əsərləri oxumaq, təhllil etmək bacarığına yiyələnməsi üçün müntəzəm və sistemli şəkildə xüsusi tapşırıqlar sistemindən istifadə etmək lazımdır. Nəzərə almaq lazımdır ki, hər bir dramatik əsər orijinal, təkrarolunmaz sənət əsəridir. Beləliklə, şagirdlər dramatik əsərin növ və janr xüsusiyyətlərinə uyğun iş formaları ilə yanaşı, dramaturqun yazı üslubunu qavramağa hazırlaşırlar.

Dramatik əsərin bədii özünəməxsusluğunu qavramaq, dərk etmək üçün məktəblilərlə əvvəlcədən hazırlıq işləri görülməli, əsərin struktur, forma xüsusiyyətləri aydınlaşdırılmalıdır. Qeyd etdiyimiz kimi, bu məqsədə nail olmaq üçün səmərəli yollardan biri ədəbiyyat dərslərində səhnələşdirmələrə geniş yer

verilməsidir. Məsələn, dramatik əsərlərlə yanaşı, H.Cavidin "Qız məktəbində" şeirinin, hekayə, təmsil kimi epik əsərlərin səhnələşdirilməsi müəllimə qarşıya qoyduğu təlim məqsədlərinə çatmaqda kömək edir.

Səhnələşdirmə şagirdlərin ciddi əqli fəaliyyəti, mətnə tədqiqatçı kimi yanaşması üçün böyük imkanlar yaradır. Bu zaman şagirdlər monoloq, dialoq, konflikt, məclis, səhnə, şəkil, remarka kimi nəzəri anlayışların mahiyyətini daha yaxşı dərk edir.

Dramatik əsərlərin tədrisində növ, janr xüsusiyyətlərinin nəzərə alınması, şagirdlərin ədəbi-nəzəri biliklərə yiyələnməsi, müstəqil işin müxtəlif növlərindən məqsədyönlü istifadə təlimin səmərəliliyini artırır, onların əsərin məzmununu dərindən mənimsəməsinə, təhlil prosesində fəallıq göstərməsinə zəmin yaradır.

**Ədəbiyyat**

1. *Əhmədov C. Ədəbiyyat tədrisi metodikası.Bakı:Bakı universiteti,1992.*
2. *Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat. X sinif üçün dərslik. Bakı: Bakınəşr, 1917.*
3. *Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.*
4. *Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif,1968.*
5. *Məmmədov D. Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsi metodikası. Bakı: Maarif, 1997.*

# "BƏDİİ ƏSƏRİN MƏZMUNUNUN ÖYRƏDİLMƏSİ" ANLAYIŞININ MAHİYYƏTİ HAQQINDA

**B.Əlibabaoğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elibabaoglu@mail.ru*

***Xülasə***

*Bədii əsərlərin öyrədilməsi məsələsinin araşdırılması metodikanın mühüm məsələlərindəndir. Məktəbdə ədəbiyyatın tədrisi dedikdə ilk ağla gələn məhz bədii əsərlərin öyrədilməsi olur. Təsadüfi deyildir ki, bu məsələ ənənəvi təlimi yanaşmada da ön plana çəkilirdi. Yeni təlim texnologiyalarının tətbiqində də bədii əsərlərin tədrisinə xüsusi diqqət yetirilir. Metodist alimlərimiz bu problemin tədqiqinə ayrıca diqqət yetirmiş, çoxlu sayda məqalə, vəsait çap etdirmişlər. Problemin ciddiliyi, çoxcəhətliliyi, xüsusən müasir yanaşmalar yeni məzmunda, fərqli müstəvidə araşdırmaların aparılmasını zəruri edir.*

## О СУТЬ КОНЦЕПЦИИ «ОБУЧЕНИЕ СОДЕРЖАНИЮ РАБОТЫ»

***Резюме***

*Умение преподавания худежественных проезведений являегся одним из важных вопросов методики. Первое, что приходит на ум при обучений литературы в школе ето преподавание художественной литературы. Неслучайно ета задача была первостепенной в традиционном подходе к обучению. Особое внимамание уделяется преподаванию художественных произведений с применением новых технологии обучения. Наши учёные методисты уделили особое вниманиеизучению этой проблемы и опубликовали множество статей и материалов. Серьёзность и многогранность етой проблемы, осебонно современные подходы, заставляют проводить исследования в новом контексте, на другом уровне.*

## ABOUT THE ESSENCE OF THE CONCEPT "TEACHING THE CONTENT OF A WORK"

***Summary***

*The study of the teaching of works of art is one of the important issues of the methodology. The first thing that comes to mind when teaching literature at school is the teaching of works of art. It is no coincidence that this issue was also highlighted in the traditional teaching approach. Special attention is paid to the teaching of works of art in the application of new learning technologies. Our Methodist scholars have paid special attention to the study of this problem and published many articles and materials. The seriousness and versatility of the problem, especially modern approaches, make it necessary to conduct research in a new context, on a different level.*

***Açar sözlər:*** *bədii əsər, mütaliə, oxu, məzmun*
***Ключевые слова:*** *художественная литература, анализировать, читай, содержание*
***Key words:*** *art work, reading, content*

*Giriş.* Məktəbdə ədəbiyyat tədrisinin əsasında bədii əsərlərin öyrədilməsi dayanır. Bunun başlıca səbəbi odur ki, ədəbiyyat fənninin qarşısına qoyulan vəzifələrin reallaşdırılmasında bədii əsərin öyrədilməsi əhəmiyytli rol oynayır. "Bədii əsərlərin öyrədilməsi" bir anlayış kimi çox geniş olub, özündə bir sıra komponentləri birləşdirir. Bir az da dəqiqləşdirsək, bədii əsərlərin öyrənilməsi bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə mərhələnin həyata keçirilməsi sayəsində mümkün olur. Metodik ədəbiyyatda daha çox bu mərhələlərin üzərində dayanılır: əsərin oxusu, məzmun üzərində iş, əsərin təhlili, əsər çərçivəsindən kənara çıxma. Ədəbiyyatın tədrisi metodikası üzrə araşdırmalarda bu mərhələlərin hər biri barədə danışılmış, məktəbə faydalı praktik kömək göstərilmişdir. Lakin yeni təlimi yanaşmalar, fərqli texnologiyaların tətbiqi bu gün onların hər biri haqqında xüsusi araşdırmaların aparılmasını zəruri edir. Tədqiqatımızın mövzusuna uyğun olaraq mərhələlərdən birinin – məzmun üzrə işin başlıca istiqamətlərini əhatə etməyə çalışmışıq. Məqalədə məsələni bir az da konkretləşdirmiş, "bədii əsərin məzmununun öyrənimısi" anlayışının mahiyytini açıqlamağı məqsəd kimi qəbul etmişik.

Artıq qeyd olunduğu kimi, bədii əsərlərin öyrənilməsi ədəbiyyat fənninə aid olan məsələlər arasında mərkəzi yer tutur. Əsərin məzmununun öyrədilməsi mühüm mərhlələrdən olub, xüsusi qayğı tələb edir. Bədii əsərlər öz məzmunlarına görə müxtəlif ola bilər: vətənpərvərlik, təbiət, mənəvi dəyərlər və s. Əsərin məzmununun hansı məsələlərlə bağlı olması da onun əhəmiyyətindən danışılarkən mütləq nəzərə alınmalıdır. Əsərin adi mütaliəçi tərəfindən oxunması ilə məktəbdə – tədris prosesində ounması arasında böyük fərq vardır. Adi mütaliəçinin əsərin məzmununu necə qavraması onun fərdi yanaşması və mütaliə səviyyəsi ilə bağlıdır. Təlim prosesində – ədəbiyyat dərslərində isə bu, planauyğun, məqsədyönlü, tərbiyəvi və inkişaf istiqamətləri diqqət mərkəzində saxlanılmaqla reallaşdırırlır. Bu prosesdə ardıcıllığın, sistemin gözlənilməsi vacib olur. Əsərin müstəqil oxusundan sonra onun necə qavranıldığını aşkara çıxarmaq vacib olur. Başqa sözlə, "əsərin məzmununun necə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə sorğu, nağıletmənin müxtəlif növlərindən, əzbərləmələrdən istifadə olunur" [5, s.158]. Gündəlik həyatdakı bədii ədəbiyyatın mütaliəsi ilə ədəbiyyat dərslərində bədii əsərlərin məzmununun öyrədilməsi arasında bir sıra fərqli xüsusiyyətlər var:

– Gündəlik həyatda bədii əsərlərin mütaliəsi fərdi, qeyri-müntəzəm xarakterli ola bilər və əsasən, belə oxu həvəskar məqsədlə gerçəkləşir.

– Bədii əsərlərin məzmunun öyrədildiyi dərslərdə seçim sərbəstliyi olmur: müəllim proqrama salınan mövzuları tədris edir və şagirdlər onu oxuyur, öyrənir.

– Bədii əsərlərin məzmununun öyrədildiyi dərslər şagirdin – gələcəkdə hər hansısa bədii əsəri mütaliə etməsi üçün baza, zəmin rolunu oynamış olur və s.

Bunu da xatırlatmaq yerinə düşər ki, bədii ədəbiyyatımızın inkişaf etməsinin, zənginləşməsinin bir mühüm səbəbi də onun daim mütaliə edilməsi, öyrənilməsi olmuşdur. Y.Aslanov bu barədə yazır: "Ədəbiyyatın öyrədilməsinin ilk müəllimi xalq olmuşdur, deməli, "öyrədən də, öyrənən də onun (xalqın - Y.Y.Aslanov) özü olmuşdur"".[1, s.11].

Məlum məsələdir ki, müəllim, xüsusilə də məhz ədəbiyyat müəllimi güclü yaradıcı qabiliyyətə, yəni dərsi daha səmərəli, daha maraqlı edə bilmək qabiliyyətinə sahib olmalıdır. Bu baxımdan F.Yusifovun fikirləri maraqlıdır: "Bizim görəcəyimiz hər bir iş həyati bacarıqlara yiyələnən, rəqabətə davamlı, öz mövqeyini ifadə etməyi və qorumağı, kollektivdə ünsiyyət qurmağı və işləməyi bacaran, fərqli, onun mənafeyini, dövlətçiliyini fikirlərə hörmətlə yanaşan, hər bir addımında ailəsini, dostunu, yoldaşlarını, vətənini qorumağa hazır olan, rastlaşdığı problemlərdən qorxmayan, onu məharətlə həll edən, həyati mövqeyi qazanmağı bacaran bir insanı yetişdirməkdən ibarətdir."[7, s.230]. Şagirdin bədii əsərin məzmununu yaxşı mənimsəyə bilməsi həyat həqiqətlərinin mənimsənilməsi zamanı onun üçün yardımçı ola bilər. Təbii ki, bədii əsərlərdə təsvir olunan hadisələr ya həyat hadisələri ilə ümumiyyətlə əlaqəli olmaya bilər (məsələn, alleqorik əsərlərdə heyvanların danışması), ya da bədii əsərlərdə təsvir olunan hadisənin gerçək həyatda reallaşması təsadüfi hallarda baş verə bilər. Lakin əsas məsələ odur ki, şagird əsərin məzmununu dərindən qavraya bilsin və ona düzgün münasibət bildirsin, onu təhlil edə bilsin. Bədii əsərlərin məzmununun öyrədilməsi həm də müəllimdən geniş məlumat tələb edir. Belə ki, müəllim hər hansı bir xalq yaradıcılığı nümunəsini tədris edirsə, o, həmin xalqa da, onun ədəbiyyatına da dərindən bələd olmalıdır. Əgər tədris olunan bədii nümunə yazılı ədəbiyyata aid bir nümunədirsə, yenə də eyni qayda ilə müəllim, əsərini tədris etdiyi müəllifin həyatına, yaşadığı dövrə, müəllifin yaradıcılığına yaxşı bələd olmalıdır.

O şagird bədii əsərin məzmununu öyrənmiş sayıla bilər ki:

– Bədii əsərin mövzusunu müəyyən edir və əsərdə nədən bəhs edildiyini bilir.

– Əgər tədris olunan əsər lirik əsərdirsə, həcmindən asılı olaraq əsərin ya tamamilə, ya da əsərdən müəyyən bir parçanı əzbər bilir.

– Əsər epik və ya dramatik əsərdirsə, əsərin obrazlarını yadında saxlamalıdır.

– Əgər əsər epik və dramatik növdədirsə, şagird əsərin süjetinə yaxşı bələd olmalı, hadisələrin ardıcıllığını yadında yaxşı saxlamalıdır.

– Əsərin dilində başa düşülməsi çətin olan sözlərin mənasını bilməlidir ki, əsərin məzmununda aydınlaşdıra bilmədiyi bir məqam qalmasın.

– Əsərdə müqəddimə, lirik ricət, epiloq kimi hissələr varsa, onları yadda saxlamalıdır.

Məlum olduğu kimi bədii əsərin məzmununu yaxşı bilən şagird mövzu ilə bağlı istənilən suala sərbəst cavab verir, verilən tapşırıqları asanlıqla yerinə yetirir. Yuxarıda göstərdiyimiz tələblərə cavab verə bilən, yəni bədii əsərin məzmununu yaxşı mənimsəyən şagird bədii əsəri təhlil edərkən də çətinlik çəkmir. Bədii əsərin məzmununu yaxşı öyrənən şagirdə həm də bədii əsərdə təsvir olunanlarla həyat hadisələrini müqayisə etməyi də bacarır. Əsərin məzmununu öyrənən şagird burada nədən bəhs edildiyini artıq anlamış olduğu üçün əsərdə təsvir olunanları əvvəllər oxumuş olduğu digər bədii əsərlər və real həyat hadisələri ilə əlaqələndirə bilər. Bu istiqamətdə əlaqələrin müəyyənləşdirilməsi geniş müqayisələrin aparılmasına imkan yaradır. S.Hüseynoğlu ədəbiyyat təlimində müqayisə priyomunun tətbiqindən danışarkən yazır: “Ədəbiyyat dərslərində müqayisə imkanı çoxdur: bədii əsərləri mövzu və ideyalarına görə müqayisə etmək mümkün olduğu kimi ədəbi janr və növlərin spesifik xüsusiyyətlərini, dil və üslub məsələlərini, müxtəlif yaradıcılıq metodlarını da müqayisəli öyrətmək faydalı və vacibdir. [6, s.7].

Bədii əsərlərin məzmununun öyrədilməsi məsələsini bir neçə aspektdən izah etmək olar:

Elmi-metodik aspektdən məsələyə baxarkən bədii əsərin məzmunun öyrədilməsi dedikdə şagirdin bədii əsərin süjetini ardıcıllıqla mənimsəməsi, obrazlar sisteminə bələd olması, tanış olmayan sözlərin aydınlaşdırılması, həmin sözlərdən nitqində istifadə edə bilməsi və s. başa düşülür.

Psixoloji aspektdən mənimsəmənin reallaşdığını o vaxt söyləmək mümkündür ki, şagird əsərdəki situasiyaları düzgün izah edir (əsər epik növdədirsə), lirik qəhrəmanın (əsər lirik növdədirsə) ovqatını, hisslər aləmini doğru şərh edir və s.

Bədii əsərin məzmununun öyrənilməsi təhlil mərhələsi ilə sıx əlaqəlidir və onlar, əslində, bir-birini tamamlayır. Bu mərhələlərin həm oxşar, həm də fərqli cəhətləri vardır. Oxşar cəhətlər, əsasən, aşağıdakılardır:

– Həm bədii əsərin məzmununun öyrədilməsi, həm də bədii əsərin təhlil edilməsi dərsləri mövzusu ədəbiyyat tədrisi metodikasının mühüm tərkib hissəsidir və ədəbiyyatın tədrisində əsas yer tuturlar.

– Hər iki anlayış bədii əsərin öyrədilməsi anlayışının tərkib hissəsidir.

Əsas fərqli cəhətlər isə aşağıdakılardır:

– Bədii əsərin məzmunu nəql edilərkən süjet ardıcıllığı gözlənilməklə əsər nəql olunur və ya əzbər söylənilir.

– Əsər təhlil edilərkən hadisələrə, obrazlara, bədii keyfiyyətə və s. münasibət bildirilir.

– Əsərin məzmunu danışılarkən yalnız inteqrasiyanın yaradılması məqsədilə bədii əsərin məzmununun başqa əsərlərin məzmunu və həyat hadisələri ilə əlaqələndirilməsi müşahidə olunursa, bədii əsərin təhlili zamanı əsərin mövzusundan kənara çıxmaq artıq bir tələb kimi qarşıya çıxır. Belə ki, şagird əsəri təhlil edərkən müəllifin digər əsərləri ilə müqayisə aparmalı, obyektiv nəticə çıxarmalıdır.

Elmi-metodik ədəbiyyatda bədii əsərin məzmununun öyrədilməsi anlayışının tərkibinə aşağıdakıları daxil edirlər:

– Əsərin məzmununun süjetinə uyğun olaraq mərhələli şəkildə ardıcıl öyrənilməsi,

– Əsərdəki obrazlar barədə təəssüratın yaranması.

– Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.

– Əsərin növ və janrının, onların xüsusiyyətlərinin müəyyənləşdirilməsi,

– Əsərdəki bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi.

*Nəticə.* Deyilənlərdən aydınlaşır ki, bədii əsərin məzmununun öyrədilməsi özünəməxsusluğa, özəl komponentlərə malik geniş anlayışdır və bu məsələnin yeni təlimi yanaşmalar baxımından araşdırılmasına ehtiyac vardır. Bu istiqamətdə araşdırmalara həm də ona görə ehtiyac vardır ki, məzmunun öyrənilməsi bütövlükdə bədii əsərin öyrədilməsinin mühüm tərkib hissəsidir. Unudulmamalıdır ki, bədii əsərin məzmunun öyrənilməsi faktoloji biliklərin mənimsənilməsi kimi başa düşülmür. Bu proses, əsasən, oxu ilə gerçəkləşdirilir. Oxu, müəyyən mənada yaradıcılıq və ciddi əmək deməkdir. Oxu prosesində məntiqi, tənqidi təfəkkür aktiv fəaliyyətdə olur, fakt və hadisələr oxucunu ciddi şəkildə düşündürür, nəticə çıxarmağa sövq edir. Məzmunun müxtlif formalarda nağıl edilməsi isə şagirdlərdə ümumiləşdirmə bacarığının, şifahi nitqin inkişafına əhəmiyyərli dərəcədə təsir edir.

***Ədəbiyyat***

1. *Aslanov Y. "Ədəbiyyatın tədrisi: ənənə və müasirlik". ADPU-nun mətbəəsi. Bakı, 2011.*
2. *Həsənli B. "Ədəbiyyatın tədrisi metodikası". Bakı:Müəllim, 2016.*
3. *Hüseynoğlu S. "Ədəbiyyatın məktəbdə öyrədilməsi" Bakı, 2019.*
4. *Yusifov F. "Ədəbiyyatın tədrisi metodikası". Bakı, 2017.*

# RUSİYANIN CƏNUBİ QAFQAZDAKI ENERJİ SİYASƏTİ

**G.G.Umarova**
**Azərbaycan Turizm və Menecment Universiteti**
*gnay.umarova@mail.ru*

***Xülasə***

*Mövcud olduğu bütün tarix boyu Cənubi Qafqaz həm qlobal, həm də regional güclərin maraqlarının toqquşduğu dünyanın strateji baxımdan ən mühüm regionlarından biri olmuşdur. Qafqazın əhəmiyyəti, hər şeydən əvvəl, sivilizasiyaların kəsişmə nöqtəsi olması,o cümlədən xüsusən də Xəzər enerji daşıyıcılarının əsas marşrutlarının bu regiondan keçməsi ilə müəyyən edilir. Bu gün onlar yalnız dünya iqtisadiyyatı üçün vacib bir qaynaq deyil,həm də geosiyasi maraqların mövzusudur.*

*Xəzər regionunda əhəmiyyətli neft ehtiyatlarının cəmləşməsi onun təkcə Rusiya üçün deyil, həm də aparıcı dünya dövlətləri üçün strateji əhəmiyyətini müəyyənləşdirdi. Bu, ilk növbədə, Xəzər regionunun-Cənubi Qafqazdakı Azərbaycanın,Mərkəzi Asiyanın Xəzəryanı dövlətlərinin-Qazaxıstanın, Türkmənistanın, eləcə də Özbəkistanın neft və qaz ehtiyatlarına aiddir.*

## ЭНЕРГЕТИЧЕСКАЯ ПОЛИТИКА РОССИИ НА ЮЖНОМ КАВКАЗЕ

***Резюме***

*На протяжении всей своей истории Южный Кавказ был одним из наиболее стратегически важных регионов мира, где сталкиваются интересы как глобальных, так и региональных держав.Значение Кавказа в первую очередь определяется тем, что он является точкой пересечения цивилизаций и особенно тем, что через этот регион проходят основные маршруты каспийских энергоносителей.Сегодня они являются не только необходимым источником для мировой экономики,но и субъектом геополитических интересов.*

*Сосредоточение значительных запасов нефти в каспийском регионе обусловило его стратегическую значимость не только для России, но и для ведущих мировых держав.В первую очередь это касается нефтегазовых ресурсов Каспийского региона - Азербайджана на Южном Кавказе, прикаспийских государств Центральной Азии - Казахстана, Туркменистана, а также Узбекистана.*

## ENERGY POLICY OF RUSSIA IN THE SOUTH CAUCASUS

***Summary***

*Throughout its history, the South Caucasus has been one of the most strategically important regions in the world, where the interests of both global and*

*regional powers collide. The significance of the Caucasus is primarily determined by being intersection point of civilizations and especially by the passing of the main routes of Caspian energy carriers through this region. And nowadays they are not only a necessary source for the world economy, but also the subject of geopolitical interests.*

*The concentration of significant oil reserves in the Caspian region determined its strategic importance not only for Russia, but also for the leading world powers. First of all, this concerns the oil and gas resources of the Caspian region - Azerbaijan in the South Caucasus, the Caspian states of Central Asia-Kazakhstan, Turkmenistan, as well as Uzbekistan.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, Rusiya, iqtisadi maraqlar, geosiyasi mövqe, enerji siyasəti*

***Ключевые слова:*** *Южный Кавказ, Россия, экономические интересы, геополитическое положение, энергетическая политика.*

***Key words:*** *South Caucasus, Russia, economic interests, geopolitical position, energy policy*

Cənubi Qafqaz dünyanın geosiyasi cəhətdən mühüm regionudur. İngilis geosiyasət məktəbinin qurucusu H.Makkinder 1904 cü ildə nəşr etdirdiyi “Dünyanın coğrafi oxu” əsərində ümumdünya tarixinin "dünyanın materik nüvəsindən (the Heartland)" keçən bir"coğrafi oxu" olduğunu qeyd etmişdir.H.Makkinderin yazdığı kimi, "dünya siyasətinin əsas məkanı Avrasiyanın dəniz gəmiçiliyi üçün əlçatmaz olan geniş sahəsidir." H.Makkinder bu əsərində Xəzər,Qara,Aralıq,Qırmızı dəniz və Fars körfəzini əhatə edən “Pyatimorye” bölgəsindən bəhs etmiş və onun funksional əhəmiyyətini vurğulamışdı. Sonrakı politoloqların əsərlərində bu region müxtəlif kombinasiyalarda "Yeni Yaxın Şərq", "Avrasiya Balkanları","Böyük Yaxın Şərq" adlandırılmışdır. Xəritəyə baxdıqda,məhz H.Makkinderin “Pyatimorye” olaraq adlandırdığı ərazinin Qafqazı tam əhatə etdiyini,Orta Asiyanın Transxəzər bölgələrini tutduğunu və böyük ölçüdə Z.Bjezinskinin "Avrasiya Balkanları" ilə üst-üstə düşdüyünü görəcəyik. Tədqiqatçıların fikrincə, “Pyatimorye” üzərində nəzarət (hesablamalara görə dünya neft ehtiyatlarının təxminən 70% -i və dünyanın təbii qaz ehtiyatlarının 40% -dən çoxu bu ərazidə yerləşir)Avrasiya üzərində ərazi-iqtisadi nəzarətin həyata keçirilməsinin açarıdır"(Heartland). Bu isə ənənəvi geosiyasi nəzəriyyəyə görə planet üzərində hökmranlığı müəyyən edir.[4]

Rusiya qafqazşünasları da Qafqazın ən azı son yüzilliklər ərzində strateji əhəmiyyətli ərazi olduğunu vurğulayırlar. Rusiya elitası Qafqazı periferiya vilayəti kimi deyil,Qara,Azov və Xəzər dənizini birləşdirən,Avropa dünyasını Mərkəzi Asiya, İpək Yolu və Cənubi-Şərqi Asiya ilə əlaqələndirən mühüm quru Avrasiya körpüsü kimi qəbul edir. Regionda vəziyyət Rusiyanın Mərkəzi

Asiyaya və geniş Yaxın Şərqə təsir göstərmək potensialı üçün vacib hesab olunur[5,s.6].

Müasir dünya iqtisadiyyatında və siyasətində neft və qaz problemi o qədər əhəmiyyətlidir ki,bir çox dövlətlərin Cənubi Qafqazla münasibətlərinin xarakterini də məhz bu problem müəyyən edir. Regionun geoiqtisadi rolu onun enerji dəyəri ilə müəyyən edilir. Bu baxımdan təəccüblü deyil ki, Azərbaycanın karbohidrogen ehtiyatları və onların nəqli marşrutları çox böyük geostrateji əhəmiyyətə malik olmaqla, lap əvvəldən həm bu ölkə, həm də bütünlükdə region üçün öz müsbət və mənfi təsirlərini şərtləndirmişdir. Müsbət effekt,əsasən, neft və qaz əldə etmək üçün mümkün qədər alternativ mənbələrə malik olmaq istəyən Qərb ölkələri ilə bağlıdır. Bu isə öz növbəsində həm Azərbaycana, həm də boru kəmərlərinin keçdiyi digər Qafqaz ölkələrinə əhəmiyyətli xarici sərmayələrin axınını təmin edirdi. O ki qaldı mənfi effektlərə,bu ilk növbədə,neft və qazın hasilatı və nəqli üzrə regional rəqiblərdən–Rusiya və İrandan qaynaqlanırdı. Hansı ki, məhz bu iki regional dövlət sərəncamında olan bütün vəsaitlərlə regionun xüsusən də Azərbaycanın karbohidrogen ehtiyatlarının istismarını və nəqlini öz təsiri altına almağa çalışırdılar. Başqa sözlə, Xəzərin enerji ehtiyatları nəinki Mərkəzi Qafqaz üçün faydalı ola bilər, həm də bu regionun ölkələri üçün təhlükə yarada bilərdi. Bu da Rusiyanın milli təhlükəsizliyinə təhdid və maraqlarına zidd olan Qərbin bölgədə artan təsirindən irəli gəlirdi. Faktiki olaraq, Rusiya tərəfi Gürcüstan ərazisindən keçən nəqliyyat dəhlizinin inkişafında,o cümlədən onun ərazisində keçən boru kəmərlərinin tikintisində nəinki maraqlı deyildi, həm də bu layihələrin reallaşdırılmasına mane olmaq üçün bütün mümkün mexanizmlərdən istifadə edirdi [6,s.37-38].

SSRİ-nin dağılmasından sonra Rusiya Xəzəryanı dövlətlər üzərində geosiyasi nəzarəti saxlamağa çalışırdı.1990-cı illərin əvvəllərində Rusiyanın Cənubi Qafqazda böyük üstünlüyü vardı,çünki o,regionda neft kəmərləri şəbəkəsinə malik yeganə ölkə idi. Xəzər regionunun karbohidrogen ehtiyatları yalnız Rusiya Federasiyasının ərazisi ilə ixrac oluna bilərdi. Bakı-Qroznı-Tixoretsk - Novorossiysk və Tengiz - Novorossiysk neft kəmərləri neft nəqli üçün əsas marşrutlardan biri hesab olunurdu. Novorossiysk limanı keçmiş SSRİ-nin üç əsas limanından biri idi, lakin bir neçə ildən sonra Rusiya lider mövqeyini itirməyə başladı. 2000-ci ilin ortalarında ABŞ-ın keçmiş müdafiə naziri Kaspar Uaynberqerin sözlərilə desək ,"Rusiya Xəzər dənizində dominantlığı qoruyub saxlaya bilsəydi, bu, onun üçün NATO-nun şərqə doğru genişlənməsinə nail olmuş Qərbin qələbəsindən daha mühüm qələbə olardı"[ 3,s.118].

Qərblə Rusiyanın Xəzər regionunun enerji ehtiyatları uğrunda apardıqları geosiyasi rəqabət 90-cı illərin ortalarından başlayaraq qurudan dənizə doğru irəliləyərək, 20 sentyabr 1994-cü ildə Bakıda"əsrin müqaviləsi"nin

bağlanmasından sonra daha çox görünən cizgilər əldə etmişdir. Cənubi Qafqaz və Xəzəryanı ölkələrin regionda fəaliyyət göstərən dünya və regional fövqəldövlətlər tərəfindən «Xəzər şahmat taxtasında geosiyasi oyuna» fəal cəlb edilməsi prosesi başlayır [2, s.165].

Məhz Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri ,dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi" nin imzalanması bu regiona qərb dövlətlərinin marağını daha da artırdı. Xəzərin nefti və əsas nəqliyyat marşutları uğrunda ABŞ,İngiltərə kimi dünya dövlətlərinin rəqabətə qoşulduğu bu müqavilədə Rusiya "Lukoyl" şirkətinin timsalında yalnızca 10 % pay bölgüsünə malik idi. Bütün bu əlverişsiz nəticələrə baxmayaraq, Rusiya rəhbərliyinin Xəzər regionu ilə bağlı siyasəti uzun müddətdir ki, ortaya çıxan reallıqları zəif nəzərə alaraq bir çox cəhətləri ilə uyğunsuz, passiv, ziddiyyətli olmuşdur.

MDB məkanında sadiq tərəfdaşlarından olan Qazaxıstan nümayəndə heyətilə danışıqlar zamanı, Rusiya baş naziri Viktor Çernomırdinin gətirdiyi - "Qazınızın tranziti ilə bağlı tariflərimizi bəyənmirsinizmi? Onda onu təyyarə ilə aparın! " arqumenti Rusiya rəhbərliyinin regionda apardığı uğursuz diplomatiyanın nümunəsi idi[7]. Rusiyanın etdiyi bütün cəhdlərə baxmayaraq 2006 cildə Azərbaycan neftinin Türkiyə ərazisindən nəqlini nəzərdə tutan neft boru kəmərinin çəkilməsi və daha sonra Qazaxıstanın bu layihəyəyə qoşulması faktiki olaraq Rusiyanın "marşrutlar müharibəsində" məğlubiyyəti demək idi. Xəzərin ehtiyatları uğrunda rəqabət ciddi geosiyasi əsaslara malikdir və Bakı-Tiblisi -Ceyhanın tikintisi məhz Rusiyanın Cənubi Qafqazda,Mərkəzi Asiyada və bütövlükdə MDB-də enerji rolunun azaldılmasına yönəldilmişdir. Bakı-Tiblisi -Ceyhanı və Bakı-Tiblisi-Ərzurum boru kəmərləri sistemlərinin işə salınması Avrasiyanın cənubunda Şərq–Qərb enerji nəqliyyat dəhlizinin formalaşmasına birbaşa və məcazi mənada təkan verdi.

Yeni enerji nəqliyyat dəhlizinin formalaşdırılması Xəzər regionunda qüvvələr balansını əhəmiyyətli dərəcədə dəyişdi.Əgər rusiyalı ekspertlər BTC-nin işə salınmasını yetərincə təmkinlə şərh edirdilərsə,bu layihənin 100% siyasi layihə olduğunu və buna görə də Rusiyanın neft-nəqliyyat marşrutlarına təsir göstərməyəcəyini bildirirdilərsə,Qərb analitiklərinin şərhləri daha kəskin görünür. Almaniyanın nüfuzlu həftəlik"Die Tageszeitung"qəzetinin yazdığına görə,yeni boru kəməri "Rusiyanın Xəzər dənizi hövzəsindəki dövlətlərə təsirini azaldır." Həmçinin burada qeyd olunurdu ki, Xəzər dənizi hövzəsinin qonşu dövlətləri Rusiyadan asılılıqdan qurtulacaq və neft tranziti haqqı ABŞ-ın müttəfiqlərinə-Azərbaycan, Gürcüstan və Türkiyəyə fayda verəcək"[1,s.92-93].

Bütün bunları nəzərə alan,Vladimir Putinin həyata keçirdiyi Rusiyanın xarici siyasətini praqmatizasiya kursu ,həmçinin daxili siyasi və iqtisadi vəziyyətin xeyli güclənməsi ilə əlaqədar olaraq Moskva bölgədəki mövqelərini geri qaytarmaq məqsədi ilə bir sıra addımlar atdı. Bu tədbirlər içərisində:

-2002-ci ildə Türkiyəyə "Mavi axın" qaz kəmərinin açılışı; 2005-ci ilin noyabr ayında Vladimir Putin bu qazı Türkiyə vasitəsilə Yunanıstana, Cənubi İtaliyaya və Mərkəzi Avropaya tranzitlə göndərmək məqsədilə ildə 16 milyard kubmetrdən 24 milyard kubmetrə qədər artırmağı təklif edibı

-"Cənub axını"(Rusiyadan Bolqarıstana və daha sonra Cənubi və Şərqi Avropa ölkələrinə tranzitlə) layihəsi çərçivəsində Moskvanın təşəbbüslərinin reallaşdırılması;

2007-ci il iyunun 23-də Rusiyanın “Qazprom” şirkəti İtaliyanın “Eni” şirkəti ilə Avropaya yeni qaz kəmərinin – “Cənub axını”nın tikintisinə dair memorandum imzaladı. Qaz kəmərinin Rusiyadan Bolqarıstana qədər olan hissəsi Qara dənizin dibi ilə keçəcək, qalan hissəsi isə iki istiqamətdə uzanacaq: Serbiya və Macarıstandan Avstriyaya, həmçinin Yunanıstandan İtaliyanın cənubuna. 2008-ci ildə Serbiya, Bolqarıstan, Macarıstan və daha sonra Yunanıstan rəsmi olaraq yeni “Cənub axını” qaz kəmərinin tikintisində iştirak etdilər və bu, Rusiya üçün böyük qələbə idi.

-Türkmənistanla orada hasil olunan qazın, demək olar ki, bütün həcminin alınmasına dair uzunmüddətli razılaşmalara nail olunması;

-Qazaxıstan neftinin Avropaya çıxışı üçün Bakı-Tbilisi-Ceyhana alternativ bir yol olaraq Burqas-Alexandroupolis marşrutunun istifadəyə verilməsi ilə bağlı danışıqlara başlanılması;

Moskva bu layihənin həyata keçirilməsində olduqca maraqlı idi. Bunun başlıca səbəbi Bosfor və Dardanel boğazlarına nəzarət edən Türkiyədən asılılığı minimuma endirməkdi.Habelə bu kəmər Rusiyanı çətin vəziyyətə salan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə salınmasına cavab olacaqdı.

**Nəticə:** Son olaraq qeyd edə bilərək ki,Cənubi Qafqaz və Xəzər dənizi iqtisadi,siyasi,hərbi-strateji maraqları baxımından Rusiya üçün həyati əhəmiyyət kəsb edir. Bu region ilə bağlı yanlış dövlət strategiyası bir çox istiqamətdə dönməz mənfi nəticələrə gətirib çıxara bilər. Geosiyasi aspektdə bu Rusiyanın ən vacib kommunikasiyalarını itirməsi, Xəzər dənizi və Mərkəzi Asiya regionlarından tamamilə sıxışdırılıb çıxarılması və onun adi "şimal" dövlətinə çevrilməsi demək idi. Siyasi baxımdan isə Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin simasında etibarlı müttəfiqlərin itirilməsinə,üstəlik,onların Rusiyanın dost olmayan rejimlərinə siyasi istiqamətlənməsinə gətirib çıxaracaqdı. Nəhayət iqtisadi cəhətdən Xəzər regionunun və Qafqazın ənənəvi bazarlarının qismən və hətta tamamilə Rusiyanın nəzarətindən çıxmasına,neft və qazın nəqlindən əldə olunan gəlirlərin itirilməsinə səbəb olacaqdır. Belə bir mürəkkəb vəziyyətdə isə, Rusiya Federasiyasının Cənubi Qafqaz ölkələri ilə münasibətlər sahəsində düzgün strategiya hazırlaması son dərəcə vacibdir.

## Ədəbiyyat

1. *Гусейнов В.А // Южный Кавказ: тенденции и проблемы развития (1992–2008 годы). М.: Красная звезда, 2008.*
2. *Дарабади П. Кавказ и Каспий в мировой истории и геополитике XXI века.Москва. "Весъ Мир".2010.*
3. *Ланда К. Г. Геополитические проблемы Каспийского региона// Власть № 5, 2010.*
4. *Максименко В. Центральная Азия и Кавказ: основание геополитического единства // Центральная Азия и Кавказ.https://www.ca-c.org/journal-table-rus.shtml 3 noyabr*
5. *Нейшн К. Россия и Кавказ// Connections The Quarterly Journal Том XIV, № 2 Весна 2015. http://connections-qj.org/ru 7 noyabr*
6. *Папава В. Центральная Кавказия:основы геополитической экономии // Аналитические Записки № 1, 2007*
7. *Ростовский М. Муж и жена – одна Астана // «Московский комсомолец», 6 ноября 2006 г. https://www.mk.ru/ 9 noyabr*

# ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ XALQ ƏDƏBİYYATI ÖRNƏKLƏRİ VƏ ONUN ÜMUMİ PROBLEMATİKASI

**L.Z.*Həsənova***
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leylamuzi@gmail.com*

***Xülasə***

*Folklor nümunələri hələ də məktəb dərsliklərində öz mövqelərini qoruyub saxlayır. Onlar milli bədii mədəniyyətin formalaşmasında, onun orijinallığının formalaşmasında ən erkən mərhələni təmsil edir, vətənpərvərlik, mənəvi və estetik tərbiyə vəzifələrinə töhfə verirlər. Şifahi xalq yaradıcılığı əsərləri qiymətli tarixi material, xalq həyatının canlı təsvirləri, xalq fantaziyasının oyunu və həyati dəyərlər sistemi sayıla bilər ki, onların arasında həmişə doğma torpağa məhəbbət, rəmzi mənada ən mühüm yer tutur. Xalq ədəbiyyatı şagirdlərə cəsarət, qorxmazlıq, dürüstlük, vətən sevgisi, xalqın mənəvi dəyərlərinə hörmət, təbiəti sevmək və qorumaq kimi nəcib hissləri aşılamaq baxımından müstəsna imkanlara malikdir. Bunun əsas şərtlərindən biri və bəlkə də başlıcası müəllimin pedaqoji qabiliyyətləridir. Bütün bunlar onu deməyə əsas verir ki, şifahi xalq ədəbiyyatının tədrisi prosesində şagirdlərə əxlaqın bütövlüyünü təmin etməyə imkan verən etnopedaqoji nümunələrdən və düzgün iş metodlarından istifadə etmək lazımdır.*

## ПРИМЕРЫ НАРОДНОЙ ЛИТЕРАТУРЫ В УЧЕБНИКАХ СРЕДНЕЙ ШКОЛЫ И ЕЕ ОБЩИЕ ПРОБЛЕМЫ

***Резюме***

*Образцы фольклора до сих пор сохраняют свое место в школьных учебниках. Они представляют собой ранний этап становления национальной художественной культуры, формирования ее самобытности, способствуют решению задач патриотизма, духовного и эстетического воспитания. Устный фольклор можно считать ценным историческим материалом, ярким изображением жизни людей, игрой в народную фантазию и системой жизненных ценностей, среди которых любовь к родному краю всегда символически занимает важнейшее место. На примерах народной литературы можно привить учащимся такие благородные чувства, как мужество, бесстрашие, честность, патриотизм, уважение к нравственным ценностям народа, любовь и защита природы. Одно из главных условий для этого - педагогические способности учителя. Все это дает основание говорить о том, что в процессе обучения устной народной литературе необходимо использовать этнопедагогические примеры и правильные приемы работы, позволяющие студентам обеспечить целостность нравственности.*

## EXAMPLES OF FOLK LITERATURE IN SECONDARY SCHOOL TEXTBOOKS AND ITS GENERAL PROBLEMATICS

***Summary***

*Examples of folklore still retain their place in school textbooks. They represent the earliest stage in the formation of national artistic culture, the formation of its originality, contribute to the tasks of patriotism, spiritual and aesthetic education. Oral folklore can be considered a valuable historical material, vivid depictions of people's lives, a game of folk fantasy and a system of vital values, among which the love for the native land, always symbolically occupies the most important place.Using examples of folk literature, it is possible to instill in students such noble feelings as courage, fearlessness, honesty, love of country, respect for the moral values of the people, love and protection of nature. One of the main conditions for this is the teacher's pedagogical skills. All this gives grounds to say that in the process of teaching oral folk literature it is necessary to use ethnopedagogical examples and correct methods of work that allow students to ensure the integrity of morality.*

***Açar sözlər:*** *orta məktəb, dərslik, xalq ədəbiyyatı, örnək, problematika*
***Ключевые слова:*** *средняя школа, учебник, народная литература, образец, проблематика*
***Key words:*** *high school, textbook, folk literature, sample, problematics*

**Giriş**: Xalq ədəbiyyatı etnosun həyatı, məişəti, inam və etiqadları, dünyagörüşü, arzu-istəkləri və s. haqqında bilik və təsəvvürlərin məcmusudur. Mif, əfsanə, rəvayət, nağıl, dastan, atalar sözü, məsəl, tapmaca, nəğmə, bayatı, oxşama, mərasim folkloru hamısı bu zənginliyin ifadə örnəyidir. Zəngin folklor nümunələri qədim zamanlarda yaranmış, yaşamış və ağızdan-ağıza keçərək zənginləşmişlər. Məhz bu səbəbdən də folklorşünaslar vurğulayır ki, xalq ədəbiyyatı xalqın yol yoldaşıdır. Onların gələcək nəslə aşılanması isə ən ümdə məsələdir. Orta məktəbdə müəllimlərin üzərinə bu baxımdan ciddi, həm də məsuliyyətli iş düşür. Mövzu, janr, dil və üslub əlvanlığı ilə seçilən bu nümunələr şəxsiyyətin formalaşmasında geniş imkanlılıqla səciyyələnir.

Şifahi ədəbiyyat xalqımızın müxtəlif tarixi dövrlərdə insan taleyi, vətənpərvərlik, humanizm, istək, sevgi, nifrət, mühüm ictimai və siyasi hadisələrə münasibət haqqında düşüncələrini əks etdirir. Xalq yaradıcılığını yaddaş ədəbiyyatı da adlandırmaq olar. Yaddaşdan yaddaşa köçürülən və bu günə qədər cilalanmış folklor mətnləri tədris və öyrənmədə keyfiyyətli nəticələrin əldə edilməsini xeyli asanlaşdırır. Folklora toxunmaq şagirdlərə xalqın canlı dili ilə ayrılmaz şəkildə əlaqə qurmağa, həyatın bütün sahələri kimi ana dilinin imkanları ilə də tanış olmağa imkan verir. İnsanlar haqqında bütün biliklər xalq ədəbiyyatında tam əksini tapmışdır. Ona görə də xalq ədəbiyyatı bu millətin kimliyini şagirdlərə izah etməkdə ən uğurlu vasitədir. Təhsildə folklor mətnlərinə vurğu edilməsinin digər vacib səbəbləri tələffüzün asanlığı, oynaq ritm və harmoniya, səsin gözəlliyi, şagirdlərin buna biganə qala bilməməsi və mətnin

yadda saxlanılmasının asan olmasıdır. Folklor bu mənada əvəzsiz yaradıcılıq sahəsidir. Çünki yaşayır, yalnız sevgi və könüllülük prinsipi ilə xatırlanır. Bu ədəbiyyatın müvəffəqiyyət qazanmasının səbəblərindən biri də yaddaş və təfəkkürdə üstünlüyüdür. İlk doğum günündən etibarən hər kəs eşitdiyi layla, oxşama, nazlama, bayatı və s. örnəklərin ruhuna köklənir və bunların ecazkarlığı ruhun mayasına çevrilir, mənəviyyatına nüfuz edir [1].

**Əsas hissə:** Şifahi xalq yaradıcılığı yalnız qədimdən və tarixdən danışmayan, həm də insanların ruhuna süzülən mədəniyyətdir. Mədəniyyət özü isə etnosun əxlaq normasını təcəssüm etdirən həyat tərzidir. Buna görə də, şəxsiyyətin formalaşması prosesi mədəniyyətə, həyat tərzinə və əxlaq normalarına uyğun olmalıdır. Bütün bunlar tədris proqramında nəzərə alınır və müəllimin işində mühüm rol oynayır. Ümumiyyətlə, tədrisdə müəllim öyrətdiyi şagirdlərin mühiti və dünyagörüşünü nəzərə almalı, mövzunu yaşadıqları mühitlə əlaqələndirməlidir. Bu imkanlar xalq ədəbiyyatının tədrisində daha çox özünü göstərir ki, tərbiyəçi də bunlara tədris prosesində həssaslıqla yanaşmalıdır. Mif, nağıl, əfsanə, rəvayət, dastan, bayatılar, atalar sözləri, nəğmə və s. örnəklərin məzmununda daşınan dəyərlərin gələcək nəslə aşılanması ən ümdə vəzifədir. Çünki "şifahi ədəbiyyat əsrlər boyu xalqın kollektiv əməyinin məhsulu olan zəngin bədii sənət inciləri xəzinəsidir" [2, 7]. Azərbaycan dövlətinin həyata keçirdiyi təhsil siyasətində bunlar xüsusi həssaslıqla özünə yer alır. Təhsil qanunu, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı konsepsiya və strategiyası, ümumtəhsil pilləsinin dövlət standartları və proqramları, demək olar, bunları əsas tutmaqla fəaliyyətə qərar vermişlər.

Orta məktəbin I-XI sinifləri üçün tədris proqramında deyilir ki, yetişməkdə olan nəsil mənsub olduqları xalqın ədəbi və mədəni irsini mənimsəməli, dərk etməli və qiymətləndirməli, milli psixologiya əsasında xalqına və Vətəninə sədaqət ruhunda təhsil almalıdır [8]. Bu da məktəblilərin folklorla tanış olma imkanlarını artırır. Bildiyimiz kimi, ümumi təhsil məktəblərində tədris olunan ədəbiyyatın böyük tərbiyəvi və inkişafetdirici funksiyaları vardır. Tanınmış rus tənqidçisi V.B.Belinski ədəbiyyatla tərbiyəni qarşılıqlı əlaqədə götürərək yazırdı: "Ədəbiyyat və tərbiyə, bu iki məfhumu günəş və işıq, həyat və fəaliyyət məfhumları kimi bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir" [7].

Ümumtəhsil məktəbi proqramına əsasən sayaçı sözləri, əmək nəğmələri, ritual mahnıları, alqış və qarğışlar, ağıları, atalar sözləri, miflər, qaravəllilər, nağıllar, tapmacalar və s. daxil olmaqla xalq ədəbiyyatının janrları geniş şəkildə əhatə olunmuşdur. "Xalq ürəyinin yağı, qəlbinin hərarəti ilə yaratmış olduğu böyük ədəbiyyatı məhz bu cür ürək genişliyi ilə də sevə-sevə, göz bəbəyi kimi qorumuş, bu irsə böyük ehtiramla yanaşmış, onu həm öyrənmiş, həm də gənclərə öyrətmişdir. Təbii ki, bu öyrənmə-öyrətmə mərhələsi bəzən uzun, bəzən də qısa müddətli olmuşdur" [9, 51]. Azərbaycan məktəb tarixində [6] bunun mükəmməl örnəkləri olmuşdur.

İbtidai sinifdən etibarən şagirdlər bəzi folklor nümunələri - atalar sözləri və məsəllər, bayatılar, tapmacalar, uşaq nağılları ilə tanış olurlar. Bu işlərin səmərəliliyi isə müəllimin bacarıq və səriştəsinə hesablanır. Aşağı siniflərdən şagirdlərin xalq ədəbiyyatı haqqında nəzəri məlumatlar əldə etməsinin başlanğıcı qoyulur. Onu da əlavə edək ki, müəllim şagirdlərə folkloru sadəcə əzbərləmək və öyrətməklə kifayətlənməməlidir. Onların həm də həmin örnəklərə marağını artırmalıdır. Əsrlər boyu Azərbaycan xalqının yaratdığı folklor örnəkləri xalqın tarixi, mədəniyyəti, mənəviyyatı, həyat tərzi və adət-ənənələri haqqında zəngin məlumatların əsas qaynağı hesab olunur. Folklor nümunələri xalqın zəkasının gücünü, bədii düşüncənin zənginliyini açıq şəkildə əks etdirən məzmunca maraqlı, tərbiyəvi fikirlərlə dolu olan və zamanın sınağından çıxmış əsərlərdir. Bu sənət inciləri mövzu və mündəricə əhatəliliyi, janr rəngarəngliyi, dil və üslub aydınlığı ilə seçilir. Xalq ədəbiyyatı geniş kütlənin müxtəlif tarixi dövrlərdəki həyatı, məişəti, vətənpərvərlik, humanizm düşüncələri, istək və arzuları, sevgi və nifrəti, ayrı-ayrı zaman kəsiklərində ictimai və siyasi hadisələrə münasibəti haqqında düşüncələrini əks etdirir. Tədris prosesində müəllim bunlara xüsusi həssaslıq göstərməli, onlara elə aspektdən yanaşmalıdır ki, xalq ədəbiyyatı örnəkləri tam və dolğun şəkildə çatdırılmış olsun.

Xalqın ilkin təsəvvürlərindən günümüzə qədərki zəngin mədəniyyətini özündə ehtiva edən folklorlar həm də ən möhtəşəm tərbiyə vasitəsidir. Görkəmli pedaqoq Ə.Seyidov "xalq yaradıcılığı xalq pedaqogikasının ilk müjdəsidir" söyləyirdi. [5, 4]. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın və dilimizin çox qədim tarixə bağlı olduğunu və həm də mənəviyyat və mədəniyyət zənginliyini göstərən ölməz ədəbi-tarixi abidəir. "Dədə Qorqud qəhrəmanlıq dastanı tariximizin yazılı dərsliyidir, ilk dərsliyidir.

Bu dərslik millətimizin tarixi-etnoqrafik damğası və ailə-əxlaq məcəlləsi sayılır" [3, 3]. Dastandakı personajların konkret tarixi şəxslərlə əlaqəsi barədə fikirlər mövcuddur. Əsərdə qədim oğuzların tarixinin və coğrafiyasının izləri aydın görünür [4]. Azərbaycan folklorunun kökləri ortaq türk folklorunun tarixən əhəmiyyətli bir hissəsi və türk xalqlarının yaradıcılığı ilə çox oxşar cəhətlərə malikdir. Dildə təcəssüm tapmış qədim türk bədii təfəkkürünün, mədəniyyətinin nümunəsi olan miflər, əfsanələr, rəvayətlər, dastanlar və s. türk xalqlarının ortaq köklərini göstərən ortaq dəyərlərdir. Dastanın boyları tədris olunan zaman müəllim müxtəlif vasitələrdən istifadə edə bilər. Misal üçün, dastanla bağlı çəkilmiş bədii və sənədli filmlərdən fraqmentlər təqdim etməklə, yaxud şagirdlərin ifasında teatr səhnəciyinin qurulması ilə də dərsi maraqlı edə bilər, həm də materialın qəbul olunması prosesini asanlaşdıra bilər. Təbii ki, qeyd olunan üsullar mövcud məsələ ilə bağlı qarşıya çıxmış problemin həll olunma yollarına nümunədir.

Azərbaycan xalq ədəbiyyatının həyatı əks etdirmə tərzinə görə lirik, epik və dramatik tipləri mövcuddur. Bu ədəbi növlərin hər birinə aid olan janrlar

təbii prosesdə yaranmış və xalqın ruhunu əks etdirmə məramına görə yaşarlığa vəsiqə almışdır. Lirik və epik folklor nümunələrinin rəngarəng çeşidləri tarixi-mədəni prosesdə zənginləşmə keçirməklə xalqın ruhunun bir parçasına çevrilmişdir. Həyatı özünəməxsus təsvir üsulları ilə əks etdirən lirik janrlar (bayatı, mahnı, nəğmə (əmək nəğmələri: holavar, sayaçı sözləri; mövsüm nəğmələri; mərasim nəğmələri: toy və yas nəğmələri; məişət nəğmələri: layla, oxşama; qəhrəmanlıq nəğmələri) min illər boyu xalqın yol yoldaşı olmuşdur. Dərslikdə yer alan nümunələrlə yanaşı, müəllim digər xalq ədəbiyyatı örnəklərindən də dərs zamanı yararlana bilər. Mövzuların tədrisi zamanı holavarlar, sayaçı sözləri, xalq mahnıları və s. müqayisə materialı kimi tədrisə gətirilə və şagirdlərə mənimsədilə bilər. Ev tapşırığı kimi şagirdlərin olduqları region üzrə belə örnəklərdən yaradıcı istifadəsinə də diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar onları müstəqil fəaliyyətə alışdırır və gələcək fəaliyyətlər üçün əsas olur. Müəllimin bu iş metodikasının müsbət nəticəsi olaraq, müxtəlif bölgələrdə əldə edilən və məktəblilərin mənəvi tərbiyəsinə gərəkli təsir göstərən bəzi xarakterik nümunələr onların dəftərlərində özünə xüsusi yer alacaqdır.

Məktəblilərin mənəvi tərbiyəsində mərasim mahnılarının və Novruz adətlərinin rolu əvəzsizdir. Qədim insanların ağır həyatı, qışın çətinlikləri, yazın gəlişi haqqında mahnıların öyrədilməsi şagirdlərin təsəvvürlərinin formalaşması üçün əsas olur. Məsələn, ayrı-ayrı siniflərin dərsliyində özünə yer alan “Novruz adətləri” mövzusu etnoqrafik yaddaşın öyrədilməsi üçün əvəzsizdir. Mövzunu tədris edərkən şagirdlərə Novruz bayramının İslamdan xeyli əvvəl, qədim azərbaycanlıların həyatında mövcud olduğu barədə məlumat verilməlidir. Bu bizim üçün əsl milli bayramdır. Mərasimlər toplusu olan bu bayramda insanlar barışır, bir-birilə dostcasına davranır, dostunun, qohumunun evini ziyarət edir, insanlar bir-birindən fərqli şirniyyatlar bişirir, habelə bir-birlərinə bayram hədiyyələri verirlər.

Dərsliklərə nəzər salarkən, əksər mövzuların sonunda mətnə uyğun olaraq atalar sözləri verilir: “Əldən qalan əlli il qalar”, “Saxla samanı, gələr zamanı” və s. Habelə, şagirdlərə mətnlər verərək, ona uyğun atalar sözü tapmağı tapşırmaq olar. İstər-istəməz bu nümunələr dərslikdəki nümunələrlə birlikdə şagirdlərə müsbət təsir göstərir. Xalq ədəbiyyatında məktəblilərin əxlaqını təmizləməyə kömək edən ucu-bucağı görünməyən ibrətamiz fikirlər, nəsihətlər və müdrik kəlamlar vardır. Oxşar fikirlərə xalq ədəbiyyatının hər bir janrında rast gəlmək olar. Xalq məsəlləri, atalar sözləri bunun ən bariz örnəyidir. Bir və ya iki cümlədən ibarət olan atalar sözləri dərin hikmət və məna ifadə edir, vətənpərvərliyə və cəsarətə, həqiqətə və dürüstlüyə, eyni zamanda pis qüvvələrə nifrət etməyə çağırır. Bu qədim folklor janrı demək olar ki, bütün siniflərdə tədris olunur. Atalar sözləri və məsəllər haqqında nəzəri məlumatlarla yanaşı, fərqli məzmunlu nümunələr öyrədilir [1].

Lirik janrlar içərisində özünəməxsus musiqi atmosferi ilə mahnı nümunələri xüsusilə fərqlənir. Məsələn, "İrəvanda xal qalmadı", "Sarı gəlin", "Qaragilə", "Apardı sellər Saranı", "Küçələrə su səpmişəm" və digər mahnılarda ruh, sevinc, kədər, ən incə hisslər, təbiət sevgisi və s. əks olunur.

Qədim folklor janrlarından biri olan əfsanələr ağlasığmaz fantastik hadisələrdən bəhs edir. Burada insanların ən qədim təsəvvürləri əksini tapır. Xalq şairi S.Vurğun "hər bir əfsanədə həqiqət izləri var" deyirdi. Ayrı-ayrı coğrafi ərazilər, dağlar, göllər, təbiət varlıqları, ağaclar, heyvanlar, quşlar və səma cisimləri ilə bağlı çoxlu əfsanə nümunələri vardır. Şagirdlər dərs prosesində onlardan yaşına və qabiliyyətinə görə yararlanır. Müəllim burada tərbiyəvi mahiyyəti bir əsas kimi diqqət önündə saxlamaqla qayəni aşılamağa çalışır.

Rəvayətlər əfsanələrdən fərqli olaraq, tarixən baş verən və müəyyən şəxslə əlaqəli olan real hadisələrə əsaslanır. Bu zənginliyin şagirdlərə aşağı siniflərdən çatdırılması onların bilik və bacarıqlarının formalaşmasında müstəsna rola malik olur. Xalq ədəbiyyatı bu baxımdan olduqca zəngindir. Buraya tapmaca, yanıltmac, nağıllar, aşıq yaradıcılığı, xalq oyunları, xalq tamaşaları, şəbihlər və s. bunun örnəyidir. Əsas məsələ xalq ədəbiyyatı nümunələri dərsliklərə salınarkən xüsusi seçilməli, varislik prinsipi saxlanılmaqla şagirdlərə təlqin edilməlidir. Bu istiqamətdə təbii ki, problemlər mövcuddur. Onların aradan qaldırılmasında müəllim səriştəliyi xüsusilə fərqlənməlidir. Dövrün tələblərinə uyğun tədris üsulları seçilməli, şagirdlərə nəinki dərsliklərdə olan örnəklər, digər nümunələr də tədris olunmalıdır.

***Ədəbiyyat***

*1.Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Elm, 2004. 353 s.*
*2.Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.*
*3.Hacıyev T. "Dədə Qorqud kitabı": tariximizin ilk yazılı dərsliyi. Bakı: Elm və təhsil, 2014, 344 s.*
*4.Həsənli B. Ədəbiyyatın tədrisi metodkası. Bakı: Müəllim, 2016. 208 s.*
*5.İsayev İ. Pedaqoji irsimizdən: Molla Vəli Vidadidən Hacı Kərim Sanılıyadək. Bakı: ADPU, 2014, 406 s.*
*6.İsmayılova M. XIX əsrin sonu, XX əsrin əvvəllərində Şamaxıda təhsil və pedaqoji fikrin inkişafı. Bakı: Elm və təhsil, 2019, 184 s.*
*7.Мордовченко Н. Белинский и русская литература его времени. Москва: Ленинград: Гос. изд-во художественной лит., 1990. 282 с.*
*8.Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. 2012. 205 s.*
*9.Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı:ADPU, 2019, 349 s.*

# ABŞERON YARIMADASININ ƏRAZİSİNİN EKOLOJİ KARKASI VƏ ONUN BƏZİ XÜSUSİYYƏTLƏRİ

**N.M.İsmaylov, N.Quluzadə**
**Bakı Dövlət Universiteti**
*nilkaqva15@gmail.com*

***Xülasə***

*Abşeron sənaye regionunun ərazisi böyük miqdarda təbii meşə massivlərinə malik deyildir. Bakı-Sumqayıt şəhərlərində yaşıl sahələr faiz nisbətində hələ ki, cüzi – orta hesabla 10-11% təşkil edir. Yarımsəhra zonalarının tükənmiş təbii karkasının fonunda Abşeron yarımadası ərazisində urboqeosistem formalaşmışdır. Bu, sənaye mərkəzlərindən, böyük və kiçik şəhərlərdən, onları birləşdirən nəqliyyat magistrallarından ibarət demoiqtisadi karkas olan insan cəmiyyəti tərəfindən yaradılmış karkasdır. Demoiqtisadi karkasın fəaliyyəti bütövlüklərini itirən təbii karkasa mənfi təsir göstərir və nəticədə ekoloji tarazlığın pozulması təhlükəsi yaranır.*

## ЭКОЛОГИЧЕСКИЙ КАРКАС ТЕРРИТОРИИ АПШЕРОНСКОГО ПОЛУОСТРОВА И НЕКОТОРЫЕ ЕГО ОСОБЕННОСТИ

***Резюме***

*Территория Апшеронского промышленного региона не имеет большого количества природных лесных массивов. В городах Баку и Сумгайыт процент зеленых насаждений пока небольшой-в среднем, 10-11%. На фоне истощенного природного каркаса полупустынных зон на территории Апшеронского полуострова сформировалась урбогеосистема. Это каркас, созданный человеческим обществом, который представляет собой демоэкономический каркас, состоящий из промышленных центров, больших и малых городов и транспортных магистралей, которые их соединяют. Свойства демоэкономического каркаса отрицательно сказывается на природном каркасе, который теряет свою целостность, в результате чего возникает угроза нарушения экологического равновесия.*

## ECOLOGICAL CARCASS OF THE TERRITORY OF THE ABSHERON PENINSULA AND SOME OF ITS FEATURES

***Summary***

*The territory of the Absheron industrial region does not have a large amount of natural forest areas. The percentage of green areas in Baku-Sumgayit is still 10-11%, on a small average. Urboqeosistem was formed on the territory of Absheron peninsula against the background of depleted natural carcass of semi-desert zones. This is a carcass created by the human society, a demoeconomic carcass consisting of industrial centers, large and small cities and Transport Highways connecting them.*

*The activity of the demoeconomic carcass adversely affects the natural carcass, which loses its integrity, and as a result, there is a threat of disruption of ecological balance.*

***Açar sözlər:*** *təbii komplekslər, ekoloji karkas, anlayışlar, məna, Bakı-Sumqayıt şəhərlərinin təbii-ekoloji çərçivəsi, funksiyalar.*

***Ключевые слова:*** *природные комплексы; экологический каркас; понятия; значение; природно-экологический каркас городов Баку-Сумгаит; функции.*

***Key words:*** *natural kumpleks; ecological carcass; concepts; meaning; natural-ecological framework of Baku-Sumgayit cities; functions.*

## Giriş

Regionun sosial-iqtisadi inkişafı ekoloji tarazlıqdan və təbiətin bütün komponentlərinin sabit fəaliyyət göstərməsindən asılıdır. Stabilləşdirici element rolunda ərazinin ekoloji karkası çıxış edir-ƏEK. Bu anlayış ərazinin optimal təşkili və təbiətdən səmərəli istifadə problemləri ilə məşğul olan alimlər arasında indi geniş istifadə olunur.

Ərazinin ekoloji karkasının mənası differensial təbiətdən çevik istifadə sistemini saxlamaq yolu ilə bütün ərazinin ekoloji sabitliyini təmin etməkdən ibarətdir. Ekoloji karkas-təbiətin mühafizəsi deyil, təbiətdən istifadə üzrə idarəetmə formasıdır ki, bu da insanın və istifadə olunan təbii ehtiyatların uzun müddət birgəyaşayışını təmin edə bilər. Hazırda ərazinin təşkili və optimallaşdırılmasına, eləcə də təbiətdən səmərəli istifadəyə yönəlmiş tədqiqatlarda ərazinin ekoloji karkasının yaradılması geniş tətbiq edilir.

"Ərazinin ekoloji çərçivəsi" anlayışının hamı tərəfindən birmənalı qəbul edilmiş tərifi yoxdur.

Elmi ədəbiyyatda aşağıdakı anlayışlara rast gəlinir: "ərazinin təbii karkası" [5; 12], "ekoloji karkas" [3; 7; 15], "təbii-ekoloji karkas" [10], "landşaft-ekoloji karkas" [20], "ərazinin geosistemli karkası" [19], “yaşıl karkas" [17], "biosfer çərçivəsində" [1], "davamlılıq karkas" [21], "ekoloji-mədəni karkas" [16].

"Ekoloji çərçivə" anlayışının mahiyyətini N.F.Reymers daha aydın ifadə edib. Reimers N. hesab edir ki, təbii karkas-ekoloji əhəmiyyətə görə sıralanan təbiət sahələrinin ayrılmaz qarşılıqlı əlaqəsi antropogen təsirlərə qarşı müqavimət göstərə biləcək təbii ekoloji tarazlığın formalaşması üçün zəmin yaradır [12-13]. Əsas yanaşma kimi bir çox tədqiqatçılar landşaft və ya landşaft-coğrafi yanaşmadan istifadə edirlər [2; 4; 8; 11], o təbii komplekslərin müxtəlifliyinin qorunub saxlanılmasını təmin edir və ekoloji karkas ərazisinin landşaft strukturuna əsaslanır. Bununla yanaşı, ərazinin landşaft strukturunun təsviri, təbii resurs, ekoloji potensialların qiymətləndirilməsi və təbii komplekslərin davamlılığının qiymətləndirilməsi həyata keçirilir.

Ərazinin ekoloji karkasının yaradılması zamanı landşaft yanaşması öyrənilən ərazidə təbii komplekslərin xüsusiyyətlərini, antropogen təsirlərin xarakterini və dərəcəsini nəzərə almağa imkan verir, həmçinin ərazinin floristik

və senozların müxtəlifliyi ilə qorunan ərazilərini əhatə edir [4; 14]. Landşaft-coğrafi yanaşmanın mahiyyəti ərazinin kompleks landşaft - coğrafi, sosial-iqtisadi və ekoloji təhlili əsasında xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin formalaşdırılmasından ibarətdir [9].

Ən mühüm ekoloji funksiyaların yerinə yetirilməsi üçün daha çox məsuliyyət daşıyan təbii komplekslər xüsusi əlaqəli sistemin – təbiət tərəfindən yaradılmış ərazinin bütövlükdə stabil fəaliyyətini təmin etmək üçün təbii karkasını ayırırlar [5]. O aşağıdakı tərkib hissələrindən ibarətdir:

- təbii karkasın qovşaqları (onlar mühitin əmələgəlmə funksiyanı yerinə yetirirlər) – geodinamik proseslərin formalaşmasında ən fəal sahənin zonaları, təbii landşaft strukturunda qovşaq sahələrinin rolunu oynayan zonalar (meşələrin böyük massivləri, çayların yuxarı hissəsi, böyük bataqlıqlar, xüsusilə qiymətli ərazilər, dağ massivləri və s.);
- tranzit dəhlizləri (nəqliyyat funksiyasını yerinə yetirir) - magistral maddə və enerji mübadiləsi, qovşaqların ərazilərini vahid geodinamik sistemə (göl və bataqlıqların zəncirləri, dərə-şüa şəbəkəsi, dağ silsilələri, çay dərələri və s.) bağlayır.;
- bufer əraziləri (mühit qoruyucu rol oynayır) – tranzit dəhlizlərinin mühafizə zonaları (çayların poymaları, meşə massivləri, yaşayış məntəqələrinin yaşıl zonaları və s.).

"Ekoloji karkas" anlayışı hazırda bir çox təbii landşaftların təhlilində geniş istifadə olunsa da, Azərbaycanda bu məsələyə hələ lazımi diqqət yetirilməyib. Abşeron sənaye regionunun iqtisadi əhəmiyyətini və Abşeron yarımadasının təbii landşaftlarına antropogen və texnogen təsirlə bağlı ekoloji problemləri nəzərə alaraq, sistem təhlilindən istifadə etməklə bu regionun ekoloji karkasının xarakteristikası verilmişdir.

**Tədqiqat obyektləri və metodlar**

Tədqiqat obyekti Abşeron sənaye regionunun ərazisidir. Bu tədqiqatda biz geniş spektrli elmi tədqiqatlardan, nəzəriyyələrdən, metodlardan və baxışlardan istifadə edərək sistemli analiz metodlarından istifadə etməklə həmin regionun ekoloji karkasının xarakteristikası verilmişdir.

**Nəticələr və onların müzakirəsi**

Abşeron sənaye regionunun ekoloji karkas anlayışından başlayaq. Bakı-Sumqayıtın aerofotoçəkilişinə baxanda görürük ki, bu şəhərlərin bəxti gətirməyib (şək.).

Onlar çox təbii meşə massivlər ilə əhatə deyil. Elə şəhərlərin özündə də yaşıl sahələrin faiz nisbətində hələ ki, cüzi məbləğ var - təxminən, 10-11% [6]. Yarımsəhra zonalarının yoxsul təbii karkasının fonunda sənaye mərkəzlərindən, böyük və kiçik şəhərlərdən və onları birləşdirən nəqliyyat magistrallarından ibarət demoiqtisadi karkas [18] - insan cəmiyyəti tərəfindən yaradılmış karkas formalaşıb. Demoiqtisadi karkasın fəaliyyət göstərməsi qaçılmaz olaraq

öz bütövlüyünü itirən təbii karkasa mənfi təsir göstərir və nəticədə ekoloji tarazlığın pozulması təhlükəsi yaranır.

Abşeron yarımadasının ərazisində təbii və şəhər landşaftının kəsişməsində mütəxəssislərin urboqeosistemlər adlandırılan zonalar formalaşmışdır. Onların mürəkkəblik səviyyəsi təbii zonalardan yüksəkdir, çünki çirklənmə səviyyəsi yüksəlir, təbii torpaqlar yox olur və s. Müvafiq olaraq, Bakı-Sumqayıt şəhərlərinin ekoloji karkası təbii və şərti-təbii geosistemlərin məcmusudur. Onun əsas işi dağıdıcı proseslərin intensivliyinin azalması və şəhər mühitinin sabitliyinin qorunmasıdır. Yəni, landşaft, torpaq, bitki əkinlərinin formalaşması hesabına şəhər əpazisi daxilində onlar qoruyucu funksiyanı yerinə yetirir.




**Şək**. *Abşeron yarımadasının aerokosmik şəkli*

Ümumiyyətlə, ötən əsrin 80-ci illərinə qədər Abşeron ərazisində ekolojiləşdirmə məsələsi şəhər ərazisinin kompleks yaşıllaşdırılması və sənaye müəssisələrindən zərərli tullantıların aradan qaldırılması problemlərinin həll edilməsinə yönəlmişdir.

Ötən onilliklər ərzində Abşeron yarımadasında yarımsəhra iqlimi şraitində özünəməxsus təbii-ekoloji karkas formalaşıb. Bakı-Sumqayıt təbii-ekoloji karkası şəhərlərin inkişafı ilə məqsədyönlü şəkildə formalaşmış və inkişaf etmişdir: Bakı şəhərinin ilk parkı hələ 150 il əvvəl (Qubernator bağı) salınmışdır, yeni parklar, süni su hövzələri (Ceyranbatan su anbarı), dəniz sahili boyunca parklar salınır.

Bakı-Sumqayıt və yaşayış məntəqələrinin şəhər parkları, meşə parklar, digər yaşıllaşdırılmış ərazilər, göllər – düzdür, çox çirklənmiş və Samur çayı mənbəyi olan Ceyranbatanı sahilyanı ərazilər və onları xətti parklarla birləşdirən avtomagistrallar boyunca yaşıl sahələr təbii-ekoloji karkası təşkil edir. Bakı-Sumqayıt şəhərlərində onların şəhərətrafı zonalarında dəniz sahili boyu bulvar boyunca su-yaşıl sistemlər formalaşmışdır ki, bu da müsbət ekoloji əhəmiyyətə malikdir.

Bakı-Sumqayıt şəhərlərinin təbii-ekoloji karkası mühüm ekoloji funksiyanı yerinə yetirir — təbii elementlərin aqressiv urbanizasiya olunmuş mühitdə davamlılığını və qarşılıqlı əlaqəsini təmin edir.

Eyni zamanda, etiraf etmək lazımdır ki, ekoloji karkasın "zəifliyi" nəticəsində o, öz funksiyalarını tam şəkildə yerinə yetirə bilmir – Abşeronun ərazisində atmosfer havasını təmizləyə bilmir. Bunu onunla izah etmək olar ki, Abşeron yarımadasında atmosferin çirklənməsi indeksi normadan 14 dəfə artıqdır [22]. Bu, bir sıra ekoloji problemlərin, o cümlədən bu regionda yaşayan əhalinin ekologiyası ilə bağlı problemlərin formalaşmasının səbəblərindən biri ola bilər.

Bu zaman təbii komplekslərin özünütəminetmə, özünütəminləmə potensial imkanlarından, onların yüksək assimilyasiya potensialından istifadə etmək vacibdir. Ekoloji cəhətdən qiymətli, lakin deqradasiyaya uğramış təbiət komplekslərinin, o cümlədən regionda atmosfer havasının tozlu çirklənməsinin mənbəyi olan daş karxanaların bərpası və sanasiyası da az əhəmiyyət kəsb etmir.

Ətraf mühitin ekologiyasının qabaqcıl dünya təcrübəsi bəzi rasional ideyaları formalaşdırıb. Xarici planlaşdırıcılar yaşayış yerlərinin aydın fərqləndirilməsini təklif edirlər [23]. Bunun üçün ayırırlar:

- özəl məkanlar (sakinlərin bağları) təcrübədə olduğu kimi, artıq Bakı şəhərində vardır;
- həyət – daxili ictimai sahələr-yerli sakinlərin istifadəsi üçün bu istiqamət də Bakı şəhərində tədricən inkişaf edir;
- qonşu həyətlərin sakinlərinin, tranzit piyadaların girişi üçün açıq olan ictimai məkanlar.

Bu baxımdan, qarşıda duran vəzifələrdən biri də Abşeron sənaye rayonu ərazisində yaşıllıqların sahəsinin artırılmasıdır. The Lancet Planetary Health elmi jurnalında dərc olunan məlumatlara görə, yaşıllıqların çatışmazlığı Qərbi Avropada hər il şəhərlərdə yaşayan 43 mindən çox insanın həlak olmasına gətirib çıxarır. Yaxın illərdə Avropa Şurası ölkələrinin standartlarına uyğun siyasət yeritmək lazımdır ki, bu siyasətə əsasən, şəhərlərdə yaşıllıqlar sahəsi ümumi sahənin 20%-dən az olmalıdır. Bu halda həmin regionun ərazisinin sosial-ekoloji-iqtisadi səmərəliliyinin optimallaşdırılmasını təmin etmək olar [12].

***Ədəbiyyat***

*1. Алаев Э.Б. Биосферный каркас и урбанизированные зоны // Физико-географические аспекты изучения урбанизированных территорий. Ярославль.1992. 195 с.*
*2. Батуев А.Р., Лопаткин Д.А. Обоснование и картографирование территориальной структуры экологического каркаса региона // Известия Ир-*

*кутского государственного университета. Серия «Науки о Земле». 2008.Т.1. № С. 56-75.*

3. *Владимиров В.В. Расселение и окружающая среда. М.:Стройиздат, 1982. -228 с.*

4. *Иванищева Е.А. Экологический каркас Вытегорского района Вологодской области // Известия Самарского научного центра РАН. 2010.Т. 12 (33). № 1 (5). С. 1383-1386.*

5. *Каваляускас П. Системное проектирование сети особо охраняемых территорий // Геоэкологические подходы к проектированию природно-технических геосистем. М.: ИГ АН СССР, 1985. С. 145-153.*

6. *Кахраманова Ш. Техногенное загрязнение почв Апшерона //Академический Вестник УРАЛНИИ проект РААСН 2012.№.1. -С.25-30.*

7. *Мирзеханова, З.Г. Эколого-географическая экспертиза территории (взгляд с позиции устойчивого развития). -Хабаровск: Дальнаука, 2000. 174 с.*

8. *Мирзеханова, З.Г. Экологический каркас территории в стратегии устойчивого развития: пример практической реализации / З.Г.Мирзеханова // География и природные ресурсы. - 2001. - № 3. - С. 23-28.*

9. *Мырзагалиева Ж.Ж., Станис Е.В. Методические подходы при создании экологического каркаса Западно-Казахстанской области // Вестник РУДН. Серия «Экология и безопасность жизнедеятельности». 2015. № С. 114-121.*

10. *Пономарев А.А., Байбаков Э.И.,. Рубцов В.А. Экологический каркас: анализ понятий. //Ученые записки Казанского университета. 2012. Том 154, кн. 3 Естественные науки. –С. 228-237.*

11. *Разумовский В.М. Рекомендации по обеспечению ландшафтно-экологической репрезентативности региональной сети ООПТ Ленинградской области. 2007. 57 с.*

12. *Реймерс, Н.Ф. Природопользование. - М.: Мысль, 1990. 639 с.*

13. *Реймерс Н.Ф., Штильмарк Ф.Р. Особо охраняемые природные территории. - М.: Мысль, 1978.*

# BEYNƏLXALQ QANUNVERİCİLİKDƏ MİQRANT HÜQUQLARI VƏ ONLARIN TƏTBİQİNDƏ SOSİAL İŞÇİNİN ROLU

**V.F.Səlimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*svavalida@gmail.com*

***Xülasə***

*Məqalədə miqrant anlayışı, miqrant kateqoriyaları, miqrasiya prosesinə təsir edən amillərdən bəhs olunub. Miqrantların beynəlxalq qanunvericiliklə təmin edilən ümumi baza insan hüquqlarına, müxtəlif miqrant kateqoriyaları üçün nəzərdə tutulmuş spesifik hüquqlara qısaca nəzər yetirilib. Nəzərdə tutulmuş hüquqların həyata keçirilməsində sosial işçilərə olan ehtiyac, miqrant hüquqlarının qorunmasında onların rolu, bu rolu yerinə yetirərkən istinad etdikləri etik normalar və vəzifə borcları qeyd edilib.*

## ПРАВА МИГРАНТОВ В МЕЖДУНАРОДНОМ ЗАКОНОДАТЕЛЬСТВЕ И РОЛЬ СОЦИАЛЬНОГО РАБОТНИКА В ИХ ПРИМЕНЕНИИ

***Резюме***

*В статье говориться о понятии миграции, категории миграции и о факторах, влияющие на процесс миграции. Вкратце обратилось внимание общим базовым правам мигрантов, обеспеченные международным законодательством, специфическим правам, имеющиеся ввиду для различных категорий мигрантов. Было отмечено нужда социальным работникам в реализации, имеющиеся ввиду прав, их роль в защите прав мигрантов, этические нормы и профессиональные долги на которые ссылаются в реализации этой роли.*

## MIGRANT RIGHTS IN INTERNATIONAL LAW AND ROLE OF SOCIAL WORK IN IMPEMENTING THEM

***Summary***

*The article looks at the questions regarding definition of migrant, migrant categories, factors affecting migration process. It briefly reviews basic human rights provided for migrants in international law and those accorded to different migrant categories in specific law and frameworks. The article touches on the need for social workers in implementing rights accorded to migrants, their role in defending above mentioned rights, and ethic norms they reference, professional duties they perform during this process.*

***Açar sözlər:*** *miqrant, miqrant hüquqları, könüllü miqrant, məcburi miqrant, qaçqın, əməkçi miqrant, iqlim miqrantı, miqrantlarla sosial iş*

***Ключевые слова:*** *мигрант, права мигрантов, добровольный мигрант, вынужденный мигрант, беженец, трудовой мигрант, климатический мигрант, социальная работа с мигрантами*

**Key words:** *migrant, migrant rights, voluntary migrant, forced migrant, refugee, labor migrant, climate migrant, social work with migrants*

**Miqrant anlayışı**

Müasir dövrdə insanlar daim hərəkətdədir. Onlar daha yaxşı iş imkanları tapmaq, yüksək yaşayış səviyyəsi əldə etmək, ölkələri, regionlarında baş verən iğtişaşlardan qurtulmaq, təhlükəsiz həyat üçün yaşayış yerlərini tərk edərək yeni ünvanlara üz tuturlar. İnsanların bir ərazidən digərinə köçməsi hadisəsinə miqrasiya deyilir. Lakin, bütün köçmə halları miqrasiya, bütün köçənlər miqrant hesab edilmir.

Beynəlxalq elmi ədəbiyyatlar və qanunvericilikdə miqrasiyanın konkret tərifi olmasa da, müxtəlif səbəblərə görə, ölkə daxilində və ya xaricə getməklə, öz yaşayış yerini müvəqqəti, yaxud daimi tərk edən şəxslər miqrant hesab edilir.

Beynəlxalq Miqrasiya Təşkilatının 2020-ci il üzrə hesabatına əsasən, hazırda dünyada 272 milyon miqrant var. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2000-ci ildə dünyada 150 milyon miqrant var idi. Bu gün dünya əhalisinin cəmi 3.6%-ni miqrantlar təşkil etsə də, onların sayının sürətlə artması, miqrasiya prosesinin iqtisadi, sosial, siyasi sferalara təsiri bu prosesi diqqət mərkəzində saxlanılmalı olan məsələ edir [1, s.10].

**Miqrasiyaya təsir edən amillər**

Müasir dövrdə miqrasiya prosesinin sürətlənməsi və onun miqyasının genişlənməsinə təsir edən bir sıra amillər var. İlk növbədə qloballaşmanın gətirdiyi mobilliyi qeyd etmək lazımdır. Keçmiş dövrlərdən fərqli olaraq indi ölkələr arasında əlaqələr daha da artıb və bir ərazidən digərinə keçid prosesi nisbətən sadələşdirilib. Qlobal əmək bazarının sürətlə inkişafı, əmək bölgüsü miqrant əməyinə olan ehtiyacı artırıb. Müxtəlif ölkə və regionlarda inkişafın səviyyəsində olan fərqlər, demokratik bərabərsizlik insanları daha yaxşı həyat axtarışına sövq edib. Kommunikasiya sahəsində baş verən inqilab da miqrasiya prosesinə təsirsiz ötüşməyib. İnsanlar müxtəlif kommunikasiya kanallarından istifadə etməklə öz ölkələri ilə başqa ölkələrin həyat səviyyəsi, iş imkanları, təhlükəsizliyi arasında olan fərqdən daha asanlıqla məlumatlana bilir. Nəqliyyat sahəsində yeniliklər hərəkəti daha ucuz və əlçatan edib. Miqrant şəbəkələri də miqrasiya prosesinə təsir göstərən faktorlardandır. Belə ki, miqrasiya etmiş şəxslər emiqrasiya etdikləri ölkələrdə yaşayan insanlara köçdükləri ölkə barədə ətraflı məlumat verə, onları immiqrasiyaya meyilləndirə, bu ölkəyə imiqrasiya edən həmyerlilərinə dəstək göstərə bilirlər. Miqrasiya sahəsində qəbul edilmiş qanunlar və razılaşmalar da miqrantların hüquq dairələrini genişləndirərək onlara daha rahatlıqla başqa ölkələrə köçmək imkanı verib [2, s.28].

**Miqrant kateqoriyaları**

Miqrantlar yaşayış yerlərini tərk etmə, ölkə daxilində və ya xaricə köçmə səbəblərindən, immiqrasiya etdikləri ölkələrdəki yaşayış statusları, miqrasiya vasitələrindən asılı olaraq müxtəlif qruplara bölünürlər. Miqrasiyaya dair ədəbiyyatlarda daxili və xarici, könüllü və ya məcburi, qanuni və nizamsız, sənədsiz miqrant qrupları qeyd olunur. Lakin, bu fərqləndirmələr hər zaman qəti xarakter daşımır. Belə ki, əməkçi miqrantlar könüllü miqrantlar hesab edilsə də, bəzən insanlar yaşadıqları ərazidə uyğun, və ya yetərli iş olmadığı üçün köç etmək məcburiyyətində qalır. Legal statusundan asılı olaraq fərqləndirilən miqrantlarda da oxşar vəziyyət müşahidə olunur. İcazə və rəsmi sənədlərlə hər hansı ölkəyə gəlmiş miqrant icazəsinin vaxtı bitdikdə, ölkəsinə qayıda bilmədikdə, yaxud sənədlərini itirdikdə sənədsiz miqranta çevrilir. [3] Ümumilikdə miqrantların aşağıdakı kateqoriyaları müəyyənləşdirilir:

1. **Əməkçi miqrantlar -** vətəndaşı olmadığı ölkədə haqqı ödənilən əməklə məşğul olacaq, olan, və ya belə əməklə məşğul olmuş şəxslərə deyilir. Bu təsvir bütün əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarının qorunmasına dair Beynəlxalq Konvensiyaya əsasəndir.
2. **Sənədsiz miqrant işçilər** – işləmək üçün hər hansı ölkəyə lazımi icazə olmadan daxil olan miqrantlardır. 1975-ci ildə BMT Baş Assambleyası əvvəllər *"qeyri-qanuni"* adlandırılan belə miqrant işçilərə *sənədsiz* və ya *nizamsız miqrantlar* formasında müraciət edilməyini təklif edib. Bu, onların insani ləyaqətinin qorunması, stiqmadan uzaqlaşmaq üçün atılan addım idi.
3. **Qaçqınlar** – 1951-ci il Qaçqınlar üzrə Konvensiyaya əsasən, irqi, dini, milli mənsubiyyəti, müəyyən sosial və ya siyasi qrupun üzvü olmaq səbəbindən təqib olunmaqla bağlı əsaslandırılmış qorxu ucbatından öz ölkəsinin hüdudlarından kənarda olan, bu qorxu səbəbi ilə vətəndaşı olduğu ölkənin müdafiəsindən istifadə edə bilməyən, yaxud etmək istəməyən şəxslərə qaçqın deyilir.
4. **Miqrant qaçaqmalçılığı obyektləri və insan alveri qurbanları:**

- Qaçaqmalçılıq – şəxsin vətəndaşı olmadığı ölkəyə qeyri-qanuni girişini təmin etməklə birbaşa və ya dolayı maliyyə, material, mənfəət əldə etməyə imkan verən fəaliyyətdir. Belə fəaliyyətdən istifadə edərək xarici ölkələrə giriş edən (girişə cəhd edən) şəxslər miqrant qaçaqmalçılığı obyektləridir.
- İnsan alveri qurbanları – oğurlama, hədə-qorxu, güc tətbiq etmək, gücündən sui-istifadə etməklə və s. istismar məqsədilə hər hansı bir şəxsin əldə edilməsi, transferi, daşınması fəaliyyətinin qurbanı olmuş şəxslər.

**5. İqlim miqrantları** – Beynəlxalq Miqrasiya Təşkilatına əsasən, ətraf mühitdə qəfil və ya tədrici dəyişikliklər səbəbi ilə yaşayış şəraitləri mənfi təsirlərə məruz qalan, bu təsirlər nəticəsində ənənəvi məskənlərini daimi, ya müvəqqəti tərk etməyə məruz qalan, yaxud tərk etməyi seçərək ölkə daxilində/ölkə xaricinə köçən şəxslərə iqlim miqrantları deyilir [4]. İqlim dəyişikliyinin vüsət aldığı, onun fəsadlarının bütün dünyada hiss edildiyi müasir dövrdə

iqlim miqrantları aktual kateqoriya hesab edilir. Belə ki, dəniz səviyyəsinin artması, quraqlıq, daşqınlar, qasırğaların iqlim dəyişikliyi nəticəsində daha da güclənməsi və genişlənməsi ilə daha çox insanın yaşayış məskənlərini tərk edərək miqranta çevrilmələri gözlənilir.

6. **Vətəndaşlığı olmayan şəxslər** – vətəndaşlığı olmayan şəxslərin statusuna dair Konvensiyanın 1-ci maddəsində heç bir dövlət tərəfindən öz qanunları çərçivəsində vətəndaş hesab edilməyən şəxslərə deyilir.

**Miqrant hüquqları sahəsində beynəlxalq qanun və sənədlər**

Miqrantların hüquqları beynəlxalq qanunlar, sənədlər, ölkələrin yerli qanunvericiliyi ilə müəyyənləşdirilir. Miqrant hüquqları ilə bağlı müraciət edilən əsas beynəlxalq sənədlərdən biri İnsan hüquqları üzrə universal Bəyannamədir. Burada ölkə mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərə bərabər təməl hüquqlar müəyyənləşdirilib. Bəyannaməyə əsasən, bütün insanlar azadlıq, şəxsi toxunulmazlıq, yaşamaq hüququna malikdir. Onlar mövcud qanunları pozan heç bir ayrı-seçkiliyə məruz qalmamalıdır. Hər bir şəxsin sığınacaq axtarmaq, vətəndaşlıq və ölkə daxilində sərbəst hərəkət etmək hüququ var. Mülki və siyasi hüquqlar haqqında Pakt da miqrantların həyata, azadlıq və təhlükəsizliyə olan haqqlarını təsdiq edir. Pakta əsasən, miqrantlar məcburi əməyə cəlb edilə, qul kimi saxlanıla bilməz. İqtisadi, sosial və mədəni hüquqlara dair Pakt ölkə mənsubiyyəti, immiqrasiya statusundan asılı olmayaraq, insanların ilkin və təcili tibbi yardıma çatım hüquqlarını müəyyən edir. Uşaq hüquqları üzrə Konvensiya bütün uşaqların, beləliklə miqrant uşaqların pulsuz icbari ibtidai təhsilə olan haqqlarını bəyan edir. Ölkələr valideynlərinin qanuni və ya sənədsiz vəziyyətindən asılı olmayaraq bütün miqrant uşaqlarına ibtidai təhsil vermə borcunu yerinə yetirməlidir. Mülki və siyasi hüquqlara dair Pakta uyğun olaraq, etnik, dini və dil azlığına mənsub miqrantlar öz icmalarının digər nümayəndələri ilə birlikdə mədəniyyətləri, din və dillərini istifadə edə, onlardan zövq ala bilərlər. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formaların ləğvi haqqında Konvensiya miqrant qadınlarının cinsi rolları ilə bağlı stereotiplərin ləğvini, qadınların insan alverinin qurbanına çevrilməsi, onların istismarının qarşısını almağa dair müddəaları özündə birləşdirir. Bu Konvensiyaya əsasən, qadınlara vətəndaşlıq və iş sahəsində tətbiq edilən ayrı-seçkiliklər aradan götürülməlidir. İrqi diskriminasiyanın bütün formalarının aradan qaldırılmasına dair Konvensiya miqrantların irqi ayrı-seçkilikdən müdafiəsini nəzərdə tutan əsas sənədlərdən biridir.

BMT Əməkçi Miqrantlar Konvensiyası işçi miqrantlar və ailələrinin təməl insan hüquqlarını təsdiq edir, onları işgəncə, qeyri-insani, qəddar davranışdan müdafiə edir, fikir, din, vicdan azadlıqları kimi hüquqlarını özündə ehtiva etdirir. Konvensiyanın 17-21-ci maddələri immiqrasiya və cinayətlə bağlı hallara görə həbs edilmiş miqrantlara şamil olunan hüquqları əks etdirir. 23-cü maddəyə əsasən, miqrant işçilər vətəndaşı olduqları ölkələrin konsulluğu, yaxud dip-

lomatik nümayəndəliklərin köməyindən, müdafiəsindən istifadə edə bilər. Konvensiya miqrant işçilərin həmkarlar ittifaqlarına qoşulma, işlədikləri ölkənin qanunvericiliyinin imkan verdiyi, büdcəyə verdikləri maddi fayda qarşılığında müəyyən sosial təhlükəsizlik tədbirlərindən faydalana bilmək haqqlarını qeyd edir.

İnsan alverinin qarşısının alınması, cəzalandırılmasına dair Protokol ölkələrdən insan alverini kriminallaşdıran tədbirlər görməyi, onun qurbanı olmuş şəxsləri dəstəkləmək və müdafiə etməyi, insan alverinin qarşısını almaq, onunla mübarizə aparmağı tələb edir.

**Miqrantlarla sosial iş**

Miqrantların hüquqlarının müdafiəsi və onlara yardım göstərilməsi sahəsində sosial işçinin rolu əhəmiyyətlidir. Beynəlxalq qanunvericilik, miqrantların hüquqlarını təmin edən müddəalar müəyyən etsə də, onlar hər zaman bütünlüklə yerinə yetirilmir. Miqrantların üz tutduqları ölkələr yerli qanunvericiklərinə əsasən, onlara hansı xidmətin hansı limitlərlə göstəriləcəyini özləri müəyyənləşdirmək hüququna malikdir. Beləliklə, bəzi miqrantların hüquqları təmin edilsə də, digərləri köməksiz qala bilir.

Bundan əlavə, miqrantlar həyata keçirdikləri səyahət zamanı və çatdıqları ölkələrdə müəyyən çətinliklərlə üzləşir. Hər bir miqrantın və ya miqrant qrupunun özünəməxsus problemləri olur. İrqindən, milli mənsubiyyətindən asılı olaraq bəzi miqrant qrupları hətta siyasi kampaniyaların hədəfinə də çevrilir. Miqrantların üzləşdiyi problemlər arasında gəldiyi ölkənin dilini bilməmək, ailədən və icmasından uzaqda təklikdə, bəzən təcrid olunmuş vəziyyətdə yaşamaq, sənədsiz, yaxud məlumatsız olduğu üçün istismar qurbanına çevrilmək kimi məsələlər var. Öz ölkələrini iğtişaş, təqib, qeyri-sabitlik səbəbi ilə tərk edən, təhlükəli nəqliyyat yollarından istifadə edən miqrantlar psixoloji problemlər yaşayır, travma alırlar.

Bu problemlərin həlli zamanı sosial işin imkanlarından istifadə edilərək, miqrantlara lazımi yardım göstərilməlidir. Sosial işçilər miqrantlarla iş zamanı müxtəlif rollarda çıxış edə bilər. Onlar müvəkkil, ailə məsləhətçisi, sosial pedaqoq, tədqiqatçı, əlaqələndirici, psixi sağlamlıq üzrə məsləhətçi kimi xidmət göstərə bilər [5, s.61]. Sosial işçilərin etik kodeksinə əsasən, onlar fərdlərə, icma və qruplara dəstək göstərməli, sosial ədalətə xidmət etməli, insanların şəxsiyyətinə hörmətlə yanaşmalı, fərq qoymadan və mühakimə etmədən bütün klientlərinə dəstək olmalıdırlar.

Sosial işçilərin məhz bu xüsusiyyətləri çətin şəraitdə olan, sənədsizlik vəziyyətindən qorxaraq heç bir yerə müraciət edə bilməyən, sığınacaq müraciəti qəbul edilməyən, hüquqları pozulan miqrantların müdafiəsi, ehtiyaclarının qarşılanmasında əvəzsiz rol oynayır. Sosial işçilər miqrantları lazımi resurslarla təmin etmək üçün onları aidiyyati qurumlarla əlaqələndirmək funksiyasını yerinə yetirməli, ehtiyac yarandıqda həkimlər, hüquqşünaslar, həmkarlar itti-

faqları və s. əlaqələndirməlidir. Miqrantların yerli həyata inteqrasiyası, icma ilə əlaqələrinin yaranması və möhkəmləndirilməsi sahəsində sosial işçilər icma ilə iş apara bilər. Bu zaman onlar yerli icmada miqrantlarla bağlı yaranmış səhv fikirlərin aradan qaldırılması, icma və miqrantların bir-birini tanıması, bir-birlərinin mədəniyyətlərinə bələd olması yönündə praktiki işlər aparmalıdır.

Sosial işçilərin həyata keçirdiyi ən vacib işlərdən biri kliyentlərinin özlərinə inamını yaratmaq, özlərini sərbəst şəkildə dəstəkləyə bilmək üçün onlarda vərdişlər yaratmaqdır. Miqrantlarla iş zamanı da onlar bu təcrübədən faydalanmalıdırlar.

***Ədəbiyyat***

1. *World Migration Report 2020. International Organization for Migration, 2019, 496 p.*
2. *Khalid Koser. International Migration: A Very Short Introduction. Oxford University Press, 2016, 152 p.*
3. *https://ijrcenter.org/thematic-research-guides/immigration-migrants-rights/*
4. *https://environmentalmigration.iom.int/environmental-migration-1*
5. *A.D.Zamanov, H.İ.Əliyeva. Sosial işin əsasları. Bakı, 2015, 452 s.*

# FEİL VƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM METODLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ

**N.N.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*narminmammadova1397@gmail.com*

***Xülasə***

*Ənənəvi təhsildə şagird nə qədər passiv idisə, müasir təhsildə şagird bir o qədər aktivdir. Şagirdin bu aktivliyi onda özünə inam yaradır və müstəqil fikir yürütmə qabiliyyətini formalaşdırır. Müasir təhsilin şagirdi artıq problemləri həll edən bir tədqiqatçıdır. Müəllimin vəzifəsi isə, şagirdin doğru üsullarla tədqiqat aparmasını təşkil etməkdir. Bacarıqlı müəllim müasir təhsilin tələb etdiyi kimi təlim metodlarına yaxşı bələd olmalı, onlardan düzgün və zamanında istifadə etməyi bacarmalıdır. Feil və köməkçi nitq hissələrinin daha səmərəli tədrisi üçün bir çox fəal təlim metodlarından istifadə olunur: akvarium, binqo, auksion, debat, karusel, Frayer modeli, qar topası və s.*

## ЭФФЕКТИВНОЕ ИСПОЛЬЗОВАНИЕ АКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ ПРИ ОБУЧЕНИИ ГЛАГОЛАМИ И ДОПОЛНИТЕЛЬНОЙ РЕЧИ

***Резюме***

*В традиционном образовании ученик был пассивным, но в современном образовании ученик столь же активен. Эта деятельность ученика придает ему уверенность в себе и развивает способность мыслить самостоятельно. Студент современного образования уже является исследователем, решающий проблемы. Задача преподавателя - правильно организовать исследование ученика. Хороший учитель должен хорошо разбираться в методах обучения, как того требует современное образование, и уметь правильно и своевременно использовать их. Для более эффективного обучения глаголом и вспомогательным частям речи используются многие активные методы обучения: аквариум, бинго, аукцион, дебаты, карусель, модель Фрайера, снежный ком и т. д.*

## EFFECTIVE USE OF ACTIVE TEACHING METHODS IN TEACHING VERBS AND AUXILIARY SPEECH

***Summary***

*If the student is a passive in traditional education, on the contrary he/she is an active in modern education. This activity of the student gives him/her self-confidence and develops the ability to think independently. The student of modern education is already a researcher who solves problems. The teacher's mission is to organize the student's research in the right way. A good teacher must be well-versed in teaching methods, as required by modern education, and be able to use them correctly and in a timely manner. Many active learning methods are used for more effective teaching of*

*verbs and auxiliary parts of speech: aquarium, binqo, auction, debate, carousel, Frayer model, snowball etc.*

***Açar sözlər:*** *feil, köməkçi nitq hissələri, fəal təlim*
***Ключевые слова:*** *глагол, вспомогательные части речи, активный обучение*
***Key words:*** *verb, auxiliary parts of speech, active training*

*Giriş.* Müəllim şagirdlərə tədris edilən fənni sevdirməyi bacara bilməlidir. Bu ilk növbədə müəllimin özünü insan olaraq şagirdlərə sevdirməsilə başlamalıdır. Şagird müəllimdən qorxmamalı, öz fikirlərini rahat ifadə edə bilməlidir. Müəllimin onun hər bir fikrinə yeni "kəşf" kimi yanaşması onda motivasiya yaradacaqdır. Cəmiyyətə müəllimdən "qorxaraq" oxuyan şagirdlər deyil, azad düşüncəli, fikrini müstəqil ifadə edə bilən şagird lazımdır. "Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənir". (5, s.11)

*Əsas hissə*: Təlim metodları seçilərkən bir sıra tələblərə əməl etməliyik: seçdiyimiz üsul ilə forma bir-biri ilə uzlaşmalıdır; sinfin və ya şagirdin yaş və bilik səviyyələri nəzərə alınmalıdır; sinifdə təlim metodunun tətbiqi üçün şərait olmalıdır. "Yeni təlim texnologiyalarının tətbiqi dilçiliyin bütün şöbələri ilə bağlı nəzəri və praktik əhəmiyyətli məsələləri təhsilalanlara dərindən öyrətməyə şərait yaradır". (2,s.27) Feilin və köməkçi nitq hissələrinin mənimsədilməsində fəal (interaktiv) təlim metodlarından istifadə müasir təhsilimiz üçün olduqca vacibdir. Bəs feil və köməkçi nitq hissələrinin tədrisində ən səmərəli fəal təlim metodları hansılardır?

- Diskussiya: Müzakirə metodudur. Feilin məlum, məchul və şəxssiz növləri haqqında dil qaydaları 7-ci sinif dərsliyində bir yerdə verilib. Bildiyimiz kimi tədris zamanı aktual problemlərdən biri də məchul və şəxssiz növ feillərin fərqləndirilməsidir. Ona görə də bu məsələni müzakirə metodlarından biri olan Diskussiya metodu ilə tədris edə bilərik. Bu zaman iş formamız qruplarla iş olur. Sinifdəki şagirdlər 2 qrupa bölünür. Hər iki qrup "Məchul və şəxssiz növ arasındakı fərqlər nələrdir?" sualı ətrafında müzakirə aparır, sonra fikirlərini tək-tək bildirirlər. Bu təlim metodu şagirdlərdə fikrini rahat ifadə etməyi və şəxsin deyil, fikirlərin tənqid olunması mədəniyyətini formalaşdırır.
- Akvarium: Müzakirə metodudur. Qruplarla iş zamanı tətbiq olunur. Feilin tədrisində dərslikdə verilən "İdi, imiş hissəcikləri və keçmiş zaman şə-

kilçiləri" dil qaydalarını Akvarium metodu ilə tədris edə bilərik. Şagirdlər 2 qrupa ayrılır, daxili və xarici dairə şəklində otururlar. Daxili dairəyə tədqiqat sualı kimi "İdi,imiş hissəciklərini keçmiş zaman şəkilçilərindən necə fərqləndirməli?" qoyulur. Daxili dairə fikirlərini müzakirə edərkən xarici dairə də onlara fikir verir. Kənardan fikir bildirmək hər zaman daha asan olduğu üçün xarici dairə daxili dairənin irəli sürdükləri fikirləri ilk öncə qeyd edir, sonra dairələr yerlərini dəyişir və proses təkrarlanır. Sonda müzakirə nəticəsində ümumi fikrə gəlinir.

➢ Kublaşdırma: Tədqiqat metodudur. Feilin təsriflənməyən formalarının tədrisində istifadə oluna bilər. Bu zaman müəllim "kub" hazırlayır və 6 üzünə müxtəlif göstərişlər yazır: təsvir et, müqayisə et, əlaqələndir, təhlil et, mübahisə et. Buradakı mübahisə həm lehinə, həm də əleyhinə ola bilər. Sinfi 6 qrupa bölərək zər kimi kub atılır və qrupların öhdəliyinə düşən göstəriş tədqiq edilir: Məsdəri təsvir et, feili sifətlə feili bağlamanı müqayisə et, feili sifəti feil və sifətlə əlaqələndir və s.

➢ Auksion: 5-7 dəqiqə ərzində yekunlaşmalı olan bu metod əqli hücum metodudur. Məsələn, şagirdlərdən qarşılıq-birgəlik növdə olan feilləri söyləmək tələb olunur və sonuncu cavab verən şagird qalib olur.

➢ Sorğu vərəqi (anket): Müəllim konkret suallar olan anket hazırlayıb şagirdlərə təqdim edir. Onlar da konkret cavabları qeyd edirlər: Feili sifət şəkilçiləri hansı şəkilçilərlə omonimdir? Məsdər ismin hansı xüsusiyyətlərini daşıyır və s.

➢ Karusel: Köməkçi nitq hissələrinin tədrisi bitərkən ümumiləşdirmə məqsədilə bu metod tətbiq edilə bilər. 4 iş vərəqi və hərəsinə ayrılıqda yazılmaq üçün 4 sual hazırlanır: Qoşma haqqında nə öyrənmişik? Bağlayıcılarda vergül necə işlənir? Ədatın digər köməkçi nitq hissələrindən fərqi nədir? Nidada durğu işarələri necə işlənir? 4 qrupa verilən sualları şagirdlər cavablayır və üzərini örtüb digər qrupa göndərirlər. Karusel şəklində vərəqlər dövr edir. Suallara eyni və fərqli cavablar verilə bilər. Sonda müəllim verilən cavabları lövhəyə yazır və şagirdlərlə birlikdə problemin həllini tapırlar.

➢ Beyin həmləsi: Kollektiv şəkildə tətbiq olunan bu metod 10-15 dəqiqə ərzində yekunlaşmalıdır. Mürəkkəb bağlayıcıları tədris edərkən şagirdin həm mürəkkəb söz haqqında, həm də bağlayıcı haqqında öncədən məlumatı olmuş olur. Bu zaman müəllim mürəkkəb bağlayıcı haqqında şagirdlərin fikirlərini əqli hücum metodu ilə toplaya bilər. Bu metod şagirddə özünə inamı formalaşdırır. Çünki müəllim deyilən bütün fikirlərə hörmətlə yanaşmalı və onun subyektiv fikrini müsbət dəyərləndirməlidir. "Problemin həlli istiqaməti üzrə işin çoxvariantlılığı, alqoritmik imkanlar və demokratik şərait bu metodun üstün cəhətləridir" (1,s.144)

➢ Dairə üzrə hərəkət: Kollektiv şəkildə tətbiq olunur. Müəllim şagirdlərdən ədat işlənən cümlələri deməyi və dedikdən sonra əlində olan kiçik topu

başqa şagirdə ötürməyi tapşırır. Proses təkrarlanır və beləliklə, şagirdlər ədatı əylənərək öyrənirlər.

➢ Proqnozlaşdırma: Qoşmanın tədrisində bu metoddan istifadə edə bilərik. Bildiyimiz kimi dərslikdə qoşmanın məna növləri haqqında ayrıca məlumat verilməyib. Müəllim iş vərəqlərində şagirdlərə içərisində qoşmalar olan cümlələr verir və qoşmaların hansı məna növündə olmasını proqnozlaşdırmaqlarını istəyir.

➢ Qar topası: Müəllim hər bir şagirdə vərəqlər verir və "Köməkçi nitq hissələrindən hansılar əsas nitq hissələri ilə omonimdir?" problemi ortaya qoyulur. Şagirdlər fərdi olaraq fikirlərini yazırlar. İkinci mərhələdə şagirdlər qruplara bölünür və fərdi olaraq verilən cavablardan ümumi bir nəticəyə gəlirlər. Qruplar öz işlərini təhvil verirlər. Sonra məsələyə kollektiv münasibət bildirilir, ümumi nəticə çıxarılır.

➢ Frayer modeli: Bu təlim metodu feilin qrammatik məna növləri tədris edildikdən sonra tətbiq oluna bilər. Şagirdlər qruplara ayrılır və hər qrupa içində fərqləndirilmiş sözlər olan mətnlər verilir. Şagirdlərdən bu sözlərin hansı qrammatik məna növünə aid olmasını yazmaq tələb olunur.

➢ Binqo: Bu zaman müəllim 5 köməkçi nitq hissəsinin hər biri haqqında şagirdlərə məlumat verir və bunların hansılar olduğunu təxmin etmələrini istəyir. Şagirdlər təxminlərini vərəqlərə yazırlar və sonda düzgün çıxanlar qalib hesab olunur.

➢ Öz tayını tap: Müəllim şagirdlərin sayına uyğun olaraq kartlar hazırlayır. Hər birinə məsdər, feili sifət və feili bağlamaya aid sözlər yazır. Hər birinə müvafiq olaraq şagirdlər öz taylarını tapırlar: baxmaq, görmək, yazmaq sözləri məsdər, gülən, oxunmuş, baxılmış sözləri feili sifət, baxarkən, gedərək sözləri feili bağlama.

➢ Bitməyən hekayə: Müəllim şagirdlərə qoşmaya aid sözlər verir: üçün, kimi, qədər, dək, savayı, özgə. Sonra şagirdlərdən içində bu sözlər işlənən cümlələr qurmaq tələb olunur. Amma bu cümlələr məntiqi ardıcıllıqla qurulmalıdır.

➢ Klaster: Bu metod keçilmiş biliklərin xatırlanması üçün səmərəli metodlardan biridir. Məsələn, köməkçi nitq hissələrinin tədrisinə başlayarkən bu metod vasitəsilə əsas nitq hissələrinin hansılar olduğunu xatırlaya bilərik. Və ya qoşmanın tədrisində lövhəyə başlıq olaraq "qoşma" yazırıq. Qoşmanın məna növlərini daha sonra hər bir məna növünə aid hansı qoşmaların uyğun gəldiyini yazaraq "hörümçək toru" yaradırıq.

"Klaster" metodundan müxtəlif məqsədlər üçün istifadə edə bilərik.

"Məqsəd:

- Şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq etmək;

- Verilmiş əsas anlayışa aid şagirdləri bacardıqları qədər söz assosiasiyaları (anlayışlar, hadisələr, xüsusiyyətlər və s.) tapmağa və ideyalar arasında əlaqələr barədə düşünməyə istiqamətləndirmək;
- Şagirdlərin mövzu barəsindəki əvvəlki təcrübəsini nəzərdən keçirmək. Yeni assosiasiyaları stimullaşdırmaq, bilikləri sistemləşdirmək və əhatə dairəsini genişləndirmək;
- Lüğət tərkibini zənginləşdirmək". (5,s.70)

Fəal təlim metodlarının tətbiqinə aid dərs nümunəsi təqdim edirik:

Mövzu: Məsdər

Standart: 4.1.2

Məqsəd: Feilin təsriflənməyən formalarını fərqləndirmək.

Dərsin tipi: induktiv

İnteqrasiya: fəndaxili

İş forması: kollektiv, qruplarla

İş üsulları: klaster, diskussiya

Resuslar: Dərslik

Dərsin mərhələləri:

Motivasiya: Ev tapşırığı yoxlanılır. Məsdər ismin və feilin xüsusiyyətlərini daşıdığı üçün fəndaxili inteqrasiya edilərək isim və feilin xüsusiyyətləri klaster metodu ilə şagirdlərə xatırladılır. Dərslikdəki 9-cu tapşırıq motivasiya məqsədi daşıyır. Şagirdlərdən mətndə göy rənglə verilmiş sözlərin ismə və feilə məxsus cəhətlərini seçmək tələb olunur.

Tədqiqat sualı: "Məsdər nədir və onun hansı xüsusiyyətləri var?

Tədqiqatın aparılması: Şagirdlər 2 qrupa ayrılırlar. İlk qrup 10-cu tapşırığı, digər qrup 11-ci tapşırığı işləyir.

Məlumat mübadiləsi: Tədqiqat bitdikdən sonra şagirdlər təqdimat edirlər. Fikir mübadiləsi zamanı qruplar bir-birlərini diqqətlə dinləyirlər.

Məlumatın müzakirəsi: Qrupların fikirləri müzakirə olunur. Yanlış və doğru fikirlər müəyyən edilir.

Nəticələrin çıxarılması: Məlum olur ki, Məsdər -maq;-mək şəkilçisi ilə düzələn, həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyan feilin təsriflənməyən formasıdır. Onun həm feilə, həm də ismə aid xüsusiyyətləri şagirdlər tərəfindən sadalanır.

Qiymətləndirmə: Qiymətləndirmə aşağıdakı meyarlar üzrə aparılır:

- Təsriflənməyən formaları fərqləndirə bilir.
- Vaxtdan səmərəli istifadə edir.
- Əməkdaşlıq edə bilir.
- Fəallıq göstərir.

*Nəticə:* Azərbaycan dilinə verilən tələblərdən biri fəal təlim metodlarından yerində, səmərəli istifadədir. Azərbaycan dili təlimində hər bir bölməni tədris edərkən müxtəlif təlim metodlarından məqsədyönlü istifadə edə bilərik.

***Ədəbiyyat***

*1. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı:Qismət, 2014.*
*2.Hümmətova R. Qoşma və bağlayıcının tədrisində inteqrasiya. Bakı:Elm və təhsil, 2018.*
*3. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslik. Bakı, 2019.*
*4.Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan dili (tədris dili kimi) fənni üzrə metodik vəsait. Bakı, 2018.*
*5.Veysova Z. Fəal(interaktiv) təlim. Müəllimlər üçü vəsait. Bakı:Təhsil, 2007.*

# ETNİK MÜNAQİŞƏLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ BİRLƏŞMIŞ MİLLƏTLƏR TƏŞKİLATININ ROLU

**Z.E.Axundova**
**Azərbaycan Turizm və Menecment Universiteti**
*zarifa.akh14@gmail.com*

***Xülasə***

*Etnik münaqişənin idarə olunması və tənzimlənməsi üçün hər şeydən əvvəl onun tipi, münaqişənin forması və bir sıra digər amillər nəzərə alınmalıdır. Münaqişənin həlli üçün alınan qərarı cəmiyyətin qəbul etməsi də vacibdir.*

*Beynəlxalq münaqişələrin qarşısının alınması, tənzimlənməsi və onun beynəlxalq birlik (BMT) tərəfindən idarə edilməsində hərbi elementin rolu qalmaqdadır. Strateji Araşdırmalar sahəsində ekspertlər hərbi missiyaların dörd kateqoriyasını ayırırlar. Birincisi, hərbi əməliyyatlarda iştirakdır. Bu problemin həlli silahlara nəzarət üzrə müqavilələrin dəstəklənməsi, okeanda azad gəmiçiliyin təmin edilməsi, eləcə də sülhməramlı əməliyyatlarla bağlıdır. İkincisi, yerli mülki administrasiyaya kömək etməkdir. Bura sərhədlərin təhlükəsizliyi, narkotik alveri və terrorizmlə mübarizə daxildir. Üçüncüsü, təbii fəlakətlər zamanı əhaliyə humanitar yardım göstərilməsi, QHT-nın yardımı və qaçqınlara yardım daxildir. Nəhayət, dördüncü vəzifə birtərəfli hərbi əməliyyatların həyata keçirilməsidir. Bura dinc əhalinin köçürülməsi və s. daxildir. Bu nümunələrə əsaslanaraq məqalədə Birləşmiş Millətlər Təşkilatının iki etnik münaqişənin gedişatındakı roluna diqqət yetirəcəyik.*

## РОЛЬ ОРГАНИЗАЦИИ ОБЪЕДИНЕННЫХ НАЦИЙ В УРЕГУЛИРОВАНИИ ЭТНИЧЕСКИХ КОНФЛИКТОВ

***Резюме***

*Чтобы управлять и регулировать этнический конфликт, в первую очередь необходимо учитывать его тип, форму конфликта и ряд других факторов. Также важно, чтобы решение о разрешении конфликта принимало общество.*

*Роль военного элемента в предотвращении, урегулировании и регулировании международных конфликтов международным сообществом (ООН) сохраняется.*

*Специалисты в области стратегических исследований выделяют четыре категории военных задач. Первый – это участие в боевых действиях. Решение этой проблемы заключается в поддержке соглашений о контроле над вооружениями, предоставлении бесплатного судоходства в океане, а также в операциях по поддержанию мира. Второй – помочь местной гражданской администрации. К ним относятся безопасность границ, незаконный оборот наркотиков и борьба с терроризмом. В-третьих, это оказание гуманитарной помощ и населению во время стихийных бедствий, помощь НПО и помощь беженцам.*

*Наконец, четвертая задача – проведение одно сторонних военных действий. Расселение мирных жителей и тд. включает в себя.*

*На основе этих примеров в статье речь пойдет о роли ООН в ходе двух этнических конфликтов.*

## *THE ROLE OF THE UNITED NATIONS IN THE REGULATION OF ETHNIC CONFLICTS*

***Summary***

*In order to manage and regulate an ethnic conflict, first of all, its type, form of conflict and a number of other factors must be taken into account. It is also important that the decision taken to resolve the conflict is made by the society.*

*The role of the military element in the prevention, settlement and management of international conflicts by the international community (UN) remains. Experts in the field of strategic research distinguish four categories of military missions. The first is participation in military operations. The solution to this problem lies in the support of arms control agreements, the provision of free shipping in the ocean, as well as peace keeping operations. These condis to help the local civil administration.*

*These include border security, drug trafficking and the fight against terrorism. Third is the provision of humanitarian assistance to the population during natural disasters, assistance to NGOs and assistance to refugees. Finally, the fourth task is to carry out unilateral military operations. There settlement of civilians and so on. includes. Based on these examples, we will focus on the role of the United Nations in the course of the two ethnic conflicts.*

***Açar sözlər:*** *etnik münaqişə, Birləşmiş Millət Təşkilatı, Fələstin, İsrail, Kəşmir məsələsi*

***Ключевые слова:*** *этнический конфликт, ООН, Палестина, Израиль, проблема Кашмира*

***Key words:*** *Ethnic conflict, United Nations, Palestine, Israel, Kashmir issue*

Etnik münaqişələr yalnız münaqişə tərəflərinə təsir etmir. O, yerli sərhədlər daxilində baş verən “daxili problem” olmaqdan kənara çıxa və sürətlə beynəlxalq səviyyəyə yüksələ bilər. Bəzən münaqişə tərəflərinin üçüncü tərəfin müdaxiləsi olmadan həllinə nail olmaq şansı olmaya bilər. Qarşılıqlı münaqişə prosesində olan tərəflər arasında bufer güc kimi üçüncü tərəfin daxil edilməsi, fiziki zorakılığın qarşısının alınması və münaqişə tərəfləri arasında sülhə yol açılması baxımından zərurətə çevrilə bilər. Bu hallarda beynəlxalq ictimaiyyətin ümumiyyətlə etnik münaqişələrə müdaxilə etdiyi və bu müdaxilənin daha çox BMT-nin sülhməramlı qüvvələri vasitəsilə həyata keçirildiyi müşahidə olunur.

Müəyyən anlarda etnik münaqişələr soyqırım aktı ilə nəticələnə bilər. BMT Baş Assamblyeyası 11 dekabr 1946-cı il tarixli 96 (I) saylı qətnaməsi ilə soyqırımın beynəlxalq hüquq normalarını pozan və BMTməqsədlərinə zidd olan cinayət olduğunu həmçinin tarix boyu soyqırımın bəşəriyyətə böyük

ziyan verdiyi, bəşəriyyəti fəlakətdən azad etmək üçün beynəlxalq əməkdaşlıq lazım olduğunu qeyd edərək sivil dünyanın soyqırımı qınadığını bəyan etdi. 1948-cil dekabrın 9-da BMT Baş Assamblyeyası "Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması" haqqında konvensiyanı imzaladı.

Soyqırım adətən hökumət tərəfindən həyata keçirilən düşünülmüş strategiyadır. 2004-cü il aprelin 7-də BMT Baş katibi Ruandada törədilmiş soyqırımın 10 illiyində soyqırımın qarşısını almaq üçün beş hissədən ibarət tədbirlər planı təqdim etdi.

- Soyqırım törədilməsi üçün şərait yaradan silahlı münaqişələrin qarşısının alınması;
- Silahlı münaqişələr zamanı BMT-nin sülhməramlı qüvvələri cəlb olunmaqla mülkişəxslərin müdafiəsi;
- Milli və beynəlxalq məhkəmələrdə məhkəmə fəaliyyəti vasitəsilə qanunsuzluqlara sonqoymaq;
- Məlumat toplanması və ilkin xəbərdarlıq sisteminin yaradılması;
- Hərbi aksiyalar da daxil olmaqla təcili və qəti tədbirlərin həyata keçirilməsi [4].

İndi isə Asiyanın ən şiddətli etnik münaqişələrindən olan Kəşmir münaqişəsinə nəzər salaq.

**Kəşmir məsələsi** 1947-1948, 1965 və 1971-ci illərdə Hindistan və Pakistan arasında üç böyük münaqişəyə səbəb oldu. Pakistan zorakılıq nəticəsində Kəşmirin Hindistana birləşdirilməsini qəbul etməmiş, problemin həlli üçün Hindistanla danışıqlar aparmağa çalışmışdır. Pakistan Qubernatoru 1 noyabr 1947-ci ildə hər iki tərəfin qubernatorlarının nəzarəti altında bölgədə plebisit keçirilməsini təklif etdi. Bunu qəbul etməyən Hindistan 1948-ci ilin yanvarında Pakistanı ittiham edərək BMT Təhlükəsizlik Şurasına müraciət etdi. Hindistan Təhlükəsizlik Şurasından Pakistanın təcavüzkar mövqeyinə son qoymasını tələb edirdi. BMT Təhlükəsizlik Şurası 21 aprel 1948-ci il tarixli 47 saylı qətnamə ilə Kəşmirdə daha əvvəl məskunlaşmayan, Hindistan ilə Pakistan tərəfindən bölgəyə göndərilən şəxslərin öz ölkələrinə qaytarılmasını tövsiyə etdi. Bundan əlavə, BMT Təhlükəsizlik Şurası yeni plebisit tətbiq edilməsini və tərəflər arasında atəşkəsin yaradılmasını tövsiyəetdi [1].

BMT Təhlükəsizlik Şurası regionda sabitliyi təmin etmək üçün komissiya yaratdı və lazımıtədqiqatların aparılması üçün bu komissiyanı 1948-ci ilin iyulunda bölgəyə göndərdi. BMT Təhlükəsizlik Şurasının fəaliyyəti nəticəsində 1949-cu ilin yanvarında Hindistan və Pakistan arasında atəşkəs əldə edildi. Atəşkəs mühitinə nəzarət etmək üçün Birləşmiş Millətlər Təşkilatının Hindistan və Pakistan üzrə hərbi monitorinq qrupu regional müharibənin baş verməsinin qarşısını almaq üçün 1949-cu ildən bəri Kəşmirdədir. 6 fevral 1948-ci ildə Təhlükəsizlik Şurası xarici qoşunların bölgədən çıxarılmasını, neytral administrasiyanın yaradılmasını və Cammu-Kəşmir Knyazlığının hansı tərəfə bir-

ləşəcəyini müəyyən etmək üçün BMT-nin himayəsi altında plebisit keçirilməsini tövsiyə etdi. Müzakirələr yenidən baş verəndə, 1948-ci il aprelin 21-də Təhlükəsizlik Şurası, əsgərləri və münaqişəli qrupları bölgədən çıxarmaq, Pakistana qoşulmağın tərəfdarı və əleyhdarlarından vahid hökumət qurmaq və plebisit həyata keçirmək qərarına gəldi. Lakin Təhlükəsizlik Şurasının çağırışı razılaşdırılmışplebisitin həyata keçirilməsi üçün kifayət etmədi [5].

1950-ci illərdə beynəlxalq konyukturada qüvvədə olan ABŞ-ın münaqişədə tərəf tutma siyasəti Kəşmir problemi ilə bağlı yaranan münaqişələrin qlobal miqyas almasına səbəb oldu. Beləliklə, baş verən beynəlxalq siyasətin həyata keçirilməsi prosesində Pakistan Hindistana qarşı ABŞ-ın tərəfinə keçməyə meylli oldu. Müvafiq olaraq, Pakistan 1955-ci ildə Bağdad Paktı və 1954-cü ildə SEATO-nun üzvü oldu. Problemin qlobal miqyas aldığı beynəlxalq şəraitdə SSRİ-nin ABŞ-ın regionla bağlı addımlarına cavab verməsi lazım idi. Bu istiqamətdə SSRİ Hindistan tərəfdarı olmaq üçün BMT-dəki veto hüququndan istifadə edir və Hindistana qarşı qəbul oluna biləcək qərarlara veto qoyurdu. Bəzi xəritələrdə Sovet İttifaqı ilə sərhədləri olduğu göstərilən Cammu və Kəşmir, tarix boyu Rusiya üçün, eləcə də kommunist strategiyası üçün çox dəyərli olmuşdur. Kəşmir probleminin həllində BMT-nin təşəbbüsünün kifayət qədər nəticə vermədiyi gözlər önündə idi. Sovet İttifaqı BMT Təhlükəsizlik Şurasının daimi üzvü olduğu üçün veto hüququna malik idi. Beləliklə, o, BMT-nin qəbul etdiyi sanksiyaları tələb edən qərarların qarşısını almaq imkanına malik idi. [2]

Hindistan 1957-ci ildə Cammu-Kəşmiri ilhaq etdiyini beynəlxalq ictimaiyyətə açıq elan etdi. Hindistanla qarşıdurmada olan Çin 1962-ci ildə Aksai Çin bölgəsini ələ keçirdi və buranınTibet muxtar bölgəsinin davamı olduğunu iddia etdi. Bu şəkildə Kəşmirmünaqişəsinin bir tərəfi də Çin olmuşdur. 1963-cü ilin sonlarına doğru hindular vəpakistanlılar arasında baş verən şiddətli toqquşmalara Hindistan və Pakistan xalqları ciddi reaksiya verdi və hər iki ölkədə ictimai reaksiyalar baş verdi. Lakin Sovet İttifaqının təzyiqləri nəticəsində Pakistanın 1962 və 1963-cü illərdə BMT Təhlükəsizlik Şurasına müraciəti qətnamə qərarı ilə nəticələnmədi. Həmçinin daha əvvəl Hindistan Kəşmiri özünün bir parçası kimi elan edib və Kəşmirin özündən ayrıla bilməyəcəyini bəyan etmişdir. 1965-ci ilin avqust-sentyabr aylarında münaqişələr dayanmadı, Hindistan və Pakistan arasında yenidən müharibə başladı [7].

1965-ci ildə Pakistan Kəşmirin Hindistan hissəsi olan Kutç bölgəsinə daxil oldu. Bu səbəbdən də iki dövlətin tərəfdarları ikinci dəfə geniş şəkildə toqquşdular. BMT işə qarışdı və atəşkəs elan olundu və Kəşmir məsələsinin danışıqlar yolu ilə həllinə qərar verildi. Lakin Hindistan danışıqlar yolu ilə həll yoluna dair heç bir addım atmadı.

1971-ci ildə Kəşmirdə Hindistan və Pakistan arasında baş verən şiddətli münaqişələrdən sonra həll yoluna dair heç bir addım atılmadı və Hindistanınöx üstünlüyünün möhkəmləndirdiyi bir mühit yarandı. 1971-ci ildəki münaqişə

nəticəsində 1972-ci ildə Hindistan və Pakistan arasında Simla müqaviləsi imzalanıb. Bu razılaşma nəticəsində Kəşmirdə Sərhəd Nəzarət Xətti yaradıldı və bu xətt üçün atəşkəsin təmin edilməsi qərara alındı. 1998-ci ildən sonra Pakistan və Hindistan regional özüstünlüklərini nümayiş etdirmək üçün, nüvə silahı yarışına girdilər və silahlanma bu ölkələrin əsas məqsədlərinə çevrildi. Belə bir müharibəyə və silahlanmaya səbəb ola biləcək problemin həllində BMT səmərəsiz qaldı. BMT-nin Soyuq Müharibə dövründə Kəşmir bölgəsi üçün plebissit keçirmək qərarı Hindistan tərəfindən əngəllənmişdi. Həm BMT Baş Assambleyası, həm də Təhlükəsizlik Şurası Hindistanın Kəşmiri ilhaqına mane olmağa kifayət etmədi və Kəşmir problemi bu günə qədər mövcud olmağa davam edir. BMT orqanlarının lazımi addımları atmamasının əsasında müxtəlif səbəblər dayana bilər. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Hindistanı SSRİ ABŞ-a qarşı müdafiə etdi, Hindistana qarşı neqativ qərarların isə SSRİ tərəfindən qarşısı alındı. Bu baxımdan mühüm məqam ondan ibarətdir ki, ölkələr və bloklar həqiqəti dəyərləndirərkən onlara qarşı formalaşa biləcək beynəlxalq mühitdə mütləq həqiqəti deyil, öz həqiqətlərini nəzərəalmalıdırlar [8].

**Fələstin məsələsi-**mövcudluğu və bütün hüquqları inkar edilən, işğal edilmiş xalqın öz müqəddəratını təyin etmə mübarizəsinə deyilir. Həmçinin Fələstin müharibə, müstəmləkə, qırğın, məcburi köçkünlük kimi bəşəriyyətin şahid ola biləcəyi bir çox ağrılı hadisələrin baş verdiyi yerin adıdır.

Birinci Dünya Müharibəsinin ən mühüm nəticələrindən biri də müxtəlif dinlərdən, məzhəblərdən və etnik qruplardan olan insanların əsrlər boyu Osmanlı hakimiyyəti altında sülh və firavanlıq içində yaşadığı halda Fələstin və Qüdsün ingilislər tərəfindən işğalı olmuşdur. İsrail və Fələstinlilər arasında mübarizə dünyanın ən uzun sürən və ən zərərli münaqişələrindən biridir.

Mübahisənin mənşəyi Aralıq dənizi sahilləri ilə İordan çayı arasındakı ərazi iddiasından qaynaqlanır. Son 100 il Fələstində müstəmləkəçilik, sürgün, işğal və ondan sonra gələn öz müqəddəratını təyinetmə mübarizəsi ilə nəticələndi. İsrail yəhudiləri üçün bütün dünyada əsrlər boyu davam edən təqiblərdən sonra öz ata-baba torpaqlarına qayıtmaq sülh və təhlükəsizlik gətirmədi. I Dünya müharibəsindən sonrakı illərdə yaşanan qarşıdurmlar və müzakirələr nəticəsiz qalanda 1920-ci ildən Fələstinə rəhbərlik edən Britaniya 1947-ci ildə sionist-ərəb münaqişəsinin həlli üçün məsuliyyəti Birləşmiş Millətlər Təşkilatına təhvil verdi. Bu zaman bölgədə yəhudilər əhalinin 1/3 təşkil edirdi. Amma torpaqların 6% onların əlində idi. Nasistlərin zülmündən qaçan yüz minlərlə yəhudinin Avropaya gəlişi həll yolu axtarışlarını daha da aktuallaşdırdı. İkinci Dünya Müharibəsində 6 milyon yəhudi öldürülmüşdü. BMT-nin yaratdığı xüsusi komitə bölgənin Fələstin və ərəb dövlətləri arasında bölünməsini təklif edib. Ərəb Ali Komitəsi kimi tanınan Fələstin nümayəndələri bu təklifi rədd edib, yəhudi nümayəndələri isə bu təklifi qəbul etdilər. Bölünmə planı Fələstinin 56,47%-ni Yəhudi dövlətinə, 43,53%-ni isə Ərəb dövlətinə buraxıb. Qüds

isə beynəlxalq idarəçilik altında olacaqdı. 29 noyabr 1947-ci ildə plan BMT Baş Assambleyasında 33 ölkənin səsi ilə təsdiq edildi. 13 ölkə əleyhinə səs verib, 10 ölkə isə bitərəf qalıb. Fələstinlilərin rədd etdiyi plan heç vaxt həyata keçirilmədi [3].

İsraillə ərəb qonşuları arasında artan gərginlik 5 iyun 1967-ci ildə başlayan 6 günlük müharibəyə səbəb oldu. Bu altı gündə Yaxın Şərq münaqişəsinin mahiyyəti dəyişdi. İsrail Qəzzanı və Sinay yarımadasını Misirdən, Colan təpələrini isə Suriyadan aldı. O, həmçinin İordaniya qüvvələrini İordan çayının qərb sahilindən və Şərqi Qüdsdən qovdu. Misirin güclü hava qüvvələri müharibənin ilk günündə məhv edildi. İsrail təyyarələri Misir Hərbi Hava Qüvvələrini havaya qalxmadan məhv etdi. Ərazi qazanmaları İsrailin nəzarəti altında olan ərazini iki qat artırdı. Qələbə İsrail və onun tərəfdarları üçün yeni bir inam və nikbinlik havası yaratdı. BMT Təhlükəsizlik Şurası 242 saylı qətnamə qəbul etdi. Qətnamədə torpaqların müharibə yolu ilə alınması rədd edilmiş, İsraildən son döyüşlərdə ələ keçirdiyi yerlərdən geri çəkilmə tələb edilmişdir. BMT-nin məlumatına görə, bu müharibədə əlavəbeş yüz min fələstinli qaçqın düşmüşdür. Onlar Misir, Livan, İordaniya və Suriyaya köç etmişdirlər.

YomKippur və ya "Kəffarə günü" yəhudilərin ən mühüm dini bayramıdır. 1967-ci ildə müharibədə itirdikləri torpaqları diplomatik yollarla geri ala bilməyən Misir və Suriya 1973-cü ildə YomKippur bayramında İsrailə qarşı hücuma keçdi. Bu toqquşmalar Ramazan müharibəsi kimi də tanınır. Əvvəlcə Sinay və Qolan təpələrində irəliləyişlər əldə etdilər. Üç həftəlik döyüşdən sonra vəziyyət dəyişdi. İsrail, bəzi yerlərdə 1967-ci il atəşkəs xəttini keçdi. ABŞ, Sovet İttifaqı və BMT diplomatik müdaxilələr vasitəsilə atəşkəs razılaşmasının əldə olunmasını təmin etdilər. 1973-cü ilin oktyabrında BMT Təhlükəsizlik Şurası 338 saylı qətnamə qəbul etdi. Bu qətnamədə tərəflərdən döyüşləri dayandırmaq və tezliklə danışıqlara başlanması tələb edilirdi.

1970-ci illərdə Ərafatın rəhbərlik etdiyi Fələstin Azadlıq Təşkilatı və Əbu Nidal kimi Fələstin Azadlıq Təşkilatına üzv olmayan Fələstin tərəfli təşkilatlar İsrailə və digər hədəflərə qarşı bir sıra terror hadisələri təşkil etdilər. “Qara Sentyabr” kimi tanınan ƏbuNidal təşkilatı 1972-ci il Münhen Olimpiadasında 11 israilli idmançını öldürmüşdü [9].

Bütün Fələstini “azad etmək” üçün silaha sarılan FAT lideri Ərafat BMT-də ilk çıxışını edərək, sülh yolu ilə həllin tərəfdarı olduğunu açıqlayıb. O, sionist layihəsini pisləyib, lakin əlavə edib: "Bu gün mənim bir əlimdə zeytun budağı, digər əlimdə isə azadlıq müharibəsi aparan birinin silahı var. Zeytun budağını yerə atmayın".

BMT-nin rəhbərliyində atılan ən böyük addımlardan biri “iki dövlət” həllini qəbul etdirilməsi oldu. Sürgündə olan, hökumət funksiyasını yerinə yetirən Fələstin Milli Şurası 1988-ci ilin noyabrında Əlcəzairdə toplandı və Birləşmiş Millətlər Təşkilatının 1947-ci il qətnaməsində yer alan “iki dövlət” həllini qə-

bul etdi. Səsvermə ilə qəbul edilən qətnamədə terrorizm də pislənir; BMT Təhlükəsizlik Şurasının 242 saylı qətnaməsi əsasında danışıqlar aparılması tələbi ifadə edilirdi. 242 saylı qətnaməİsrailin 1967-ci ildə zəbt etdiyi torpaqlardan çıxarılmasını da nəzərdə tuturdu.

Sonraki illərdə də BMT çoxsaylı həll yolu təklifləri təqdim etmişdir. Xronoloji olaraq 5 noyabr 2009-cu ildə Qəzza müharibəsində İsrailin qeyri-mütənasib güc tətbiq etdiyinə görə müharibə cinayətləri törətməkdə günahlandırıldığı Qoldston hesabatı BMT Baş Assambleyasında qəbul edilib. 22 sentyabr 2010-cu ildə BMT İnsan Hüquqları Şurasının dərc etdiyi hesabatda İsrailin doqquz nəfərin ölümü ilə nəticələnən Mavi Mərmərə basqını "qanunsuz, qeyri-mütənasib və qəbuledilməz vəhşiliklər" olaraq qiymətləndirilir. Buna baxmayaraq 2011-ci ilin sentyabr ayında İsrailin bir həftə ərzində Qəzza zolağına endirdiyi hava zərbələri nəticəsində 18 fələstinli həlak olub.

23 sentyabr 2011-ci ildə Fələstin muxtariyyəti Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv dövlət statusu almaq üçün BMT-nin Baş katibi Pan GiMun-a müraciət edib. 30 Noyabr 2012-ci ildə BMT Fələstinə BMT-də qeyri-üzv müşahidəçi dövlət statusu vermək qərarına gəlib. BMT Baş Assambleyasında keçirilən səsvermədə BMT TŞ-nın beş daimi üzvü Fransa, Rusiya və Çin bu qərarı dəstəkləyib, Böyük Britaniya bitərəf qalıb, ABŞ isə əleyhinə səs verib. 23 dekabr 2016-cı ildə BMT TŞ İsraildən işğal olunmuş Fələstin ərazilərində bütün qeyri-qanuni məskunlaşma fəaliyyətlərini "dərhal və tamamilə" dayandırmağı tələb edən qətnamə layihəsini qəbul etdi. Təhlükəsizlik Şurasına üzv olan 15 ölkədən 14-ü qətnamə layihəsinə “bəli” səs verdiyi halda, veto hüququna malik olan, lakin bu hüququndan istifadə etməyən ABŞ “bitərəf” səs verib. İsrail isə BMT TŞ qətnaməsinə əməl etməyəcəyini bildirib. Son olaraq 2021 İsrail-Fələstin münaqişəsi (16 may 2021) Qəzzadakı Fələstin rəsmiləri bu qarşıdurmaların İsraillə mövcud münaqişənin başlamasından bəri ən ölümcül gün olduğunu qeyd edirlər [10].

BMT sülhməramlılarının etnik gərginliyin azaldılmasında və münaqişənin həlli prosesinə meylində danılmaz faydaları var. Bunlardan başlıcası münaqişə tərəflərinin ayrılması və fiziki zorakılığın qarşısının alınmasıdır. Tərəflərin qızğın qarşıdurma içində olduğu halda, bufer zona yaratmaq və bununla da ən azından fiziki zorakılığın qarşısını almaq üçün neytral qüvvələrin müdaxiləsi sülhə gedən yolda ilk addımdır. Çünki fiziki zorakılığın qarşısını almadan fikir ayrılığına səbəb olan məsələləri həll etmək və problemlərin kökündə yatan səbəblər üzərində konstruktiv addımlar atmaq mümkün deyil. Fiziki zorakılığın dayandırılması tərəflərin üzləşə biləcəyi itkilərin qarşısını almaqla yanaşı, onları münaqişədə yaranan emosional atmosferdən yayındırıb, daha sakit bir mühitdə yenidən problemə fokuslanmasına səbəb ola bilər. Əks halda, konfliktlər davam edərkən, tamahın əsiri olan, münaqişənin yaratdığı emosional mühitə qərq olmuş tərəflərin rasional hərəkət etməsi mümkün olmaya bilər. Bu gün

dünyanın müxtəlif yerlərində BMT sülhməramlı qüvvəsi var ki, onların da əksəriyyəti etnik münaqişələrdə xidmət edir.

Fiziki zorakılığın qarşısını almaqdan başqa, BMT sülhməramlıları sülh prosesi üçün tərəflər arasında danışıqlara başlaya və bu məqsədlə "təhlükəsiz ərazilər" yarada bilərlər. Bu bölgələrdə münaqişəli partiya liderləri və ya nümayəndələri bir araya gələrək problemlərini müzakirə edə bilərlər. Təbii ki, bu səylər heç də həmişə nəticə verməyə bilər. Lakin üçüncü tərəfin nəzarətində olan təhlükəsiz zonalar tərəflər arasında ünsiyyətə imkan yaradır və bununla da sülh prosesi başlaya bilər. Məsələn, Kiprdə BMT-nin nəzarətində olan "Ledra Palace" oteli illərdir bu məqsədlə istifadə olunur. Münaqişənin həlli üçün hələ ki, müsbət nəticə əldə olunmasa da, ən azı tərəflər lazım olanda bir araya gəlib problemin böyüməsinin qarşısını almaq üçün ciddi addımlar ata bildilər. Təbii ki, belə bir bölgənin olmaması bu ehtimalı aradan qaldırır.

Bu kontekstdə BMT-nin müsbət səylərindən bəziləri bunlardır:

• Ədalətli və müntəzəm yerli seçkilərə nəzarət etmək. Yerli hakimiyyət bunu edə bilmirsə, seçkiləri özləri təşkil edə bilərlər. Soyuq Müharibədən sonrakı dövrdə bir çox etnik münaqişə zonalarında olduğu kimi, (Nambiya, Mozambik, Anqola, Konqo və Şərqi Timur)

• Münaqişə tərəflərindən silahların toplanması və ya təhvil verilmiş silahların saxlanması və onların yenidən münaqişə zonalarına qayıtmasının qarşısının alınması. Yenə bu çərçivədə ölkə xaricindən münaqişə bölgələrinə silah axınının qarşısını almaq, silah və digər döyüş materiallarının ticarətinin qarşısını almaq.

• Humanitar yardımların ehtiyacı olanlara çatmasını təmin etmək və humanitar yardım qruplarına edilə biləcək hücumların və təxribatların qarşısını almaq. Tipik olaraq, Somali, Ruanda, Liberiya və Sudanda olduğu kimi.

• Yerli təhlükəsizliyi təmin etmək və mərkəzi orqan yaradılana qədər dövlət funksiyalarının bərpasına kömək etmək. (Bosniya və Herseqovina, Salvador, Liberiya, Konqo və Şərqi Timur)

• Sülh prosesinə töhfə verən beynəlxalq qeyri-hökumət təşkilatlarının (QHT) və vasitəçi qismində çıxış edən ayrı-ayrı şəxslərin və ya qrupların təhlükəsizliyini təmin etmək və onların işinə kömək etmək.

• Münaqişə nəticəsində dağılmış iqtisadi və sosial infrastrukturun bərpasına kömək etmək. Bundan əlavə, bu məqsədlə xaricdən göndərilən iqtisadi yardım paketlərinin təhlükəsiz şəkildə ünvanlarına çatmasını təmin etmək.

BMT-nin bu konteksdə çatışmayan cəhətlərinədə nəzər yetirək:

Soyuq Müharibədən sonrakı dövrdə BMT-nin sülhməramlı qüvvələrinin say və keyfiyyət baxımından genişlənməsi və funksiyalarının artması bu qüvvələrin sülh prosesində uğur qazanma şanslarını artırsa da, BMT sülhməramlılarının üzləşdiyi bəzi ciddi problemlər mövcuddur. Etnik münaqişənin həlli kontekstində. Onları aşağıdakı əsas başlıqlar altında ümumiləşdirmək olar:

- Hərbi və İxtisaslaşmış Kadr çatışmazlığı
- Maliyyə Problemi
- İxtisaslaşma Təlimi və Ünsiyyət Problemi
- Artan "Militarizm" Problemi
- Böyük beşliyin konsensus problemi
- Bəzi dövlətlərin uzlaşmaması səbəbilə həll oluna bilməyən problemlər [6].

**Nəticə.**

Yuxarıdakı hər iki münaqişənin qiymətləndirmə və müzakirələri fonunda qeyd etmək olar ki, BMT sülhməramlılarının etnik münaqişələrdə həm güclü, həm də zəif tərəfləri var. Ümumiləşdirsək, BMT sülhməramlıları, xüsusilə fiziki zorakılığın qarşısının alınması, münaqişə bölgələrinə humanitar yardımın təhlükəsiz çatdırılması, tərəflər arasında sülh prosesinin başlanması və onu təxribatdan qorumaqla bu prosesin inkişaf etdirilməsi sahələrində etnik sülhün bərqərar olmasına ciddi töhfələr verə bilir. Bununla belə, yuxarıda ətraflı qeyd edildiyi kimi, BMT sülhməramlılarının üzləşdiyi ciddi kadr çatışmazlığı və maliyyə problemləri, təlim və ünsiyyətdə müəyyən standartın olmaması, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında əməkdaşlıq zərurəti hər zaman mümkün olmaya bilər.Gücdən istifadə meylinin artması bu qüvvələrin etnik münaqişələrdə roluna mənfi təsir göstərir. Xüsusilə münaqişə tərəfləri arasında fiziki zorakılığın dayandırıldığı, sülh zehniyyətindən uzaq radikal qrupların problemdən uzaqlaşdırıldığı, humanitar yardımların münaqişə bölgələrinə təhlükəsiz şəkildə çatdırıldığı hallarda güc sülh prosesinə daxil edilməli ünsür ola bilər. Bununla belə, gücdən istifadə məsələsində son dərəcə diqqətli olmaq lazımdır və bu güc sülh quruculuğu prosesində yeganə vasitəyə çevrilməməlidir. İstifadə olunan qüvvə istər çoxmillətli, istərsə də milli xarakterli olsun, məqsədə uyğun olaraq ağlabatan səviyyədə saxlanılmalı və mümkün qədər qərəzsiz olmalıdır.

Bu kontekstdə ümumi mənada demək olar ki, BMT sülhməramlıları tərəf tutmağa meyli yüksək olan milli qüvvələrdən daha funksional və faydalı ola bilər. Bununla belə, BMT sülhməramlıları da yuxarıda təsvir edilən bəzi ciddi problemlərlə üzləşirlər və onların gələcək potensialı, görünür, bu problemlərin uğurla aradan qaldırılıb-çıxarılmamasından asılıdır. Digər tərəfdən, güc tətbiqi zamanı insan hüquqlarının pozulmasına yol verilməməsivurğulanmalıdır. Çünki bu cür pozuntular asanlıqla sosial travmaya çevrilə bilər, ziddiyyətli cəmiyyətlər və sağalması çətin olan açıq yaralar arasında aradan qaldırılması çətin olan psixoloji maneələr yarada bilər. Əslində işgəncələrə, insan hüquqlarının geniş şəkildə pozulmasına məruz qalan cəmiyyətlərin sülhü qəbul etməsi çox çətindir. Münaqişənin subyektiv dinamikasına qərq olmuş bu cəmiyyətlər, ümumiyyətlə, nəyin bahasına olursa olsun, münaqişəni davam etdirməyə meyllidirlər. Obyektiv nəticə əldə etməyəcək vəziyyətdə olsalar belə. Bundan əlavə, milli gücdən istifadəni tələb edən situasiyalarda hakimiyyət müxtəlif etnik

qrupları özündə birləşdirən şəkildə qurulmalı və o, yalnız dominant qruplardan ibarət olan və bu qrupların başqalarına qarşı istifadə etdiyi "çubuğa" çevrilməməlidir. Bu həssaslıqların göstərilmədiyi, nümayiş etdirilməsi istənilmədiyi və ya yetərincə göstərilmədiyi hallarda güc tətbiqi müsbət funksiyalarından başqa, asanlıqla icmalararası münaqişələri qızışdıra bilər. Nəticə etibarı ilə, etnik münaqişələrin qarşısının alınması və ya həlli üçün səylər çoxşaxəli əsasda, o cümlədən zəruri hallarda ağlabatan və qərəzsiz güc tətbiq edilməlidir.

Nəticə etibarı ilə belə görünür ki, BMT-nin sülhməramlı qüvvələrinin effektivliyi və onların etnik münaqişələrlə bağlı potensialı yuxarıda qeyd olunan problemlərin uğurla aradan qaldırılıb-çıxarılmamasından asılıdır. Amma unutmaq olmaz ki, BMT sülhməramlıları hazırda 191 ölkəni təmsil edən beynəlxalq arenada ən qanuni çoxmillətli qüvvədir və beynəlxalq anarxik mühitdə daha yaxşı alternativ hələ tapılmayıb. Odur ki, beynəlxalq ictimaiyyət olaraq sülh qüvvələrini zəif və ya uğursuzluğuna görə tez tənqid etmək əvəzinə, bu qüvvələrin daha təsirli olması və etnik münaqişələrdə daha fəal istifadə edilməsi yolları axtarılmalıdır.

***Ədəbiyyat***

1. *Abbas Karaağaçlı, "Pakistan-HindistanİlişkileriveKeşmirMeselesi", accessed 14 March 2017.*
2. *Ali Erhan Ertan, 'Çözümsüzlüğün Çözüm Haline Geldiği Topraklar: Keşmir Bölgesi', accessed 14 March 2017.*
3. *AviShlaim, Israel and Palestine, Verso 2009.*
4. *Boutros-Ghali, B. (1995) Agenda for Peace, New York: United Nations.*
5. *MusaratJaved Cheema, 'Pakistan – India Conflict with Special Reference to Kashmir'(2015) 30(1) A Research Journal of Asian Studies.*
6. *Oberschall, A. (2007) Conflict and PeaceBuildinginDividedSocieties: ResponsestoEthnicViolence, NewYork: Routledge*
7. *Osman MetinÖztürk, 'KeşmirSorunuveÇin', accessed 14 March 2017.*
8. *Taraknath Das, 'The Kashmir Issue and the United Nations'(1950) 65(2) Political Science Quarterly.*
9. *Overview of the Palestinian-Israeli Conflict.* *https://cmes.arizona.edu/sites/cmes.arizona.edu/files/Overview%20of%20the%20Palestinian-Israeli%20Conflict.pdf*
10. *Израильско-палестинский конфликт: с чего все началось и что происходит.* https://www.bbc.com/ukrainian/features-russian-57086153

# MİQRASİYA FENOMENİNİN KÖÇKÜNLƏRİN PSİXOLOGİYASINA MƏNFİ TƏSİRLƏRİ

**Ü.R.Əlili**
**Azərbaycan Turizm və Menecment Universiteti**
*ulviyyealili98@gmail.com*

***Xülasə***

*İnsanların şəhərlər, bölgələr, ölkələr arasında fərdi və ya kütləvi hərəkəti hələ tarixdən bu günə qədər davam edir. Qloballaşma ilə birlikdə iqtisadi nizam beynəl-xalq səviyyədə qazanılan üstünlük, rabitə və nəqliyyat texnologiyaları sahəsində təcrübələr, irəliləyişlər, insanların ölkələr arasında hərəkətinə və miqrasiya adlanan uzunmüddətli prosesə də təsir etdi. Ölçüsü sayəsində fərqli mədəniyyətlərdən daha çox insan bir araya gəlir, işləyir və yaşayır. Beynəlxalq miqrasiya çox fərqli mədəniyyətlərdən olan insanların hərəkəti ilə qarşılıqlı əlaqədə yaranan mədəni uyğunlaşma problemlərini özü ilə gətirir. Beynəlxalq miqrasiya ilə dil, din, ənənə, mədəniyyət və s. bir çox cəhətdən tamamilə fərqli mənşəyə malik olan insanlar müxtəlif ünsiyyət və uyğunlaşma problemləri gətirən eyni mühitdə yaşamalıdırlar; bu, zamanla həllini çətinləşdirən problemlər yaradır. Məqalədə miqrantların miqrasiya etdikləri mühitdə qarşılaşdığı psixoloji problemlər nəzərdən keçiriləcək.*

## ОТРИЦАТЕЛЬНОЕ ВЛИЯНИЕ МИГРАЦИОННЫХ ЯВЛЕНИЙ НА ПСИХОЛОГИЮ МИГРАЦИИ

***Резюме***

*Индивидуальное или массовое перемещение людей между городами, регионами и странами продолжается из истории до наших дней. Наряду с глобализацией экономический порядок также повлиял на господство, получен-ное на международном уровне, опыт и прогресс в области коммуникационных и транспортных технологий, перемещение людей между странами и долго-срочный процесс, называемый миграцией. Благодаря его размеру больше людей из разных культур собираются вместе, работают и живут. Международная миграция несет с собой проблемы культурной адаптации, возникающие в результате взаимодействия людей из самых разных культур. Язык, религия, традиции, культура и т. Д. С международной миграцией. люди с совершенно разным происхождением во многих отношениях должны жить в одной среде, что порождает разные проблемы в общении и адаптации; это создает проблемы, которые сложно решить с течением времени. В статье будут рассмотрены психологические проблемы, с которыми сталкиваются мигранты в среде, в которой они мигрируют.*

**NEGATIVE EFFECTS OF MIGRATION PHENOMENA ON THE PSYCHOLOGY OF MIGRATION**

***Summary***

*Individual or mass movement of people between cities, regions and countries continues from history to the present day. Along with globalization, the economic order has also affected the dominance gained at the international level, the experience and progress in the field of communication and transport technologies, the movement of people between countries and the long-term process called migration. Thanks to its size, more people from different cultures come together, work and live. International migration brings with it the problems of cultural adaptation that arise from the interaction of people from very different cultures. Language, religion, tradition, culture, etc. with international migration people with completely different origins in many ways must live in the same environment, which brings different communication and adaptation problems; this creates problems that are difficult to solve over time. The article will discuss the psychological problems faced by migrants in the environment in which they migrate.*

***Açar sözlər:*** *qorxu, məcburiyyət, şübhə, boşluq, günahkarlıq*
***Ключевые слова:*** *страх, принуждение, сомнение, пустота, вина*
***Key words:*** *Fear, compulsion, doubt, emptiness, guilt*

Miqrant olmaq özlüyündə qəriblik, tənhalıq və melonxolik duyğulara səbəb olur. İnsanların doğulub böyüdükləri yerlərdən getməsi qalanlarını həmişə içlərində, hətta gələcək nəsillərə də daşıyacağı qürbət hissini meydana gətirir. Özünü aid hiss etdiyi vətənindən ayrılmağın verdiyi kədər, yurd həsrəti miqrant üçün həmişə özünü yad və əskik hiss etməsinə səbəb olur. Bu sosial və psixoloji vəziyyət onda öz mədəniyyətinə daha çox meyil etməyə və öz içinə qapanmasına səbəb ola bilər. Mühacirlər, mühacirət ölkəsinin dili, din, ənənələr bir sözlə, maddi və mənəvi dəyərlər, öz mədəniyyətlərinə bənzəmirsə, mühafizəkar davranaraq köhnə mədəni dəyərlərini qorumaq üçün xüsusilə onların uşaqları üçün qoruyucu refleks göstərirlər. [1] Gənc nəsillərin öz mədəni mühitlərindən kənarda korlanmaması üçün ailələr öz övladlarına daha çox təzyiq göstərir və nəzarət altında saxlayırlar. Uşaqları, ana dillərini unutmamaq üçün öz dillərində dərs deyən məktəblərə göndərirlər və bu da gələcəkdə onların cəmiyyətə inteqrasiya olunmasında problemlərin yaranmasına səbəb olur.

Məkan dəyişikliyi səbəbindən meydana gələn miqrasiya, fərdin psixoloji vəziyyətinə də təsir edən bir fenomendir. Bu fenomen fərdin gərginlik, stres və psixoloji travma yaşamasına səbəb olur. [2] Məcburi köçün fərd üzərində təsiri könüllü miqrasiyadan əsaslı şəkildə fərqlənir və daha çox travmatik təsir göstərir.

Digər tərəfdən; sosial və mədəni dəyişikliklər, şəhərləşmə, modernləşmə, mədəniyyət, assimilysiya, adaptasiya və həyat stresi, miqrasiya təcrübəsi kimi faktorlar üzərində araşdırmalar insanın psixoloji quruluşu / zehni pozğunluqları

arasında əhəmiyyətli bir əlaqənin varlığını ortaya qoyur. Yəni, bir insanın köç edərkən geridə qoyduğu həyat, həm də psixoloji həyatıdır.

Xüsusilə, sənədsiz mühacirlərin və sığınacaq axtaranların, qanuni qaçqınların sahib olduğu bəzi hüquqlardan istifadə etmək haqları yoxdur. Bu səbəbdən də, çox vaxt psixoloji istismara məruz qalırlar.

Yuxarıda göstərilən mövzuda edilən elmi araşdırmaları və müşahidələri nəzərə alaraq, miqrasiya fenomeninin, köçkünlərin psixoloji quruluşuna bəzi mənfi təsirləri vardır. Həmin mənfi təsirlər bunlardır: [3]

*Qorxu və narahatlıq*: Xüsusilə, məcburiyyətdən yaranan miqrasiya zamanı ən əhəmiyyətli mənfi təsir miqrantların yaşadığı qorxu hissidir. Özü və ailəsinə nə olacağından qorxmaq, bu vəziyyəti yaşayan insanların ruh dünyasında böyük problemlər, zədələnməsinə səbəb ola bilər. Getdikləri yerdə nə olacağı ilə bağlı narahatlıqlar olduqca yüksəkdir və bu bir çox ruhi və ya fiziki xəstəliklərə səbəb olur. Psixoloqlar və sosioloqlar bu təsirləri araşdırmaq üçün uzun müddət çalışmışlar.

*Adaptasiya problemi:* Miqrasiyanın insan psixologiyasına digər mənfi təsiri uyğunlaşma problemidir. Müəyyən fiziki və psixoloji hazırlıq görmədən köç edənlər insanlar əhəmiyyətli adaptasiya problemləri yaşayır. Çünki mühacirin vətəni və yeni evi ilə mədəni fərqlər fərdin uyğunlaşma problemi yaşamasına səbəb olur. Yeni mühit varsa, mühacirin köhnə mədəniyyətinə bənzəsə daha az, bənzəməsə daha çox bu problemlə əlaqədar əhəmiyyətli bir yan problem, müəyyən bir müddətdən sonra vətənlərinə qayıdacaqları ilə bağlı tərəddüdlər və qətiyyətsizlik hissləri qarşı-qarşıya qalırlar.

*Mənsubiyyət problemi.* Mühacirlərin yaşadığı başqa bir psixoloji problem mənsubiyyət problemidir. Çünki mühacirlər harasa aid olmamaq hissini yaşayırlar. İndi mənsub olduqları cəmiyyətdən və verdiyi etibardan məhrumdurlar. Bəzən köhnə cəmiyyəti yeni cəmiyyətə uyğunlaşmaq üçün dəyərləndirirlər. Hətta öz qərarlarını təhqir etməyə də cəhd edə bilərlər. Bu vəziyyət mühacirin daxili dünyasında və ailə həyatında duyğuların psixoloji qarşıdurmalarına səbəb olur. Bu vəziyyətdə olan insanlar zamanla öz aralarında görüşmək üçün azlıq qrupu yaratmağa çalışırlar və ya belə qruplara daxil ola bilərlər.

*Yadlaşma hissi.* Mühacirlərin psixoloji dünyasına mənfi təsir göstərən başqa bir amil də yadlaşma hissidir. Əslində bütün mühacirlər köç etdikləri şəhərdə, ölkədə əcnəbilərdir. Bu vəziyyət isə bir müddət sonra miqrantlarda aid, aidlik probleminə səbəb ola bilər.

*Boşluq hissi.* Boşluq hissi də mühacirlərin əhəmiyyətli bir psixoloji problemidir. Çünki mühacirlər zaman-zaman şüurlu və ya şüursuz olaraq geridə qalan şeylərin və insanların yoxluğunu hiss edə bilərlər. Həm də boşluq hissi ilə əlaqədar yaşanan həsrət hissini də burada qeyd etmək olar. Çünki mühacirlər şüursuz vəziyyətdə olaraq, insanlar, təbiət, gəldikləri yerdə olmayan və geridə qoyduqları hər şey üçün darıxırlar.

*Şəxsiyyət-kimlik problemi.* Köhnə və yeni ölkədəki mühacirin şəxsiyyəti olduğu ölkədəki şəxsiyyət quruluşu ilə ziddiyyət təşkil edə bilər. Özündə iki fərqli mədəniyyətin, köçkünün qarşıdurması tədricən yeni cəmiyyətin bir hissəsinə çevrildikcə daha da dərinləşə bilər. Bu, ilk növbədə dominant mədəniyyət ilə öz mədəniyyəti arasında ağrılı bir prosesə səbəb ola bilər. Başqa sözlə, əgər insan əvvəlki yerin mədəniyyətindən asılıdırsa, bu, yerli xalqın mədəniyyəti ilə ziddiyyət təşkil edir. Əgər dominant mədəniyətə riayət edərsə, köhnə mədəniyyət kodları ilə ziddiyyət təşkil edər. Hər halda, bu vəziyyət fərdin daxili dünyasında gərginlik yaradır. Buna, mühacirlərin yaşaya biləcəyi şəxsiyyət problemini misal olaraq göstərmək olar.

*Alçalma hissi.* Mühacir fərdlər bütün həyatlarını yeni yaşadığı yerlərində keçirirlər və bu zaman artıq onların köhnə dəyərlərinin məna daşımadığını və eyni dəyərlə sayılmadığını anlayır. Buna görə də özlərini qeyri-kafi və ya bacarıqsız görməyə başlaya bilərlər. Dil çatışmazlığı bu hissi daha da pisləşdirir və gücləndirir. Əlbəttə, demək olar ki, bütün insanlarda alçalma hissi var, hətta ola bilsin ki, həyatlarında bəzən hiss ediblər. Ancaq burada əsas fərq fərdin mühacir olmasıdır və bu hisslərin uzun müddət hiss edilməsi və həllinin daha çətin olmasıdır. Demək olar ki, hamı bəlkə də bu duyğunu həyatında çox qısa bir müddətdə hiss etdi, amma mühacirlər yaşadığı ölkədə tez-tez bu hissi yaşaya bilir.

*Şübhə.* Şübhə mühacirin yeni bir ölkədə və tez-tez bilinməyənlərlə üzüzə qaldığı zaman yaşadığı psixoloji problemdir. Xüsusilə, bu hiss bir davranış formasına çevrilirsə, qəbul etməyə başlayanda təhlükəli olur. Çünki tədricən nevroz və psixoz vəziyyətlərinə gətirib çıxarır.

*Günah hissi.* Miqrasiya, geridə qalanlara və dəyərlərinə qarşı insanların günah hiss etməsinə səbəb ola bilər. Çünki haradan gəldiyini bilir və olduğu yerdə də xoşbəxt deyil. Onu mövcud edən şeylər; ailə, əxlaq və dürüstlük kimi dəyərlər də köhnəlmiş və ya hətta yoxa çıxmışdır.

*Güvənsizlik hissi.* İnamsızlıq və yadlara inanmamaq ilk növbədə öz dünyalarında yaşadıqları emosional bir prosesdir və bu, demək olar ki, hər yerdə və şəraitdə ehtiyatlı davranmaq onları buna məcbur hiss etdirir. Mühacirin etibarsızlığı, "bilinməyən"lərlə qarşılaşmaq narahatlığından meydana gəlir.

Bu, onun hətta uyğun imkanlardan da səmərəli istifadə etməsinə mane ola bilər. Burada mühacir yeniliklərin nə olduğunu bilmir və etimadsızlıqdan əziyyət çəkir.

*Stres və depressiya.* Yeni mədəniyyətə uyğunlaşa bilməyən mühacirlərdə narahatlıq və stress, yüksək səviyyədə depressiya müşahidə olunur. Məsələn, 125 immiqrantın iştirak etdiyi əməkçi miqrantlarla aparılan bir araşdırmada hüquqi problemlər, sosial təcrid və iş şəraiti ilə əlaqədar əhəmiyyətli stress 18.4%-də narahatlıq və 41.6%-də depressiya yaşadıqları müşahidə edilib.

**Nəticə.** Köçün psixoloji quruluşu, həm mühacirlərə, həm də mühacirlərə ev sahibliyi edən yerli insanlara mənfi təsir edir. Bu mənfi təsirləri tamamilə olmasa da, aradan qaldırmaq üçün bəzi həllər mümkündür. Şəxsi bələdçilik və psixoloji məsləhət xidməti, sığınacaq statusunun qəbulu, məlumatlandırma, empatiya hissi, sosial və siyasi dəstək xidmətləri göstərmək, qorxu və narahatlıq hisslərinin aradan qaldırılması, sosial birgəyaşayış sahələrinin yaradılması, dialoqun gücləndirilməsi və s. Bunlara əlavə olaraq, gediləcək ölkə barədə məlumatlara sahib olmaq həm ölkəyə gələn mühacirlərə, həm də ruh dünyalarına kömək edir. Hər hansı bir səbəbdən bir yerə köçmək, həm də buna uyğun olaraq davranışı anlamaq və təyin etmək bu zaman yaşana biləcək mümkün psixoloji problemlər haqqında əvvəlcədən məlumat bu problemlərin daha sürətli həllinə kömək edə biləcək. Yəni əgər miqrasiya məcburi səbəbdən baş vermirsə, immiqrasiya kimi bir qərar verilsə, gediləcək ölkədə qarşılaşa biləcək siyasi, sosial və iqtisadi problemlərə əlavə olaraq, həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir yarada biləcək psixoloji problemlərə də əvvəlcədən hazır olmaq lazımdır.

***Ədəbiyyat***

1. *An analysis on Some Psychological Problems and Solution Proposals for İmmigrant Comparisons and Reasons. Journal of İnternational Rcientific Researches. C.Aydın. 2017.*
2. *Migration Policy İnstitute.*
3. *Uluslararası göç ve kültürlerarası iletişim. The Journal of International Social Research Z.Aksoy. 2012.*
4. *Uluslararası göç ve uyum sorunu. İ.Tunc. 2013.*

# BEYNƏLXALQ TƏŞKİLATLARIN QAÇQIN VƏ MİQRANT UŞAQLARIN PROBLEMLƏRİNİN HƏLL EDİLMƏSİ ÜZRƏ FƏALİYYƏTİ

**M.Ə.Ağammədov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*agamedov94@mail.ru*

***Xülasə***

*Məqalədə dünyada vətəndaş müharibəsi baş verən ölkələrdə uşaqların vəziyyəti öyrənilmiş, bir sıra dünya təşkilatlarının miqrant və qaçqın uşaqların vəziyyətinin yaxşılaşdırıması sahəsində fəaliyyəti araşdırılmışdır.*

## ПРОБЛЕМЫ БЕЖЕНЦЕВ И ДЕТЕЙ-МИГРАНТОВ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ РЕШЕНИЕ ДЕЯТЕЛЬНОСТЬ

***Резюме***

*В статье исследуется положение детей в странах мировой гражданской войны, деятельность ряда мировых организаций по улучшению положения детей-мигрантов и беженцев.*

## PROBLEMS OF REFUGEE AND MIGRANT CHILDREN OF INTERNATIONAL ORGANIZATIONS SOLUTION ACTIVITY

***Summary***

*The article examines the situation of children in the countries of the world civil war, the activities of a number of world organizations in improving the situation of migrant and refugee children.*

***Açar sözlər:*** *miqrantlar, uşaqlar, problemlər, qaçqınlar, hüquq, yardım*
***Ключевые слова:*** *мигранты, дети, проблемы, беженцы, закон, помощь*
***Key words:*** *migrants, children, problems, refugees, law, help*

Müharibə. Təbii ki, insan oğlunun qarşılaşa biləcəyi ən qorxulu hadisələrdən biri. Təbii ki, çoxumuz bir çox dəhşətli hadisəni misal göstərə bilərik, məsələn, hər hansısa təbiət hadisəsini. Amma məsələyə diqqətlə nəzər yetirsək, buradakı əsas fərqi görə bilərik. Təbiət. Bu hədisəni şüurlu insan deyil, təbiət törədib. Amma müharibəni isə, insan oğlu törədir. Özü öz növünə qarşı və bunu hər hansısa heyvan etdikdə, bizlər buna sadəcə şüursuzluq deyərək keçə bilərik. Amma bunu insan edir. Ən şüurlu və ali varlıq. Təbii ki, heç bir müharibə itkisiz ötüşmür. Nə məğlub olan, nə də qalib tərəf üçün. Amma əgər soruşulsa ki, bütün tarix boyu baş verən müharibələrdə, törədilən qırğınlarda ən çox əziyyət çəkən kimlərdir? Sualına cavab vermək, məncə çətin olmaz. Uşaqlar. Özünü qorumaq iqtidarında olmayan uşaqlar. Əgər yetkin bir insanın hər hanısa bir

şəkildə özünü müdafiə etmək üçün bir sanşı olursa da, onlar bundan məhrumdurlar.

Əgər müasir dövrümüzə nəzər yetirsək, bu gün də, insan oğlunun inkişafının zirvəsində olduğu zamanda savaşın davam etdiyi ölkələr və bu ölkələrdə yaşayan milyonlarla günahsız uşaq mövcuddur. Dövrümüzün ən böyük problemli bölgələrindən biri olan Suriyaya baxsaq, 6.1 milyon uşaq və yeniyetmənin yardıma ehtiyacı olduğunu görərik və bu ehtiyac, təkcə müharibədən qaçmaq, sülhün bərqərar olduğu yerlərə getmək olardı kaş. [7]. Lakin bununla yanaşı aclıq, psixloji sarsıntı, sağlamlıq, əlillik və s. kimi problemlər də mövcuddur. Bu barədə UNİCEF-in Yaxın Şərq və Şimali Afrika üzrə regional direktoru Ted Çayban müharibənin 10 illiyinə həsr edilən mətbuat konfransında danışıb. “2011-ci ilədək Suriya əhalisi orta gəlirli olub və demək olar ki, humanitar yardıma ehtiyacı olmayıb. Lakin heç kəs ehtimal belə verməzdi ki, müharibə bu qədər uzanacaq və bu qədər uzun davam edən müharibənin nəticələrindən ən çox uşaqlar əziyyət çəkib”, – deyə o bildirib.

Belə bir deyim var: “Müharibədə uşaq yoxdur”. Bu, doğrudur. Çünki əslində bu iki anlayış tamamilə bir-birinə yad olmalıdır. Elə ona görə də müharibə başlayanda, bizim uşaq dediklərimizin çoxu üçün artıq uşaqlıq bitir. Onlar tez böyüməyə məcbur olurlar. Bizim dövrümüzdə uşaq hüquqları və beynəlxalq konvensiyaların qəbulu ilə bağlı söhbətlər fonunda uşaqlıq demək olar ki, toxunulmazlıq statusundan məhrumdur. Uşaqlar getdikcə hərbi qarşıdurmalara cəlb olunur, qurban olur və ya ağır cinayətlərin ortağı olurlar. Hər bir insan həyatının ona ikinci doğum, bütün gələcək taleyində dönüş nöqtəsi kimi görünən bir anını yaddaşında saxlayır. Bu elə bir xatirədir ki, müharibə ondan sağ çıxan hər kəsin ruhunda yaşayır [6].

Hətta əgər son məlumatlara əsaslansaq, deyə bilərik ki, Suriyada beş yaşadək olan uşaqların yarım milyonundan çoxu aclığın səbəb olduğu xroniki xəstəliklərdən əziyyət çəkir.

Müharibə və məcburi qaçış hətta böyüklərin ruhuna güclü zərbədir, psixikası hələ formalaşmaqda olan uşaqlar üçün isə daha da böyük dəhşətdir. Bonus olaraq bu uşaqlar hələ böyüdüklərində bütün ömürlərinə təsir edəcək xatirələr, fobiyalar qazanacaqlar. Bəziləri qorxularının öhdəsindən təkbaşına gələcək, bəzilərinə psixoloqlar kömək edəcək, bəziləri isə heç nə etməyəcək və elan olunmamış vətəndaş müharibəsinin daha bir dolayı qurbanına çevriləcək. Kimsə yad bir ölkədə böyüklərin dinc, itirilmiş torpaq haqqında hekayələrini dinləyib böyüyəcək. Silahların gurultusuna, atışların çırpılmasına və xəbərdarlıq sisteminin ulamasına qədər kimsə böyüməli olacaq. Lakin onların hər biri böyüyəcək və bir gün oğurlanmış uşaqlıqlarını maraqla soruşmaq istəyəcəklər.

Qaçqın və köçkün uşaqları (bəziləri ailələri ilə, bəziləri isə tək səyahət edir) daha yaxşı bir həyat axtarışında hər şeyi, hətta həyatını da riskə atırlar. Milyonlarla ailə Suriya, Əfqanıstan, İraq, Somali və Sudan kimi ölkələrdə

münaqişə, təqib və yoxsulluqdan xilas olmaq üçün evlərini tərk edir. Uşaqların və gənclərin köç üçün heç bir seçim, gələcəyi, təhlükəsiz və qanuni alternativləri olmadığını hiss etdikləri yerlərdə, talelərini öz əllərinə almaq üçün evlərini tərk edirlər və tez-tez qaçaqmalçılar və alverçilər tərəfindən istismar olunmaq təhlükəsi ilə üzləşirlər.

Əslində uşaqların öz evlərini tərk etmək məcburiyyətində qalmasının bir çox səbəbi var və onları Avropaya çağıracaq daha az amil var. Buna baxmayaraq, Avropaya gəlməyi qarşısına məqsəd qoyan uşaqları təhsillərini davam etdirmək, hüquqlarına hörmət etmək və həyatda nəyəsə nail olmaq imkanı cəlb edir. Uşaqlar özlərini Avropada tapdıqda, gözləntiləri təəssüflə həqiqi gerçəkliyə çökür.

Tranzit zamanı və gəlişində bütün köçkün uşaqlar zorakılığa və digər şiddətli rəftarlarla qarşılaşa bilərlər. Şimali Afrikadan İtaliyaya gedən təhlükəli Orta Aralıq dənizi yolunda hər gün ən az bir uşağın öldüyü təxmin edilir. Son bir ildə bu yolu keçən 100 minə yaxın qaçqın və miqrantdan təxminən 15 faizi uşaqlardır.

Onların böyük əksəriyyəti Qərbi Afrika və Afrika Buynuzundakı çoxsaylı ölkələrdən tək yola çıxan 16-17 yaşlı gənc oğlanlardır. Bir çoxları üçün Avropa arzuolunan bir yer deyil: əksəriyyəti əvvəlcə qonşu ölkələrə üz tuturdu, ancaq yol boyu qurban olduqları pis rəftar səbəbiylə Avropaya getməyə məcbur olurlar.

Qambiyadan olan bir yeniyetmə İtaliyada bir müsahibədə deyirdi: “Təhlükəli olduğunu bilirdik, təhlükəli olduğunu bilirdim, amma arxada aslan, qabağında dəniz olanda dənizi seçirsən”.

Yaxın Şərqdən Yunanıstana Şərqi Aralıq dənizindən keçən uşaqlar, ümumiyyətlə ailələri ilə birlikdə gəlir və aralarında oğlanlar qədər qızlar da var. Ən çox üç ölkədən gəlirlər: Suriya (54 faiz), İraq (27 faiz) və Əfqanıstan (13 faiz). Bir çox insan Suriyada davam edən şiddətli münaqişədən qaçıb və Türkiyə hazırda dünyanın ən böyük qaçqın qrupu olan üç milyondan çox suriyalıya ev sahibliyi edir. Demək olar ki, yarısı uşaqlardır. Türkiyədəki əksər suriyalı qaçqınlar, tez -tez yoxsulluqdan əziyyət çəkən ev sahibi cəmiyyətlərdə yaşayır və yüz minlərlə suriyalı qaçqın uşağı məktəbdən çıxır. Suriyanın Hələb şəhərindən qaçmaq məcburiyyətində qalan 12 yaşlı Rəvan deyir: "İndi biz qaçqınıq. İnsanlar bizi sevmir. Heç kimə güvənmək olmaz, hamı yalan danışır. Mən uşaq idim. İndi böyüməli oldum. Daha əvvəl bilmədiklərimi bilirəm" [4].

Balkanlardakı sərhədlərin bağlanması, AB və Türkiyənin Qərbi Avropaya kütləvi miqrant axınını dayandırmaq üçün hazırladığı birgə bəyanatın dərc edilməsi, daha çox insanın indi daha böyük risklər almağa hazır olması ilə nəticələndi. Bu günə qədər 72 mindən çox qaçqın və miqrant (22,500-dən çox uşaq da daxil olmaqla) Yunanıstanda, Kiprdə və Balkanlarda "ilişib qaldılar", səyahətlərinə davam edə bilmirlər, öz ölkələrinə qayıtmaq istəmirlər və yerli icmalara inteqrasiya etməkdə çətinlik çəkirlər. Uşaqlarda yolda və gəlişdə çəkdikləri əziyyətlər nəticəsində getdikcə daha çox dərin psixoloji travma əlamətləri müşahidə olunur. UNICEF, tərəfdaşları ilə birlikdə qaçqın və miqrant uşaqlara

(valideynləri və ya baxıcıları ilə birlikdə və ya təkbaşına gedən) qayğı göstərmək və onları qorumaq üçün təlimatlar verən bir yol xəritəsi hazırladı. "Yol Xəritəsi"ndə uşaqların şəxsiyyətini müəyyənləşdirməyin, onları prosedurlardan, uşağa dost olan prosedurlardan istifadə etməklə qeydiyyatdan keçirməyin, uşaqlarla mümkün qədər erkən mərhələdə dost münasibətlərinin qurulmasının vacibliyi vurğulanır. Dərhal bir uşağın təlim keçmiş bir qəyyuma verilməsi, mədəniyyətlərarası vasitəçilərin cəlb edilməsi və ev sahibi cəmiyyətin iştirakı, uşaqların qaçaqmalçılardan, alverçilərdən qorunmasını təmin edən və ailənin üzərinə düşən böyük yükü yüngülləşdirən kritik tədbirlərdir [3]. Eyni zamanda UNİCEF Milli səviyyədə, təhlükəsizlik, qorunma, sağlamlıq, qidalanma və təhsil də daxil olmaqla uşaqların əsas ehtiyaclarını ödəmək üçün tərəfdaşlarla işləməyə davam edir. Qaçqın və miqrant qruplarının yaşadığı digər ölkələr belə qruplardan olan uşaqların psixososial yardım və təhsil xidmətləri almasına kömək edir, eyni zamanda müdafiəsiz qalan bütün uşaqların rifahı üçün milli uşaq hüquqlarının müdafiəsi sistemlərini gücləndirilir. Türkiyədə qaçqın və köçkün uşaqların ümumi təhsil məktəblərinə inteqrasiyasına üstünlük verilir və 2016-cı ildə - böhranın başlanmasından bu yana ilk dəfə - Türkiyədə məktəblərə gedən suriyalı uşaqların sayı məktəbdənkənar uşaqların sayını keçdi. Bu səyin davamı olaraq, Türkiyədəki 230.000-dən çox suriyalı və digər qaçqın uşaq üçün məktəbə qəbul və məktəbə davamiyyətlə bağlı nağd pul köçürülməsinə başlanıldı. Bütün dövrlərdə çətinliklərdən qaçmaq və ya daha yaxşı fürsətlər tapmaq üçün səyahətə çıxan insanlar olub. Bu gün tranzitdə olanların sayı indiyədək qeydə alınan ən yüksək həddə çatıb; onlar iqlim dəyişikliyindən, yoxsulluqdan və münaqişədən xilas olmağa çalışırlar və rəqəmsal texnologiya onlara hər zamankından daha çox kömək edir. Uşaqlar dünya əhalisinin üçdə birini – dünya qaçqınlarının demək olar ki, yarısını təşkil edir: təxminən 50 milyon uşaq köç edib və ya sərhədlər xaricində köçkün vəziyyətinə düşüb [1]. Avropada qaçqın və miqrant uşaqları qorumaqla yanaşı, UNICEF qaçqın və miqrantların dünya miqyasında hərəkətini şərtləndirən yoxsulluq, təhsil çatışmazlığı, münaqişə və etibarsızlıq yükünü azaltmağa kömək etmək üçün qaçqınların əsas gəldiyi mənşə ölkələrində işləyir. Mərakeşdən Əfqanıstana, Nigeriyadan İraqa qədər hər bir ölkədə biz bütün uşaqların təhlükəsizliyini, sağlamlığını, təhsilini və hüquqlarının müdafiəsini təmin etməyə çalışırıq.

Ölkələr böhrana düşdükcə bu işlər sürətlənir və genişlənir. Məsələn, Suriyada UNICEF, münaqişənin başlanmasından bəri ölkənin uşaqlarına təsirini azaltmaq üçün əlindən gələni edir.

Təşkilat suriyalı ailələr üçün lazımi şərait yaratmaqda və suriyalı uşaqların "itirilmiş nəsil" olmasının qarşısını almaqda qərarlıdır. Sağlamlıq, qidalanma, immunizasiya, su və sanitariya ilə yanaşı, təhsil və uşaqların qorunması kimi hər iki vacib sektoru dəstəkləyir, suriyalı qaçqın ailələrinə və ev sahibi icmalara dəstək vermək üçün qonşu ölkələrdə də çalışır..

Avropa Şurası baş katibinin Miqrasiya və qaçqınlarla iş üzrə xüsusi nümayəndəsi Janeta Hanganunun sözlərinə görə, dünyada 30 milyon insan müxtəlif səbəblərdən yaşadıqları ərazini tərk etmək məcburiyyətində qalıblar. Onların 10,3 milyon nəfəri uşaqdır. Elə məhz uşaq olduqları, əqli və fiziki cəhətdən özlərini qorumaq imkanları olmadığına görə onların insan alverinin qurbanına çevrilmə riski çox böyükdür. Ona görə də miqrant və qaçqın uşaqlar üzrə Avropa Şurasının Fəaliyyət Planı 2017-ci il 19 may tarixində Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilib, 17 qurum tərəfindən reallaşdırılır. Fəaliyyət Planı baş katibin Miqrantlar və Qaçqınlarla İş Üzrə Xüsusi Nümayəndəsi tərəfindən koordinasiya edilir [2].

AŞ baş katibinin xüsusi nümayəndəsi Azərbaycanın artıq miqrant ailələrində anadan olan uşaqlara şəhadətnamə verdiyini diqqətə çatdırıb. Qeyd edim ki, Avropa Şurasının miqrant uşaqlarla bağlı xüsusi yerləri yoxdur. Buna görə də Balkan ölkələrində donorların köməyi ilə belə yerlər tikilməyə başlanıb. Lakin uşaqlar ailələrindən kənarda qalmaq istəmirlər. Bu da onların qurbana çevrilmək ehtimalını yüksəldir. Əgər uşaqlar uyğun olmayan şəraitdə yaşayırlarsa, bu həmin uşaqların insan alveri, cinsi təcavüzlə qarşılaşa bilməsi ehtimalını artırır.

J.Hanganu qeyd edib ki, uşaqların risklərdən qorunması üçün müdafiə mexanizmləri ilə əlaqədar təkliflər verilir. Miqrant uşaqların bir hissəsi valideyni olmadığından ölkələrinə geri göndərilə bilməz. Valideyni olan uşaqların da bir hissəsi müəyyən səbəblərdən aid olduqları ölkəyə qayıtmaya bilərlər. Ona görə də müdafiə mexanizmləri vacibdir. Məsələn, gəldiyi ölkədə dördüncu sinifdə oxuyan uşağa gəldiyi ölkədə təhsilini davam etdirməyə imkan yaradıla bilər və ya öz ölksəində birinci kursda oxuyan tələbəyə miqrant olduğu ölkədə ikinci, üçüncü və ya sonuncu kursda təhsil almaq üçün şərait yaradıla bilər. Bu təcrübə artıq İtaliyada tətbiq olunur.

AŞ baş katibinin xüsusi nümayəndəsi hər bir ölkənin uşaqlara qaçqın və miqrant statusunun verilməsində özlərinin qanunvericiliyinə əsaslanmalı olduğunu vurğulayıb. AŞ-ın Konvensiyasında uşaqların bu sahədə hüquqları ilə əlaqədar xüsusi bölmə yoxdur. Bu məsələdə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına istinad edilir. Hətta Avropa İnsan Hüquqları Məhkəməsi də bu Konvensiyanı əsas götürür.

Qeyd edim ki, miqrantlar iş və digər səbəblərdən qeyri-qanuni olaraq sərhədləri keçə bilərlər. Lakin qaçqınlarda bu fərqlidir. Qaçqınlar hər hansı səbəbdən məcburi olaraq öz yaşayış yerlərini tərk edirlər. Məhz buna görə də miqrantlarla müqayisədə qaçqınlara müəyyən güzəştlər edilir. J.Hanganunun sözlərinə görə miqrasiya təşkilatlarının əksəriyyəti hələ uşaq miqrasiyasına hazır deyillər və onlar bunu öyrənməlidirlər. Miqrant uşaqları ümumən nəzərdən keçirsək, bəzi faktlarla da qarşılaşa bilərik. Hətta öz ailəsi tərəfindən zorakılığa məruz qalma faktlarını da. Uşaq var ki, öz ailəsinə qayıtmaq istəyir. Uşaq da var ki, bu zorakılıq halları ilə üzləşdiyi üçün valideynlərindən uzaq tutulma-

lıdırlar. Xüsusən qız uşaqları belə zorakılıqla üzləşə bilər. Qaçqın və miqrant uşaqlar yüz, min kilometr təhlükəli yollardan keçərək gəlirlər. Onlar uşaq olsalar da, yaşlarına uyğun olmayan təhlükələrdən keçdikləri üçün qeyri-ixtiyari böyüyürlər və artıq qərar vermək bacarığına da malik olurlar. Bu səbəbdən də müvafiq qurumlar həmin uşaqlarla əlaqədar qərarlar verərkən onların qərarlarına da diqqətlə yanaşmalıdırlar. Azərbaycanda həyata keçirilməsə də, olunmasa da İtaliya, Fransa kimi ölkələrdə uşaqların uşaq yaşında olduğunu müyyənləşdirmək üçün üçün, radioloji, tibbi testlər keçirilir. Uşaqların yaşının müəyyən edilməsinin yaxın zamanda aktual məsələyə çevriləcəyini qeyd edən AŞ baş katibinin xüsusi nümayəndəsi deyib ki, yaş qruplarına görə uşaqların saxlanılacağı yerlərin müəyyənləşdirilməsi də vacibdir. 18 yaşına qədər uşaqlara qəyyum təyin olunmalıdır. Qohumlar, mütəxəssislər, könüllülər qəyyum təyin oluna bilər. Lakin qəyyum polis, miqrasiya orqanının əməkdaşı olmamalıdır. Miqrant qəbul edən ölkələrin bir çoxunda bu uşaqlar böyüklər üçün saxlama mərkəzlərində saxlanılır. AŞ-ın tövsiyəsi odur ki, uşaqlar belə yerlərdə ən qısa müddət ərzində, yəni onlar üçün yer təyin edilənə qədər saxlanılsın. Heç olmasa onlar üçün hər hansısa şərait yaradılsın. Məsələn, Xorvatiyada saxlama mərkəzində uşaqlar üçün oyun meydançası tikilib. Ancaq Avropa Məhkəməsinin qərarlarında uşaqların saxlanılması üçün yüksək normalar nəzərdə tutulur. Onlar böyüklərdən ayrı saxlanılmalı, xüsusi rejimlər tədbiq olunmalı və uşaq saxlama mərkəzlərində QHT-lərin monitorinqinə şərait yaradılmalıdır. AŞ uşaqların saxlanılması məsələləri ilə bağlı hakimlər üçün xüsusi kitabça hazırlayır. Miqrant qəbul edən dövlətlər uşaqlar üçün alternativ yerlər müəyyənləşdirməlidirlər. Bəs o zaman alternativ yer yoxdursa, hakim miqrant uşaqları öz valideynləri ilə birlikdə saxlama yerinə göndərməkdən başqa nə edə bilər? Buna görə də Avropa Şurası ölkələri belə alternativ yerlər hazırlamağa çağırır. Uşaq öz ölkəsinə qaytarılacaqsa, orada onlara rezident statusu verilməli, təhsil almaq huququ və başqa hüquqları təmin olunmalıdır. Uşaqların bu sahədəki hüquqlarını qorumaq üçün dövlətlər arasında əməkdaşlıq əsas amillərdən biridir [5].

***Ədəbiyyat***

*1. Сорванные с родных мест: разрастание кризиса и дети-беженцы и дети-мигранты (2016 г.) – ЮНИСЕФ.*

*2. Основополагающие обязательства перед детьми в рамках гуманитарных мероприятий (2016 г.) – ЮНИСЕФ*

*3. Перемещенные дети в Италии и Греции (2017 г.) – ЮНИСЕФ и инициатива REACH («Информационная поддержка для повышения эффективности гуманитарных мероприятий»)*

*4. Путь, смертельный для детей: маршрут миграции через центральное Средиземноморье (2017 г.) – ЮНИСЕФ*

*5. https://apa.az/az/xeber/sosial-xeberler/avropa-surasinin-miqrant-ve-qacqin-usaqlara-dair-esas-teleb-ve-tovsiyeleri-aciqlanib-531856*

*6. http://council.gov.ru/services/discussions/blogs/54998/*

*7. https://iqna.ir/az/news/3489445/suriyada-5-ya%C5%9Fad%C9%99k-olan-y%C3%BCzminl%C9%99rl%C9%99-u%C5%9Faq-acl%C4%B1qdan-%C9%99ziyy%C9%99t-%C3%A7%C9%99kir*

# QLOBALLAŞMA VƏ BÖYÜK DÖVLƏT ANLAYIŞLARI

**A.R.Nifdiyeva**
**Azərbaycan Turizm və Menecment Universiteti**
*aytekin.niftiyeva@gmail.com*

***Xülasə***

*Qloballaşma XX əsrin sonlarında yaranmış beynəlxalq vəziyyətdir ki, burada dünyanın investisiya, məşğulluq, istehsal və marketinq sistemləri ərazi sərhədlərindən kənara – beynəlxalq arenaya çıxmışdır. Nəticədə, dünya hər şeyə nüfuz edən sosial ölkəyə çevrilib və müxtəlif ölkələr eyni zamanda vahid investisiyalar, məşğulluq, istehsal və marketinq prosesində iştirak edirlər. Böyük dövlət isə öz milli maraqlarını həm sərhədləri daxilində, həm də sərhədlərindən kənarda həyata keçirə bilən, hərbi, siyasi, iqtisadi və yumşaq güc imkanları olan dövlətdir. Adi dövlətin isə belə imkanları əsasən onun rəsmi ərazisilə məhdudlaşır. Bu məqalədə qloballaşma və böyük dövlət anlayışları, qloballaşmanın müsbət və mənfi cəhətləri, onun növləri və tarixi, böyük dövlətlərin qloballaşmada oynadığı rol araşdırılmışdır.*

## ГЛОБАЛИЗАЦИЯ И КОНЦЕПЦИИ ВЕЛИКОГО ГОСУДАРСТВА

***Резюме***

*Глобализация-это международная ситуация, возникшая в конце XX века, когда мировые системы инвестиций, занятости, производства и сбыта вышли за пределы своих территориальных границ на международную арену. В результате мир стал социальной страной, которая пронизывает все, и разные страны одновременно участвуют в едином процессе инвестиций, занятости, производства и маркетинга. А великое государство-это государство, которое может реализовывать свои национальные интересы как в пределах своих границ, так и за их пределами и обладает возможностями военной, политической, экономической и мягкой силы. А у обычного государства такие возможности в основном ограничены его официальной территорией. В данной статье рассмотрены понятия глобализация и большое государство, плюсы и минусы глобализации, ее виды и история, роль, которую играют великие государства в глобализации.*

## GLOBALIZATION AND GREAT STATE CONCEPTS

***Summary***

*Globalization is an international situation created at the end of XX century, where investment, employment, production and marketing systems of the world have entered the international arena beyond its territorial borders. As a result, the world has become a Social country that permeates everything, and various countries are simultaneously involved in the process of single investments, employment, production and marketing. A large state is a state that is able to realize its national interests both within and outside its borders and has military, political, economic and soft power*

*capabilities. Such opportunities of the ordinary state are mainly limited to its official territory. This article examines the concepts of globalization and the great power, the pros and cons of globalization, its types and history, the role of great powers in globalization.*

***Açar sözlər:*** *qloballaşma, qloballaşmanın üstünlükləri, qloballaşmanın çatışmazlıqarı, qloballaşmanın tarixi, böyük dövlət anlayışı.*
***Ключевые слова:*** *глобализация, преимущества глобализации, недостатки глобализации, история глобализации, концепция великого государства*
***Key words:*** *globalization, the advantages of globalization, the shortcomings of globalization, the history of globalization, the concept of the Great State.*

Qloballaşma gündəlik həyatımızda tez tez eşitdiyimiz bir termin olub texnologiyaların, məhsulların, məlumatların, iş yerlərinin milli sərhədlər və mədəniyyətlər arasında yayılmasıdır. Qloballaşma, aldığımız məhsullardan tutmuş yediyimiz yeməyə, bir-birimizlə ünsiyyət qurma tərzimizə qədər həyatımızın hər hissəsinə toxunur.

Qloballaşma günümüzdə ağır istifadə olunan bir termindir, lakin mənası onu adlandıranlar arasında da çox vaxt qaranlıq qalan bir termindir. Doğrudan da Jan Aart Scholte, "qloballaşma, dünyadakı kifayət qədər geniş bir ictimai fikrə yayıldığı üçün, XX əsrin sonlarında ictimai şüurun müəyyən şərtlərindən biri olaraq seçilir" deyir. [2]

Qloballaşma, bu söz "qlobal" anlamına gəlir ki, bu da qlobal əlaqələrin qurulması, nəyinsə təqdim edilməsi və ya əlçatan və məhdud olmayan bir ərazidən istifadə edilməsi deməkdir. Bu proses beynəlxalq birliyə və onun ətraf mühitinə, siyasətinə, cəmiyyətinə və iqtisadi inkişafına əhəmiyyətli təsir göstərir.

Əgər kimsə öz ərazisində tərəvəz yetişdirirsə və istehlak üçün tələb olunandan daha çoxdursa, onda onlar daha çox fayda əldə etmək üçün onları satmaq istəyirlər, digərləri isə bahalı bazar dərəcələrinin qarşısını almaq üçün bunu onlardan satın alacaqlar. Qloballaşma məhz belə işləyir. Ölkələr hətta xaricdə ucuz işçi qüvvəsinin imkanlarından istifadə edərək bir addım daha irəli gedirlər. Məsələn, Yaponiya avtomobil şirkəti öz avtomobil ehtiyat hissələrini Pakistanda istehsal edir, onları Banqladeşdə toplayır və digər ölkələrdə hazır avtomobillər satır. Yaponiya yalnız hansı dövlətlərin iqtisadiyyata daha əlverişli nəticələr təqdim edə biləcəyini keyfiyyətə xələl gətirmədən görür.

Qloballaşmanın nəticələrindən biri də ondan ibarətdir ki, bu, dünyanın müxtəlif regionları və əhalisi arasında qarşılıqlı fəaliyyəti artırır və gücləndirir. Qloballaşma müasir dövrdə qarşılaşdığımız digər ən böyük məsələlərə, o cümlədən iqlim dəyişikliyi, ticarət, terrorizm və ölümcül xəstəliklərin yayılması ilə bağlıdır. Getdikcə bir-birinə bağlı və bir-birindən asılı bir dünyada yaşayırıq. Dünyanın bütün ölkələri və bazarları ilə iç-içə olmağın həm faydaları, həm də

mənfi tərəfləri var. Son illər ərzində texnologiya, rabitə, elm və sənaye kimi sahələrdə misilsiz inkişaflar sayəsində bu qlobal inteqrasiyanın sürəti çox daha sürətli və təsirli hala gəldi.

Qloballaşmanın belə sürətlə inkişaf etməsi bir yandan müsbət hal olsa da, digər yandan ciddi problemlər və çətinliklər yarada bilir. Əksər ölkələr buna nəzarət etməyə və ya idarə etməyə çalışırlar.

Qloballaşma bizə imkan verir ki, bütün resurslarımızı birləşdirək. Həmçinin işçi qüvvəsinin istismarı problemlərini azaldır və ünsiyyətə çıxışı yaxşılaşdırır. Biz asanlıqla minimal vaxt və səy ilə qabaqcıl texnologiyadan istifadə edərək, dünyanın hər hansı bir yerindən bir-birimizlə ünsiyyət qura bilərik.

Qloballaşma həmişə bizə ən yaxşı xidmətləri göstərir. Texnoloji tərəqqi sayəsində su təchizatı, mobil rabitə, internet, elektrik təchizatı və digər xidmətlərimiz əvvəlkindən daha asan və daha yaxşı olmuşdur. Yeri gəlmişkən, bütün dünyada internetə asan çıxış da qloballaşmanın nəticəsidir.

İqtisadiyyatın qloballaşmanın əsas prosesi kimi inteqrasiyası ölkələrə yoxsulluqla mübarizə aparmağa və insanların həyat səviyyəsini yüksəltməyə imkan verir. Qloballaşma sayəsində ölkə valyuta ehtiyatlarını beynəlxalq maliyyə axınları hesabına artıra bilər.

Qloballaşma texnoloji tərəqqi və onun bütün dünyaya yayılması sayəsində bir ölkənin infrastrukturunu yaxşılaşdırmağa kömək edir. Ölkələr əhaliyə xidmət göstərmək üçün daha çox imkanlar əldə edirlər. İnfrastrukturun inkişafı müvafiq ölkələrin ümumi inkişafı deməkdir.

İlk növbədə, qloballaşma bazarın genişlənməsinə kömək edir. Bu, yerli şirkətlərə qlobal səviyyəyə çıxmaq imkanı verir. Məsələn, ölkə daxilində şirkətlər öz məhsul və ya xidmətlərinə tələbatın artmasını müşahidə edə bilərlər, lakin qloballaşma sayəsində yerli şirkətlər xarici müştərilərin artan tələbatlarını qoruyub saxlaya və təmin edə bilərlər.

Həmçinin qloballaşma sosial müdafiə proqramlarının azalmasına, xəstəliklərin yayılmasına səbəb ola və ətraf mühitə mənfi təsir göstərə bilər. Qloballaşma insanların özlərini necə müəyyənləşdirəcəyini dəyişir, yoxsullara nisbətən daha çox zənginlərə fayda gətirir.

Qloballaşma ixtisaslaşma və ticarətin genişləndirilməsi hesabına bütün dünyada bərabərsizliyi gücləndirə bilər. İxtisaslaşma və ticarət adambaşına gəlirlərini artırsa da, bu, nisbətən yoxsulluğa gətirib çıxara bilər. Bunu göstərmək üçün nümunə gətirək. Bütün bu şirkətlər öz məhsullarını istehsal etmək və ya yığmaq üçün inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş ölkələrdən daha ucuz işçi qüvvəsi alırlar. Çin, Hindistan və Afrika bunun parlaq nümunələridir. Bu, belə ölkələrdə məşğulluğu artırır, lakin onlar nisbətən inkişaf etmiş ölkələrdən geri qalır. Yenə də bu ölkələrə ucuz işçi qüvvəsi üçün gələn şirkətlər də bu ölkənin sakinlərini işdən məhrum edirlər. Beləliklə, görünür, nisbi yoxsulluq inkişaf etmiş ölkələrdə də yaradılır.

Qloballaşma işsizlik səviyyəsini artıra bilər və ticarətdə tarazsızlıq yarada bilər. Qloballaşma nəticəsində hər bir ölkə yer kürəsinin istənilən hissəsində ticarət edə bilər. Buna görə də bəzi hallarda inkişaf etməkdə olan ölkələr malların idxalı baxımından inkişaf etmiş ölkələrdən bu qədər asılıdırlar, lakin onların ixrac imkanları idxal imkanlarından aşağıdır. Ticarət tarazsızlığı müşahidə olunur.

Qloballaşmanın tarixinə nəzər saldıqda məhz nə vaxt başladığı ilə bağlı kəskin mübahisələr aparılır. Bəziləri, qloballaşmanın bir fenomen olaraq, Çingiz xanın işğalından və ya Böyük İpək yolu ilə səyahətdən başladığını iddia edirlər. [4]

Bəziləri, 1400-cü illərdə avropalıların Çin və Hindistana daha qısa ədviyyat yolları axtararaq Atlantik okeanı üzərindən yelkən açdıqları zamanı, bir çoxları isə Kristofer Kolumbun və digər dənizçi kapitanların dünya üzrə ticarət ticarət yollarını açmaq üçün səyahətlərini qloballaşmanın başlanğıcı kimi qeyd edirlər.

Digər alimlər qloballaşmaya daha müasir bir hadisə kimi baxırlar. Bir çoxları onu indiki formada İkinci Dünya müharibəsindən əvvəl başlamayan müasir bir fenomen kimi görürlər. Termin özü 1980-ci illərdən bəri ümumi istifadədədir. [1]

Bir çox tarixçilər qloballaşmanın ilk dalğasının 1800-cü illərdə qızıl standartı ilə başladığını iddia edirlər. İnsan qızıl sikkələri düzəltməyə başladığı vaxtdan minlərlə il əvvəl qızıl pul vahidi kimi istifadə edilmişdir. Həmin qızıl sikkələrin dəyəri sikkəni təşkil edən qızılın dəyərinə bərabər idi. Yalnız 1800-cü illərə qədər İngiltərə öz valyutasının dəyərini müəyyən miqdarda qızılla təyin etməyə başladı.

Nəhayət, bir çox ölkələr buna əməl etdilər və ya valyutalarını qızıl standarta tabe olan ölkələrə bağladılar. Beləliklə, qızıl beynəlxalq standart valyuta halına gəldi və sabit qiymətə əldə edilə və ya satıla bildi.

İkinci Dünya müharibəsindən sonra bir çox ölkələr öz aralarıda ticarət maneələrini dağıtmağa, azad ticarətə yardım etməyə və qlobal təşkilatlar yaratmağa can atırdılar. 1944-cü ildə Bretton-Vudsk konfransı Dünya Bankı və beynəlxalq valyuta fondu (BVF) yaratmışdır.

Bir nöqteyi-nəzərdən deyilir ki, qloballaşmaya 1940-cı illərin sonlarına qədər – müharibədən sonrakı dövrə, Birləşmiş Ştatlar dünya iqtisadi mərkəzi kimi özünü təsdiq etdikdən sonra başlamaq olmaz. Qloballaşmanın bu tərifi iddia edir ki, bu, güclü transmilli korporasiyaların işidir.

Qloballaşma tarix boyu gah zəifləmiş, gah da yüksəlmişdir. 2001-ci il sentyabrın 11-də ABŞ-da baş verən terror hücumlarından sonra kəskin şəkildə geriləsə də, sonrakı illərdə yenidən yüksəliş göstərdi. 21-ci əsrin əvvəllərində qlobal inteqrasiya templərinin kəskin şəkildə artması müşahidə olunur. Texno-

logiya və telekommunikasiya sahəsində sürətli inkişaf bu dəyişiklikləri bir çox cəhətdən şərtləndirdi.

**Üç tip qloballaşma mövcuddur:**

*İqtisadi qloballaşma*. Burada əsas diqqət beynəlxalq maliyyə bazarlarının inteqrasiyası və maliyyə mübadiləsinin koordinasiyasına yönəldilir. Şimali Amerika Azad Ticarət Sazişi və Trans-Sakit okean Tərəfdaşlığı kimi azad ticarət razılaşmaları iqtisadi qloballaşmanın nümunələridir. İki və ya daha çox ölkədə fəaliyyət göstərən çoxmillətli korporasiyalar iqtisadi qloballaşmada böyük rol oynayır.

*Siyasi qloballaşma*. Bu tip ölkələri siyasi, iqtisadi və mədəni cəhətdən birləşdirən milli siyasəti əhatə edir. NATO və BMT kimi təşkilatlar siyasi qloballaşmaya dair səylərin bir hissəsidir.

*Mədəni qloballaşma*. Qloballaşmanın bu aspekti əhəmiyyətli dərəcədə mədəniyyətlərin yaxınlaşmasına gətirib çıxaran texnoloji və sosial amillərə diqqət yetirir. Bunlara ünsiyyətin artan sadəliyi, sosial şəbəkələrin geniş yayılması və daha sürətli və keyfiyyətli nəqliyyata çıxış daxildir.

Bu üç növ bir-birinə təsir edir. Məsələn, liberallaşdırılmış milli ticarət siyasəti iqtisadi qloballaşmanı stimullaşdırır. Siyasət də mədəni qloballaşmaya təsir göstərir, insanların daha sərbəst ünsiyyət qurmasına və bütün dünyada hərəkət etməsinə imkan verir. İqtisadi qloballaşma həmçinin insanları digər mədəniyyətlərlə tanış edən mal və xidmətlərin idxalı vasitəsilə mədəni qloballaşmaya təsir göstərir.

Qloballaşma dəyişən və bəlkə də yavaşlama prosesində olan uzunmüddətli tendensiyadır. Qloballaşmanın təşviq etdiyi daha açıq sərhədlərin və azad ticarətin öz üstünlükləri, həmçinin mənfi nəticələri vardır. Müasir, postpandemik dünyada ayrı-ayrı insanlar, şirkətlər və ölkələr qloballaşma probleminin hər iki tərəfini nəzərə almalıdırlar.

Beynəlxalq hüquqa görə dünya dövlətlərinin hüquqları eyni olsa da, real güc imkanlarına görə heç də eyni deyillər. Böyük dövlət öz milli maraqlarını ölkəsində, regionunda və dünyanın digər əhəmiyyətli bölgələrində təmin etməyə qadir olan dövlətdir. Digər sözlə desək, böyük dövlət öz milli maraqlarını həm sərhədləri daxilində, həm də sərhədlərindən kanarda həyata keçirməyə hərbi, siyasi, iqtisadi və yumşaq güc imkanlarına malik olan dövlətdir. Adi dövlətin isə belə imkanları əsasən onun rəsmi ərazisilə məhdudlaşır.

Beynəlxalq Münasibətlərin (BM) ümumi intizamında isə Böyük Dövlət anlayışı mərkəzi mövqe tutur. Başqa sözlə, Böyük Güc sistemi akademik diskursun və strateji planlaşdırmanın imtiyazlı obyekti və subyekti olmuşdur. Beləliklə, böyük dövlətlər sayılan dövlətlərin müəyyən edilməsinə, təsnifləşdirilməsinə, izahına və dərk edilməsinə, eləcə də bu dövlətlərin beynəlxalq sistemdə nisbi yüksəliş və süqutunun səbəb və nəticələrinin araşdırılmasına böyük diqqət yetirilmişdir.

Böyük dövlətlərin sərhədlərindən kanarda nüfuzunu davamlı şəkildə yaymaq imkanlarına görə üç növü qeyd edilir:

- **Fövqəldövlətlər**– hərbi, iqtisadi, yumşaq güc potensialı olan və milli maraqlarını bütün Yer kürəsində təmin edən dövlətdir. Bu rolu tarixdə bir vaxtlar Böyük Roma, Bizans və Britaniya imperiyaları, SSRİ və ABŞ oynamış, hazırda isə yalnız ABŞ oynayır.
- **Ən böyük dövlət** – milli maraqlarını ölkəsində, regionunda və dünyanın digər əhəmiyyətli bölgələrində təmin etməyə qadir olan və başqa ölkələri onunla hesablaşmağa məcbur edə bilən dövlətdir (hazırda BMT-nın Təhlükəsizlik Şurasının üzvü olan Böyük Britaniya, Fransa, ÇXR, Rusiya bu sıraya aid edilir).
- **Regional böyük dövlətlər** – ölkəsində və regionunda, sərhədlərinə yaxın ərazilərdə məxsusi maraqlarını təmin edən və qorumağa qadir olan dövlətlərdir. Regional böyük dövlətlər uzaq xaricdə geosiyasi proseslərə ciddi müqavimət göstərə bilməsə də, regionunda buna qadirdilər (Məsələn, İran, Türkiyə, Pakistan, Braziliya kimi dövlətlər regional böyük dövlətlər hesab olunurlar). [3]

Dünyanın "böyük dövlətlər" və ya "birinci dərəcəli dövlətlər" kimi tanınan fövqəldövlətləri beynəlxalq siyasətdə Mərkəzi fövqəldövlətlər kimi geniş şəkildə nəzərdən keçirilir.

Kennet Volts, əlbəttə, belə fövqəldövlətin 1648 və 1979-cu illər arasında üç əsr ərzində beynəlxalq tarixin gedişini müəyyənləşdirdiyi haqqında gözəl bəyanat verib. Hətta liberal nəzəriyyəçilər belə hesab edirlər ki, böyük dövlətlər beynəlxalq hüququ da daxil olmaqla, beynəlxalq institutları yaradıb və formalaşdırıblar.

1814-1815-ci illər Vyana konqresində "böyük dövlətlər" statusu ilk dəfə Müqəddəs ittifaqın yaradılması ilə formal şəkildə tanındı. Vyana Konqresi ilə Birinci Dünya müharibəsinin (Birinci Dünya müharibəsi) başlaması arasındaki yüzillikdə Avropada beynəlxalq münasibətlərdə beş böyük dövlət əhəmiyyətli dərəcədə üstünlük təşkil edirdi: Avstriya (1867-ci ildən sonra Avstriya-Macarıstan), Fransa, Böyük Britaniya, Prussiya (1871-ci ildən sonra Almaniya) və Rusiya.

Bu müddət ərzində böyük dövlətlər öz statuslarını qısqanclıqla qoruyublar və bütün dövrlərdə yeni üzvləri öz sıralarına qəbul etməyə meyilli olmayıblar.

Bir sıra tarixçilərin hesablamalarına görə, böyük dövlətlər XIX-XX əsrlərin əksər beynəlxalq münaqişələrində və müharibələrində bu və ya digər dərəcədə iştirak ediblər. İkinci Dünya müharibəsinin başlanğıcında yeddi Böyük Dövləti saymaq olar. Almaniya və Sovet İttifaqı yenidən birinci dərəcəli güclərə çevrildi, digərləri isə öz statuslarını saxladılar.

Morgenthaunun dediyi kimi, İkinci Dünya müharibəsinin sonu Böyük Britaniya, Sovet İttifaqı və ABŞ-ı Böyük Dövlətlər kimi gördü, Çin və Fransa

isə keçmişlərinə və ya potensiallarına görə, danışıqlarda və təşkilatlarda olduğu kimi rəftar edildi.

Müxtəlif tədqiqatçılar "böyük dövlət" anlayışını fərqli şərh edirlər. Belə ki, britaniyalı tarixçi A.Teylor hesab edirdi ki, böyük statusa iddia edən hər bir dövlət "müharibə sınağından keçməlidir". Kuinsie Rayt və beynəlxalq hüquq və diplomatiya tarixi üzrə bir sıra digər mütəxəssislər də bu fikirdədirlər.

İ.Lukaşukun fikrincə, böyük dövlətlərin meyarları zamanla dəyişirdi. Əgər əvvəlcə hərbi qüvvəyə əsas diqqət yetirilirdisə, sonradan dövlətin iqtisadi və elmi-texniki potensialı, onun "mənəvi-siyasi nüfuzu" daha böyük rol oynamağa başladı. [5] Modelskiyə görə "böyük dövlət böyük bir müharibə aparmaq iqtidarında olmalıdır", Singer və Cusack isə böyük dövlətin aşkar atributunun "müharibə aparmaq bacarığı" olduğunu təkid edir. Uaytin nöqteyi-nəzərindən iki növ güc var – dominant və Böyük Güc.

Böyük güc elə bir gücdür hər hansı digər mövcud tək gücə qarşı müharibə haqqında inamla düşünə bilər. Levinin klassik tərifi və xarakteristikası belədir: Böyük Güc əsas rol oynayan dövlətdir. Böyük dövlətləri digər dövlətlərdən hərbi gücü, maraqları, ümumiyyətlə davranışları və digər dövlətlərlə qarşılıqlı əlaqəsi, digər dövlətlərin onları qavrayışı və bəziləri ilə fərqləndirmək olar.

Ceksonun nöqteyi-nəzərindən Böyük Dövlət "çəkisi (hərbi gücdə, siyasi nüfuzda, iqtisadi sərvətdə) o qədər böyük olan dövlətdir ki, siyasətləri çox seçilmiş dövlətlər qrupu sırasındadır və hərəkətlər beynəlxalq işlərin gedişatına təsir edə bilər". Heyvudun verdiyi Böyük Gücün tərifi hər şeyi əhatə edən və ibrətamizdir. Onun fikrincə, Böyük Dövlət iyerarxik dövlət sistemində ən güclülər arasında yer alan dövlətdir.

Buna görə də, böyük bir dövlətin dörd müəyyənedicisi bunlardır: Birincisi, Böyük Dövlətlər öz təhlükəsizliklərini qorumaq və potensial olaraq digər güclərə təsir etmək qabiliyyətinə malik olan hərbi qüdrətin birinci pilləsindədirlər. İkincisi, onlar iqtisadi cəhətdən güclü dövlətlərdir. Üçüncüsü, onların təkcə regional deyil, qlobal maraq dairələri var. Dördüncü, onlar "irəli" xarici siyasət yürüdürlər və beynəlxalq məsələlərə təkcə potensial deyil, həm də aktual təsir göstərirlər.

Hərbi güc iki şəkildə istifadə olunur - təhdid və ya sövdələşmə vasitəsi kimi və geosiyasi məqsədlərə çatmaq üçün. Siyasi güc, diplomatiya vasitəsilə başqalarına təsir etmək bacarığı. O, BMT və Dünya Ticarət Təşkilatları kimi təşkilatlar vasitəsilə həyata keçirilir. Mədəni güc millətinizin həyat tərzinin, dəyərlərinin və ideologiyasının başqaları üçün cəlbediciliyini ehtiva edir.

Münaqişələrin inkişafı və ya onların həlli Beynəlxalq sistem çərçivəsində hakimiyyətin bölüşdürülməsində mühüm rol oynayır. Əslində, Böyük güclər arasında müharibələrin nəticələri beynəlxalq sistemdə millətlər arasında hakimiyyət iyerarxiyasını köklü şəkildə dəyişə bilər. Modelski iddia edir ki, "müharibəni böyük dövlətlər çağırırlar".

"Nəhayət, getdikcə qlobal, mürəkkəb, təlatümlü, bir-biri ilə əlaqəli və çoxsəviyyəli olan indiki dünyada münaqişəli inkişafla birlikdə xalqların imperiya istəkləri həyata keçirilə bilməz; Münaqişələri inkişaf etdirən super güclərin yeganə mümkün strategiyası dünya iqtisadiyyatında qlobal liderliyə nail olmaqdır.

**Nəticə.** Beləliklə, tədqiqat işindən qloballaşmanın çox geniş bir anlayış olduğunu, onun dünyamıza müsbət təsiri kimi, həm də mənfi təsir göstərdiyini gördük. Qloballaşmanın yaranma tarixinə bir neçə aspektdən yanaşdıq. Həmçinin, böyük dövlətlər üçün iqtisadi, hərbi,siyasi və mədəni gücün önəmi aydın oldu. Belə ki, böyük və güclü iqtisadiyyat ölkələrə güclü ordu yaratmaq və saxlamaq, resurslardan istifadə etmək və təhsil vasitəsilə insan resurslarını inkişaf etdirmək üçün sərvət verir, və böyük güclər arasındakı münaqişələr isə milli və qlobal səviyyələrdə ciddi sosial-iqtisadi nəticələr və struktur dəyişiklikləri yaradır.

**Ədəbiyyat**

*1. International Monetary Fund. "Globalization: A Brief Overview," Page 2. Accessed Aug. 1, 2021.*
*2. Jan Aart Scholte, "Globalisation and Modernity," Paper presented at the International Studies Association Convention, San Diego, 15–20 April 1995.)*
*3. Samuel P.Huntington. The Lonely Superpower. Foreign Affairs, Vol. 78, Iss. 2 (March – April) 1999 (pp.35-49).*
*4. World Economic Forum. "A Brief History of Globalization." Accessed August 1, 2021.*
*5. Лукашук, И. И. Великие и малые… — С. 335-336*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ REPRODUKTİV SAĞLAMLIĞA DAİR MÖVZULARIN QEYRİ-STANDART DƏRSLƏRDƏ ÖYRƏDİLMƏSİ

**N.E.Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*guseynova.narmin@gmail.com*

***Xülasə***

*Məqalədə, biologiyanın tədrisində reproduktiv sağlamlıq mövzularının qeyri-standart dərslər formasında öyrədilməsi araşdırılır, bu sahədə olan nöqsanların aradan qaldırılması yolları göstərilir, göstərilən dərs nümunəsi ilə müəllimlərə reproduktiv sağlamlıq mövzularının qeyri-standart dərslər formasında öyrədilməsinə dair faydalı tövsiyələr verilir.*

## ПРЕПОДАВАНИЕ ПО РЕПРОДУКТИВНОМУ ЗДОРОВЬЮ В НЕСТАНДАРТНЫХ КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***Резюме***

*В статье рассматривается преподавание репродуктивного здоровья в биологии в форме нестандартных уроков, показаны пути преодоления недостатков в этой области, а также даются полезные рекомендации учителям по преподаванию репродуктивного здоровья в форме нестандартных уроков.*

## TEACHING REPRODUCTIVE HEALTH IN NON-STANDARD CLASSES IN GENERAL EDUCATION SCHOOLS

***Summary***

*The article considers the teaching of reproductive health in biology in the form of non-standard lessons, shows the ways of overcoming deficiencies in this area, and also provides useful recommendations for teachers of non-standard teaching of reproductive health.*

***Açar sözlər***: *reproduktiv sağlamlıq, biologiya, qeyri-standart, tədbir, ailə planlaması, onlayn, metodika*

***Ключевые слова:*** *репродуктивное здоровье, биология, нестандартное, событие, планирование семьи, онлайн, методология*

***Key words:*** *reproductive health, biology, non-standard, event, family planning, online, methodology*

Ənənəvi dərs – nizam-intizam, çərçivədən kənara çıxmayan sərhədlər, şagirdlərin keçilən yeni dərs və tapşırıqlar üzərində çalışması, müəllimə itaət etmək, tədris materialının dəqiq konturları ilə xarakterizə olunurdu. Lakin,

bütün bunların həm tərbiyə və şəxsi inkişaf, həm də idrak fəallığına kifayət qədər təsirli olmadığı düşünülərək, şagirdyönümlülüyün üstünlük təşkil etdiyi müasir dərs tələbləri meydana çıxdı. Müasir dərs üçün əsas didaktik tələbləri ümumiləşdirərək qeyd etsək: Mövzu şagirdlərin özləri tərəfindən mənimsənilməli, müəllim yalnız fasilitator rolunda çıxış etməli, dərsin məqsəd və vəzifələrinin şagirdlərə müsbət təsirlilik dərəcəsi düşünülərək formalaşdırılmalı, "Şagird bu dərsdən nə öyrəndi?", "Dərsin vacibliyi hansı səviyyədədir?", "Bu dərsdə mənimsənilənlər təhsil sistemi ilə yanaşı həyata tətbiqlə bağlı şagirdə hansı töhfələri vəd edir?" və b. suallara birmənalı və dəqiq cavab verməlidir.

Həyat standartları və insan sağlamlığı bu gün tərəqqi və onun meyarları üçün ən vacib şərtlər hesab olunur. Məhz bu yanaşma bizi sağlam həyat tərzini-ailə və məişət, sosial, əmək və ünsiyyət fəaliyyətləri ilə xarakterizə olunan kompleks bir sistem olaraq görməyə məcbur edir. Sistemin harmoniyası onun subyektlərinin harmoniyasından asılıdır. Bu gün biologiyanın tədrisi zamanı insan və onun sağlamlığına dair mövzulara xüsusi diqqət yetirilməli və bu mövzularda reproduktiv sağlamlığın öyrədilməsi imkanları xüsusi diqqətdə olmalıdır (4, s.76).

Orta məktəblərdə təhsil müddətində yeniyetmələr üçün sağlam həyat tərzi vərdişlərinin formalaşması özünəməxsus xüsusiyyətlərə malikdir və məktəblilərin psixofiziki xüsusiyyətləri ilə müəyyən edilir, eyni zamanda təhsilverənlərin başlıca vəzifəsi uşaqların nəinki təhsil almasını təmin etmək, eyni zamanda sağlamlıqlarını qoruyub gücləndirə bilmək bacarıqlarını onlara tədris prosesi zamanı aşılamaqdan ibarətdir.Qarşıya qoyulmuş bu vəzifənin həlli şagirdlər tərəfindən reproduktiv sağlamlıq haqqında müəyyən bir məlumat qrupunun mənimsənilməsi prosesinə əsaslanır.

İnsan və onun sağlamlığı mövzularında reproduktiv sağlamlığın öyrədilməsi üçün həm standart, həm də qeyri-standart dərs planlaşdırmaq mümkündür. İndiki vaxtda müəllimlər getdikcə qeyri-standart dərslərdən və ya dərslərin yeniformalarından geniş istifadə edirlər. Bu dərslər qeyri-standart quruluşa sahib olan öyrənmə fəaliyyətidir.

Pedaqoji ədəbiyyatın təhlili onlarla qeyri-standart dərsləri ayırd etməyə imkan verir. Biz bu təhlildən ümumi nəticə olaraq deyə bilərik ki, hamısını bir məqsəd birləşdirir – yeni metodların, formaların, texnikaların və tədris vasitələrinin inkişafı, öyrənmə fəaliyyətinin formalaşdırılması.

Qeyri-standart dərslər müəllim tərəfindən əvvəlki dərslərlə nəzərəçarpacaq dərəcədə əlaqəsi olmadan ən çox həvəsləndirici xarakter daşıyır. Həm də ola bilər ki, dərslərin hədəf parametrləri yeni bilik və bacarıqların artmasını, şagirdlərin hər baxımdan inkişafını təmin etməsin. Qeyd etmək lazımdır ki, müəllimlərin qeyri-standart dərslərdən istifadəsi ilə bağlı fikirləri fərqlidir: bəziləri bu cür dərslərin pedaqoji prinsipləri pozduğunu, şagirdlərin bu dərslərə yalnız əyləncə xarakterli yanaşdığını söyləyirlər, lakin, bəzi müəllimlər tam əksinə olaraq dərs-

lərdə pedaqoji fikirlərin proqres etdiyini, dərsi planlı və maraqlı şəkildə quraraq bu dərslərdə də qarşıda duran məqsədə çatdığını qeyd edir [9].

Şagirdlər, daha çox qeyri-standart dərsləri müsbət baxımdan qəbul edirlər, əksəriyyəti təhsil prosesində iştirak etmək və sinifdə fəal işləməklə maraqlanırlar. Qeyri-standart dərsin əsas vəzifələri ümumi mədəni inkişaf, şəxsi inkişaf, şagirdlərin idrak motivlərinin, təşəbbüskarlığının və maraqlarının inkişafı, öyrənmə qabiliyyətinin formalaşmasıdır. Qeyri-standart dərslərin təhlili zamanı həm təlimin, təhsilin, şagirdlərin inkişafının nəticələrini, həm də ünsiyyət formalarını – dərsin emosional tonunu təkcə müəllimin şagirdlərlə ünsiyyətində deyil, həm də şagirdlərin bir-biri ilə, fərdi işçi qrupları ilə ünsiyyətində qiymətləndirmək məsləhət görülür.

Biologiyanın öyrənilməsində dərslər şagirdlərin intellektual inkişafına yönəldilməlidir ki, bu da biologiyanın tədrisində qeyri-standart dərslərdən istifadə zamanı mümkündür.

Qeyri-standart dərslərin üstünlükləri arasında reproduktiv sağlamlıq məsələlərinə də diqqət yetirilməsidir. Reproduktiv sağlamlıq məsələləri daxilində cinsi yolla yoluxan xəstəliklərinolmaması, ailə planlaşdırılması, şəxsi gigiyena, reproduksiya, hər kəsin firavanlığı, zorakılığın olmaması, cinslər arasında normal münasibət kimi mövzuları özündə ehtiva etməsini nəzərə alaraq, keçilən dərslərə uyğun bu mövzuları əsas götürüb qeyri-standart dərslər formasında keçirə bilərik.

Məsələn, VIII sinifdə "Mayalanma. Bətndaxili inkişaf" mövzusunun (5, s.123) qeyri-standart dərs nümunəsinə diqqət edək.

Alt standartlar: 2.1.1. İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir. 3.2.1. Sağlamlığın qorunması qaydalarını izah edir.

Məqsəd: Mayalanma və bətndaxili inkişaf proseslərini izah edir. Hamilə qadınların sağlamlıqlarının qorunması qaydalarını izah edir.

Məktəbin 8-ci (A,B,C,D) sinif şagirdlərinin iştirakı ilə "Ailə günü, ailə planlaması və ailə sağlamlığı" adlı onlayn tədbir keçirildi. Tədbirdə məktəb kollektivi, valideynlər iştirak etdilər. Ailə planlama mərkəzinin əməkdaşları, ailə (cütlük) psixologiyası mütəxəssisləri, ginekoloq, aktyor və şairlər tədbirə qonaq qismində qatılmışdılar.

Onlayn tədbirin əvvəlində məktəbin direktoru çıxış edib, qonaqları salamlayır. Sonra şagirdlər ailə ilə bağlı aforizmlər səsləndirərək tədbirin açılışını edirlər. Şagirdlər "Ailə günü" ilə bağlı məlumatlar, slaydlar, fotoşəkillər təqdim edirlər, ailə planlaması ilə bağlı maarifləndirici məlumatları izləyicilərlə bölüşürlər. Tədbirin qonaqları problemə dair maraqlı fikirlər söyləyir, ailə sağlamlığı və ailə planlaması barədə əlavələr edirlər. Tədbir iştirakçıları qonaqlara öz şeirlərini söylədilər.

Tədbirin «I Hissə»sində şagirdlər ailə və evlilik barəsində aforizmlər söyləyirlər:

B.Ə.(8D)-Ailə insanlıq tarixinin ilk müəssisəsidir. Nəsillər oradan boy atır,orada böyüyür. Xalqlar da gücünü, bütövlüyünü ailələrə bağlayır.

S.Q.(8A)-Evlilik zənciri o qədər ağırdır ki, onu ikilikdə daşımaq lazım gəlir. (Aleksandr Düma)

T.B.(8A)-Hər bir ailə bir tarixdir. Hətta oxuya bilənlər üçün bir dastandır. (Alfons Lamartin)

N.H.(8B) - Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir. (Lev Tolstoy)

F.Ə.(8C)-Ailəni dayanıqlı edən qadın ilə kişi arasındakı eyniyyət yox, fərqdir. Məhəbbət özü də bu fərqin sayəsində mümkün olur. (Əbu Turxan)

F.R.(8A)-Bütün dünyanı gəzib səadət axtardım, – tapmayıb, kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş. (Əbu Turxan)

N.B.(8D)-Dostluq etməyi bacaran evlənəndə də uğurlu evlənir: belə ki, nikah da dostluq istedadına əsaslanır. (Fridrix Nitsşe)

T.İ.(8B)-Qayıq iki avarın eyni anda hərəkət etməsi ilə üzür, avarların hərəkəti bir-birinə uyğun gəlməsə, dalğalar qayığı aşırar. Evlilik də qayıq kimidir. (E.Levi)

K.N.(8C)-Hər bir insan dünyaya yaxşı tərbiyə olunmuş ailə qədər önəmli bir miras qoya bilməz.

II Hissədə - Mayalanma. Bətndaxili inkişafdan söhbət açılır: İnsanın cinsiyyət hüceyrələri də məməli heyvanlarda olduğu kimi erkək və dişi cinsiyyət vəzilərində, yəni toxumluqlar və yumurtalıqlarda əmələ gəlir. Qadın reproduktiv sistemi, qadın cinsiyyət orqanları daxili və xarici olmaqla iki yerə bölünür. Daxili orqanlara *yumurtalıqlar, uşaqlıq boruları, uşaqlıq, uşaqlıq boynu* və *uşaqlıq yolu* aiddir. Yumurtalıqlarda follikullarda yumurta hüceyrə inkişaf edib, uşaqlıq borusuna düşür və burada tam yetişir. O, uşaqlıq borusu ilə uşaqlığa tərəf hərəkət edir. Mayalanma və rüşeymin ilkin inkişafı uşaqlıq borusunda baş verir. Uşaqlıqda isə yeni orqanizmin inkişafı davam edir. Kişi reproduktiv sistemi, kişi cinsiyyət sistemi xayalardan (toxumluqlardan), xayalıqlardan onların qişası və axacaqlarından, cinsiyyət artımı vəzilərindən (toxum kisəcikləri və prostat vəzi) və cinsiyyət üzvündən ibarətdir. Xayalarda spermatozoidlər və kişi cinsiyyət hormonları hazırlanır. Prostat vəzi spermatozoidlərin hərəkətini aktivləşdirən maddə ifraz edir. Cinsiyyət üzvü *spermanı* (spermatozoidlə prostat vəzinin ifraz etdiyi mayenin qarışığı) və sidiyi xaricə çıxarmaq üçündür. Xayaların və artım vəzilərinin axacaqları sidik kanalına açılır (5, s.124).

III hissədə - Ailə haqqında söhbət aparılır: Fərhad Yusifli (8A)-Ailə - nikah və ya qan qohumluğuna əsaslanan, məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bağlı olan kiçik sosial birlikdir. O, hər bir cəmiyyətin sosial strukturunun mühüm komponenti olub, çoxlu sosial funksiyalar yerinə yetirməklə həmin cəmiyyətin inkişafında mühüm rol oynayır. Nikah ailənin hüquqi əsasıdır. O, qadınla kişi arasında rəsmi qaydada bağlanılan müqavilədir.

Sura Heydərli (8D)-.Nigah kişi ilə qadın arasında, valideynlərlə uşaqlar arasında münasibətləri müəyyənləşdirir, müəyyən normalara salır, bununla da ona sosial təsisat xarakteri verir. Ailəyə kiçik sosial qrup kimi də baxmaq olar. Ailənin mahiyyəti onun quruluşunda, formalarında, funksiyalarında və bir də ailə üzvlərinin ailədə rolunda ifadə olunur.

IV hissədə -Ailə planlaması və ailə sağlamlığı müzakirə edilir: Sevil Əliyeva (8A)-Ailələrin istənilən sayda uşaq sahibi ola bilmələri üçün tətbiq olunan üsullara "ailə planlaşdırılması" deyilir. Ailə planlaması ailə qurmağa hazırlaşan hər bir gəncin qarşısında duran ən vacib məsələlərdən biridir. Bu zaman diqqət etməli və nəzərə almalı olduğumuz bir çox psixoloji məqamlar vardır. Hər insan bir dünyadır. İki gəncin ailə qurması isə tək onların deyil, bu dünyaların artıq birləşməsi deməkdir. Hər insanın dünyanı qavrama şəkli fərqlidir. Qarşıdakı insanın dünyasını qəbul etmək və ona anlayış göstərmək lazımdır. Ancaq belə olduqda uzunömürlü ailə səadətinə nail olmaq olar. Bu isə qarşı tərəfi daha yaxşı tanımaq, onun xarakterik xüsusiyyətlərini, dünyanı qavrama şəklini, sevdiyi və sevmədiyi məqamları və s. bilmək ilə mümkündür (8, s.196).

Ülvi Oruclu (8C)-Əgər konkret olaraq maddələrlə sıralamaq lazım gəlsəydi, o zaman ailə planlaşdırılması məsələsini bu cür açıqlamaq olardı:

- İnsanları övlad sağlamlığı mövzusunda maarifləndirmək;
- Ana ölümlərinin qarşısını almaq və sağlamlığını qorumaq;
- Körpələrin sağlam doğulmalarını və yaşamalarını təmin etmək;
- Yüksək riskli hamiləliklərə yol verməmək;
- Arzu olunmayan hamiləliklərə yol verməmək;
- Uşaq sahibi olmaq istəyənlərə tibbi kömək göstərmək;
- Valideynləri ailə planlaşdırılmasının vasitələri ilə tanış etmək;
- Daha gənc və ya ahıl yaşda istənilməyən hamiləliyin qarşısını almaq.

Surxay Vəliyev (8B)-Xüsusilə də ailənizin hazır olub-olmadığını nəzərə almadan bir uşaq dünyaya gətirmək və onu tərbiyə etmək sonda tərbiyə edə bilməməklə nəticələnə bilər. Ailə planlamasının əsasında doğuma nəzarət üsullarının dayanması düşünülsə də bu sadəcə bir parçadır. Uşağı hansı üsulla dünyaya gətirəcəyinizdən daha önəmli olan məsələlər var. Evinizin, ailənizin, işinizin, ekonomik vəziyyətinizin, təhsil səviyyənizin uşağı böyütmək üçün uyğun olub-olmadığını həyat yoldaşınızla birlikdə düşünməyiniz, müzakirə edib birlikdə müəyyən bir qərara gəlməyiniz lazımdır.

V hissədə - tədbirin işi ümumiləşdirilir, qonaqlar çıxış edir, verilən suallar cavablandırılır.

Əli Həmidli (8D)-Tədbirin iştirakçılarını bir sual ətrafında düşünməyə dəvət edirəm. Hara isə gedərkən etdiyimiz səfəri belə çox dəqiq şəkildə planladığımız halda, ömrümüzün ən gözəl səfərinə niyə plansız çıxaq?!

Tədbirin sonunda, şagirdlərdən Hüseyn Abbaslı (8A) Ramiz Rövşənin “Özünü uşaq görəsən” şeirini söylədi.

*Bir səhər yuxudan durub özünü uşaq görəsən.*
*Görəsən hamı evdədi, ölənləri sağ görəsən.*
*Qorxasan qaçıb gedələr, -tez qapını bağlayasan.*
*Geri dönüb içəridə bir təzə qonaq görəsən.*
*Görəsən ki, qapqaradı o qonaq başdan ayağa.*
*Ondan başqa hamısının üst-başını ağ görəsən.*
*Pəncərədən içəriyə dola, dola gün işığı.*
*İçəridə boş-boşuna yanan bir çıraq görəsən.*
*Söndürəsən o çırağı - hamı birdən yoxa çıxa.*
*Otaqda bir qara qələm, bir də ağ vərəq görəsən.*

**Nəticə.** Yeni əsr yeni bir şəxsiyyətin tərbiyəsini tələb edir. Təhsilalan sərbəst, intellektual cəhətdən yüksək inkişaf etmiş, müstəqil qərar qəbul etməyi bacaran bir şəxsiyyət kimi inkişaf etdirilməlidir. Buna görə də məktəblilərin tədris metodikasında inkişafetdirici öyrənməyə böyük önəm verilməlidir. Qeyri-standart dərslər vasitəsi ilə, fərdi, metasubyektli və subyektiv universal təhsil hərəkətlərinin inkişafını stimullaşdırmaq, biologiyaya marağı inkişaf etdirmək mümkündür. Eyni zamanda insan və onun sağlamlığı ilə bağlı mövzularda reproduktiv sağlamlığın öyrədilməsi imkanlarından biri kimi qeyri-standart dərs formalarını qeyd etmək olar. Şagirdin dərsdə psixoloji rahatlıq hiss etməsi mövzuya yüksək marağı, möhkəm, keyfiyyətli bilik əldə etməyi stimullaşdırır, təlimin keyfiyyətini yüksəldir, mənimsəməni asanlaşdırır.

***Ədəbiyyat***

1. *Əliyev S.C., Hacıyeva H.M., Mikayılzadə N.C. Tibbi biliklərin əsasları, Bakı, 2004.*
2. *Hüseynov Ə.M., Hacıyeva H.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015, 148 s.*
3. *Kurikulum islahatının əsas istiqamətləri. "Azərbaycan məktəbi" jurnalı, №4, 2011.*
4. *Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası, Bakı, 2014.*
5. *Məmmədova N. və b.Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün biologiya fənni üzrə dərslik. Bakı, 2019*
6. *Clark L. H., Starr I. S. Secondary and middle school teaching methods. — 6 ed. — N.Y.:Macmillan; Toronto: Collier Macmillan, 2001.*
7. *Зайцев Г.К. Здоровье школьников и учителей. 1995.*
8. *Подласый И.П. Педагогика. Учебное пособие. / Мн.:Книжный дом. 1999.*
9. *Рысьева Т.Г. Дидактические игры и возможности их применения при изучении биологии и экологии в школе. Ижевск, 2001.*

# XARİCİ DİL DƏRSLƏRİNDƏ OXU BACARIQLARININ TƏDRİSİ ZAMANI İSTİFADƏ OLUNAN METODLAR VƏ ONLARIN TƏHLİLİ

**A.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzumemmedova1998@bk.ru*

***Xülasə***

*Müasir dövrdə xarici dil bilmək çox vacibdir. Buna görə də respublikamızın məktəb və universitetlərində xarici dilin tədrisinə xüsusi diqqət yetirilir və xarici dil bacarıqlarının inkişafı yolunda müəllimlər müxtəlif metod və vasitələrdən istifadə edir. Bildiyimiz kimi bir xarici dil öyrənmək üçün vacib dil bacarıqlarına yiyələnmək lazımdır. Bunlardan biri təməl xarici dil bacarıqlarından hesab olunan oxu bacarıqlarıdır. Xarici dil tədrisində bu bacarıqların inkişaf etdirilməsi məsələsi isə olduqca vacib məsələlərdən biridir. Müəllimlər xarici dil dərslərində şagirdlərin oxu bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif metod və üsullardan istifadə edir. Bu isə metodların müxtəlifliyi və hansı metodun daha faydalı ola biləcəyi məsələsini ortaya qoyur. Bu səbəbdən hər müəllim şagirdlərinə daha uyğun və faydalı olacağını düşündüyü metodlar və vasitələrdən istifadə edir. Günümüzdə xarici dil dərslərində istifadə oluanan müxtəlif metod və vasitələr var. Tədqiqatın obyekti xarici dil tədrisində oxu bacarıqlarının inkişafı üçün istifadə olunan metodlar və onların ətraflı şəkildə təhlilidir. Hal-hazırda təhsil müəssisələrində xarici dil dərslərində müxtəlif metod və vasitələrdən səmərəli şəkildə istifadə edilməklə xarici dilin tədrisi prosesi inkişaf edir.*

## МЕТОДЫ, ИСПОЛЬЗУЕМЫЕ ПРИ ОБУЧЕНИИ НАВЫКАМ ЧТЕНИЯ НА УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА, И ИХ АНАЛИЗ

***Резюме***

*В наше время очень важно знать иностранный язык. Поэтому особое внимание уделяется преподаванию иностранных языков в школах и вузах страны, а учителя используют различные методы и инструменты для развития навыков владения иностранным языком. Как мы все знаем, чтобы выучить иностранный язык, вам необходимо овладеть важными языковыми навыками. Одно из них - навыки чтения, которые считаются одним из основных навыков иностранного языка. Развитие этих навыков при обучении иностранного языка является одним из важнейших вопросов. Учителя используют различные методы и приемы для развития навыков чтения учащихся на уроках иностранного языка. Это поднимает вопрос о разнообразии методов и о том, какой из них может быть более полезным. По этой причине каждый учитель использует методы и инструменты, которые, по его мнению, будут более подходящими и полезными для учеников. Сегодня на уроках иностранного языка используются различные методы и инструменты. Объектом исследования являются методы, используемые для развития навыков чтения при обучении иностранных языков, и*

*их подробный анализ. В настоящее время процесс обучения иностранных языков развивается в образовательных учреждениях с эффективным использованием различных методов и средств на уроках иностранного языка.*

**METHODS USED İN TEACHİNG READİNG SKİLLS İN FOREİGN LANGUAGE CLASSES AND THEİR ANALYSİS**

***Summary***

*It is very important to know a foreign language nowadays. Therefore, special attention is paid to the teaching of foreign languages in schools and universities of our country, and teachers use various methods and tools to develop foreign language skills.As we all know, you need to master important language skills to learn a foreign language.One of them is reading skills, which are considered to be one of the basic foreign language skills. The development of these skills in foreign language teaching is one of the most important issues. Teachers use a variety of methods and techniques to develop students' reading skills in foreign language classes. This raises the question of the diversity of methods and which method may be more useful. For this reason, every teacher uses methods and tools that they think will be more appropriate and useful for their students.There are various methods and tools used in foreign language classes today. The object of research is the methods used for the development of reading skills in foreign language teaching and their detailed analysis. Currently, the process of teaching a foreign language is developing in educational institutions with the effective use of various methods and tools in foreign language lessons.*

***Açar sözlər:*** *xarici dil tədrisi, dil tədrisində əsas dil bacarıqları, metod anlayışı, oxu bacarıqları, oxu növləri və üsullari, oxu tədrisində istifadə olunan metodlar*

***Ключевые слова:*** *обучение иностранному языку, базовые языковые навыки при обучении языку, понятие метода, навыки чтения, виды и методы чтения, методы, используемые в обучении, обучение*

***Key words:*** *foreign language teaching,basic language skills in language teaching,concept of method, reading skills, types and methods of reading, methods used in teaching reading*

## Giriş

Oxu bacarığı digər dil bacarıqları kimi xarici dil tədrisində mühüm yer tutur. Xarici dilin tədrisində oxu mətnlərindən istifadə olunması şagirdləri "mədəni" linqvistik fəaliyyətə cəlb etmək deməkdir. Buna əlavə olaraq şagirdlər oxu vasitəsilə yeni sözlər, deyimlər və mədəni ifadələr öyrənir, lüğət ehtiyatını zənginləşdirir və beləliklə həmin xarici dildə sərbəst danışmağı öyrənməyə başlayır. Bildiyimiz kimi xarici dil dərsləri əvvəllər daha çox qrammatika və lüğətdən ibarət olmuşdur. Amma hal-hazırda xarici dil dərslərinin tədrisində yeni metod və vasitələr tətbiq olunur. Bu metod və vasitələr isə şagirdlərin dil bacarıqlarına yiyələnməsinə və bu bacarıqları inkişaf etdirməsinə əsaslanır. Buna əsasən bu məqalədə əsas dil bacarıqlarından biri olan oxu bacarıqları və

oxu bacarıqlarının inkişaf etdirilməsi üçün istifadə olunan metod və vasitələr ətraflı şəkildə tədqiq olunmuş və onlar haqqında ətraflı məlumat verilmişdir.

**Oxu bacarıqlarının tədrisində istifadə olunan metodlar və onların təhlili**

Xarici dil tədrisi tarixi boyunca bir dili necə öyrətmək həmişə mübahisələrə səbəb olmuşdur. Xarici tədris metodları, xarici dil öyrənmək və bilik əldə etmək vasitəsi olmaqdan əlavə, şagirdi tədris işində daha səriştəli bir şagird halına gətirmək üçün yol göstərməyə çalışan sistemlərdir. Dil tədrisindəki metod, şagirdin təhsil məqsədlərinə ən sürətli və etibarlı şəkildə çatmasını təmin edəcək bir tədris elementidir. Bu günə qədər bir çox öyrənmə və tədris metodları inkişaf etdirilsə də, kifayət qədər ideal bir metodun varlığından təkbaşına danışmaq mümkün deyil. [2, s. 1]

Dil tədrisinin ümumiyyətlə çox qədim bir tarixi var. Əsrlər boyu insanlar özlərini tanıtmaq, daha çox şey öyrənmək və öyrətmək, ya da başqa mədəniyyətləri, başqa sivilizasiyaları və başqa yerləri tanımaq üçün bir sira cəhdlər etmiş, bunun nəticəsində isə müxtəlif dillər öyrənmişlər. Amma bildiyimiz kimi dil öyrənmək heç də asan deyil. Dil öyrənmək üçün müxtəlif üsul və vasitələrdən istifadə etməklə yanaşı əsas dil bacarıqlarını da inkişaf etdirmək lazımdır. Bəs əsas dil bacarıqları nədir və hansılardır? Dil tədrisində əsas bacarıqlar ümumi başlıqlar altındadır: anlama bacarıqları (oxu, dinləmə) və ifadə bacarıqları (danışıq, yazı).

İfadə bacarıqları insanın öz hiss və düşüncələrinin şifahi və ya yazılı ifadəsidir. Anlama bacarıqları, bir danışanı və ya yazılı bir ifadəni (mətni) başa düşə bilməkdir. Başqalarının duyğularını və düşüncələrini eşitmək və ya oxumaqla anlamaq bacarıqları anlama bacarıqlarının əsasını təşkil edir. Anlama bacarıqları iki başlıq altında da araşdırıla bilər. Bunlar, dinləyib-anlama və oxuyub-anlama bacarıqlarıdır. [3]

Ana dili tədrisində olduğu kimi xarici dil tədrisində də oxu problemi dilçilik və ədəbiyyat elmlərinin mərkəzindədir. Psixologiyadan psixolinqvistikaya, sosiologiyadan sosiolinqvistikaya, semiologiyadan estetikaya qədər bir çox elm sahələri oxuma aktına uyğun modellər təqdim etməyə çalışırlar. Təhsil elmi də bu modellərin təhsildə tətbiq olunan tərəflərini nəzərə alaraq öz nöqteyi-nəzərindən qiymətləndirərək bir sintez modeli yaratmağa çalışır. [1, s. 2]

Oxunun bir sıra növləri və eyni zamanda müxtəlif oxu üsulları var. Çünki biz həyatımızın müxtəlif vaxtlarında fərqli texnikalardan istifadə edərək oxuyuruq. Oxu tərzimiz ehtiyaclarımıza görə dəyişə bilir və bəzən vərdişlərimizə görə formalaşır. Oxumağa başladığımız ilk gündən fərqli texnikaların oxu vərdişimizə təsiri olduğunu görürük. Bu səbəbdən müəllimlər bu metodlardan şagirdlərin yaş və diqqət səviyyəsinə uyğun olaraq oxu təhsilində istifadə edirlər. Bu növlərin və texnikanın nə olduğunu bilmək, yetkin bir oxucu kimi öz oxu vərdişlərimizə rəhbərlik etməklə yanaşı, gənc oxucularımıza və həm də

uşaqlarımıza rəhbərlik etmək üçün yaxşı bir başlanğıc təmin edə bilər. Geniş yayılmış və çox tətbiq olunan oxu növləri aşağıdakılardır:

*Ucadan (səsli) oxuma*: Mətndəki söz və ifadələrin intonasiya, vurğu və bədən dilindən istifadə edərək səsləndirilməsidir. Ucadan oxuma təhsildə təsirli bir üsuldur. Sözlərin düzgün səsləndirilməsinə və görmə yaddaşının inkişafına kömək edir. Yüksək səslə oxumaq, ünsiyyəti təmin etdiyi üçün həm də idrak və duyğunun inkişafına kömək edir.

*Yoxlayıcı oxu:* Müəllimin dərs üsulu olaraq seçdiyi kitabın dərsdə izahatlarla müşayiət olunmasıdır. Müəllimlərə şagirdlərini daha yaxşı tanımaq və anlamaq imkanı verən yoxlayıcı oxu, ilk növbədə şagirdlərin bütün diqqətini mətnə verməsinə kömək edir.

*Səssiz oxu*: Səssiz oxu sözləri və cümlələri gözlə izləməklə oxumaqdır. Fərdin gündəlik həyatda ən çox üstünlük verdiyi bu oxu növü, onların mətni anlaması və qavraması üçündür. Bu, oxucuya sözün səsini təsəvvür etməsinə və zehnində vizuallaşdırmasına imkan verir.

*Sürətli oxu:* Bu insana mətni daha qısa müddətdə oxumağa və anlamağa imkan verən bir oxu metodudur. Sürətli oxuma mətn üzərində diqqət və anlama gücünün mərkəzləşdirilməsi, göz və beyin üzərində çox iş görməsi ilə həyata keçirilir. Sürətli oxumaq yalnız böyük həcmli məlumatları artırılmış sürətlə oxumaqla yanaşı, oxuduğunuz məlumatı qavramaq qabiliyyətini də əhatə edir. Bunun üçün məktəbdə və gündəlik həyatımızda çox miqdarda mətnlər oxumaq lazımdır və bu metod bir çox peşələrdə böyük fayda verə bilər.

*Nəzərdən keçirmə yolu ilə oxuma üsulu*: Bir mətni oxumağa qərar vermədən əvvəl tanış olmaq və ümumi bir fikir əldə etmək üçün edilən oxuma üsuludur. Oxunacaq mətn seçimində üstünlük verilən bir oxu növüdür.

*Qeydlər vasitəsi ilə oxu üsulu*: Oxucunu oxu prosesində aktiv edən, əldə edilmiş məlumatları xatırlamağa və yenidən istifadə üçün saxlamağa imkan verən bir oxu növüdür. Bu metod həm də mətnin xülasəsi kimi qəbul edilə bilər. Fərqli format və strategiyalarda həyata keçirilə bilən qeydlər vasitəsilə oxu növündə, xüsusən bir mövzuya dair uzunmüddətli tədqiqatlar zamanı istifadə edilə bilən təsirli bir oxu texnikasıdır.

*Sual verərək oxuma*: Oxudan əvvəl və sonra mətnlə bağlı suallar yaratmaqla edilən bir oxu növüdür. Bir tədris metodu olaraq, şagirdlərin şüurlu bir şəkildə oxumağa başlamalarını və mətnlə maraqlanmalarını təmin edir.

*Müzakirə yolu ilə oxu üsulu*: Eyni mətni birdən çox şagirdin oxuması və oxuduqları mətnin müzakirəsi, qarşılıqlı bilik, hiss və təcrübə mübadiləsi yolu ilə oxu üsuludur. [4]

Əhəmiyyətli araşdırmalar (tədqiqatlar) oxu vərdişlərinin tədrisi yanaşmalarına təsir etdi. Tədqiqatlar göstərir ki, oxucu mətndə yazılmış sözə məlumat, bilik, duyğu, təcrübə və mədəniyyət, yəni əsas gətirir. Yəni, oxucular oxuduqlarını başa düşür, yadda saxlayır və öyrəndiklərini öz yoldaşları ilə bölüşür və

hətta onlarla müzakirələr də edir. Vurğulanmalıdır ki, oxumağa olan həvəs və istək bir çox şagirdi oxuma vərdişlərini uğurla mənimsəməyə sövq etdi. Bütün metodlar o vaxt təsirli olur ki, şagirdlərin özlərinə inamları yüksək olsun. Bildiyimiz kimi oxu tədrisində müəllimlər müxtəlif metodlardan istifadə edir. Gəlin həmin metodlara nəzər yetirərək onlar haqda ətraflı məlumat verməyə çalışaq.

*Oxu dərslərində istifadə olunan Fonetik metod.* Sözün məna kəsb edən ən kiçik hissəsi fonemdir. Adətən hərfləri dilin təməl hissəsi kimi düşünsək də, fonemlər danışıq dilinin əsas vahidləridir. İngilis dili kimi fonetik prinsiplərə əsaslanan dillərdə səslər səhifədəki sözləri ifadə etmək üçün hərflərə və hərf birləşmələrinə çevrilir. Beləliklə, oxu bir fərdin sözləri bir sıra səslər halında oxumaq qabiliyyətinə əsaslanır. Fonetik metod bir şagirdin sözləri səslərə ayırmağı, səsləri hərflərə çevirməyi və hərfləri birləşdirərək yeni sözlər yaratmağı öyrənməsinə kömək edən bir metod növüdür. Fonemlər və onların qarşılığı olan hərflər, sözlərdə onların təkrar-təkrar işlənmə yerinə görə öyrədilə bilər. Ümumilikdə öyrənilməli olan 40 İngilis fonemi və onların müxtəlif proqramlar vasitəsilə tədrisinə dair fərqli yanaşmalar var. Fonetik Metod ən populyar və ən çox istifadə edilən metodlardan biridir. Başlanğıcda bu proses şagirdlərə mərhələlərlə öyrədilir və şagirdlərin çox vaxt sözləri yüksək səslə oxuyarkən səslərlə bağlı tərəddüdləri olur amma sonradan hərf və səsləri uyğunlaşdırmaqla əlaqəli idrak prosesləri avtomatlaşdırılır və bu proses daha səlis olur. Ancaq İngilis dili həmişə səsləndiyi kimi yazılmır. Bu o deməkdir ki, bu dildə bəzi sözlər səsləndiyi kimi yazılmayacaq və onlar ancaq əzbərləmə yolu ilə öyrənilməlidir.

*Söz metodu.* Bu metod söz səviyyəsində oxumağı öyrədir. Burada şagirdlər sözləri səsləndirmir, əksinə onların yazılı formasını tanıyaraq (öyrənərək) sözü söyləməyi öyrənirlər. Şagirdin bildiyi sözlər əvvəlcə tək, daha sonra qısa cümlələrlə və sonda daha uzun cümlələrlə təqdim edilə bilər. Söz ehtiyatı artdıqca, şagirdlər yeni sözləri oxumaq üçün istifadə edə biləcəkləri qaydaları və nümunələri seçməyə başlayırlar. Bu metod avtomatik oxuma prosesidir və bəzən “görərək oxu” adlanır. Bu oxu metodunda şagirdlər oxuyarkən bildikləri sözləri səsləndirmir və yalnız tanış olmayan terminləri (sözləri) səsli şəkildə oxuyurlar. Görərək oxu daha sürətli oxu növüdür və oxumağı asanlaşdırır, çünki o yeni sözlərin mənimsənilməsi üçün şagirdlərin idraki diqqətdən istifadə etməsini əlçatan edir. Bu səbəbdən şagirdlərin gündəlik istifadə olunan İngilis dili lüğətini bu şəkildə oxuyaraq öyrənmələri tövsiyə olunur. [5]

*Şagirdlərin seçiminə əsaslanan metod.* Şagirdləriniz üçün seçə biləcəyiniz ən yaxşı oxu strategiyalarından biri də oxuduqları materiallarda seçim etmək bacarığıdır. Bu, şagirdlərinizdə oxuya olan həvəs və istəyi artırmaq üçün ən təsirli strategiyadır. Şagirdlərə seçim şansı verdiyiniz zaman onlar özləri üçün maraqlı olan materialı seçəcəklər. Bu, kitabı sona qədər oxumaq üçün şagirdlərdə motivasiya və maraq ehtimalını artırır. Şagirdlərin maraqlarını və

hobbilərini öyrənmək üçün onlara suallar verməyə başlayın. Sonra siz şagirdləri sevib sona qədər oxuya biləcəkləri kitablara yönəldə bilərsiniz. [6]

*Şagirdlər üçün suallar yaradaraq onları oxuya cəlb etmə metodu.* Bütün şagirdlərə oxunu öyrətməyin yaxşı yollarından biri də kitabdakı digər hissə və ya fəsillərə tez keçid etmək əvəzinə oxuduqları mövzu haqqında onlara suallar verməkdir. Bu suallar indi oxuduqları hissədə nələrin baş verdiyi və gələcək fəsillərdə nələrin ola biləcəyi kimi suallar ola bilər. Bunu etmək onların diqqətinin kitabdakı əsas məqamlara yönəlməsinə və kitaba olan maraqlarının artmasına kömək edə bilər. Oxudan sonra şagirdlər oxuduqları hissə haqqında bir-birləri üçün müxtəlif quiz və testlər hazırlaya bilərlər. Bu şəkildə suallar verməklə şagirdlər bir-birlərinin səhvlərini düzəldə bilər.

*Mətnin formasına diqqət yetirmə metodu.* Bu metod şagirdlərin oxudan əvvəl onlara verilmiş hər fəsildəki bütün başlıqları və alt başlıqları oxumasıdır. Onlar həm də kitabda verilmiş hər hansı şəkilə, qrafikə və ya xəritəyə baxa bilərlər. Bu məlumatlar, fəsli oxuduqları zaman nə öyrənəcəklərinə dair ümumi bir məlumat əldə etmələrinə kömək edə bilər. Bu metod həm də bədii əsərlərin oxunması zamanı da tətbiq oluna bilər. Şagirdlər hekayədəki elementlərdən (bədii tərtibatı, oradakı obrazlar, hekayənin süjeti və s.) hekayənin məzmununu xatırlamaq üçün köməkçi vasitə kimi istifadə edə bilərlər.

*Mətnlər üzərində qeydlər aparma metodu.* Şagirdlər əllərində qələm ilə oxumalıdırlar. Daha sonra onlar təxmin etdikləri və ya anladıqları şeyləri qeyd edə bilərlər. Amma oxu zamanı suallar yaranarsa, şagirdlər onları mütləq qeyd etməlidir. Şagirdlər həm də fəsildəki bütün əsas sözlərlə, müəyyənləşdirməli olduqları tanış olmayan terminlərlə birlikdə lüğət siyahısı yarada bilərlər. Qeydlərlə oxu, şagirdlərin sinifdə edəcəyi müzakirələrə hazırlaşmasına da kömək edir. Onlar həm də yapışqanlı qeydlərdən istifadə edə bilər. Yapışqanlı qeydlərdən istifadə etmək, şagirdlərə mətnə zərər vermədən məlumatları qeyd etməyə imkan verir. Şagirdlər mətnə cavab vermək üçün daha sonra yapışqanlı qeydləri götürə və yenisini yarada bilər. [7]

*Audio kitablardan istifadə metodu.* Ən azı vaxtaşırı audio kitab dinləmək bütün şagirdlər üçün əla bir metoddur. Ancaq bu metodun oxuda çətinlik çəkən və disleksiyası olan şagirdlər üçün xüsusi faydaları var. 2010-cu ildə edilən bir elmi araşdırmada, audiokitabları dinləyən disleksiyası olan şagirdlərin oxu dəqiqliyi, davranış və məktəb performansının yaxşılaşdırılması və daha çox motivasiya və məktəbə cəlb edilməsində əhəmiyyətli olduğu göstərilmişdir. Bu metod qeyd etdiyimiz kimi disleksiyası olan şagirdləri dəstəkləmək üçün təsirli bir metod olsa da, ənənəvi oxu növlərini əvəz edə bilməz. [8]

*Uşaqların kitab həftəsi fəaliyyətləri metodu.* Milli Uşaq Kitab Həftəsi 1919-cu ildən bəri gənc oxucuları kitablardan zövq almağa təşviq etməyə həsr olunmuşdur. Noyabr ayının əvvəli baş tutan bir həftə ərzində, ölkədəki bütün məktəblər və kitabxanalar oxu həftəsini müxtəlif yollarla qeyd edirlər. Müəllim-

lər şagirdlərini əyləncəli və maarifləndirici oxu fəaliyyətlərinə cəlb etməklə ilin bu vaxtlarında "Oxu həftəsi günü" kimi qeyd edilən ənənədən yararlana bilərlər.

*Oxuda motivasiya metodları və fəaliyyətləri.* Şagirdlərinizin oxumaq üçün bir az motivasiyaya ehtiyacı olduğunu heç düşünürsünüz? Buna görə də müəllimlər şagirdlərin marağına səbəb olan və özlərinə inamlarını artıran fəaliyyətlərə diqqət yetirməlidirlər. Araşdırmalar göstərir ki, şagirdin motivasiyası uğurlu oxuda açar amildir və şagirdlərin oxuda çətinlik çəkməsi yəqin ki, onların oxumaqda çox səlis olan şagirdlər qədər həvəsli olmayacaqlarını göstərir. Müəllim şagirdlərə bacarıq səviyyəsinə uyğun mətnləri seçməyi və hər janrda onları maraqlandıran mövzu tapmağı öyrətməlidir. Bu metod və fəaliyyətlər şagirdlərinizin motivasiyasını artıracaq və oxumağa başlamalarına kömək edəcəkdir. [9]

Yuxarıda göstərilən metodlardan istifadə edən şagirdlər oxu bacarıqlarını effektiv şəkildə inkişaf etdirir. Amma onlar bu metodları diqqətlə tətbiq edib izləməlidir. Müəllim isə şagirdləri dərs zamanı nə etməli olduqlarına düzgün istiqamətləndirməlidir.

**Nəticə**

Tədqiqat nəticəsində aydın olur ki, xarici dildə oxuyub-anlama prosesinə fərqli metodlar birbaşa təsir göstərir. Çünki hər müəllim oxu dərslərində özünün düzgün hesab etdiyi oxu metodundan istifadə edir. Müəllimlərin müxtəlif oxu metodlarından istifadə etməsi oxu prosesində istifadə edilə biləcək metodların üstünlükləri və ya çatışmazlıqları məsələsini də gündəmə gətirir. Bu isə artıq şagirddən şagirdə görə dəyişir. Buna görə də yadda saxlamaq lazımdır ki, şagirdlərə nə qədər müxtəlif oxu metodları öyrədilərsə, onların sinifdə uğur qazanma ehtimalı bir o qədər yüksək olur. Xarici dildə oxu bacarıqlarını öyrədən müəllimlər dərslərdə müxtəlif metodlardan istifadə edərək fərqli intellektə malik şagirdlərin olduğunu bilməli və öyrətdikləri oxu metodlarını şaxələndirib inkişaf etdirməlidirlər. Bildiyimiz kimi hər şagird özünə uyğun hesab etdiyi metodu seçir və özünüinkişafda məhz bu metoddan istifadə edir. Bəzən metodların müxtəlifliyi onları daha qəliz və çətin göstərir.Amma bəlkə də şagirdlərə dil bacarıqlarına yiyələnməkdə ən yaxşı yol göstəricisi xarici dil öyrənən şagirdlərə mümkün qədər çox metod və üsul təqdim etmək və hansı metodun onlar üçün effektiv olacağının qərarını onların öhdəsinə buraxmaqdır. Çünki onsuz da zərurət yarandıqda hansı metoddan istifadə edəcəklərinə özləri qərar verirlər. Bütün bunlara istinad edərək söyləyə bilərik ki, müəllimlər xarici dilin tədrisi zamanı oxu metodlarına diqqət yetirməli və şagirdlərə oxu bacarıqlarına yiyələnməkdə kömək edib yol göstərməlidir.

***Ədəbiyyat***

1. *Abdullab Er, Yabanci dil ögretiminde "Okuma", Atatürk Üniversitesi Kazım Karabekir Eğitim Fakültesi Dergisi, 2005, 11 s.*
2. *Muhammet Raşit Memiş, Mehmet Dursun Erdem, Yabanci dil öğretimde kullanilan yöntemler, kullanim özellikleri ve eleştiriler, International*

*Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 8/9 Summer, 2013, 22 s.*

3. *Penny Ur, A Course in Language Teaching, Cambridge University Press, 1996, 388 s.*
4. *Jeremy Harmer, English Language Teaching, Pearson Education Limited, 2007, 448 s.*
5. *İnternet səhifələri .*
6. *https://www.turkceogretimi.com/dil-oeretim-yoentemleri/dil-oeretiminde-temel-becerilere-genel-bir-bak.*
7. *http://okuyayplatformu.com/okuma-tur-ve-teknikleri.*
8. *https://www.readandspell.com/methods-for-teaching-reading.*
9. *https://www.teachhub.com/teaching-strategies/2017/01/5-effective-teaching-strategies-for-reading/.*
10. *https://www.thoughtco.com/reading-comprehension-strategies-7952.*
11. https*://www.edutopia.org/article/6-elementary-reading-strategies-really-work.*
12. *https://www.thoughtco.com/reading-strategies-for-elementary-students-2081414.*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MOTİVASİYANIN ROLU

**F.F.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aliyevafiruza7@mail.ru*

***Xülasə***

*Sürətli inkişaf edən, elmi, siyasi, mədəni, iqtisadi və coğrafi mənzərəsi dəyişən müasir dünyada ingilis dili özünəməxsus və xüsusi yer tutur. İngilis dili eyni dil daşıyıcıları olmayan insanlar arasında əsas ünsiyyət vasitəsi hesab olunur. Bu mənada beynəlxalq dil olan ingilis dilinin məktəblərdə tədris edilməsi vacibdir. İnteraktiv təşkil edilən dərslərdə şagirdlərin diqqətini mövzuya yönəltmək və onlarda maraq oyatmaq üçün fəal təlimin birinci mərhələsi olan motivasiyanın düzgün qurulması əsas şərtlərdən biridir. Motivasiya dərsin əsas hərəkətverici qüvvəsidir və onun idarə olunmasını asanlaşdırır. Şagirdlərin dərs ərzində fəallığını təmin etmək və onların diqqətini mövzuya yönəltmək üçün motivasiyanın müxətlif üsullarından istifadə edilir.*

## РОЛЬ МОТИВАЦИИ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

***Резюме***

*В быстро развивающемся научном, политическом, культурном, экономическом и географическом мире английский язык занимает особое место. Английский язык является основным средством общения между людьми, которые не говорят на одном языке. В этом случее важно учить английский как международный язык в школах. Правильная мотивация,являющаяся первым этапом обучения, является одним из основных условий привлечения внимания школьников к теме и пробуждения их интересы к интерактивным урокам. Мотивация-это основная движущая сила урока,которая облегчает управление уроком. Чтобы поддерживать активность учащихся во время урока и привлечь их внимание к теме,используются ращличные методы мотивации.*

## THE ROLE OF MOTIVATION IN ENGLISH TEACHING

***Summary***

*In the rapidly evolving modern world, where the scientific, cultural, economic and geographical landscape is changing, the English language has a special place. English is the main means of communication between people who do not speak the same language. That's why it is important that Emglish, an international language, be taught in schools. Motivation, which is the first stage of active learning, is one of the main conditions to draw students' attention to the topic and arouse their interest in interactive lessons. Motivation is the main driving force of the lesson and makes it easier to manage. Different methods of motivation are used to keep students active during the lesson and to draw their attention to the topic.*

***Açar sözlər:*** *idrak, motivasiya, oyunlar, uğur, dil, fəallıq, məqsəd, fəal təlim, oxu vərdişi, yazı vərdişi, danışıq vərdişi.*

***Ключевые слова:*** *познание, мотивация, игры, успех, язык, активность, цель, активное обучение, привычка к чтению, привычка к письму, речевая привычка.*

***Key words:*** *perception, motivation, games, success, language, activity, purpose, active learning, reading habit, writing habit, speaking habit.*

Motivasiya haqqında müxtəlif təriflər və fikirlər söylənilmişdir. Bəzilərinə görə o, insanı fəaliyyətə gətirən inanclar, fikirlər sistemidir. Bir növ insanda öyrənmək istəyi yaradır. C.Harmerə görə motivasiya insanı bir şeylərə nail olmaq və uğur qazanmağa vadar edən daxili qüvvədir. "Əksər sahələrin öyrənilməsində motivasiyanın uğura aparan əsas yol olması qəbul ediləndir. Motivasiya olmadan bizim cəhdlərimiz uğursuzluğa düçar olacaq". [2, səh 51] O, şagirdlərdə idrak fəallığı oyadaraq onları kəşfə, yeni biliyə aparan yolun başlanğıcıdır. Motivasiya şagirdlərdə hərəkət etmək üçün qərar yaradır, sanki onların təfəkkürünə "hərəkət et" əmri verir. Beləliklə, şagirdlərdə uğur qazanmaq üçün fiziki və ya idraki cəhd yaradır.

Araşdırmaçılar arasında belə bir mübahisəli fikir vardır ki, motvasiya birinci gəlir yoxsa uğur. Yəni şagirdlərin uğur qazanmaq istəyi onlarda maraq oyadır yoxsa maraqları yarandığı üçün uğur qazanırlar? Öyrənmə prosesində bu iki amil arasında sıx və qarşılıqlı əlaqə var. Biri olmadan digərinə nail olmaq mümkün deyil.

Düzgün təşkil edilmiş motivasiya şagirdlərin dərs boyu fəallığını təmin edir, onları dərsin digər mərhələlərində fəal olmağa sövq edir. Motivasiya birbaşa təhsil alanlarla bağlı olur və təlim prosesi zamanı onları ruhlandırır. Fəal təlimdə adətən situativ motivasiyadan istifadə edilir. Bunun digər adı problemin qoyuluşudur. Belə təşkil olunmuş motivasiyanın məqsədi şagirdləri hər hansı bir tapşırığı yerinə yetirməyə yönləndirməkdir. Əgər motivasiya düzgün qurulmazsa və ya zəif təşkil edilərsə, şagirdlər dərs ərzində həvəssiz olar və bu da öz növbəsində təlimin keyfiyyətinə mənfi təsir göstərər.

Motivasiyanın iki növü qeyd edilir: daxili və xarici motivasiya

Daxili motivasiya şagirdlərin marağı, onların arzu və istəkləridir. Xarici dillərin öyrənilməsi zamanı bu motivasiya olduqca önəmlidir. Çünki şagird yalnız dili öyrənmir, həmin ölkəni, onun millətini, mədəniyyətini, insanların gündəlik yaşam tərzlərini də öyrənir. Əgər bütün bunlar şagird üçün maraqlıdırsa onda daxili motivasiya yaranır və dil dərslərində daha aktiv olur.

Xarici motivasiya isə kənardan şagirdə edilən müsbət təsirlərdir. Məsələn, müəllim ən vacib kənar amil hesab edilir. O, şagirdi həmin dili öyrənməyə həvəsləndirə və dərsi maraqlı təşkil edə bilir. Eyni zamanda bunun əksini də edə bilər. Xarici motivasiyaya şagirdin öyrənmək istədiyi dilin bugünkü cəmiyyətdə aktuallığı da daxildir. Bu gün ölkəmizdə ən aktual xarici dil rus və ingilis

dilləri hesab edilir və məktəblərdə bu dillərin tədrisinə böyük önəm verilir. Bu da həmin dillərin cəmiyyətdə, dünya iqtisadiyyatında, siyasətində böyük rol oynaması ilə bağlıdır. Bu dillərlə yanaşı ölkəmizdəki bəzi təhsil müəssisələrində almandili də öyrədilir.

Xarici dillərin, xüsusilə də ingilis dilinin öyrənilməsində motivasiya əsas hərəkətverici qüvvə hesab edilir, onun rolu güclü və danılmazdır.

Sinifdə motivasiya qurarkən şagirdərin fərdi xüsusiyyətləri və maraqları da nəzərə alınmalıdır. P. Ura görə motivasiya edilmiş şagirdlər bir neçə qrupa bölünür. Onların bəzilərinə nəzər yetirək: [1, səh 275]

1. Müsbət enerjili və tapşırığa meyilli. Belə şagirdlərdə tapşırığı həll etmək və hansı nəticəyə gəldiklərini görmək istəyi olur. Onlarda özünə əminlik yüksəkdir.

2. Məqsədyönlü. Bu cür şagirdlər öyrənəcəkləri mövzunu, dərsin məqsədini yaxşı anlayır, görüləcək işləri təxmin edə bilir və birbaşa uğur qazanmaq üçün hərəkətə keçirlər.

3. Uğur qazanmağa ehtiyacı olanlar. Şagirdlərdə uğur qazanmağa daxili ehtiyac və tələb olur. Onların əsas məqsədi qarşıdakı çətinlikləri aşaraq pillə-pillə uğura nail olmaqdır.

4. Dözümlülük. Bu qrupa daxil olanlar öyrənmə prosesində çoxlu cəhdlər edirlər və uğursuzluq onları məyus etmir.

Xarici dillərin öyrənilməsində iki əsas model vardır. [4, səh 98]

1. Qardner modeli
2. Dorney modeli

H.Qardner xarici dillərin ikinci dil kimi öyrənilməsində motivasiyanın rolunu araşırdıran ilk şəxslərdən biri olmuşdur. O, motivasiyanın üç əsas elementini qeyd edir:

1.Cəhd
2. İstək
3. Müsbət münasibət

Şagirdlər dili öyrənmək üçün səy göstərməli, qarşılarına məqsəd qoymalı və bu məqsədə müsbət münasibətləri olmalıdır. Qardenrə görə məqsəd insanda motivasiya yaradır və o, bu məqsədə çatmağa çalışır.

Z.Dorneyin modelinə görə öyrənmə prosesi üç mərhələdən keçir. Birinci mərhələ ilkin motivasiya adlanır və şagirdlərdə öyrənəcəkləri şeylərə qarşı həyəcan yaradır. İkinci mərhələdə müəllim şagirdlərdəki motivasiyanı saxlamalı və qorumalıdır. Motivasiyanı saxlamaq onu yaratmaqdan daha çətindir. Gərək şagirdlərdə yaranan maraq və həyəcan dərsin bütün mərhələlərində qorunub saxlanılsın. Üçüncü mərhələ isə motivasiyanın sonuncu mərhələsidir. Bu zaman şagirdlər qarşılarına qoyduqları məqsədə çatmaq üçün müxtəlif tapşırıqlar edir və özləri nailiyyət əldə etdikləri üçün sevincli, müsbət enerjili olurlar.

Beləcə, dərsin sonuna qədər maraq içində qalır, öz maraqlarını təmin etmək üçün ciddi cəhdlə çalışır.

Başqa bir qrup araşdırmaçılara görə motivasiya məqsədə çatmaq üçün edilən cəhddir. O, üç əsas hissədən ibarətdir: enerji, istiqamət və əzmkarlıq. Bunların üçü də bir-birindən asılıdır və motivasiyanın tərkib hissəsidir. Əgər istiqamət olmasa enerji və əzmkarlıqla məqsədə çatmaq olmaz. Eyni şey enerji və əzmkarlığa da aiddir. Bu üç amilin birinin çatışmamazlığı motivasiyanın uğursuz təşkilini göstərir.

İngilis dilinin tədrisi zamanı motivasiyanı təşkil etməyin bir sıra üsulları vardır. Bunlara beyin həmləsi, müxtəlif oyunlar, krosvord həlli, təsvir vermək, idrak fəallığı oyadan suallar vermək, səhvi düzəltmək, fərqli olanı seçmək, musiqidən, mövzu ilə bağlı videolardan və ya şəkillərdən istifadə və digər bir çox üsulları göstərmək olar.

Oxu mətnləri üzrə işə başlamazdan əvvəl şagirdlərdə mövzu haqqında müəyyən fikirlər yaratmaq lazımdır. Bunun üçün müxtəlif şəkillərdən, suallardan, şəxsi təcrübədən istifadə etmək olar. Məsələn, əgər oxu mətni vəhşi heyvanlar ilə bağlıdırsa, şagirdlərdən hansı vəhşi və ev heyvanlarını tanıdıqlarını, onlar arasındakı fərqi soruşmaq olar. Və ya şagirdlər bir neçə qrupa bölünür. Onlara heyvanların şəkilləri paylanılır. Bu şəkillərin içindən evcil və vəhşi heyvanları ayırmaq lazımdır. Sonra bir neçə şagird bəzi heyvanlar haqqında məlumat verir. Beləliklə, mövzu haqqında anlayışları olan şagirdlər oxu mətni üzrə işə başlayır.

Başqa bir üsulda müəllim heyvanlarla bağlı öz başına gəlmiş hər hansı hadisəni və ya oxuduğu maraqlı faktları paylaşa bilər. Daha sonra bu barədə şagirdlərin fikrini, onların öz təcrübələrini soruşur. Nəticədə şagirdlərdə mövzunun heyvanlara aid olacağı haqqında müəyyən fikirlər yaranır.

Beyin həmləsindən istifadə də geniş yayılmış motivasiya üsuludur. Bunu şifahi və yazılı şəkildə təşkil etmək olar. Bu üsul adətən dəqiq bir problemin həlli zamanı istifadə edilir. Eyni zamanda əqli hücum da adlandırırlan üsulu ilk dəfə Amerikan psixoloqu A.Osborn 1953-cü ildə təklif etmişdir. "Əqli hücum – şagirdlərin fəallığının həvəsləndirilməsi və ideyaların sürətli generasiyası üsuludur". [9, səh 657]

Beyin həmləsi təşkil edilərkən şagirdlərə mövzu ilə bağlı suallar da ünvanlana bilər. Müəllim bu üsuldan istifadə etsə onun tətbiq edilmə qaydalarını yaxşı bilməlidir. Əvvəlcə dərs zamanı həlli tələb edilən problemi müəyyən etməlidir. Sonra bu problemlə bağlı elə suallar tərtib etməlidir ki, onların bir neçə cavabları olsun. Hətta mümkün cavablar bir-birinə zidd olsa daha yaxşı olar. Bu zaman şagirdlərdə idrak fəallığı yaranır və onları düşündürür. Tənqidi təfəkkür hərəkətə keçir. Müəllim şagidlərin öz fikirlərini ifadə etməsi üçün şərait yaratmalıdır. Şagirdlər əmin olmalıdır ki, onların cavabları müəllim tərəfindən qəbul ediləcək və onlara qarşı sərt tənqidi fikirlər səslənməyəcəkdir.

Müəllim deyilmiş fikirləri lövhəyə yazmalıdır və hər kəs bunu görməlidir. Bu, şagirdlərə onların fikirlərinin nə qədər önəmli olduğunu göstərəcəkdir və onları cəsarətləndirəcəkdir. Bir şərtə də əməl edilməlidir. Əvvəlcədən onlara deyilməlidir ki, yoldaşlarının fikirləri həmin anda şərh edilməməlidir və ya eyni fikir təkrar deyilə bilməz. Müəllimin bu zaman əsas vəzifəsi şagirdləri cavab verməyə, öz fikirlərini ifadə etməyə həvəsləndirməkdir. Onları məcbur etmək olmaz. Çünki motivasiyada məcburiyyət yoxdur, əsas məqsəd dərsə həvəsləndirməkdir. Əgər motivasiyanın təşkili zamanı çətinliklər yaransa, məsələn, şagirdlər verilmiş sualı tam başa düşməsə və ya cavab verməkdə çətinlik çəksələr, müəllim ya sualı dəyişib daha sadə formada verməli, ya da öz ideyalarının bəzilərini şagirdlərlə paylaşmalıdır. Belə hal şagirdləri yönləndirir, lakin bu ideyalar elə deyilməlidir ki, qarşı tərəf bunu yeganə düzgün cavab kimi qəbul etməsin. Hər bir yeni təklif şərhsiz qeyd edilməlidir. Bu cavablar fərqli, lakin maraqlı və faydalı ola bilər. Artıq cavablar qurtarırsa, beyin həmləsi də dayandırılır və deyilən fikirlər birlikdə şərh edilir. Mövzu ilə bağlı olanlar seçilir və tədqiqat sualı qoyulur.

Məsələn, mövzu əlavə məşğuliyyətlər və asudə vaxtın təşkili ilə bağlıdır. Müəllim lövhəyə mövzunun adını bir sözlə yazır. “ Hobby”.

Sonra şagirdlərdən xobbiləri haqqında soruşur və alınan cavabları lövhəyə yazır. Buradan müəllim dərsə giriş edir və bugünkü mövzunun nə haqqında olacağını şagirdlərdən soruşur. Müəllim eyni zamanda şagirdlərə müasir və əvvəlki dövrlərdəki xobbilər haqqında məlumatlar verə bilər, şagirdlərin bunlara münasibətini öyrənər.

Kart seçmə oyunu. Bu oyun tədrisinə bir neçə saat ayrılmış mövzuların keçirilməsində əhəmiyyətlidir və eyni zamanda əyləncəlidir. Müəllim sinifdəki şagirdlərin hərəsinə iki kart paylayır. Bu kartların üzərində müxtəlif rənglər, işarələr və ya şəkillər ola bilər. Eyni kartlardan müəllimin stolu üstündə də olur, o kartlar tərs çevrilir və qarışdırılır. Müəllim dərsi keçməyə başlayır və bir neçə dəqiqə sonra stolunun üstündən bir kart seçir. Həmin kart hansı şagirdin kartı ilə uyğunluq təşkil etsə həmin şagird müəllimin sualına cavab verir. Beləliklə, dərs ərzində bu proses davam edir. Bunun nəticəsində şagirdlər dərs zamanı suala cavab verməyə hazır olur və diqqətini tamamilə dərsə verir. Əgər mövzu hər hansı şəxsiyyətlər və ya xeyriyyəçi insanlar haqqındadırsa, kartlarda onların şəkillərini qoymaq olar. Kimdə hansı şəxsiyyət çıxsa onun haqqında qısa məlumat verir. “Kart seçmə oyunu dərs ərzində şagirdlərin iştirakını təmin edir və onların marağını artırır” [3, səh 26]. Bu eyni zamanda şagirdlərdə danışıq vərdişləri də formalaşdırır.

Motivasiya mərhələsində geniş istifadə edilən metodlardan biri də anlayışın çıxarılması üsuludur. Bu üsulun əsas məqsədi şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək və onlarda yüksək fəallıq yaratmaqdır. Çünki anlayışın çıxarılması üsulu oyun-tapmaca formasındadır. Müəllim əvvəlcə lövhəyə söz-

lər yazılmış kartları asır, lakin kartlar tərs üzünə çevrilmiş olmalıdır ki, şagirdlər cavabı görməsin. Sonra sözün və ya sözlərin bir-bir əlamətləri deyilir. Şagirdlər də öz cavablarını və ya düşündükləri cavabın əlamətlərini deyirlər və müəllim o əlamətlərin olub olmadığını söyləyir. Məsələn, 8-ci sinif ingilis dili dərsində müəllim yeni mövzu "Şiddətə yox deyək (Say no to violence)" dərsi ilə bağlı ip ucu vermək istəyir. O, lövhəyə asılan kartların birinin altına "Şiddət (violence)" sözünü yazır və onun təsvirlərini deyir: qorxuducu (frightening), kobud, zorba (bully), cəza (punishment). Şagirlərin cavablarını aldıqdan sonra bir neçə əlamət də söyləmək olar: Keçmişdə müəllimlər şagirdlərə cəza vermək üçün çubuqdan və ya dəri kəmərdən istifadə edirdilər. (Teachers used a cane or a leather belt to punish students in the past). Beləliklə cavab tapılana qədər müəllim şagirdləri yönəldir.

Təsvirin verilməsi. Mövzuya uyğun olaraq müəllim hər hansı əşyanın, yerin, hadisənin, şəxsin təsvirini verə bilər və şagirdlər onun nə olmasını tapmalıdır.

Yazı vərdişlərini formalaşdırmaq və şagirdlərin dərs ərzində fəallığını təşkil etmək üçün kağız parçalarından istifadə etmək olar. Mövzu qəhrəmanlar haqqındadır. Müəllim şagirdlərin hər birinə eyni sayda balaca kağız parçaları verir. Onların sayı üç, beş, ən çoxu yeddi ola bilər. Müəllim bir sual verir və eyni zamanda onu lövhəyə yazır. "Azərbaycanın hansı milli qəhrəmanını tanıyırsınız?". Şagirdlər sualın cavabını kağız parçalarından birinə yazır. Sonra müəllim digər sualları verir. Şagirdlərdən cavabları alır. Bu üsulun tətbiq edilməsinin əsas səbəbi odur ki, əgər müəllim şagirdlərə milli qəhrəmanlar haqqında beş ya altı cümləlik yazı yazmaqlarını istəsə bir çoxu bunu həvəssiz qarşılayacaq. Çünki yazı yazmaq şagirdlərin çoxu üçün yorucu və maraqsızdır. Bir qismi də öz fikirlərini hansı ardıcıllıqla yazacağını bilmir. Belə suallar onlara həm yazacaqları ardıcıllığı göstərir, həm də balaca kağızlara yazılmış cavablar onlar üçün həcmcə də balaca görünür. Bundan sonra müəllim əsas mövzuya keçid edə bilər. Sualların sayı çox olmamalıdır və sadə şəkildə olmalıdır ki, çox vaxt aparmasın. "Bu oyun şagirdlərə öz fikirlərini nizamlamağa, onları yazıda ifadə etməyə qoymayan narahatlıqlarını və inşalar yazmağa qarşı olan istəksizlikləri aradan qaldırmağa kömək edir" .[3, səh 70]

Motivasiya mövzuya giriş mərhələsi olduğu üçün onun necə təşkil edilməsi dərsin digər mərhələlərinə və ümumilikdə həmin mövzunun öyrənilməsinə təsir edir. O, şagirdlərdə idrak fəallığı oyatmaqla yanaşı, onlar üçün əyləncəli olmalı, öz fikirlərini deyə biləcəkləri şəkildə təşkil edilməlidir. Xarici dillərin, eləcə də ingilis dilinin tədrisi zamanı müşahidə edilir ki, şagirdlərin çoxu həmin dildən istifadə etməkdən çəkinir. Onlar sözləri səhv tələffüz etməkdən, uğursuzluğa düçar olmaqdan qorxurlar. Buna görə də onların ingilis dilinin öyrənilməsinə marağı azala bilər. Motivasiyanı təşkil edərkən yaradılan isti və aradakı buzları əridən münasibət şagirdləri həyəcanlandırmaqla yanaşı onları

dərs ərzində özlərini rahat hiss etməyə sövq edir. Dərsə yüksək enerji ilə başlayan şagird onu həmin enerji ilə də bitirir.

***Ədəbiyyat***

1. *Ur P.A course in language teaching: Practice and theory // First published 1996, 17th printing 2009, 375 p.*
2. *Harmer J. The Practice of English Language Teaching, 3rd ed. Longman// 2007, 448 p.*
3. *Yvonne Bender. The power of positive teaching: 35 successful strategies for active and enthusiastic classroom participation// 2004, 119 p.*
4. *R.Nurhidayah. The role of motivation in second language acquisition //English Study Program, Sekolah Tinggi Bahasa Asing Pontianak. // 2020, p. 104 http://journal.stbapontianak.ac.id/index.php/spectral/article/view/59.*
5. *Stephen P. Robbins, David A. Decenzo, Mary Coulter. Fundamentals of managements:essential concepts and applications / 8th ed, 476 p.*
6. *Jack C. Richards. Communicative Language Teaching Today //2006, 47 p*
7. *Zoltan Dornyei.Motivational Strategies in the Language Classroom.//2001, 155 p.*
8. *İnteraktiv təlim ensiklopediyası. Müəllimlər üçün tədris vəsaiti. Bakı -2010/ 260 səh.*
9. *F.N.İbrahimov/R.L.Hüseynzadə. Pedaqogika dərsliyi. I Cild. Bakı, 2012, 706 səh.*
10. *A.Mirzəyeva. Motivasiya və onun təlimdə rolu. 2018. https://aztehsil.com/news/6621-motivasiya-v-onun-tlimd-rolu.html*
11. *G.Hüseynova Müəllimlərin işə qəbul proqramı. Bakı Peşəkarlar Akademiyası 2020. VII nəşr.*
12. *G.Guliyeva/ K.Rustamova. English. Student's book. "Kövsər" publishing house/Bakı,2019.*

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF METODLARI

**S.H.Əsədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*sevda.asadova.1994@inbox.ru*

***Xülasə***

*Məqalədə şifahi nitq, dinləyib-anlama, onların əhəmiyyətindən və müəllimlər və təhsilalanlar tərəfindən düzgün istifadəsindən bəhs olunur. Müasir dövrün tələblərinə əsasən şagird və tələbələrdə oxu və yazı bacarıqlarına nisbətən şifahi nitq və dinləyib-anlama bacarıqlarının inkişafına daha çox diqqət yetirilməlidir. Şifahi nitqin əhəmiyyətli xüsusiyyəti informasiya mübadiləsi olmaqla informasiyanın ötürülməsi və qəbul edilməsidir. Tədqiqatın obyekti ali təhsil müəssisələrində ingilis dili dərslərində şifahi nitqin öyrənilməsində istifadə olunan video, audio mətnlər, çalışmalar, müzakirə, müsahibə, dialoq, monoloq, şifahi təsvir, debat və s. üsul və vasitələrdən istifadə edilməsidir.*

## МЕТОДИКА РАЗВИТИЯ УСТНОЙ РЕЧИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

***Резюме***

*В статье обсуждается устная речь, понимание прочитанного на слух и их важность, а также их правильное использование учителями и учениками. Согласно современным требованиям, развитию навыков устной речи и аудирования у учащихся следует уделять больше внимания, чем навыкам чтения и письма. Важной особенностью устной речи является процесс передачи и получения информации, в том числе обмен информацией.*

*Объектом исследования является использование методов видео, аудиотекстов, заданий, обсуждения, интервью, диалога, монолога, устного описания, дискуссии и др. используемых при изучении устной речи на уроках английского языка в высших учебных заведениях.*

## METHODS OF DEVELOPING ORAL SPEECH IN THE ENGLISH LESSONS

***Summary***

*This article discusses speaking, listening comprehension and their importance, and their proper use by teachers and students. According to modern requirements, the development of speaking and listening skills in students should be given more attention than reading and writing skills. An important feature of oral speech is the process of transmitting and receiving information, including the exchange of information. The object of the research is the use of methods of video, audio texts, assignments, discussion, interview, dialogue, monologue, oral description, discussion,*

*etc. used in the study of oral speech in English lessons in higher educational institutions.*

***Açar sözlər:*** *şifahi nitq, dinləyib-anlama, informasiya, çalışmalar, inkişaf*
***Ключевые слова:*** *устная речь, понимание на слух, информация, упражнения, развитие*
***Key words:*** *oral speech, listening comprehension, information, exercises, development*

İngilis dili dünyada ən geniş yayılmış dillərdən biridir. İngilis dili dünyanın ünsiyyət üçün ən münasib dilidir. Buna görə də bu dil dünyanın beynəlxalq ünsiyyət dili rolunu oynayır. Qədim tarixə malik olan bu dilin mükəmməl öyrənilməsinə bir insan ömrü belə yetməz. Müasir mərhələyə gəlib çatması üçün bu dil uzunmüddətli inkişaf səviyyəsi keçmişdir. Ölkəmizdə də bu dil geniş yayılıb və tədris olunur. Bu tədris müəyyən tarixi köklərə malikdir. Bu dilin öyrənilməsində görkəmli pedaqoqlarımızın və dilçilərimizin hazırladıqları müxtəlif lüğətlərin, tədqiqat əsərlərinin və tədris vəsaitlərinin rolu böyükdür.

Son zamanlar ölkəmizdə təlim və təhsilin inkişafı prosesində bir çox önəmli addımlar atılmış və yeniliklər edilmişdir. Bununla da ölkəmizdə ümumtəhsil sistemində əsaslı dəyişikliklər edilmiş və bir sıra islahatlar aparılmışdır. Beləliklə, Azərbaycan təhsilində yenilik olan Kurikulum sisteminin tətbiqinə başlanıldı. Kurikulum bizə şəxsiyyətyönümlü olmağı öyrətdi, bilik və bacarıqların daha dəqiq qiymətləndirilməsi üçün müəllimlərə yaxından köməklik göstərdi. Bu sistemin özəlliyi ənənəvi təhsildən fərqli olaraq şagirdlərdə yazılı nitqlə bərabər şifahi nitqi inkişaf etdirməsidir. Buna əsasən deyə bilərik ki, kurikulum şifahi nitqin inkişafında böyük əhəmiyyətə malikdir.

Hal-hazırda ölkəmizin təhsil sitemində qarşıya qoyulan əsas tələblərdən biri şagirdlərin xarici dildə ünsiyyət qurması, oxu, yazı və dinləyib-anlama bacarıqlarının inkişaf etdirilməsidir. Hər bir şagirdin və ya tələbənin özünəməxsus psixologiyası var. Bəzi zamanlarda şagirdlərin və tələbələrin dərsə marağı və diqqəti nisbətən zəif olur. Onlar öz fikirlərini ifadə etməkdə və dilə gətirməkdə çətinlik çəkirlər. Buna görə də müəllimlərin bu məsələni göz önündə tutaraq onların maraqlarına uyğun şəkildə şifahi və yazılı nitqlərinin düzgün inkişaf etdirmələri çox vacib məsələdir. Məktəblərdə və universitetlərdə təhsilalanların ingilis dilində olan fəaliyyətlərinin asandan çətinə, sadədən mürəkkəbə doğru irəliləməsi xarici dil proqramının (kurikulumun) əsasını təşkil edir. Bu baxımdan təhsil sisteminin müəyyən mərhələlərində təlim nəticələri dinləyib-anlama və danışma fəaliyyətinə doğru daha çox istiqamətləndirilmişdir. Şifahi nitq bacarıqları aşağı siniflərdən başlayaraq təsilalanlarda daha yaxşı inkişaf etməyə başlayır və bu məsələ hal-hazırda da öz aktuallığını qoruyaraq geniş müzakirələrə səbəb olmuşdur.

Şifahi nitq vərdişlərinin şagird və tələbələrə aşılanması ingilis dilinin tədrisində böyük əhəmiyyətə malikdir. Buradakı məqsəd öyrənən hər bir kəsin istənilən mövzu və ya məsələdə öz sərbəst fikrini, qarşı tərəfə münasibətini düzgün şəkildə ifadə etməsi və müxtəlif mövzular ətrafında müzakirələrdə iştirak etməsidir. Şifahi nitqin inkişaf etdirilməsinin müxtəlif yolları var. Səmərəli nəticə üçün təhsilalanların yaş hədləri və maraq dairələri nəzərə alınmalıdır. İngilis dilinin tədrisi zamanı müxtəlif mövzular üzrə müzakirələr aparmaq, hər hansı bir obyekti və ya hadisəni şifahi formada təsvir etmək, mövzunun məzmununu danışmaq və ya təhlil etmək, monoloq və dialoqlardan istifadə etmək və s. üsul və ya formalarla şifahi nitq bacarıqlarını möhkəmləndirmək olar. Mövzunun aktuallığı ingilis dili dərslərində öyrənənlərin kifayət qədər düzgün danışıq qabiliyyətlərinin olmaması və öz düşüncələrini, fikirlərini ingilis dilində sərbəst şəkildə ifadə edə bilməmələridir.

İngilis dilində danışıq zamanı iki və daha çox şəxs arasında dialoqun olması nitqin inkişafını sürətləndirən amillərdən biridir. Çünki tez-tez ünsiyyət qurulduğu zaman onlar arasında məlumat mübadiləsi və müzakirəsi daha çox baş verir. Burada tərəflərin bir-birilə ünsiyyətdə olduğu zaman informasiya almaq və informasiya vermək imkanlarının olması onların nitq vərdişlərinin inkişafına səbəb olur. Lakin, əgər iki və daha artıq şəxs arasında passiv ünsiyyət yaranarsa, bu zaman ünsiyyət quran şəxslərdən birinin informasiya vermək imkanı olar. Digər şəxs və ya şəxslərin isə yalnız dinləmə mövqeyində iştirak etməsi isə xarici dildə şifahi nitqin inkişafına mənfi təsir göstərir. Müəllim dərs zamanı bütün bunları nəzərə alaraq ünsiyyət quran hər bir tərəfin aktiv olduğuna diqqət yetirməlidir və bunun üçün də müxtəlif tapşırıqlar hazırlamalıdır.

Müəllim unutmamalıdır ki, xarici dilin tədrisində əsas məqsəd dil öyrənənlərdə yalnız qrammatik qaydaların deyil, bu dildə dinləyib-anlamaq, öz düşüncə və fikirlərini aydın və səlis şəkildə ifadə etmək bacarıqlarının formalaşdırılmasıdır. Bütün xarici dillər kimi ingilis dilinin də öyrədilməsində və tədrisində qarşıya qoyulan əsas məqsəd nitq, dil və ünsiyyət bacarıqlarının formalaşdırılması və aşılanmasıdır. Bunun üçün də təhsilin hər pilləsinin özünəməxsus tələbləri vardır. Buna əsasən də, məsələn, ümumi orta təhsil pilləsində şifahi nitqin inkişafını əsas tələb olaraq götürməklə şagirdlərdə ünsiyyət və dinləyib-anlama bacarıqlarını formalaşdırmaq mümkündür. Üniversitet tələbələri üçün isə dil konstruksiyalarının mənimsədilməsini, səmərəli danışıq və dinləmə üçün auditoriyaları müasir dövrün tələblərinə uyğun şəkildə təşkil etmək lazımdır.

Təhsilalanlarda şifahi nitq fəaliyyətinin formalaşması müəyyən çətinliklər nəzərə alınmaqla kifayət qədər çətin prosesdir. Şifahi nitq prosesi düzgün cümlə qurmaqdan tutmuş, uyğun söz və ifadələrdən istifadə edərək fikri çatdırmaq bacarığına qədər bir sıra dil bacarıqlarından kompleks şəkildə birbaşa və

məharətlə istifadə etməyi tələb edir. Həqiqətən də şifahi ünsiyyət ən yüksək ünsiyyət formalarından biridir.

Müəllimlərin şifahi nitqin psixoloji mahiyyətini anlaması şagirdlərin nitq motivasiyasını artırır və şifahi nitq fəaliyyətinin onların psixoloji inkişafına müsbət təsirini başa düşürlər. Eyni zamanda, sağlam psixoloji mühit və düzgün motivasiya uşaqlara öz səhvlərini tez görməyə və müzakirədə olan ümumi səhvləri düzəltməyə imkan verir. Şifahi nitq fəaliyyətinin sadədən mürəkkəbə doğru təşkili onların inkişaf səviyyəsini formalaşdırır, şagirdlər və ya tələbələr nitqdə çətinlikdən daha az əziyyət çəkirlər. İngilis dilində şifahi nitqi, müxtəlif hadisə və şəkillərin təsvirindən istifadə etməklə kiçik dialoqlar, qısa cümlələr, ifadələr və s. öyrənən şagirdlər üçün səlis nitq qabiliyyətinin formalaşdırılması, idrak fəaliyyətini vurğulamağı, səlis danışıq təcrübəsini öyrətmək lazımdır. Buna əsasən, müəllimlərin praktikada şifahi nitqi inkişaf etdirən çalışmalardan istifadəsi daha məqsədəuyğundur.

Çalışmalar keçilən dərsin möhkəmləndirilməsinə və təhsilalanların öyrəndiklərini tətbiq etməsinə xidmət edir. Çalışmalar nitq bacarıqlarının inkişafında, dinləyib-anlamada, ümumilikdə şifahi nitq bacarıqlarının inkişafında mühüm əhəmiyyət kəsb edir. Çalışmaların təşkilində müəllimlərin bəzi məqamları nəzərə almaları daha məqsədəuyğundur:

1. Müəllimin çalışmanın necə həll edilməsi ilə bağlı izahı aydın və qısa olmalıdır. Şagird çalışmada ondan nə tələb olunduğunu başa düşməlidir.

2. Hər bir çalışmanın məqsədi olmalıdır. Yəni çalışma yalnız bir problemin aradan qaldırılmasına xidmət etməlidir.

3. Mövzunun ardıcıl öyrənilməsi və onun tətbiqinin həllinə dair tələbləri vermək daha əlverişlidir. Yəni əvvəlcə biliyi möhkəmləndirmək, sonra bacarıq və vərdişləri inkişaf etdirən məşqləri təmin etmək daha effektivdir.

Şifahi nitqi inkişaf etdirmək bacarığına aid çalışma nümunələri:

1. Cümlələrə qulaq asın və fasilədə onlara qısa cavablar verin.
1. Is he a teacher?
2. Does he have a grey cat or a black dog?
3. Does everybody like him?
4. Where is she going this evening?
5. Can he solve the problem?

2. Aşağıdakı cümlələri tamamlayın. Complete the sentences.
a. My father has............................................
b. The doctor explains..................................
c. I want..........................................................
d. Christmas is...............................................
e. At my friend`s birthday party...........................................

3. Cümlələri düzgün ardıcıllıqla yazıb hekayə düzəldin
Put the sentences in the correct order. Make up a story
a. She is a beautiful girl, I love her so much.
b. My best friend is Jane.
c. We`re classmates and become together every time.
d. She`s very careful and entertaining.

4. Xəritə əsasında danışın. Bu ölkələr haqqında nə bilirsiniz.
Talk on a Mind Map. What do you know about these countries?
weather

culture fashion

food



1. Azerbaijan
2. Turkey
3. Italy
4. England
5. Germany

**Nəticə**

Tədqiqat zamanı tələbələrin ingilis dilində danışdıqları zaman müxtəlif çətinliklərlə üzləşdiyini müşahidə etdim. Bu məqamda əsas yükün müəllimin üzərinə düşdüyünü gördüm. Şagirdlərin dərsə marağını artırmaq üçün müxtəlif tapşırıq və fəaliyyətlərin verilməsində müəllim əsas rola malikdir. Araşdırma zamanı müşahidə etdik ki, müxtəlif oyunlardan, müzakirələrdən, video çarxlar-dan, çalışmalardan istifadə etməklə şifahi nitq fəaliyyətinin təşkili effektiv nəticələr əldə etməyə imkan verir. Beləliklə deyə bilərik ki, təhsilalanlar dili sistemli şəkildə öyrənsələr, daha çox uğur qazanacaqlar.

***Ədəbiyyat***

1. *Interactive Teacher Training by Rafiga Aliyeva, Tamilla Mehdiyeva, John R.Silver, Baku, 2002.*
2. *Nunan David. Teaching English to Young Learners. Anaheim: Anaheim University Press, 2011.*
3. *Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri, Bakı, 1967.*
4. *Şirəliyev Ə. Xarici dillərin tədrisində fəal təlim metodlarının tətbiqi/Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2010.*
5. *Well Spoken: Teaching Speaking to All Student by Erik Palmer, 2011.*
6. *Hymes D. On communicative competence / J.B.Pride and J.Holmes (eds.) Sociolinguistics. Harmondsworth: Penguin, 1972.*
7. *Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri, Bakı, 1967.*

# MƏKTƏBİ İDARƏETMƏNİN MÜASİR MODELLƏRİ

**M.E.Xəlilova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xelilova99@gmail.com*

***Xülasə***

*Ümumi təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi kimi mühüm vəzifə məktəbdə həyata keçirildiyindən, məktəb əvəzolunmaz strateji bir mərkəzdir. Vacib dövlət əhəmiyyətli bu funksiyanın reallaşdırılması məktəbdə tədris və idarəetmə fəaliyyətinin səmərəli şəkildə uyğunlaşdırılmasını tələb edir. Təhsil idarəçisinin vəzifəsi məktəbin davamlı inkişafını təmin etmək, şəffaf və səmərəli idarəetmə mexanizminə uyğun inkişaf strategiyası işləyib hazırlamaq və onu reallaşdırmaq üçün müasir idarəetmə modellərindən istifadə etməkdir. İdarəetmənin müxtəlif modelləri təhsil müəssisəsinin fəaliyyətinin müasir dövrün tələblərinə uyğun şəkildə qurulmasına imkan verir.*

## СОВРЕМЕННЫЕ МОДЕЛИ УПРАВЛЕНИЯ ШКОЛАМИ

***Резюме***

*Поскольку важная задача в системе общего образования, такая как воспитание подрастающего поколения, выполняется в школе, тогда школа является незаменимым стратегическим центром. Задача менеджера по образованию - обеспечить устойчивое развитие школы, разработать стратегию развития в соответствии с прозрачным и эффективным механизмом управления и использовать современные модели управления для ее реализации. Различные модели управления позволяют учебному заведению работать в соответствии с современными требованиями.*

## MODERN MODELS OF SCHOOL MANAGEMENT

***Summary***

*As an important task in the general education system, such as the education of the younger generation, is performed at school, the school is an irreplaceable strategic center. The task of the education manager is to ensure the sustainable development of the school, to develop a development strategy in accordance with a transparent and effective management mechanism, and to use modern management models to implement it. Different models of management allow the educational institution to operate in accordance with modern requirements.*

***Açar sözlər****: məktəb, təhsil, idarəetmə, seqment, modul, direktor, menecer*
***Ключевые слова****: школа, образование, менеджмент, сегмент, модуль, директор, менеджер*

***Key words:*** *school, education, management, segment, module, principal, manager*

İnzibati idarəetmədən fərqli olaraq, təhsildə elmi idarəetmə həyata keçirilir. Bu baxımdan məktəb rəhbərlərinin idarəetmənin əsaslarını öyrənməsi və bu sahədə öz biliklərini daim təkmilləşdirməsi vacibdir. Çünki, ənənəvi təhsildə olduğu kimi, məktəb rəhbərinin məktəb müəllimləri arasından seçilməsi üsulu özünü doğrultmamışdır və müasir dövrdə də rəhbərliklə bağlı ortaya bir çox yeni problemlər çıxır. Məktəb rəhbəri yalnız idarəçi deyil, o həmçinin öz fəaliyyəti prosesində insanların psixoloji vəziyyətini, xarakterini nəzərə almalı və alacağı qərarların nəticələrini də öncədən görməyi bacarmalıdır. Bu zaman, idarəetmənin elmi əsasları ilə birlikdə onun təşkilati aspektinin əhəmiyyəti də artır və uğurlu, yenilikçi mütəxəssis-menecerlərə tələbat artır. Bu problemlərin aradan qaldırılması və ixtisaslı kadrların yetişdirilməsi üçün 11 iyun 2004-cü ildə Təhsil Nazirliyi Azərbaycan Respublikasında "Təhsil Menecerlərinin Hazırlığı Konsepsiyası"nı təsdiq etmişdir. Təhsil nazirinin 11.06.2004-cü il tarixli, 525 nömrəli əmri ilə təsdiq olunmuş Konsepsiyanın həyata keçirilməsinə – təhsil menecerlərinin hazırlanması prosesinin tənzimlənməsi barədə 19.07.2004-cü il tarixli, 662 nömrəli əmrinin tətbiqinə 2004-2005-ci tədris ilindən başlanmışdır. Hazırda fəaliyyət göstərən məktəb rəhbərlərinin müasir menecment təhsilinə yiyələnməsi, idarəetmənin elmi əsaslarını öyrənməsi üçün kurslar təşkil olunur və s. [4, səh.14].

Məktəb idarəetməsinin müasirləşməsi və inkişaf etməsi üçün müasir təlim texnologiyalarından istifadənin yeni üsulları mənimsənilməli və zamanın tələbinə uyğun yeni pedaqoji sistem yaradılmalıdır."Bunu isə sürətlə həyata keçirmək mümkün olmadığından, məktəblərdə innovasiya fəaliyyəti tədricən özünə həqiqi mənada yer almalı, bu sahədə mədəni səviyyə yüksəlməli, tətbiq edilən yeni modelin effektivliyi sınaqdan çıxarılmalıdır" [5, səh.358].

Müxtəlif pedaqoqlar tərəfindən təhsilin idarəedilməsi ilə bağlı bir çox modellər işlənilmişdir. İnkişaf etmiş ölkələrdə məktəb idarəçiliyi ilə bağlı bir çox modellərdən istifadə olunur. Kutbertin nəzəriyyəsinə görə, idarəetmə modelləri analitik-rasional, praqmatik-rasional, siyasi, fenomenoloji və interaksionist kimi beş qrupa bölünür [8, səh.2]. Bu nəzəriyyəyə əsasən öz nəzəriyyəsini yaradan Buşa görə isə, idarəetmənin modelləri formal, kollegial, siyasi, subyektiv, qeyri-müəyyən və mədəni kimi altı, liderlik üslubları isə idarəedici, iştirakçı, dəyişkən, bölgülü, sövdələşməli, postmodern, emosional, ehtimallı və əxlaqı kimi doqquz yerə bölünür. Azərbaycanda isə təhsil sahəsində aparılan islahatların tələblərinə görə müxtəlif modellər arasdırılmış və tətbiqinin mümkünlüyünə görə onlar aşağıdakı kimi qruplaşdırılmışdır:

**1. Ümumtəhsil məktəbində idarəetmənin seqment tipli təşkili modeli**

Seqment tipli modeldə fənn müəllimlərinin müstəqilliyinə geniş yer verilir. Bu zaman hər bir müəllim öz tədris üslubuna üstünlük verir, dərs mate-

rialının planlaşdırılmasını, təlim-tərbiyə prosesinin təşkili texnologiyalarını, şagirdlərlə necə işləyəcəyini və onların nailiyyətlərini necə qiymətləndirəcəyini özü müəyyənləşdirir.

İdarəetmənin bu modeli qapalı xarakter daşıyır, yəni valideynlər məktəbdaxili idarəetməyə, təhsil müəssisəsinin inkişaf strategiyasına müdaxilə etmir, onlarla sadəcə şagirdlər vasitəsilə əlaqə saxlanılır. Təhsilə ümumi rəhbərlik direktorun səlahiyyətindədir. O, təlim-tərbiyə prosesində müavinlər arasında məsuliyyət bölgüsü aparır. İdarəetmənin seqment tipli təşkili modelində direktor öz müavinlərinin fəaliyyəti üçün formal olaraq cavabdehdir, yəni əslində bütün məsuliyyət müavinlərin üzərinə düşür. Onlar məktəbdə nizam-intizama nəzarət edərək koordinator funksiyasını yerinə yetirir, müəllimlərin və təşkilati qurumların fəaliyyətini əlaqələndirirlər.

Seqment tipli modeldə məktəbdə ali idarəetmə orqanı Pedaqoji Şuradır. Pedaqoji Şuranın razılığı olmadan direktor müstəqil qərar qəbul edə bilməz, çünki Pedaqoji Şura kollegial idarəetmə orqanıdır və məktəbin fəaliyyəti ilə bağlı istənilən qərar yalnız birgə müzakirə və razılıq əsasında qəbul edilə bilər.

**2. İdarəetmənin üfüqi məsləhətvermə strukturlu xətti təşkili modeli**

Bu modeldə həm şaquli, həm də üfüqi məsləhətvermə bölmələri fəaliyyət göstərir. Bu zaman müəllimlər idarəetmə ilə də məşğul olur. Bu funksiyanı xüsusi təlim keçmiş müəllimlər və məsləhətçilər reallaşdırır.

İdarəetmənin bu tipli təşkili modelində müəllim daha çox müstəqildir, onun idarə etdiyi sinfə direktorluq ciddi nəzarət etmir. Rəhbərlik həmçinin pedaqoji fəaliyyətə yeni başlayan gənc müəllimlərə daha təcrübəli müəllimlərin kömək etməsi qayğısına qalır, müəllimləri zəruri tədris avadanlığı və vəsaitlərlə təmin edir, ona müəyyən məsləhətlər verir.

Direktor məktəbin maliyyə məsələləri, dövlətin təhsil siyasətinin həyata keçirilməsi ilə bağlı rəhbərlik etdiyi tədris müəssisəsinin fəaliyyəti, məktəbin xarici əlaqələri, eyni zamanda məktəbdaxili nəzarət və idarəetmədə məsul şəxsdir. Bu modeldə qiymətləndirmə dövrü istisna olunmaqla tədris bölmələrində bütün əlaqələr şaqulidir.

Məktəbdə bütün qərarları direktor və onun müavinləri qəbul edir, qərar qəbuletmədə pedaqoji şuranın rolu azdır.

**3. İdarəetmənin kollegial təşkili modeli**

Bu modeldə təlim-tərbiyə işi ilə bağlı olan bütün bölmələr üfüqi idarə edilir. Struktur vahidinə müavinlər başçılıq edir və bura paralel sinfin bütün müəllimləri daxil edilir. Bu struktur vahidində müəllimlər müstəqil mövqe tutur və tədris işlərində sərbəst olurlar.

İdarəetmənin kollegial təşkili modelində fənlərin təşkili ilə bağlı bütün strategiyanı fənn metodbirləşmələri hazırlayır. Metodbirləşmələrdə müəllimlər tədris texnologiyalarını yaxşılaşdırmaq və inkişaf etdirmək barədə metodiki məsləhətləşmələr aparır, müəyyən strategiyalar işləyib hazırlayırlar. Direktor

bu strategiyaları araşdırır, təhlil edir, son nəticədə isə öz fikrini, müvafiq irad və təkliflərini bildirməklə strategiyanı ya qəbul edir, ya da yenidən işlənilməyə göndərir. Bu strategiyalar məktəbin ümumi strategiyasına uyğun gəlmədikdə direktor fənn metodbirləşmələrinin işinə müdaxilə edir.

Kollegial təşkil modelində sinifdə dərs deyən müəllimlərdən biri sinfin uğurları üçün digər müəllimlərlə əlaqə saxlamaq, uşaqların problemlərinin həllinə kömək etmək, sinfin qayğısına qalmaq kimi sinif rəhbərinin vəzifəsinə yaxın olan işləri də yerinə yetirir.

Beləliklə, üfüqi məsləhətvermə strukturlu idarəetmə modelində bütün təşkilati məsələlər üçün məsuliyyət direktor və onun müavinlərinin üzərində olduğu halda, kollegial modeldə məsuliyyət ümumi kollektivin olur. Burada məsləhətvermə strukturlarının səlahiyyətləri daha genişdir.

**4. İdarəetmənin matris tipli təşkili modeli**

Digər idarəetmə modellərindən fərqli olaraq, idarəetmənin matris tipli modelinin təşkili iki əsas sahə üzrə qurulur. Burada xüsusi yarımbölmələrdə şagirdlərin təlim-tərbiyə işinin idarəedilməsi daha da inkişaf etdirilir və bu bölmələr idarəçiliyə aid bütün işləri icra edir. Onlar bu işləri inteqrativ və sistemli formada yerinə yetirirlər.

Metodbirləşmələrdə müxtəlif səviyyəli şagird qrupları ilə məşğul olan müəllimlər fəaliyyət göstərir və onlar şagirdlərin maraq və tələbatlarını nəzərə alaraq fənn proqramları hazırlayır, ayrı-ayrı dərs mövzularını planlaşdırır və onların reallaşdırılmasını nəzarətdə saxlayırlar. Həmçinin şagirdləri də idarəetmə fəaliyyəti ilə bağlı işlərə cəlb etmək üçün xüsusi təlim keçmiş müəllimlər dəvət olunur.

Matris tipli idarəetmə modelində bölmələrə bütöv bir menecer komandası rəhbərlik edir. Onun tərkibinə direktor və onun müavinləri, məktəbin aparıcı bölmələrinin nümayəndələri daxildir. Direktor komandanın işinə həm daxildən, həm də xaricdən dəstək verilməsini təmin edir. O, iki başlıca funksiyanı yerinə yetirir: həm məktəbin inkişaf strategiyasını həyata keçirir, həm də məktəbi zəruri informasiyalarla təmin edir. Direktor müavinlərinin fəaliyyətlərinə isə strategiyanın tam və düzgün həyata keçirilməsi, müzakirələrin aparılması və inkişafın stimullaşdırılması məsələləri daxildir.

**5. İdarəetmənin modul tipli təşkili modeli**

İdarəetmənin bu tipli təşkili modelində tədris və idarəetmə işləri inteqrativ şəkildə həyata keçirilir. Burada 6-10 nəfərlik kiçik komandalar yaradılır və onlar öz işlərində müstəqil olur. Həmçinin komanda üzvləri tədris, təhsil və idarəetmə ilə bağlı məsələlərin müzakirəsində biri-birinin fikirlərini nəzərə alaraq qarşılıqlı razılığa gəlirlər.

Komandalar sabit tərkiblə bir neçə il işləyir. Komandaya müxtəlif fənləri tədris edən müəllimlər daxil edilir. Bir neçə yaxın fənni eyni müəllim tədris edə bilər. Bu baxımdan, bir müəllim bir neçə komandada çalışır. Müəllimlər

həm tədris, həm də idarəetmə vəzifələrini yerinə yetirirlər. Bu isə müəllimlərin öz üzərində daha çox işləməsini, daha zəngin məlumatlara və hərtərəfli biliklərə yiyələnməsini tələb edir. Belə məktəbdə çalışan müəllimlər şagirdlərin maraq və tələbatlarını, istəklərini nəzərə almalıdır. Modul komandaların səmərəli fəaliyyət göstərməsi üçün məktəbdə həmin komandalarda işləyən müəllimlər üçün müntəzəm təlimlər təşkil edilməlidir.

Məktəb rəhbərliyi isə modullar arasında əlaqələri tənzimləyir və onların qarşılıqlı fəaliyyətini stimullaşdırır.

Valideynlərlə əlaqələrin yaradılması bu modelin ən vacib cəhətlərindən biridir. Modul tipli idarəetmə modelinin təşkil olunduğu ilk dövrdən başlayaraq valideynlər məktəbin bununla bağlı inkişaf strategiyasının hazırlanmasında iştiraka cəlb edilir, zəruri hallarda komandaların işinə əməli dəstək göstərir, həmçinin onlara modulların başlıca ideyaları barədə məlumat verilir. Bu tipli idarəetmə modelində məktəbin inkişaf strategiyası direktor və onun müavinlərinin, modul komandaların nümayəndələrinin və metodbirləşmələrin ortaq qərarları ilə tənzimlənir. Direktorun məsuliyyəti idarəedici rəhbər orqan qarşısında formal xarakter daşıyır, çünki onların həm direktorla, həm də məktəbin strategiyasını işləyib hazırlayan qrupla əlaqələri zəif olur.

Yuxarıdakı modellərin təhlili, məktəblərdə bu modellərin tətbiqi məktəbin inkişaf planını hazırlayan və bu planın reallaşdırılması üçün məsləhətlər verən xüsusi infrastrukturların təşkilinin tələb edildiyini göstərir. Yəni, məktəbin inkişaf proqramının həyata keçirilməsi dövründə onun daxilində yeni bir idarəedici-məsləhətçi qurum yaradılmalı, proqramın reallaşdırılması başa çatdıqdan sonra həmin qurumun da fəaliyyəti yekunlaşdırılmalıdır.

***Ədəbiyyat***

1. *Əliyev D., Abaslı K., Məmmədov R., Məhərrəmov Q. Direktorun əl kitabı. Bakı: Mücrü, 2021, 224 səh.*
2. *İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. II cild. Bakı: Mütərcim, 2012, 548 səh.*
3. *İsmixanov M., Bəxtiyarova R, Məktəbin idarəedilməsi. Pedaqoji institut və universitet tələbələri üçün dərs vəsaiti. Bakı, 2012, 236 səh.*
4. *Kərimova F. Məktəbdaxili modernləşmənin idarəedilməsi texnologiyası, ped. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.; Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitututu. Bakı, 2014, 176 səh.*
5. *Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı:Mütərcim, 2007, 448 səh.*
6. *Bush, T.Theories of educational leadership and management:Sage. 2011, p. 232*
7. *Cuthbert, R. The Management Process, E324 Management inPost Compulsory Education, 1984, Block 3, Part 2: Buckingham: OpenUniversity Press.*
8. *http://eprints.um.edu.my/13542/1/MDP-71.pdf*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA PLANLAŞDIRMANIN ROLU

**G.A.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nubar2017@list.ru*

***Xülasə***

*Elmi məqalədə idarəetmə anlayışı, idarəetmənin obyekt və subyektləri, idarəetmə fəaliyyətinin özünəməxsus məqsəd və vəzifələri: təlim-tərbiyə işinin və bütövlükdə məktəbin demokratikləşdirilməsi və humanistləşdirilməsi, idarəetmədə az vaxt, qüvvə və vəsait sərf etməklə yüksək nəticələrə nail olmaq, məktəbdaxili nəzarət yolu ilə işdəki nöqsan və çatışmazlıqları vaxtında aşkara çıxarıb aradan qaldırmaq, təlim-tərbiyə prosesinin səmərə və keyfiyyətini yüksəltmək, məktəb daxilində baş verən mürəkkəb münasibətləri, pedaqoji, psixoloji, metodik, təşkilatı prosesləri elmi əsasda tənzim etmək, təlim-tərbiyə işində yeni ideya və texnologiyaları tətbiq etmək, müəllimlərin nəzəri-metodik hazırlığını artırmaq, təşəbbüs və yaradıcılığını stimullaşdırmaq və s. açıqlanmışdır. Daha sonra idarəetmə pedaqoji fəaliyyətin dövrəsi olan mərhələləri, rəhbər pedaqoji kadrların mənəvi və şəxsi keyfiyyətləri sadalanmışdır. İdarəetmə prosesinin müəyyən xüsusiyyətləri: iyerarxik, nisbi, fasiləsiz, mərhələli və dövri xarakteri öyrənilmişdir. Məktəbdaxili idarəetmə sisteminin strukturunda bir neçə idarəetmə səviyyəsinin mahiyyəti açıqlanmışdır. Təhsil sistemində idarəetmə funksiyaları: idarəetmənin ümumi funksiyaları və idarəetmənin spesifik funksiyaları və onların mahiyyəti öyrənilmişdir. Planlaşdırma və onun həyata keçirdiyi əməliyyatlar, məktəb işinin planlaşdırılmasında üç növ plan – cari, illik və perspektiv plan, onların mahiyyəti, idarəetmədə tutduğu rol açıqlanmışdır.*

## РОЛЬ ПЛАНИРОВАНИЯ В УПРАВЛЕНИИ КАЧЕСТВОМ СРЕДНИХ ШКОЛ

***Резюме***

*В научной статье определены понятие управления, объекты и субъекты управления, конкретные цели и задачи управления: демократическое восстановление и гуманизация образования и школы в целом, достижение высоких результатов в управлении с небольшими затратами времени, усилий и ресурсов, недостатки в школе. и своевременно выявлять и устранять недостатки, повышать эффективность и качество учебного процесса, регулировать сложные отношения внутри школы, педагогические, психологические, методические, организационные процессы на научной основе, применять новые идеи и технологии. в образовании, теоретическом и методическом повышении квалификации, стимулировании инициативы и творчества и т. д. объявил. Затем перечисляются этапы управленческой педагогической деятельности, моральные и личностные качества ведущего педагогического коллектива. Изучены отдель-*

*ные особенности процесса управления: иерархический, относительный, непрерывный, поэтапный и периодический. Объясняется сущность нескольких уровней управления в структуре системы управления школой. Функции управления в системе образования: изучаются общие функции управления и специфические функции управления и их сущность. Планирование и его действия, описаны три типа планов в школьном планировании - текущие, годовые и долгосрочные планы и их сущность, их роль в управлении.*

**THE ROLE OF PLANNING IN QUALITY MANAGEMENT OF SECONDARY SCHOOLS**

***Summary***

*The scientific article defines the concept of management, objects and subjects of management, specific goals and objectives of management: democratic restoration and humanization of education and school as a whole, achieving high results in management with little time, effort and resources, shortcomings in school and to identify and eliminate shortcomings in a timely manner, to increase the efficiency and quality of the educational process, to regulate the complex relations within the school, pedagogical, psychological, methodological, organizational processes on a scientific basis, to apply new ideas and technologies in education, theoretical and methodological increase training, stimulate initiative and creativity, etc. announced. Then the stages of management pedagogical activity, moral and personal qualities of the leading pedagogical staff are listed. Certain features of the management process: hierarchical, relative, continuous, phased and periodic nature were studied. The essence of several levels of management in the structure of the school management system is explained. Management functions in the education system: general functions of management and specific functions of management and their essence are studied. Planning and its operations, three types of plans in school planning - current, annual and long-term plans and their essence, their role in management are described.*

***Açar sözlər:*** *idarəetmə, məqsəd, planlaşdırma, direktor, funksiya, keyfiyyət*

***Ключевые слова:*** *менеджмент, цель, планирование, директор, функция, качество.*

***Key words:*** *management, purpose, planning, director, function, quality*

İdarəetmə - qarşıya qoyulmuş məqsəd və vəzifələri həll etmək üçün idarəetmə subyektlərinin müvafiq obyektlərə təsir göstərməsi ilə bağlı fəaliyyət növüdür. Məktəbi idarəetmə dedikdə, pedaqoji proses iştirakçılarının məqsədyönlü qarşılıqlı təsiri başa düşülür. İdarəetmənin struktur ünsürlərinə idarəetmə subyektləri və obyektləri, habelə onlar arasındakı qarşılıqlı münasibətlər daxildir. İdarəetmə subyektləri idarəetmə fəaliyyətini həyata keçirən, bu sahədə səlahiyyətlərə malik olan şəxslər, idarə və təşkilatlardır. Məsələn, Təhsil Nazirliyi, onun qurumları, yerli təhsil şöbələri, məktəb rəhbərləri, məktəb ictimai özünüidarə orqanları və s. idarəetmə subyektləri kimi çıxış edir. İdarəetmə obyektlərinə isə idarə edilən sahələr, şəxslər, kollektivlər, təşkilati strukturlar, idarə-

edici orqanların qərar və sərəncamlarının icraçıları və b. daxildir. Məsələn, yuxarı orqanlara münasibətdə məktəblər, oradakı pedaqoji proses iştirakçılar, müəllim və şagird kollektivləri və s. idarəetmə obyektləri kimi çıxış edirlər. İdarəetmə obyekti kimi şəxsiyyət, kollektiv çıxış edirsə, bu halda idarəetmə rəhbərlik forması kəsb edir. Başqa sözlə, rəhbərlik bilavasitə insanlarla işdə idarəetmə vəzifələrini həyata keçirməklə bağlı olan fəaliyyət növüdür. İdarəetmə subyektləri və obyektləri qarşılıqlı əlaqədə fəaliyyət göstərir; idarəetmənin məqsəd və vəzifələrinin həllində qarşıllıqlı münasibətdə olurlar.

İdarəetmə fəaliyyətinin özünəməxsus məqsəd və vəzifələri vardır. Məktəbi idarəetmənin başlıca məqsədi cəmiyyətin məktəb qarşısında qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq dərin bilikli, müstəqil və yaradıcı düşünən, zəngin mənəviyyata, geniş dünyagörüşünə, milli və ümumbəşəri dəyərlərə yiyələnən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq vətəndaş və şəxsiyyətlər yetişdirməyi təmin etməkdən, habelə bunun üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Bu məqsədə uyğun olaraq məktəbi idarəetmə qarşısında bir sıra vəzifələr durur:

- təlim-tərbiyə işinin və bütövlükdə məktəbin demokratikləşdirilməsi və humanistləşdirilməsi;
- idarəetmədə az vaxt, qüvvə və vəsait sərf etməklə yüksək nəticələrə nail olmaq;
- məktəbdaxili nəzarət yolu ilə işdəki nöqsan və çatışmazlıqları vaxtında aşkara çıxarıb aradan qaldırmaq, təlim-tərbiyə prosesinin səmərə və keyfiyyətini yüksəltmək;
- məktəb daxilində baş verən mürəkkəb münasibətləri, pedaqoji, psixoloji, metodik, təşkilati prosesləri elmi əsasda tənzim etmək;
- təlim-tərbiyə işində yeni ideya və texnologiyaları tətbiq etmək, müəllimlərin nəzəri-metodik hazırlığını artırmaq, təşəbbüs və yaradıcılığını stimullaşdırmaq və s.

Nəzərdən keçirilən vəzifələrin kompleks həlli məktəbin idarə edilməsinin təkmilləşdirilməsi, yenidən qurulması və məktəbdaxili münasibətlərin daha yaxşı tənzim edilməsi üçün vacib şərtdir. Məktəbin idarə edilməsinin səmərəsi həm də onun xüsusiyyətlərini nəzərə almaqla, sıx bağlıdır. İdarəetmə pedaqoji fəaliyyətin dövrəsi olan aşağıdakı mərhələləri əhatə edir:

1. Pedaqoji məntiqlə əsaslandırılmış olan məqsədin irəli sürülməsidir.
2. İdarə olunan obyektin vəziyyətinin hərtərəfli öyrənib müəyyənləşdirilməsidir.
3. Əldə olunmuş məlumat əsasında planlaşdırma işinin aparılmasıdır.
4. İdarə olunan obyektdən müəyyən parametrlər üzrə müntəzəm şəkildə məlumat almaqdan ibarətdir.
5. Göstəriləcək təsirləri operativ şəkildə təshih etmək məqsədi ilə obyektdən gələn məlumatı təhlil və qiymətləndirməkdən ibarətdir.

Azərbaycan Respublikasının Təhsil Qanunu pedaqoji kollektivin bütün fəaliyyətində əsas götürülməlidir. Məqsədyönlülük, prinsipiallıq, konkretlik rəhbərlikdə əsas xətt hesab olunur. Rəhbərliyin təlim-tərbiyə işinin idarə olunmasında iştirakı müəllimlər, valideynlər, şagirdlər tərəfindən daim hiss olunmalıdır.

Müasir şəraitdə təlim-tərbiyəni idarə etmək üçün psixologiya, pedaqogikanı bilmək, tədris proqramlarında istifadə edilən ideyaları başa düşmək, müəllimlərin təcrübəsində mütərəqqi təşəbbüsləri görmək və buna tərəfdar çıxmaq ön plana çəkilməlidir.

İdarəetmə prosesində özünə və iş yoldaşlarına qarşı tələbkarlıq əsas götürülməklə demokratiklik, humanistlik unudulmamalıdır. Fəaliyyət prosesinə təkidlə, vaxtında nəzarət etmək, sistemin bütün cəhətlərini əhatə etmək, mövcud olan müxtəlif formalardan istifadə edilməlidir.

İdarəetmə məharəti öz ifadəsini adamlarla ünsiyyət yaratmaq bacarığında tapır. Pedaqoji kollektiv, şagirdlər, valideynlər və digər işçilər diqqətli, xeyirxah, ədalətli və nəzakətli rəhbərə inanır və onun ardınca həvəslə gedirlər. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N. İsmayılov belə hesab edirlər ki, “Rəhbər-menecer idarəetmə dəyərlərinə və texnologiyalarına yiyələndikcə onları yeniləşdirir, onları interpretasiya (özü başa düşdüyü kimi aydınlaşdırmaq) edir. Bu, həm rəhbərin şəxsiyyət xüsusiyyətləri, həm də idarəetmənin obyektinin xüsusiyyətləri ilə müəyyən olunur. Məktəb direktoru idarəetmə fəaliyyətində bir şəxsiyyət, bir rəhbər kimi, bir təşkilatçı və tərbiyəçi kimi özünü realizasiya edir. Təhsil müəssisələrinin rəhbər şəxslərinin funksional vəzifələri ümumtəhsil məktəbinin və ya digər təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən olunur. Təhsil müəssisəsinə rəhbərliyi direktor və onun müavinləri həyata keçirirlər. Təhsil-tərbiyə prosesinin idarə olunmasında direktor əsas yer tutur.” [1]

Rəhbər pedaqoji kadrların mənəvi və şəxsi keyfiyyətlərindən əlavə təşkilati, hüquqi, psixoloji, sosioloji, etik və estetik, dünya təhsil təcrübəsi və onun inkişaf istiqamətlərinin prioritetləri informasiya-kommunikasiya sistemindən istifadə, eləcə də bir çox digər istiqamətlərdə bilik, bacarıq və vərdişlərə malik olmaları çox əhəmiyyətlidir. Buna görə də «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramında» rəhbər kadrların – menecerlərin hazırlanmasına, yenidən hazırlanmasının və ixtisasının artırılmasını müasir tələblər səviyyəsində təşkil etmək prioritet istiqamətlər kimi müəyyənləşdirilir. Məktəb direktorunun təşkilatı işdə aparıcı rolu ondan ibarətdir ki, o, müəllimləri, şagird, valideyn kollektivlərini və ayrı-ayrı şagirdləri idarəetməyə cəlb edir, kollektivin fəaliyyətində bir sistem yaradır.

Məktəb rəhbərlərindən dərin nəzəri biliyə, təşkilatçılıq bacarığına, kollektivdə müəyyən psixoloji mühit yaratmağa malik olması tələb olunur. Məktəbi idarəetmənin məqsədi, onun strukturuna daxil olan sahələrin işinin məzmunu ilə bağlı olub, hər konkret şərait üçün müəyyənləşdirilir.

Bunun üçün struktura daxil olan sahələrin mövcud vəziyyətini aşkara çıxarmaq, müəyyənləşdirmək və bunların nəticələrinə əsasən işi daha da təkmilləşdirmək, yaxşılaşdırmaq, onun səmərə və keyfiyyətini yüksəltmək üçün tədbirlər hazırlamaq daha əhəmiyyətlidir. Hər bir sahə üzrə konkret məqsəd müəyyənləşdirmək tələb olunur. Təşkilati işin məzmunu müəllim və şagirdlərin, pedaqoji kollektivin, valideynlərin və geniş ictimaiyyətin bir-birinə qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyənləşdirilir. Bunun üçün idarəetmədə iştirak edən şagird, müəllim və digərlərini yaradıcı fəaliyyətə istiqamətləndirmək üçün onların qarşılıqlı işinin təşkilinə nail olmaq gərəkdir. Onların nəzəri və praktiki biliyini artırmaq, fəaliyyətlərindəki yaradıcılıqdan istifadə etmək, müstəqil düşünməsi üçün şərait yaratmaq əsas şərtlərdən ibarətdir.

İdarəetmə prosesi müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri nəzərə almadan idarəetmə işini lazımi səviyyədə qurmaq çətindir. Həmin xüsusiyyətlər bunlardır: idarəetmə iyerarxik, nisbi, fasiləsiz, mərhələli və dövri xarakter daşıyır. İdarəetmənin iyerarxik xarakteri onun subyekt və obyektlərinin müəyyən tabeçilik asılılığında olması ilə bağlıdır.

İdarəetmənin müxtəlif səviyyələrində subyekt və obyekt münasibətləri dəyişir. Məktəbdaxili idarəetmə sisteminin strukturunda bir neçə idarəetmə səviyyəsi ayrd edilir:

I səviyyə - məktəb direktoru, məktəb şurası, pedaqoji şura, şagird komitəsi və ictimai təşkilatların rəhbərləri (Bu səviyyədə məktəbin inkişafının strateji istiqamətləri müəyyən edilir). II səviyyə - direktor müavinləri, kollegial idarəetmə orqanları, ictimai təşkilatlar, məktəb psixoloqu və sosial pedaqoq. (Bu səviyyədə təlim-tərbiyə üzrə idarəetmə funksiyaları yerinə yetirilir).

III səviyyə - müəllimlər, tərbiyəçilər, sinif rəhbərləri. (Bu səviyyədə şagird birlikləri və ailəyə münasibətdə idarəetmə funksiyaları yerinə yetirilir).

IV səviyyə - şagirdlər və onların özünüidarə orqanları. (Burada şagird eyni zamanda öz inkişafının subyekti kimi çıxış edir).

Nəzərdən keçirilən iyerarxik sistemdə idarəetmənin aşağı səviyyədəki subyektləri yuxarı səviyyədəki idarəetmə üçün obyekt rolunu oynayır. Bu da idarəetmənin nisbi səciyyəsini göstərir. Belə ki, idarəetmənin müxtəlif səviyyələri (pillələri) eyni zamanda idarəetmənin həm subyekti, həm də obyekti kimi çıxış edir. Məsələn, müəllim və tərbiyəçilər (III səviyyə) şagirdlərə münasibətdə subyekt (idarə edən) rolunda çıxış etdikləri halda, direktor və direktor müavinlərinə (I və II səviyyələrə) münasibətdə idarəetmə obyektini təşkil edirlər. İdarəetmənin bir xüsusiyyəti də onun fasiləsiz proses olmasıdır. Bu prosesdə idarə edən subyekt idarə olunan obyektin vəziyyəti haqda ilkin informasiyalar alır; həmin informasiyalar işlənir və müvafiq qərar qəbul edilir; çıxarılan qərar (əmr, sərəncam, tapşırıq və s.) birbaşa əlaqə vasitəsilə idarə edilən obyektə çatdırılır. Orada qərarla bağlı müvafiq iş aparılır; qərarın icrası və eləcə də idarəetmə obyektinin yeni vəziyyəti haqqında informasiya əks əlaqə yaratmaqla

idarəetmə subyektinə daxil olur. Proses bu istiqamətdə fasiləsiz davam edir. Bunu sxematik şəkildə belə ifadə etmək olar: birbaşa əlaqə (sərəncam), əks əlaqə (informasiya). İdarəetmə prosesinin fasiləsizliyi onun dövriliyi ilə sıx bağlıdır: müxtəlif idarəetmə pillələrində informasiyaların alınması (birbaşa əlaqə) dövri olaraq müəyyən ardıcıllıqda təkrarlanır. İlkin informasiya və qərardan sonra yeni informasiyalar və yeni qərarlar hazırlanıb icraya göndərilir. Bunu sxematik olaraq nəzərdən keçirək: Yeni qərar informasiyanın dövriliyi eyni növ idarəçilik işlərinin müəyyən mərhələlərlə ardıcıl həyata keçirməsində və təkrarlanmasında özünü göstərir. İdarəetmənin qeyd edilən xüsusiyyətlərini düzgün nəzərə almaqla idarəetmə fəaliyyətini daha yaxşı qurmaq və səhvlərdən yaxa qurtarmaq mümkündür.

İdarəetmə funksiyaları (latınca funetio - icra, fəaliyyət mənasını verir) müəyyən əməliyyaların vasitəsilə həyata keçirilən idarəçilik fəaliyyəti növüdür. İdarəçilik əməliyyatları (işləri) dedikdə, idarəetmə funksiyalarının reallaşması üçün zəruri olan sabit, təkrarlanan hərəkətlərin məcmusu başa düşülür. İdarəetmə funksiyalarını lazımi səviyyədə reallaşdırmaq üçün müvafiq əməliyyatlar sistemini düzgün müəyyənləşdirmək və həyata keçirmək vacibdir.

Təhsil sistemində idarəetmə funksiyaları çox müxtəlifdir: idarəetmənin hər bir pilləsinin (səviyyəsinin) özünəməxsus funksiyaları vardır. Mövcud ədəbiyyatda idarəetmə funksiyaları iki qrupa bölünür: idarəetmənin ümumi funksiyaları və idarəetmənin spesifik funksiyaları. İdarəetmənin ümumi funksiyaları idarəetmə prosesini bütövlükdə əks etdirir: təhlil və proqnozlaşdırma, məqsəd qoyuluşu və planlaşdırma, təşkiletmə, nəzarət, tənzimləmə və uçot funksiyaları. İdarəetmənin spesifik funksiyaları isə məktəbi idarəetmənin müxtəlif sahələri ilə bağlıdır: təlim-tərbiyə, psixoloji, maliyyə-iqtisadi, sosial, inzibati-təsərrüfat fəaliyyətinin funksiyaları bura daxildir. Məktəbi idarəetmənin nəzərdən keçirilən funksiyaları bir-birilə qarşılıqlı əlaqədə olub bütöv bir tam təşkil edir. İdarəetmə fəaliyyətində göstərilən funksiyalar kompleks halda həyata keçirilməlidir: onlardan hər hansı birinə laqeydlik ümumilikdə idarəetməyə, onun səmərə və keyfiyyətinə mənfi təsir göstərir.

Hər bir məqsədin əldə edilməsi onun həyata keçirilməsi üsullarının seçilməsindən, əldə etmək istəyinin müəyyənləşdirilməsindən, bu məqsədlə prosesin ardıcıllığının təmin edilməsi üsullarının düşünülmüş şəkildə həyata keçirilməsi tədbirlərinin təyin edilməsindən asılıdır. Plan layihədir. Onu müzakirə etmək, mütəxəssislər tərəfindən qiymətləndirməyə vermək, düzəlişlər etmək və praktiki fəaliyyətdə səhvlərə yol verməmək üçün optimal səviyyəyə qaldırmaq lazımdır. Unutmaq olmaz ki, planlaşdırma zamanı buraxılmış səhvləri sonradan düzəltmək çox çətin olur. R.Məmmədzadə yazır: "Planlaşdırma sözün geniş mənasında proqnozlaşdırma, proqramlaşdırma və işçi planının hazırlanmasından ibarətdir. Plan imkan yaradır ki, qarşıya qoyulmuş məqsəd uğrunda standartlar, göstəricilər müəyyənləşdirilsin. Planın göstəriciləri nəzarətin həyata ke-

çirilməsinə imkan yaradır. Unutmaq olmaz ki, planlaşdırma düzgün həyata keçirilibsə, idarəetmə fəaliyyəti düzgün istiqamətlənir, yaxşı nəticələr əldə edilir və vaxta qənaət olunur." [6, s.41] Planlaşdırma gələcək fəaliyyət obrazının yaradılmasına, onun icra mərhələlərinin müəyyən edilməsinə yönələn zehni fəaliyyət növüdür. Yaxşı düşünülmüş plan idarəetmə məqsədinin həyata keçirilməsi işində mühüm əhəmiyyət kəsb edir: qarşıya qoyulmuş məqsəd üçün qüvvələri səfərbərliyə almağa, görüləcək işləri dəqiqləşdirməyə, məsul şəxsləri müəyyənləşdirməyə, onları istiqamətləndirməyə və işə səmərəli rəhbərliyi təmin etməyə imkan verir. Planda məqsədə nail olmaq üçün görüləcək işlər, onların icra vaxtı və icraçılar dəqiq müəyyən edilməlidir. Planlaşdırma bir sıra əməliyyatlarla həyata keçirilir:

a) məqsədin əldə edilməsi üçün gələcək fəaliyyətin modelləşdirilməsi,

b) idarəetmə fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi;

c) qarşıya qoyulmuş məqsədə nail olmağın mərhələlərinin müəyyən edilməsi;

d) hər mərhələdə icra müddətinin və konkret məsul şəxslərin müəyyənləşdirilməsi;

e) hazırlanmış planın razılaşdırılması və təsdiqi.

Planlaşdırma ən mühüm amil olub məktəbi idarə etməyin və ona rəhbərliyin zəruri tərkib hissəsidir. Planlaşdırma və məktəbə rəhbərlik məsələləri məktəbin müəllim kollektivi ilə razılaşdırılır. Planlaşdırmanın əsasını əldə olan daxili və xarici informasiyalar təşkil edir. Məktəb işinin planlaşdırılmasında üç növ plan – cari, illik və perspektiv plan nəzərdə tutulur. Perspektiv plan bir neçə il üçün tərtib edilir və burada aşağıdakı məsələlər öz əksini tapır; əvvəlki illərdə görülən işlərin təhlili, yeni illər üçün məktəbin ən zəruri vəzifələrinin müəyyən edilməsi, şagird kontingentindəki və sinif komplekslərində dəyişiklik, məktəbin inkişafının təşkilati pedaqoji problemi, təlim-tərbiyə işlərini təkmilləşdirmənin əsas istiqamətləri, pedaqoji kadrlarla iş, inzibati təsərrüfat işləri və məktəbin maddi texniki bazasının möhkəmləndirilməsi. İllik plan məktəbin bütün həyatını əks etdirir və daha çox konkret olur.

Cari planda ayrı-ayrı bölmələrin fəaliyyət proqramları qeyd edilir və yeri gəldikcə illik planda müəyyən düzəlişlər aparılır. Cari planlaşdırmaya müəllimin tematik və dərs üzrə planları, sinif rəhbərlərinin rüblük və illik, məktəb direktoru və onun müavinlərinin həftəlik və aylıq planları daxildir. Məktəbdə təlim-tərbiyə keyfiyyətinin yüksəldilməsində ən zəruri şərt həmin planların əlaqəli şəkildə həyata keçirilməsidir. Qeyd olunan nəzarətlə yanaşı məktəb rəhbərləri il ərzində 40-50 saat dərs dinləməli və onların pedaqoji təhlilini verməlidir. Bu təhlil zamanı məktəb direktoru obyektiv və ədalətliliyi gözləyir, əks təqdirdə müəllimlər və məktəb rəhbərləri arasında narazılıq baş verə bilər. Müəllimin fəaliyyətinə nəzarətlə yanaşı şagirdlərin təlim işinə də nəzarət olunur. Bu zaman proqram materialının necə yerinə yetirilməsinə diqqət verilir. Nəzarət

zamanı məktəb rəhbərləri hər bir şagirdi hərtərəfli öyrənməyə nail olur. Onun idrak marağının, qabiliyyətinin necə inkişaf etməsini öyrənə bilir. Nəzarətin tərbiyəvi əhəmiyyəti ondan ibarətdir ki, o, şagirdə tapşırılan işə məsuliyyət hissi yaradır, onları müstəqilliyə, yaradıcılığa təhrik edir. Nəzarət, şagirdləri də, müəllimləri də sistemli işin icrasına cəlb edir. Təlim tapşırığını yerinə yetirən şagirdlərdə mənəvi keyfiyyətin formalaşmasına kömək edir, sağlam ictimai rəy yaradır. Şagirdlərin tədris fənlərinə nəzarətin məzmunu didaktik vəzifələr, tədris və inkişaf səviyyəsi ilə müəyyənləşdirilir. Nəzarət zamanı şagirdin tədris fəaliyyəti kompleks şəkildə yoxlanılır, onların inkişaf dinamikası, şəxsiyyətin necə formalaşması nəzərdə tutulur. Müəllimlərin nəzarətinə cari, dövri, yekun nəzarəti daxil edilir. Cari nəzarəti müəllim hər gün dərsdə təşkil edir, sistemli şəkildə şagirdlərin bütün hərəkətlərini – müvəffəqiyyət və nöqsanlarını qeydə alır. Belə nəzarət sayəsində müəllim hər bir şagirdi, habelə kollektivi bir tam halında öyrənir. Dövri nəzarət adətən bütöv bir mövzu, bölmə başa çatdıqdan sonra aparılır. Yekun nəzarət isə ilin sonunda kurs tamamlandıqda aparılır. Nəzarətdə məqsəd şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyətini yüksəltmək üçün əhəmiyyətli təkliflər hazırlamaqdır, müəllimlərin pedaqoji fəaliyyətinə düzgün istiqamət verməkdir. Planlaşdırma təhsili idarəetmənin bütün səviyyələrində - həm strateji (Təhsil Nazirliyi), həm də taktiki (təhsil idarələri, şöbələri və məktəblər) səviyyələrdə həyata keçirilir. Hazırlanmış plan hələ özlüyündə onun icrasını təmin etmir; bunun üçün müvafiq şərait (şərtlər) lazımdır. Bu isə idarəetmənin digər funksiyası – təşkiletmə funksiyası ilə təmin olunur.

***Ədəbiyyat***

*1.Təhsil müəssisələrində idarəetmənin əsas funksiyaları. https://aztehsil.com/direktor/977-thsl-msslrnd-daretmnn-sas-funksyalar.html*

*2.İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Pedaqoji institut və universitet tələbələri üçün dərs vəsaiti. Bakı, 2012, 236 səh.*

*3.Qəribov Ş., Əsədova İ., İsmayılova T., Kazımov M,, Həsənoğlu F. Təhsilin idarə edilməsinin aktual problemləri. Bakı, "Şahin-MB" MMC, 2016, 192 səh.*

*4.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007, 456 səh.*

*5.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007, 456 səh.*

*6.Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı, Mütəllim, 2010, 170 səh.*

*7.Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N.Təhsilin idarə olunmasının əsasları. Bakı, Mütərcim, 2010. – 476 səh.*

*8.Şahbazov K., Məmmədov M.,Həsənov H. Menecment . Bakı 2007,1032 səh.*

# TƏHSİLDƏ MENECMENT İŞİNƏ PEDAQOJİ ASPEKTDEN YANAŞMANIN MƏKTƏBİN İDARƏSİNDƏ ROLU

**N.Ş.Məmmədzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nigarmamedzada1215@gmail.com*

***Xülasə***

*Ümumi mənada idarəetmə geniş anlayış olsa da bunun təhsil sahəsində təzahürü hər kəsi maraqlandırır və hər bir kəsin həyatına təsir edir. Buna əsasən də ona daha geniş aspektdən yanaşmaq lazımdır. Təhsil müəssisələrində idarəetmə həm psixoloji, həm də pedaqoji yanaşma tələb edir. Pedaqoji yanaşma bu prosesin onurğa sütunudur və bu sahədə icra oluna bilir. Bu yanaşma özlüyündə müəllim-şagird, müəllim-rəhbər, müəllim-müəllim, rəhbər-şagird və s. münasibətlərini və bunların qanunauyğun formada icrasını əks etdirir. Belə ki, məktəbdə düzgün formada idarəetmə yaratmaq üçün bütün pedaqoji prinsipləri və idarəetmənin elmi-psixoloji tərəflərini mənimsəmək lazımdır.*

## ПЕДАГОГИЧЕСКИЙ ПОДХОД К УПРАВЛЕНИЮ ОБРАЗОВАНИЕМ И ЕГО РОЛЬ В УПРАВЛЕНИИ ШКОЛЕЙ

***Резюме***

*Хотя управление в общем смысле является широким понятием, его проявление в сфере образования представляет интерес для всех и влияет на жизнь каждого. Исходя из этого, к нему нужно подходить с более широкой точки зрения. Управление в образовательных учреждениях требует как психологического, так и педагогического подхода.Педагогический подход является основой этого процесса и может быть реализован в этой области. Таким образом, чтобы создать правильную форму управления в школе, необходимо овладеть всеми педагогическими принципами, научными и психологическими аспектами управления.*

## PEDAGOGICAL APPROACH TO EDUCATIONAL MANAGEMENT AND ITS ROLE IN SCHOOL ADMINISTRATION

***Summary***

*Although governance in the general sense is a broad concept, its manifestation in the field of education is of interest to everyone and affects everyone's life. Based on this, it needs to be approached from a broader perspective. Management in educational institutions requires both a psychological and a pedagogical approach. The pedagogical approach is the backbone of this process and can be implemented in this area. s. Thus, in order to create good governance in the school, it is necessary to*

*master all the pedagogical principles and scientific and psychological aspects of management.*

***Açar sözlər:*** *pedaqoji idarəetmə, təhsil, təhsil menecmenti, idarəetmə, tədris prosesi, müəllim-menecer, məktəb*

***Ключевые слова:*** *педагогическое управление, управление образованием, управление, образовательный процесс, учитель-менеджер, школа*

***Key words:*** *pedagogical management, education management, management, educational process, teacher-manager, school*

İdarəetmə hər bir sahədə olduqca mühümdür. Təhsil sahəsində idarəetmə birbaşa cəmiyyətin gələcəyi ilə əlaqədardır. Elmi biliklər idarəetmə praktikasının nəzəri əsasını təşkil edir. Təhsil menecmentinin işi deyəndə birbaşa olaraq təhsil prosesinin idarəsi, müəssisələrdə prosesin təşkilinə, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılmasına nəzarət başa düşülür.

Təhsildə idarəetmə sisteminin subyektləri kimi Təhsil Nazirliyi, şəhər, rayon təhsil şöbələri çıxış edirlər. Mürəkkəb, dinamik sosial sistem olan ümum-təhsil orta məktəbi məktəbdaxili idarəetmənin obyektidir. Məktəbdaxili idarəetmə optimal nəticələr əldə etmək üçün tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlü, şüurlu qarşılıqlı təsiridir.

Təhsil sahəsində idarəetmə digərlərindən olduqca fərqlənir, çünki təhsil ocaqlarında proseslərin hər birində pedaqoji və psixoloji nüanslar nəzərə alınmalıdır. Bura təhsil müəssisəsi olduğu üçün pedaqoji yanaşma buranın idarəetmə işinin mühüm amilidir.

Tam pedaqoji prosesin iştirakçılarının qarşılıqlı təsiri aşağıdakı ardıcıl, qarşılıqlı əlaqəli fəaliyyətlərdən və ya funksiyalardan yaranır:

- işin təhlili;
- işin məqsədi və planlaşdırılması;
- işin təşkili və ona nəzarət;
- nizama salma və təshih etmə.;

İdarəetmənin prinsipləri idarəetmənin qanunauyğunluqlarının konkret təzahürü və inikasıdır.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsipləri tam və hərtərəfli əks etdirir:

1) kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi;
2) idarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi;
3) idarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;
4) idarəetmədə planlılıq;
5) idarəetmədə sistemlilik və komplekslilik;
6) idarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli;
7) idarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi;

8) idarəetmədə demokratikləşdirmə və humanistləşdirmə.

Müasir təhsil sistemlərinin xüsusiyyətlərindən biri dövlət idarəetmə sistemindən dövlət-ictimai idarəetmə sisteminə keçilməsidir. Təhsilin dövlət-ictimai idarəetməsinin əsas ideyası təhsil problemlərini həll etmək üçün dövlətin və cəmiyyətin səylərini birləşdirmək, tədris prosesinin məzmununu, forma və metodlarını, müxtəlif tip təhsil müəssisələrini seçməkdə müəllimlərə, şagirdlərə, valideynlərə böyük hüquqlar və azadlıqlar vermək təşkil edir. Məktəb pedaqoji sistemdir və elmi idarəetmənin obyektidir. Bu, təhsili təşkil edənlərin, rəhbər şəxslərin, müəllimlərin, şagirdlərin məqsədlərini müəyyənləşdirmək və nəticələrə nail olmaq üçün şəraiti yaratmaq, məzmunu seçmək, təhsil-tərbiyə işində müxtəlif vasitələrdən, forma və metodlardan istifadə etmək deməkdir.

Pedaqoji rəhbərlik, yeni sosial şəraitdə təhsil prosesini təşkil və idarə etmək, təhsil işlərinin təşkili, tələbələrin təhsil və bilik fəaliyyətinin formalaşdırılması məqsədi ilə ünsiyyət qurmağı məqsəd qoyan bir qrup müəllimin idarəedici fəaliyyətinin xüsusi bir növüdür. Beləliklə, rəhbərlik təşkilatın, təhsil müəssisəsinin effektiv və səmərəli fəaliyyət göstərməsi üçün intellektual və maddi resursların səfərbər edilməsində elm, incəsənət və fəaliyyət kimi müəyyən edilə bilər. Tədris prosesinin idarə edilməsi tədris prosesinin təşkili, öyrənmə prosesində şəxsiyyətlərə yönəldilmiş, tələbələrin təhsil məlumatlarının müəllimi kimi müəllim mövqeyinin dəyişdirilməsinə yönəldilən yeni tədris prosesləri ilə müəyyənləşdirilən təhsil və bilik fəaliyyəti prosesinin ardıcıl, addım-addım həyata keçirilməsidir.

Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur. Professional bir menecer həm işinə məsuliyyətli, həm də mehriban proses yarada bilən olmalıdır. Bu şəxs qaydaları icra etməklə bərabər, həm də özünə qarşı antipatiya yaratmamalıdır. Onun məktəbi idarəetməsi də müəyyən qanunauyğunluqlara əsaslanır.

**Məktəbdaxili idarəetmənin əsas qanunauyğunluqları sırasına mütəxəssislər aşağıdakıları daxil edirlər:**

1) İdarəetmə sisteminin səmərəliliyinin idarəetmənin subyekti və obyekti arasında struktur-funksional əlaqələrin səviyyəsindən asılılığı;

2) Təhsil-tərbiyə işini idarəetmənin məzmun və metodlarının məktəbdə pedaqoji prosesin təşkilinin məzmun və metodlarının xarakterindən asılılığı;

3) İdarəetmənin analitik, məqsədəmüvafiq, humanist və demokratik xarakterdə olmasının məktəb rəhbərlərinin müxtəlif növ idarəetmə fəaliyətinə hazırlığından asılılığı.

Məktəbin idarə olunmasında ən azı iki qrup şərt vardır: ümumi və spesifik.

Ümumi şərtlərə aiddir: sosial, iqtisadi, mədəni, milli, coğrafi.

Spesifik şərtlərə aiddir: şagirdlərin sosial-demoqrafik tərkibinin xüsusiyyətləri, məktəbin yerləşdiyi yer (şəhər, kənd), məktəbin maddi-texniki bazası imkanları, ətraf mühitin tərbiyəvi imkanları.

Pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Məktəbin məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Ümumi məqsəd təhsil-tərbiyə işinin ayrı-ayrı istiqamətləri üzrə məqsədlərdə konkretləşdirilir.

Nəticə həm ayrı-ayrı şagirdlərin, həm də ümumiyyətlə, şagird kollektivlərinin tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsini təmin edən daha sabit və real meyarların məcmusudur.

Pedaqoji və şagird kollektivlərində əxlaqi-psixoloji mühitin xarakteri, şagirdlərin valideynlərinin mədəni səviyyəsi pedaqoji prosesin səmərəliliyinin mühüm göstəricilərindən biridir.

Pedaqoji sistemin struktur komponentləri vardır. Əsas komponentlərdən biri pedaqoji kollektivin və onun rəhbərlərinin fəaliyyətidir.

Məktəbi idarəetmə sisteminin strukturunda dörd səviyyəli idarəetmə vardır:

**Birinci səviyyə** – dövlət orqanı və ya kollektiv tərəfindən seçilmiş məktəb direktoru, məktəb şurasının, şagird komitəsinin, ictimai təşkilatların rəhbərləri. Bu səviyyə məktəbin inkişafının strateji istiqamətlərini müəyyən edir.

**İkinci səviyyə** – məktəb direktorunun müavinləri, məktəbin psixoloqu, sosial pedaqoq, ictimai faydalı əməyin təşkili üçün məsul şəxs, inzibati-təsərrüfat işləri üzrə direktorun köməkçisi, həmçinin özünüidarədə iştirak edən orqanlar və birliklər.

**Üçüncü səviyyə** – müəllimlər, tərbiyəçilər, sinif rəhbərləri (onlar şagirdlərə və valideynlərə, uşaq birliklərinə və dərnəklərə münasibətdə idarəetmə funksiyasını yerinə yetirirlər).

**Dördüncü səviyyə** – şagirdlər, sinif və ümumməktəb şagird özünüidarəsi. Qarşılıqlı təsir obyekti olan şagird burada eyni zamanda öz inkişafının subyekti kimi çıxış edir.

İdarəetmə təhsil sahəsində olduqda digər sahələrdən daha böyük həssasiyyət yaranır və mütəmadi olaraq yeniliyə açıq olmaq lazımdır. Rəhbər özünü həm tələbə və şagirdlərn dostu, yaxını, həm də kolleqalarının iş yoldaşı kimi aparmalı, həm də təhsil ocağındakı hər bir kəsin onun idarəedicisi, rəhbəri olduğunu hiss etdirməlidir. Yəni həm qaydalarını icra etdirən, həm də sevilən şəxs olmlıdır. Bundan əlavə, prosesi həm qanunauyğun icra etməli, həm də məktəbdəki psixoloji-pedaqoji xüsusiyyətləri nəzərə almalıdır.

Rəhbər hər bir prosesdə "mən etdim" şüarı ilə çıxış etmək yerinə "biz etdik" deməyi bacarmalıdır. Bundan əlavə, heç bir tələbəni və ya müəllimi digərinin yanında alçaltmamalı, acılamamalıdır. Bu da onun pedaqoji ustalığın-

dan qaynaqlanır. Pedaqoji elmdə və praktikada, vahid pedaqoji prosesi rəhbərlik elmi baxımından dərk etmək, onu ciddi, elmi cəhətdən əsaslı bir xarakter daşımaq istəyi getdikcə, daha da güclənir. Bu prosesin idarə edilməsi, optimal nəticə əldə etmək məqsədilə, iştirakçıların obyektiv qanunlarını bilmək əsasında məqsədyönlü, şüurlu bir qarşılıqlı təsiridir. Tədris prosesinin subyektlərinin qarşılıqlı əlaqəsi ardıcıl, bir-biri ilə əlaqəli hərəkətlər və ya funksiyalar zənciri kimi formalaşır: pedaqoji təhlil, hədəf qurma və planlaşdırma, təşkil, nəzarət və tənzimləmə və s.

Pedaqoji rəhbərliyə "təsir" fəlsəfəsi bu gün "pedaqoji idarəetmə nəzəriyyəsinin yaranmasına səbəb olan" qarşılıqlı əlaqə, "əməkdaşlıq" və "refleksiv idarəetmə" fəlsəfəsi ilə əvəzlənir. İlk növbədə, menecerin fəaliyyətinə həqiqi hörmət, işçilərinə güvənmək və onlar üçün uğurlu vəziyyətlər yaratdıqda, şəxsi yönümdən fərqlənir. İdarəetmə ideyalarını başa düşmək, onların pedaqoji problemlər sahəsinə köçürülməsi müstəqil istiqamətin - pedaqoji idarəetmənin inkişafına əsas verir. Pedaqoji idarəetmə yalnız özünə aid olan öz qanuni xüsusiyyətlərinə malik olan xüsusi bir idarəetmə şöbəsi kimi tətbiq olunur. Bu spesifiklik tədris prosesinin menecerinin əməyin, məhsulun, alətin və nəticələrinin xüsusiyyətlərinə əsaslanır. Tədris prosesinin menecerinin əməyi, idarəetmə fəaliyyəti, əməyin mahiyyəti, təhsil prosesi haqqında məlumatdır. Əmək aləti söz, sözdür. Menecerin işinin nəticəsi pedaqoji idarəetmə obyektinin savadlılıq, təhsil və inkişaf səviyyəsidir (5, s.32).

**"Pedaqoji idarəetmə" konsepsiyasının idarəetmə fəaliyyətinin müxtəlif aspektlərini aşağıdakı kimi xarakterizə etmək olar:**

- təhsil müəssisəsində idarəetmə nəzəriyyəsi;
- təhsil müəssisəsinin idarəetmə sistemi, onun inkişaf yollarını tapmaq, strateji və operativ qərarların qəbul edilməməsi ilə əlaqədar problemlərin həlli;
- təhsil fəaliyyətinin idarə olunması;
- təhsil fəaliyyətinin və inkişafının səmərəliliyinin artırılmasına yönəldilmiş pedaqoji sistemlərin idarə olunması prinsipləri, metodları, təşkilati formaları və texnoloji metodların formalaşdırılması və s.

Pedaqoji idarəetmə nəzəriyyəsini istifadə edərək, şəffaf bir idarəetmə sistemindən təşkilati və idarəetmə əməkdaşlığının üfüqi bir sistemə keçmələrinə imkan verir, tələbələrə bir qrupda həyat problemlərini həll etməklə müəllimlə bərabər qarşılıqlı əlaqə imkanı verir. Ümumi mənada desək, həyata elmi və tərbiyəvi cəhətdən ən çox inkişafı məktəblər qatır və buna görə də onların idarəsi kor-koranə yox, bir çox pedaqoji-psixoloji aspekt nəzərə alınmaqla reallaşdırılmalıdır.

***Ədəbiyyat***

1. *Abbasov O. "Təhsilin idarə olunması" Bakı, 2016, 232 s.*
2. *Nəzərov M.H. Təhsilin sosiomədəni əsasları. Baki, 2017, 256 s.*

3. *O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov. "Təhsilin idarə olunmasının əsasları" 7-11 s.*
4. *Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Dərs vəsaiti. Bakı. Mütərcim, 2010, 476 s.*
5. *Мескон М.Х., Альберт М., Хедоури Ф. Основы менеджмента: пер. с англ. М.: Дело, 1993. 701 с.*
6. *Горюнова Л.В. Овладение знаниями и умениями педагогического менеджмента как фактор повышения качества профессиональной подготовки учителя: дис. ... канд. пед. наук. Ростов н/Д, 1999. 239 с.*
7. *Симонов В.П. Педагогический менеджмент: ноу-хау в управлении педагогическими системами: учеб. пособие. М.: Пед. общество России, 1999. 429 с.*
8. *Крыжко В.В., Павлютенков Е.М. Психология в практике менеджера образования. СПб., 2001. 304 с.*

# XARİCİ DİLİN TƏDRİSİNDƏ MÜXTƏLİF VƏRDİŞ VƏ BACARIQLARIN MƏNİMSƏNİLMƏSİ

**X.K.Qasımova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*xayala_gasimova@yahoo.com*

***Xülasə***

*Qədim zamanlardan bəri insanlar müxtəlif usullarla bir-biriləri ilə ünsiyyət qurublar. Dil ən mühüm və üstün ünsiyyət vasitəsidir. Körpə doğma dilində danışmazdan əvvəl ilk növbədə valideynini sadəcə dinləyir, yamsılayır və daha sonra sərbəst danısmaga baslayır. Böyüdükcə öz dilində oxuyub-yazmağı da öyrənir. Xarici dili öyrənərkən də bu 4 bacarıq böyük əhəmiyyət kəsb edir. Dinləmə və oxuma bacarığı məlumatları qəbul etmədə, danışıq və yazı bacarıqları isə məlumatları ötürməkdə kömək göstərir. Məqaləmdə xarici dilin tədrisi ucun bu bacarıqların mənimsənilməsi və inkişaf etməsi yönündə daha geniş tədqiqatlar aparmışam.*

## ОСВОЕНИЕ РАЗЛИЧНЫХ НАВЫКОВ В ОБУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА

***Резюме***

*С давних времен люди общались друг с другом по-разному. Язык - самое важное и высшее средство общения. Прежде чем говорить, малыш просто слушает родителей, имитирует их, а затем начинает бегло говорить. По мере взросления он учится читать и писать на своем родном языке. Эти 4 навыка также очень важны при изучении иностранного языка. Навыки аудирования и чтения помогают получать информацию, а навыки устной и письменной речи помогают передавать информацию. В своей статье я провела больше исследований по приобретению и развитию этих навыков при обучении иностранного языка.*

## MASTERING DIFFERENT SKILLS IN FOREIGN LANGUAGE TEACHING

***Summary***

*From ancient times, people have communicated with one another in various ways. Language is the most important and superior means of communication. Before a baby can speak his mother tongue, he simply listens to his parents, imitate them and then he begins to speak fluently. As he grows up, he learns to read and write in his native language. These 4 skills are also very important while learning a foreign language. Listening and reading skills help to receive information (receptive skills), and speaking and writing skills help to transmit information (productive skills). In my article, I have done more research on mastering and developing these skills in foreign language teaching.*

***Açar sözlər****: produktiv, reseptiv, dinləmə, yazma, danışıq, yazı, vərdiş və bacarıqlar*
***Ключевые слова****: чтение, письмо, говорение (речь), понимание на слух, навыки и умения, принимающий,продуктивный*
***Key words****: listening, reading, writing, speaking, skills, receptive, productive, teaching, learning*

**Dinləmə bacarığı.** Biz nəyisə və ya kimisə dinləyərək müxtəlif informasiya qəbul edirik. Dinləmə bacarığı reseptiv bacarıqlardan biridir. İnsan hər hansı bir mesajı və ya informasiyanı bir başqa insan tərəfindən və yahud fərqli avadanlıqdan, məsələn, radio televizor kimi qurğulardan eşidərək/dinləyərək qəbul edir. Buna görə də bu bacarıq qəbul etmə bacarığı və ya reseptiv bacarıq adlanır.

Bir necə dinləmə vərdişlərimiz vardır. Xəbərlər, mühazirələr, mahnılar, hekayələr, qaydalar, hava şəraiti və s. kimi mətnlər günlük dinləmə vərdişlərimizdir.

Passiv dinləmə. Bəzən müəllimlərin tədris edərkən istifadə etdiyi metodlarda hər sözü, cümləni tərcümə etdikləri üçün şagirdlərdə passiv dinləmə bacarıqlarına yol açırlar. Bu şagirdlərin daha sonra dinləmə və danışıq bacarıqlarına daha az marağının olduğunu ortaya çıxardır. Belə hallardan qaçınmaq üçün şagirdlər dərslərdə ingilis dilinə qulaq asmalı və sinifdə ingilis dilində danışmağa can atmalıdırlar. Onların passiv dinləmə bacarığı aktiv dinləmə bacarığına çevrilməlidir və günlük həyatda istifadə edilməsindəköməklik olunmalıdır. Əlbəttə ki, burada əsas məsələ müəllimin seçdiyi tədris metodu çox önəmlidir. Şagirdlərə anlamaq üçün dinləmək bacarığını formalaşdırmalıdır. Hər sözə deyil də, məğzə yönəlmələrini öyrətməlidir və buna uyğun dinləmə strategiyaları yaratmalıdır.

*Məsələn: Where are you going? (Haraya gedirsən?) Məktəbə gedirəm. Tərcümə; I am going to school və ya sadəcə To school ( məktəbə)* şagird məğzin məktəb olduğunu, bütün cümləyə diqqət yetirməyin vacib olmadığını analmalıdır, eyni qaydada gələcəkdə danışıqda da istifadə edə bilməlidir.

Dinləmə bacarığının zəif olmasının baslıca məsələlərindən biri də odur ki, müəllimlər siniflərdə L1, yəni ana dilindən istifadə etmələrinə icazə verir və hətta özü də istifadə edir. Sinif daxilində yalniz ingilis dilində danışıq və dinləmə bacarığı formalaşarsa, dinləyicilər sinif xaricində gündəlik həyatlarında istifadə edə biləcəklər.

Danışıq – Ünsiyyət mesajlarının effektiv şəkildə göndərilməsi və qəbul edilməsi deməkdir.

Danışıq – dördündən ən vacib və ən üstün sayılan bacarıqdır.

Danışıq iki produktiv bacarıqdan biridir. Danışarkən məlumat ortaya çıxarırıq və məlumat ötürürük, informasiya boşluqlarını doldururuq. Qısaca, əminliklə deyə bilərik ki, biz ünsiyyət üçün danışırıq, yəni ideyalarımızı və ya fikirlərimizi başqalarına ötürürük. Xarici dildə danışmaq üçün əvvəlcə diqqətlə dinləmək lazımdır. Natiqlərlə ünisyyət, praktiki təcrübə bu bacarığa yiyələnməyin tək yoludur. Tək bir misal bu məsələni bizə aydınlaşdıracaq.



Bir insan avtomobil sürməyi öyrənmək istəyir. Ona qaydalar izah edilir və o hər birini çox yaxşı öyrənir. Lakin bunlar onun maşın sürməyinə kifayət etmir. Əgər o sürmək əvəzinə, yalnız sürücülük haqqında mühazirə dinləməyə davam edərsə, sizcə o avtomobil sürməyi öyrənə bilərmi? Xeyr. Bu o deməkdir ki, burada vacib olan yalnız praktikadır, məşqdir. Eyni şəkildə, əgər biz yalnız dili təsvir etmək, onun formasını, qrammatik qaydaları əzbərləsək, dildən istifadə etməyi öyrənməyəcəyik. Biz danışmağı ancaq danışmaqla öyrənə bilərik (məşq etməklə). Beləliklə, bu bacarığı inkişaf etdirmək üçün yeganə cavab dili məsq etdirməkdir. Dili məşq etmək ücün müxtəlif yollar vardır. Sinifdə müəllim şagirdləri ingilis dilində danışmağa həvəsləndirməli, özü də onlarla ünsiyyətdə yalnız bu dildən istifadə etməlidir. Digər dil inkişaf etmə vərdişləri filmlərə baxmaqla, dil daşıyıcıları ilə canlı, ya da internet vasitəsilə danışaraq mənimsənilə bilər.

Dildə dəqiqlik – bura qrammatikanın məşqi, sözlərin tələffüz forması, vurğusu daxildir. Sinifdə bu hissə kifayət qədər inkişaf etdirilmir və şagirdlərə öyrədilmir. Şagirdlərdə dəqiqlik hissəsinə o qədər önəm verilir ki, səlislik (fluency) hissəsi unudulur.

Səlislik – komunikativ bacarığın inkişafında çox böyük rol oynayır. Şagirdin qrammatik səhvləri burada vacib nöqsan sayılmasa da, qarşı tərəfin kifayət gədər düzgün anlaması üçün ciddi səhvlərin qarşısı alınmalıdır.

Qrup muzakirələri, dil məşqləri, rolculuq oyunu, mini muhazirələr dəqiqlik və səlisliyin inkişaf etdirilməsində istifadə edilə biləcək üsullardır.

Oxuma bacarığı – 2 reseptiv bacarıqlardan biridir. Mətni oxuyub analmaq üçün isitifadə olunan bacarıqdır. Oxuma bacarığı özündə mətni oxuyanı, mətndəki məlumatları anlayıb izahı özündə əks etdirir. Biz müxtəlif mətnlərlə üzləşirik və müxtəlif məqsədlərlə onları oxuyuruq. Bəzən ümumi məlumat axtarırıq, bəzən hər sözə diqqət yetirərək xüsusi məlumatlar toplayırıq.

Oxuyarkən mətni surətli şəkildə gözdən keçirməyə skimming, mətnin hər hissəsini daha diqqətlə oxuyub nəzər yetirilməsinə isə scanning deyilir.

Yazı – produktiv bacarıq sayılır, çünkü biz öz fikirlərimizi, ideyalarımızı yazı şəkildə ortaya çıxarırıq. Bu bacarıq vasitəsi ilə ünsiyyət qurmaq üçün çoxlu məşqlər edilməlidir, təcrübə yıgılmalıdır. Yazı bacarığı 4 bacarıq arasında

şagirdlər üçün ən çətin gələn bacarıqdır. Buna görə də bu bacarıq mütəmadi olaraq məşq edilməlidir. Yazı yazarkən onun məqsədini unutmamalıyıq. Yazının məqsədi ünsiyyət qurmaqdır. Biz yazı üzərindən məlumat paylaşırıq, fakirlərimizi, ideayalarımızı digər insanlarla bölərək unsiyyət qururuq. Bunu şifahi ünsiyyət qura bilmədikdə istifadə edirik. Yazıda qarşılaşdıgımız cətinliklər ondan ibarətdir ki, biz bəzən kifayət qədər söz ehtiyatımız olmur, yaxud mətni necə başlayır, necə bitirmək lazım oldugunu bilmədiyimiz üçün cətinlik cəkirik. Muəllim sinifdə yazı bacarıgına kifayət gədər səy və vaxt ayırmalı, şagirdlərin garşılaşa biləcyi çətinlikləri onlara izah edib onlarla məşq etməlidir.

**Nəticə**

Dil öyrənərkən bacarıqlara yiyələnmək və onları mənimsəmək çox vacibdir. Hər bir bacarıq ayrılıqda öyrədilməlidir. Məsələn, ingilis dilinin qrammatikası ilə işləyirsinizsə, yazmaq və oxumaq üçün məşq edirsiniz. Əgər audio kitab dinləyirsinizsə, dinləyib-anlamaq üçün məşq edirsiniz. Əgər ucadan oxuyursansa, oxumağı və danışmağı məşq edirsiniz. Əgər mətni təkrar danışırsınızsa, nitqi inkisaf etdirirsiniz.

Məktəblərdə yazı və oxuya daha çox diqqət verildiyi üçün şagirdlərdə dinləmə və danışıq bacarıqları kifayət qədər formalaşmır. Biz bilirik ki, danışmağı öyrənmək üçün danışmaq lazımdır. Beləliklə, bu nəticəyə gəlmək olar ki, tədris zamanı qeyd edilən hər bir bacarığın (dinləmə, yazı, oxu, danışıq) inkişafına və mənimsənilməsinə ayrı-ayrılıqda diqqət yetirilməlidir.

***Ədəbiyyat***

1. *Teaching Adults, An ESOL Resource Book, Developed by ProLiteracy America*
2. *Teaching speaking, listening and writing By Trudy Wallace, Winifred E. Stariha and Herbert J. Walberg*
3. *Bachman L., & Palmer A. (1996). Language testing in practice. Oxford: Oxford University Press.*
4. *Canale M., & Swain M. (1980). Theoretical bases of communicative approaches to second language teaching and testing. Applied Linguistics, 1, 1-47.*
5. *Council of Europe (2001) Common European Framework of Reference for Languages: Learning, Teaching, Assessment, Cambridge: Cambridge University Press.*
6. *Fitzpatrick A., & O'Dowd R. (2012). English at Work: The International Research Foundation for English Language Education report.*
7. *Kassim H & Ali F (2010) English communicative events and skills needed at the workplace: Feedback from the industry. English for Specific Purposes, 29(3), 168-182.*
8. *Powers D. E. (2010) The case for a comprehensive, four-skills assessment of English Language Proficiency. TOEIC Compendium Study. ETS Publications.*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MEDİADAN İSTİFADƏ

**G.T.Kərimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*rizvanhikmetli@gmail.com*

***Xülasə***

*Müasir dövrdə elm və texnologiya sürətlə inkişaf edir və həyatımızın hər bir sahəsinə öz təsirini göstərir. Gündəlik həyatımızda texnologiya vasitələrindən müxtəlif məqsədlər üçün istifadə edirik. Texnoloji vasitələrin ayrılmaz bir hissəsi olan mediasız gündəlik həyatımızı təsəvvür etmək olmaz. Media vasitələrinin təhsil sistemində geniş istifadə olunması yeni öyrənmə fürsətləri ortaya çıxarır. Medianın əhəmiyyətli xüsusiyyətlərindən biri də, xarici dilləri, eləcə də ingilis dilini öyrənmək istəyənlərin diqqətini və marağını çəkməsidir. Günümüzdə ingilis dilinə aid yeni resurslar və vasitələr hazırlanır və istifadəyə verilir. Tədqiqatın obyekti ali təhsil müəssələrində ingilis dilinin öyrənilməsində istifadə olunan kütləvi informasiya vasitələri, həmçinin video, audio, qrafika və mətn kimi multimedia vasitələridir. Hazırki dövrdə ali təhsil müəssələrində müasir texnoloji vasitələrdən səmərəli şəkildə istifadə etməklə ingilis dilinin tədrisi prosesi inkişaf edir.*

## ИСПОЛЬЗОВАНИЕ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

***Резюме***

*Сегодня наука и технологии стремительно развиваются и влияют на все сферы нашей жизни. Мы используем технологии для различных целей в повседневной жизни. Невозможно представить нашу повседневную жизнь без средств массовой информации, которые являются неотъемлемой частью технических средств. Широкое использование СМИ в системе образования открывает новые возможности обучения. Одна из важных особенностей СМИ - привлекать внимание и интерес тех, кто хочет изучать иностранные языки, а также английский. Сегодня разрабатываются и запускаются новые ресурсы и инструменты на английском языке. Объектом исследования являются средства массовой информации, используемые при изучении английского языка в высших учебных заведениях, а также мультимедийные инструменты, такие как видео, аудио, графика и текст. В настоящее время процесс обучения английскому языку развивается в высших учебных заведениях с эффективным использованием современных технологических средств.*

## USE OF MEDIA IN TEACHING ENGLISH

***Summary***

*Nowadays science and technology develop rapidly and affect every area of our lives. We use technology for various purposes in our daily lives. It is impossible to*

*imagine our daily life without the media, which is an integral part of technological means. The widespread use of media in the education system opens up new learning opportunities. One of the important features of the media is to attract the attention and interest of those who want to learn foreign languages, as well as English. Today, new English language resources and tools are being developed and launched. The object of research is the media used in the study of English in higher education, as well as multimedia tools such as video, audio, graphics and text. At present, the process of teaching English is developing in higher education institutions with the effective use of modern technological means.*

***Açar sözlər:*** *texnologiya, inkişaf, vasitə, məqsəd, media, dil, tədqiqat, tədris, informasiya, təhsil, multimedia*

***Ключевые слова:*** *технология, разработка, инструмент, цель, средства массовой информации, язык, исследование, обучение, информация, образование, мультимедиа*

***Key words:*** *technology, development, means, purpose, media, language, research, teaching, information, education, multimedia*

Müasir dövrümüzdə texnologiyanın inkişafı nəticəsində dünya sürətlə dəyişir və bu dəyişikliklər həyatımızın hər bir sahəsinə öz təsirini göstərir. Gündəlik həyatımızda texnologiya vasitələrindən müxtəlif məqsədlər üçün istifadə edirik. Hal-hazırda texnoloji vasitələrin əhəmiyyətli təsirini insanların bir-biri və dünyanın yerdə qalan hissələri ilə pmunikasiyaları, dostları və ailələri ilə qarşılıqlı əlaqələri, şəhər və hökumətlərin təşkiledilmə üsulları, eləcə də təhsil sahəsində görə bilərik. Media vasitələri də texnoloji vasitələr arasında ən çox istifadə olunandır. Media vasitəsilə insanlar bir-birilərinə məlumat ötürür və yeni biliklər əldə edirlər. Belə ki, kütləvi informasiya vasitələri olan qəzet, jurnal, radio, televiziya və sosial media vasitəsilə insanlar müxtəlif mövzularda zəngin biliklər əldə edirlər. Təhsil prosesində media vasitələrindən istifadə tələbələr üçün geniş imkanlar yaradır. İnternet və World Wide Web istifadəsi sayəsində öyrətmə və öyrənmə üsulları tədricən dəyişir və inkişaf edir.

Media vasitəsilə tələbələr xarici dilləri, xüsusən də ingilis dilini daha rahat şəkildə öyrənmək imkanı əldə edirlər. Onlar ingilis dilinə aid yeni resurslar və vasitələrdən yararlanırlar. Bunlara öyrənmə platformaları, ünsiyyət kanalları, forumlar, mobil tətbiqlər, oyunlar kimi tətbiqləri misal göstərmək olar. Bu kimi vasitələr ingilis dilinin tədrisində səmərəli və faydalı şəkildə istifadə edilir. Hər gün inkişaf edən və həyatımızı istiqamətləndirən bu tətbiqlərdən uzaq durmaq əvəzinə, texnologiya sahəsindəki inkişafı izləməli və onları təhsil həyatımıza daxil etməliyik. Kompüter və mobil texnologiyaları özündə birləşdirən dil öyrənmə proqramları insanları xarici dil və mədəniyyətlə tanış edən video, audio, qrafika və mətn kimi multimedia vasitələri ilə təmin edir. Xarici dil müəllimləri bu xidmətlərin tələbələr arasında geniş yayılmasından faydalanır və onlardan ingilis dilini öyrənənlərin dil biliklərini artırmaq üçün istifadə

edirlər. Ali təhsil müəssələrdində media vasitələrindən səmərəli istifadə tələbələrə məlumat mübadiləsi, interaktiv mühitlərdə iştirak etmək, müəllimlərlə qarşılıqlı əlaqədə olmaq imkanı verməklə öyrənmə təcrübəsini artırır.

Ali məktəb tələbələrinin ingilis dilinin öyrənilməsi üçün istifadə olunan kütləvi informasiya vasitələri, həmçinin video, audio, qrafika və mətn kimi multimedia vasitələrinin tədris prosesində tətbiqi haqqında məlumatlandırılması çox vacibdir. Məlum olduğu kimi, hal-hazırda ingilis dilinin öyrənilməsi prosesində media vasitələrinin istifadəsinə böyük maraq vardır. Tədris prosesində müəllimlər texnoloji tətbiqlərin öyrənmə və tədris vasitələri kimi istifadə edilməsinə nəzarət edir. Bütün media platformaları xarici dil dərslərini tələbələr üçün daha cəlbedici, maraqlı və cazibədar etmək potensialına malikdir. Xüsusilə də, sosial medianın xarici dilin öyrənilməsinə necə təsir göstərdiyini anlamaq çətin deyil. Facebook, Twitter, Instagram və YouTube kimi platformaların həm müəllimlər, həm də tələbələr tərəfindən istifadəsi təhsilin təşkili prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan başqa multimedia vasitələri ingilis dili dərslərində eşitmə və anlama bacarıqlarının formalaşmasında istifadə olunur.

Elmi işin əsas məqsədi ali məktəb müəssisələrində tədris vasitəsi kimi media vasitələrinin səmərəli şəkildə istifadəsinin tədqiqidir. Elmi işdə qarşıya qoyulan əsas vəzifələr isə ingilis dilinin tədrisi prosesində media vasitələrinin necə istifadə olunması ilə bağlı məlumat vermək, ingilis dilini ünsiyyət vasitəsi kimi inkişaf etdirmək üçün sosial şəbəkələri araşdırmaq, ali təhsil müəssisələrində ingilis dilinin tədrisində media vasitələrinin istifadəsinin səmərəli yollarını təqdim etməkdir. Tədqiqat işində tələbələrin ingilis dili bacarıqlarını deyil, həm də dil öyrənmə təcrübələrini təkmilləşdirmək üçün müasir media vasitələrinin əhəmiyyəti vurğulanır. Bu baxımdan ali məktəblərdə ingilis dilinin tədrisi prosesinin təşkilinin mühüm əhəmiyyəti vardır.

Müasir dövrdə texnoloji vasitələrdən tibbdə, mühəndislikdə, təhsildə, hökumət məsələlərində və bir çox başqa sahələrdə geniş istifadə olunur. Belə ki, gündəlik həyatımızda müəyyən məsələləri həll etmək üçün ən azından minimal texnoloji biliklərə sahib olmaq çox vacibdir. Həyatımızın bütün sahələrində tətbiq olunan texnoloji vasitələr təhsil sahəsinə də öz təsirini göstərir. Kompüter bacarıqlarının vacib olduğu bu dövrdə ilk öncə təhsildə texnoloji vasitələrin istifadəsi prioritet məsələlərdən birinə çevrilməlidir. Belə vasitələrin təhsilə gətirilməsindən sonra kompüterlərə əsaslanan dil tədrisi metodikaya gətirildi. Müasir dövrün tələblərinə cavab verən texnoloji vasitələrin tədris prosesində tətbiqi ilə bağlı müxtəlif üsullar tədqiq edilir. İngilis dilinin öyrənilməsi üçün ali məktəblərdə kütləvi informasiya vasitələri və multimedia vasitələrinin öyrənilməsi mövzusunda araşdırmalar aparılır. Bu gün ingilis dilinin öyrənilməsi üçün media vasitələrindən istifadə dünyada görünməmiş bir sürətlə yayılır və bu səbəbdən sosial media və multimedia vasitələri fenomenlərini təhlil etmək vacib məsələdir. Bu araşdırmanın əhəmiyyəti ingilis dili müəllimləri və tələbələrdə

müəyyən vərdişlər formalaşdırmaqdır ki, bu da dilin öyrənilməsində media vasitələrindən düzgün və səmərəli şəkildə istifadəni təmin edir. Digər tərəfdən müəllimlər müasir texnologiyalardan istifadə etməklə tədris təcrübəsi qazanır. İngilis dilini xarici dil kimi öyrətmək və öyrənmək üçün istifadə edilən ənənəvi tədris təcrübələrini dəyişdirmək təhsil gündəmində olan müzakirə obyektlərindən biridir. Müəllimlər və tələbələr media vasitələrinin potensialını effektiv və faydalı tədris alətləri kimi tətbiq etməyi öyrənirlər.

Daim inkişaf edən dünyada müasir texnologiyalar təhsil sahəsində geniş istifadə olunur və ingilis dilinin tədrisində də texnoloji vasitələrdən istifadə olunması aktual məsələdir. Məlumdur ki, dil ünsiyyət vasitəsidir və hər hansı bir dili öyrənərkən onu ünsiyyət prosesində istifadə etmək lazımdır. Tədris prosesində dil bacarıqlarının inkişafı üçün texnoloji vasitələrdən istifadə edərək ingilis dilinin ünsiyyət vasitəsi kimi inkişafı önəmli məsələlərdəndir. Bu gün ingilis dilinin tədrisində İKT-lərdən geniş istifadə olunur. İKT-lərdən istifadə nəticəsində ingilis dili ünsiyyət vasitəsinə çevrilir. İKT-nin təhsil sahəsinə inteqrasiyasının bir sıra müsbət cəhətləri vardır. Media vasitələrinin tətbiqi ilə tələbələr informasiyanı müxtəlif yollarla qəbul edir, ötürür və nəticədə dərs prosesi daha maraqlı keçir. Bu yolla tələbələr müxtəlif tapşırıqların öhdəsindən asanlıqla gəlir və onlar dərs prosesində daha aktiv olmağa çalışır. Hal-hazırda təhsil sahəsində texnologiyaların tətbiq olunması nəticəsində intellektual, məntiqli və tənqidçi düşüncəli tələbələr yetişir.

Müasir tədris vasitəsi olan multimedia vasitələrindən təhsil sahəsində istifadə dünya təhsil prosesinin inkişafında ən vacib tendensiyalardan biridir. Dərs prosesində multimedia vasitələrinin tətbiqinin bir sıra üstünlükləri vardır. Tələbələr mövzu ilə bağlı əsas biliklərə yiyələnir, bilikləri sistemləşdirir, özlərində motivasiya formalaşdırır. Onlar tədris materialını qavramaq, öyrənmə obyektlərindəki əlaqələri və münasibətləri dərk etmək, ümumiləşdirmək, təhlil etmək, yaradıcılıq fəaliyyətini artırmaq kimi fəaliyyətlərdən yararlanırlar. Bundan başqa, belə vasitələr tələbələrin elmi dünyagörüşünü artırır, müstəqil və qrup işini təşkil etməyi öyrədir. Multimedia təqdimatları istənilən məlumat qəbulu üçün nəzərdə tutulmuşdur və tələbələr müxtəlif növdə informasiyalar daşıyan video, audio, qrafika və mətn kimi vasitələrlə təmin olunurlar. Məsələn, belə texnologiyalardan istifadə edərək dərsin mövzusunu, müzakirə olunan sualları slaydlar vasitəsilə təqdim etmək olar. Multimedia təqdimatları tədris materialını zəngin strukturlaşdırılmış məlumatlarla və şəkillər sistemi ilə təqdim etməyə imkan verir.

Multimedia anlayışları zamana uyğun olaraq dəyişir və mövcud olan texnologiyadan asılı olur. Onlar kompütere əsaslanan tədris mühiti yaradır. Eyni zamanda birdən çox duyğu orqanına müraciət etməklə məlumatın əldə edilməsi və ötürülməsi, həmçinin görmə və səsin birləşməsi ilə xarakterizə olunan multimedianın dəyəri sürətlə artır. Dil bacarıqlarına müvəffəqiyyətlə nail olmaq üçün bir çox multimedia mövcuddur:

- obyektlərin və proseslərin vizual nişanları;
- rəqəmsal olaraq qeydə alınmış musiqi parçaları;
- rəqəmsal video;
- bir neçə dilin eyni vaxtda yazılması üçün səsyazma sistemləri;
- səs, şəkillər və animasiyaların daxil olduğu CD-ROM-lar;
- hərəkətli qrafiklər;
- videokasetlər;
- kompüterdə yaradılan çap materialları və s.

İngilis dili tədrisində danışıq mədəniyyəti, dilin quruluşu və real istifadə mühitləri vacib olduğu üçün bu cür mühitləri təqdim edəcək materiallara ehtiyac vardır. Kompüterlər bu cür materialları əyani, eşitmə, yazılı və çap formatında təqdim edir. Kompüterlər vasitəsilə məlumatı uzun müddət saxlamaq mümkün olur və bu da qısamüddətli yaddaşı olan tələbələr üçün vaxt və istifadə rahatlığı təmin edir. Beləliklə, onlar qısamüddətli yaddaşla uzunmüddətli yaddaş arasında qarşılıqlı əlaqə qurur. Tələbələrə öz dil biliklərini sınamaq və qiymətləndirmək imkanı verməklə, kompüterlər məlumatların xatırlanmasına kömək edirlər.

Bu gün ingilis dilinin tədrisində müasir texnologiyalardan istifadə əsas məsələlərdən birinə çevrilmişdir. İngilis dilində müəyyən bacarıqlara nail olmaq müxtəlif texnoloji vasitələr sayəsində artıq daha da asanlaşır. Tədris prosesində dərsi internetlə, kompüter vasitəsilə öyrənmə və müxtəlif multimedia proqramlarından istifadənin faydalarını tez-tez görürük. Media və texnologiya vasitələrinin yardımı ilə dil öyrənmə tələbələrin dinləmə, danışma, oxuma və yazma bacarıqlarını inkişaf etdirir və onları interaktiv ünsiyyətə cəlb edir. Məhz belə vasitələrin tədris prosesində tətbiqi dərsə canlılıq gətirir və tələbələr müstəqil şəkildə fəaliyyət göstərə bilirlər.

Media vasitələri dil öyrənənləri ünsiyyət qurmaq və hədəf dili ünsiyyət prosesində istifadə etmək üçün daha çox imkanlarla təmin edir. Tələbələr real situasiyalarda ingilis dilini necə istifadə etməyi öyrənir. Bu da həm şifahi, həm də yazılı dil bacarıqlarının eyni zamanda müsbət inkişafına gətirib çıxarır. Dəyişən dünyada həm mükəmməl dil bacarıqlarına malik olmaq, həm də texnoloji vasitələrdən istifadəni bacarmaq əsas tələblərə çevrilmişdir. Ona görə də, təhsil sistemində müasir texnologiya və media vasitələrinin tətbiq olunmasının böyük əhəmiyyəti vardır.

***Ədəbiyyat***

1. *Cuban L. Oversold and underused: Computers in the classroom. Cambridge MA: Harvard University Press, 2001, 250 p.*
2. *Ellsworth J.H. Education on the Internet. Indianapolis, Ind. Sams. 1994.*
3. *British Council, Innovations in learning technologies for English language teaching. British Council 2013, 43 p.*
4. *Sharon E. Smaldino, İnstructional technology and media for learning, 2004, 288 p.*

# SİNİFDƏ DANIŞIĞIN ÖYRƏDİLMƏSİ

**F.A.İmaməliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*justmefidan@gmail.com*

***Xülasə***

*Xarici dilin tədrisində əla danışan sinifdən yaxşı heç nə yoxdur. Ən əsas tələbələrin heç bir təzyiq olmadan fikirlərini sərbəst ifadə edə bildikləri mühitin yaradılmasıdır. Effektiv nitq müəllimi olmaq sadəcə danışmaq tələb etmir.*

*Hər bir yeni müəllimə veriləcək təkcə bir məsləhət olsaydı bu cibində bir nəçə asan və əyləncəli, çox vaxt tələb etməyən, bütün dil səviyyəsində olan siniflərlə oynanıla biləcək, praktik və yaxud təkrar etmə tapşırıqlarının olmasıdır.*

## ОБУЧЕНИЕ РАЗГОВОРНОЙ РЕЧИ В КЛАССЕ

***Резюме***

*Нет ничего лучше классного разговорного класса. Все сводится к одному: создание среды, в которой учащиеся могут свободно выражать свои мысли, без давления. Чтобы быть эффективным учителем устной речи, нужно больше, чем просто говорить.There'snothingquitelikegreatspeakingclass.*

*Если бы у каждого нового учителя был один совет, это был бы такой: имейте в кармане несколько упражнений, которые очень легкие и веселые, которые подходят для любого уровня класса и которые практикуют или повторяют полезный материал.*

## TEACHING SPEAKING IN THE CLASSROOM

***Summary***

*There's nothing quite like great speaking class. It all boils down to one thing: creating an environment where students can express themselves freely, with no pressure. Being an effective speaking teacher requires more than just talk.*

*If there was one piece of advice to every new teacher, it would be this: have in your back pocket a few exercises which are very light and fun, which work with any level of class, and which practice or review useful material.*

*The communicative method is all about communication. Communicative language teaching makes use of real-life situations that necessitate communication. The teacher sets up situations that students are likely to encounter in real life.*

***Açar sözlər:*** *kommunikasiya, nitq, müəllim, şagird, dərs, qrammatika, lüğət*
***Ключевые слова:*** *общение, речь, учитель, ученик, урок, грамматика, словарь*
***Key words:*** *communication, speech, teacher, student, lesson, grammar, dictionary*

## Introduction:

Our lives are very noisy. At any given time, we are bombarded by so many sounds that we do not even notice them most of the time. Challenge your

students' powers of observation by taking some time out of typical class activities to listen quietly. For example, the fan on my computer, the washing machine in my basement, and my roommate breathing as well as the air blowing through the vents in the back of the room. Normally, we do not notice the sounds around us all the time, but by focusing for just a few minutes we can hear a completely new world. If you can take your students to an unusual place, a courtyard, a park, some nearby woods or a stream, do so and then take some time to listen to the natural sounds around you. If you cannot leave the school, your students will still benefit from this activity in the classroom. After spending a given amount of time listening, have your students share what they heard either through discussion or in writing. This might also be a good time to teach the word onomatopoeia- a word that is structured to sound like the noise it represents. Examples that you can give might include bark, meow, and crash.

Just because your class is being quiet does not mean they are not learning and practicing English. These activities may decrease the volume of your typical class period but they will also increase your students' proficiency in English.

Icebreakers are important when you are trying to get to know your students. Depending how your school organizes its classes, you may use these types of activities primarily at the beginning of the school year. You can also adapt icebreakers into activities to use when starting new topics. It is sometimes easier for students to share their ideas if they know the rest of the class will have to share theirs too.

In order to learn students' names, you can conduct an activity where students take turns saying their name. You can make this more challenging by having students say the name of the last student to speak or even the names of all students who have already said their name before saying their own name. To make it more interesting and to learn a little more about your class, ask students to include something specific such as their favoritecereal, color, sport, or movie. By the end of the activity you should try your best to say every students' name.

If your class is quite small you may also consider having students think about the three things they would take with them to a deserted island and then share why they chose one or all of those things. This is an excellent way of getting to hear about what is important to your students and how they are able to organize their thoughts.

If your class is larger, you can conduct the same activity in groups which is good for getting students talking with one another but will exclude you for most of the activity. Another similar group activity is to have students write down the first word that pops into their head when they hear you say a certain color. Students can then discuss why they chose certain words in their groups or just have the students with the most unusual choice explain his choice. After

a few minutes give them another color to think about and discuss. Groups should present the class with a brief summary of their discussions towards the end of the lesson.

Icebreakers are excellent because they give students the opportunity to share things about themselves and learn about their peers.

These activities often get students moving or thinking creatively. They can be lots of fun and dissolve any tension or nervousness there might be in your classroom. It is important that students be able to interact with one another easily because learning English is all about communication.

When it comes to speaking, confidence is the key. No matter how many different activities that you try with your student, nothing beats a smile when it comes to unlocking the confidence. A smile provides the students with positive outlook on what they can perceive as being the impossible task of speaking a foreign language. The key to unlocking their inner confidence, which is one of the major factors in speaking English with confidence.

Pronunciation is a basic quality of language learning. Though most second language learners will never have the pronunciation of a native speaker, poor pronunciation can obscure communication and prevent ESL student from making his meaning known.

After noting your students' pronunciation levels, move to vocabulary. Vocabulary comprehension and vocabulary production are always two separate banks of words in the mind of a speaker, native as well as second language. You should encourage your students to have a large production vocabulary and an even large recognition vocabulary. For this reason it is helpful to evaluate your students on the level of vocabulary they are able to produce. Listen for the level of vocabulary your students are able to produce without prompting and then decide how well they are performing in this area. Vocabulary is all around us. By paying attention to the language around them even in unexpected places and at unexpected times, your students can acquire an admirable set of working vocabulary. Vocabulary learning can be fun. If you just use a little imagination and your students exercise their gray matter, students can do far more than just memorize a list of words and their definitions. Overall it is better for students to produce material than for you to give them. It will keep them more engaged in your lessons because they will never know when you may ask them something and it will help them maintain a broader set of vocabulary. At every level of language learning, vocabulary acquisition is vitally important to success. Obviously, we cannot express ourselves unless we have the words to do so. A student needs to encounter a new word 10 to 16 times to effectively "learn" it according to recent research.

Grammar has always been and will forever will be an important issue in foreign language study. Writing sentences correctly on a test, though, is not the

same as accurate spoken grammar.Students are good at doing grammar exercises, however, when it comes to applying this grammar in their writing, they fall short. Most likely because we as teachers tend to teach writing and grammar as separate concepts. Nothing shakes them up better than getting them out of their seats. When you see your students daydreaming, not paying attention, or simply bored, tell them to get up and form a circle. Now, this simple exercise works great to teach numerous grammar points, but here's an example:

Say you want your students to practice the simple past of regular or irregular verbs. Grab a small ball or bean bag and say a verb out loud, toss the ball to a student who will have to say its past form. He or she tosses the ball back to you and you choose another student. Whenever a student makes a mistake, he or she has to leave the circle. The last student left standing gets a reward sticker or other prize. You can say a sentence in affirmative, and they have to supply a question, or vice versa… This activity can be adapted to any grammar point. As your students speak, listen for the grammatical structures and tools you have taught them.

**Conclusion:**

Assessing communication in your students means looking at their creative use of the language they do know to make their points understood. A student with a low level of vocabulary and grammar may have excellent communication skills if she is able to make you understand her, whereas an advanced student who is tied to manufactured dialogues may not be able to expressive with language and would therefore have low communication skills. Don't let a lack of language skill keep your students from expressing themselves. The more creative they can be with language and the more unique ways they can express themselves, the better their overall communication skills will be.

Being able to say what you mean with a foreign language is one thing, being able to interact with others is another. Ask your students questions. Observe how they speak to one another. A student with effective interaction skills will be able to answer questions and follow along with a conversation happening around him. Great oratory skills will not get anyone very far if he or she cannot listen to other people and respond appropriately.

***Literature:***

1. *How to teach speaking like a pro (pages 4, 5 10, 30).*
2. *How to teach vocabulary like a pro- Internet resource.*
3. *How to teach grammar like a pro-Internet resource.*

# MÜƏLLİMİN NİTQ MƏDƏNİYYƏTİ

**A.E.Haqverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*arzuhaqverdiyeva99@gmail.com*

***Xülasə***

*Müəllim peşəkarlığının formalaşmasında pedaqoji mədəniyyət komponentləri sırasına nitq mədəniyyəti də daxildir. Müəllimin nitqi onun şagirdlərlə canlı ünsiyyətində ən güclü təsir vasitəsi hesab olunur. Səriştəli müəllim hazırlığının əsas problemlərindən biri də müəllimin mükəmməl nitq mədəniyyətinə yiyələnməsindən ibarətdir. Nitq mədəniyyətinə malik olmaq üçün müəllim nitqinin düzgünlüyünə, dəqiqliyinə, ifadəliliyinə, emosionallığına, rabitəliliyinə, təmizliyinə, yığcamlılığına və aydınlılığına daim diqqət yetirməlidir. Aydın diksiyaya, anlaşıqlı şərh üslubuna malik olmaq müəllimin nitqinə verilən başlıca tələblərdir. Müəllim nitqinin ritmi, diapazonu, səs tembri də ünsiyyət prosesində xüsusi əhəmiyyət kəsb edir, çünki canlı söz müəllimin ən böyük əmək silahı, informativ təsir amilidir. Bunun üçün müəllim nitq bacarıqlarını hər zaman inkişaf etdirməli, təkmilləşdirməli, eyni zamanda şagirdlərin də nitqinə xüsusi diqqət yetirməli və yaranan qüsurları vaxtında aradan qaldırmalıdır.*

## КУЛЬТУРА РЕЧИ УЧИТЕЛЯ

***Резюме***

*Речевая культура - одна из составляющих педагогической культуры в формировании профессионализма учителя. Речь учителя считается самым мощным средством воздействия на живое общение с учениками.Одна из основных проблем подготовки грамотного учителя - наличие у учителя совершенной речевой культуры.Чтобы иметь речевую культуру, педагог всегда должен обращать внимание на точность, четкость, выразительность, эмоциональность, связонность, чистоту, лаконичность и ясность речи. Чёткая дикция и четкая интерпретация - основные требования к речи учителя. Ритм, диапазон и тембр речи учителя также имеют особое значение в процессе общения, ведь живое слово – величайшее орудие труда учителя, фактор познавательного воздействия. Для этого педагог должен постоянно развивать и совершенствовать свои разговорные навыки, а также уделять особое внимание речи учеников и своевременно устранять недостатки.*

## TEACHER SPEECH CULTURE

***Summary***

*Speech culture is one of the components of pedagogical culture in the formation of teacher professionalism. A teacher's speech is considered to be the most powerful means of influencing his or her live communication with students. One of the main problems of training a competent teacher is that the teacher has a perfect speech*

*culture. In order to have a speech culture, a teacher must always pay attention to the accuracy, precision, expressiveness, emotionality, coherence, purity, conciseness and clarity of speech. Clear diction and clear interpretation are the main requirements for a teacher's speech. The rhythm, range and timbre of the teacher's speech are also of special importance in the communication process, because the living word is the teacher's greatest tool of labor, the factor of informative influence. To do this, the teacher must constantly develop and improve his speaking skills, as well as pay special attention to the speech of students and eliminate shortcomings in a timely manner.*

***Açar sözlər:*** *nitq, ifadəlilik, dəqiqlik, düzgünlük, emosionallıq, təmizlik, yığcamlılıq*

***Ключевые слова:*** *речь, выразительность, точность, честность, эмоциональность чистота, компактность*

***Key words:*** *speech, expressiveness, punctuality, correctness, emotionality, purity, compactness*

Müəllim peşəkarlığının formalaşmasında pedaqoji mədəniyyət komponentlərindən biri nitq mədəniyyətidir. Məhz düzgün nitq mədəniyyətinə sahib olan müəllim peşəkar müəllim hesab oluna bilər. Nitq mədəniyyəti nitqin səlis, düzgün və rəvan olmasını şərtləndirir ki, bu da insanın özünə inamını, insanlar arasında ünsiyyət qurma qabiliyyətini artırır. Həmçinin informasiyaların çoxunu eşitmə orqanı ilə qəbul etdiyimizdən, materialın başa düşülməsi və mənimsənilməsi nitqin kamilliyindən çox asılıdır. Buna görə də, düzgün nitq mədəniyyətinin formalaşdırılması müəllim hazırlığında qarşıya qoyulan əsas məqsədlərdəndir. Lakin düzgün nitq mədəniyyətinin formalaşması heç də asan deyil, o, uzun və çətin bir prosesdir. Məhz buna görə düzgün nitqə sahib olmaq üçün bunu məktəb dövrlərindən həyata keçirmək lazımdır. Təbii ki, bu işdə müəllimin üzərinə mühüm vəzifələr düşür. Şagirdlərdə aydın, səlis, ifadəli nitq qabiliyyəti formalaşdırmaq üçün, ilk növbədə, müəllim özü mükəmməl nitq mədəniyyətinə yiyələnməyə çalışmalıdır. Çünki müəllimin canlı danışığı şagirdlərlə birbaşa ünsiyyətdə xüsusi təsir gücünə malikdir. Məhz buna görə də, müəllim daim öz nitqinin düzgünlüyünə, dəqiqliyinə, ifadəliliyinə fikir verməlidir. Müəllimin nitq mədəniyyətinə yiyələnməsinin vacibliyini vurğulayan A.S.Makarenko qeyd edir: “Mən əminəm ki, uşaqlara deyilən işgüzar, qəti söz böyük əhəmiyyət kəsb edir və bəlkə də, bizim təşkilati işlərdəki səhvlərimiz çox zaman uşaqlarla əsl danışıq bacarığımızın olmamasından irəli gəlir. Elə deməyi bacarmaq lazımdır ki, onlar sizin iradənizi, sizin mədəniyyətinizi, sizin şəxsiyyətinizi hiss edib duysunlar. Bunu öyrənmək lazimdir.” [4, s.102]

Müəllimin düzgün nitqinin əsas şərtlərindən biri onun aydın olmasıdır. Nitqin aydınlığı ünsiyyətin əsasını təşkil edir. Əgər nitq aydın deyilsə, demək, müəllim öz məqsədinə çatmamışdır. Çünki, nitqin aydınlığı müəllimin şərhinin

şagird və tələbələr tərəfindən asanlıqla anlaşılmasına şərait yaradır. Antik dövrün yunan filosofu Aristotel ünsiyyət üçün başlıca şərt olaraq nitqin aydınlığını əsas götürmüşdür. Fikrini aydın şəkildə ifadə etmək üçün müəllim mövzu haqqında ətraflı məlumat toplamalı, topladığı materialı sistemləşdirməli, diqqətlə oxumalı, sözlərin düzgün tələffüzünə fikir verməli və tələffüz zamanı yaranan problemləri aradan qaldırmalıdır. Əks halda, nitqdə fasilələrə, dayanmalara və təkrarlara səbəb olacaqdır ki, bu da nitq mədəniyyətinə xələl gətirən əsas amillərdəndir. Həmçinin dili, sözlərin mənasını, işlənmə məqamını və s. yaxşı bilməmək, zəngin söz ehtiyatına sahib olmamaq nitqin aydınlığını pozan amillərdəndir. Nitqin aydınlığının əsasını müəllimin diksiyası və sözlərin ritmik tələffüzü təşkil edir. Diksiya deyilən sözün, səsin aydınlığı və dəqiqliyidir. Buna görə də, diksiya şifahi nitqin başa düşülməsi və qavranılmasında mühüm rol oynayır. Müəllim daim öz diksiyasını təkmilləşdirməlidir. Çünki, müəllimin sözü, ifadəni ayrı-ayrı tələffüz etməsi şagirdin həmin sözü tez anlamasına və başa düşməsinə təsir edəcəkdir. Müəllim danışan zaman tələsməməli, sözləri tam və düzgün tələffüz etməlidir. Düzgün olmayan tələffüz, yəni nitq tempində daha sürətli tələffüz sözlərin deformasiyasına, hecaların düşməsinə səbəb olur ki, bu da müəllimin nitqinə xələl gətirir. Belə ki, sürətlə danışıq zamanı şagird sözləri düzgün anlamır və bu da onların mövzudan uzaqlaşmasına, mövzunu düzgün başa düşməməsinə səbəb olur. Müəllimin tələskənliyi, sözlərin tələffüzünə fikir verməməsi onun şagirdlərinə də pis örnək olur və artıq müəyyən müddət sonra bu, şagirdlərin də nitq mədəniyyətinə təsir göstərir. Buna görə, müəllim diksiyasına xüsusi diqqət yetirməli, diksiya zamanı nəfəsini düzgün idarə etməli, danışan zaman tempdən kənara çıxmamalı, sözün vurğusuna, ifadəliliyinə diqqət yetirməlidir. Düzgün diksiyaya nail olmaq üçün müəllim daim öz üzərində çalışmalı, lazım gəldikdə natiq məsləhəti almalıdır.

"Düzgün nitq yığcam və dəqiq olmalıdır" fikri nitq mədəniyyətində bu iki amilin nə qədər mühüm rol oynadığını ifadə edir. Nitqin dəqiqliyi məhz onun yığcam olmasını şərtləndirir. Belə ki, hər bir sözün ilkin mənası olduğu kimi törəmə mənası da vardır. Buna görə də, müəllim lüğət ehtiyatında olan bütün sözlərin mənasını, hansı sözü nə zaman işlədəcəyini bilməli və sözün mənasını bilmədən o sözü qeyri-dəqiq olaraq mətndə istifadə etməməlidir. Əks halda bu, şagirdlərdə fikir pozğunluğuna səbəb olur. Söz insanlar arasında əqli ünsiyyət yaratmaqda yeganə vasitədir, həmin ünsiyyəti mümkün hala salmaq üçün sözü elə işlətmək lazımdır ki, hamıda müvafiq və dəqiq anlayış yaransın" deyən L.N.Tolstoy nitq mədəniyyətində sözlərin dəqiqliyinin vacibliyini əks etdirməyə çalışmışdır. Müəllim nitqi zamanı sözlərin sinonimini, antonimini seçərkən diqqətli olmalıdır. Çünki bəzən sinonim və ya antonimlər bir-birini tam əvəz edir ki, bu zaman nitqin dəqiqliyi pozulur. Ona görə də, müəllim sözlərin mənasını, sinonim və antonimləri dəqiq bilməlidir. Deməli, müəllim sözləri seçərkən sözlərin mənasını, işlənmə dairəsini, üslub səciyyəsini, qram-

matik tərkibini nəzərə almalıdır. Müəllimin ən əsas vəzifəsi həm də şagird və tələbələrində bunu formalaşdırmaqdır. Bəzən şagird fikrini ifadə edərkən sözləri düzgün seçə bilmir, onları sinonimləri ilə əvəz edə bilmir və ya sözlərin dəqiq mənasını müəyyən etməkdə çətinlik çəkir. Buna görə də, müəllim şagirdlərin hər birinin nitqinə, xüsusən sözləri düzgün və dəqiq seçə bilmələrinə diqqət yetirməlidir. Əks halda, şagirdlərdə sözləri düzgün seçmə qabiliyyəti formalaşmayacaq, onlar sözlərin düzgün işlənmə yerini müəyyən edə bilmədiklərinə gorə artıq sözləri yerli-yersiz işlətməyə başlayacaqlar.

Nitqin yığcamlığı dedikdə, müəllimin mövcud fikri zəruri sözlərlə, söz birləşmələri və cümlələrlə ifadə etməsi nəzərdə tutulur. Müəllim öz nitqini yığcam şəkildə, həyati faktlarla, nümünələr əsasında şagirdlərinə çatdırmağı bacarmalıdır. Yəni, müəllim mövzunu izah edərkən, artıq söz yığınından istifadə etməməli, mövzunu daha konkret və ifadəli sözlərlə ifadə etməyi bacarmalıdır. Xalq şairi S.Vurğun demişdir: "Mən çox qısa və yığcam danışan bu adamları dinlədikcə fərəhlənir və təəssüf edirəm ki, bir çoxlarının vaxtı sözçülüyə, uzun danışmağa sərf olunur. Axı, böyük arzuları, məqsədləri qısa sözlərlə də ifadə etmək olar" [11, s.256]. Müəllimin nitqini uzun-uzadı qurması şagird və tələbələri yorur, onların fikri fəallığını zəiflədir. Belə müəllimlərin şagirdləri, tələbələri digərləri ilə müqayisədə, şübhəsiz ki, passiv olacaq, fikirlərini sərbəst ifadə etməkdə çətinlik çəkəcəklər. Çünki, müəllimin uzun-uzadı danışması şagirdlərin dərsə olan marağını azaldacaq, onlar söz yığınının təsiri ilə yorulacaq və bəlkə oz nitqlərində bunu təkrar edəcəklər. Artıq şagirdlərdə lakonik təqdimat bacarıqları formalaşmayacaq, onlar auditoriyanın diqqətini cəlb edə bilməyəcəklər.

Nitqin təmizliyi hər bir nitq sahibi, o, cümlədən müəllim üçün vacib keyfiyyətdir. Nitqin təmizliyi dedikdə, müəllimin ədəb normalarından kənara çıxmayan, yad ünsürlərdən uzaq olan, milli-ədəbi dilin qayda və qanunlarına uyğun gələn nitqi nəzərdə tutulur. Müəllimin nitqinin təmizliyinə xüsusi onəm verən A.Məmmədov bu barədə belə yazır: "Fikrini ədəbi dildə ifadə edən hər kəs nitqin təmizliyinə xüsusi fikir verməlidir. Yəni onun nitqində dialekt sözləri, yersiz əcnəbi ifadələr, jarqonlar, vulqarizmlər, tüfeyli sözlər və s. işlədilməməlidir. Bunlar nitqi korlayır, onun sahibi haqqında mənfi fikir formalaşdırır" [2, s.50]. Müəllimlərin əsas vəzifəsi yersiz əcnəbi sözlərin, məhəlli (dialekt) söz və ifadələrin, vulqarizmin qarşısını qətiyyətlə almaq, bu cəbhədə ardıcıl və prinsipal mübarizə aparmaqdır. Yəni müəllim bəzən nitqində xarici sözlərdən (uje, xaladenik və s.) istifadə edir. Və yaxud da nitqində müəyyən kobud sözlər işlədir ki, bu, müəllimin nitq mədəniyyətinə xələl gətirir. Onun üçün müəllim nitqində xarici və ya kobud sözlər işlətməməli, həmin xarici sözlərin hər birinin Azərbaycan dilində qarşılığını öyrənməlidir. Müəllimin nitq mədəniyyətinə mənfi təsir edən amillərdən biri də onun yerli şivə və ləhcələrdən istifadə etməsidir. Belə ki, müəllim öz şivəsinin təsiri altında dərs prosesində müəyyən

ümumişlək sözləri öz ləhcəsi ilə əvəzləyir. Bu əvəzləmə isə müəllimin nitqinin anlaşılmamasına səbəb olur və bəzən də kənardan kobud şəkildə qəbul olunur. Bunun üçün müəllim dərs prosesində şivələrdən istifadə etməməlidir. Müəllim öz nitqinin təmizliyinə diqqət yetirdiyi kimi şagird və tələbələrinin nitqinə də xüsusi diqqət yetirməlidir. Müəllim şagird və tələbələrinin nitqlərində olan kobud və əcnəbi sözlərdən istifadənin nitqimizi korladığını əyani şəkildə onlarda formalaşdırmalı və bu sözlərdən istifadə edənlərin nitqindəki həmin halları aradan qaldırmalıdır. Şagirdlərin nitqində ən çox rast gəlinən pozğunluq kobud sözlərin işlənməsidir. Bunun üçün müəllim dərs və ya dərsdənkənar müddətdə şagirdlərin nitqinə diqqət etməli, onların bir-birinə münasibətini yaxşılaşdırmalı və ən əsas nitqlərində kobud sözləri istifadə etmələrinin mənfi cəhətlərini əyani şəkildə göstərməlidir.

Müəllimin geniş söz ehtiyatına malik olması onun nitqinin zənginliyini ifadə edir və bu ünsur düzgün nitq mədəniyyətinin əsasını təşkil edir. Zəngin lüğət ehtiyatına malik olan müəllim öz fikirlərini çətinlik çəkmədən, sərbəst və obrazlı şəkildə ifadə etməyi bacarır. Müəllimin nitqini zənginləşdirməsinin bir neçə yolu vardır. Bu yollardan biri onun daim radio və televiziya verilişlərini izləməsi, natiqlərin çıxışlarına qulaq asmasıdır. Müəllim həmçinin öz nitqini zənginləşdirmək üçün müntəzəm olaraq mütaliə etməlidir. Belə ki, sistemli mütaliə nəticəsində yeni sözlər öyrənmək, sözlərin yeni mənaları ilə tanış olmaq, söz ehtiyatını artırmaq mümkündür. Böyük rus yazıçısı M.Qorkinin fikrincə, bədii ədəbiyyat oxumağa vaxt tapmaq lazımdır, yoxsa adamın beyni quruyar. Müəllim yalnız özü mütaliə ilə məşğul olmamalı, öz tələbə və şagirdlərini də mütaliəyə cəlb etməli, onların nitqinin zənginləşməsi üçün əlindən gələni etməlidir. Müəllim şagird və tələbələrinin ana dilinin söz xəzinəsinə dərindən bələd olmalarına, az sözlə geniş məna ifadə etmələrinə çalışmalıdır. Bunun zəruriliyini xüsusi vurğulayan S.Seyidova yazır: "İnsanlar çox zəngin, rəngarəng fikir və duyğulara, hislərə malikdirlər. Hər cür mürəkkəb fikirləri, hisləri ifadə etmək üçün səlis və obrazlı bir dilə malik olmaq lazımdır. Həmin fikirləri başqalarına anlatmaq üçün zəngin söz ehtiyatına malik olmaq azdır. Fikir və düşüncələrini başqalarına çatdırmaq üçün sahib ola bildiyin söz ehtiyatından, məqsədə, şəraitə uyğun dəyərli, dəqiq sözlər seçib istifadə etmək yüksək nitq mədəniyyətinin tərkib hissəsidir". [2, s.51].

Müəllimin nitq mədəniyyəti dedikdə, ağıla gələn əsas ünsurdən biri müəllimin nitqinin ifadəliliyidir. Nitqin ifadəliliyi çox zaman söz sənətkarlarına aid edilir. Lakin nitqin ifadəliliyi müəllimlər üçün də çox önəmlidir. Çünki müəllimin nitqinin ifadəliliyi şagirdlərdə öyrənməyə maraq oyadır, onlarda emosional-obrazlı qavramanın yaranmasına səbəb olur. Müəllimin nitqi ifadəli olmazsa, onun şagirdləri şeirdə və ya hekayədə olan ibrətamiz fikirləri düzgün anlamayacaqdır. Çünki müəllimin ifadəli nitqi şagirdlərin ruhuna təsir edir, onları mənəvi cəhətdən formalaşdırır. Müəllimin nitqinin ifadəliliyində intonasiya

və obrazlılıq mühüm rol oynayır. Qrammonun dediyi kimi, "cümlələri əmələ gətirən sözlər onun yalnız "skeletidir", bu skeletə hərəkət və həyat verən intonasiyadır". Çünki, düzgün qurulan intonasiya mövzunu şagirdlərə mənəvi və estetik cəhətdən daha dərin mənimsədir. Buna görə müəllim hər bir materialin düzgün ifadəliliyini gözləməli və şagirdlərində ifadəli nitq qabiliyyəti formalaşdırmalıdır.

Müəllimin nitqinin səmimiliyi və sadəliyi də onun təsir gücünü artırır. Müəllim səmimi nitqi ilə şagirdlərin qəlbini ələ almalı, onların istək və arzularını öyrənməyi bacarmalıdır. Müəllimin nitqinin səmimiliyi onun şagirdlərlə mövzü ətrafında daha real, daha həqiqi diskusiya aparmasına imkan verir. Səmimi nitqə sahib olan müəllimlər daim şagirdləri üçün əvəzsiz və hörmətli olurlar. Lakin bəzən müəllimin nitqinin səmimiliyi şagirdlərin müəyyən qədər bundan istifadəsi ilə nəticələnir. Buna görə də, müəllim səmimiliyi və ciddiyyətini uzlaşdırmağı bacarmalıdır. Bəzən müəllimlər arasında nitqin sadəliyi düzgün başa düşülmür. Belə ki, onlar yalnız sadə cümlələr qurmaqla nitqin sadəliyini təmin etdiklərini sanırlar. Lakin nitqin sadəliyi dedikdə, əşya və hadisələri təsvir edərkən onlarin mahiyyətini daha aydın və dəqiq ifadə etmək başa düşülür.

Müəllimin natiqlik qabiliyyətinin əsasını, həmçinin nitqin rabitəliliyi təşkil edir. Məntiqilik, ardıcıllıq, sistemlilik müəllimin danışığında ən önəmli ünsürlərdəndir. Nitqinin rabitəli olması üçün müəllim iki qaydaya əməl etməlidir. Bunlardan birincisi, nitqin məzmunca dolğun olmasıdır. Belə ki, müəllim danışdığı mövzunun predmetini müəyyənləşdirməli, onu hərtərəfli tədris etməlidir. Daha sonra müəllim öz nitqinə başlamazdan əvvəl mövzuya necə giriş verəcəyini, deyəcəyi fikirləri bir-biri ilə necə əlaqələndirəcəyini öncədən müəyyənləşdirməlidir. İkinci əsas qayda isə məntiqi ardıcıllığa riayət etməkdir. Mövzunu şagirdlərinə və tələbələrinə hansı üsullarla mənimsədəcəyini və son olaraq söylənilən fikirlə şərh etdiyi məsələləri məntiqi cəhətdən necə əlaqələndirəcəyini müəllim özü üçün aydınlaşdırmalıdır. Nitq prosesi ayrı-ayrı hissələrdən, detallardan ibarətdir. Məhz müəllim bu detalların bir-birinə uyğunlaşma dərəcəsini, detalların tamlığını düzgün müəyyən etməlidir. Sistemləşdirilməmiş nitq şagirdlərin və ya auditoriyanın diqqətini cəlb etməyəcəkdir. Müəllim bunun üçün mövzunu vahid sistemə salmalı, danışan zaman ardıcıllığı itirməməlidir. Çünki bu, şagirdlərdə fikir dağınıqlığına səbəb ola bilər.

Beləliklə, mükəmməl nitq mədəniyyətinə sahib olmaq müəllimin pedaqoji ustalığının və peşəkarlığının ən mühüm göstəricilərindən biri olaraq və onun pedaqoji fəaliyyətinin əsasını təşkil edir.

***Ədəbiyyat***

1. *A.Abdullayev. Müəllimin nitq mədəniyyəti. Bakı: Maarif, 1966, 75 s.*
2. *A.Abdullayev. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1966, 235 s.*

3. *R.Məmmədzadə.Müəllimin peşə etikası. Bakı, 1992.*
4. *M.İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı:Elm və təhsil, 2013.*
5. *M.İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil,2018, 208 s.*
6. *M.İlyasov. Müəllimin pedaqoji peşə mədəniyyəti. "Azərbaycan məktəbi" qəzeti, 2017, 7 s.*
7. *Y.Rzayeva, İ.Məmmədova. Pedaqoji fəaliyyətə giriş(dərs vəsaiti). ADPU-nun nəşri. 2021,190 s.*
8. *Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Ali məktəblər üçün dərslik Bakı:Çaşıoğlu, 2012, 548 s.*
9. *Quliyev S.M., İsmixanov M.A.Müəllimlik ixtisasına giriş. Bakı, 2015, 224 s.*
10. *Vidadi Bəşirov. Pedaqoji prosesdə əxlaqi münasibətlərin qoyuluşu. "Azərbaycan müəllimi" qəzeti, 2 sentyabr, 2014, 7 s.*
11. *Kəlbəliyev Ə. Azərbaycan dili dərslərində şagirdlərin nitq etiketlərindən düzgün istifadə bacarığının aşılanması imkanları. Bakı, 2002.*

# MAGİSTR HAZIRLIĞINA MÜASİR YANAŞMA

**F.A.Ağayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fdnaghayeva99@gmail.com***

***Xülasə***

*Məqalədə keyfiyyətli magistr hazırlığını həyata keçirmək üçün ADPU-da magistratura səviyyəsində görülən işlər elmi baxımdan əsaslandırılmış, müsbət nəticələr barədə qısa məlumat verilmişdir. Magistrantların respublika elmi konfranslarının təşkili, "Magistrant" dövri-elmi jurnalının nəşr edilməsi, magistr dissertasiya işləri üzrə ekspert komissiyasının fəaliyyətinin magistr hazırlığının keyfiyyətinə müsbət təsiri göstərilmişdir.*

## СОВРЕМЕННЫЙ ПОДХОД ДЛЯ ПОДГОТОВКЕ МАГИСТРОВ

***Резюме***

*V statğe nauçno obosnovana rabota, prodelannaə na urovne maqistraturı v ADPU po vnedreniö kaçestvennoy maqisterskoy podqotovki, dana kratkaə informaüiə o polojitelğnıx rezulğtatax. Организация республиканских научных конференций магистров, издание периодико-научного журнала «Магистр», деятельность экспертной комиссии по защите кандидатских диссертаций положительно сказались на качестве подготовки магистров.*

## THE MODERN APPROACH TO MASTERS PREPARING

***Summary***

*The article scientifically substantiates the work done at the master's level at ADPU to implement quality master's training, and gives brief information about the positive results. The organization of republican scientific conferences of masters, publication of the periodical-scientific journal "Master", the activity of the expert commission on master's dissertations had a positive impact on the quality of master's training.*

***Açar sözlər:*** *ali təhsil, magistr dissertasiyası, elmi şura, keyfiyyət, qiymətləndirmə.*

***Keywords:*** *higher education, master's dissertation work, scientific consul, quality, assessment.*

***Ключевые слова:*** *высшее образование, диссертация магистра, качество, оценка.*

Elmi-texniki tərəqqinin əsas məqsədi ən az maddi, əmək və maliyyə resurslarının sərfi ilə yüksək keyfıyyətli məhsulun istehsalını sürətləndirməkdən ibarətdir. Bu da yüksək təhsil səviyyəsi ilə əlaqədardır. Hər bir dövlətin inkişafında təhsil ən vacib amil hesab olunur və hər bir dövlətin inkişaf səviyyəsi onun təhsil səviyyəsindən asılıdır.

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət fəaliyyətin bütün sahələrində olduğu kimi, elm və təhsil sahəsində də özünü göstərir. Danılmaz həqiqətdir ki, hər bir xalqın milli şüurunun, milli özünüdərkinin formalaşması onun elm və təhsilinin, həmçinin müəlliminin səviyyəsi ilə müəyyənləşir.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ilə Avropa məkanına inteqrasiyası sürətlənmişdir. Bu inteqrasiya təhsil sahəsində də özünü göstərir. Azərbaycan Respublikası 2005-ci il may ayının 19-da Norveçin Berqen şəhərində keçirilmiş konfransda Bolonya prosesinə qoşulmuş, bununla da Avropa Təhsil sisteminə inteqrasiya etməyə başlamışdır. Bolonya prosesinin əsası 1999-cu ildə İtaliyanın Bolonya şəhərində qoyulmuşdur. Bu bəyənnamə həmçinin "Avropa Ali təhsil məkanı" bəyənnaməsi də adlanır.

Avropa Ali Təhsil məkanına qoşulan bütün ölkələr:

- Bakalavr, magistratura və doktoranturadan ibarət çoxsəviyyəli ali təhsil sisteminin tətbiq edilməsi;
- İxtisasların və diplomların qarşılıqlı şəkildə tanınması;
- Öyrənmə və tədrisin keyfiyyətini və aktuallığını gücləndirmək üçün keyfiyyət təminatı sistemini tətbiq etmək üçün razılığa gəliblər [8].

Keyfiyyət çoxşaxəli olmaqla cəmiyyətin həll etməsi vacib olan əsas problemlərdən biridir. Bu problemin çoxşaxəliliyi, həm də mürəkkəbliyi onunla əlaqədardır ki, burada sosial-iqtisadi, mühəndis-texnoloji (texniki), ekoloji, beynəlxalq, siyasi məsələlərlə yanaşı təhsil probleminin də həlli ən ümdə vəzifə kimi qarşıda durur. Təhsil müəssisəsinin inkişafında keyfiyyətin idarə olunması bir neçə amillərlə bağlıdır:

1) keyfiyyətli idarəetmə;
2) inkişafetdirmə;
3) psixoloji yanaşma və psixoloji dəstək;
4) təlim və tədris fəaliyyətinin məqsədəuyğun təşkili.

Bu baxımdan magistr hazırlığında tədrisin keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirməklə idarəetməni müasir tələblər səviyyəsində qurmaq mümkündür. Bu məqsədlə Azərbaycan Dövlət Pedaqoji Universitetində magistr hazırlığına xüsusi fikir verilir və magistraturada təhsilin keyfiyyətinin

yaxşılaşdırılması əsas vəzifələrdən biri olaraq daim diqqətdə dayanır. 2020-ci ildən ADPU-da ABŞ-ın ikili diplom proqramı üzrə Corc Vaşinqton Universiteti ilə birlikdə "Menecment (təhsilin təşkili və idarə olunması)" ixtisası üzrə, 2021-ci ildən "Təlim və tədrisin təşkili və metodikası" Sabah magistratura layihəsi üzrə, "Biznesin idarə edilməsi (Təhsilin təşkili və idarə olunması)" MBA proqramı üzrə və "Gənclərlə iş" ixtisasları üzrə magistr hazırlığının aparılması buna əyani misaldır.

ADPU-nun ABŞ-ın ikili diplom proqramı üzrə Corc Vaşinqton Universiteti ilə birlikdə "Menecment (Təhsilin təşkili və idarə olunması)" ixtisası üzrə program tələbələrə digər ölkələrin təhsil sistemlərinə inteqrasiya etməyə və beynəlxalq təhsilin idarəedilməsində iştirak etməyə imkan yaradır. Bu addım magistratura səviyyəsində təhsilin keyfiyyətinin artırılmasına böyük təsir göstərir.

Magistr hazırlığının müasir tələblər səviyyəsində aparılması ilk növbədə magistrlik dissertasiya işinin mövzusunun düzgün müəyyənləşdirilməsini tələb edir. Həmçinin dissertasiyanın mövzusu bilavasitə tədqiqatın metodoloji əsaslarının araşdırılması və öyrənilməsinə yönəldilməlidir. Məhz bu baxımdan ADPU-nun Elmi Şurasının nəzdində magistrlik dissertasiya işləri üzrə Ekspert Komissiyası yaradılmış, bu Komissiyaya rəhbərlik universitetin elm və innovasiyalar üzrə prorektoruna tapşırılmışdır. Hər il magistraturaya qəbul olunanların dissertasiya mövzuları müvafiq kafedralarda müəyyənləşdirildikdən sonra magistrlik dissertasiya işləri üzrə Ekspert Komissiyasında mövzuların ixtisas uyğunluğuna, aktual olmasına baxılır və təsdiq üçün müvafiq fakültə elmi şuralarına göndərilir. Son illərin nəticələrinin müşahidəsi, dissertasiyaların məzmunu və müdafiə prosesi bu təcrübənin faydalı və səmərəli olduğunu təsdiqləyir.

Magistr hazırlığında keyfiyyətin yaxşılaşdırılmasında elmi konfranslar mühüm yer tutur. 2017 -ci ildən hər il ADPU-nun təşkilatçılığı ilə magistrantların respublika elmi konfransları keçirilir. İndiyə kimi ADPU-da magistrantların respublika səviyyəli dörd elmi konfransı keçirilmiş, konfrans materialları toplu şəklində çap olunaraq müəlliflərə, universitetlərə və kitabxanalara çatdırılmışdır. Bu konfranslarda digər ali məktəblərin və AMEA-nın Elmi Tədqiqat İnstitutlarının magistrantları da məruzələrlə çıxış edirlər. Müvafiq bölmə iclaslarındakı müzakirələr həm dissertasiya işlərinin keyfiyyətinin yüksəlməsinə, həm də magistrantların dissertasiya işlərinin uğurla müdafiə olunmasına öz müsbət təsirini göstərir.

Magistr dissertasiya işlərinin müdafiəsində qiymətləndirmə də əhəmiyyətli məsələlərdən biri sayılır. 2022-ci ildən magistr dissertasiya işlərinin müdafiəsi zamanı ixtisaslaşmış şuralarda qiymətləndirmə ADPU Elmi Şurasının 9 iyul 2021-ci il tarixli qərarı əsasında aşağıdakı kimi reallaşdırılacaqdır:

- dissertasiya işinin məzmununa görə - 60 bal;
- iddiaçının (magistrantın) məruzəsinə görə - 25 bal;
- iddiaçının (magistrantın) sualları cavablandırmasına görə.

Hesab edirik ki, bu yanaşma əsasında qiymətləndirmənin magistrantların təhsil aldığı digər ali məktəblərdə və elmi-tədqiqat institutlarında tətbiqi magistr hazırlığının keyfiyyətinə müsbət təsir edəcəkdir.

Digər bir layihə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi ərəfəsində təsis edilən "Magistrant" dövri-elmi jurnalıdır. "Magistrant" dövri-elmi jurnalının məqsədi Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən ali təhsil müəssisələrində və elmi-tədqiqat inistitutlarında təhsil alan magistrantların fizika-riyaziyyat və texnika elmləri, təbiət elmləri, humanitar və ictimai elmlər, həmçinin pedaqoji-psixoloji elmlər sahəsində aktual elmi tədqiqat işlərinin nəticələrinin nəşr olunmasıdır.

"Magistrant" dövri-elmi jurnalı magistrantların elmi yaradıcılıq fəaliyyətlərinin genişləndirilməsinə, bu işlərin elmi ictimaiyyətə çatdırılmasına, keyfiyyətinin yüksəldilməsinə və inkişafına imkan yaradır. Jurnalın redaksiya heyətində müvafiq elm sahələri üzrə nüfuzlu alimlərin təmsil olunması məqalələrin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. ADPU Elmi Şurasının 9 iyul 2021-ci il tarixli qərarına əsasən yaradılmış Təhsil menecmenti kafedrası ali təhsilin magistratura səviyyəsi üzrə MBA Biznesin idarə olunması (Təhsilin təşkili və idarə olunması), menecment, monitorinq və qiymətləndirmə ixtisaslaşmaları üzrə baza kafedrasıdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetində görülən işlər ümumilikdə təhsilin inkişafına xidmət edir və magistr hazırlığının keyfiyyətinin yüksəlməsində mühüm rol oynayır. İnanırıq ki, bu layihələrin həyata keçirilməsi respublikamızda təhsil alan tələbələrin dünya təhsil sisteminə inteqrasiya etməsinə geniş imkanlar yaradacaqdır.

## Ədəbiyyat

1. ***"Magistrant"*** *dövri-elmi jurnalı, Bakı-2021, №1*
2. *Boloniya prosesi çərçivəsində ali təhsil sahəsində aparılan islahatlar haqqında AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ HESABATI (2007-2009-cu illər üzrə)*
3. ***"Azərbaycan Respublikasında ali təhsilin yeniləşməsi uğrunda : təhsil islahatlarına dəstək"*** *çərçivəsində* ***"Avropa ali təhsilinə inteqrasiya: problemlər, perspektivlər"*** *mövzusunda Tətbiqi Tədqiqatlar Fondu və Azərbaycan Turizm İnstitutunun birgə keçirdikləri elmi praktiki konfransın materialları, Bakı- 2011*
4. *Сластенин В.А. и др. Педагогика Учеб. пособие для студ. высш. пед. учеб. заведений / В.А.Сластенин, И.Ф.Исаев, Е.Н.Шиянов; Под ред. В.А. Сластенина. М.: Издательский центр «Академия», 2002. 576 с*

5. *Хуторской А.В. Ключевые компетенции как компонент личностно-ориентированной парадигмы образования. Народное образование №2, 2003.с 55-61*
6. *https://525.az/news/171809-adpu-da-yeni-kafedra-teskil-edilir*
7. *https://ec.europa.eu/education/policies/higher-education/bologna-process-and-european-higher-education-area_en*

# XARİCİ DİLİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMANIN ROLU

**H.N.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*memmedovahumay99@gmail.com*

***Xülasə***

*Xarici dilin öyrənilməsi və öyrədilməsinə maraq müasir dövrdə daha da artmışdır. Məqalədə xarici dilin tədrisində kommunikativ yanaşmanın tətbiqinin rolundan bəhs edilir. Bu yanaşmanın tarixi və nəzəriyyəsi araşdırılır. Bundan əlavə, məqalədə müəllim və şagirdlərin təlim prosesindəki rolu, kommunikativ yanaşmanın prinsipləri kimi məsələlərdən də bəhs edilmişdir.*

## РОЛЬ КОММУНИКАТИВНОГО ПОДХОДА В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

***Резюме***

*Интерес к изучению и преподаванию иностранного языка возрос в нашей время. В статье обсуждается роль коммуникативного подхода в обучении иностранному языку. Изучается история и теория коммуникативного подхода. Кроме того, в статье рассматриваются принципы коммуникативного подхода и роль преподавателей и учащихся в процессе обучения.*

## THE ROLE OF COMMUNICATIVE APPROACH IN TEACHING FOREIGN LANGUAGE

***Summary***

*Interest in learning and teaching a foreign language has increased nowadays.The article deals withthe role of communicative approach in teaching a foreign language and studiesthe history and theory of communicative approach. In addition, the role of teachers and students in the learning process, the principles of communicative approachare also discussed in the article.*

***Açar sözlər:*** *xarici dil tədrisi, nəzəriyyə, tapşırıqlar, prinsiplər, müəllimin rolu, öyrənənin rolu*

***Ключевые слова:*** *обучение иностранному языку, теория, задания, принципы, роль учителя, роль ученика*

***Key words:*** *foreign language teaching, theory, activities, principles, the role of the teacher, the role of the learner*

Xarici dilin öyrənilməsinə və öyrədilməsinə maraq hər zaman olmuşdur və bu maraq müasir dövrümüzdə daha da artmışdır. İnsanlar müxtəlif məqsədlər üçün xarici dilləri öyrənməyə can atır: daha yaxşı iş imkanları; xaricdə

təhsil almaq üçün; müxtəlif xarici ölkələrdən olan insanlarla ünsiyyət qurmaq üçün və s.

Dünyanın müxtəlif yerlərində xarici dillər tədris olunur. Xarici dilin tədrisində müxtəlif metodlardan istifadə olunur. Tarixi inkişaf boyu dil tədrisi xeyli dəyişikliklərə məruz qalmış, müxtəlif metodlardan istifadə edilmişdir. Daha erkən vaxtlarda dil tədrisində əsas diqqət qrammatikanın və müxtəlif dil strukturlarının öyrədilməsinə verilmişdir. Müəllim tədrisdə daha aparıcı mövqedə olmuşdur. Bu isə öyrənənlərin ikinci planda olmasına səbəb olmuş və öyrənmə prosesinə mənfi təsir etmişdir.

Təqribən 1960-cı illərin ortalarında xarici dilin tədris olunmasına yeni bir yanaşma – "kommunikativ" yanaşma meydana gəlmişdir. Bu yanaşma dilin ünsiyyət, kommunikasiya vasitəsilə öyrənilməsinin vacibliyini vurğulayır. Yeni bir dil öyrənərkən öyrənmə prosesi interaktiv və maraqlı olmalıdır, bu zaman öyrənmə prosesi daha səmərəli keçir. Kommunikativ yanaşma 1970-ci illərdə Britaniya dil tədrisində baş vermiş dəyişikliklər nəticəsində inkişaf etdirilmişdir. 1970-ci illərin əvvəlində Avropa Şurasının araşdırmaları və amerikalı psixiatr və psixoanalist Robert Lengz kimi bir çoxdilçilər töhfələrini vermiş, kommunikativ yanaşmanın inkişafına əhəmiyyətli təsir göstərmişlər. 1960-1970-ci illərdə ingilis dili beynəlxalq dil kimi xüsusi əhəmiyyət kəsb etməyə başladı. Həmin dövrdə geniş yayılmış ənənəvi metodlar ingilis dilini xarici dil kimi öyrənənlərin tələblərinə cavab vermirdi. Onlar artıq dildən rahat ünsiyyət qurmaq və onu müxtəlif situasiyalarda tətbiq etmək istəyirdilər. Kommunikativ yanaşmanın və ya kommunikativ dil təliminin əsas məqsədi öyrənənlərin dil bacarıq və vərdişlərini həmin dildən real həyat şəraitində, real situasiyalarda istifadə etməklə inkişaf etdirilməsidir, məsələn, alış-veriş edərkən, dostlar ilə ünsiyyət qurarkən, həkim konsultasiyasında olarkən və sair kimi situasiyalarda dildən istifadə etməyi öyrətməklə qrammatik, leksik biliklər aşılanır, dinləmək, danışmaq kimi vərdişlər formalaşdırılır.

Kommunikativ yanaşma nəzəriyyəsinə sosiolinqvistika, psixolinqvistika, antropologiya, dil fəlsəfəsi kimi bir sıra elm sahələri təsir göstərmişdir. Bunlardan ən təsirlisi isə sosiolinqvistika olmuşdur. Fişmənin fikrinə görə, sosiolinqvistikanın vəzifəsi kimin kiminlə hansı dildə və harada danışdığını öyrənməkdir. Bu yanaşma haqqında bir sıra alimlərin müxtəlif fikirləri vardır. D.Haymsın fikrinə görə, dil təliminin əsas məqsədi ünsiyyət qabiliyyətini inkişaf etdirməkdir. Haymsın "Ünsiyyət qabiliyyəti" nəzəriyyəsi nitq cəmiyyətində ünsiyyət qurarkən natiqin bilməli olduğu şeylərin tərifidir. Onun fikrincə, ünsiyyət qurma bacarığına malik olan bir şəxs həm dil bilikləri, həm də dildən istifadə qabiliyyəti qazanır.

Kommunikativ yanaşma barəsində digər dilçilik nəzəriyyəsi M.Halideyin "Dilin funksional təsviri" nəzəriyyəsidir. Dilçilik nitq aktlarının və ya mətnlərin təsviri ilə əlaqədardır, çünki yalnız istifadə olunan dilin öyrənilməsi yolu ilə

dilin bütün funksiyaları və məna komponentləri diqqət mərkəzinə gətirilir. Halidey dilin funksiyaları haqqında güclü nəzəriyyə hazırlamışdır. O, ana dilini öyrənən uşaqlar üçün dilin yerinə yetirdiyi yeddi funksiyanın təsvirini vermişdir:

1. Vasitə funksiyası: əşyaları əldə etmək üçün dildən istifadə;
2. Tənzimləyici funksiya: dildən başqalarının davranışlarını idarə etmək üçün istifadə etmək;
3. Şəxsi funksiya: dildən şəxsi hissləri ifadə etmək üçün istifadə etmək;
4. Təxəyyül (yaradıcı) funksiya: dildən xəyal dünyası yaratmaq üçün istifadə etmək;
5. Qarşılıqlı əlaqə funksiyası: dildən başqa insanlarla qarşılıqlı əlaqə yaratmaq üçün istifadə etmək
6. Evristik funksiya: öyrənmək və kəşf etmək məqsədi ilə dildən istifadə etmək;
7. Təqdimat funksiyası: dildən məlumat ötürmək üçün istifadə etmək.

Kommunikativ yanaşmaya dair dəyərli fikirləri olan digər bir nəzəriyyəçi Henri Vidosondur. O, "Dilin Ünsiyyət vasitəsi kimi öyrədilməsi" (Teaching Language as Communication) kitabında mətndə dil sistemləri və onların ünsiyyət dəyərləri arasındakı əlaqəyə dair öz görüşünü təqdim etmişdir. Müəllif diqqətini dildən fərqli məqsədlər üçün istifadə etmə qabilyyətinin təməlində duran kommunikativ aktlara cəmləmişdir.

Kommunikativ dil təlimi zəngin nəzəri əsasa malikdir. Bu yanaşmanın aşağıdakı xüsusiyyətləri vardır:

1. Dil məzmunun ifadə edilməsi üçün bir sistemdir.
2. Dilin əsas funksiyası qarşılıqlı əlaqə və ünsiyyətə imkan yaratmaqdır.
3. Dilin quruluşu onun funksional və kommunikativ istifadəsini əks etdirir.
4. Dilin başlıca vahidləri yalnız onun qrammatik və struktur xüsusiyyətləri deyil, həmçinin funksional və kommunikativ məna kateqoriyalarıdır.

Kommunikativ dil təliminin bir neçə vacib prinsipləri vardır:

1. Dil öyrənmə prosesində hədəf dildən istifadə edərək ünsiyyət qurulması.
2. Ünsiyyət qurarkən istifadə edilən dil situasiyaya, şəraitə və danışanların roluna uyğun olmalıdır.
3. Kommunikativ tapşırıqlar zəruri əhəmiyyətə malikdir. İstifadə olunan tapşırıqların kommunikativ məqsədi olmalıdır. Bu tapşırıqlara misal olaraq müxtəlif oyunları, problem həll etmə tapşırıqlarını, rollu oyunları və başqalarını daxil etmək olar. Rollu oyunlar dili daha tez və maraqlı şəkildə öyrənməyə, həmin dildə ünsiyyət qurmağa kömək edir. Müxtəlif situasiyalara uyğun maraqlı rollu oyunlar təşkil edib öyrənmə prosesini daha səmərəli və əyləncəli etmək olar.

4. Danışıq, dinləmə, oxuma və yazma bacarıqlarının hamısı bir yerdə inkişaf etdirilir, çünki ünsiyyət müxtəlif bacarıqları özündə birləşdirir. Ümumiyyətlə, dil öyrənərkən bu dörd bacarığın hər birindən eyni anda istifadə edilməli və inkişaf etdirilməlidir.

5. Bu təlim metodunda mövzular seçilərkən öyrənənlərin yaşı, tələbatları, səviyyələri və maraqları əsas götürülür. Hər yaş dövründə inasanların maraqları fərqli olur. Məsələn, azyaşlı, məktəbli uşaqlar daha çox rənglərə, oyunlara, məktəblə bağlı mövzulara və s. maraq göstərirlər. Gənclər isə daha çox texnologiyaya, kinolara, müxtəlif ixtiralara, kəşflərə maraq göstərirlər. Mövzu seçərkən öyrənənlərin dil səviyyəsi də mütləq nəzərə alınmalıdır. Məsələn, dili yeni öyrənməyə başlayanlara texnologiya mövzusunda danışmaq çətin olacaq və bu da onları motivasiyadan salacaq. Əgər onların səviyyəsinə uyğun mövzu seçilərsə, daha asan olacaq və motivasiyaları daha da artacaqdır.

6. Motivasiya əhəmiyyətli rol oynayır. Müəllim öyrənənləri dərsə cəlb etməli və dərs prosesində fəal və interaktiv iştirak etmələrini təşkil etməlidir.

7. Dil öyrənmə yaradıcı bir prosesdir, buna görə də sınaqlar və səhvlər öyrənmə prosesinin bir hissəsidir. Kommunikativ yanaşmada səhvlərə yol verilməsi normal qarşılanır, bu onu göstərir ki, şagird və ya öyrənən dili istifadə etməyə, onu mənimsəməyə çalışır.

Kommunikativ dil təlimində müəllimin bir neçə əhəmiyyətli rolu qeyd olunur. Ənənəvi metodlarla keçirilən dərslərdə müəllim hər zaman aparıcı rolda, şagirdlər isə ikinci planda olmuşdur. Şagirdlərin təlim prosesində fəal iştirak etməsinə şərait yaradılmırdı. Bu isə öyrənmə prosesinə mənfi təsir edir, öyrənənlərin motivasiyasını aşağı salırdı. Kommunikativ yanaşma üsulunda isə şagirdlər ön planda olur və onların təlim prosesində fəallığına və aktivliyinə maksimum dərəcədə şərait yaradılır. Brin və Kendlin müəllimin təlimdə ilk rolunun sinifdə bütün iştirakçılar arasında ünsiyyət prosesini asanlaşdırmaq olduğunu qeyd edir. Onlar müəllimin ikinci rolunun öyrənmə-təlim qrupunda müstəqil iştirakçı kimi çıxış etməsini qeyd edirlər. Bu zaman müəllim öyrənənlər üçün lazımi resurslar təşkil edir və özü də həmçinin resurs kimi çıxış edir, digər tərəfdən sinifdə digər prosedurlar və fəaliyyətlərdə bələdçi rolunu oynayır. Müəllimin digər bir rolu da tədqiqatçı və öyrənən olmaqdır. Bütün fəaliyyəti boyunca müəllim daima araşdırmalı, yeni elmi yeniliklərlə tanış olmalı və özünü daim inkişaf etdirməlidir.

Müəllim təlim prosesi zamanı şagirdə nə zaman müdaxilə etməlidir? Müəllimin şagirdin səhvini dərhal düzəltməsi həlledici rol oynayır. Əks halda edilən səhvlər şagirdlərin beynində sabitləşir və vərdiş halına çevrilir. Əgər danışıq zamanı səhvlərə yol verilərsə axıcılığı təmin etmək üçün səhvlərin düzəldilməsi danışıq prosesindən sonraya saxlanılır. Səhvlərin düzəldilməsi prosesi şagirdlərin hədəf dildə danışdığı zaman edilərsə bu onların motivasiyasına təsir göstərə bilər və onlar dili istifadə edərkən tərəddüd edə bilərlər.

Təlim prosesində müəllimin rolu ilə yanaşı öyrənənlərin də bir neçə əhəmiyyətli rolu qeyd olunur. Öyrənənlər dərs prosesində fəal iştirak edirlər. Onlar müəllim tərəfindən hazırlanmış tapşırıqları yerinə yetirirlər və bununla onlar real ünsiyyətə qoşula bilirlər. Qrup və cüt şəkildə onlar orijinal tapşırıqları yerinə yetirir, bu zaman şagirdlər öz yoldaşları ilə ünsiyyət qurur, verilən tapşırıqları bir yerdə həll edirlər. Bundan əlavə onlar öz yoldaşlarının çıxışını diqqətlə dinləyirlər. Qruplar və ya cütlər şəklində tapşırıqlar yerinə yetirmək təlim prosesinə müsbət təsir etdiyi kimi şagirdlərin kommunikasiya və əməkdaşlıq qabiliyyətini də inkişaf etdirir. Gələcəkdə onlar hər hansısa şirkətdə və ya müəssisədə işləyərkən öz həmkarları ilə rahat şəkildə ünsiyyət qura və əməkdaşlıq edə biləcəklər.

Kommunikativ dil təlimində istifadə olunan tapşırıqlar aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

1. Dil öyrənmə prosesində real ünsiyyət qurmağa kömək edir.
2. Öyrənənlərərə bildiklərini təcrübə etmək və sınamaq imkanı verir.
3. Öyrənənlərin həm dəqiqliyi, həm də səlisliyi inkişaf etdirməsinə kömək olur.
4. Bu tapşırıqlar dinləmə, danışma, yazma və oxuma bacarıqlarını özündə birləşdirməlidir, çünki onlar hər biri eyni anda baş verir.
5. Həmçinin bu tapşırıqlar şagirdlərə qrammatik qaydaları öyrənməyə və kəşf etməyə şərait yaradır.

**Nəticə**

Kommunikativ yanaşma təlimdə əhəmiyyətli rol oynayır. Bu yanaşmanın köməyi ilə təlim prosesi səmərəli şəkildə təşkil olunur, öyrənənlər təlim prosesində fəal iştirak edirlər. Təlim prosesində qarşılıqlı əlaqə və ünsiyyət əsas rol oynayır.

***Ədəbiyyat***

*1. Richards, J.C. and Rogers T.S. (2001). Approaches and Methods in Language Teaching. New York:Cambridge University Press.*

*2. Şeker E., & Aydın İlker. (2011). Communicative approach as an English language teaching method: Van Atatürk Anatolian High School sample. Pegem Journal of Education and Instruction, 1(1), 39–49. https://doi.org/10.14527/C1S1M5*

# ƏBU ƏLİ IBN SİNANIN PEDAQOJİ FİKİRLƏRİ

**A.H.Xanverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*aytac310399@gmail.com*

***Xülasə***

*Bu gün təhsil sahəsindəki yeniliklərin bir çoxu əslində keçmişdəki təcrübələrin müasir halı olaraq qarşımıza çıxır. Müasir elmin bir çox sahəsinin inkişafı türk dünyasının görkəmli alimi Əbu Əli İbn Sinaya borcludur. Tibb, din, fəlsəfə,riyaziyyat, biologiya və digər elmlərin inkişafında əvəzsiz rolu olmuş İbn Sinanın pedaqoji fikirləri bu gün də önəmli əhəmiyyət kəsb edir. İbn Sinanın fikrincə, təhsilin əsas məqsədi insanın bacarıqlarını ortaya çıxartmaqdır. Eyni zamanda, təhsilin insanın gələcəkdə cəmiyyətə xeyirli vətəndaş olaraq inkişaf etməsinə yardımçı olur. Dünyaya gəldiyi andan uşağın tərbiyəsinin vacibliyini qeyd edir. İbn Sinanın yaş dövrləri ilə bağlı fikirləri bu günümüzdə də aktualdır.*

## ПЕДАГОГИЧЕСКИЕ МЫСЛИ АБУ АЛИ ИБН СИНА

***Резюме***

*Сегодня многие инновации в сфере образования фактически представляют собой современную форму прошлого опыта. Развитию многих направлений современной науки способствовал выдающийся ученый тюркского мира Абу Али ибн Сина. Педагогические идеи Ибн Сины, сыгравшие неоценимую роль в развитии медицины, религии, философии, математики, биологии и других наук, сегодня имеют огромное значение. По словам Ибн Сины, основная цель образования - раскрыть свои способности. В то же время образование помогает человеку в будущем развиваться как порядочный гражданин. Подчеркивает важность воспитания ребенка с рождения. Взгляды Ибн Сины на возрост актуальны и сегодня.*

## PEDAGOGICAL THOUGHTS OF ABU ALI IBN SINA

***Summary***

*Today, many of the innovations in the field of education are in fact a modern form of past experience. The development of many areas of modern science is due to the prominent scientist of the Turkic world, Abu Ali Ibn Sina. Ibn Sina's pedagogical ideas, which played an invaluable role in the development of medicine, religion, philosophy, mathematics, biology and other sciences, are of great importance today. According to Ibn Sina, the main purpose of education is to reveal one's abilities. At the same time, education helps a person to develop as a good citizen in the future. Emphasizes the importance of raising a child from birth.Ibn Sina's views on age are still relevant today.*

***Açar sözlər:*** *tərbiyə,təhsil, uşaq, insan, elm*

***Ключевые слова:*** *воспитание, образование,человек, ребенок, наука*
***Key words:*** *education, children, people, science*

"Həkimlərin şahı" adlandırılan, şərq dünyasının ən görkəmli loğmanı, riyaziyyatçısı, astronomu bəşəriyyətin yetişdirdiyi ən dahi filosofu İbn Sina 980-cı ildə Buxara yaxınlığındakı Əfşanak kəndində anadan olmuşdur. Görkəmli filosofun əsl adı Əbu-Əli Əl-Hüseyn ibn-Abdullah ibn-Sinadır. Avropa ölkələrində Avisenna olaraq tanınır.

Baxmayaraq, əsərlərini min il bundan öncə yazıb, hələ də bütün dünyada fəlsəfə, riyaziyyat, tibb, fizika, kimya, biologiya və s. elmlərin inkişafında istifadə olunur. Bəzi mənbələrdə onun müxtəlif mövzularla bağlı 450-ə qədər əsər yazdığı qeyd edilir. Ağamehdi Ağayevin "Elmin, sənətin zirvələrində duran sadə insanlar" əsərində qeyd edilir ki, bugünki nəslə onun yalnız 274 əsəri gəlib çatmışdır.

10 yaşında olarkən Quranı əzbər bilirmiş. Buxaraya köçdükdən sonra atası onu hindli filosof Əbu-Abdullah an-Natilin yanina məşğələlərə göndərir. Bir müddət sonra müəlliminin belə çətinlik çəkdiyi məsələləri rahatlıqla açdığını görür. O özü yazırdı ki, artiq 18 yaşında hər şeyi bilirdi və oxuduğu hər bir əsərdən artıq ona məlum olurdu.

"İbn Sina öz həyatı haqqında Curcaniyə verdiyi məlumatda belə deyir: "On səkkiz yaşıma qədər fasiləsiz olaraq çalışmağa davam etdim. Gecələri də oxumaqla, yazmaqla məşğul olardım. Gecələri yuxum gəldikdə bir bardaq su içər, ayılar, yenidən çalışardım. Yuxuda belə zehnim oxuduqlarımla məşğul olardı. Çox vaxt oyandığımda əvvəl həll edə bilmədiyim bəzi şeylərin yuxuda ikən həll edilmiş olduğunu görərdim. Daha sonra Məbəd ül Təbia ilə məşğul olmağa başladım. Bu məsələyə dair Aristoteli bəlkə də qırx dəfə oxuduğum halda, anlamamış və ümidsizliyə düşmüşdüm..."

İbn Sina dünya şöhrətli elm xadimi Aristoteli anlaya bilmirdi. O, Mezatda Farabinin "Al İbana" adlı məşhur əsərini alıb oxuduqdan sonra Aristoteli qavrayıb. Əldə etdiyi bu nəticə üçün şükr namazı qılıb. İbn Sina öz sözləri ilə ifadə edib ki, fəlsəfi bilgisinə görə Farabiyə borcludur." [10]

İbn Sina qrup təhsilinə çox önəm verirdi və uşaqların öz həmyaşıdları ilə təhsil alması lazım olduğunu qeyd edirdi. O deyirdi ki, uşaqların yaxşı tərbiyə və vərdişlərə sahib uşaqlarla eyni məktəbdə olması uyğundur, çünki uşaq uşaqdan öyrənir. Onun fikrincə, bütün uşaqlar təhsildən eyni səviyyədə yararlana bilməlidir. Uşaqların özəl dərs almasına qarşı çıxmışdır. O düşünürdü ki, özəl dərs almış uşaqlar daha eqoist böyüyürlər. Uşaqlar birlikdə tərbiyə aldıqda bir-birlərinə hörmət edir və bu onlarda vərdiş halina çevrilir.

İbn Sinaya görə təhsilin məqsədi, xoşbəxtliyi tapmaq və insanları cəmiyyətə faydalı hala gətirməkdir. O düşünürdü ki, üç cür tərbiyəçi var. Birincisi

ailə başçısı ailə üzvlərini tərbiyə edir, ikincisi müəllim uşaqları və cəmiyyəti öyrədir, üçüncüsü dövlət başçısı milləti öyrədir.

O, uşaqların təlimində 5 faktoru əsas hesab edirdi: imanı, gözəl əxlaqı, sağlamlığı, savadlı olmağı, sənəti. O, belə hesab edirdi: "Müəllim dindar, vicdanlı, müdrik, ədalətli, təmiz və ləyaqətli olmalı, ictimailəşməyi, təlim-tərbiyə üsullarını, onların əxlaqi tərbiyəsini bilməlidir".

İbn Sinaya görə istənilən təhsil sistemində təhsilin mərhələləri böyük əhəmiyyət kəsb edir ki, onlar olmadan təhsil natamam olacaqdır. Təhsilin məqsədləri, prinsip və metodları müəyyən mərhələlərdən ibarətdir. Ibn Sina uşağın yaş mərhələlərini nəzərə alaraq, bu mərhələlər üçün xüsusi bir təhsil planı hazırladı. İbn Sinanın fikrincə, təhsilin planlaşdırılması uşağın fiziki və əqli xususiyyətlərinə əsasən hazırlanmalıdır. O, yaş mərhələlərini bu şəkildə bölmüşdür:

1. Doguldukdan 6 yaşa qədərki dövr (uşaqlıq dövrü);
2. 6 yaşdan 14 yaşa qədərki dövr (ilkin təhsil alma dövrü);
3. Gənclik dövrü ( xüsusi təhsil dövrü).

Uşaqlıq dövründə 3yaşından 5 yaşına qədər – yəni, uşaqların orqanizminin gücləndiyi dövrdə uşaqların dili inkişaf edir, dinləməsi daha diqqətli olur və öyrənməyə hazır olur. Uşağın ilk əsas təhsili hisslərin, düşüncələrin və davranışların inkişaf etdirilməsi məqsədilə əxlaqi tərbiyə olmalıdır. Bunun üçün; pis mühitlərdən uzaq tutulmalı, yaxşı mühit tanış edilməlidir. Uşağın təhsili dövlətin yox, ailənin borcudur. O halda hansı mərhələ və proseslərdən keçərək necə bir insan yetişdirəcəyinə qərar vermək, dövlətin deyil, ailənin məsuliyyətidir. Uşağın formalaşmasında və inkişafında oyun və oyuncaqlar çox vacibdir. Ağlın, ruhun, bədənin tərbiyəsi bu yolla daha asan və daha sürətli olur.

Təhsildə mükafat və tərif çox vacibdir. Cəza son çarə, tərbiyə elementi kimi qəbul edilməlidir. Cəza tədbiri görərkən qəbahətin xarakterini, şəraitini, həmin hərəkətə insanı təhrik edən motivləri, onun fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır. Cəzalandırma çox incə tərbiyə metodu olduğundan ondan istifadə edərkən ehtiyyatlı olmaq gərəkdir əks halda tərbiyə işinə ciddi zərər vura bilər.

İbn Sinanın fikrincə, uşaq 6 yaşına çatdıqda artıq onu tərbiyəçi müəllimin yanına göndərmək lazımdır.

İbn Sina göstərir ki, bu dövrdə uşağın inkişafı üçün üç məsələyə diqqət yetirmək vacibdir:

1. Uşağı mənəvi cəhətdən incidəcək, ona ziyan verə biləcək hər bir şeydən uzaq tutmağa çalışmaq lazımdır.

2. Uşağın bədənini fiziki cəhətdən inkişaf etdirmək lazımdır. Bunun üçün uşaqların oyunlar oynaması lazımdır. Oyunlar uşaqların həyatında önəmli rola malikdir. Belə ki, bu, onların fiziki inkişafına müsbət təsir göstərəcək.

3. Üçüncü mərhələ uşaqlarda müxtəlif zövqlər və davranışın formalaşdırılması mərhələsidir. Uşaqların musiqi sədaları altında yuxuya getməsi onların gələcəkdə musiqi zövqünün formalaşdırılmasında faydası olacağını qeyd edirdi.

Növbəti mərhələ öyrənmənin birinci mərhələsi idi. Bu mərhələ 6 yaşından 14 yaşına qədər davam edirdi. Bu yaş dövrü uşağın daha ciddi təhsil almağa başladığı yaş dövrüdür. 6-14 yaş arası uşaqların ciddi təhsil alması lazım olduğunu deyən İbn-i Sina bu dövrdə uşağın məktəbə göndərilməsinin vacibliyini vurğulayır və deyir ki, bütün siniflərin uşaqları heç bir ayrı-seçkilik olmadan bir yerdə oxusunlar, yaxşı dostlar tapsınlar, onlarla vaxt keçirsinlər. İbn-i Sina məktəbi ictimailəşmə mühiti kimi görür və həmyaşıdlarla təhsilin əhəmiyyətini vurğulayırdı. Bu zaman uşaqlar oyun və idmandan uzaqlaşmağa başlamalı dərslərinə diqqətlərini yönəltməlidirlər. İbn Sinanın fikrincə qrup dərsləri fərdi dərslərdən daha effektiv olmuşdur. Bir şagird digərinə təsir edə bilir, bir-birlərinin müsbət keyfiyyətlərini götürür və biri digərini öyrədə bilir.

Digər mərhələ artıq şagird ilkin bilik mərhələsini tamamladıqdan sonra bacarıqlarını müəyyən edir, ya təhsil sahəsində, ya da başqa bir sənət öyrənmək üçün özünü inkişaf etdirir.

İbn Sina seçimlərin edilməsində şagirdlərin fikirlərinə hörmət edilməsi gərəkdiyini qeyd edir, gələcək təhsil və ya iş seçimlərinin onların bilik və bacarıqlarına uyğun seçilməsini məsləhət bilirdi. İbn Sina uşaq üzərində təzyiqlərin mənfi hallara yol açacağını düşünürdü.

İbn Sina müəllimin daşımalı olduğu bir sıra özəlliklərdən də söz açmışdır. Onun fikrincə, müəllim ilkin olaraq, özünü təkmilləşdirməlidir, tərbiyə etməlidir, çünki o, davranışlarıyla şagirdlərə örnək olur. Bunun üçün o, əvvəla özünü müşahidə edib, özündə olan qüsurları aradan qaldırmalıdır. İbn Sinaya görə müəllim ağıllı və savadlı olmalı, insanları sevməyi bacarmalı, dindar olmalı, öz işini sevməli, uşaqları tərbiyə etmə bacarığı olmalı, xarici görünüşü səliqəli və təmiz olmalı, cəmiyyətin davranış normalarına uyğun olaraq yaşayan biri olmalıdır.

İbn Sina qeyd edirdi ki, müəllim yalnızca bilik ötürmür, o uşaqların tərbiyəsinə də təsir göstərir, müəyyən yaş qrupunda uşaqlar müəllimi təqlid edirlər.

İbn Sina əxlaq tərbiyəsi haqqında bir sıra fikirlər irəli sürmüşdür, onun fikrincə, təhsilin birinci mərhələsi əxlaq tərbiyəsidir. İnsan yalan deməməli, pis işlərdən uzaq durmalıdır. O, əxlaq tərbiyəsinin uşaq yaşda verilməsini qeyd etmiş, uşaqların həyatında yaxşı dostlar əldə edərək başladığını demişdir.

Filosof pisliyi bu qisimlərə ayırır:

1. Zəiflik, savadsızlıq, yaradılışdakı nöqsan və əskiklik mənasına gələn pislik, hansı ki, bu, fiziki pislikdir.

2. Dərd, kədər kimi maddi və mənəvi mənada pislik. Bu, psixoloji pislikdir.

3. Metafizik pislik. Filosof bunu günah kimi şərh edir. [3]

İlk olan (Allahın) öz zatını bilməsi və bilgisinin yaxşılıq nizamına sahib olması, imkan nisbətində zatının xeyir və kamal səbəbi, bildirilən tərzdə onun bu nizamda xoş olmasıdır.

Pisliyin fərqli növləri vardır. Məsələn: bilgisizlik, zəiflik və qüsurluluq kimi qüsurlara, üzüntü və kədər kimi hər hansı bir səbəbin yol açdığı durumlara da “pislik”deyilir. [4, 59 səh.]

İbn Sina bizə tibb sahəsində də miras qoyub. İnsan sağlamlığı haqqında bir sıra dəyərli fikirlər söyləmişdir:

1. Hərəkətli və qoçaq insan düz qaməti ilə fəxr edir, oturaq insan isə bir çox qüsurlara düçar olur.
2. Nizamlı şəkildə idmanla məşğul olan bir insanın hər hansı xəstəliyin aradan qaldırılmasına yönəlmiş müalicəyə ehtiyacı yoxdur.
3. Əgər mədəni ağır yeməklərlə yükləmisinizsə, səhəri gün ac qalmalısınız.
4. Acqarına yatmaq yaxşı deyil, gücü zəiflədir. Həddən artıq tox mədə ilə yatmaq da zərərlidir. Bu halda yuxunuz möhkəm olmayacaq, bütün gecə narahat yatacaqsınız.

Onun tövsiyələri bu günümüzdə hələ də aktualdır. İbn Sina taun, vəba, sarılıq kimi xəstəliklərin səbəblərini analiz edib, baş ağrıları, mədə xorası və bir sıra başqa xəstəliklərin müalicə üsullarını göstərib. İlk dəfə göz əzələlərinin quruluşunu da o təsvir edib. Ona qədər dünya tibb elmində hesab olunurdu ki, göz fənər kimi işıq şüalandırır və bu şüalar obyektə dəyib qayıtması ilə insan görür.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, təhsil vasitəsilə biz insanlara öz istedadlarını inkişaf etdirmək imkanı veririk. Ona görə də düzgün təhsil metodlarına fikir vermədən istedadların reallaşdırılması və məqsədə çatması mümkün olmayacaq.

Məhz düzgün təlimin köməyi ilə insanlar rifaha çatır. Nəticədə, müxtəlif metodlar məqsədlərimizə çatmaqda bizə kömək edən ümumi yollardır və o, istədiyimiz nəticələrə çatmaq üçün necə hərəkət etməyimizi izah edir. İnsanlara arzu olunan məqsədlərə çatmaqda kömək etməyin vacibliyi üçün bu araşdırma İbn Sinanın əsərlərinə yönəlmişdir. Müsəlman alimləri bu mövzuda apardıqları geniş araşdırmalara görə insan və onun rifahı haqqında müxtəlif fikirlərə malik olmuşlar. İbn Sina bu mövzuda çoxlu əsərlər yazmış bu müsəlman alimlərindən biridir.

Aparılan araşdırmada İbn Sinanın əsərlərindən 12 təhsil metodu çıxarıldı. Birincisi, bəzi ümumi məqsədlərə nail olmaq üçün tələbələrin kiçik qruplarda iştirak etdiyi kollektiv şəkildə tədrisi metodu idi. İbn Sina hesab edirdi ki, bu üsul, öyrənənlərdə bəzi etik, sosial, əqli, koqnitiv, özündənrazı dəyişikliklərə səbəb olur.

İkincisi, müşahidə, təcrübə və yoxlama üsuludur. Bununla, tələbələrin təhsil məqsədlərinə çatmasına kömək etmək üçün birbaşa eksperiment və praktik üsullardan istifadə olunur. Onlar həmçinin təcrübə və prosesi başa düşməyin yollarını öyrənirlər. Üçüncüsü, öyrənənləri həvəsləndirmək və cəzalandırmaqdır. Bu üsul ən səmərəli üsula malikdir və onun ədəb və prinsiplərinə diqqət yetirməklə tətbiq olunmalıdır. Dördüncüsü uyğun bir model təmin etməkdir. Bu üsulla şagird üçün aşılana bilən və əməl oluna bilən maddi nümunə və model təmin ediləcək və şagird hər cəhətdən modelə bənzəməyə çalışacaq.

Beşincisi təkrar və məşq üsuludur. Bu, İbn Sinanın əsərlərindən götürülmüş başqa bir üsuldur və onda öyrənənlər onlarda təqdirəlayiq keyfiyyət yarada və ya onlardan xoşagəlməz keyfiyyəti aradan qaldıra bilərlər. Altıncısı, sinifdə müzakirə və mübahisə mühiti yaratmaqdır. Bu, tələbələrin tək dinləyici əhval-ruhiyyəsindən çıxmasına və daha fəal öyrənən olmasına səbəb olacaq.

Yeddincisi, tədris prosesində sual-cavab metodundan istifadə edir. Bu üsuldan bütün tədris fəaliyyətlərində və tədris metodlarında istifadə oluna bilər. Bu metoddan istifadə etməklə şagirdlərin təhsil fəaliyyətlərində iştirakını artırmaq olar. Səkkizinci, ən qədim tədris üsullarından biri sayılan təhsil məzmununu əzbərləməkdir. Bu üsulda tədris müəllimin şifahi və yazılı anlayışları şagirdlərə çatdırması, şagirdin məşq etməsi və təkrarı ilə baş verir. Doqquzun, öyrənənlərə məsləhət və rəhbərlik üsuludur. İbn Sina öyrənmənin öyrənənlər tərəfindən ən yaxşı şəkildə həyata keçirilməsi üçün bəzi şərtlər təklif etmişdir; yumşaq səslə məsləhət vermək kimi. Məsləhət zamanı danışıq yumşaq və gizli olmalıdır. Onuncu, oyun oynayaraq öyrənir və İbn Sina oynayaraq öyrətməyə böyük maraq göstərirdi və bunu çox kiçik uşaqlar üçün tövsiyə edirdi.

On birinci, həyatının son illərində İbn Sina tərəfindən tövsiyə edilən özünütərbiyə və özünü təkmilləşdirmə üsuludur. Bu metodun bəzi mistik yanaşması var idi və İbn Sina zəkanın əhəmiyyətini vurğulamasına baxmayaraq, həyatının son illərində o, nəzəri zəkanın həqiqətləri dərk etməkdə zəif olduğunu gördü və özünü tərbiyə etməyi və özünü təkmilləşdirməyi təklif etdi. Nəhayət, şagirdlərə məhəbbət və mehribanlığın ifadəsi müəllimlə şagird arasında dərin əlaqə yaratmağa kömək edən, şagirdin müəlliminin sözlərinə qulaq asmasına və ev tapşırığına görə məsuliyyət hiss etməsinə səbəb olan on ikinci tərbiyə üsulu kimi təklif olunur.

***Ədəbiyyat***

*1. http://www.ibe.unesco.org/sites/default/files/avicenne.pdf*
*2. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3937886/*
*3. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3937886/*
*4. Abbasov Atif,Böyük İslam filosoflari, 2017,143 səh.*
*5. Ağamehdi Ağayev, Elmin, sənətin zirvələrində duran sadə insanlar haqqında kitab 2012, 423 səh.*
*6. https://melumatlar.az/blog/1791/ibn-sina-haqqinda.*
*7. https://www.researchgate.net/publication/333966312_EDUCATIONAL_VIEWS_OF_IBNU_SINA.*
*8. http://www.ibe.unesco.org/sites/default/files/avicenne.pdf.*
*9. An Introduction to Avicenna's thoughts on Educational Methods.*
*10. Fazil Qaraoğlu. Tarixdə iz buraxanlar: İbn Sina. Bakı xəbər, 2016, 25 noyabr.*

# ƏLİ BƏY HÜSEYNZADƏNİN HƏYATI VƏ İCTİMAİ-PEDAQOJİ FƏALİYYƏTİ

**A.Ü.Hüseynzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*afaqhuseynzade81@gmail.com*

***Xülasə***

*XIX yüzilliyin sonları XX yüzilliyin əvvəllərində Əli bəy Hüseynzadə türkçülük ideologiyasının banisi və ilk carçısı, bu ideologiyanın siyasi proqramını, həmçinin nəzəri cəhətdən öz əsərlərində cəm edən, yaradıcılığında tərəqqi və inkişaf etdirən, yalnız Azərbaycanda deyil, həmçinin böyük Turan elində ictimai fikrin durumuna açıqlıq gətirən və onu yeni yollara yönəltdirən, qəflət yuxusundan, ətalətdən, qaranlıqdan uzaqlaşmağa, birliyə, həmrəyliyə əsaslanan müstəqillik yolunda, istiqlal mücadiləsinə xidmət edən görkəmli ziyalımızdır.*

## ЖИЗНЬ И СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АЛИ БЕКА ГУСЕЙНЗАДЕ

***Резюме***

*В конце 19 - начале 20 веков Али бей Гусейнзаде был основоположником и первым провозвестником идеологии тюркизма. Именно наши выдающиеся интеллектуалы ведут нас новыми путями, служат борьбе за независимость на пути к независимости, основанной на единстве., солидарность, уход от сна халатности, лени и тьмы.*

## LIFE AND SOCIAL-PEDAGOGICAL ACTIVITY OF ALI BEY HUSEYNZADE

***Summary***

*In the late 19th and early 20th centuries, Ali bey Huseynzadeh was the founder and first herald of the ideology of Turkism. It is our outstanding intellectuals who lead us to new paths, who serve the struggle for independence on the path to independence based on unity, solidarity, moving away from the sleep of negligence, laziness and darkness.*

***Açar sözlər:*** *türkçülük, idealogiya, pedaqoji fəaliyyət, pedaqoji fikir*

***Ключевые слова:*** *тюркизм, идеология, педагогическая деятельность, педагогическая мысль*

***Key words:*** *turkism, ideology, pedagogical activity, pedagogical thought*

Keşməkeşli və ziddiyyətli həyat sürən Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə Parisdən tutmuş Kəlküttəyə qədər, Peterburqdan Qahirəyə kimi geniş

bir ərazidə tanınmışdır. Əli bəy Hüseynzadə Azərbaycanın gözəl və qədim şəhərlərindən olan Salyanda 1864-cü ildə anadan olmuşdur. Anası Xədicə xanım, atası Molla Hüseyn Hüseynzadəni Əli bəy kiçik yaşlarında olarkən itirmişdir. Əli bəyin atası Molla Hüseyn Hüseynzadə bəy təbəqəsindən olmuşdur. Əli bəy Hüseynzadənin anası Xədicə xanım Qafqaz Şeyxülislamı Şeyx Əhmədin qızı olmuşdur. Xədicə xanım erkən rəhmətə getdiyindən, Əli bəyin atası Molla Hüseyn Hüseynzadə övladları Əli bəyi və İsmayıl bəyi yanına alaraq Tiflisə köçməli olur. Molla Hüseyn Hüseynzadənin qayınatası olan Şeyx Əhməd Səlyani Qafqaz Şiə məzhəb ruhani idarəsinə rəhbərlik edirdi. Tiflisdə yerləşən Qafqaz Şiə məzhəb ruhani idarəsinin nəzdində olan ibtidai məktəbdə Əli bəyin atası Molla Hüseyn Hüseynzadə riyaziyyat fənnini tədris edir. İlk ibtidai təhsilini Əli bəy 1871-ci ildə atasının riyaziyyat müəllimi olduğu məktəbdə alır. Bir neçə ildən sonra Əli bəyin atası Molla Hüseyn Hüseynzadə vəfat edir. Əli bəy Hüseynzadə elə həmin gündən ana babası olan Şeyx Əhmədin və nənəsi Hüsniyyə xanımın himəyadarlığına keçir. Əli bəyin ana babası Şeyx Əhməd Səlyani ümumi üləmanın səviyyəsindən xeyli yüksəkdə olan din xadimi idi, (buna baxmayaraq) dövrünün görkəmli alimlərindən sayılırdı. Əli bəyin kiçik yaşlarından qabiliyyətli və zəkalı olduğu ana babası olan Şeyx Əhmədin nəzərindən qaçmır və Əli bəyin təhsil, təlim, tərbiyəsi ilə ciddi şəkildə özü xüsusi məşğul olur. Tiflisdə altı sinifli ibtidai məktəbdə təhsilini başa vuran Əli bəy 1875-ci ildə babasının yaxın dostu olan Mirzə Fətəli Axundzadənin köməyi və məsləhətilə Tiflis gimnaziyasına göndərilir. Bu gimnaziyada Əli bəy Hüseynzadə on il müddətində təhsil alır. Tiflis gimnaziyasında təhsil alarkən (1875-1885-ci illərdə) Əli bəy (müxtəlif dilləri, yəni) alman, rus, fransız, latın, yunan dillərini mükəmməl şəkildə mənimsəyir.

Əli bəyin babası yalnız fars ədəbiyyatını deyil, öz doğma el-obasının şairlərini də xoşlayırdı. Öz əqidəsinə zidd olmasına baxmayaraq, öz dilinə, öz xalqının ədəbiyyatına marağı, sevgisi o dərəcədə çox idi ki, müasiri olan M.F.Axundzadə ilə yaxınlıq edirdi. Elə bu səbəbdəndir ki, Ş.Ə.Səlyanidə olan milli hisslər öz nəvəsinə nüfuz etmiş, Əli bəy Axunzadənin yaradacıllğıyla yaxından tanış olmuşdur. Ş.Ə.Səlyani 1885-ci ildə Əli bəyin hərtərəfli şəxsiyyət kimi yetişməsi, rus və qərb təfəkkürünə yiyələnməsi, həmçinin ali təhsil alaraq yüksək səviyyəli sənət sahibinə çevrilməsi üçün Peterburq şəhərinə təhsil almağa göndərir.

Əli bəy Hüseynzadə həkim olmaq istəyirdi. Buna görə də o, 1885-ci ildə Rusiyaya gedir. Əli bəy Peterburq darülfünün təbiiyyat bölməsinin riyaziyyat fakültəsinə daxil olur. Bu təhsil müəssisəsi Əli bəy Hüseynzadə üçün elm ocağı olmaqla yanaşı, siyasi bir məktəb də olur. Buradakı təhsil Əli bəyin fikirlərində mühüm dönüş nöqtələrindən biri olmuşdur. Çünki Peterburq darülfününda yalnız kadrlar yetişdirilmirdi. Bu elm ocağı həm də mütləqiyyəti pisləyir, tələbələri mütləqiyyətin düşməni kimi yetişdirirdi. Biz bunların Əli bəy Hüseyn-

zadənin zəngin yaradıcıllığına böyük töhvəsini verdiyini görür, həmin elm ocağının ideoloji-siyasi cəhətdən onun ideya və fikrinin inkişafında öz əksini göstərdiyinin şahidi oluruq. Təhsil illərində Əli bəy çarizm mütləqiyyətinə qarşı tələbə dərnəkləri, həmçinin siyasi cərəyanlarla daha yaxından bələd olur. Belə bir şərait Əli bəy Hüseynzadənin milli duyğularını oyadır, həyat yolunu, türkçülük amalını, dünyagörüşünü, milli düşüncələrini formalaşdırır. Ziya Göyalpın dediyi kimi: "Əli bəy Hüseynzadə Rusiyada millətçilik cərəyanlarının təsiri ilə türkçü olur. Panislamizmdən pantürkizmi çıxarır". [1, s.12]

Peterburqda oxuduğu müddətdə böyük türkoloqların türkçülüyə dair mühazirələrini dinləmiş, rus və Qərbi Avropa şərqşünaslarının türkoloji çalışmalarından bəhrələnmiş, həmçinin dünya klassiklərinin əsərlərində öz əksini tapan zülm və istibdada qarşı mübarizə ideyaları Əli bəyi tez bir zamanda istiqlala, hürriyyətsevərliyə meyl etdirmişdir. 1889-cu ildə Əli bəy Hüseynzadə Peterburq darülfünunu fərqlənmə diplomu ilə bitirir. Əli bəyə burada qalıb müəllim kimi fəaliyyəti üçün yüksək maaş təklif edilir. Lakin o, Türkiyəyə getməyə qərar verir, Rusiyadan gizlicə ayrılaraq Türkiyəyə gedir.

Türkiyəyə gələn Əli bəy Hüseynzadə gənc türklərlə sıx əlaqədə olur və 1889-cu ildə "İttihadi-Osmani" adlı gizli cəmiyyətin banisi olur. Əli bəy Hüseynzadəyə bu ideologiyanı yaymaqda mane olunur, Əbdülhəmid özbaşınalığı və zorakılığı üzündən qarşısı alınır. Türkçülüyə türk olmayan xalqlarla türklər arasında fitnə-fəsad salan bir ideologiya kimi baxılır. Elə buna görə də türkçülük məfkurəsi bu illərdə gizli şəkildə yayılmağa, təbliğ olunmağa başlamışdır. Tədricən vətənpərvərlikdən-millətçiliyə keçidin əsası qoyulduğu, Osmanlılıqdan-türkçülüyə keçid nəzərə çarpırdı. 1894-cü ildə bu təşkilatın adı dəyişdirilərək "İttihad və Tərəqqi" adını alır. Bunların hamısı bizə göstərir ki, bu beş il ərzində türkçülük ideologiyasının yayılması sahəsində məşəqqətli əziyyət və zəhmət çəkilmişdir.

Əli bəy Hüseynzadə 1895-ci ildə həkim-yüzbaşı rütbəsiylə hərbi tibb məktəbini bitirir. 1896-cı ildən 1933-ə qədər İstanbulda yerləşən Heydərpaşa hərbi tibb xəstəxanasında işləyir, həmçinin orada dərs deyib, mühazirələr oxuyur. 1897-ci ildə Türkiyə-Yunanıstan müharibəsi ərzində Əli bəy Hüseynzadə türk yaralı əsgərlərə tibbi yardım göstərir. Müharibə bitdikdən sonra Əli bəy Hüseynzadə 1900-cü ildə müsabiqə nəticəsində İstanbul darülfünunda "Dəri-zöhrəvi xəstəliklər" kafedrasına dosent təyin olunur. Əli bəy Hüseynzadə türk dilində ilk tibbi əsər olan "Vəba və mikrobu" əsərini yazmışdır. O, 1902-ci ildə professor, doktor Kamal Cənab Berksoy ilə birlikdə "Ensiklopedik tibbi lüğəti" adlanan kitabını nəşr etdirir. Bu zaman kəsiyində Əli bəy yalnız tibbə dair elmi əsərlər, müəllimlik etməyi ilə yanaşı siyasi təşkilat olan "İttihad və Tərəqqi"dən də uzaq qalmamış, onun işlərini davam etdirmişdir. Türkiyədə olan Əli bəy Hüseynzadənin Əbdülhəmid istibdadının təzyiqi nəticəsində burada qalması çətinləşir, buna görə də 1903-cü ilin 5 iyulunda Azərbaycana gəlməli olur.

1904-cü ildə Bakıda Əli bəy Hüseynzadə Səadət mədrəsəsinin müəllimi həmçinin də bu mədrəsənin müdiri olaraq işləyir.

1904-1905-ci illərdə olan Rus-Yapon müharibəsi, Rusiyanın bu müharibədə məğlubiyyəti və (davamında gələn)rus inqilabı hadisələri çar hökümətini zəiflədir. Çar hököməti artıq məcbur olur ki, islahatlar keçirsin və keçirməli də olur. Belə ki, fevral ayının 18-i çar hökümәti Dövlət Dumasına seçkilər haqqında bəyanat verir.

Bu illərdə olan hadisələr Əli bəy Hüseynzadəni sevindirməklə yanaşı, onun yaradıcılığının da yeni mərhələsi və yeni nəfəsiolur.

Bu fürsətdən istifadə edən ziyalılarımız Ə.Hüseynzadə, Ə.Tobçubaşov, Ə.Ağaoğlu, F.Vəzirov, M.Vəkilov və b. mart ayının 15-də 1905-ci ildə Hacı Zeynalabdin Tağıyevin evində yığıncaq keçirirlər və onlar Rusiya hökümətinə, daxili işlər nazirliyinə ərizə təqdim edirlər. Onlar xalqın ehtiyaclarını, müsəlman xalqlarına ruslar kimi mədəni, sosial-iqtisadi və siyasi hüquqların verilməsini, ana dilində ümumitəhsilin həyata keçirilməsini, mətbuat və kitabların nəşrini və Qafqazda gecikmiş islahatların keçirilməsini, həmçinin nümayəndə heyətinin seçilməsinidə istəyirlər. Lakin Rusiyada olan bütün müsəlmanların milli inkişaf və tərəqqi yolunda atdığı hər addıma çar hökümәti panislamizim damğası vurur, ermənilərin xəyanətkarlığıda özünü biruzə verirdi.

Çoxsaylı maeələrdən sonra Əli bəy Hüseynzadənin rəhbərliyi altında "Həyat" qəzeti 1905-ci ilin iyun ayının 7-də işıq üzü görür, nəşri iki ilə yaxın davam edir və cəmi 325 nömrəsi çıxdıqdan sonra 1906-ci il sentaybr ayının 4-də bağlanmalı olur.

"Həyat" qəzetinin redaktorları Ə.Hüseynzadə və Ə.Ağaoğlu, naşiri Ə.Topçubaşov, sahibi isə Hacı Zeynalabdin Tağıyev olur. İki ilə yaxın müddətdə A.Səhhət, M.Ə.Sabir, H.Zərdabi, C.Məmmədquluzadə, N.B.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Abdulla Tokay, M.Hadi, F.Köçərli, Mirzə Həsib Qüdsi, Hafiz Əfəndi və b. ziyalılarımız qəzetdə məqalələr dərc etdirirlər.

Həyat qəzetini öncə Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu birlikdə çıxarırlar amma bir müddətdən sonra isə Əlimərdan bəy Topçubaşov Duma məclisinə seçilir. Əhməd bəy Ağaoğlu isə "Həyat" qəzetindən ayrılaraq, "İrşad" qəzetini çıxarmağa başlayır və Əli bəy Hüseynzadə təkbaşına "Həyat" qəzetinə rəhbərlik etməli olur. Əli bəy Hüseynzadə "Həyat" qəzetində redaktorluq edir və bu qəzetdə elmi-fəlsəfi və maarifçi-pedqaqoji xarakterli bir çox məqalələrini də çap etdirir. "Həyat" qəzeti Azərbaycan türklərinin milli oyanışı ilə yanaşı, ümumrusiya türklərinin oyanışına da öz təsirini göstərmişdir. Azərbaycanda azadlıq hərəkatının kütləvi hal aldığı zaman Əli bəyin türkçülük ideyaları yayılmağa başlayır, Azərbaycan türklərinin milli mübarizəsi artıq ümumrusiya türklərinin milli hərəkatına işıq olur.

Az bir müddətdə qəzet türk aləminə milli düşüncə toxumlarının əkildiyi bərəkətli yerə çevrilir.

İlk dəfə "Həyat" qəzeti ilə Əli bəy Hüseynzadə "Mən türkəm, qafqazlı bir türkəm, türk bir müsəlmanam, müsəlman bir insanam. Bu dörd sifətlə dünyaya gəldim, bu dörd sifətlə də yaşamaq məcburiyyətindəyəm" məramı ilə azəri türklərinin milli düşüncə tarixinə "millət" anlayışını gətirərək, azərbaycançılıq ideologiyasının binasını qoyur. [1, s.16]

Xalqın milli oyanışında misilsiz rolu olan "Həyat "qəzeti çar rejiminin gözündən yayınmır, belə ki, çar senzurası və erməni xəfiyyələri tərəfindən qəzet işıq üzü gördüyü gündən təqib edilir və 1906-cı ildə zərərli istiqamətlərinə görə qəzetin nəşri dayandırılır.

Az bir müddətdən sonra Əli bəy Hüseynzadə "Həyat" qəzetinin ardından 1906-cı il noyabrın 1-ində "Füyuzat" jurnalını çap etdirmiş və bu jurnalda Əli bəy xalq təhsili, məktəb təhsili, qadın təhsili, Azərbaycan, rus, həmçinin dünya ədəbiyyatı haqında məqalələr çap etdirmişdir. "Füyuzat" jurnalı qısa zaman kəsiyində türk xalqlarının rəğbətini qazanmaqla bərabər, türk ziyalıları arasında türkçülüyü daha da alovlandırır. Əli bəy Hüseynzadə "Füyuzat" jurnalının bağlanmasından sonra "Kaspi "qəzetinin redaktoru olur və "Səadət" məktəbində müdir və ədəbiyyat müəllimi işləyir.

Əli bəyin Azərbaycanda yaşadığı qısa zamanda dövrü mətbuatda şeirləri, siyasi, ədəbi mövzuda məqalələri, hekayə və (etdiyi) tərcümələri çapdan çıxmışdır.

1905-ci ildə çar tərəfindən verilən azadlıqların geri alınması, irticanın artması ilə Əli bəy Hüseynzadə təqiblərə məruz qalır və Azərbaycanı tərk etməyə məcbur olur. 1910-cu ildə o, İstanbula gəlmiş, buradakı abu-hava, yəni gənc türklər hərəkatının qələbəsi onun fəaliyyətini daha da inkişaf etdirmişdir.

İstanbulda həyatına davam edən Əli bəy Hüseynzadə yenə buradakı həkimlik sənətini davam etdirir, Heydərpaşa xəstəxanasında dəri-zöhrəvi fakültəsinin kafedra müdiri işləyir. 1910-1933-cü illərdə Əli bəy Hüseynzadə bu xəstəxanada müəllim kimi işləməklə yanaşı, Balkan müharibəsi və Birinci Dünya müharibəsi illərində Hilal-Əhmər xəstəxanalarında həkim kimi işləyir. Zəngin fəaliyyətində müəllimlik, həkimliklə yanaşı, Əli bəy Hüseynzadə İttihad və Tərəqqi cəmiyyətində türkçülük fəaliyyətini Əhməd bəy Ağaoğlu, Y.Akçuraoğlu, İ.Qaspirali ilə birlikdə davam etdirir.

Bakıda keçirilən 1926-cı ildə I Türkoloji qurultaya Əli bəy Hüseynzadə "Qərbin iki dastanında türk" əsəriylə gəlir və əsərini kitab şəklində kommunist partiyası vasitəsilə çap etdirir. Əli bəyin bu əsəri AXC-ni süquta uğradan Sovet Rusiyasına ittihamnaməsi idi. Bu əsərdə Əli bəy xalqını üsyana çağırırdı, Sovet Rusiyasını usta müstəmləkəçi adlandırırdı. Bu əsər əslində xalqın oyanması, müstəmləkə boyunduruğundan çıxması üçün vəsiyyətnamə idi.

1926-cı ildə Əli bəy Hüseynzadə Türkiyəyə qayıtdıqdan sonra Atatürkə qarşı sui-qəsd təşəbbüsünə görə həbs olunur, lakin günahsız olduğu üçün sərbəst buraxılır.

Əli bəy 1933-cü ildən sonra tərçüməçilik fəaliyyətinə davam edir və Türk Dili Kurumu cəmiyyətində olarkən, yakut və çuvaş dillərindən tərcümələr edib çapa verir.

Əli bəyin yarım əsrdən çox yaradıcılığı dövründə təkcə Azərbaycan və Türkiyədə deyil, hətta Qahirədə də müxtəlif imzalarla pedaqoji yönümlü, siyasi, ictimai, ədəbi-tənqidi məqalələri, şeirləri, tibbə aid elmi əsərləri, məcmuə və qəzetləri çıxmışdır.

Əli bəy Hüseynzadə Türkiyədə 1940-cı ilin mart ayında Üsküdarda yerləşən mənzilində ürək xəstəliyi səbəbindən rəhmətə getmişdir. Əli bəy İstanbulda yerləşən Qaraca Əhməd Qəbiristanlığında şair Nədiminin qəbri yaxınlığında torpağa tapşırılmışdır.

***Ədəbiyyat***

*1. Əli bəy Hüseynzadə.“Seçilmiş Əsərləri”. Bakı: Çaşıoğlu, 2007, səh.11.*

*2. Yusif Talıbov, Fərahim Sadıqov, Sərdar Quliyev. “Azərbaycan məktəb və pedaqoji fikir tarixi”. Bakı: Ünsiyyət, 2000, səh.256.*

*3. Hüseyn Əhmədov.“Azərbaycan məktəb və pedaqoji fikir tarixi”. Bakı: Elm və təhsil, 2014, səh.282.*

*4. Y.R.Talıbov, Ə.A.Ağayev, İ.N.İsayev, A.İ.Eminov. “Pedaqogika”. Bakı: Maarif, 1993, səh.51.*

*5. Əli bəy Hüseynzadə. “Qırmızı qaranlıqlar içində yaşıl işıqlar” Bakı:Azərbaycan, 1996, səh.1.*

*6. Akçuraoğlu Yusuf. “Türkçlüyün tarixi”. Bakı: Qanun, 2006, səh.228.*

*7. Tofiq Abdin. “Ah İstanbul...İstanbul...” Bakı:Avropa, 2005, səh.87.*

*8. Rasim Mirzə . “Türkçülüyün babası”. Bakı:Elm, 2000, səh.10.*

*9. Əsgər Quliyev. “Bayrağımızdakı simvolikanın memarı, böyük maarifçi” “Azərbaycan müəllimi” qəzeti, 7 fevral 2014, səh.5.*

*10. Tofiq Abdin. “Əli bəy Hüseynzadə-150(1)”. 525-ci qəzet 22 fevral, 2014-cü il, səh. 20.*

# ŞƏXSİYYƏTLƏRARASI ÜNSİYYƏTİN MAHİYYƏTİ VƏ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**İ.K.Babazadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*injibabazadeh94@gmail.com*

***Xülasə***

*Bu məqalə şəxsiyyətlərarası ünsiyyətə həsr olunub. Məqalədə ünsiyyət, onun mahiyyəti, nə üçün insanlara vacib olması, ünsiyyətin həyatımıza təsiri və əhəmiyyəti, ünsiyyətin funksiyaları, xüsusiyyətləri haqqında məlumat verilib. Ümumiyyətlə, bizim üçün ünsiyyət dünyaya gəldiyimiz andan başlayır. Ətraf aləmi, insanları anlamaq üçün səslər çıxarır, qırıq-qırıq sözlər söyləyirik. Danışmağa başlayandan sonra isə ünsiyyətin verbal və qeyri-verbal vasitələri ilə yaxından tanış olur və şəraitdən asılı olaraq biz onlardan hər hansı birini və ya eyni zamanda ikisini birdən istifadə edirik. Ünsiyyət zamanı qarşımızdakı insana hörmət, ehtiram göstərməli və onu diqqətlə dinləməyi bacarmalıyıq.*

## ПРИРОДА МЕЖЛИЧНОСТНОГО ОБЩЕНИЯ И ОСОБЕННОСТИ

***Резюме***

*Эта статья посвящена межличностному общению. В статье представлена информация о общении, его сущности, почему это важно для людей, о влиянии и важности общения в нашей жизни, функциях и особенностях общения. В общем, общение для нас начинается с момента нашего рождения. Окружающий мир издает звуки, чтобы понимать людей, мы говорим ломаные слова. Как только мы начинаем говорить, вербальные и невербальные средства общения становятся привычными, и, в зависимости от обстоятельств, мы используем одно или оба из них одновременно. Нам нужно проявлять уважение и уметь внимательно слушать человека перед нами.*

## THE NATURE OF INTER-PERSONAL COMMUNICATION AND SPECIFIC FEATURES

***Summary***

*This article is dedicated to interpersonal communication. The article provides information about communication, its essence, why it is important to people, the impact and importance of the communication in our lives, the functions and features of the communication. In general, communication begins from the moment that we are born. We say non-coherent words and makes sounds in order to understand people and the world around us. Once we begin to speak, the verbal and non-verbal means of the communication become familiar to us, and depending on the circumstances, we*

*use one or both of them at once. We need to show respect and be able to listen carefully to the person in front of us.*

***Açar sözlər:*** *ünsiyyət, funksiyalar, xüsusiyyətlər, verbal, qeyri-verbal*
***Ключевые слова:*** *общение, функции, особенности, вербальный, невербальный*
***Key words:*** *communication, functions, features, verbal, non-verbal*

Ünsiyyət tarix boyu insanlar üçün mühüm əhəmiyyət kəsb edən vasitələrdən biri olmuşdur. Çünki insan birliklərinin varlığını davam etdirməsi üçün ünsiyyət vacibdir. İnsanların bir-birilə informasiya mübadiləsi aparmağa, fikir alış-verişi etməyə, hiss və təcrübələrini bölüşməyə hər zaman ehtiyacları olmuşdur. Ünsiyyət ehtiyacı insanın əsas ehtiyaclarından biridir. Bu ehtiyac təbiidir, ona görə ki, ünsiyyət insanın cəmiyyətin bir üzvü, şəxsiyyət kimi normal inkişafı üçün zəruri şərtdir. Ünsiyyət başqa insanları anlama, qavrama prosesində önəmli rol oynayır. O, şəxsiyyətin formalaşmasına müəyyən mənada istiqamət verir və insanın özünü dərk etməsi, öz `mən`inə nəzər salması prosesini də ortaya qoyur. Biz ünsiyyət qurarkən, nitqimizin və hərəkətlərimizin anlaşıqlı olmasına diqqət yetirməliyik. Danışan öz fikrini konkret şəkildə, ehtiyac varsa nümunələrlə qurmalıdır. Bir digər tərəfdən isə dinləyicinin danışılan mövzu barədə nə qədər məlumata malik olması da əhəmiyyət kəsb edir. Çünki dinləyicinin hazırlıq səviyyəsi aşağıdırsa, onun danışanı anlaması da çətinləşir.

Ünsiyyət yalnız dil vasitəsilə deyil, müəyyən işarələr sistemi vasitəsilə də təmin oluna bilər. Belə ki, verbal ünsiyyət zamanı biz sözlərdən, cümlələrdən istifadə edirik. Lakin bəzən elə məqamlar olur ki, həmin anlarda mimika, pantomimika, rəsmlər, yazılı kağızlar, şərti işarələr və s. bizim köməyimizə gəlir və biz onlardan yerində və düzgün istifadə edərək keyfiyyətli, anlaşıqlı ünsiyyət qurmuş oluruq. Yuxarıda sadalananlar qeyri-verbal (qeyri-kommunikativ) ünsiyyət vasitələrinə misal olaraq göstərilmişdir. Qeyri-verbal ünsiyyət vasitələrinin informasiya mübadiləsində oynadığı rol həqiqətən də önəmli əhəmiyyətə malikdir.

İlkin olaraq mimikanı qeyd edib, onun haqqında danışmaq lazım gəlir. Belə ki, sifət cizgilərimizin öz dili vardır və danışmasaq da, gözlərimizin, qaşlarımızın, ağzımızın müxtəlif hərəkətləri ilə fərqli emosiyalar ifadə edə, qarşımızdakı şəxsə nəyisə başa salmağa çalışa və həmin insanda müəyyən fikirlər yarada bilərik.

İntonasiyanı ikinci əsas qeyri-kommunikativ ünsiyyət vasitəsi saymaq olar. Səs tonunun yüksəlib-alçalması, bəzi sözlərin vurğu ilə deyilməsi, ünsiyyət zamanı verilən pauza və s. kimi əlamətlər kommunikatorun, yəni informasiyanı verən şəxsin resipientə, yəni informasiyanı qəbul edənə birbaşa mü-

nasibətini özündə əks etdirir. Bu sadalananları etməklə, ötürdüyümüz məlumatın hansı hissəsinin daha vacib olduğunu vurğulamış oluruq.

Kinesika, yəni bədən hərəkətləri də olduqca vacibdir. Danışarkən bizə yardımçı olsun deyə müxtəlif jestlərdən və əl-qol hərəkətlərindən istifadə qaçılmazdır. Bəzi insanlar əl-qol hərəkətlərindən çox istifadə edirlər və bu da onların həddən artıq emosional və ya çox səmimi olmaları ilə əlaqələndirilir.

Ünsiyyət bir insanın subyektiv dünyasını digərinə açır. Ünsiyyəti tam formada izah edəsi olsaq, "insanların öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir" [1, s.98] şəklindəki tərif ən uyğunu olar.

Ünsiyyət haqqında müəyyən informasiyaya sahib olduqdan sonra, onun funksiyalarına da nəzər salmaq lazımdır.

Psixologiya elmləri namizədi L.A.Karpenko ünsiyyətin 8 funksiyası haqqında məlumat vermiş və bu funksiyaların ünsiyyətin məqsədindən asılı olduğunu qeyd etmişdir. O, bunları – təmas funksiyası, informasiya funksiyası, təhrikedici funksiya, əlaqələndirmə funksiyası, anlama funksiyası, amotiv funksiya, münasibətlərin yaradılması funksiyası, təsir göstərmək funksiyası olaraq adlandırmışdır. [4]

Rus psixoloqu B.F.Lomov isə ünsiyyət sahəsində tədqiqat apararaq, onun funksiyalarını, məlumati-kommunikativ, tənzimedici-kommunikativ, affektiv-kommunikativ olmaqla üç qrupda birləşdirmişdir. [5]

Bütün funksiyaları nəzərə alaraq deyə bilərik ki, ünsiyyətin ən vacib funksiyası **"informativ"** funksiyadır. Biz insanlarla ünsiyyət qurarkən, bunu informasiya ötürmək və almaq məqsədilə edirik. Yəni ünsiyyət prosesində fərdlər arasında informasiya mübadiləsi gedir. Ötürdüyümüz və ya qəbul etdiyimiz informasiyanın dolğun və lazım gəldikdə faktlarla zəngin olması, onun əhəmiyyət dərəcəsini də artıracaqdır. Məlumat mübadiləsi prosesində insanlar fikirlərini, düşüncələrini, hisslərini, istəklərini və s. paylaşırlar. Bu cür məlumat mübadiləsi olmasaydı, birlikdə yaşamaq və əməkdaşlıq mümkün olmazdı. Ünsiyyət prosesində iki tərəf məlumat mübadiləsində iştirak edir: məlumatı ötürən (ötürənlər) və alan (alanlar). Proses zamanı rollar dəyişə bilər və bu da təbiidir. Biz informasiyanın iki tipini fərqləndirə bilərik. Bunlardan biri təsbitedici, digəri isə təhrikedici informasiyadır. Məlumat formasında ortaya çıxan informasiyaya təsbitedici deyilir. Təhrikedici informasiya isə onu qəbul edən şəxsin yəni resipientin hərəkətlərini müxtəlif formalarda, məsələn əmretmə, qadağanetmə, məsləhətvermə və s. stimullaşdırmaq deməkdir. İnformativ funksiyanın həyata keçməsinin ən əsas göstəricisi ünsiyyət saxlayan kəslərin bir-birlərini məlumatla təmin etmələridir. Verdiyimiz və ya qəbul etdiyimiz informasiyanın bizə gərəkli olub-olmamasından asılı olmayaraq, əgər

ünsiyyət prosesi zamanı məlumatla təmin olunmuşuqsa, deməli, informativ funksiya uğurla yerinə yetirilmişdir.

Növbəti funksiya kimi **"emosional"** funksiyanı söyləmək doğru olar. Çünki ünsiyyəti yalnızca məlumat vermək və ya qəbul etmək məqsədilə deyil, həm də hər hansısa hadisə ilə bağlı hiss və emosiyalarımızı ortaya qoymaq, sevinc və ya kədərimizi bölüşmək, duyğusal olaraq yanımızda bir insanın varlığını istəmək üçün həyata keçiririk. Ünsiyyəti özümüzün və ya qarşımızdakı şəxsin emosional vəziyyətinin ən vacib təyinedicisi hesab etməliyik. İnsanlar ünsiyyət qurarkən, suallar, istəklər, əmrlər və digər vasitələrlə başqalarına bir şəkildə təsir etməyi nəzərdə tuturlar. Bu zaman ünsiyyəti başladan kəs qarşıdakı insandan nəyisə öyrənmək, ona təsir etmək, ondan kömək istəmək və ya ona köməklik etməyə çalışır, onu hər hansısa davranışdan çəkindirmək və ya davranışa yönəltmək və s. şəkilində məqsədə malik olur. Belə ki, hamıya yaxşı məlumdur ki, insanda ünsiyyət ehtiyacı çox vaxt onun emosional vəziyyətini dəyişdirmək ehtiyacı ilə əlaqədar olaraq yaranır. Məsələn, əgər kədərliyiksə, bu zaman yaxın bildiyimiz bir kəslə bizi narahat edən, kədərləndirən məsələni bölüşməklə, özümüzü yüngülləşmiş hiss edərik. Yanımızda bizi anlayan, başa düşən, heç olmasa dinləməyi bacaran bir insanın olması, mənəvi olaraq bizə müsbət təsir göstərir. Həmçinin, xoşbəxt, şad olduğumuz zamanlarda da insanlarla ünsiyyət qurmaq ehtiyacı hiss edirik. Belə ki, sevincimizi, uğurumuzu bölüşmək və başqalarının da bizim uğurumuza sevinməsi, bizi daha da pozitiv hisslərlə yükləyir. Emosional funksiyanın yerinə yetmədiyi zaman, insan özünü boşluqda hiss edir. Bu da daha sonra ünsiyyət zəifliyinə, azlığına gətirib çıxarır və insanın psixikasına da təsirsiz ötüşmür.

Zənnimizcə daha sonra **"təsdiq"** funksiyasını da qeyd etmək lazımlıdır. Biz başqa insanlarla ona görə ünsiyyət qururuq ki, özümüzü, mövcudluğumuzu, fikilərimizi təsdiq etmək ehtiyacı hiss edirik və ünsiyyət prosesində bu imkanı əldə edə bilirik. Adicə gündəlik ünsiyyət prosesində etiket normalarında təsbit edilmiş sadə hərəkətlərin köməyi ilə "bir-birimizin varlığını təsdiqləyirik": tanışlıq, salamlaşma, adımızı söyləmə, müxtəlif diqqət əlamətləri göstərmək və s. İnsanın öz varlığını təsdiq etdirməsi, onunla eyni fikir və düşüncələrdə başqa insanların da olduğunu bilməsi, şəxsdə "özgüvən" hissini artırır. Bəzi ingilis psixiatrlarının fikirincə, ünsiyyət zamanı mütəmadi olaraq təsdiq funksiyasının pozulması, yəni qeyri-təsdiqin olması bir çox ruhi xəstəliklərin, xüsusən də şizofreniyanın universal mənbəyidir.

Şəxsiyyətlərarası ünsiyyətin bir çox xüsusiyyətləri vardır. Onları aşağıdakı kimi sıralamaq olar:

- Hörmət: Digər şəxsi olduğu kimi qəbul etmək və onun həyat tərzinə, fikirlərinə saygı duymaq ünsiyyət zamanı yerinə yetirilməli ən vacib şərtlərdən biridir. Hətta ünsiyyət qurduğumuz şəxsin fikirləri ilə razılaşmasaq, onlar bizə cəfəng, qeyri-adi görünsə belə, yenə də hörməti itirməməli, danışdığımız kəs

sözünü bitirənədək gözləməli və ona "sən səhvsən", "düşüncələrin məntiqsizdir" kimi ifadələr söyləməməliyik. Əgər qarşımızdakının düşüncələrinə hörmətlə yanaşmasaq, onları hər daim təkzib etsək, bu zaman ünsiyyət prosesi pozular, yarımçıq qalmış olar.

- Empatiya: Bu zaman biz sanki dünyanı başqasının gözü ilə görür, o kəsin hisslərini, düşüncələrini və hərəkətlərini anlamağa çalışırıq. Empatiya qurmağı bacarmayan şəxs ünsiyyətdə olduğu adamı düzgün anlaya bilməz. Buna görə də empatiya olduqca mühimdir. Kimsə bizə öz problemlərindən, narahat olduğu məsələlərdən danışan zaman, özümüzü həmin şəxsin yerinə qoymağa cəhd göstərməliyik. Belə olan halda əgər biz həmin vəziyyətdə olsaydıq necə davranardıq, nə cür qərarlar qəbul edərdik kimi fikirlər beynimizə gəlməyə başlayacaq və qarşımızdakı insan bizdən məsləhət istədiyi zaman ona daha doğru yol göstərə biləcəyik. Ancaq əgər empatiya hissindən yoxsuluqsa, ünsiyyət zamanı digər şəxsin emosiyaları, hərəkətləri bizə olduqca mənasız görünəcək və biz onu tam mənası ilə qavraya bilməyəcəyik.
- Güvən: Qarşımızdakı şəxsə güvən hiss etdiyimiz və ya hiss etdirdiyimiz zaman aradakı ünsiyyət daha əsaslı olur. Çünki insanlar yalnız güvənə biləcəyi şəxslərlə yaxın ünsiyyət qururlar, onlara sirrlərini, ən gizlin duyğularını aça bilirlər. Güvən olmayan yerdə sağlam ünsiyyətdən söhbət gedə bilməz.
- Gözləntilər: Ünsiyyət söhbət edənlərin hər biri üçün eyni məqsədə və ya məqsədlərə doğru yönəlməlidir. Bəzən hətta müəyyən kəslərlə bir çox hallarda ünsiyyət qurarkən fikir ayrılıqları yaranmış olur. Söhbət eyni məqsədə xidmət etmir və ya xidmət etsə də, sonda gəlinən nəticədə anlaşmazlıq yarandığı və fikirlərin üst-üstə düşmədiyi aydın görünür. Hətta əgər fikir ayrılıqları yaranarsa belə, bir-birinin sözünü kəsmədən sonacan dinləmək və qarşıdakının fikrinin olduğu kimi qəbul edilməsi ən böyük gözləntidir.

Bir insanın şəxsiyyətlərarası münasibəti onun doğulması ilə başlayır. Məsələn, qidalanma, yuxu ehtiyacını qarşılamaq üçün anaya gərək duyan bir körpə, onunla ünsiyyət quraraq bu ehtiyacını bəlli edir. Burada şəxslərarası ünsiyyət bu ehtiyacı ödəmək üçün bir vasitə olaraq əhəmiyyətə malikdir. Bu zaman qurulan ünsiyyət sözlü ünsiyyət deyildir. Körpə aclığını və ya yuxusuzluğunu bildirmək üçün ağlayır və bununla da qarşı tərəfə mesaj ötürmüş olur. Doyduqdan və ya yuxusunu aldıqdan sonra sakitləşməsi də ana üçün və ya körpəyə qulluq edən hər hansısa bir şəxs üçün mesajdır. Bu sözsüz ünsiyyət zamanı körpənin ehtiyacları qarşılanmış olur və biz burada bir növ şəxsiyyətlərarası münasibəti görmüş oluruq. Sonrakı dövrlərdə şəxsiyyətlərarası ünsiyyətin özü zərurətə çevrilməyə və özlüyündə məna qazanmağa başlayır.

İnkişafımız boyunca ətrafımızdakı insanları daim müşahidə edirik. Necə olduqlarını, bizi necə gördüklərini və bizə necə davrandıqlarını araşdırırıq. Bu araşdırmalar zamanı şəxsiyyətlərarası qarşılıqlı əlaqənin eyni zamanda həm də şəxsiyyətlərarası bir öyrənmə olduğunun fərqinə varırıq. Yaşamaq və yaşadığı-

mız dünyaya uyğunlaşmaq üçün uyğun davranış nümunələrini öyrənməyə çalışırıq. Şəxsiyyətlərarası ünsiyyət, insanın özünü dərk etməsini, özünə dəyər verməsini, özünə hörmətini və özünə inamını ölçmək imkanı verdiyindən insanın həyatının ən vacib ehtiyaclarından biri və bəlkə də, birincisi olduğundan onun mahiyyətini düzgün qavrayıb, eləcə də onda olan xüsusiyyətlərə əməl edərək, ünsiyyət ehtiyacmızı lazımınca qarşılaya bilərik. Səmərəli ünsiyyət qurmaq üçün danışmazdan əvvəl öz fikirlərimizi aydınlaşdırmalı, ifadəli səslə və analışıqlı cümlələr quraraq danışmalı, həmsöhbətin sözünü kəsməyə yol verməməli, əgər çox vacib məsələ barədə danışacağıqsa, ünsiyyət yerinin və vaxtının düzgün seçilməsinə diqqət yetirilməli, son olaraq isə danışılan məsələ ilə bağlı tələsik nəticə çıxarmamalıyıq. Bütün deyilən və sadalananlara əməl edilsə, ünsiyyət zamanı heç bir mənfi halla qarşılaşılmaz və səmərəli, mahiyyəti aydın ünsiyyət prosesi həyata keçər.

***Ədəbiyyat***

1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, 2009, 624 s.*
2. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, 2003, 356 s.*
3. *Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı, 2007, 650 s.*
4. *Taş Y. Kişilerarası İletişim. Bilkent Universiteti. https://w3.bilkent.edu.tr/www/saglik-merkezi/psikolojik-danisma-ve-gelisim-merkezi/koruyucu-onleyici-calismalar/brosurler-yayinlar/kisilerarasi-iletisim/*
5. *Карпенко Л.А. Психология. Словарь. Москва, 1990, 494 с.*
6. *Ломов Б.Ф. Методологические и теоретические проблемы психологии. Москва, 1984, 444 с.*

# TƏHSİLİ İDARƏETMƏ MODELLƏRİ

**Ç.N.Mirzəyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*nubar2017@list.ru*

***Xülasə***

*Elmi məqalədə idarəetmə anlayışının mahiyyətinə aydınlıq gətirilmişdir. Təhsil müəssisələrinin idarəetmə modelləri açıqlanaraq onların həyata keçirilməsi istiqamətləri göstərilmişdir. Azərbaycanda, eləcə də dünya təhsil sistemində mövcud olan təhsil müəssisələrini idarəetmə modelləri araşdırılmışdır.*

*Eyni zamanda təhsil müəssisələrinin idarə olunması modelləri ilə bağlı və bu modellər əsasında dayanan ideyalara, norma və dəyərlərə aydınlıq gətirilmişdir. Təhsil müəssisələrində planlaşdırmanın tərkib hissələri ilə bağlı hədəflər müəyyən olunmuşdur. Bununla bağlı olaraq onların tətbiqinin mümkünlüyünü müəyyənləşdirmək məqsədilə müvafiq ümumiləşdirmələr aparılmışdır.*

## МОДЕЛИ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ

***Резюме***

*В научной статье разъясняется сущность концепции менеджмента. Были анонсированы модели управления образовательными учреждениями и обозначены направления их реализации. Изучены модели управления образовательными учреждениями в Азербайджане, а также в мировой системе образования.*

*В то же время были уточнены идеи, нормы и ценности, связанные с моделями управления образовательными учреждениями и основанные на этих моделях. Установлены целевые показатели по компонентам планирования в образовательных учреждениях. В связи с этим были сделаны соответствующие обобщения для определения возможности их применения.*

## EDUCATİONAL MANAGEMENT MODELS

***Summary***

*The scientific article clarifies the essence of the concept of management. Management models of educational institutions were announced and directions for their implementation were indicated. Management models of educational institutions in Azerbaijan, as well as in the world education system have been studied.*

*At the same time, the ideas, norms and values related to the management models of educational institutions and based on these models were clarified. Targets have been set for the components of planning in educational institutions. In this regard, relevant generalizations were made to determine the feasibility of their application.*

***Açar sözlər:*** *təhsil, idarəetmə, model, planlaşdırma, sistem, müəssisə, islahat*

***Ключевые слова:*** *образование, менеджмент, модель, планирование, система, предприятие, реформа.*
***Key words:*** *education, management, model, planning, system, enterprise, reform*

“İdarəetmə” anlayışı ən ümumi, ən üniversal anlayışlar sırasına daxil edilir. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, idarəetmə yalnız texniki və istehsal sahəsində deyil, həm də sosial sistemlər sahəsində də zəruridir. İdarəetmənin elmi əsasını elmi biliklər sistemi təşkil edir. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov yazır: “Ümumiyyətlə, idarəetmə dedikdə məqsədəuyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə, tənzimləməyə yönəldilmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması başa düşülür.” [5, s.8] Onda belə bir sual ortalığa çıxır: -İdarəetmə obyektləri hansılardır? Əlbəttə ki, bioloji, texniki, sosial sistemlər idarəetmə obyekti ola bilərlər. Sosial sistemlərin növlərindən biri ölkə, şəhər, rayon və s. miqyasında fəaliyyət göstərən təhsil sistemidir.

Ümumiyyətlə, müəssisədə idarəetmə aşağıda göstərilənlər əsasında qurulduqda həyata keçirilən proses öz effektiv nəticələrini verir:

1. məqsəd və vəzifələrin müəyyən edilməsi;
2. məqsədə uyğun nailiyyət üsullarının təyin edilməsi;
1. kadrların təlimi və hazırlanması;
2. işin yerinə yetirilməsi;
3. yerinə yetirilmiş işin nəticələrinin yoxlanması;
4. uyğun idarəetmə təsirlərinin həyata keçirilməsi.

Təhsil müəssisələrində planlaşdırmanın tərkib hissələrinə aid hədəflər əsasən aşağıda verilənlərdən ibarətdir:

1. təhsil prosesinin təşkili;
2. fənn üzrə təhsil proqramlarının yerinə yetirilməsi;
3. pedaqoji kadrların peşə səriştəliliyi və təhsilin gözlənilən nəticələrinin əldə olunmasında onların fəaliyyətinin təmin edilməsi;
4. təhsilalanların fənlər üzrə fərdi təhsil nailiyyətləri, inkişaf dinamikası və yekun attestasiyasının nəticələri;
5. təhsilverənlərin yeni təhsil texnologiyalarına yiyələnmə və ondan istifadəetmə vəziyyəti;
6. təhsil müəssisəsinin maddi-texniki bazası;
7. tədris prosesinin zəruri maddi-texniki resurslarla təmin edilməsi;
8. təhsil müəssisələrində tərbiyə işinin təşkili;
9. əlavə təhsil xidmətlərinin vəziyyəti;
10. təhsilalanların və təhsilverənlərin qida məhsulları ilə təminatı və sağlamlıq vəziyyəti;
11. təhsil müəssisəsinin maliyyə təminatı.

A.O.Mehrabov yazır: "Son illərdə məktəblərin inkişaf etdirilməsinə aid tədqiqatçı pedaqoqlar tərəfindən yeni modellər işlənilmişdir. Bu modellərdə müxtəlif konseptual ideyaların reallaşdırılması nəzərdə tutulur. İnkişaf etmiş ölkələrdə ümumtəhsil məktəblərinin idarə olunmasının və təhsilvermə prosesinin müxtəlif inkişaf modellərindən istifadə olunur". [4, s.158] İdarəetmənin Deminq Şukart modelində bu konsepsiya PDCA (planlaşdırma, Do-realizasiya, Chek-yoxlama, Action-fəaliyyət) adlandırıldı. X.Hüseynova yazır:" Planlaşdırma bütün şərtlər nəzərə alınmaqla həyata keçirildikdə nəticənin alınması artıq "görünür". "[1, s.248] Bu görüntünün reallaşdırılması üçün işçi qruplarının bacarıq səviyyəsinə uyğun tapşırıqları müəyyən olunur: haradan başlayıb hara gedəcəkləri və necə gedəcəkləri addım-addım verilir. İşçi qruplarının fəaliyyəti-iş prosesi daim nəzarətdə saxlanılır və yeri gəldikcə (vəziyyət öyrənilərək) işin yaxşılaşdırılması üçün müəyyən təkliflər verilir. Yuxarıda göstərilənləri nəzərə alaraq, bu metodun-tsiklin təhsil sahəsinə tətbiqini vacib hesab edirik və onun təhsilin keyfiyyətinin yüksəldilməsində böyük səmərə əldə olunmasına imkan verəcəyini qətiyyətlə təqdir edirik. Deminq-Şukart modelinə uyğun olaraq ilk iş təhsillə bağlı həyata keçirilməsi nəzərdə tutulan işlərin yerinə yetirilmə ardıcıllığının müəyyən olunması-işin planlaşdırılması lazım gəlir.

Respublikamızda təhsil sahəsində aparılan islahatın tələbləri baxımından müxtəlif modellər araşdırılmış və gələcəkdə onların tətbiqinin mümkünlüyünü müəyyənləşdirmək məqsədilə aşağıdakı müvafiq ümumiləşdirmələr aparılmışdır:

1. Ümumtəhsil məktəblərində idarəetmənin seqment tipli təşkili modeli. Məktəbdə təhsilin idarə olunmasının seqment tipli təşkili fənn müəllimlərinin müstəqilliyinə geniş yer verməyi nəzərdə tutur. Bu halda hər bir müəllimə fənnin tədrisində öz stili ilə işləməyə üstünlük verilir. O, tədris prosesinin tələblərinə müvafiq olaraq təlim-tərbiyə prosesinin təşkili formasını, dərs materiallarının planlaşdırılmasını özü seçir, şagirdlərlə necə işləməyi, onların fəaliyyətini hansı üsullarla qiymətləndirməyi müəyyənləşdirir. Tədrislə bağlı olmayan digər vəzifələri yerinə yetirməmək ixtiyarına malik olur.

İdarəetmənin seqment modeli əsasən qapalı xarakterlidir. Belə ki, burada valideynlərlə əlaqələr yalnız şagirdlər vasitəsilə yaradılır.Valideynlər məktəbin inkişaf strategiyasına müdaxilə etmirlər. Direktor təhsilə rəhbərlik edir, onun müavinləri isə koordinator funksiyalarını yerinə yetirirlər.

2. İdarəetmənin üfüqi məsləhətvermə strukturlu xətti təşkili modeli. Bu idarəetmə modelində təhsil üzrə şaquli məsləhətvermə bölmələri ilə yanaşı, üfüqi məsləhətvermə bölmələri də fəaliyyət göstərir. Bu bölmələr formalaşdırıldıqdan sonra pedaqoji fəaliyyətin bütün sahələrində, təlim-tərbiyə prosesinin cari və ümumi işləri, onun təhlili və gələcək işlərin planlaşdırılması aparılır. Bu tipli modeldə təhsilvermə ilə məşğul olan qurumlar həm də idarəetmə funksiyasını yerinə yetirirlər.

Təhsili idarəetmənin xətti təşkili modeli seqmentativ təşkil modelindən, əsasən, koordinasiya mexanizmi ilə fərqlənir və bu halda menecment və iyerarxiya əlaqələrinə xüsusi diqqət verilir.

İdarəetmənin kollegial təşkili modelində isə təlim-tərbiyə ilə məşğul olan bütün bölmələr üfüqi olaraq idarə edilir. Fənn metodbirləşmələri fənlərin tədrisi ilə bağlı bütün məsələlər üzrə strategiyanı hazırlayır. Tədris proqramlarının müxtəlif sinif və qrupların bilik səviyyəsinə uyğunlaşdırılması məsələsi ilə məşğul olur.

3. İdarəetmənin matris tipli təşkili modeli o biri modellərdən fərqli olaraq iki əsas üzərində qurulur. Burada xüsusi təşkil olunmuş yarımbölmələrdə şagirdlərin təlim-tərbiyə işinin idarə edilməsi daha da təkmilləşdirilir. Yaradılmış xüsusi bölmələr (ümumi işlər, peşəyönümü üzrə məsləhətçilər, koordinator müəllimlər, maliyyəçilər, katiblik və s.) idarəetməyə aid bütün işləri icra edirlər. Onlar gördükləri işləri əlaqəli, sistemli, inteqrativ formada yerinə yetirirlər.

İdarəetmənin matris tipli təşkili modelində bölmələrə direktor və onun müavinlərindən ibarət olan menecer komandası, rəhbər idarəetmə orqanın və məktəbin aparıcı bölməsinin nümayəndələri rəhbərlik edir. Əlbəttə, menecer komandasına direktor başçılıq edir. Direktor iki əsas vəzifəni icra edir: məktəbi informasiyalarla təmin etmək və məktəbin inkişaf strategiyasını reallaşdırmaq, müavinlər isə strategiyanın düzgün həyata keçirilməsinə, meydana çıxan diskusiyaların və inkişafın stimullaşdırılmasına məsuldurlar.

4.İdarəetmənin modul tipli təşkili modelində tədris və idarəetmə işləri inteqrasiya olunur. İdarəetmənin matris tipli təşkilindəki ikili xarakter burada kiçik komandaların (6-10 nəfərdən ibarət) yaradılması ilə aradan qaldırılır. Komandalar öz işində xeyli dərəcədə müstəqil olurlar. Bu komandaların üzvləri təhsil, tədris və idarəetmə məsələlərində bir-birinin fikirləri ilə əsasən razılaşırlar. Hər bir komanda öz tərkibini dəyişmədən bir neçə il işləyir. Komandanın tərkibinə ayrı-ayrı fənlərin tədrisi ilə məşğul olan müəllimlər də işləyir. Müəllimlər həm tədrisetmə, həm də şagirdlərin idarəedilməsi vəzifələrini yerinə yetirirlər. [4,s.361]

Tədqiqatçı pedaqoqlar həmin təhsilvermə modellərini idarəetmənin təşkili modelləri ilə aşağıdakı kimi birləşdirməyi məqsədəuyğun hesab edirlər.

-seçmə qruplar-seqment tipli idarəetmə modeli;

- birləşmə qruplar-üfüqi məsləhətvermə strukturu xətti idarəetmə modeli;

-«qarışıq qabiliyyətlilər» qrupu-kollegial idarəetmə modeli;

- inteqrativ təlim-matris tipli idarəetmə modeli;

-innovasiyon təlim-modul tipli idarəetmə modeli.

Təhlil olunan bu kompleks modellər tipik situasiyalı şəraiti olan məktəblər üçün qəbul edilə bilər. Əslində isə göstərilən modelin reallaşdırıldığı məktəblər təsvir olunan ideal situasiyalara az və ya çox dərəcədə yaxın vəziyyətdə

olan iki, üç və ya daha çox model sintezindən, birgə işlənilməsindən alınan nəticə hesab olunur.

Təhsil müəssisələrinin idarə olunmasının digər modellərinə isə aşağıdakılar aiddir:

1. Formal model. Struktur, sistemlər, bürokratiya, rasional və ierarxik modellər təhsil idarəetməsinin formal modellərini təşkil edir. Bu modelə əsasən təşkilatların strukturu ierarxik və əvvəlcədən müəyyən edilmiş məqsədlər əsasında formalaşır. Rəhbərlərin səlahiyyətləri onların rəsmi mövqelərinin məhsuludur. Bu rəhbərlər öz təşkilatlarında razılaşdırılmış siyasətlərin icrasına cavabdehdirlər. Formal model rəhbərliklə bağlıdır. Təşkilatın bu tərzi vəzfələrin yerinə yetirilməsinə, həmçinin digər təşkilati üzvlərin fəaliyyətinin asanlaşdırılmasına yönəlmiş konsepsiyaya malikdir. Eyni zamanda rəhbərlik rəhbərlik üslublarının əksəriyyətindən fərqli olaraq vizionu əsas olaraq nəzərdə tutmur. Çünki burada daha yaxşı gələcək arzusunda olmaq deyil, mövcud fəaliyyətləri müvəffəqiyyətlə idarə etmək önəmlidir.

2. Kollektiv model. Burada təşkilati məqsədlərin seçilməsi, qərarların qəbulu, siyasətin müəyyənləşdirilməsi və formalaşdırılması müəyyən üzvlər arasında müzakirələr vasitəsilə müəyyən olunur. Kollektiv model 3 liderlik üslubu ilə əlaqələndirilir: dəyişim liderliyi, iştirakçı liderlik, paylaşılan liderlik. Dəyişim liderliyi liderin məqsədlərinin üzvlərin məqsəd və səlahiyyətlərinə çevrilməsidir. Buna əsasən şəxsi öhdəliklərin və məqsədlərin əldə edilməsi üçün daha böyük imkanların olması təşkilatın məhsuldarlığını artıracaqdır. İştirakçı liderlik daha çox demokratik üsullara əsaslanır. Hər bir üzvün qərar vermə prosesində iştirak etməsi onu ayıran əsas ünsürdür. Paylaşılan liderlik isə son illərdə təhsilin idarə olunmasında xüsusilə istifadə olunur. Burada müxtəlif sahələrdə peşəkarlaşmış şəxslər bir-birindən asılı olmadan, eyni zamanda əməkdaşlıq edərək qərarların qəbulu prosesində iştirak edirlər.

3. Siyasi model. Təhsil siyasəti və qərarlarında ittifaqların yaranması yolu ilə həyata keçir. Bu modeldə münaqişə təbii bir fenomendir. Eyni zamanda hakimiyyət formal lider yerinə daha yüksək səviyyədə hakimiyyətə malik olan koalisiyalara aiddir. Bu model təhsil sferasında XX əsrin sonlarında tətbiq olunmağa başlandı. Model siyasi prosesdə beş mərhələdən ibarətdir: sosial struktur, maraqların ifadə edilməsi, qanunvericiliyin dəyişdirilməsi, siyasətin formalaşdırılması və siyasətin icrası. Təhsil qrupları içərisində hər hansı bir münaqişədə digər alt qruplar üzərində qələbə qazanacaq amillərə isə mövqe gücü, fərdi güc, təcrübənin nüfuzu, mükafatların və resursların idarə olunması aiddir.

4. Subyektiv model. Bu model əsasən bütün təşkilatdan çox təşkilatın fərdi üzvlərinin məqsədlərini vurğulayır. Təşkilatın məqsədləri konsepsiyası bu perspektivə əsasən rədd edilir. Təşkilatın üzvləri mənşəyindən, inancından, dəyərindən və təcrübəsindən əldə edilmiş anlayışları əks etdirən mürəkkəb

qurumlar kimi təsvir olunur. Subyektiv model əsasında xarici mühitlə əlaqələr həssas sayılır.

5. Qeyri-müəyyənlik modeli. Təşkilati həyatın qarışıqlığı, qeyri-sabitlik, qeyri-müəyyənlik və gözlənilməzlik, məqsədlərin aydın olmaması və problemli texnologiyanın olması bu modelin əsas ünsürləridir. Modelə əsasən bu ünsürlər üzvlərin qərar qəbuletmə prosesində sıx iştirakına gətirib çıxarır.

6. Mədəni model. Bu model əsasında ideyalar, inanclar, normalar, dəyərlər və ənənələr kimi bəzi konsepsiyalar təşkilatın mərkəzi hesab olunur. Üzvlər digər üzvlərin davranışlarına uyğun davranır. Hər bir təhsil müəssisəsi yeniləşmə prosesində 3 mərhələdən keçir:

-təşəkkül (yeni təhsil müəssisəsinin, yeni kollektivin yaranması və ya kollektivin böyük hissəsinin təzələnməsi mərhələsi);

- fəaliyyət (təlim-tərbiyə prosesinin ənənəvi, stabil proqram və pedaqoji texnologiyalar əsasında işinin təşkili mərhələsi);

-inkişaf (təlim-tərbiyənin köhnə məzmunu və mövcud pedaqoji texnologiyalar yeni sosial-iqtisadi tələblərə cavab vermədiyindən yeni məzmun, forma və texnologiyaların yaradılması və tətbiqi mərhələsi).

***Ədəbiyyat***

*1. Hüseynova X.S. İdarəetmənin həyata keçirilmə mərhələləri və təhsilin idarə olunmasında Deminq-Şukart modelindən istifadə. //Elmi əsərlər, Azərbaycan Respublikasının Təhsil İnstitutu, cild 85, №5, 2018, s.246-250.*

*2. Mahmudov M. Dünyada təhsil sistemləri. Bakı:Mütərcim, 2014, 480 səh.*

*3. Mehrabov A.O Azərbaycan təhsilinin konseptual problemləri. Bakı, 2010, 443 səh.*

*4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 456 səh.*

*5. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunması. Bakı: Mütərcim, 2010, 476 səh.*

*6. Şahbazov K., Məmmədov M.,Həsənov H. Menecment. Bakı, 2007,1032 səh.*

# TƏDRİS PROSESİNDƏ MOTİVASİYANİN ƏHƏMİYYƏTİ VƏ TƏDRİS PROSESİNDƏ MÜƏLLİMİN, ŞAGİRDLƏRİN, MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ROLU

**Z.M.Umudova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
zina.umudova@gmail.com

***Xülasə***

*Motivasiyanın hər zaman insan həyatında rolu böyük olmuşdur. Motivasiya bir uğurunəldə olunması və hətta insan həyatını yönləndirən ən vacib iki açardan biridir. Digər vacib açar isə məqsədin, yəni hədəfin təyin olunmasıdır. Motivasiya mövzusu həyatımızın hər sahəsini əhatə etdiyi kimi təhsil sistemində də bu mövzuya geniş yer verilir. Şagird və ya tələbənin, müəllimin, təhsil ocaqlarının nailiyyət qazanmasında motivasiyanın önəmli yeri vardır. Bu mövzu haqqında çoxlu sayda tədqiqatlar aparılsa da bu mövzunun daha dərindən öyrənilməsi, tədqiq edilməsi zəruridir. Bu məqalədə tədris prosesində motivasiyanın əhəmiyyətindən və tədris prosesində müəllimin və müəllim-şagird münasibətlərinin rolundan bəhs olunur.*

## ВАЖНОСТЬ МОТИВАЦИИ В УЧЕБНОМ ПРОЦЕССЕ И РОЛЬ УЧИТЕЛЯ, УЧЕНИКА, ОТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧЕНИК В УЧЕБНОМ ПРОЦЕССЕ

***Резюме***

*Роль мотивации в жизни человека всегда была велика. Мотивация - один из двух важнейших ключей к успеху и даже к руководству человеческой жизнью. Еще один важный ключ – поставить цель. Мотивация охватывает все аспекты нашей жизни, а также систему образования. Мотивация играет важную роль в успехе ученика, преподавателя, учебного заведения. Хотя по этой теме было проведено много исследований, необходимо изучить эту тему более глубоко. В данной статье обсуждается важность мотивации в учебном процессе и роль отношений между учителем и учеником в учебном процессе.*

## THE İMPORTANCE OF MOTİVATİON İN THE TEACHİNG PROCESS AND THE ROLE OF TEACHER, STUDENTS, TEACHER-STUDENT RELATİONS İN THE TEACHİNG PROCESS

***Summary***

*The role of motivation in human life has always been great. Motivation is one of the two most important keys to success and even guiding human life. The other important key is to set a goal. Motivation covers the educational system, as well as every aspect of our life and plays an important role in the success of a student, teacher, and educational institution. Although a lot of research has been done on this topic, it is necessary to study this problem more deeply and thoroughly. This article*

*discusses the importance of motivation in the teaching process and the role of teacher, students, and teacher-student relations in the teaching process.*

***Açar sözlər**: motivasiya, müəllim, şagird, müəllim-şagird münasibətləri, inam, sevgi*

***Ключевые слова:** мотивация, учитель, ученик, отношения учитель-ученик, доверие, любовь*

***Key words:** motivation, teacher, student, teacher-student relations in teaching process, faith, love*

Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli amillərdən biridir və müəyyən fəaliyyətə başlamaq və həmin fəaliyyəti davam etdirmək üçün vasitədir. "Motivasiya" latın sözü olub "sövqetmə", "oyatmaq" mənası verir.Motivasiyanın mənbələrə görə iki növü olduğu qeyd edilir: daxili (təbii) motivasiya və xarici motivasiya.

Daxili motivasiya insanı xoşbəxt edən və sevdiyi şeylərlə məşğul olduğu zaman hiss etdiyi qüvvədir. Psixoloji və pedoqoji təlimlər zamanı etdiyim müşahidələrə görə daxili motivasiyası güclü olan bir insanın xarici motivatorlara çox da ehtiyacı olmur. Yəni rəsm çəkməyi çox sevən bir insan bu işi xoşbəxt olduğu üçün edir. Əslində rəsm çəkmək onu xoşbəxt etdiyi üçün bunu sevir və buna can atır. Qısası, o, xoşbəxt olmağı sevdiyi və xoşbəxtliyi ona rəsm çəkmək bəxş etdiyi üçün bu işlə məşğul olur. Eyni zamanda rəsm çəkməklə daxili hüzur, rahatlıq, xoşbəxtlik tapır. Bu insan daim uğurlu ola bilməz, amma etdiyi səhvlər onun motivasiyasını zəiflətmir, əksinə, onu daha da motivə edir. Daxili motivasiyası güclü olan insanlar üçün nəticədən çox, rəsm çəkdikləri zaman hiss etdikləri həzz daha vacibdir. Bu cür insanlara idrak motivatorları da deyilir, yəni onlar özlərinə hədəf seçir, nəticələrini qiymətləndirir, qabiliyyətlərini artırmağa cəhd edirlər.

Xarici motivasiyaya isə müəllim, motivator, ailə, dost və s. ilə yanaşı mükafatlar və ya cəza aid edilə bilər. Xarici motivatorların insan təkamülündə, uğur qazanmasında əhəmiyyətli yeri olsa da, daxili motivasiya insan üçün daha çox önəm kəsb edir və davamlıdır.

Motivasiya təlim prosesinə və şagirdlərin idrak fəallığına təkan verən, fərdin idrak proseslərinə təsir edən, eyni zamanda məktəbdəki şagirdlərin fəaliyyətini müəyyənləşdirən və buna uyğun qərar qəbul etməyi təmin edən qüvvədir. Bu zaman müəllimin fəaliyyətinə daha çox ehtiyac duyulur.

Motivator kimi müəllimin rolu daha təsirli və vacibdir. Məktəb zamanından öyrədildiyi kimi məktəb ikinci evimiz, müəllimə isə ikinci anamızdır. Müəllimlər şagirdləri doğru motivə etməkdə, onları həvəsləndirməkdə və şagirdlərin şəxsiyyət kimi formalaşmasında önəmli rol oynayırlar.

**"Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq".** Ümummilli lider Heydər Əliyev müəllim haqqında bildirmişdir.

Müəllim həm motivator, həm doğru yol göstərən varlıqdır.

"Yaxşı müəllim nə deməkdir?" sualına V.A.Suxomlinski belə cavab verirdi: "O, ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər, uşaqlarla dostluq etməyi bacarır, uşaqların sevincini və kədərini ürəyinə sala bilir, uşağın qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtilə uşaq olub. İkincisi, yaxşı müəllim tədris etdiyi fənnin elmini yaxşı bilir, ona vurğunluqla onun inkişaf üfüqlərini – yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyir, o elmin problemlərindən də xəbərdardır. Yaxşı müəllim orta məktəbin tədris proqramında nəzərdə tutulanlardan daha çox bilir.

Dərin bilik, geniş dünyagörüş, şagirdlər qarşısında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini aça bilmək üçün vacibdir. Şagirdlər müəllimin simasında ağıllı, bilikli, düşüncəli, sənətinə vurğun bir insan görməlidirlər... Üçüncüsü, yaxşı müəllim psixologiya və pedaqogika elmlərini bilən, tərbiyə haqqında elmləri bilmədən uşaqlarla işləməyin mümkünsüzlüyünü hiss və dərk edən insan olmalıdır. Dördüncüsü, yaxşı müəllim öz peşəsinin ustası olmalıdır".

Bəli, məhz yaxşı müəllim və müəllim adını zirvələrə daşıyan pedaqoqlardan bəhs edirik. Bu barədə Ü.Hacıbəyov belə yazırdı:

"Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Uşaq dəxi qabili - tərbiyə bir şey olduğuna görə, onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar. Bu ağır sənətə qədəm qoyan müəllim əfəndi bunların hamısını əvvəlcə mülahizəyə almalıdır. Müəllimliyi özü üçün Sibir əzabı bilən müəllim, yaxşıdır özünü bu sənətdən kənar etməklə, zəhmətdən və cavabdehlikdən qurtarsın, qəlbində tərbiyə və təlimə bir şövq və həvəs yoxsa, heç bu işə girməsin və bu sənəti əhl adamlara tərk ilə özünə başqa bir kəşhi - ruzi vasitəsi axtarsın".

Hər bir müəllim tədris etdiyi fənnlə yanaşı, həm uşaq psixologiyasını həm də pedaqoqikanı yaxşı bilməlidir. Müəllim hər bir şagirdə qayğı göstərməli, fərdi yanaşmalı, və onun daxilindəki şəxsiyyəti dərk etməlidir.

Yalnız əmək sevən, tərbiyyənin gücünə inanan, hər bir uşağın şəxsiyyətini və ruhunu oxuya bilən, şagirdin daxilindəki "mən"i görə bilən şəxs həqiqi müəllim ola bilər. Yəni müəllim şagirdə sadəcə tədris etdiyi fənnin sirlərini deyil, eyni zamanda ona humanistliyidə öyrətməlidir. Müəllim öz tədris etdiyi fənni mükəmməl bilsə də, şagirdlərinə fərdi yanaşa bilmir, və uşağın bilik-

bacarıqlarını diqqətə almadan davranarsa, onlar arasında səmimi münasibət qurula bilməz, hətta şagirddə müəllimə qarşı inam azalar. Çünki hər bir uşaq psixologiyası fərdi yanaşma, diqqət və qayğı tələb edir. Uğuru artırmaq üçün müəllimlər şagirddə özünə inam duyğusunu formalaşdırmalı, şagirdin maraqları nöqteyi-nəzərindən çıxış etməli, öyrənməni şagird üçün mənalı və dəyərli etməli, hər kəsin özünə uyğun hədəflər seçməsinə yardım etməli, sinifdə öyrənmək üçün zövqverici bir mühit hazırlamalı, gərəkli anlarda həvəsləndirici çalışmalar təşkil etməli, şagirdin özünə olan hörmətini, güvənini və qürur hissini gücləndirməlidir. Şagird və müəllim münasibəti maraq, diqqət və inam üzərində qurulmalıdır. Yalnız bu zaman həqiqi ünsiyyət yaranacaq, şagird öz me-ntorunu eşidəcək və onun istəklərini yerinə yetirə biləcək. İnam, sevgi və qarşılıqlı hörmət üzərinə qurulan bütün münasibətlər kimi, müəllim-şagird münasibətləri də zəfərlə nəticələnir.

Müəllim həqiqətən də gələcəyimizi yetişdirən, təyin edən varlıqdır. Yuxarıda da qeyd etdiyimiz kimi müəllim eyni zamanda ən güclü motivatordur. Bəzi müəllimlər nəticəyə daha çox önəm verirlər. Amma tədris prosesində uğur qazanmaq üçün nəticə deyil, proses daha vacibdir. Məhz prosesə üstünlük verən müəllim və şagird hər zaman daha məhsuldar olur. “Qəhrəman olmağımız üçün zəfər qazanmalıyıq!” düşüncəsi zəmanəmizdə geniş yayılmış, insan zehnini yoran, hətta böyük uğursuzluğa səbəb olan düşüncə qəlibidir. Çünki qələbənin olduğu yerdə məğlubiyyət də vardır və bu məğlubiyyətlər insanmotivasiyasını tamamilə zəiflədən ünsürə çevrilə bilər. Şagird istədiyi nəticəni ala bilmədikdə təşvişə düşmüş olur. Bu təşviş zamanla onun cəmiyyətdə adaptasiya olmasına, normal fəaliyyət göstərməsinə mane olur, bacarıqlarını aşkar edə bilmə imkanlarını azaldır. Səlahəddin Əyyubinin “biz zəfərdən deyil, səfərdən cavabdehik” cümləsi bu problemə dərs vermiş olur.

Dərslərin standart və darıxdırıcı olması gözlənilən effekti verməyə bilər. Buna görə də auditoriyanı daim dinamik vəziyyətdə saxlamağa ehtiyac duyulur. Yəni dərsləri müxtəlif şəraitdə keçmək, metodların tez-tez dəyişimi, yeniliklərdən istifadə etməktələbələrin dərsləri böyük maraqla qarşılamasına səbəb olur. Müəllim şagirdin motivasiyasını artırmaq üçün müxtəlif metodlardan istifadə edə bilər. Məs.:

**1.** Materiallardan istifadə - yəni rəsm, parça, kart, oyuncaq və s.-dən istifadə edərək keçirilən dərsin izahı. Bu zaman istifadə olunan material təbii ki, yaş qrupundan asılı olaraq dəyişir.

**2.** Düşünməni, təhlil etməni təbliğ etmək üçün sual verməyə həvəsləndirmək. Məs.: şagird sual verir və bu sualı vermək üçün təhlil etmə bacarığını inkişaf etdirir, eyni zamanda bu sual ətrafında düşünür. Hər hansı bir cavabı olduqda bu, onun özünə inamını formalaşdırır, motivasiyasını daha da artırır.

**3.** Yaş qrupundan asılı olaraq metodu doğru seçmək. Məs.: 3-6 yaş arası uşaqlara hərf və ya rəqəm tədris olunmalıdır. Rəqəmlər hekayələrlə tədris

edildiyi zaman daha yaddaqalan olur və ən əsası bunları dərs zamanı sıxılmadan diqqətlə dinləyir. Bu hekayələr dostluğu, birliyi aşıladığı üçün müəllim eyni zamanda həm rəqəmləri tədris etmiş, həm də əxlaqi keyfiyyətləri aşılamış olur. Və yaxud universitet tələbələri üçün debat metodu hər zaman daha maraqlı və yaddaqalan olur. Məs.: hər hansı bir mövzu qoyulur. **"Death penalty-ölüm cəzası"**

Tələbələr qruplara bölünür. Ölüm cəzası ilə razılaşanlar və razılaşmayanlar. Hər bir tələbənin öz arqumenti və bunu təsdiq edəcək mülahizəsi olmalıdır. Dərs zamanı növbə ilə ölüm cəzasına hə deyənlər və yox deyənlər müxtəlif mülahizələri müzakirə edirlər. Bu zaman tədris olunan yeni sözlər daha yadda qalan olur, yeni sözlər öyrənilir və yenə də əxlaqi keyfiyyətlər, nəyin doğru, nəyin yanlış olduğu tələbələrə aşılanır.

Hər hansı bir hekayənin, romanın müzakirəsi zamanı da bu metoddan istifadə etmək uğurlu nəticə əldə etməyə şans verir. Hekayədə personajların psixoloji, əxlaqi keyfiyyətləri müzakirə edilərək həm dərs tədris olunur, həm də şagirdləri düşünməyə yönləndirir.

Hər şagirdin yeni dərslərə, metodlara raksiyası eyni olmur. Kimisi aktiv, kimisi sakit mühitdə kitab oxumağı, kimisi də qrupla çalışmağı daha çox sevir. Müsbət rəqabətdən istifadə edilməsi həvəsləndirici rol oynayır. Şagirdləri biliklərinə görə mükafatlandırmaq isə motivasiyalarının yüksəlməsinə səbəb ola bilər. Eyni zamanda onlara verilən tapşırıqları yerinə yetirməklə özlərini sübut etməyə çalışırlar və özlərini dəyərli və önəmli hiss edirlər. Müəllim öyrətmək üçün nə qədər can atarsa, şagirdlər bunu hiss edər və öyrənmək üçün o qədər həyəcanlı olarlar.

Bu gün müəllimvə pedoqoqlar fəal təlimin hər hansı mərhələsini, o cümlədən motivasiya mərhələsini reallaşdırarkən müxtəlif problem və çətinliklərlə qarşılaşır. Bəzən motivasiya ya məqsədəuyğun olmur, yaxud o dərəcədə çətin olur ki, şagird təfəkkürünü tədqiqata sövq etmək əvəzinə, blokadaya salmış olur. Təbii ki, bu problemlər, çətinliklər öz üzərində işləyən, inkişaf etməyə çalışan və peşəsini sevən müəllimlər sayəsində zamanla həllini tapacaqdır.

***Ədəbiyyat***

*1.В.А.Сухомлинский. Сердце отдаю детям, Киев. Рад, школа, (1972)*
*2.В.А.Сухомлинский. Избранные педагогические сочинения, 43, (3-cü cild, Moskva 1980)*
*3.Этика взаимоотношений в педагогическом коллективе, (Радяньска школа. — 1977, № 11)*
*4.Ü.Hacıbəyov. Seçilmiş əsərləri, 128-129, (Bakı – 1985)*
*5.R.Abdullaoğlu. Qorxular, 18-22, (Bakı-2020)*
*6.Müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində (21.09.2018)*
*7. https://muallim.edu.az/news.php?id=2307 (last visited 14.11.2021)*

*8.Pedaqogikada yaş dövrləri və onların pedoqoji-psixoloji xüsusiyyətləri (01.11.2017)*
*9.https://genderi.org/pedaqogikada-yas-dovrleri-ve-onlarin-pedaqoji-psixoloji-xususi.html (last visited 14.11.2021)*
*10. Сухомлинский Василий Александрович — народный педагог (25.02.2015)*
*11. https://pedsovet.su/publ/188-1-0-5589 (last visited 14.11.2021)*
*12. Azərbaycan müəllimi (09.11.2012)*
*13. http://www.anl.az/down/meqale/az_muellimi/2012/noyabr/276983.htm (last visited 14.11.2021)*

# "STEM" DƏRSLƏRİNDƏ HAZIRLANAN LAYİHƏLƏRİN ŞAGİRDLƏRİN FORMALAŞDIRILMASINDA ƏHƏMİYYƏTİ

**L.V.Quliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*leyla.guliefa98@gmail.com*

***Xülasə***

*Ölkəmizdə müasir təhsilin tələblərinə cavab verən təhsil müəssisələrində, xüsusilə də ümumtəhsil məktəblərində şagirdlərin müstəqil işinin təşkili zəruri bir məsələdir. Təhsilalanların müstəqil iş sahəsində aldıqları biliklər onların məntiqi təfəkkürlərini, elmi potensiallarını, obyektiv və düzgün nəticə çıxarmaq qabiliyyətlərini formalaşdırır. Bu işdə ən effektiv fənn hal-hazırda yeni tədris olunan STEM (STEAM) dərsləridir. Dərsdə şagirdlər müəyyən problemlər qarşısında layihələr hazırlayaraq təqdim edir, öz bilik və bacarıqlarını praktikyönümlü dərslə inkişaf etdirərək ən optimal nəticəni əldə edirlər. Beləliklə, təhsilin keyfiyyətinin yüksəlməsi prosesi daha da sürətlənir.*

## ЗНАЧЕНИЕ ПРОЕКТОВ, РАЗРАБОТАННЫХ НА STEM-КЛАССАХ, В ФОРМИРОВАНИИ СТУДЕНТОВ

***Резюме***

*Необходимо организовать самостоятельную работу учащихся в учебных заведениях, отвечающих требованиям современного образования в нашей стране, особенно в общеобразовательных школах. Знания, полученные студентами в области самостоятельной работы, формируют их логическое мышление, научный потенциал, способность делать объективные и правильные выводы. Самым эффективным предметом в этом исследовании в настоящее время являются классы STEM. На занятиях студенты готовят и представляют проекты перед лицом конкретной проблемы, достигают наиболее оптимальных результатов, активно развивая свои знания и навыки на практических занятиях. Таким образом, ускоряется процесс повышения качества образования.*

## THE IMPORTANCE OF PROJECTS DEVELOPED IN STEM CLASSES IN THE FORMATION OF STUDENTS

***Summary***

*It is necessary to organize the independent work of students in educational institutions that meet the requirements of modern education in our country, especially in secondary school. The kowledge acquired by students in the field of dependent work shapes their logical thinking, scientific potential the ability to draw objective and correct conclusions. The most effective subject in this study in the newly taught STEM classes. In the lesson, students prepare and present projects in the face of a certain problem, actively develop their knowledge and skills in a practical lesson and achieve*

*the optimal result. Thus, the process of improving the quality of education is accelerated.*

***Açar sözlər:*** *STEM, layihə, dərs, bilik və bacarıq, inteqrasiya, inkişaf.*
***Ключевые слова:*** *STEM, проект, урок, знания и навыки, интеграция, развитие.*
***Key words:*** *STEM, project, lesson, knowledge and skills, integration, development.*

Müasir dövrdə cəmiyyətin həyatında baş verən dəyişikliklər ölkəmizdə məqsədyönlü islahatların baş verməsinə gətirib çıxardı. Bu islahatlar, şübhəsiz ki, təhsildən yan ötüşmədi. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq edilmişdir. Təhsil islahatının başlıca istiqamətlərindən biri müasir tələblərə cavab verən istedadlı uşaqlar üçün təhsil müəssisələrinin yaradılmasıdır. Müasir məktəbin əsas məqsədi, şagirdlərin peşə, sosial və ailə həyatında ehtiyac duyacaqları müəyyən bilik, bacarıq və vərdişləri əldə etmələrini təmin etməkdir.

İslahat proqramına əsasən, təhsil işçilərinin qarşısına bir sıra məsələlər qoyulmuşdur. Onlar hərtərəfli biliyə malik, mütərəqqi dünyagörüşünə sahib, öz ənənələrinə, dilinə, Vətəninə və millətinə bağlı, yüksək əxlaqi keyfiyyətləri özündə cəmləşdirən, məntiqi düşüncəli, sərbəst və səlis bir nitqlə öz fikrini və iradlarını deyə bilən bir şəxsiyyət yetişdirməlidirlər. çünki hər bir xaqın yüksəlişindəki ən böyük göstərici onun təhsil səviyyəsindən çox asılıdır. Belə ki, ümumtəhsil məktəbləri təkcə şagirdləri elm ilə silahlandırmamalıdır. Onları gələcəyə hazırlamaq üçün mütləq ki, prosedural biliklərin verilməsi vacibdir.

XVIII əsr rus xalqının ən görkəmli maarifpərvərləri içərisində M.V.Lomonosov təlimdə əyaniliyə yüksək qiymət vermiş və öz təcrübələrində bundan geniş istifadə etmişdir. "XVIII-XIX əsrdə rus pedaqoji fikrinin inkişafında əhəmiyyətli rola malik N.İ.Novikov əqli təhsildə, biliklərə yiyələnmə prosesində xarici hiss üzvlərinin inkişafına üstünlük vermişdir." [6, s.18] Müəllimlərin tədris prosesində uğursuzluqlarının çoxu şagirdlərin hisslərini və duyğularını unutmasından qaynaqlanır. Deməli, aparılan araşdırmalara görə məlum olmuşdur ki, bir insan oxuduqlarının yalnız 10 faizini, eşitdiklərinin 20 faizini, gördüklərinin isə 30 faizini xatırlayır. Mühazirələrdə iştirak zamanı deyilənlərin 70 faizi yadında qalır. Hər hansı bir fəaliyyətdə iştirak edərkən, şəxsin özü qərar verib ondan nəticə çıxardığı üçün prosesin 90 faizi yaddaşında qala bilir.

Oxford Universitetində aparılmış araşdırmalara görə isə, növbəti 25 il ərzində hazırki peşə və ixtisasların 47 faizi mövcud olmayacaq. Yeni yaranacaq peşə və ixtisaslar üçün insanlara daha üstün bacarıqlar lazım olacaqdır. Buraya yaradıcı düşüncə, emosional zəka, kommunikativ qabiliyyət, tənqidi yanaşma, idarəetmə və s. kimi bacarıqlar aid edilir.

Bildiyimiz kimi, 2008-ci ildən bəri ümumtəhsil məktəblərində dərslərin keçirilməsində fənn kurikulumlarından istifadə olunmağa başlamışdır. Dərslər həmin ildən müasir tələblərə cavab verən yeni texnologiyalar əsasında keçirilir. Bu texnologiyalar yuxarıda göstərilən bacarıqları inkişaf etdirmək üçün vacib amildir. Belə ki, son zamanlarda liseylər və ümumtəhsil məktəblərində STEM (və ya STEAM) proqramından istifadə olunur. "STEM sözü "Elm" (Science), "Texnologiya" (Technology), "Mühəndislik" (Engineering) və "Riyaziyyat" (Mathematics) sözlərinin birləşməsindən əmələ gəlmişdir." [12, s.11] Axır vaxtlar bu terminə A hərfi ("Art" – İncəsənət) də əlavə olunaraq STEAM deyə istifadə edilir.

Azərbaycanda ilk dəfə Təhsil Nazirliyinin xətti ilə 2019-2020-ci tədris ilində bu dərsin keçirilməsi pilot layihə kimi qəbul olunmuş, bu səbəbdən 50 müəllim STEM təhsili almaq üçün İsrailə bir aylıq treninqlərə göndərilmişdir. Əvvəl bu dərs liseylərdə pilot layihə kimi tədris olunsa da, artıq demək olar ki, bütün ümumtəhsil məktəblərində keçirilir. Bu proqram üzrə keçirilən dərsdə şagirdlərə Riyaziyyat, Biologiya, Fizika, Kimya, Texnologiya, Mühəndislik kimi fənlər bir biri ilə inteqrativ şəkildə öyrədilir. Bununla da şagird yeni bilik və bacarıqları uğurla mənimsəyə bilir.

STEM dərslərində şagirdlər layihə hazırlığı ilə məşğul olurlar. Layihə hazırlamaq, onu təqdim etmək elə də asan iş deyil. Çünki layihələr metodu elə bir metoddur ki, burada şagirdlər praktikyönümlü mürəkkəb tapşırıqları müstəqil şəkildə planlaşdıraraq həyata keçirərək yeni bacarıqlara yiyələnirlər. Layihə üzərində iş şagirdlərin təhsilinə kömək edir. Bu, onlara əhəmiyyətli ümumbəşəri dəyərləri (məsələn, dialoq qurmağı, tolerantlığı, nəzakətli rəftar etməyi və s.) aşılayır. Eyni zamanda, məsuliyyət hissini formalaşdıraraq gələcək həyata onları hazırlayır. STEM dərslərində hazırlanan layihənin əsas məqsədi həm onun hansı fənlərlə əlaqəli təşkil olunduğu, həm də layihənin mövzusu dəqiq bilinməlidir. Layihənin hazırlanması mərhələli şəkildə həyata keçirilməlidir ki, şagird bu dərsdə hansı işləri görəcəyini dəqiqləşdirə bilsin.

STEM dərsinin digər əsas məqsədi isə dərs zamanı şagirdi düşünməyə, tədqiqatçı olmağa, yenilik axtarmağa, problemli situasiyadan çıxmaq üçün düzgün qərar verməyə, fikrini cəmləməyə, əməkdaşlıq etməyə və ən son olaraq praktik bacarıqlarını inkişaf etdirməyə sövq edir. Layihələr şagirdlərin əldə etdikləri biliklərə əsasən həyata keçirilir. Təcrübələr göstərir ki, şagirdlərin müstəqil iş sahəsində müxtəlif elmi-tədqiqat layihələri onların ekspert biliklərini, məntiqini inkişaf etdirir, buraxılan səhvlərə və nöqsanların aradan qaldırılması yollarına aydınlıq gətirir, düzgün və obyektiv nəticə hazırlamaq bacarığı formalaşdırır. Əsas bacarıqlar tədris müddətində inteqrasiya olunmuş bacarıqların əsasını təşkil etdiyi halda, inteqrasiya edilmiş bacarıqlar praktikada öz əksini tapır. Layihələrin başlıca məqsədi isə, öyrənənlərin şüurunda dünyanın dolğun mənzərəsini yaratmaq, eyni zamanda, onların intellektual inkişafını təmin

etməkdir. Layihələrin hazırlanması praktik baxımdan şagirdlərə müstəqil tədqiqat aparmağı və bu sahədə öz bacarıqlarını inkişaf etdirməyi aşılayır. Müstəqillik şagirdlərin heç bir kənar şəxsin müdaxiləsi olmadan var olan situasiyadan düzgün fəaliyyət üsulu seçərək sərbəst hərəkət etməsi kimi başa düşülür. Təlim prosesində öyrənənlərə müstəqil düşünməyi öyrətmək təlimin mənimsəmə səviyyəsini artırır. Bununla da, təhsilalanlar gələcək həyatlarında da hər hansı problemlə üzləşdikdə özlərini itirmədən düşdükləri vəziyyətdən çıxış yolu tapa biləcəklər.

Sovet psixoloqu Leonid Vladimiroviç Zankov deyirdi ki, uşağın axtaran düşüncəsi, əsaslandırması, sübutu, müqayisəsi öyrənilən hadisələrin bütün tərəflərini işıqlandırsın və təkcə anlayışların mənimənilməsinə deyil, həm də bacarıqların mənimsənilməsinə kömək etsin. L.V.Zankovun dediyi bu sözlər indiki zamanda daha aktual bir mövzudur. Müəllimin təlimi optimallaşdıran bir metod olan layihələr metodundan istifadəsi zamanı şagird öz bacarıqlarından, iradəsindən və intellektual səviyyəsindən istifadə etməyi bacarır. O, fəaliyyət zamanı həm biliklərini praktikada göstərmiş olur, həm də layihə hazırlayarkən daha da əlavə biliklərə yiyələnir. Layihələrə əsaslanan STEM dərsinin mahiyyəti odur ki, burada şagird bir təhsil layihəsi üzərində işləyir və real prosesləri, həmçinin obyektləri dərk edir. Onlar qeyri-standart, orijinal həll yolları axtarmağa başlayırlar, öz fərdi potensiallarını kəşf edirlər.

STEM dərslərində bütün məsuliyyət təbii ki, şagirdin öhdəliyinə düşmür. Burada müəllimin də böyük rolu vardır. Müəllim yüksək pedaqoji peşəkarlığa malik olmalıdır. Onun ustalığı belə bir fənni şagirdlərə necə öyrətmək, necə izah etməkdən başlayır. Müəllimin vəzifəsi tədris prosesi zamanı şagirdlərin layihə hazırlığına düzgün istiqamət vermək, onları müşahidə etməyi bacarmaq, şagirdləri fəallaşdırmaq, onlarda layihəni hazırlamaqda özlərinə inam yaratmaqdan ibarətdir.

Dərs müddətində şagirdlər müəllimin göstərişi və izahı ilə istər fərdi, istərsə də qrup halında layihənin hazırlığına başlayırlar. Qrup halında layihə hazırlanarkən şagirdlər vəzifə və məsuliyyətləri aralarında bölməyi bacarmalıdırlar. Belə olduğu təqdirdə, layihənin başa çatmasına sərf olunan zaman minimum səviyyəyə endiriləcək və hər bir şagird fəaliyyətə cəlb olunmuş olacaq. Burada şagirdlərdə yüksək düşünmə qabiliyyəti və optimal variantı seçmə bacarığı olmalıdır ki, hazırladıqları layihə bir o qədər effektli alınsın.

Müəllim layihə hazırlığına başlamazdan öncə şagirdlərin maraq dairələrinə nəzər salmalıdır. Tədris zamanı müəllim şagirdlərin müəyyən bir ideyasını seçib ona uyğun layihə hazırlamağı tapşırmalıdır. İşə başlamazdan əvvəl layihə üçün hazırlıqlar tamamlanmalıdır. Yəni, hazırlanacaq layihə üçün istifadə olunacaq vəsaitlər öncədən masada yerini almalıdır. Müəllim mövzuya uyğun özü bir neçə ideya ilə şagirdlərin beyinlərinə işıq salmalıdır. Şagirdlər mövzu ətrafında düşünüb beyinlərində layihənin kiçik modelini qurduqdan sonra

qrupu ilə məsləhətləşməli və ən uğurlu fikirlər seçilib layihənin hazırlığına başlanılmalıdır.

İş zamanı şagirdlər digər fənlərdən aldıqları deklarativ biliklərə istinad edərək bu layihəni tərtib etməlidirlər. Bu dərs tədqiqat xarakterli dərs kimi başa düşülməməlidir. Belə ki, bu dərsdə şagird araşdırmalar aparmır, əksinə, əvvəlcədən araşdırılan, öyrənilən biliklər fəaliiyət zamanı öz əksini tapır.

Layihənin hazırlığı başa çatdıqdan sonra şagirdlər öz işlərini təqdim edirlər. Bu zaman şagirddə kommunikativ qabiliyyət yaxşı olmalıdır ki, o öz layihəsinin təqdimatını edə bilsin. Kommunikativ qabiliyyət tək layihəni təqdim etmək üçün lazım olmur. Bu qabiliyyət qrup halında işləyərkən də istifadə olunur. Şagirdlər müzakirə edərək ortaq nəticəyə gəlirlər, öz aralarında əmək bölgüsü apararaq iş yükünü azaldırlar. Bir-birilərindən məsləhət alıb, bir-birlərinə məsləhət verirlər. Əslində nə qədər sadə bir proses kimi görünsə də, bəzi təhsilalanlar üçün bu prosesə adaptasiya olmaq bir o qədər çətindir.

Qruplar tərəfindən hazırlanmış layihələr nümayiş olunduğu zaman modellərdən hansının daha effektli və mükəmməl olduğu müzakirə olunur. Bu dərs müddətində şagirdlər daim həm fiziki cəhətdən, həm də zehni cəhətdən aktiv olurlar. Onlar öz layihələrini təqdim etdikdənn sonra digər qruplar layihədə nəyin çatışmadığını, nəyin artıq olduğunu vurğulayırlar. Bu da şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirir. Müəllim elə bir şərait yaratmalıdır ki, hər bir qrup lakonik bir şəkildə qarşı qrupa öz mülahizəsini deyə bilsin və layihəsini təqdim edən qrup qarşı tərəfi səbrlə dinləyib düzgün bir şəkildə cavabını versin. Həmçinin, qiymətləndirmə zamanı müəllim, şagirdlərin ruh düşkünlüyünə səbəb ola biləcək qiymətdən qaçınmalıdırlar. Çünki bu dərsdə şagird öz yaradıcılığını nümayiş etdirir. Bəziləri bu yaradıcılıqdan çox, bəziləri isə az istifadə edir. Müəllim çaışmalıdır ki, bütün şagirdləri layihə tərtibində maksimum yaradıcı olmağa səsləyə bilsin. Bu zaman pedaqoji proses daha uğurlu alınır.

Bu dərsin səmərəliliyi isə yalnız mərhələlərin düzgün və ardıcıllıqla və vaxt bölgüsünə əsasən icra olunmasından asılıdır. Əgər mərhələlər düzgün ardıcıllıqla yerinə yetirilmirsə, bu layihələr nə vaxtında hazır olacaq, nə də layihənin məqsədi tam bilinəcək. Şagird qiymət almaq üçün yox, həqiqətən nə isə yeni bilik kəşf etmək üçün STEM dərslərində fəal iştirak etməlidir. Belə olduğu halda, şagirdlərin mühəndislik qabiliyyətləri, elmi potensialları, riyazi əməliyyatlardan düzgün bir şəkildə istifadə etmək bacarıqlarının inkişaf etməsinə təkan verir. Bu da gələcəkdə onların seçdiyi peşədən asılı olmayaraq müstəqil fikirli və səriştəli olmaqları üçün indidən baza rolunu oynayır, onların yaşadığımız dövrün tələblərinə uyğun yetişdirməmizə kömək edir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikası təhsil sahəsində islahat proqramı. Bakı, 1999, 65 səh.*

2. *Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, AMİ-nəş., 2011, 178 səh.*
3. *Ağayev Ş., Mehdizadə S. təlimdə fəaliyyətin aktual məsələləri.// Azərbaycan məktəbi, Bakı, 2017, №5, s.92-96.*
4. *Babayev İ. Layihənin idarəedilməsi metodologiyası: Monoqrafiya. Bakı: Çaşıoğlu, 2003, 300 səh.*
5. *Cəbrayılov İ. Müasir təhsilin məzmununun formalaşdırılmasının aktual problemləri//Azərbaycan məktəbi, Bakı, 2018, №3, s.107-118.*
6. *Əliyeva Z. Pedaqogika. Bakı, Prezident kitabxanası, 2004, 92 səh.*
7. *Kiriçuk V. "Universal-onlayn" xidməti əsasında şagird şəxsiyyətinin inkişafı layihəsinin idarəedilməsi//Azərbaycan məktəbi, Bakı, 2018, №3, s.87-106.*
8. *Nəzərov A. Müasir təlim texnologiyaları. Bakı, ADPU-nəş., 2012, 103 səh.*
9. *Nəzərov A. "Təhsilin müasir problemləri" fənni üzrə proqram. Bakı, AMİ-nəş., 2010, 23 səh.*
10. *Rüstəmov F., Paşayev Ə. Pedaqogika. Yeni kurs. Bakı: Elm və təhsil, 2010, 464 səh.*
11. *Şərifov Q., Daşdəmirov A. STEM – müasir təhsil brendi//Azərbaycan Müəllimi, Bakı, 5 iyul 2019.*
12. *Şərifov Q. Liseylərdə STEM dərslərinin tədris olunmasının elmi və praktik əhəmiyyəti//Azərbaycan məktəbi, Bakı, 2018, №3, s.9-18.*

# TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ KONTEKSTİNDƏ MÜƏLLİMİN PEŞƏKAR SƏRİŞTƏSİNİN İNKİŞAFINA KONSEPTUAL YANAŞMALAR

**F.Ə.Əsgərzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esgerzade.feride@gmail.com*

***Xülasə***

*Məqalədə müasir müəllimin peşəkar səriştəsinin həm fənn sahəsində, həm də pedaqogika və psixologiya sahəsində elmi-nəzəri biliklər sistemini özündə birləşdirən insanın keyfiyyət xüsusiyyəti olduğu fikri vurğulanır. Müəllimin pedaqoji və psixoloji komponentlərinin bir-biri ilə vəhdət təşkil edərək peşə səriştəsinə yön verən bir amil kimi həm nəzəri, həm də praktiki cəhətdən tədris prosesində düzgün tətbiqi "ideal müəllim"modelinin fəaliyyətdə təzahürü kimi tədqim olunur. Həmçinin fənlərarası nöqteyi-nəzərdən pedaqoji səriştəni sistemli bir hadisə kimi təhlil edir, onun mahiyyətinin pedaqoji biliklərin, təcrübənin, müəllimin xassələrinin və keyfiyyətlərinin vəhdətindən ibarət olduğu göstərilir.*

## КОНЦЕПТАЛЬНЫЕ ПОДХОДЫ К ПРОФЕССИОНАЛЬНОМУ РАЗВИТИЮ ПРЕПОДАВАТЕЛЕЙ В КОНТЕКСТЕ МОДЕРНИЗАЦИИ ОБРАЗОВАНИЯ

***Резюме***

*В статье подчеркивается, что профессиональная компетентность современного учителя - это качественная характеристика человека, сочетающего в себе систему научных и теоретических знаний в области науки, а также в области педагогики и психологии. Правильное применение педагогической и психологической составляющих учителя в учебном процессе как теоретически, так и практически представлено как проявление модели "идеального учителя". Он также анализирует педагогическую компетентность как систематическое явление с междисциплинарной точки зрения, показывая, что ее сущность - это сочетание педагогических знаний, опыта, характеристик и качеств учителя.*

## CONCEPTAL APPROACHES TO TEACHER PROFESSIONAL DEVELOPMENT IN THE CONTEXT OF MODERNIZA TION OF EDUCATION

***Summary***

*The article emphasizes the idea that the professional competence of a modern teacher is a qualitative feature of a person who combines a system of scientific and theoretical knowledge in the field of science,as well as in the field of pedagogy and psychology. The correct application of the pedagogical and psychological components of the teacher in the teaching process,both theoretically and practically,is presented*

*as a manifestation of the "ideal teacher" model. It also analyzes pedagogical competence as a systematic phenomenon from an interdisciplinary point of view, showing that its essence consists of a combination of pedagogical knowledge, experience, characteristics and qualities of a teacher.*

***Açar sözlər:*** *müəllimin peşə səriştəsi, səriştə, fəaliyyət, peşə standartı, pedaqoji bacarıq.*

***Ключевые слова:*** *профессиональная компетентность учителя, компетентность действие, профессиональный стандарт, педагогические навыки*

***Key words:*** *teacher's proffesional competence, competence, action, professional standard, pedagogical skills*

Cəmiyyətin müasir inkişaf mərhələsində təhsil sistemi mədəni və tarixi inkişaf modelinin dəyişməsi ilə əlaqədar əhəmiyyətli dəyişikliklərə məruz qalır. Ancaq təhsil sistemində hansı islahatlar aparılmasından asılı olmayaraq, sonda bu və ya digər şəkildə müəyyən bir ifaçıya – müəllimə bağlanır. Müasir dünyada baş verən davamlı və nəzərə çarpan dəyişikliklər tələb edir ki, müəllim yeni bilik və bacarıqlar inkişaf etdirməklə cəmiyyətin təhsilə qoyduğu tələblərə adekvat cavab versin. Əsas yeniliklərin praktikada həyata keçirilməsində əsas fiqur məhz müəllimdir. Bu fikri tədris prosesinin ən vacib komponenti kimi müəllim istər təhsili, istərsə də ixtisası ilə təhsil prosesinin optimallaşdırılmasında həll edici əhəmiyyətə malik olması ilə əsaslandırmaq olar. Müxtəlif yeniliklərin təcrübəyə uğurla daxil olması, yeni şəraitdə ona həvalə edilmiş vəzifələrin icrası üçün müəllim lazımi səviyyədə peşəkar səriştəyə və peşəkarlığa malik olmalıdır.

Təhsilin modelləşdirilməsi təkcə öyrənilən fənlərin məzmununu dəyişdirməyə deyil, həm də tədris metodlarına yanaşmaların dəyişdirilməsinə, tədris metodlarının arsenalının genişləndirilməsinə, dərs zamanı tələbələrin fəallığının artırılmasını nəzərdən keçirməklə və ən kəskin sosial problemlərin həlli yollarını tapmaqla öyrənilən mövzuların real həyata yaxınlaşdırılmasına yönəlmişdir [3, s.7].

Təhsilin modelləşdirilməsi təhsil sistemində idarə olunan müsbət keyfiyyət dəyişikliyinə nail olmaq üçün təhsil fəaliyyətinin təkmilləşdirilməsi üzrə kompleks, vahid bir prosesdir. Təhsilin modelləşdirilməsi, yeni vəzifələr sayəsində təhsilin daxili potensialının dominant inkişafını dəyişdirən təhsil fəaliyyətinin intellektləşdirilməsi, innovativ proseslər, məlumatlandırma, yeni texnologiyalardan istifadə metodları da daxil olmaqla sistematik keyfiyyət dəyişikliyidir. Təhsilin modelləşdirilməsi tərbiyə işinin bütün elementlərinin əsaslı yeni ideyalar, metodlar, nəzəriyyələr, konsepsiyalar, modellər üzərində geniş çoxtərəfli çevrilməsini nəzərdə tutur.

Pedaqoji fəaliyyətin modelləşdirməsi və formalaşması prosesində müasir təhsilin, mədəniyyətin, pedaqoji fəaliyyətin və s. dəyər kimi şəxsiyyətin inkişaf xüsusiyyətləri və imkanları müəyyənləşdirilir.

Müəllimin şəxsi əməyinin məhsuldar inkişafının əsaslarını və mexanizmlərini pedaqoji modelləşdirmə vasitəsi ilə həyata keçirmək mümkündür.

XX əsrin əvvəllərindən başlayaraq müəllimin peşə səriştəsi ilə bağlı problemlərin məzmunu əvvəllər onlar üçün xarakterik hesab olunmayan bir sıra komponent və spesifik xüsusiyyətlər qazanmağa başlamışdır. Burada ilk sırada yer alan məsələ müəllimin sosial-peşəkar rolunun dəyişməsi ilə bağlı idi. Artıq biliklərin xülasəsini paylaşmaqla kifayətlənməyən müəllim müasir mütəxəssislərə qarşı qeyri-səciyyəvi şəkildə artan tələbləri nəzərə alaraq təlim, tədris fəaliyyəti zamanı uyğun şərait yaratmaq hədəfini gerçəkləşdirməyi əsas məqsəd kimi qarşısına qoyur. Bu isə təhsilalanların (və ya təlim iştirakçılarının) ehtiyac duyduqları informasiya və biliklərin əldə edilməsini asanlaşdıraraq, onların mənimsənilməsi və müasirləşdirilimləsi prosesini ardıcıl şəkildə həyata keçirib özünü inkişaf etdirməyə və ya özünü daha da təkmilləşdirməyə şərait yaradır.

İkinci məsələyə nəzər saldıqda bu məsələdə müəllimin qazanmış olduğu bilik, peşəkar bacarıq və səriştələrinin onun bütün pedaqoji fəaliyyət dövrünü əhatə edə bilmək üçün kifayət etmədiyi fikrinin vurğulandığını müşahidə edirik. Üçüncü və sonuncu məsələ əsas səlahiyyətlərin məzmununda baş verən dəyişikliklər təkcə fərdin yeni iqtisadi, həmçinin sosial şəraitdə uğur qazanmasını təmin etməklə kifayətlənməyərək onun peşəkar fəaliyyətində rəqabət qabiliyyətinin inkişafı və dünya standarlarına uyğunlaşmasına şərait yaradır. Qeyd etmək lazımdır ki, məzmunun müəyyənləşdirilməsi və müəllim səriştəliliyinin sistemləşdirilməsi məsələsi bir insanın gələcək hədəfini, dünyaya baxışı və mədəni imicini xarakterizə edir. Müəllimi digər həmkarlarından fərqləndirən spesifik xüsusiyyətləri və mürəkkəb pedaqoji fəaliyyətlərini nəzərə almaqla onun peşəkar səriştəsinin inkişaf modelini qurmaq daha əlverişli olur. Elə məhz buna görə də müəyyən sahənin mütəxəssisi üçün ümumi hesab edilən xüsusiyyətlər nəzərə alınaraq onun peşəkar bacarığına əsaslanmaqla yanaşı,həm də tamamilə yeni olan, hələ mənimsənilməmiş və məzmunu tam müəyyən edilməmiş səriştələr haqqında hərtərəfli təhlil aparılmasını məqsədəuyğun hesab edirik.

Bu baxımdan müəllimin peşə səriştəsinin inkişafına şəraitin yaradılması təhsil müəssisələrinin səmərəli fəaliyyətini təmin etmək üçün həllini tələb edən problem kimi yanaşılmalıdir. Elmi ədəbiyyatın təhlili göstərir ki, müəllim səriştəsinin inkişafı problemini tədqiq edən alimlər öz tədqiqatlarında "peşəkar səriştə" və ya "pedaqoji səriştə" terminlərindən istifadə edirlər. Qeyd edək ki, hazırda elmdə bu anlayışların şərhinə vahid yanaşmanın tapılması ilə bağlı müzakirələr gedir. Beləliklə, V.İ.Baydenkonun "müəllimin peşəkar səriştəsi" onun

pedaqoji fəaliyyəti həyata keçirməyə nəzəri və praktiki hazırlığının vəhdətini ifadə edir, müəllimin səriştə strukturunun əsasını isə bu hazırlığı xarakterizə edən çoxsaylı pedaqoji bacarıqlar təşkil edir [5, s.3].

Ənənəvi olaraq müəllimin peşə səriştəsi dedikdə uğurlu pedaqoji fəaliyyət üçün zəruri olan peşəkar və şəxsi keyfiyyətlərin məcmusu başa düşülür. Bizim fikrimizcə, pedaqoji fəaliyyətini kifayət qədər yüksək səviyyədə həyata keçirən, ünsiyyət qurmaq bacarığı olan, tədris və tərbiyə prosesində ardıcıl yüksək nəticələr əldə edən, pedaqoji fəaliyyətini səmərəli şəkildə quran müəllimi peşəkar, səriştəli adlandırmaq olar.

İ.A.Zimnyaya hesab edir ki, "pedaqoji səriştə biliklər, bacarıqlar, habelə fərdin fəaliyyətində, ünsiyyətində, inkişafında (özünü inkişafında) həyata keçirmək üsullarını əhatə edir" [7, s.60]. Deməli, müəllimin peşəkar səriştəsi müəllimin nəzəri bilikləri sistemini və onların konkret pedaqoji situasiyalarda tətbiqi üsullarını, müəllimin dəyər yönümlərini, habelə onun mədəniyyətinin inteqrativ göstəriciləriniəhatə edən çoxfaktorlu bir hadisədir.

M.V.Qromova peşə səriştəsi anlayışını pedaqoji bacarıqlarla əlaqələndirir. O, bu konsepsiyanı peşəkar vəzifələrin müstəqil və məsuliyyətlə yerinə yetirilməsi kimi müəyyən etdi. Pedaqoji problemləri həll etmək bacarığı müəllif tərəfindən peşəkarlığın tərkib hissəsi kimi, onu peşə səriştəsi anlayışı ilə əlaqələndirir [6, s. 143].

M.İ.İlyasov qeyd edir ki, "müəllimin peşəkar fəaliyyətinin səmərəliliyi təkcə bilik və bacarıqların çoxluğundan asılı deyildir. Əsas məsələ əldə olunmuş bacarıqlardan müəyyən pedaqoji situasiyalarda düzgün və səmərəli istifadə etmək, məlumat və bilikləri müxtəlif və optimal üsullarla, çevik şəkildə şagirdlərə çatdırmaqdan ibarətdir" [1, s.19].

Bu yanaşmalardan belə bir nəticəyə gəlirik ki, pedaqoji səriştə, mahiyyəti pedaqoji fəaliyyəti səmərəli həyata keçirməyə, pedaqoji ünsiyyət prosesini məqsədyönlü şəkildə təşkil etməyə imkan verən pedaqoji biliyin, təcrübəsinin, xassələrinin və keyfiyyətlərinin sistemli birliyindən ibarət sistemli bir hadisə olmaqla müəllimin şəxsi inkişafını və təkmilləşdirilməsini nəzərdə tutur.

Yeni nəsil müəllimin bir çox sahələrdə, məsələn, pedaqogika, psixologiya, kompüter savadlılığı və səriştəli olması vacibdir. Biz müasir müəllimin peşə səriştəsinin strukturunu aşağıdakı kimi dəstəkləyirik:

1. Peşəkar, ümumi mədəni və humanitar səriştə, o cümlədən dünya mədəniyyətinin əsasları, humanist şəxsi keyfiyyətlər, öz fəaliyyətinin nəticələrinə görə məsuliyyət, özünü təkmilləşdirmək üçün motivasiya.

2. Qeyri-standart düşüncə, innovativ texnologiyalar və taktikaların mənimsənilməsi, peşəkar fəaliyyətin məzmununda və şərtlərində dəyişikliklərə çevik uyğunlaşma.

3. Kommunikativ səriştə, o cümlədən inkişaf etmiş nitq, müasir kommunikasiya vasitələrinə və kompüter savadının əsaslarına yiyələnmək və s.

Bu baxımdan müəllimin peşəkar səriştəsinin əsas komponentləri müəyyənləşdirmək olar: şəxsiyyət motivasiyası (şəxsiyyət yönümlülük və onun növləri), xassələri (pedaqoji qabiliyyətlər, xarakter və onun xüsusiyyətləri, psixoloji proseslər və şəxsiyyət), inteqral xüsusiyyətləri (pedaqoji özünüdərk, fərdi üslub, yaradıcılıq – yaradıcı potensial kimi).

Bu istiqamətdə müəllimin peşəkar səriştəsinin üç əsas səlahiyyətlər qrupunu müəyyən edə bilərik:

- bir şəxsiyyət olaraq, həyatın subyekti kimi özü ilə bağlı səlahiyyətlər.
- bir insanın digər insanlarla qarşılıqlı əlaqəsi ilə əlaqəli səlahiyyətlər.
- insan fəaliyyəti ilə bağlı bütün növ və formalarda təzahür edən səriştələr.

Bu səlahiyyətlərdən istifadə edərək müəllimin peşə səriştəsinin üç əsas səviyyəsini müəyyən edirik: ümumi - əsas və əməliyyat səlahiyyətləri; xüsusi - müəyyən bir ixtisasın səriştəsi; konkret - fərdi müəllimin səriştəsi. Müəllimin "peşəkar səriştəsini" anlamaq üzrə müasir alimlərin işini təhlil etməyə davam edərək, biz əsas komponentləri - kommunikativ, informasiya, tənzimləmə və intellektual-pedaqoji səriştələri vurğulayırıq, sonuncu isə qalanları üçün əsasdır və hər birini şərh edək.

Müəllimin kommunikativ səriştəsi peşəkar əhəmiyyətli, inteqrativ keyfiyyətdir, onun əsas komponentləri emosional sabitlikdir (uyğunlaşma ilə bağlıdır); ekstraversiya (status və effektiv rəhbərliklə əlaqələndirilir); birbaşa və əks əlaqə dizayn etmək bacarığı; nitq bacarıqları; dinləmə bacarıqları; mükafatlandırma qabiliyyəti; incəlik, ünsiyyəti effektiv etmək bacarığı.

İnformasiya səriştəsi özü haqqında, şagirdlər və onların valideynləri haqqında, digər müəllimlərin iş təcrübəsi haqqında biliklərin həcmini əhatə edir.

Müəllimin tənzimləmə səriştəsi onun öz davranışına nəzarət etmək qabiliyyətinə malik olmasını nəzərdə tutur. Buraya aşağıdakılar daxildir: məqsədin qoyulması, planlaşdırma, səfərbərlik, davamlı fəaliyyətin qiymətləndirilməsi, əks etdirmə.

İntellektual və pedaqoji səriştəni təhlil göstərir ki, sintez, müqayisə, mücərrədləşdirmə, ümumiləşdirmə, konkretləşdirmə bacarıqlarının kompleksi kimi zəkanın keyfiyyətləri: analogiya, fantaziya və təfəkkürün tənqidiliyi kimi qəbul etmək olar.

Müəllimin peşə funksiyalarını yerinə yetirməyə nəzəri və praktiki hazırlığının vəhdəti kimi peşə səriştəsi təkcə fəaliyyəti deyil, həm də müəllimin özünü müstəqil, məsuliyyətli subyekt kimi xarakterizə edir.

Peşəkar və pedaqoji səriştənin yuxarıda qeyd olunan bütün komponentləri bir-biri ilə sıx bağlıdır, müəllimin "ideal modelini" formalaşdıran, onun şəxsi və fəaliyyət xüsusiyyətlərini müəyyən edən mürəkkəb struktur təşkil edir,

çünki səriştə yalnız fəaliyyət prosesində təzahür edir və yalnız konkret peşə çərçivəsində qiymətləndirildikdə mümkün ola bilər.

Göstərilənlərin hamısını ümumiləşdirərək belə bir nəticəyə gəlirik ki, müəllimin şəxsiyyətinə və onun peşəkarlığına yüksək tələblər qoyulur, çünki o, dəyişikliklərə çevik reaksiya verməli, peşəkar və şəxsi səlahiyyətlərini daim təkmilləşdirməlidir.

***Ədəbiyyat***

1. *İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya, Bakı, 2018.*
2. *Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.*
3. *Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-nəşriyyatı, 2020, 476 s.*
4. *"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı:Bakı Çap Evi, 2012, 64 s.*
5. *Байденко В.И. Полномочия в профессиональном образовании (развитие компетентностного подхода)//Высшее образование в России. 2004, № 11. с. 3-14.*
6. *Громова М.В. Профессиональная компетентность учителей дополнительного образования //Ярославский педагогический вестник. 2016, № 1. с.143-147.*
7. *Зимняя И.А. Ключевые компетенции - новая парадигма образовательных результатов [Текст] // Высшее образование сегодня. - 2003. № 5. с. 60-69.*
8. *İnternational Journal of Environmental & Science Education 2016, vol.11, no.8.*

# LİRİK ƏSƏRLƏRİN MƏZMUNUNUN ÖYRƏDİLMƏSİ

**İ.Z.Orucova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*orucovatehsil@mail.ru*

***Xülasə***

*Ədəbiyyat dərsliklərində lirik əsərlərə xüsusi yer verilmişdir. Şeirlərdə şairlərin hiss-həyəcanları, mövzuya bəslədikləri emosiyaları duymaq, onların hisslərini yaşamaq insana estetik zövq verir. Şeirlər şagirdlərin söz ehtiyyatını artırır, nitqlərini, zövqlərini zənginləşdirirlər. Müəllimlər musiqinin həzin səsi ilə şagirdlərə şeirlər əzbərlətməsi, müxtəlif tədbirlərdə şeirlərin səsləndirmələri onların bədii zövqünü və ruhunu oxşayır.Lirik əsərlərin tədrisi zamanı ilk növbədə lirik növdən, onun xüsusiyyətlərindən bəhs etmək, lirikanın insan duyğusuna, emosiyasına təsirindən danışmaq lazımdır. Lirin növün digər növlərdən fərqini izah etməli və onlar arasında oxşar və fərqli cəhətləri vurğulamalıdır. Lirik şeirlərin məzmununun öyrənilməsində şagirdlər müəyyən çətinliklərlə qarşılaşırlar. Bu janrın xüsusiyyəti ilə əlaqəli hesab olunur. Lirik şeirlərdə şairlər öz hisslərini emosional şəkildə ifadə edir və yığcam şəkildə fikirlərini bildirirlər. Yazıçı şeirdə həm öz hiss-həyəcanını həm də poetik strukturları ifadə edir. Yəni, şeirdə bədii təsvir ifadə vasitələri, ahəngdarlıq, poetik intonasiya əsərin məzmununu yaratmış olur. Şeirin bədii dil xüsusiyyətlərini öyrənməklə əsərin məzmunu da öyrənilmiş olunur.*

## ОБУЧЕНИЕ СОДЕРЖАНИЮ ЛИРИЧЕСКИХ РАБОТ

***Резюме***

*Лирические произведения занимают особое место в учебниках литературы. В поэзии испытывать эмоции поэтов, испытывать их эмоции на предмете, испытывать их чувства - это эстетическое удовольствие. Стихи расширяют словарный запас студентов, обогащают их речь и вкусы. Учителя заучивают ученикам стихи под меланхолическое звучание музыки, читают стихи на различных мероприятиях, чтобы подражать их художественному вкусу и духу. Объясните различия между видами лиры и другими видами и подчеркните сходство и различия между ними. Студенты сталкиваются с определенными трудностями при изучении содержания лирических стихов. Считается, что это связано с природой жанра. В лирических стихах поэты эмоционально и лаконично выражают свои чувства. В стихотворении писатель выражает как свои эмоции, так и поэтические конструкции. То есть средства художественного выражения в стихотворении, гармония, поэтическая интонация создают содержание произведения. Содержание произведения изучается также путем изучения особенностей литературного языка стихотворения.*

## TEACHING THE CONTENT OF LYRIC WORKS

***Summary***

*Lyrical works have a special place in literature textbooks. In poetry, it is an aesthetic pleasure to feel the emotions of poets, to feel their emotions on the subject, to experience their feelings. Poems increase students' vocabulary, enrich their speech and tastes. Teachers memorize poems to students with the melancholy sound of music, recite poems at various events to imitate their artistic taste and spirit. Explain the differences between the lyre species and other species and emphasize the similarities and differences between them. Students face certain difficulties in studying the content of lyrical poems. It is considered to be related to the nature of the genre. In lyrical poems, poets express their feelings emotionally and concisely. In the poem, the writer expresses both his emotions and poetic structures. That is, the means of artistic expression in the poem, harmony, poetic intonation create the content of the work. The content of the work is also studied by studying the features of the literary language of the poem.*

***Açar sözlər:*** *bədii, əsər, şagird, müəllim*
***Ключевые слова:*** *искусство, работа, ученик, учитель*
***Key words:*** *art, work, student, teacher*

VI-VII sinif dərsliklərində lirik şeirlərdə bədii təsvir ifadə vasitələri azlıq təşkil etdiyindən şagirdlər bu şeirləri daha tez qavraya bilirlər. Yuxarı siniflərdə isə artıq şeirlərin məğzi və işlənən obrazlılıq dərəcəsi çoxalır, şagird bu cür əsərləri anlamaqda çətinlik çəkir. Şeirlərin məzmununun öyrədilməsində müəllimin rolu böyükdür. Müəllim şeirin tədrisi formasını elə qurmalıdır ki, şagird əsərin məzmununa tam şəkildə hakim olsun. İlk növbədə şeiriyyatı şagirdlərə sevdirməlidir. Lirik şeirlər üzərində ifadəli oxu, əsərin məzmunu və təhlili öyrədilir. Müəllim lirik şeirin məzmunu ilə bağlı əvvəlcədən motivasiya qurur və dərslikdə verilmişləri yada salır, düşünən hissələrini yerinə yetirir. Ümumən, motivasiya mərhələsi müəllimin öz istəyinə bağlıdır. Şagirdlərdə təəssürat yarandıqdan sonra şeirin ifadəli oxusu təşkil olunur. Müəllim tərəfindən, ya da qiraətçinin səsindən şeirin ifadəli oxusunun dinlənilməsi vacibdir. Çünki şagirdlər şeiri düzgün ifadəli oxumağı öyrənirlər. Şeirdə ifadəli oxu sənətinin əsaslarının düzgün təşkil edilməsi, orfoepik qaydalara riayət olunması prosesinə diqqət yetirilir. Şeirin hansı janrda olması, qafiyə sistemi, məntiqi vurğu, misradaxili bölgüsü aydınlaşdırılır. Bundan sonra əsərin oxusu şagirdlər tərəfindən yerinə yetirilir. Şeiri bənd-bənd şagirdlərə oxudur və hər hissədə anlaşılmayan sözlər yazılır, onların izahı verilir. Hər parçanın məzmunu aydınlaşdırılır. İkihissəli gündəlik metodundan da şeirlərin öyrənilməsində istifadə məqsədəuyğun olur. Hər bir müəllim müxtəlif metodlardan istifadə edə bilərlər. [4]

Müəllim lirik əsərləri öyrədərkən onun janrına uyğun dərs modeli qurmalıdır. Heca vəznli şeirlər Azərbaycan milli şeir quruluşuna uyğun gəldiyindən və dili rahat olduğundan öyrədilməsi daha rahat olur. Alınma sözlərdən istifa-

də azlıq təşkil edir. Bu cür şeirlərin öyrədilməsi prosesi müxtəlif cür olur. Dili asan olan heca vəznli şeirlərin oxusunu müəllimin nitqindən eşitdikdən sonra şagirdlərə səssiz oxusu tapşırılır və hər partaya bir bənd verilir. Şagirdlər bəndlərdə verilmiş çətin sözlərin izahını verir və hər parçanın məzmunu cümlə şəklində yazılır. Sonda müəllim bütün hissələri şagirdlərdən soruşur. Hər sinfin standartlarına uyğun ifadə vasitələri tapılır və nümunələrin izahı verilir. Şeirin ifadəli oxusu şagirdlər tərəfindən aparılır və digər şagirdlər şeirin oxusuna öz münasibətlərini bildirirlər. Dili nisbətən çətin olan heca vəznli şeirlərdə isə ilk müəllimin köməyi lazım olur. Müəllim şeirin hissə-hissə məzmununu izah edir, şagirdlərlə birlikdə bədii dil xüsusiyyətlərini açıqlayır. Əsərin məzmunu anlaşıldıqdan sonra şagirdləri qruplara bölüb, əsərin ideyasına uyğun, qəliz və alınma sözlərin, bədii təsvir ifadə vasitələrin izahı soruşulur, şeirin ifadəli oxusu və məzmunu nağıl kimi dinlənilir. [1, 101]

Əruz vəznli şeirlərin şagirdlər tərəfindən öyrənilməsi nisbətən çətinlik yaradır. Bu əsərlərin mövzusu, obrazlılıq dərəcəsi, ərəb-fars mənşəli sözlərin çoxluq təşkil etməsi şagirdlərin əsəri öyrənmələrinə maneə yaradır. Bu səbəbə görə şeirin müəllifi, yazılma dövrü və əsərin mövzusu barəsində məlumat verilir. Şagirdlərdə mövzu barəsində müəyyən təəssürat yarandıqdan sonra əsərin oxusuna keçid olunur. Məsələn, Məhəmməd Füzuli, İmadəddin Nəsimi və s. klassiklərimizin əruz vəzndə yazılmış şeirlərinin dili olduqca çətindir. Əruz vəznli şeirlərin öyrədilməsi prosesində əsas güc müəllim üzərinə düşür. Müəllimin hər misradakı sözün izahını verməsi vacibdir. Çünki əsərin məzmununu anlamaq üçün sözlərin izahı bilinməsə, məğzi anlamaq olmur. Bu tip şeirlərdə ərəb-fars mənşəli, qəliz sözlər olduqca çoxdur. Lüğətin köməyi ilə sözlərin mənası verilməlidir. Sonra müəllim hər misrada şairin demək istədiyi fikri aydınlaşdırmalıdır. Məsələn, 10-cu sinif "Ədəbiyyat" dərsliyində İmadəddin Nəsiminin "Sığmazam" qəzəlini şagirdlərə öyrədərkən, ilk növbədə onu qiraətçinin səsindən dinlədirik. Burada əsas məqsəd şagirdin əruz vəznli şeirin ifadəli oxusunu bilməsidir. Bu cür məzmunu çətin olan əsərlərin mənası dərsliklərdə izahı ilə birlikdə verilmişdir. Lakin müəllim yalnız onu oxutmaqla qalmalı deyil, hər misranın sözlərinin mənasını və şairin nə demək istədiyini açıqlamalıdır. Məsələn, "Məndə sığar iki cahan" ifadəsinin cahanın dünya mənasında olduğunu və iki dünyanın maddi və mənəvi olaraq insanda birləşdiyini, məkansız gövhər olduğunu və varlığa, dünyaya sığmadığını bildirməli və burada gövhər sözünün qiymətli daş, kövnü-aləm, laməkan-məkansız sözlərin izahı verməlidir. [2, 61] Bu sözlərin izahının verilməsi ilə şagird misranın məzmununu daha yaxşı anlaya bilir. Bütün misraların izahı bu cür davam edir. Şagirdlərə hər misranın izahı verildikcə, məzmunun yazılması tapşırılsa, onlar məzmunu daha yaxşı yadda saxlayarlar. Əsərin məzmununun izahı bitdikdən sonra şagirdlərin hər birindən əsərdəki sözlər, ifadə vasitələri və şeirin ideyası soruşulur.

Lirik şeirlərin məzmununu öyrəndikdən sonra şeirlərin bir parçasını əzbərləmək daha yaxşı nəticələr verir. Şeirlərin məzmununu hər zaman nağıl kimi öyrənmək əlverişli deyil. Şeiri əzbərləyən şagird əsərin hər detalına daha diqqətlə yanaşır və təkrar elədikcə məzmunu daha yaxşı qavraya bilir. Bundan əlavə, hər əsərdən bir parçanı əzbərləmək, onların nitqini inkişaf etdirir. Bu şeirlərdən müəyyən müzakirələrdə və situasiyalarda istifadə etmək onlar üçün hər zaman əlverişli sayılır. Şagirdlərə həm şeiri sevdirmək, həm də ifadəli oxu bacarıqlarını formalaşdırmaq üçün onlara sinifdən xaric oxu dərslərində sevdikləri şairlərin şeirlərini əzbərləmələrini tapşırmaq olar. Hər şagirdin seçdiyi şeirləri dinləyib, şagirdlərlə birlikdə şeirlərin mövzusunu müzakirə etmək, onların həm nitqini, həm də müxtəlif mövzularla tanış etməyə səbəb olacaq. Bundan əlavə, şagirdlərin bədii-estetik zövqü, hissləri və yaddaşları inkişaf edir. K.D.Yuşinskinin fikrinə görə, əzbərləmək prosesi zəhmət tələb edir. O bildirir ki, şagirdləri bu zəhmətə alışdırmaq lazımdır. Şagirdlər şeiri unutduğu zaman, müəllimin kömək etməsini şagirdin yaddaşını korladığını bildirir. [19, 166] Əlbəttə, uzun həcmli şeirlərin hamısının əzbər öyrənilməsini tələb etmək doğru deyildir. Bu zaman şagird həvəsdən düşür və əsərin məzmununa diqqət etmir, fikrini yalnız əzbərləməyə yönəldir. Əsərlərin bir neçə bəndini və ya beytini əzbərləməyi tapşırmaq lazımdır. Mətni bir neçə dəfə təkrar etmək, ucadan oxumaq, qiraətçinin səsini dinləməklə əzbərləyə bilərik. Məzmunu tam dərk etdikdən sonra şeiri əzbərləmək tapşırıla bilər. Həm məzmunu, həm də əsərin bütün xüsusiyyətlərini tam şəkildə dərk edən şagird şeiri asanlıqla əzbərləyə bilir və illər keçdikdən sonra da hər zaman xatirində qalır.

Bununla yanaşı, müəllim şagirdlərin ifadəli oxusuna diqqət yetirməli və ifadəli oxunun əsaslarını öyrətməlidir. Şeirin ifadəli oxusuna hazırlaşarkən, öncə bir neçə dəfə əsəri səssiz oxumalı, şeirin məzmunu ilə tanış olmalıdırlar. İntonasiyaya, durğu işarələrin düzgün səsləndirilməsinə, səs tonuna, orfoepik qaydalara riayət olunmalı, məntiqi vurğu gözlənilməlidir. Müəllim şagirdlərə öyrətməlidir ki, şeiri ifa edərkən hiss-həyəcanla oxunmalı, müəllifin bizə çatdırmaq istədiyi məqamları emosiya ilə səsləndirməliyik. Hər şeiri oxuyarkən, onun məzmunu bilmək önəmlidir və yazıçının nələr hiss edərək yazdığını aydınlaşdırmalı, bir növ özümüzü onun yerinə qoymalıyıq. Ən sonda isə ifamızla auditoriyanı cəlb etməliyik. Müəllim bu cür nüansları şagirdlərə çatdırdığı zaman şagirdlər ifadəli oxunun təşkilini düzgün edəcək.

Şairlər öz hiss-həyəcanlarını şeirlərdə əks etdirirlər. Müəlliflər şeirlərdə demək istədiklərini gizli məna çalarları ilə ifadə edirlər. Bunu bilən bədgüman insanlar şairlərimizin üzərinə şər atıblar. Məsələn, Əhməd Cavadın "Göygöl" şeirində istifadə etdiyi göy, yaşıl, ay, ulduz sözlərini bədgüman insanlar demokratizmi təbliğ etdiyini düşünmüş və Əhməd Cavad bunu təkzibləmiş olsa da, ona inanmamışdılar. Görkəmli şairimiz repressiya qurbanı olmuşdur. Ona

görədə lirik şeirlərin hər sətrinə diqqət etməli və gizli məna çalarlarına baxmalıyıq.

Lirik əsərlərin məzmununu öyrədilməsində "şaxələndirmə", "T-sxemlər", "iki hissəli gündəlik", "müzakirə", "söz assosiasiyası," "insert" və s. metodlardan istifadə olunur. "İnsert" metodunda şagirdlər Əhməd Cavadın "Azərbaycan, Azərbaycan" şeirinin hər bəndini oxuyurlar və bənddəki anlaşılmayan sözün və ifadə vasitələrinin yanına işarələr qoyurlar və müəllimə sual işarəsi qoyduqları sözləri soruşub öyrənirlər. Söz assosiasiyasının metodundan motivasiya mərhələsində istifadə etmək daha məqsədəuyğun ola bilər. Əsərin məzmunu ana haqqındadırsa, ad yazılır və şagirdlər öz fikirlərini bildirirlər. Şeirlərin öyrədilməsində "iki hissəli gündəlik" metodundan geniş istifadə edirlər. Dərsin standartlarına və hər bir müəllimin öz istəyinə uyğun olaraq, metodlar əsərlərin üzərində tətbiq oluna bilər.

**IX sinif**

**Mövzu:** Əli Kərim. "Qaytar ana borcunu"

**İş forması:** böyük və kiçik qruplarda iş

**İnteqrasiya:** Həyat bilgisi

**Texnikalar:** proqnazlaşdırılmış oxu, klaster, beyin həmləsi, fasiləli oxu, müsahibə, müzakirə, rollu oyun, söz assosiyaları

**Resurslar**: İnternetdən Elnarə Abdullayeva "Ana laylası" mahnısı, Ağalar Bayramov "Qaytar ana borcu" şeirinin video çarxı

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca, əruz, sərbəst vəznli şeirlərdə və süjetli əsərlərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır. | 1.Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırır. |
| 1.1.5 Heca, əruz, sərbəst şeirlərdə, süjetli ədəbi əsərlərdə bədii təsvir və ifadə vasitələrini (simvol, metonimiya, inversiya,) müəyyənləşdirir. | 2. Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. [27,139] |

**Dərsin gedişi** mərhələsində ev tapşırıqları və sinfin təşkili yoxlanılır.

**Motivasiya** mərhələsində şagirdlərə elektron lövhədə Elnarə Abdullayeva ifasında "Ana laylası" mahnısı dinlənilir. Şagirdlərə mahnını bəyəndinizmi? Ana kəlməsi sizə nələri ifadə edir? "Ana vətən", "ana dili" və s ifadələrini necə anlayırsınız? Övlad və ana münasibətləri necə olmalıdı? Müəllim lövhədə bugünkü mövzunun adını qeyd edir. Əli Kərim "Qaytar ana borcunu" məzmunu üzərində iş.

Müəllim söz assosiasiyaları metodundan istifadə edərək, şagirdlərdə mövzu ilə bağlı bütün fikirləri toplaya bilər. Bunun üçün bu metod əlverişlidir. Müəllim məzmunla bağlı lövhəyə ana borcu, övlad, vəfasız ifadələrini yazır və şagirdlərə bu sözlərin onlarda yaratdığı assosiasiyaları, yəni bu sözləri gördükdə ağıllarına gələn uyğun fikirləri səsləndirmələrini istəyir. Şagirdlərin cavablarından sonra tədqiqat sualları "Qaytar ana borcunu" şeirinin məzmununda nədən söhbət gedə bilər? Şeirdə ana və övlad münasibətləri necədir? ünvanlanılır. Onların hər birinin fərziyyələri dinlənilir və uyğun fikirlər lövhədə yazılır.

**Tədqiqatın aparılması** mərhələsində şagirdlərə şeirin düzgün ifadəli oxusunu bilmələri üçün Ağalar Bayramovun ifasında "Qaytar ana borcunu" şeiri dinlənilir. Şeir səsləndikdən sonra şagirdləri qruplara bölürük və mövzuya dair hər qrup öz adını seçir. Hər qrupdan bir nəfərə şeirin bir hissəsinin ifadəli oxumasını, qəliz, anlaşılmayan sözlərin seçilib, kənara yazılmasını və lüğətdən istifadə edərək, sözlərin izahının tapılması tapşırılır. Şagirdlərin ifasında, məntiqi vurğu, durğu işarələrin düzgün işlənilməsinə, orfoepik qaydalara riayət olunmasına diqqət olunmalıdır.

Şeirin ifadəli oxusuna başlanılır. Şeir parçasının məzmununu öyrənmək üçün hər misraya aid suallar təqdim olunur. Bu hissəyə kimi nə anladınız? Ananın davanın dərdinə, bəlasına dözərək, öz boğazından kəsib, oğlunu böyütməsi fikri nəyə əsaslanır? Şair burada hansı davadan söhbət açır? Şagirdlər öz fikirlərini səsləndirir və ifadəli oxuya digər qrup üzvləri öz münasibətlərini bildirir.

Bu hissədə şagirdlərə bəd, şivən, gensinə sözlərin izahı verilir. Müharibə vaxtında ərinin öldüyünü, bunu gizlədərək, oğlunu o zamankı acınacaqlı şəraitdə əzab-əziyyətlə böyütdüyünü və hər dərdə susaraq, oğlu ilə təsəlli alan ana obrazını görürük. Şagirdlərə ana hissi necə duyğudur? Sizin ananızla münasibətiniz necədir? Onun sizi hansı əziyyətlərlə böyütdüyünü bilirsinizmi? Bu tip suallar verərək, həm əsərin məzmunu daha aydın olur, həm də onlara analıq hissinin necə ülvi və müqəddəs olduğunu, analarımızın bizim üçün çəkdiyi əziyyəti xatırlatmış olarıq. Burada olan təsvir və ifadə vasitələri "kədəri dalğa-dalğa doldusa da ürəyə", "öz boğazından kəsib", "bəd gün" ifadələri məcazi mənada işlənmişdir. Bu parçada məzmun aydınlaşır.

Şagirdlərə ikihissəli gündəlik metodundan istifadə etmələri məsləhət görülür. Burada onlar bir cədvəl qururlar və şeirdə diqqətlərini cəlb edən, mənasını anlamadığı misranı yazırlar. Şagird gündəlikdə məzmuna uyğun olan hər hansı bir əhvalatı və yaxud öz fikrini, xoşuna gəldiyi misranı yazıb və bunun səbəbini qeyd edir. Bilmədiyi hissələri isə müəllimdən soruşub, əlavə edir. Beləliklə, bu gündəlik onlarda həm şeirin məzmununu öyrənməyə, həm də öz düşüncələrini yazmağa kömək edir. Bu tapşırıq şeirin sonuna kimi davam edir və sonda şagird məzmunu anladıqdan sonra qeydlərini zənginləşdirə bilir.

Şeirin ikinci parçasının oxusu təşkil olunur. Bu parçada "Ananın oğlu nəyə görə ona məktub yazmır", ""Məktublar tətil oldu" fikrini necə anlayırsınız?" "Ana nəyə görə dənizi, tramvayı günahkar bilirdi?" sualları ilə hər misranın mətnaltı mənalarını açırıq. Ananın min bir əzabla böyütdüyü oğlu oxumağa gedir və ana isə oğlundan xəbər tuta bilmədiyindən əzablar içində qalır və ona heç nə təsəlli vermir. Ana yenə öz oğlunu günahlandırmır, günahı yollarda, nəqliyyatlarda görür. "Məktublar kəsildi", "ananı fikir aldı", "ana müqəssir etdi dənizi, tramvayı", "məktublar bezdi gəldi", "məktub dalınca axdı", "Bakıya axdı" müəllif ifadələri məcazi mənalarda işlədərək, şeirin təsir gücünü artırmışdır. Məzmunu öyrənmək üçün bu vasitələri bir-bir izah etmək lazımdı. Müqəssir, yanıltma, dolama sözlərin izahı soruşulur, nisbətən anlaşılmayan sözlərin izahı verilir ki, hər sözün mənasını bilmək məzmunu tam anlamaqda yardımçı olur.

Üçüncü hissənin oxusu təşkil olunur. Şagirdin ifadəli oxusuna diqqət olunur və digər şagirdlərin oxuya münasibətləri, irad və təklifləri soruşulur. Üçüncü hissə ilə əlaqəli suallar təqdim olunur. Ana oğlundan küsürmü? Oğlu nəyə görə ananı unudur və onun haqqını vermir? Övlad ananın haqqını ödəyə bilərmi? Siz öz ananızı unudarsınızmı? Şeir sizə hansı təsirləri bağışladı? Bu suallar ilə şagirdlərin həm məzmunla bağlı düşüncələrini, həm də öz analarına olan hisslərini, aralarındakı münasibəti öyrənmiş oluruq.

Rollu oyun metodundan istifadə edərək, şagirdlər özlərinə bir obraz seçir, ananın oğluna münasibətini bildirirlər. Şagirdlərdən biri ata rolunu oynayaraq, öz fikirlərini ata obrazı kimi səsləndirir. Hər şagird istədiyi bir obrazı seçə bilir və öz hisslərini ifadə edir.

I qrup – Şeirin məzmununa uyğun olaraq, öz xəyalınızda fədakar ana və nankor övlad obrazı yaradın və anaya dair atalar sözləri yazın.

II qrup – Şeirin məzmununu nağıl edin və öz düşüncələrinizi bildirin.

III qrup – Şeirin bədii təsvir və ifadə vasitələrini, qəliz sözlərin izahını verin.

IV qrup – Bu şeirin məzmunu sizə hansı təsirlər bağışladı və siz nə öyrənmiş oldunuz?

V qrup – Şeirin düzgün ifadəli oxusunu təşkil edin.

Qruplara vaxt təyin edirik və qruplar tapşırıqları hazırladıqdan sonra hər biri sualları təqdim edir. Rəqib qruplar suallara öz fikirlərini bildirir və sonda ümumiləşdirmələr aparılır. Qrup liderləri təqdimatlarını təqdim etdikdən sonra onlar ana və oğul obrazını əsərin məzmununa uyğun səhnələşdirirlər. Bununla onlar əsərin məzmununu aydın şəkildə dərk edirlər. Şeirin ifadəli oxusuna müəllim və şagirdlər öz fikirlərini bildirir, sonda qruplar dəyərləndirilir.

Ana və övlad münasibətləri tam şəkildə şeirdə öz əksini tapmış olur. Ana bizim həyatda ən əziz, dəyərli varlığımızdır. Ana sözünün mənası o qədər dərindir ki, bizim üçün dəyərli, müqəddəs olan digər bütün varlıqların başında

da ana kəlməsini səsləndiririk. Şagirdlərin ikihissəli gündəlik metodundan istifadə edərək, yazdığı cədvəl yoxlanılır və düşüncələr səslənilir. Şagirdlərlə birlikdə məzmun haqqında ümumi nəticələrə gəlinir və tədqiqat suallarının cavabları uyğunlaşdırılır.

**Yaradıcı tətbiqetmə** mərhələsində şagirdlərə bu əsərin məzmununa uyğun bir hekayə yazıb, səhnələşdirmələri tapşırılır.

**Qiymətləndirilmə** aparılır və evdə şeirin ifadəli oxusuna hazırlaşmaq və bir parçasını öyrənmək tapşırılır.

"Qaytar ana borcunu" şeiri ədəbiyyatımızda verilmiş ana mövzusu haqqında olan mükəmməl əsərlərdən biridir. Qısa olsa da məzmunca çox zəngin olan şeirdə şagirdlər üçün tərbiyəvi məqamlar olduqca çoxluq təşkil edir. Şagirdlər anaya hörmət, məhəbbət hissini, onun bizlər üçün çəkdiyi əzabı, yolumuzda saçlarını ağartdığını, onlara olan borcumuzun sonsuz olduğunu öyrənir. Ana haqqını və borcunu qaytarmaq üçün hər birimizin üzərinə düşən maddi və mənəvi məsuliyyət hissinin olduğunu anlayırlar. Əlbəttə, onlara bu borcun az bir qismini ödəyə bilərik. Amma onların hər an yanlarında olmağa çalışmalı və övlad vəzifəsini yerinə yetirməli olduqlarını dərk edirlər. Oğullar və qızlar hara getmələrindən asılı olmayaraq, analarını unutmamağı, ümumən valideynlərinin dəyərini hər zaman bilmələrini öyrənirlər. Onlar bilirlər ki, həyatda gözəllikdən, elm və təhsildən də öncə yaxşı bir övlad olmaq lazımdır. Bəzən bir mənfi xüsusiyyət insanın yaxşılarını silə bilir. Standartlarda və təlim nəticələrində göstərildiyi kimi şagirdlər şeirin düzgün ifadəli oxusunu, istifadə edilmiş bədii təsvir və ifadə vasitələrini öyrənir. Şeirdə qarşılaşdığı sözlərin izahı aydınlaşır və o sözlərdən nitqlərində istifadə edirlər.

***Ədəbiyyat***

1. *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.*
2. *Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı, 2013.*
3. *Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı, 1992.*
4. *Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərslik- Bakı, Nəşriyyatı 2021*
5. *Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.*
6. *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2010.*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ İLƏ APARILAN VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ İŞİNİN MÖVCUD VƏZİYYƏTİ

**L.Sadıqova**
**BDU-un Qazax filialı**
*leylateymurova959@gmail.com*

***Xülasə***

*Beləliklə, Azərbaycanda son onillikdə təhsilin inkişafı üçün aparılan islahatlara, verilən qərarlara, aparılan tədbirlərə qısaca nəzər saldıq və mövcud vəziyyətlə tanış olduq.ibtidai siniflərdə vətəndaşlıq tərbiyəsinin təşkilinin mövcud vəziyyəti ya məktəb rəhbərliyindən, ya da müəllimin şəxsi keyfiyyətlərindən asılı olaraq dəyişir.*

## ТЕКУЩЕЕ ПОЛОЖЕНИЕ ОБРАЗОВАТЕЛЬНОЙ РАБОТЫ С УЧАЩИХСЯ НАЧАЛЬНОЙ ШКОЛЫ

***Резюме***

*Таким образом, мы вкратце ознакомились с реформами, решениями и мерами, принятыми для развития образования в Азербайджане за последнее десятилетие, и ознакомились с текущей ситуацией. Текущее состояние гражданского образования в начальных классах варьируется в зависимости от школьной администрации или личных качеств учителя.*

***Açar sözlər:*** *vətəndaşlıq tərbiyəsi, vətəndaş cəmiyyəti, , şagirdlərdə vətəndaşlıq tərbiyəsi*

***Ключевые слова:*** *гражданское образование, гражданское общество, гражданское образование студентов*

Bildiyimiz kimi tərbiyə pedaqogikanın əsasını təşkil edir. Qədim dövrlərdən bu günümüzə kimi tərbiyə məsələsinə müxtəlif növ yanaşmalar mövcud olmuşdur. Lakin bu da danılmaz bir faktdır ki, insan cəmiyyətinin yarandığı andan etibarən tərbiyə məvhumu da mövcud olmuşdur. İnsan cəmiyyətinin formalaşıb inkişaf etməsi ilə əlaqədar olaraq tərbiyənin müxtəlif növləri də yaranmışdır. Müasir dövrümüz üçün tərbiyənin ən mühüm növlərindən biri vətəndaşlıq tərbiyəsidir.

Müasir dövrümüzdə aparılan araşdırmalardada vətəndaşlıq anlamının nə olduğu hər zaman müzakirə olunmaqla birlikdə, xüsusilə qloballaşan dünyada vətəndaşlıq anlayışının məzmununun zəiflədiyi və anlamını itirdiyi də irəli sürülməkdədir. Lakin cəmiyyətdəki, hətta qlobal problemlər ilə başa çıxa bilmək üçün aktiv və məsuliyyətli vətəndaşlığın önəmi böyükdür. Bu səbəblə in-

kişaf etmiş ölkələrdə xüsusilə gənclərin fəal, ünsiyyətcil, qabiliyyətli vətəndaş olmaqları üçün bilik və bacarıqlarının inkişaf etdirilməsi ilə dəyərlərinin yönləndirilməsi ilə əlaqədar səylərinin artdığı müşahidə edilməkdədir.

Vətəndaşlıq ən sadə formada dövlətin birtərəfli iradəsiylə qanunlarını və hökmlərini müəyyənləşdirdiyi bir hüquqi mövqeyi gərçəkləşdirən, insanlarla arasında qurduğu əlaqə olaraq ifadə olunmaqdadır. Digər tərəfdən vətəndaşlıq milliyyət, yurddaşlıq anlayışları ilə ifadə edilmək istənilən bir şəxsi dövlətə bağlayan hüquqi bağ şəklində ifadə olunmaqdadır.

Bəzi yanaşmalarda vətəndaşlıq yalnızca milliyət hüququ ilə əlaqəli bir anlayış olmaqdan çox sosioloji bir anlayış olaraq nəzərdə tutulur. Ancaq bu anlayışlardan əlavə olaraq da ayrıca olaraq vətəndaşlıq dövlətin şəxslərə yüklədiyi vəzifələr və təqdim etdiyi haqlarla hüquqi bir statusa sahib olmaqla bərabər, yaşadığı cəmiyyətin dəyərlərini mənimsəyərək həyatına davam edən və bu cəmiyyətin mədəniyyətinə uyğunlaşan bir cəmiyyətin ideal üzvü olmaq məqsədidir. [Ankara sağlık bilimleri dergisi, səh.3]

Vətəndaşlıq tərbiyəsi məsələsi ailədən başlansa da ən mühüm inkişaf mərhələsi məktəblərdə davam etdirilir. Buna görə də ümumtəhsil məktəblərinin bütün sinifləri üzrə şagirdlərdə vətəndaşlıq tərbiyəsinin aşılanmasına xüsusi əhəmiyyət verilir. Bunun təməli də ibtidai siniflərdə qoyulur. Müasir çağımızda təhsilin qarşısına qoyulan fəal vətəndaş yetişdirmək vəzifəsi də məhz sistemli və ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində gerçəkləşdirilir. Vətənpərvərlik hissi insanda anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə ehtiyacı var və tərbiyə yolu ilə daha da möhkəmlənər. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğu üçün böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi hər zaman təlim-tərbiyə işinin ən əsas istiqamətlərindən, məktəbin ən mühüm vəzifələrindən biri olmuşdur.

XX əsrin 90-cı illərindən etibarən dünya üzrə sistemli təhsilin vasitəsilə insan hüquqları, demokratiya, vətəndaş hazırlığı məsələlərinin öyrədilməsinin gündəmə gəlməsi müşahidə olunur. İlk öncə təhsildə bu hüquq, insan hüquqları, qanunçuluq, demokratiya, humanitar hüquq mövzularının əks olunması şəklində ortaya çıxmışdır. Daha sonralar bu anlayışlar vətəndaş təhsili məvhumunun yaranmasına gətirib çıxarmış oldu. Beləliklə dünyanın bir çox ölkəsində “vətəndaşşünaslıq” adlı dərsliklər, proqramlar, vəsaitlər nəşr olunmağa başladı.

Bir çox dünya ölkələrində eləcə də Azərbaycanda vətəndaş təhsilinin genişləndirilməsi üçün müəyyən tədbirlər planı hazırlanır və tətbiq olunur. Bu ölkələr arasında ABŞ xüsusilə seçilir. Belə ki, burada Milli vətəndaş təhsili mərkəzi fəaliyyət göstərir və bu istiqamətdə bir çox layihələr hazırlayıb təqdim edir. Amerikada vətəndaş təhsili milli təhsilin əsasını təşkil etməkdədir. Bu iş üç istiqamətdə aparılır: şagirdlər, tələbələr və yaşlı insanlar üçün. Digər qolu isə müəllimləri vətəndaş təhsilinin tədrisinə yiyələndirməkdir.

Müasir dövrümüzdə məktəbin yeni mənzərəsi ortaya çıxmaqdadır. Onun fəaliyyətinin istiqamətlərində şəxsiyyətin əsas göstəricisi kimi dəyərlərin formalaşdırılmağı durur. Son dövrlərdə ümumi təhsil məktəbləriylə əlaqəli araşdırmalarda belə nəticəyə gəlinib. Bildirilir ki, qlobal dünyada informasiyanın bolluğu səbəbiylə məktəbin, təhsilin vəzifələri dəyişib. Ağıl və intellektin inkişaf etdirilməsi ön plana çəkilib. Dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, bacarıqlar şəxsiyyətin inkişafında mühüm göstəricilər olaraq dəyərləndirilir və bugünki təhsildə keyfiyyətin göstəricisi kimi qəbul edilir.

Ümumtəhsil sistemində "yaddaş" məktəbindən "təfəkkür" məktəbinə keçilməsi stratejik məqsəd kimi göstərilir. İdrak, təfəkkür məktəbinin yaradılmağı da çağdaş dünyanın inkişafı tendensiyasından qaynaqlanan bir problem kimi öz həllini gözləyir. Xüsusən bu məsələdə məsuliyyətin ümumi təhsilin üzərinə qoyulması, birbaşa təhsilin şəxsiyyət formalaşdırılmasındakı əhəmiyyətini bir də əsaslandırır. [Azerbaycan mektebi s.12]

Bu məqsədlərdən biri də insan kapitalının inkişafi və uğurlu sosial müdafiə sisteminin yaradılmsaı hesab edilir ki, bunun da təmininin strateji yollarından birisi çağdaş təhsil sisteminin yaradılmasıdır. Bu sənəddə ümumtəhsilin bütün pillələri və səviyyələrində onun prioritet məsələləriylə bağlı dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Ölkəmizdə təhsilin yeni məzmuna keçidlə əlaqədar yeni resursların yaradılma zərurətini də meydana çıxarmışdır. Modern şəraitdə yaradıcı fəaliyyətlər göstərən məktəblərin və müəllimlərin ehtiyaclarına və tələblərinə müvafiq resursların yaradılmasında bunun variantlılığının gözlənməsi təlimin təşkilində obyektivliyin təmini baxımından əhəmiyyətli hesab olunur. Məktəb mühitinə uyğun şagirdlərin yaşı və psixoloji vəziyyəti nəzərə alınaraq bu cür resursların hazırlanmasının öhdəliyi məktəb və onun müəllimlərinin üzərinə düşür. Ümumiyyətlə, nəticəyönümlü təhsil şəraitində müəyyən olunan standartlara və yerli şəraitə müvafiq olaraq fəaliyyətlərini təşkil eləmək bugünkü məktəbin vəzifələrindən biri hesab olunur. Çağdaşlıq müstəvisində ümumi təhsilin fəaliyyət imkanları genişdir.

2018-2019-cu tədris illərində əldə edilmiş ən əhəmiyyətli nailiyyətlərdən biri təhsil qanunvericiliyinin tam şəkildə yenilənməsi ilə əlaqədar olmuşdur. Təhsil Nazirliyinin Milli Məclislə birlikdə gerçəkləşdirdiyi bu təşəbbüslər təhsil islahatlarının daha çevik aparılmasına, təhsil sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına səmərəli şərait yaratmışdır. Belə ki, "Təhsil haqqında" qanuna 62 dəyişikliyi özündə əks etdirən təkliflər paketi və "Peşə təhsili haqqında" qanun qəbul olunmuşdur. Dəyişikliklər təhsilin bütün səviyyələrini və pillələrini əhatə etmişdir.

Təhsilin inkişafı dedikdə müəllimlərin də diqqət mərkəzində olmaları qaçılmaz faktdır. Məlumdur ki, təhsilalanların savadlı və bacarıqlı şəxsiyyət

olaraq formalaşması müəllimlərin akademik bacarıqlarından, təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Müəllimlərin bu keyfıyyətləri ilə təhsilalanların nailiyyətləri arasında qarşılıqlı əlaqə mövcuddur. Buna görə də son zamanlarda müəllimin nüfuzunun, peşəkarlıq qabiliyyətinin artırılması, istedadlı şəxslərin müəllim peşəsinə cəlb olunması istiqamətində mühüm işlər görülmüşdür.

Təhsilin ayrılmaz parçası sayılan dərsliklər də hər zaman diqqət mərkəzində olmuşdur və onun tərtibatında müasir dövrün tələbləri nəzərə alınmışdır. Təhsilin inkişafı üçün həyata keçirilən kompleks tədbirlər arasında dərsliklərin hazırlanması xüsusi yer tutur. Belə ki, dərsliklərinhazırlanmasında yeni reqlament və prosedurlar tətbiq edilmişdir. Bu dərsliklərin nəşr olunması üçün Dərslikləri Qiymətləndirmə şurası, Dövlət İmtahan Şurası, AMEA-nın müvafiq institutları təhlillər və müzakirələr apararaq birlikdə qərar verirlər.

Dərslik hazırlığı sahəsindəki yenilik ondan ibarətdir ki, Təhsil İnstitutu nəzdində Tədris Resursları Mərkəzi yaradılıb və yeni məzmun konsepsiyası əsasında ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklərin hazırlanmasına başlanılmışdır. İlkin mərhələdə I siniflər üçün Ana dili və riyaziyyat dərslikləri hazırlanmışdır və hazırda 100-dən çox məktəbdə sınaqdan keçirilməkdədir. Növbəti addım həmin dərsliklərin pilot tətbiqi və II siniflər üçün dərsliklərin hazırlanması olacaqdır.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, təhsilin inkişafı üzrə Dövlət Strategiyasında nəzərdə tutulmuş hədəflər baxımından təhsil sistemi qarşısında bir sıra vəzifələr də durur. Həmin vəzifələr dövlətimiz üçün layiqli vətəndaşlar yetişdirmək üçün icra olunur və zamanın tələbinə uyğunlaşdırılır.

Təcrübələr göstərir ki, elmi-texnoloji tərəqqi, innovasiya və modernləşmə nəticəsində praktik bilik və bacarıqları olmayan ancaq nəzəri xarakter ehtiva edən təhsil öz fundamental əhəmiyyətini itirmək üzrədir. Buna görə də təhsilin məzmununun formalaşması üçün akademik biliklərlə birlikdə, praktiki bacarıqlar və səriştənin zəruriliyi önə çəkilməlidir. Təhsilin mahiyyəti texnoloji yenilikləri diqqətə almaqla inkişaf etdirilməli, ümumtəhsil səviyyəsində şəxsiyyətin hərtərəfli yetişdirilməsi prioritet olmalı, orta ixtisas və ali təhsil, peşə təhsilində əmək bazarının hazırki və gələcəkdəki tələbləri əsas hesab olunmalıdır.

Gələcəkdəki tələbatlara uyğun olması və innovativ inkişafın təmin olunması baxımından təhsilin məzmununun müasirləşməsi vacib prioritetlərdəndir. Beləliklə, bu mövqedən çıxış etməklə uşaqların erkən yaşından inkişafının əlverişli təhsil modelinə əsaslanmış məktəbəqədər təhsilin standart və kurikulumları, cəmiyyətin tələblərinə müvafiq bacarıq əsaslı ümumtəhsil, peşə və orta ixtisas təhsili standartları və kurikulumları, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsini dəstəkləyən və rəqabətqabiliyyətli kadr hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi ilə bağlı işlər davam etdirilməkdədir.

Məktəblərdə mənəvi-psixoloji şəraitin yaxşılaşdırılması, tərbiyə işinin uğurlu təşkili, məktəb-ailə əlaqələrinin doğru şəkildə qurulması ən əsas iş istiqamətlərindən biridir. Müasir dövrümüzdə şagirdlərin zərərli informasiyalar əldə etməsinin asanlaşması təhsil sisteminin qarşısında əsaslı çağırışlar yaradır. Bununla əlaqədar təhsil sahəsindəki rəhbər şəxslərin və müəllimlərin ailələr ilə sıx əməkdaşlığı xeyli zəruridir. Bu məqsədlə “Məktəblinin dostu” layihəsi tətbiq edilmiş və səmərəliliyinin artırılması üçün daha çox məktəbi əhatə etməsinə imkan yaradılmışdır. Burada əsas məqsəd şagirdlərin psixoloji vəziyyətinə diqqət etmək, onlarla dost şəklində söhbətlər və varsa problemlərinin həlli üçün müəyyən addımların atılması, valideynlərlə əlaqəli şəkildə işlənməsi nəzərdə tutulmuşdur. (Ceyhun Bayramov. “Azərbaycan” qəzeti)

Beləliklə, Azərbaycanda son onillikdə təhsilin inkişafı üçün aparılan islahatlara, verilən qərarlara, aparılan tədbirlərə qısaca nəzər saldıq və mövcud vəziyyətlə tanış olduq. Aydın oldu ki, təhsilin məzmunu müasir dövrün tələblərinə uyğun şəkildə dəyişdirilir və inkişaf etdirilir. Bu tədbirlərin, layihələrin həyata keçirilməsində dünya təcrübəsindən də yararlanılır. Məlum oldu ki, görülən tədbirlər sadəcə elmi-texniki məsələləri deyil, həmçinin mənəvi tərəfləri də əhatə edir. Belə ki, bir çox tədbirlərin həyata keçirilməsində məqsəd vətəndaş cəmiyyətinə uyğun bilikli və bacarıqlı şəxsiyyətlərin yetişdirilməsidir. İndi isə bütün bu dəyişikliyin, inkişafın fonunda Azərbaycan məktəblərində və xüsusən ibtidai siniflərdə aparılan vətəndaşlıq tərbiyəsi işinin mövcud vəziyyətinə nəzər salaq.

Azərbaycanın ümumtəhsil məktəblərində tədris olunan fənlər, dərsliklər və proqrama salınan mövzular vasitəsilə şagirdlərdə vətəndaşlıq mövqeyinin formalaşdırılması işi aparılmaqdadır. Yuxarı siniflərdə əsasən Azərbaycan dili, ədəbiyyat, tarix, coğrafiya, gənclərin çağırışaqədərki hazırlığı və sair fənlər vasitəsilə vətəndaşlıq tərbiyəsinin aşılanması işi həyata keçirilir. Bəzi mütəxəssislərin fikrincə, gənclərin çağırışaqədərki hazırlığı fənni bu işin həyata keçirilməsində olduqca böyük əhəmiyyətə malikdir.

İbtidai siniflərdə vətəndaşlıq tərbiyəsinin təşkili üçün bir çox vasitələr vardır. Bunun üçün dərsliklərdə verilmiş mövzular və məktəbdaxili keçirilən bəzi tədbirlər xüsusi rola malikdir. Hazırda bir neçə məktəbdə vətəndaşlıq tərbiyəsinin təşkilinin mövcud vəziyyətini öyrənmək üçün bəzi müşahidələr aparmışıq. Bu müşahidlərədən belə qənaətə gəlirik ki, ümumilikdə vətəndaşlıq tərbiyəsi işi xüsusi əhəmiyyət kəsb etsə də bəzi məktəblərdə bu işə ayrıca yer verilsə də, bəzilərində o qədər də əhəmiyyət verilmir. Burdan da belə nəticəyə gəlirik ki, ibtidai siniflərdə vətəndaşlıq tərbiyəsinin təşkilinin mövcud vəziyyəti ya məktəb rəhbərliyindən, ya da müəllimin şəxsi keyfiyyətlərindən asılı olaraq dəyişir.

## "Magistrant" dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün

# TƏLƏBLƏR

- "MAGİSTRANT" dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **a_zamanov@mail.ru (müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərimməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 22.11.2021*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 33*
*Sifariş 452, sayı 100*

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*